AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN BEYNƏLXALQ UNİVERSİTETİ

**MAHİR ABDULLAYEV**

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ

***(XX əsr)***

***DƏRSLİK***

BAKI - «Təhsil» - ABU - 2003

Redaktorlar - Musa Qasımlı - tarix elmləri doktoru, proRssor;
- Məmmədağa Baxışov - tarix elmləri namizədi, dosent

Rəyçilər: - Ağalar Abbasbəyli - tarix elmləri doktoru, professor, BDU-nun Beynəlxalq münasibətlər kafedrasının müdiri;
- İsgəndər Quliyev - millət vəkili, tarix elmləri namizədi, Azərbayean Beynəlxalq Universitetinin «Beynəlxalq hüquq» fakültəsinin dekanı;
- Pərviz Səfərov - tarix elmləri namizədi, Azərbaycan Beynəlxalq Universitetinin Tarix kafedrasının dosenti;

Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi (XX əsr). Dərs vəsaiti. - Bakı, ABU-nun «Beynəlxalq Universitet» nəşriyyat və poliqrafiya mərkəzi, «Təhsil» EİM, 2003. — 540s.

Kitab ali məktəb tələbələri üçün dərs vəsaiti olaraq nəzərdə tutulmuşdur. Vəsaitdə 1900-2000-ci illərdə beynəlxalq münasibətlər tarixinin əsas problemləri, beynəlxalq həyalda baş verən mühüm hadisələr izah edilir. Tədris proqramına uyğun olaraq yazılmış kitab təkcə ali məktəb tələbələri və müəllimləri üçün deyil, eyni zamanda geniş oxucu kütləsi üçün nəzərdə tullmuşdur.

M-001021
A —..........— -2003, qrifli nəşr
700122

**' «Təhsil» EİM, «Beynəlxalq Universitet» nəşriyyat və poliqrafiya**

# I BOLUM

## 1898-1914 -cü illərdə beynəlxalq münasibətlər

XIX əsrin sonu - XX əsrin əvvəllərində beynəlxalq münasibətlər maliyyə və sənaye inhisarlarının dünyanı xammal və bazarlar cəhətdən bölmək uğrunda mübarizəsi ilə səciyyələnir.

Böyük dövlətlərin iqtisadi və siyasi cəhətdən bərabər olmayan inkişafı onların arasında qüvvələr nisbətini pozdu. Nəticədə ayrı-ayrı dövlətlər və dövlətlər qrupu arasında dünyanı müstəmləkələrə, bazarlara və nüfuz dairələrinə bölmək uğıoında ziddi)^ətlər daha da kəskinləşdi. Belə şəraitdə dövlətlər sürətlə silahlanmaya və məqsədlərini silah gücünə həyata keçirməyə üstünlük verməyə başladılar. XX əsrdə beynəlxalq münasibətlərin inkişafı üçün səciyyəvi olan cəhətlərin başlanğıcını XIX əsrin sonunda baş verən İspaniya-Amerika müharibəsi qoydu.

### İ spaniya-Amerika müharibəsi(1898-ci il)

XIX əsrin sonları dünya siyasətində ABŞ-ın rolunun artması ilə səciyyələnir. Bu dövrdə ABŞ-ın xarici siyasət fəaliyyəti əsasən, iki istiqamətdə quruldu: 1. Uzaq Şərq. 2. Latın Amerikası.

ABŞ 1893-cü ildə Sakit okeandakı Havay adalarını ələ keçirtdi. Həmin adalar Birləşmiş Ştatların bu rayonda əsas dayaq məntəqəsinə çevrildi.ı Bundan sonra ABŞ -ın qərb sahillərindən Çinə qədər olan ■ ərazidə xarici siyasət məqsədlərini reallaşdırmaq asanlaşdı.

ABŞ 1898-ci ildə İspaniyaya qarşı müharibəyə başladı. Müharibədə ABŞ qələbə çaldı. Məğlubiyyətə uğrayan İspaniya Filippin adalarını, Puerto-Rikonu və Kubanı ABŞ -a verməyə məcbur oldu. İspaniya-Amerika müharibəsi müstəmləkələr uğmnda iki böyük dövlətin, eyni zamanda dünyanı bölüşdürmək Liğmnda müharibə idi,

***Mahir Abdullayev***

**“Açıq qapılar’ doktrinası**

XIX əsrin sonu - XX əsrin əvvəllərindən ABŞ-ın Uzaq Şərq siyasətində Çin mərkəzi yeri tutdu. Amerika diplomatiyası Çinə gələcəkdə kapital qoymaqda mühüm bazar kimi baxırdı. Lakin Çin artıq digər böyük dövlətlər tərəfindən bölüşdürülüb qurtardığından belə vəziyyət ABŞ-ı təmin edə bilməzdi. Amerika diplomatiyası Çini bölüşdürən dövlətlərlə diplomatik mübarizəyə başladı. 1899-cu ildə ABŞ dövlət katibi Aleksandr Heyq Çin barəsində öz dövlətinin siyasətini açıqladı. Bu siyasət «açıq qapılar» doktrinası adını aldı. Doktrinaya görə Çində bütün millətlərin kapitalının fəaliyyəti üçün bərabər imkanlar və bərabər şərtlər yaradılmalı, Çində azad iqtisadi fəaliyyət prinsipi gözlənilməli idi. Amerika diplomatiyasının bu addımının eiddi siyasi və iqtisadi səbəbləri var idi. İqtisadi cəhətdən güclənməkdə olan ABŞ özünün bütün rəqiblərini Çindən vurub çıxarmağa çalışırdı. ABŞ hökümətinin Çində əsas rəqibi Rusiya idi. Rusiyam Çindən sıxışdırmaqdan ötrü Amerika diplomatiyası ingilis diplomatiyası ilə birlikdə Yaponiyaya müttəfiq kimi baxırdı.

**Böyük dövlətlər arasında ziddiyyətlərin kəskinləşməsi** XIX əsrdə böyük dövlətlər arasında mövcud olan ziddiyyətlər yeni əsrdə nəinki aradan qalxmadı, əksinə daha da kəskinləşdi. Bu ziddiyyətlərə yeniləri əlavə olundu. Avropada ziddiyyətlər daha kəskin idi. Bu qitədə başlıca olaraq, Elzas və Lotaringiya məsələləri üstündə fransız-alman ziddiyyətləri hökm sürürdü. Lotaringiya dəmir filizi üstündə fransız ağır sənayesinə qarşı mübarizə aparan alman hakim dairələri işğal etdiyi ərazilərlə kifayətlənməyərək Fransada qalan Bric və Lonqvi hövzələrini ələ keçirməyə çalışırdılar. Almaniyaya qarşı mübarizə aparan Fransa Almaniyanın 1871-ci ildə işğal etdiyi torpaqları geri almaq istəyirdi.

İngilis-fransız ziddiyyətləri təkcə iki ölkə arasında ziddiyyət deyildi, bu, Almaniya ilə Fransa arasında Avropada hegemonluq uğranda barışmaz mübarizə idi.

Böyük dövlətlər arasında mübarizədə Rusiya-Almaniya və Rusiya-Avstriya-Macarıstan ziddiyyətləri başlıca yer tuturdu. Bu ziddiyyətlər beynəlxalq münasibətlərə ciddi təsir edirdi.

Eyni zamanda ingilis-rus və ingilis-fransız ziddiyyətləri də mövcud idi. Lakin XX əsrin əvvəllərindən başlayaraq bu ziddiyyətlər özlərinin .əvvəlki kəskinliyini itirdilər. Bunun əvəzində köhnə beynəlxalq ziddiyyətlərə yeniləri, xüsusən ingilis-alman ziddiyyəti əlavə olundu. Eyni zamanda ABŞ və Yaponiya arasında da ziddiyyətlər kəskinləşdi.

1873-cü il iqtisadi böhranımdan sonra İngiltərə alman ticarət rəqabətinin güclənməsini qəbul edə bilmirdi. Bununla birlikdə Almaniya imperiyasının güclənməsi İngiltərəni təhlükəyə saldı. Sonrakı on ildə ingilis-alman ziddiyyətlərini kəskinləşdirən amillər sırasma müstəmləkələr uğrunda mübarizə də əlavə olundu. Müstəmləkələr uğrunda mübarizə beynəlxalq münasibətlərin səciyyəvi cəhətlərindən biri oldu. XIX əsrin 90- cı illərinin ortalarında geniş müstəmləkə imperiyası yaratmaq alman xarici siyasətinin əsas vəzifəsinə çevrildi. Bu dövrdən başlayaraq ingilis-alman ziddiyyətləri dünya siyasətində fövqəladə dərəcədə kəskinləşdi. Ziddiyyətlərin xüsusi ilə kəskin olması onun sənayecə inkişaf etmiş iki böyük dövlət arasında getməsi və yalnız azad əraziləri bölüşdürmək uğrunda mübarizə ilə deyil, eyni zamanda İngiltərənin və digər ölkələrin əvvəllər tutduğu ərazilərin bölüşdürülməsi uğrunda barışmaz mübarizə ilə bağlı idi. Gənc alman imperializmi dünyanm əsaslı şəkildə yenidən bölüşdürülməsini israr edirdi. Bu dövrə qədər münasibətləri nisbətən mehriban olan İngiltərə ilə Almaniya arasındakı ziddiyyətlərin mürəkkəbləşməsi 90-cı illərin ortalarında daha da kəskinləşdi. Artıq Almaniya hər yerdə mümkün vasitələrlə ingilis müstəmləkə siyasətinə mane olmağa çalışırdı. İki ölkə arasında kəskin rəqabət sahələrindən biri zəngin təbii sərvətləri olan Cənubi Afrika idi. Bu ərazidə və bur respublikalarında Almaniya İngiltərənin nüfuzuna qarşı mübarizəyə başladı.

İngiltərə ilə Almaniya arasında barışmaz ziddiyyət eyni zamanda Yaxın və Orta Şərqdə də gedirdi. 1898-ci ildə Almaniya imperatoru II Vilhelmin İstanbula səfəri zamanı

Osmanlı sultanı Bağdad dəmir yolunu alman kapitalistlərinə konsessiyaya verməyi vəd etdi. İngiltərə Almaniyanın Osmanlı dövlətinə nüfuz etməsinə Şərq ölkələrində özlərinin təsir dairələrinə zərbə kimi baxırdı.

Lakin 1898-ci ildə Almaniya güclü hərbi - dəniz donanması yaradılmasına girişdikdə İngiltərə özünü daha böyük təhlükə qarşısında hiss etdi. Nəhəng donanma yaratmağa başlayan Almaniya İngiltərənin hərbi-dəniz üstünlüyünə son qoymaq istəyirdi.

İngiltərənin Uzaq Şərqdə Rusiyaya qarşı mübarizə aparması, Afrikada isə Fransa ilə mövcud olan ziddiyyətləri onu Almaniya ilə münaqişədən uzaqlaşmağa sövq edirdi. İki böyük dövlətə qarşı mübarizə aparmaq İngiltərə üçün çox ağır idi. Lakin Rusiya Uzaq Şərqdə Port-Arturu işğal etdikdən sonra 1898-ci ilin martında İngiltərənin müstəmləkələr naziri Cozef Çemberlen Rusiyaya qarşı ingilis-alman ittifaqını yaratmaq haqqında təklif etdi. Bu dövrdə ingilis diplomatiyasının Almaniya ilə münasibətləri normallaşdırmağa can atmasının başqa bir səbəbi də İngiltərənin silahlı qüvvələrinin xeyli hissəsinin 1899-1902-ei illərdə bur respublikaları ilə aparılan müharibəyə cəlb edilməsi ilə bağlı idi. Bir neçə cəbhədə hərbi və diplomatik-siyasi mübarizə aparmaq İngiltərə üçün çətin olduğundan o, daha az zərərli variantlar axtarmağa başladı.

**1900-1904-cü illərdə XIX** əsrin sonu - **XX** əsrin **Uzaq Şərq məsələsi** başlanğıcında dünyada müstəmləkə zülmü əleyhinə kütləvi xalq hərəkatı başlandı. Belə üsyanlardan biri 1900-cü ildə Çində baş verdi. Üsyançılar Pekini tutaraq, xarici dövlətlərin səfirliklərinin yerləşdikləri məhəlləni mühasirəyə aldılar. Üsyanı yatırtmaqdan ötrü Çinə beynəlxalq qüvvələr göndərildi. Bu qüvvələrin tərkibində müxtəlif ölkələrin silahlı qüvvələri var idi 1900-cü il avqustun 15-də beynəlxalq qüvvələr Pekinə girdilər. Üsyan yatırıldı. Çin hökuməti xarici ölkələrin hökumətləri ilə danışıqlara başladı. Danışıqlar nəıicəsində 1901-ci ildə yekun protokolu imzalandı. Protokola görə, Çin bir sıra şərtləri yerinə

yetirməyə məcbur oldu; üsyan nəticəsində xaricilərə dəyən zərəri ödəməkdən ötrü Çin hökuməti təzminat verməli idi; ölkədə xaricdən silah gətirilməsi qadağan olundu və s.

Üsyanın yatırılmasından istifadə edən Rusiya orduları Mancuriyanın bir hissəsini, İngiltərə isə xarici kapitalın fəal mərkəzi hesab edilən Şanxayı işğal etdi. Şaiıxayın işğalı ilə kifayətlənməyən ingilislər Rusiyanı Mancuriyadan vurub çıxarmağa çalışırdılar. Bundan ötrü ingilis diplomatiyası Almaniyadan istifadə etmək niyyətində idi. Lakin Rusiyaya qarşı ingilis-alman ittifaqını yaratmaq cəhdləri uğursuzluqla nəticələndi. Bunun əvəzində isə ingilis diplomatiyası Koreya və Mancuriyanı özünə tabe etmək istəyən Yaponiyanı müttəfiqi kimi görməyə başladı. İngiltərə ilə Yaponiya arasında başlanan danışıqlar 1902-ci ildə müttəfiqlik haqqında müqavilənin bağlanması ilə başa çatdı. Müqaviləyə görə, tərəflərdən biri üçüncü dövlətlə mühaıibə vəziyyətində olardısa, digər dövlət bitərəfliyi gözləməli idi. Tərəflərdən biri başqa iki dövlətlə müharibə aparardısa, onda digər tərəf bitərəf olmamalı, müqavilə imzaladığı dövlətə hərbi yardım göstərməli idi. Müttəfiqlik haqqında müqavilə bağlandıqdan sonra İngiltərə Yaponiyaya maliyyə yardımı da etdi.

Yaponiyaya maliyyə və diplomatik yardımlar göstərən ölkələrdən biri də ABŞ idi. Yaponiyaya göstərilən bu yardımlar Uzaq Şərqdə onun fəallığını artırdı. 1904-cü ilin yanvarında Yaponiya Rusiya ilə müharibəyə başladı. Rus hərbi-dəniz donanması darmadağın edildi. Rusiya acınacaqlı məğlubiyyətə uğradı. Bu müharibədə Rusiyanın məğlubiyyətinin əsas səbəbləri çarizmin çürüklüyündə, iqtisadi, siyasi, hərbi, diplomatik və mənəvi cəhətdən müharibəyə hazır olmamasında idi. Rusiya 1905-ci ilin sentyabrında ABŞ-ın Portsmut şəhərində Yaponiya ilə sülh müqaviləsi imzalamağa mocbur oldu. Sülh müqaviləsinin şərtlərinə görə Rusiya Lyaodun yarımadasını, Port-Arturu, Cənubi Mancuriya dəmir yolunu, onunla birlikdə isə bütün Cənubi Mancuriyanı, Saxalin adasının cənub hissəsini Yaponiyaya verdi və Koreyada Yaponiyanın üstün nüfuzunu qəbul etdi. Beləliklə, Uzaq Şərqdə Rusiyanın nüfuzu xeyli aşağı düşdü.

*Mahir Abdullayev*

**Latın Amerikasında beynəlxalq mün;**

XX əsrin əvvəllərində Latın Amerikasında beynəlxalq münasibətlərin səciyyəvi cəhəti ABŞ-m bu regionda nüfuzunun artması və öz ətrafında region dövlətlərini birləşdirməsi cəhdləri ilə bağlı idi. ABŞ hökuməti bu illərdə həm Panama kanalının tikintisini, həm də açılışdan sonra onun üzərində nəzarəti əlində cəmləşdirdi. 1901-ci ildə ABŞ-la İngiltərə arasında kanalın tikilməsi qaydası və onun gələcək rejimi haqqında müqavilə imzalandı. Müqaviləyə görə, kanalı ABŞ hökuməti və ya onun istəyinə uyğun olaraq xüsusi şirkətlər tikə bilərdilər. Bundan başqa, müqavilə hələ 1850-ci ildə iki ölkə arasında imzalanmış Kleyton-Bulver müqaviləsində nəzərdə tutulan gələcək kanalın bitərəfləşdirilməsi haqqmda prinsipi təsdiq etdi. Panama kanalı bərabər hüquq əsasmda bütün millətlərin hərbi və ticarət gəmilərinin üzməsi üçün azad elan edildi. Kanal üzərində bitərəfliyə və azad gəmiçiliyə nəzarəti ABŞ təmin etməli idi. Bu məqsədlə ABŞ hökuməti kanal zonasında silahlı mühafizə dəstələri saxlaya bilərdi.

1902-ci ildə ABŞ hökuməti kanalın tikintisinə dair konsessiya hüququnu fransız şirkətindən satın aldı. 1903-cü ilin yanvarında ABŞ və Kolumbiya hökumətləri müvafiq müqavilə bağladılar. Müqaviləyə görə, Kolumbiya hökuməti öz ərazisində Sakit okeandan Atlantik okeana qədər ərazidən çəkilən zolağı 99 il müddətinə ABŞ hökumətinə icarəyə verməli idi. Lakin Kolumbiya konqresi bu müqaviləni rədd etdi. Belə olduqda AElŞ Kolumbiyaya təzyiqlər etdi. 1903-cü ilin noyabrında Birləşmiş Ştatların yardımı ilə Panama Respublikası yaradıldı. ABŞ yeni yaradılan bu dövləti dərhal tanıyaraq onunla münasibətlər qurdu. Regionda Kolumbiyanın nüfuzu xeyli aşağı düşdü. Kanalm tikintisi 1914-cü ildə qurtardı.

XX əsrin əvvəllərində ABŞ-m nüfuzu Karib dənizi hövzəsi ölkələrində genişləndi. ABŞ hökuməti bu ölkələrin iqtisadi, siyasi və hərbi inkişafından ötrü onlara kreditlər ayırdı. ABŞ-m bu siyasəti «dollar diplomatiyası» admı aldı.

Latın Amerikasında beynəlxalq münasibətlərin səciy-yəvi cəhətlərindən biri ABŞ və İngiltərə arasında bu regionda nüfuz dairəsi uğrunda kəskin mübarizə idi. ABŞ diplomatiyası İngiltərəni Latm Amerikasından vurub çıxartmaq və onun nüfuzunu sarsıtmaq istəyirdi. Almaniya ilə kəskin ziddiyyətləri olan İngiltərə isə ABŞ ilə münaqişədən qaçmağa can atırdı. İngilis diplomatiyası ABŞ-la ziddiyyətləri dinc yolla nizama salmağa çalışırdı. Belə şəraitdə ABŞ bazarlarında alman ticarət rəqabətinin artması Vaşinqtonu narahat etdiyindən o da İngiltərə ilə birbaşa münaqişədən qaçmağa, təhlükəli rəqib olan Almaniyanı sıxışdırmağa çalışırdı. ABŞ Almaniya və İngiltərəyə qarşı diplomatik mübarizədə Latm Amerikası ölkələrindən istifadə etmək istəyirdi.

■1902-ci ildə İngiltərənin xarici siyasətindəki çətinliklər aradan qaldırıldı. Almaniya ilə danışıqların uğursuzluqla nəticələnməsi ingilis diplomatiyasının qəti istiqamət götürməsinə təsir göstərdi. İngilis-yapon müqaviləsinin bağlanması ilə İngiltərə yaponların əli ilə Çində öz mənafelərini qorudu. Eyni zamanda 1902-ci ildə ingilis-bur müharibəsi başa çatdı. Bımdan sonra İngiltərə ilə Fransa arasmda müstəmləkə mübahisələrini tənzimləmək üçün danışıqlar başlandı. Gənc alman imperializminin iddiaları, müstəmləkələrdən İngiltərə və Fransanı vurub çıxartmaq, Avropada hegemon rol oynamaq istəkləri ingilis və fransız diplomatiyasını daha da yaxmiaşdırdı. Hər iki qocaman müstəmləkə dövləti qarşılıqlı Tazıhğa gəlməyi zəruri hesab etdilər. Almaniyanm müstəmləkə iddiaları İngiltərənin ardmca müstəmləkələrinin həcminə görə dünyada ikinci olan Fransa üçün de təhlükə törədirdi.

XX əsrin əvvəllərində beynəlxalq münasibətlərdəki mövcud şərait de Fransam İngiltərə ilə yaxınlaşmağa məcbur edirdi .^IX əsrin 90-cı illərinin sonunda Fransanın müttəfiqi olan Rusiyanın, hərbi qüvvələrinin və maliyyə vəsaitlərinin xeyli hissəsi Uzaq Şərqdə cəmlənmişdi. Burada Almaniya rus ekspansiyasına şərait

yaradırdı. Alman diplomatiyası rus ekspansiyasını genişləndirməyə imkan verərək, ondan Yaponiya, İngiltərə və ABŞ-a qarşı istifadə etməyə çalışırdı. Belə şəraitdə fransız diplomatiyası Rusiyanın diqqətini Uzaq Şərqdən ayırıb Avropaya cəlb etməyə çahşırdUi O, Avropada alman hegemonluğuna qarşı dura biləcək rus-fransız müttəfiqliyi yaratmaq istəyirdi. Fransanın İtaliya ilə yaxınlaşması fransız diplomatiyasının mövqelərinin möhkəmlənməsinə kömək etdi. 1898-ci ildə fransız-italiyan ticarət müqaviləsinin imzalanması ilə Fransa-İtaliya kömrük münaqişələrinə son qoyuldu^ 1900-cü ildə iqtisadi böhran zamanı İtaliya lazım olan krediti Paris birjasından aldı. İqtisadi cəhətdən yaxınlaşmanın ardınca .Fransa və İtaliya arasında iki mühüm siyasi saziş imzalandı. 1900-cü ildə imzalanmış birinci sazişə görə, Fransa Tripolitaniyada, İtaliya isə Mərakeşdə maraqları olmadıqlarını bildirdilər. Sazişdə deyilirdi ki, Fransa Mərakeşi tutardısa, İtaliya da Tripolitaniyanı tuta bilərdi. 1902-ci il sazişinə görə tərəflərdən biri başqa dövlət və ya dövlətlər qrupu tərəfindən təcavüzə məruz qalardısa, digər tərəf qəti şəkildə bitərəf olmalı idi^Eyni zamanda, tərəflərdən biri öz şərəfini və təhlükəsizliyini qorumaq məcburiyyətində qalıb müharibə elan edərdisə, digər tərəf yenə də bitərəf qalmalı idi.

Bununla belə, İtaliyanın bitərəfliyinin təmin edilməsi Fransanı tam qane etmirdi.; Fransa İngiltərə ilə yaxınlaşmağa can atırdı.;. Belə şərait ingilis-fransız danışıqlarının başlanması üçün imkanları artırırdı. ^Aparılan danışıqlar 1904-cü ilin aprelində İngiltərə ilə Fransa arasında əsas müstəmləkə məsələlərinə dair sazişin imzalanmasına gətirdi. Sazişə görə, Fransa İngiltərənin Misirdəki fəaliyyətlərinə mane olmamağı öhdəsinə götürürdü. Əslində fransız diplomatiyası on illər boyu iki ölkə arasında Misirdə davam edən ixtilaflardan İngiltərənin xeyrinə imtina edirdi. vBeləliklə, Fransa Misiri İngiltərənin nüfuz dairəsi kimi tanıyırdı. Buna cavab olaraq İngiltərə Mərakeşdə Fransanın hərəkətlərinə mane olmamağı öz üzərinə götürürdü. İmzalanmış məxfi .sazişdə göstərilirdi ki, Mərakeş sultanı öz hakimiyyətini həyara keçirə bilmədiyi təqdirdə Mərakeş ərazisinin Cəbəllütariq

boğazına qədərki zolağı İspaniyanın əlinə keçməli idi. Belə olduqda Mərakeşin bütün digər ərazilərini Fransa tutmalı idi,- İngilis hökuməti Cəbəllütariq boğazı sahilində güclü Fransanı deyil, zəif və İngiltərə üçün təhlükəsiz olan İspaniyanı görməyi əlverişli hesab edirdi.

**1905-1906-cı illərdə beyjıəlxalq böhran. BirinciMərakeş böhranı**

Fransanın Almaniya təcavüzündən çəkinməsi əbəs deyildi. tAlman hökuməti 1904-ci ilin sonunda rus hökuməti ilə ticarət müqaviləsi bağladı. Müqavilə daha çox Almaniyanın xeyrinə ;JBununla kifayətlənməyən Almaniya imperatoru II Vilhelm Rusiya çarı II Nikolayla Rusiya ilə Almaniya arasında ittifaq bağlamaq haqqında şəxsi danışıqlara başlad^ Belə bir müqavilənin bağlanması fransız-rus müüəllqliyinin sonu və Rusiyanın Fransaya qarşı istifadə olunması osmək idi. Lakin o vaxt Rusiya ilə ittifaq bağlamaq mümkün olmadı.^Yalnız 1905-ci ildə Finlandiyada Byörkö adası yaxınlığında görüş zamanı II Vilhelm və II Nikolay müttəfiqlik haqqında saziş bağladılan II Nikolay Sankt-Peterburqa qayıtdıqdan sonra nazirlərin tələbi ilə öz imzasından imtina etdi. çRus-alman müttəfiqliyi haqqında danışıqların uğursuz nəticələnməsi Fransa üçün olan təhlükəni aradan qaldırmadı. Çünki Yaponiya ilə müharibədə biabırcasına məğlub olan və xeyli dərəcədə zəifləyən Rusiya inqilab girdabına düşmüşdü. Belə şəraitdə Rusiyanın Fransaya yardım etməyə imkanı yox idip

Ona görə də alman diplomatiyası ingilis-fransız Antantasının əleyhinə çıxdı. Almaniya kansleri Bülöv Fransanı qorxutmaq, İngiltərə ilə əməkdaşlıqdan çəkindirmək və Mərakeşdə möhkəmlənməsinə imkan yerməmək istəyirdi. Bülöv Mərakeşin müstəqilliyini qorumaq adı ilə onu Almaniyanın təsiri altına salmağa çalışırdı. J905-Cİ il martü. 31-də II Vilhrlm Mərakeşin Tancer limanında etdiyi çıxışında Mərakeşin müstəqil olduğunu bildirdi. Eyni zamanda o, digər dövlətlərlə bərabər Almaniyanın da Mərakeşdə hüququnun olduğunu göstərdi^

(Bunun ardmca Almaniya hökuməti Mərakeşə dair beynəlxalq konfrans çağırmaq təklifini irəli sürdü. Alman diplomatiyası konfransdan istifadə edərək Mərakeşə dair ingilis-fransız sövdələşməsini ləğv etmək istəyirdi. Almaniyanın tələbini yerinə yetirmək istəmədikdə Fransa müharibə təhlükəsi ilə üzləşirdi^ İngilis hökümətì belə vəziyyətdə Fransaya hərbi yardım göstərməyə hazır olduğunu bildirdi. Bununla ingilis diplomatiyası hələ də İngiltərədən zəif olan alman hərbi-dəniz donanmasını Fransanın əli ilə ləğv etməyə çalışırdı.

(Fransanın xariei işlər naziri Delkasse alman təklifinin əleyhinə cavab vermək tərəfdarı idi. Laki^ Nazirlər Şurasının sədri Ruvye və ı^respublikanın prezidenti Lube onunla razılaşmadılar. Nəticədə Delkasse istefaya getdi) Ruvye isə Mərakeş məsələsinə dair Almaniya ilə danışıqlara başladı. Fransa Mərakeş haqqında məsələnin beynəlxalq konfransda müzakirə edilməsinə razı oldu.

(Mərakeş məsələsinə dair beynəlxalq konfrans 1906-cı ilin əvvəlində İspaniyanın Əlhəsiras şəhərində toplandi;> Mərakeş məsələsinə dair konfransın çağırılması faktı alman diplomatiyasının qələbəsi olsa da, ingilis - fransız diplomatiyasının məğlubiyyəti demək deyildi. ıJConfransda Almaniya təcrid olunmuş vəziyyətə düşdü^ İngiltərə, Rusiya və hətta formal olaraq Almaniya ilə müttəfiq olan İtaliya da konfransda Fransanı müdafiə etdi. ABŞ diplomatiyası da eyni mövqeni tutdu. JConfransın qəbul etdiyi qərarlara görə Mərakeş müstəqil və suveren dövlət elan edildi; Bununla belə, konfransm digər qərarları Mərakeşin müstəqillik və suverenlik hüquqlarmı pozurdu. Belə ki, Mərakeş polisinin yaradılması Fransa və İspaniyanın əlində cəmləşdirildi. Bu isə daha çox Fransanı qane edirdi. Fransız hökuməti qayda-qanunu qorumaq adı altında Mərakeşdə öz nüfuzunu gücləndirdi.

Konfransda Almaniyanın xeyrinə də bəzi güzəştlər edildi. Mərakeşin dövlət bankı alman, ingilis, fransız və ispan banklarının iştirak etdiyi konsorsium əsasında yaradıldı^

^onfransın qərarlarından razı olmayan alman diplomatiyası Mərakeşin bölüşdürülməsindən az da olsa pay

almaq istəyirdi. Əslində, Mərakeşdə nüfuz dairələri uğrunda mübarizə hərbi təhlükənin mənbələrindən biri idjj-

Mərakeş böhranının eiddi beynəlxalq nəticələri oldu. O, dövlətlər arasındakı ixtilafları nəinki həll etmədi, əksinə onları daha da kəskinləşdirdi. Bundan sonra dövlətlər silahlanmaya və ordu quruculuğuna xüsusi diqqət yetirməyə başladılar. Belə ki, ingilis hökuməti təkcə müstəmləkələrə deyil, eyni zamanda böyük Avropa müharibəsi olacağı təqdirdə Fransa və Belçikaya göndərilmək üçün quru qoşunlar yaratmaq haqqında qərar verdi. Beləliklə, beynəlxalq vəziyyət daha da gərginləşdi.

**İngilis-alman dəniz rəqabəti**

XX əsrin əvvəllərində ingilis-alman dəniz rəqabəti daha da kəskinləşdi. 1905-ci ildə İngiltərə yeni tipli zirehli gəmi yaratdı. O, əvvəlki gəmiləri həm artilleriyasının gücünə, həm də sürətinə görə geridə qoyurdu. Britaniya Hərbi dəniz nazirliyi yaxın bir neçə ildə Almaniyanın belə bir silaha sahib olmayacağını güman edirdi. Lakin ingilislər yanılmışdılar. Almaniya tezliklə belə zirehli gəminin yaradılmasına başladı. Artıq 1908-ci ildə İngiltərədə 12, Almaniyada isə 9 drednout (böyük zirehli hərb gəmisi) var idi. Köhnə zirehli gəmilərin nisbəti İngiltərənin xeyrinə 63:26 idi. Drednoutların meydana çıxması ilə köhnə gəmilər qiymətdən düşdü və dəniz rəqabəti yeni vüsət aldı. Bununla da İngiltərənin dəniz üstünlüyü böyük təhlükə altına düşdü. Drednoutların meydana çıxması ilə bir xətt gəmisinin qurulması xərcləri ikiqat artdı. Sürətlə silahlanma gücləndi. 1908-1912-ci illərdə Almaniyada hər il 4 drednout hazırlanması planlaşdırıldı.

İngilis hökuməti yeni hərb gəmilərinin qurulmasını məhdudlaşdırmaq haqqında saziş imzalamağı Almaniyaya bir neçə dəfə təklif etdi. Danışıqlar başlandı. Lakin belə sazişin imzalanması əsasən İngiltərəyə sərfəli olduğundan və İngiltərənin dəniz üstünlüyünü saxladığından Almaniya bu təklifləri rədd edərək, bütövlükdə hər iki ölkə donanmasının nisbəti haqqında müqavilə bağlamağı təklif etdi. Lakin aparılan

danışıqlar heç bir nəticə vermədi. Belə olduqda ingilis hökuməti Almaniyada qurulan hər bir drednoutun əvəzinə ikisini qurmaq barədə qərar qəbul etdi. Beləliklə, iki ölkə arasında sürətlə silahlanma və qarşıdunua yüksək həddə çatdı.

## Birinci rus inqilabının beynəlxalq münasibətlərə təsiri. Rus-alman ziddiyyətləri

1905 - 1907-ci illər ras inqilabı müstəmləkə və yarımmüstəmləkələrdə milli-azadlıq hərəkatını gücləndirdi. 1906-cı ildə İranda, 1908-ci ildə Türkiyədə, 1911-ci ildə isə Çində baş verən inqilablar beynəlxalq münasibətlərə ciddi təsir etdi. Müstəmləkələrlə metropoliyalar arasında ziddiyyətlər kəskinləşdi. Müstəmləkələrdə nüfuz dairələri uğmnda mənafeləri toqquşan dövlətlər belə şəraitdə xalqların milli-azadlıq mübarizəsini boğmaq üçün səylərini birləşdirdilər.

1895-1905-ci illər ərzində Rusiyanın Uzaq Şərqdə yeritdiyi siyasətin uğursuzluqla nəticələnməsi onu Almaniyadan asılı vəziyyətə saldı. Bu, özünü rus-yapon müharibəsindən sonra daha aydın şəkildə göstərdi. Rusiya qərb sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədilə Almaniya ilə münasibətlərini bütün vasitələrlə normallaşdırmağa çalışırdı. Uzaq Şərq avantürasından çıxan və inqilabı yatıran Rusiya hökuməti yenidən Balkanlara və Uzaq Şərqə xüsusi diqqət yetirməyə başladı. Xarici siyasətinin bu istiqamətində Rusiya iki yeni amillə üzləşdi; birinci. Osmanlı dövlətində alman təsirinin artması; ikinci, Balkanlarda Almaniyanın dəstək \crdiyi Avstriya-Macarıstanın güclənməsi.

Beləliklə, Rusiyanın Yaxın Şərqdə rəqibi XIX əsrdə olduğu kimi İngiltərə deyil, Almaniya oldu.

Rus-alman ziddiyyətlərinin kəskinləşməsinin bir sıra səbəbləri var idi. Birinci, Bağdad dəmir yolunun çəkilməsinə dair Almaniyanın konsessiya alması Rusiyanı narahat edirdi. Osmanlı dövlətinin Almaniya ilə yaxınlaşmasına Rusiya təhlükəli meyl kimi baxırdı. Almaniya ilə müttəfiqə çevrilən Osmanlı dövləti Bosfor və Dardanel boğazlarında tam hakim əla

və Rusiyanı Qara dənizdən vurub çıxara bilərdi. İkinci, 1904-cü ildə imzalanan rus-alman ticarət müqaviləsi ziddiyyətli idi və əsasən, Almaniyanın mənafelərinə cavab verirdi. Bu müqavilə Rusiyanın daxili bazarlarında rus kapitalının alman kapitalına qarşı mübarizəsini kəskinləşdirirdi.

**İngilis-rus sazişi** XX əsrin əvvəllərində baş verən ingilis-rus yaxınlaşmasını bir sıra amillər şərtləndirirdi. 1904- cü ildə baş verən ingilis-fransız yaxınlaşması və fransız-rus müttəfiqliyi haqqında sənədin imzalanması Rusiya ilə İngiltərə arasında yaxınlaşmaya kömək etdi. Yaponiya ilə müharibə və birinci rus inqilabının yatırılması Rusiyanın Fransadan maliyyə asılılığını gücləndirdi. Rusiya hökumətinə yeni istiqrazlar lazım idi. Rusiyaya istiqrazların verilməsində fransız kapitalı ilə yanaşı, ilk dəfə olaraq ingilis kapitalı da iştirak etdi. Bütün bu amillər ingilis-rus yaxınlaşmasının iqtisadi təməlini yaratdı.

İngilis-rus yaxınlaşması təkcə Rusiyanın mənafeyinə cavab vermirdi, eyni zamanda İngiltərənin istəklərindən doğurdu. İngiltərə XIX əsrin sonuna və rus-yapon müharibəsində məğlubiyyətə qədər Rusiyaya Asiyada öz rəqibi kimi baxırdı. Lakin Rusiya rus-yapon müharibəsində məğİub olduqdan və birinci rus inqilabı məğlubiyyətə uğradıqdan sonra ingilis diplomatiyasının mövqelərində dəyişikliklər yarandı. Məğlubiyyət Rusiyanın beynəlxalq nüfuzunu sarsıtdı və onu zəiflətdi. Belə olduqda ingilis hökuməti Asiyada öz rəqibi kimi zəifləmiş Rusiyanı deyil, güclənməkdə olan Almaniyanı görməyə başladı.

İngilis-rus yaxınlaşmasını şərtləndirən başqa bir amil də mövcud idi. Birinci rus inqilabından sonra müstəmləkələrində inqilabi hərəkatın yüksəlməsindən qorxan İngiltərə onları yatırtmaqda Rusiyaya öz müttəfiqi kimi baxırdı. Belə ki, İranda- Güney Azərbaycanda inqilab baş verərkən Rusiya və İngiltərə onu yatırtmaqda birgə fəaliyyət göstərdilər.

İki ölkə arasında baş verən bütün bu dəyişikliklər 1907-ci ildə ingilis-rus sazişinin bağlanmasına gətirib çıxartdı. İmzalanan saziş Şərqdə iki ölkə arasında olan ziddiyyətləri tənzimləmək məqsədi güdürdü. Sazişə görə, İran üç zonaya bölünürdü; birincisi, İranın şimalı - ölkənin ən çox əhalisi və zəngin təbii sərvətləri olan Güney Azərbaycan Rusiyanın nüfuz dairəsi kimi qəbul edilirdi; ikincisi. Mərkəzi İran bitərəf zona elan edilirdi; üçüncüsü, zəngin neft mənbələri. Hind okeanına və İran körfəzinə çıxışı olan Cənubi və ya Cənub-Şərqi İran İngiltərənin nüfuz dairəsi sayıldı.

İngilis-rus sazişi, eyni zamanda, digər ölkələrə də toxunurdu. Bu sazişə görə Əfqanıstan İngiltərənin nüfuz dairəsinə verilirdi. Tibet üzərində Çinin hakimiyyəti qəbul edilsə də, bu ərazi İngiltərənin maraq obyekti sayılırdı.

İngilis-rus sazişinin imzalanmasının mühüm nəticələri oldu. Sazi.ş Rıısiva ilə İngiltərə arasında çoxlu mübahisəli məsələləri qa>vui\a salaraq onları Almaniyaya qarşı ittifaqda birləşdirdi. 1 ransız-ıoıs ittifaqının və ingilis-fransız sazişinin mövcud olduğu şəraitdə İngiltərə ilə Rusiya arasında sazişin imzalanması Almaniyaya qarşı ingilis-rus-fransız blokunun formalaşmasını sona çatdırdı.

Beləliklə, 1907-ci ildə Antantanın formalaşması başa çatdı. Onu Üçlər sazişi adlandırdılar. Nəticədə XX əsrin əvvəllərində beynəlxalq şərait kifayət qədər dəyişdi. İngiltərə özünün keçmiş rəqibləri olan Fransa və Rusiyanı Almaniyaya qarşı diplomatik-siyasi mübarizəyə qoşa bildi.

**1908-1909-cu illər Bosna böhranı**

XX əsrin əvvəllərində beynəlxalq münasibətlər müxtəlif böhranlarla səciyyələnirdi. 1908-ci ildə yeni beynəlxalq böhran yarandı. XX əsrin əvvəllərindən başlayaraq Avstriya-Macarıstan kapitalı Balkanlarda işğalçılıq siyasətinin yeridilməsini, Salonikə gedən yolu - Egey dənizinə çıxışı tutmağı tələb etməyə başladı. Əvvəllər Avstriya-Macarıstan

meylli olan serb hökuməti bu siyasətə kömək edirdi Serbistan iqtisadı cəhətdən də Avstriya-Macarıstandan asılı vəziyyətdə id;. Lakin 1903-cü ildə Serbistanda baş verən dövlət çevrilişindən sonra Balkanlarda vəziyyət dəyişdi. Serb hökuməti etnik yaxınlığı əsas götürərək rusiyapərəst xətt yeritməyə başladı. Ölkədə Avstriya-Macarıstanın iqtisadi ağalığından qurtulmaq uğranda hərəkat gücləndi. Avstriya-Serbistan kömrük müharibəsi baş verdi. Rusiya eyni zamanda cənubi slavyan əhalisini Osmanlı dövlətinin əleyhinə qiyamçılığa və terrorçuluğa qaldırdı. Belə şəraitdə Avstriya-Macarıstan hökuməti Balkanlarda hərəkatı yatırtmaq üçün qəti addımlar atdı. İlk addım kimi Avstriya- Macarıstan Osmanlı imperiyasının ərazisi olan Bosna və Hersoqovinanı özünə birləşdirdiyini elan etdi. Bu ərazilərin birləşdirilməsi serb hökumətinin narazılığına səbəb oldu. Rus hökuməti Serbistanı müdafiə etdi.

1909-cu ilin martında Avstriya-Macarıstan səfərbərlik elan edərək qoşunlarını Serbistan ilə sərhədə topladı. Müttəfiqini müdafiə edən Almaniya münaqişəyə qoşuldu. Kansler Bülöv 1909-cu il martın 21-də Sankt-Peterburqa ultimatum göndərdi. O, ultimatumda Bosna və Hersoqovinanın Avstriya-Macarıstana birləşdirilməsinin tanınmasını Rusiyadan kəskin şəkildə tələb etdi. Tələb yerinə yetirilmədikdə Almaniya müharibəyə başlayacağı ilə hədələdi. 1904-1905-ci illər rus-yapon müharibəsindən sonra özünə gələ bilməyən Rusiya Serbistana kömək etməyə hazır deyildi. İngiltərə və Fransa da Rusiyanı müdafiə etmədi. Belə olduqda Rusiya və Serbistan diplomatik- siyasi məğlubiyyətə uğradılar. Lakin Serbistan Balkanlarda türklərin və başqa millətlərin yaşadıqları əraziləri işğal etmək, Rusiya isə ona kömək göstərmək, Bosfor və Dardanel boğazları işğal etmək istəklərindən əl çəkmədi.

Yaranmış şəraiti görən Rusiya öz silahlı qüvvələrini bərpa etmək işinə girişdi. Rusiyada böyük hərbi proqram qəbul olundu. Bu proqram ordunun sayının artırılmasını, maddi təchizatının gücləndirilməsini, strateji dəmir yollarının tikilməsini, rus-yapon müharibəsi zamanı, demək ~~tnrmmila it~~irilmiş

hərbi-dəniz donanmasının bərpa etdirilməsini nəzərdə tuturdu. Proqram 1917-ci ildə başa çatdırılmalı idi.

Bosna və Hersoqovinanı özünə birləşdirən Avstriya-Macarıstan isə bununla kifayətlənmək istəmirdi. O, Salonik istiqamətində ərazilər ələ keçirməyə çalışırdı. Avstriya-Macarıstanın bu hərəkətləri Almaniya tərəfindən rəğbətlə qarşılansa da onun Osmanlı dövləti ilə iqtisadi və siyasi cəhətdən yaxınlaşması cəhdlərindən narahat idi.

Bosna böhranı Rusiyanın Avstriya-Macarıstan və Almanıya ilə ziddiyyətlərini daha da kəskinləşdirdi.

**İkincüMərakeş böhranı** , 1911 -ci ilin mayında Fransa orduları fransız təbəələrini müdafiə etmək və hökumət əleyhinə olan çıxışları yatırtmaq adı altmda ('Mərakeşin paytaxtı Fes şəhərini işğal etdilər. Əslində fransızlar bütün Mərakeşi tutdular.j

Fransanın hərəkətinə mane olmaq iqtidarında olmayan Almaniya bunun əvəzində özü üçün nə' isə almaq qərarma gəldi.. İyulun 1-də Mərakeşin Atlantik okeanı sahillərindəki Aqadir şəhərinin limanına alman hərb gəmisi «Bəbir» gəldi; Aqadirin coğrafi mövqeyi onu strateji cəhətdən əhəmiyyətli edirdi. \Aqadiri tutan Almaniya Fransanı güzəştə getməyə məcbur etmək istəyirdi.« Almaniya Mərakeşdə torpaq almaq istəklərini həyata keçirə bilməsə də Ekvatorial Afrikada fransız mülklərindən almağa ümid edirdiO Ona görə də alman diplomatiyası əvvəlcə bütün fransız Konqosunu tələb etdi. Almaniyanın belə tələbi Fransa tərəfindən rədd olundu.

iMərakcş üstündə Fransa-Almaniya münaqişəsinə İngiltərə də qoşuldu. Burada ciddi mənafeləri olan İngiltərə güzəştə getməyi düşünmürdü. 1911-ci il iyulun 21-də İngiltərə hökumətinin tapşırığı ilə Lloyd Corc birmənalı şəkildə bildirdi ki, Mərakeş məsələsində İngiltərə Almaniyaya qarşı hətta müharibədən imtina etməyəcəkdir. İngiltərə nazirinin bu sözləri Almaniyanı geri çəkilməyə məcbur etdi. 1911-ci ilin payızında Almaniya Fransa ilə saziş bağladı. Almaniya Mərakeşin fransız protektoratlığmda olduğunu qəbul etdi. Fransa da öz növbəsində

Almaniyaya güzəştə getdi. Fransız hökuməti Konqodakı mülklərinin kiçik bir hissəsini Almaniyaya vcrdi.ı

Bütün bunlara baxmayaraq, alman diplomatiyası sazişin nəticələrindən razı qalmaxh. O, belə «kiçik hədiyyə» ilə kifayətlənmək istəmirdi. Hətta bir sıra alman rəsmi dairələri II Vilhelıni hədsiz güzəştə getməkdə təqsirləndirdilər. Aqadir münaqişəsindən sonra alman diplomatiyası dünyanın yenidən bölüşdürülməsi uğrunda daha qətiyyətli mübarizəyə başladı.

1911- **jdJLİtaliya** - Aqadir böhranı başa çatmamış İtaliya- **Osmanlı müharibəsi** Osmanlı dövləti müharibəsi başlandı.

İtaliya üç qitədə yerləşmiş Osmanlı imperiyasının ərazisi olan Tripolitaniyanı işğal etməyə çalışırdı. J.900-CÜ il Fransa-İtaliya müqaviləsinə görə, Fransa İtaliyanın Tripolitaniyanı işğal etməsinə razılıq vermişdi.

İtaliya orduları Tripoltianiyadakı kiçik türk qarnizonuna qalib gəldi. Lakin ərəb tayfaları işğalçılara ciddi müqavimət göstərdilər. Türk hökuməti uzun müddət bu işğalı tanımadı. Lakin Balkanlarda müharibənin başlanması 1912-ci ildə Osmanlı dövləti İtaliya ilə sülh müqaviləsi bağlamağa məcbur etdi. Osmanlı dövləti Tripolitaniyanı və Kirenaikanı İtaliyaya güzəştə getdi.

**Birinci Balkan müharibəsi** Uzun illər boyu bir-biri ilə düşmənçilik edən Bolqarıstan və Serbistan 1912-ci ildə Rusiyanın, həmçinin digər Antanta dövlətlərinin köməyi ilə müttəfiqlik haqqında müqavilə imzaladılar. Tezliklə Bolqarıstana və Serbistana Yunanıstan və Qaradağ da qoşuldu. Rusiya onların hamısını Osmanlı dövlətinə qarşı qiyamlara və terrorçuluq hərəkətələrinə sövq etdi. Antanta dövlətləri Balkan ittifaqını Avropa müharibəsi baş verəcəyi təqdirdə müttəfiq kimi görürdülər. Rusiyanm və digər Antanta ölkələrinin bu hərəkətlərinə qarşı Almaniya və Avstriya-Macarıstan çıxış etdi.

1912- ci ilin oktyabrında Balkan dövlətləri Osmanlı dövlətinə qarşı mübarizəyə başladılar. Qısa müddətdə Osmanlı

orduları məğlub edildi. Bolqar orduları İstanbula daxil oldular, VTiıianlar Saloniki, serblər isə Makedoniyanın böyük bir hissəsini. Şimali Albaniyanı və Yeni Bazar sancağını işğal etdilər.

.’,912-ci ilin noyabrında gələcək sülhün şərtləri haqqında danışıqlıqlar başlandı. Danışıqlar çox uzun sürdü və çətin gedirdi. Onun kəsilməsi ilə yeni Balkan və hətta Avropa müharibəsinin başlanması təhlükəsi yarandı. Qalib dövlətlərin hər birinin böyük iddiaları var idi. Serbistan dənizə çıxışı əldə etməkdən ötrü Şimali Albaniyanı almağa çalışırdı. Bu məsələdə Serbistan Avstriya-Macarıstanın qəti müqavimətinə rast gəldi. Avstriya-Macarıstan Serbistandan bu iddialarından əl çəkməyi tələb edərək onu müharibə ilə hədələdi, hətta orduya qismən səfərbərlik də keçirdi. Bosna böhranı dövründə olduğu kimi, rus hökuməti qorxaraq yenə də Avstriya-Macarıstanla münaqişədə Serbistanı müdafiə etmədi. Serbistan geri çəkildi. Lakin dənizə çıxmaq iddialarını həyata keçirtmək üçün etdiyi cəhdlər 1913-cü ilin payızında Avstriya-Macarıstanla və Almaniya ilə yeni münaqişəyə gətirdi. Serbistanın iddialarına qarşı çıxan və Almaniyanın köməyinə ümid bəsləyən Avstriya-Macarıstan onu yeni müharibə ilə hədələdi. Bu dəfə də Rusiya və Serbistan geri çəkildi. Rusiya üçüncü dəfə diplomatik-siyasi məğlubiyyətə uğradı.

Balkanlarda sülhün qurulması uzun çəkdi. Osmanlı dövləti ərazilərinin itirilməsi ilə barışmadı. Balkan ittifaqının üzvləri Osmanlı dövlətinin ərazisini Avropada yalnız İstanbulla məhdudlaşdırmaq. Bosfor və Dardanel boğazlannm sahilində ona kiçik bir zolaq vermək istəyirdilər. Osmanlı hökuməti bu şərtləri qətiyyətlə rədd etdi. Nəticədə 1913-cü ilin yanvarında hərbi əməliyyatlar başlandı. Lakin Osmanlı orduları yenə də məğlub oldu.

**İkinci Balkan** Albaniyanı işğal edə bilməyən serb hökuməti **müharibəsi** Yunanıstanın dəstəyi ilə Makedoniya bölüşdürülərkən Serbistanın payının artırılmasını bolqar hökumətindən tələb etdi. Serbistan və Yunanıstan Bolqarıstana qarşı ittifaq bağladılar. Böyük dövlətlərin Balkan

işlərinə qarışması vəziyyəti daha da ağırlaşdırdı. Almaniya və Avstriya-Macarıstan Balkan ittifaqını dağıtmaq, Serbistanı və Yunanıstanı Bolqarıstana qarşı qaldınuaq, Rusiya isə Balkan ittifaqından Almaniya, Avstriya-Macarıstan və Osmanlı dövlətinə qarşı istifadə etmək niyyəitində idi.

1913- cü il iyunun 29 -da Bolqarıstan Serbistana qarşı hərbi əməliyyatlara başladı. Beləliklə, ikinci Balkan müharibəsi başlandı. Yunanıstandan başqa, Rumıniya da Serbistana qoşuldu. Rumın hökuməti Balkan yarımadasında Bolqarıstanın güclənməsindən qorxurdu. Aritibolqar koalisiyasına Osmanlı dövləti də qoşuldu. Türklər itirmiş olduğu əraziləri geri qaytarmağa çalışırdılar.

Müharibədə Bolqarıstan məğlubiyyətə uğradı. 1913-cü il avqustun 10-da Buxarestdə sülh müqaviləsi bağlandı. Sülh müqaviləsinin şərtlərinə görə, Bolqarıstan Rumıniyaya Dobrucanı, Serbistana Makedoniyanın böyük hissəsini güzəştə getdi. Osmanlı dövlətinə isə Ədiməpolu qaytardı. Yunanıstan Balkan müharibələri nəticəsində Egey dənizindəki bütün adaları, Cənubi Makedoniyanı, Saloniki və Epiri aldı.

Balkan müharibəsinin ciddi beynəlxalq nəticələri oldu. Albaniya Osmanlı imperiyasınm tərkibindən çıxdı. Onun ərazisində nüfuz dairələri uğrunda İtaliya ilə Avstriya- Macarıstan arasında mübarizə kəskinləşdi. Balkan müharibələri Osmanlı imperiyasının bu regionda mövqelərini zəiflətdi. Osmanlı dövləti ilə paralel olaraq, Avstriya-Macarıstanm da zəifləməsi prosesi sürətləndi.

**Hərbi təhlükənin artması**

1911-ci ildən başlayaraq beynəlxalq münasibətlərdə müharibə təhlükəsi daha da artdı. Bu təhlükə bir neçə istiqamətdə gücləndi; böyük dövlətlər arasında dünyanı bölmək uğrunda mübarizə son həddə çatdı; dövlətlərin daxili vəziyyəti kəskinləşdi; müstəmləkələrdə milli-azadlıq hərəkatı gücləndi. Bəzi dairələr daxili problemləri həll etməyin yolu kimi xaricdə uğurlu hərbi əməliyyatlar aparmağa üstünlük verdilər.

Belə gərgin vəziyyətdə Üçlər ittifaqı və Antanta dövlətləri sürətlə müharibəyə hazırlaşırdılar. Hər iki hərbi blok güclü şəkildə silahlanırdı. 1905-1914-cü illərdə İngiltərə, Rusiya, Fransa, İtaliya və Avstriya-Macarıstanın hərbi büdcəsi 73% artdı.

1913-cü ildən alman ordusu maddi və insai ehtiyatlarından maksimum dərəcədə istifadə edərək gücləndi. Fransa baş qərargahmdan fərqli olaraq almanlar müharibə olacağı təqdirdə ehtiyat birləşmələr üçün kadr və silahlar hazırlamışdı. Alman ordusu Avropada ən çox saylı zabit heyətinə malik idi. Onun maddi-texniki üstünlüyü şəksiz idi. Alman hərbi sənayesi öz istehsal gücünə görə fransız və rus hərbi sənayesindən üstün idi. Nəhayət, Almaniyanın dəmir yolları Fransa və Rusiyadan daha yaxşı idi və hərbi məqsədlərə kifayət qədər j^axşı tabe etdirilmişdi. Antanta ölkələrinə nisbətən Almaniya səfərbərliyi daha sürətlə həyata keçirə bilərdi. Almaniya istənilən cəbhə nöqtəsinə zaman etibarilə rəqiblərindən daha tez qoşun çıxara bilərdi. Almaniya hökumətinin tələbi ilə Reyxstaq yeni hərb gəmilərinin qurulması üçün aynlan vəsaitə 1912-ci ildə növbəti beş ildə daha üç drednout qurulması üçün yeni vəsait əlavə etdi.

Almaniyanm düşmənləri ləng də olsa silahlanırdılar. 1913-cü ildə Fransa ikiilik hərbi xidmətdən üçillik hərbi xidmətə keçməklə dinc şəraitdə ordusunun tərkibini 30% artırdı. Rusiya öz ordusunu fransız istiqrazlarınm köməyi ilə təchiz etdi. Rus hökuməti böyük hərbi proqramını 1917-ci ildə başa çatdırmağı nəzərdə tuturdu.

Almaniyanın müttəfiqi olan Avstriya-Macarıstanda isə milli-azadlıq hərəkatmın təsiri ilə daxildən parçalanma güclənirdi.

Hər iki blok dövlətləri müharibəyə başlamaqdan ötrü kiçik bəhanə axtarırdılar.

**1912-1914-cfl tllarda tngiltəraniRjsiyasadi**

Almaniya dünyanı yenidən bölmək məsələsini qəti şəldldə qoyduqca ingilis-alman ziddöyətləri daha da

kəskinləşdi. 1912-ci ildə ingilis diplomatiyasınm fəaliyyətində taktiki dönüş yarandı. İngilis diplomatiyası Almaniya ilə ziddiyyətləri yumşaltmaq xəttini seçdi. İngilis hökuməti qitədəki qruplaşmalar arasındakı ziddiyyətlərdən hakim rolunu oynamağa və mənfəət götürməyə çalışırdı. 1912-ci ilin əvvəlində ingilis hökuməti hərbi nazir lord Holdeni xüsusi tapşırıqla Berlinə göndərdi. İngilis diplomatiyasınm əsas məqsədi yeni hərbi dəniz silahlarının məhdudlaşdırılmasma nail olmaq idi. Lakin ingilis diplomatiyasının bu cəhdlərindən heç bir nəticə alınmadı. Bununla belə, alman diplomatiyası ingilislərin Almaniya ilə münaqişədən qaçmaq istəklərinə əmin oldu. İngiltərə Bağdad dəmir yolu haqqmda danışıqlara başladıqda bu təəssürat daha da gücləndi İngilislər yolun çəkilişinə bir neçə il mane olduqdan sonra onun başa çatdırılmasma bir şərtlə razılıq verdilər: Bağdaddan İran körfəzinə qədər olan yolun son hissəsi İngiltərəyə veriləcəkdir.

İngiltərənin Almaniya ilə münasibətləri korlamaq istəməməsi haqqındakı təəssürat Berlində yanlış fikir yaratdı. Guya Üçlər ittifaqının üzvü olan dövlətlər Pransr və Rusiyaya qarşı müharibəyə başladıqda İngiltərə bitərəf qalacaqdı və Almaniya qitədəki düşmənlərini məhv edəcəkdi. Lakin İngiltərənin bitərəf qalacağı haqqmda ümidlərin heç bir ciddi əsası yox idi. İngilis diplomatiyası Almaniyanm qələbəsinə və güclənməsinə yol verə bilməzdi. İngiltərənin pasifist hərəkətləri Almaniyanı aldadaraq müharibəyə şirnikləşdirdi.

**Saray.eyo_qətlL** Gərgin beynəlxalq şəraitdə istənilən
1914- **cü il iyul** münaqişə müharibəyə çevrilə bilərdi.
1911, **böhranı** 1912 və 1913-cü illər böhranı ümumi müharibəyə gətirə bilərdi. Lakin bu illərdə dünya müharibəsi başlanmadı. 1914-cü ildə baş verən böhran isə dünya müharibəsinə gətirib çıxartdı. İyulun 28-də Sarayevoda serb millətçilərinin «Gənc Bosna» təşkilatınm üzvü, 18 yaşlı Qavrilo Prinsip Avstriya-Macarıstan taxt-tacmm vəliəhdi, hərbi təlimləri müşahidə etmək üçün Bosna paytaxtma gelən Frans Ferdinautı qətlə yetirdi. Avstriya-Macarıstan

diplomatiyası bundan istifadə edərək Serbistanı darmadağın etmək qərarına gəldi. Avstriya-Macarıstanda başa düşürdülər ki, Serbistan tərəfindən müharibəyə Rusiya da qoşula bilər. Rusiyanın müharibəyə girməsi isə Almaniyanı müharibəyə qoşardı. Almaniyanın müharibəyə qoşulması isə Fransanın hərbi əməliyyatlara girməsinə gətirib çıxaracaqdı. Bu şəraitdə Avropa dövlətlərinin diplomatiyası qarşısında belə bir sual yarandı; Almaniya Avstriya-Macarıstanın Serbistana qarşı müharibəyə başlamasına və Avropa müharibəsinin törədilməsinə hazırdırmı? Almaniya diplomatiyası bu suala müsbət cavab verdi. İyulun 5-də Potsdamda II Vilhcim Avstriya-Macarıstan imperatorunun xüsusi nümayəndəsini qəbul etdi. O, Avstriya-Macarıstanın Serbistana qarşı olan hərəkətlərini bəyəndi. Bunun ardınca II Vilhclın silahlı qüvvələrin rəhbərlərini çağırıb müharibə başlanacağı ehtimalı barədə onlara məlumat verdi. Alman diplomatiyası Avstriya- Macarıstanı nəinki müharibəyə təşviq etdi, eyni zamanda onu hərbi əməliyyatlara başlamağa tələsdirdi.

Almaniya hökumətinin belə mövqeyini görən Avstriya-Macarıstan Serbistana ultimatum verdi. Ultimatum iyulun 23-də serb hökumətinə təqdim edildi. Ultimatumda antiavstriya təbliğatına qarşı mübarizə aparmaq üçün Serbistanın daxili işlərinə qarışmaq, qətli araşdırmaq üçün nümayəndələrin Bosnaya gəlməsi, Serbistanın təzminat ödəməsi və s. məsələlər tələb edildi. Ultimatuma 48 saat müddətində cavab verilməli idi. İyulun 25-də Serbistanın baş naziri Paşiç Avstriya- Macarıstan elçisinə cavab verdi. Paşiç serb hökumətinin ultimatumun bütün şərtlərini ( yalnız Serbistana komissiyanın gəlməsindən başqa) qəbul etdiyini bildirdi. Qəbul edilməyən şərti isə Serbistan üçün təhqiredici hesab etdi. Avstriya-Macarıstan səfiri dərhal iki ölkə arasında diplomatik münasibətlərin kəsildiyini bəyan etdi.

Bu münaqişədə Rusiya prinsipial mövqe tutmaq və Serbistanı müdafiə etmək qərarma gəldi. Fransız diplomatiyası da Rusiyanı müdafiə etdi.

Avstriya-Macarıstan bəzi silahlı qüvvələrinə səfərbərliyi həyata keçirib iyulun 28 -də Serbistana müharibə elan etdi. İyulun 29-da rus hökuməti qismən hərbi səfərbərlik keçirtdi.

İyulun 29-a qədər alman diplomatiyası İngiltərənin bitərəf qalacağına ümid bəsləyirdi. Lakin iyulun 29-da İngiltərənin xarici işlər naziri E.Qrey Almaniyanın Londondakı səfirinə birmənalı şəkildə bildirdi: «Əgər qitədə müharibə olarsa və ona Almaniya ilə Fransa qoşularsa, İngiltərə də müharibəyə Fransa tərəfindən qoşulacaqdır». İngiltərənin bu mövqeyini görən alman diplomatiyası Serbistanla kompromis tapmağı Avstriya-Macarıstana təklif etdi. Lakin Almaniya Baş qərargahının rəisi Kiçik Möltkc kompromisin əleyhinə çıxaraq hərbi əməliyyatların başlanmasını israr etdi.

İyulun 29-da alman hökuməti Rusiyadan hərbi hazurlığı dayandırmağı tələb etdi. Almaniyanın tələbinin yerinə yetirmədiyi təqdirdə alman hökuməti səfərbərlik keçirəcəyini bildirdi. İyulun 30-da rus və Avstriya-Macarıstan hökumətləri üımimi səfərbərlik elan etdilər. İyulun 31-də alman hökuməti Rusiyadan hərbi hazırlığı dayandırmağı tələb edən yeni ultimatum verdi. Rus hökuməti onu rədd etdi. Bundan sonra avqustun 1-də Almaniya Rusiyaya müharibə elan etdi.

Avqustun 3-də isə alman hökuməti Fransaya müharibə elan etdi. Şliffen planına uyğun olaraq alman orduları Belçikanın bitərəfliyini pozaraq onun ərazisindən keçib Fransaya girdilər.

Avqustun 4-də İngiltərənin xarici işlər naziri E.Qrey Almaniyaya ultimatum verərək Belçikanın bitərəfliyinə hönnət göstərilməsini tələb etdi. Cavabı almayan İngiltərə avqustun -I dən 5-nə keçən gecə Almaniyaya qarşı müharibəyə girdi. Beləliklə, birinci dünya müharibəsi başlandı.

# II BOLUM

## Birinci dünya müharibəsi illərində beynəlxalq münasibətlər

1914-1918-ci illərdə beynəlxalq münasibətlərin ümumi səciyyəsini birinci dünya müharibəsinin xarakteri, gedişi, böyük dövlətlərin hərbi-strateji planları, müharibəyə qoşulmaları, məqsədləri, müharibənin yekunları, imzalanan barışıq sənədləri və sül' müqavilələri, dövlətlər arasmda diplomatik-siyasi münasibətlər müəyyənləşdirir.

**Dünyajnüharibəsinin xaralcterLvə iştirakçı dövLəttəriıunəqsəılləri** Dünya müharibəsi bütün iştirakçıları dövlətlər tərəfin-^ən işğalçı, imperialist və ədalətsiz, olmaqla dünya ağalığı və onu yenidən bölmək uğrunda müharibə idi.

Müharibədə iştirak edən dövlətlərin hər birinin müəyyən məqsədləri var idi.

**Aimaıiiya** dünyanı öz xeyrinə yenidən bölmək uğrunda mübarizə aparırdı. Müharibəyə dair Almaniya proqramı uzun illər boyu işlənilmiş və müxtəlif dəyişikliklərə məruz qalmışdı. Almaniyanın müharibədəki məqsədləri Panalman ittifaqının 1914-cü il 28 avqust tarixli tələblərində qəti olaraq müəyyənləşdirildi: sənayecə inkişaf etmiş Belçikanı işğal etmək və onun Afrikadakı müstəmləkələrinə sahib olmaq; Rusiyanın təbii ehtiyatlar cəhətdən zəngin torpaqlarını tutmaq və münbit torpaqlarda alman yaşayış məntəqələri salmaq; Fransanın Lonqvi və Brie dəmir filizi hövzələrini özünə birləşdirmək, Fransa ilə sərhədi Belfor, Tuliya, Verdendən və Soma çayından qərbə keçirtmək və həmçinin fransız müstəmləkələrinə yiyələnmək; İngiltərənin dəniz hökmranlığına son qoymaq, dünya bazarlarmda ingilis rəqabətini zəiflətmək, dəniz dayaq məntəqələri əldə etmək və

ingilis müstəmləkələrini tutmaq; məğlub ediləcək dövlətlərdən pul təzminatı almaq; gələcəkdə «Böyük Almaniyanm» inkişafı üçün heç bir təhlükənin yaranması üçün bütün rəqiblərini tamamilə zəiflətmək.

**Avstriya-Macanstanın** müharibəyə dair proqramı Balkanlarda hegemonluğa sahib olmaq, Serbistanı, Polşa çarlığını, Podolu **ve** Volını özünə birləşdirmək, qələbə təqdirində ölkədə miUi ziddiyyətləri aradan qaldırıb möhkəm dövlət yaratmaq, Avropa işlərində mühüm rol oynamaq və b. vəzifələrini nəzərdə tuturdu. Avstriya-Macarıstanm bu proqramı həyata keçirtməsində Almaniya da maraqlı idi. Proqramm yerinə yetirilməsi alman kapitalmm Avstriya kapitalı ilə birlikdə Balkanlara, Egey dənizi rayonuna və Osmanlı dövlətinə ixracma şərait yaradardı. Üçlər ittifaqı dövlətlərini İran körfəzi ilə ərazi cəhətdən birbaşa birləşdirərdi. Bunun da mühüm hərbi-strateji və iqtisadi əhəmiyyəti var idi.

**Rusiyanın** işğalçılıq planlarma Almaniyanm hərbi-siyasi qüdrətini məhv etmək, Qalisiyanı, Neman çaymm aşağı axarım özünə birləşdirmək, İstanbulu işğal etmək, boğazlara sahib olmaq, Avropada imperialist niyyətlərini həyata keçirtmək və b. idi.

**İngiltərə** sürətlə inkişaf edən gənc alman rəqibinin iqtisadi və maliyyə qüdrətini zəiflətmək, Almaniyanın hərbi- dəniz və ticarət donanmasmı məhv etmək. Mesopotamiyanı işğal etmək, zəngin neft yataqları olan Ərəbistan yarımadasını və Almaniyanm müstəmləkələrini ələ keçirtmək istəyirdi.

**Fransanın** məqsədi əsas rəqibi olan Almaniyanm hərbi, iqtisadi və siyasi qüdrətini darmadağın etmək, 1871-ci ildə Fransadan alınan Elzas və Lotaringiyanı geri qaytarmaq, Reyn çaymm sol sahilindəki torpaqları almaq, Saar vilayətini özünə birləşdirmək, Suriyanı, Fələstini, digər ərəb ərazilərini və alman müstəmləkələrini tutmaq idi.

**Müharibədə iştirak edən dövlətlərin hərbi-iqtisadi potensialı** Müharibənin başlanğıcında döyüşən dövlətlərin qü\'vələrinin yerləşməsi aşağıdakı kimi idi; bir tərəfdən İngiltərə, Fransa, Rusiya, Serbistan və müharibəyə zorla cəlb edilən Belçika; digər tərəfdən isə Almaniya və Avstriya-Macarıstan.

Hər iki blok dövlətlərinin maddi və insan ehtiyatı eyni cür deyildi. Almaniyanın hərbi hazırlığı Antanta ölkələrindən çox üstün idi. Onun ordusu artilleriya və təlim görmüş çoxlu zabit kadrları sarıdan yaxşı təchiz edilmişdi. Bundan fərqli olaraq Antanta ölkələrinin böyük insan, ərzaq və hərbi xammal ehtiyatı mövcud idi.

Müharibənin ilk günündən Almaniya və Avstriya-Macarıstan Antanta ölkələrini dənizdən blokadaya aldılar. Almaniya bloku ölkələri işğal olunmuş Lüksemburq, Belçika və Fransanın şimal departamentlərinin iqtisadi qüdrətini, 19I'5-ci ilin ikinci yarısmdan isə Polşa, Litva, Kurlandiya və Serbistanm sənaye və kənd təsərrüfatını özlərinə cəlb etdilər. Almaniya həmçinin bitərəf dövlətlər olan Rumıniya, Bolqarıstan və Osmanlı dövlətinin imkanlarından istifadə edirdi.

İngiltərə və Fransa isə öz müstəmləkə və dominionlarının xammal və ərzaq sərvətlərindən istifadə edirdilər. Bundan başqa müharibə ehtiyaclarını ödəmək üçün xammal, sənaye və kənd təsərrüfatı məhsulları Avropaya ABŞ və Cənubi Amerikadan gətirilirdi. İngiltərə və Fransanm müttəfiqi olan Rusiya müharibənin ilk günlərindən ağır vəziyyətə düşdü. Almaniya Baltik dənizini. Osmanlı dövləti isə Qara dənizi Rusiya üçün bağladı və Rusiya öz müttəfiqlərindən ayrı qaldı. Qara dəniz limanlarının bağlanması Rusiyanı ağır vəziyyətə saldı.

**Almaniyanın hərbi-strateji planları** Almaniyanın müharibəyə dair hərbi - strateji planlarının əsasını Baş qərargah rəisi general-feldmarşal qraf Şiiffenin 15 il müddətində işləyib hazırladığı və 1905-ci

ildə başa çatdırdığı plan təşkil edirdi. Şliffen planına görə Almaniya müharibəni iki cəbhədə aparmalı idi: alman ordularının əsas hissəsi Fransaya, kiçik bir hissəsi isə Rusiyaya qarşı vuruşmalı idi. 1913-cü ildə vəfat edən Şliffenin yerini tutan Kiçik Moltke bu planı qəbul etdi.

**Digər^dövlətləri miiharihayə.qoşmaq uğrunda diplomatik-siyasi mübarizə**

Müharibə başlanan kimi hər iki blok dövlətləri digər ölkələri öz tərəfindən müharibəyə cəlb etmək uğrunda gərgin diplomatik-siyasi mübarizəyə başladılar. Belə mübarizənin getdiyi ölkələrdən biri **Yaponiya** idi. Müharibənin başlanğıcında Uzaq Şərqdə Yaponiya üçün əlverişli beynəlxalq şərait yarandı. Çini işğal etməkdə Yaponiyanın rəqibləri olan dövlətlər onun bu niyyətlərini həyata keçirməsinə mane ola bilmədilər .Yaranmış əlverişli beynəlxalq vəziyyətdən ictifadə edən Yaponiya avqustun 15-də Almaniyaya ultimatum verərək icarəyə götürdüyü Çinin Szyau-Çjou ərazisini guya Çinə qaytannaq adı altında ona verilməsini tələb etdi. Lakin alman diplomatiyası bu tələbi yerinə yetirməkdən imtina etdikdə' avqustun 23-də Yaponiya Almaniyaya müharibə elan etdi.

Sentyabrın əvvəlində Yaponiya və İngiltərənin birlikdə mühasirəyə aldıqları Sindau qalası noyabnn 7-də təslim oldu. Bundan əvvəl isə Yaponiya Okeaniyada Almaniyanın müstəmləkələri olan Marşal, Karolin və Marian adalarını işğal etdi. Bununla da Yaponiyanın birinci dünya müharibəsindəki hərbi əməliyyatlarda iştirakı başa çatdı. Buna baxmayaraq Yaponiya Çinin zəngin Şandun vilayətini işğal etdi, Çin hökuməti üzərində siyasi nəzarətini qurdu. Sakit okeanın qərb hissəsinin hökmranı oldu və Çinlə rəqabətsiz ticarətdə müttəfiqlərinə silah sataraq xeyli dərəcədə varlandı.

Osmanlı dövlətini müharibəyə qoşmaq uğrunda diplomatik-siyasi mübarizə daha gərgin idi. 1914-cü il avqustun 2-də İstanbulda Almaniya ilə Osmanlı dövləti arasında müttəfiqlik haqqında gizli müqavilə bağlandı. Osmanlı dövləti

Üçlər ittifaqı tərəfindən müharibədə iştirak etmək haqqında öhdəlik götürdü. Almaniya isə Güney ve Quzey Qafqazı, türklərin Balkanlarda və Egey dənizində itirdikləri torpaqları onlara geri qaytarmağı və pul təzminatı ödəməyi vəd etdi. Türk diplomatiyası paralel olaraq İstanbuldakı ' rus səfiri ilə danışıqlara başladı. Rusların türklərə təzyiq göstərmək cəhdləri heç bir nəticə vermədi. Avqustun 10-da türk hökuməti Almaniyanın «Heben» və «Breslau» hərb gəmilərini və onlara xidmət edən yardımçı gəmiləri Dardaneldən buraxdı. İngilis, rus və fransız diplomatiyası alman gəmilərini və ekipajını tərksilah etməyi Osmanlı dövlətindən tələb etdi. Lakin türk hökuməti həmin gəmilərin alındığını bildirdi. Almaniya türk ordusunun müharibəyə hazırlıq işini gücləndirərək, onu hərbi sursatla təmin etdi, türk ordu və donanmasmın komandanlığma öz adamlarmı yerləşdirdi və boğazlarm və limanlafm müdafiəsinə rəhbərlikdə mühüm rol oynamağa başladı.

«Heben» və «Breslau» hərb gəmilərinin türk sularına gəlməsi Qara dənizdə qüvvələr nisbətini Osmanlı dövlətinin xeyrinə dəyişdi. Bu, Almaniya hökuməti ilə Ənvər Paşa başda olmaqla türk hökuməti arasında , əməkdaşlığı daha da gücləndirdi. Osmanlı dövləti ilə Antanta ölkələri arasında danışıqlar gedən vaxt alman generalı Liman fon Şanders müharibənin türk planını işləyib başa çatdırdı. Bu plana görə türk ordusu Misiri və Qafqazı tutmalı, rusları və ingilisləri İrandan qovmalı idi. Səfərbərliyi başa çatdıran türklər hərbi əməliyyatlara başladılar. 1914-cü il oktyabrın 29-da «Heben» və «Breslau» Feodosiya və Sevastopolu bombardman etdilər, Odessa, Novorossiysk və Kerçə girərək bir neçə rus gəmisini batırdılar. Beləliklə, Osmanlı dövləti ilə Antanta dövlətləri arasında müharibə başlandı. Hərbi əməliyyatların gedişində yeni cəbhələr - Qafqaz, Mesopotamiya, Fələstin-Suriya cəbhələri yaradıldı.

Müharibənin əvvəlindən Avropa dövlətləri bitərəf olan İtaliya, Rumıniya, Bolqarıstan və Yunanıstanı öz tərəflərinə çəkmək uğrunda gərgin mübarizəyə başladılar. Hər iki koalisiya üçün bu dörd dövlət böyük hərbi-strateji əhəmiyyət daşıyırdı.

**İtaliyanın** bö}oik quru, dəniz qüvvələri və insan ehtiyatlan var idi. Digər üç dövlət isə həm coğrafi vəziyyətinə, həm də güclü ordusuna görə hər iki blok dövlətlərinə lazım idi. İtaliya hökuməti 1914-cü il avqustun 3-də müharibədə bitərəf qalacağmı bəyan etdi. İtaliya diplomatiyası müharibəyə hansı > tərəfdən qoşulmaq barədə «bazarlıq etməyə» başladı. Almanlar i' Mama və Flandiriyada məğlub edildikdən sonra İtaliya Antanta dövlətlərinə müttəfiqlik haqqında müraciət etdi. Bundan ötrü İtaliya diplomatiyası şərt irəli sürdü: Avstriya -Macarıstandan Trentinonu, Brcnner aşırımına qədər Tirolu, Triesti, bütün İstriya və Dalmasiyanı, alban Valonunu almalı, həmçinin bütün Albaniya üzərində öz protektoratlığını qurmalı. Osmanlı dövlətinin Dodekanes adalarını və Kiçik- Asiyada Adaliya rayonunu işğal etməli idi.

Uzun danışıqlardan sonra ingilis və fransız diplomatiyası İtaliyanın bütün tələblərini yerinə yetirməyə razılıq verdi. Bundan sonra 1915-ci il aprelin 26-da İtaliya, İngiltərə, Fransa və Rusiya Londonda saziş bağladılar. Sazişə görə İtaliya bir ay sonra Antanta tərəfindən müharibəyə gimıəli idi. Beləliklə, Üçlər razılığı Dördlər razılığına çevrildi. Mayın 23-də İtaliya Avstriya-Macarıstana müharibə elan etdi. Nəticədə Avropada dördüncü- İtaliya cəbhəsi yarandı.

**Bolqarıstanın** müharibəyə cəlb edilməsi hər iki koalisiya dövlətlərinin diplomatik-siyasi mübarizəsində xüsusi yer tuturdu. Lakin Bolqarıstan uğmnda mübarizə bərabər şəraitdə aparılmırdı. Çar Ferdinand başda olmaqla bolqar hökuməti müharibənin əvvəlindən Rusiya və Serbistana qarşı müharibə aparmaq. haqqında Almaniya və Avstriya- Macarıstanla razılaşdı. Bolqar hökuməti ərazisindən həm Almaniya blokunun, həm də Antanta dövlətlərinin silah və sursatını buraxırdı. Almaniya və onun müttəfiqlərinə kömək edən bolqar hökuməti eyni zamanda Antanta dövlətləri ilə də danışıqlar aparırdı. Bolqarıstanla danışıqlar Antanta diplomatiyası üçün ağır şəraitdə keçirdi. Antanta ölkələri Bolqarıstanın ehtiyaclarını müttəfiqləri olan Serbistanın və potensial müttəfiqləri olan Rumıniya və Yunanıstanın əraziləri

hesabına ödəyə bilərdilər. Bu isə Antanta ölkələrinə çox ağır başa gələrdi. Antantadan fərqli olaraq Almaniya bloku dövlətləri Bolqarıstanın tələblərini düşmənləri olan Serbistanın hesabına yerinə yetirə bilərdilər. Ona görə də Almanıya və Avstriya- Macanstan diplomatiyası bolqar hökumətinə çoxlu vədlər verdilər.

Rus diplomatiyası Bolqanstanla apardığı danışıqlarda müharibə nəticəsində Serbistanın Avstriya-Macarıstan hesabına geniş ərazilər alacağını, buna görə də Makedoniyanı Bolqanstana güzəştə gedəcəyini bildirdi. Lakin Serbistan Makedoniyanı Bolqarıstana güzəştə getməkdən qəti şəkildə imtina etdi. Beləliklə, Bolqarıstanın Antanta dövlətləri ilə danışıqları 1915-ci ilin yayma yaxın kəsildi.

Sentyabrın 6-da isə Avstriya-Macarıstan,Bolqarıstan və Almaniya müttəfiqlik haqqında müqavilə bağladılar. Beləliklə, Osmanlı dövlətinin də iştirak etdiyi Dördlər ittifaqı yarandı. Oktyabrın 14-də bolqar ordusu hərbi əməliyyatlara başladı.

1915- ci ilin sonunda **Yunanıstanın** müharibədə iştirakı aktual oldu. Yunanıstan Balkanlarda və Kiçik Asiyada ərazi iddialarını təmin etməyin yolunu Antanta ölkələri ilə müttəfiqlikdə görürdü. Yunanıstan İstanbula və boğazlara sahib olmaq ümidində idi. Yunanıstanın iddiaları Rusiya ilə toqquşduğundan ingilis və fransız diplomatiyası xeyli dərəcədə ehtiyatlı hərəkət edirdi. Almaniya imperatoru II Vilhelmin bacısı ilə evlənən зoinan kralı Konstantin Almaniyaya meyl etsə də dövlətinin bitərəf qalmasını müdafiə edirdi. Lakin Venizelosun başçılığı altında yunan hökuməti Antanta ilə müttəfiqliyin tərəfdan idi. Belə olduqda kral Konstantin 1915-ci ilin martında Venizelosu işdən azad etdi və Baş nazirin tərəfdarlarının çox olduğu parlamenti buraxdı. Bundan sonra Venizelos Antanta dövlətlərinin köməyi ilə Salonikdə öz hökumətini yaratdı. Konstantin istefaya getməyə məcbur oldu.

1917- ci ilin iyulunda fransızlar Konstantin! İsveçrəyə apardılar. Onun əvəzinə kral təyin edilən oğlu Aleksandr müttəfiqlərin iradəsini yerinə yetirdi. Yunanıstan Venizelos başda olmaqla

birləşərək 1917-ci ilin sonunda Antanta tərəfindən rəsmi şəkildə müharibəyə girdi.

**Rumıniyanın** müharibəyə qoşulması uğrunda səylər hər iki koalisiya dövlətlərinin diplomatik-siyasi mübarizəsində mühüm yer tuturdu. 1914-cü il oktyabrın 1-də Rumıniya ilə Rusiya gizli saziş imzaladılar. Sazişə görə Rusiya Rumıniyanın ərazi toxunulmazlığına təminat verdi və Avstriya-Macarıstanın rumınlar yaşayan ərazisini özünə birləşdinnək hüququnu qəbul etdi.

İngilis və fransız diplomatiyası Rumıniyanın müharibəyə cəlb edilməsini qətiyyətlə tələb edirdi. Rumıniyanın müharibəyə girməsi Bolqarıstanın Almaniya blokundan çıxmasına, Yunanıstanın Antanta tərəfinə keçməsinə, Osmanlı dövlətinin öz müttəfiqlərindən uzaqlaşmasına və Balkan yarımadasının işğalına kömək edərdi.

1916- cı il avqustun 17-də Rumıniya Antanta dövlətləri ilə müqavilə imzaladı. Müqaviləyə görə Rumıniyanın Transilvaniyanı, Bukovinanı və Banatı özünə birləşdinnək hüququ qəbul edildi. Nəticədə Rumıniya avqustun 27-də Avstriya-Macarıstana qarşı müharibəyə girdi.

**Sülhə keçid cəhdləri**

Müharibənin üçüncü ilində mövcud olan hərbi, iqtisadi və siyasi şərait heç bir koalisiyanın qələbəsinə təminat vermirdi. Bütün döyüşən dövlətlər, xüsusən Almaniya bloku dövlətləri insan və iqtisadi ehtiyatlar sarıdan tükənməkdə idilər. 1916- cı ilin sonunda Antanta dövlətlərinin cəbhədə və arxada ordularınm sayı 25 mln. nəfər, Almaniya bloku ölkələri ordularınm sayı isə 15 mln. nəfərə yaxın idi. Bu dövrdə döyüşən dövlətlərdən artıq 6 mln. nəfər həlak olmuş, 10 mln. nəfər isə yaralanmış və əlil olmuşdu.

Hərbi əməliyyatlar iqtisadiyyata, xüsusən kənd təsərrüfatma sarsıdıcı zərbə vurdu. Kənd təsərrüfatı məhsulları istehsalı kəskin şəkildə aşağı düşdü. Enerji böhranı bür ölkələrin sənaye və nəqliyyatına öldürücü təsir göstərdi.

Döyüşən ölkələrin əhalisi hərbi əməliyyatların aparılmasından yorulmuşdu. Belə vəziyyət hər iki blok dövlətlərini ciddi şəkildə rahatsız edirdi. Ona görə də döyüşən dövlətlərin hökumətləri müharibəyə qarşı hərəkatı zəifl ətməkdən ötrü müxtəlif sülh təklifləri ilə çıxış etdilər. Tərəflərin hər biri müharibənin aparılması üçün məsuliyyəti qarşı tərəfin üzərinə yıxmağa çalışırdı.

İlk sülh təklifini Almaniya etdi. 1915-ci ildə alman diplomatiyası Rusiyaya sülh bağlamağı təklif etdi. Rusiya diplomatiyası bundan imtina etdikdə Almaniya açıq şəkildə bütün döyüşən dövlətlərə sülh təklifi ilə müraciət etdi.

1916-cı il dekabrın 12-də alman hökuməti özünün və müttəfiqlərinin adından Antanta ölkələrinə sülh danışıqlarına başlamaq haqqında müraciət etdi. Təklifdə Antanta ölkələrinin Almaniyaya hücum etməsi, Almaniya və onun müttəfiqlərinin başqa ərazilərdə olmasının qələbə kimi qələmə verilməsi əsas yer tuturdu. Almaniya mənasız qan tökülməsinin əleyhinə çıxdığını bildirdi.

1916- eı ilin sonunda bitərəf ölkələr olan ABŞ, İsveçrə, Norveç, Danimarka və İsveç də döyüşən ölkələrə sülh bağlamaq təklifi ilə çıxış etdilər. Lakin bu təkliflərin elə bir nəticəsi olmadı.

1917- ci ili yanvarın 30-da Antanta hökumətləri Almaniyanın təkliflərinə rədd cavabı verərək Almaniyanın tam məğlub edilməsinə qədər sülh bağlamayacaqlarını bəyan etdilər.

**ABŞ-ın müharibəyə qoşulması**

.\BŞ dünyanın onun iştirakı olmadan ' bölüşdürülməsinə razı deyildi. Lakin dünyanın bölüşdürülməsində iştirak etməkdən ötrü mütləq müharibəyə qoşulmaq lazım idi. ABŞ diplomatiyasının müharibəyə kim tərəfindən qoşulmasını obyektiv şərait özü müəyyənləşdirdi. ABŞ və İngiltərə kapitalının çoxdan qurulan iqtisadi, siyasi və maliyyə əlaqələri bu seçimə təsir göstərdi. ABŞ bankirləri və inhisarları müharibənin gedişində onlara borclu olan Antanta dövlətlərinin məğlub olmasını və müflisləşməsini istəmirdilər. Müharibədə

Almaniyanın qələbə qazanması isə ABŞ-ın dünya planlarının reallaşmasına mane ola bilərdi. ABŞ diplomatiyasının düşüneəsinə görə Almaniya qələbədən sonra Avropanı, Kiçik Asiyanı və Afrikanı özünə tabe etdirib onu hətta Cənubi Amerikadan sıxışdırıb çıxarardı və Yaponiya ilə ittifaq bağlayıb Birləşmiş Ştatlar üçün təhlükə törədərdi. Antanta ölkələri məğlub olacağı təqdirdə, Yaponiya Uzaq Şərqdə hökmran dövlətə çevrilə bilərdi.

ABŞ diplomatiyası 1916-cı ilin dekabrından 1917-ci ilin yanvarınadək hər iki blok dövlətləri ilə danışıqlar apardı. Alman diplomatiyasının ABŞ prezidenti Vudro Vilsona(19.12- 1920) göndərdiyi sülh təklifləri ABŞ-ın mənafelərinə cavab vermirdi. Almaniyanın sülh təklifləri Antanta tərəfindən rədd edildiyindən bitərəf dövlətlərin gəmilərinə qarşı fevralın 1-dən amansız müharibə başlandı. ABŞ Almaniya ilə diplomatik münasibətləri kəsmək üçün bəhanə tapdı. 1917-ci il fevralın 2- də Almaniya ilə diplomatik münasibətləri kəsməsinə baxmayaraq ABŞ ona müharibə elan etmədi. ABŞ-ın Almaniyaya müharibə elan etməsi üçün şərait aprel ayında yarandı. Almaniya ABŞ-ın bir neçə gəmisini batırdı. ABŞ-ın müharibəyə qoşulması üçün bəhanə eyni zamanda Almaniyanın dövlət katibi S'immermanın Meksikadakı alman səfirinə göndərdiyi teleqram oldu. Teleqramda Meksikanın ABŞ-a qarşı müharibəyə başlaması təklif edilirdi. Bu təklif yerinə yetirilərdisə XIX əsrdə ABŞ-ın Meksikadan aldığı sərhəd ştatları ona qaytarılmalı idi. Simmermanın bu teleqramına cavab olaraq ABŞ hökuməti 1917-ci il aprelin 6-da Almaniyaya müharibə elan etdi.

**Döyüşən koalisiyalar arasında ziddiyyətlər**

Vahid koalisiyada digərinə qarçı döyüşmələrinə baxmayaraq hər bir düşərgənin daxilində kəskin ziddiyyətlər hökm sürürdü. Antanta cəbhəsində ən kəskin ziddiyyət İngiltərə və Rusiya arasında idi. Rusiya və müttəfiqləri arasında ziddiyyətlər əsasən Balkanlarda, Bosfor və Dardanel boğazlarında, Osmanlı dövlətinin Asiya hissəsində toqquşurdu.

İngiltərə və Fransa müharibənin sonunadək Rusiyanın güclü qalmasım istəmirdilər. Güclü Rusiya qənimətin bölüşdürülməsində onlara mane ola bilərdi. Bu dövlətlər rus ordularının Osqıanlı dövlətində müvəffəqiyyətinə öz mənafelərinə zərbə kimi baxırdılar. Lakin İngiltərə və Fransanın Rusiya qarşısında başqa bir üstünlüyü də var idi. Rusiyanm iqtisadi cəhətdən geri qalması onu ingilis və fransız kapitalından asılı vəziyyətə salmışdı.

Antanta dövlətləri arasında ziddiyyətlər Qərbi Avropada və Yaxın Şərqdə nüfuz dairələri uğurunda daha kəskin idi. İngiltərə Elzas və Lotaringiyanın Fransaya birləşdirilməsinin tərəfdarı olsa da Saar vilayətinin və Reynin sol sahilinin ona verilməsinin qəti şəkildə əleyhinə çıxırdı. Bu planların həyata keçirilməsi Fransanı Qərbi Avropada hegemon dövlətə çevirərdi. İngilis diplomatiyası isə buna yol verməkistəmirdi. İngiltərənin maraqları Fransa ilə eyni zamanda Osmanlı imperiyasında da toqquşurdu. Fransızlar zəngin neft ehtiyatları olan Mosul vilayətinə iddia edirdilər. Mosul üstündə ingilis və fransız diplomatiyası arasında kəskin və gizli mübarizə gedirdi. Fransanın iddia etdiyi Fələstin, Suriya və digər ərəb ərazilərinin yaxmıığında ingilislərin uğurlu hərbi əməliyyatlar aparmalarına fransızlar qısqanclıqla yanaşırdılar.

İngilis-fransız ziddiyyətləri Balkanlarda daha kəskin idi. Balkanlarda eyni zamanda İtaliya ilə Fransanın da mənafeyi toqquşurdu. İtaliya Avstriya-Macarıstanı məhv edərək Balkanlara yiyələnməyə çalışırdı. Antanta dövlətləri arasında olan kəskin ziddiyyətlər hərbi əməliyyatların aparılmasının əlaqələndirilməsində çətinlik yaradırdı.

**Dünyanın ərazicə bölüşdürülməsinə dair Antanta dövlətlərinin məxflsazişi**

Kəskin ziddiyyətlərə baxmayaraq 1914- cü ilin payızında Antanta dövlətləri Avropanm xəritəsinin dəyişdirilməsi və alman müstəmləkələrinin bölüşdürülməsi haqqında razılığa gəldilər. Sentyabrda rus diplomatiyası

Poznan, Silcziya və Qalisiya Rusiyaya birləşdirilsin; türk boğazlarından ITJS gəmilərinin sərbəst keçidi təmin edilsin; Avstriya-Macarıstan imperiyası Avstriya, Çexiya və Macarıstana bölüşdürülsün; Bosna və Herseqovina, Dalmasiya və Albaniyanın şimal hissəsi Serbistana birləşdirilsin; Albaniyanın cənub hissəsi Yunanıstana birləşdirilsin; Almaniya müstəmləkə mülkləri İngiltərə, Fransa və Yaponiya arasında bölüşdürülsün; Avstriya-Macarıstan və Almaniya təzminat ödəsin.

İngiltərə və Fransa da 1914-cü ilin sentyabr-oktyabr aylarında Avropanın və alman mülklərinin bölüşdürülməsinə dair öz planlarını təklif etdilər. İngilis, rus və fransız planları əsasən bir-birinə uyğun gəlsə də, müttəfiqlər arasında bir sıra fikir ayrılıqları mövcud idi. Almaniya donanmasının ləğv edilməsi tələblərinin yerinə yetirilməsində Rusiya maraqlı deyildi. Eyni zamanda İngiltərə Fransanın Reynin sol sahilini tutması və Saar vilayətini özünə birləşdirməsi ilə razılaşmaq istəmirdi. Rusiyanın Adriatik dənizinin şərq sahillərində İtaliya, Avstriya-Macarıstan və Rumıniyaya qarşı dura biləcək serb- xorvat dövlətinin yaradılması təklifinə ingilis və fransız diplomatiyası razı deyildi.

**İstanbul və boğazlar haqqında saziş** Osmanlı dövlətinin Mərkəz dövlətləri tərəfindən müharibəyə qoşulması Antanta dövlətləri diplomatiyası qarşısında bir sıra kəskin məsələlər qoydu. 1914-cü ilin noyabrında Qafqaz və Mesopotamiya, sonra isə Fələstin və Dardanel cəbhələri yaradıldı. Qafqaz cəbhəsi daha çox əhəmiyyət kəsb etdiyindən Osmanlı dövləti buraya xeyli qüvvə göndərdi. Osmanlı dövləti müharibəyə qoşulduqdan sonra ingilis diplomatiyası noyabrın 14-də Rusiyanın razılığı ilə boğazlar və İstanbul haqqında məsələni və bütövlükdə türk məsələsini tamamilə həll etməyi vəd etdi. 1915-ci il martm 12- də İngiltərə Rusiyanın İstanbula olan iddialarını müharibə uğurla başa çatdırılarsa, İngiltərə və Fransanın istəkləri Osmanlı imperiyasında və digər yerlərdə yerinə yetirilərsə qəbul edəcəyini bildirdi.

1915- ci il aprelin 10-da Fransa da İstanbulun və boğazların Rusiyaya keçinəsinə eyni şərtlərlə razı olduğunu bildirdi.

1916- cı ilin aprel-mayında ingilis və fransız diplomatları olan Sayks və Pikonun layihəsi əsasında İngiltərə, Fransa və Rusiya arasında Asiya Türkiyəsini bölüşdürmək haqqında ümumi saziş bağlandı. Bu sazişə görə Rusiya «Böyük Ermənistan» adlandırılan ərazini - .Ərzurum, Van, Bitlis, Trabzon və Trabzonun qərbində Qara dəniz sahillərinin xeyli hissəsini işğal etməli idi.

Sazişə görə Fransa Suriya və Kilikiyanı, Rusiyaya keçən vilayətlərin qərbindəki əraziləri, İsgəndərun limanı ilə birlikdə İsgəndəriyyə körfəzini almalı idi. Fələstində beynəlxalq nəzarət altında muxtar vilayət yaradılmalı, Fələstinin iki limanı- Akra və Hayfa İngiltərəyə keçməli idi.

Ərəb dövlətləri federasiyasını təşkil edən Ərəbistan yarımadasını və ona bitişik şimal əraziləri ingilis və fransızlar iki zonaya böldülər: fransız zonasma- gələcəkdə Fransa mülkləri kimi nəzərdə tutulan Suriya və Kilikiya, Mosul vilayəti ilə birlikdə Şimali Mesopotamiya; ingilis zonasına isə fransız zonasından cənuba İran körfəzinə qədər olan ərazi daxil idi. Beləliklə, gələcək ərəb dövlətləri İngiltərə və Fransanın siyasi, iqtisadi və hərbi asılılığına düşürdülər.

1917- ci il aprelin 19-da İngiltərə və Fransa İtaliyanın Kiçik Asiyanın Aralıq dənizi sahillərindəki fransız mülklərindən şərqə doğru İzmirə qədərki əraziləri tutmaq hüququnu tanıdılar. Kiçik Asiya yarımadasının şimal hissəsi isə gələcəkdə yaradılacaq müstəqil Türkiyə dövləti üçün nəzərdə tutuldu.

Rusiyada çarizmin devrilməsinə bir gün qalmış rus və fransız diplomatiyası məxfi saziş imzaladılar. Bu sazişə görə, Fransa Elzas və Lotaringiyanı çıxmaq şərtilə bütün keçmiş Lotaringiya hersoqluğunu, Saar çayı hövzəsindəki daş kömür mədənlərini, Reynin sol sahilindəki ərazini özünə birləşdirməli və burada bitərəf muxtar dövlət yaratmalı idi. Öz növbəsində fransız diplomatiyası Rusiyanın Almaniya və Avstriya-

Macarıstanla gələcək sərhədlərini qurmaqda tam sərbəstliyini tanıdı.

**UzaqJŞərqdə beynəlxalq münasibəllər illərdə**

Avropanın böyük dövlətlərinin Uzaq Şərqdən müvəqqəti çıxdığını görən Yaponiya Çində və Sakit okean hövzəsində öz hökmranlığını qurmaq üçün istifadə etdi. Müharibənin əvvəlindən Yaponiya Çinin Şandun əyalətini və Okeaniyadakı adaları tutub planlarmı həyata keçirtməyə başladı.

1915- ci il yanvarın 18-də Yaponiya Çinə 21 maddədən ibarət ultimatum verdi. Bu tələblərin yerinə yetirilməsi əslində Çini Yaponiyanm müstəmləkəsinə çevirirdi. Yapon diplomatiyası Çindən Şandun əyaləti üzərində, Cənubi Mancuriyada və Monqolustanda Yaponiyanm iqtisadi və siyasi hökmranlığını qəbul etməyi, bu ərazilərdə, yaponların yerləşdirilməsini və onların mülklər almaq hüququnu tanımağı tələb etdi. Tələblərin içərisində Yaponiyanın siyasi və maliyyə müşavirlərinin qəbul edilməsi, Çinin mühüm mərkəzlərində yapon-çin polisinin yaradılması, Çinin yalnız Yaponiyadan silah alması və s. məsələlər var idi. Bu tələblərə tab gətirmək iqtidarında olmayan Çin Yaponiyanm rəqibləri olan Rusiya, İngiltərə, Fransa və ABŞ -dan istifadə etmək istədi. Lakin Avropa dövlətlərinin Yaponiyanm planlarının həyata keçirməsinə mane olmaq üçün qüvvələri yox idi. ABŞ -m mənəvi-siyasi köməyi də kifayət etmirdi. Çin hökuməti Yaponiyanın tələblərinin əksəriyyətini qəbul etdi. Siyasi tələblərdən isə Yaponiya özü imtina etdi. Yaponiyanın Şandun vilayətini işğal etməsi Çinin digər yerlərində Almaniyanın iqtisadi mövqelərini tam məhv edə bilmədi. Çin ticarətinin xeyli hissəsi alman təbəələrinin əlində idi. Alman bankları və ticarət şirkətləri bu ölkədə səmərəli fəaliyyət göstərirdilər. Çin əslində Uzaq Şərqdə siyasi intriqalar mərkəzinə çevrildi.

Antanta dövlətləri Uzaq Şərqdə alman intriqalarmdan yaxa qurtarmağın ən radikal yolu kimi Çinin Almaniyaya müharibə elan etməsində gördülər. Çin Almaniyanın iqtisadi

konsessiyalarını və təbəələrini ölkədən çıxara bilərdi. Almaniyaya müharibə elan etmək Çinin də mənafeyinə uyğun idi. Belə olduqda Çin hüquqi eəhətdən müttəfiqlərlə bərabər vəziyyətə düşürdü, onun siyasi və mənəvi nüfuzu artırdı, Yaponiya ilə bağlanmış qeyri-bərabər hüquqlu müqavilələri gələcəkdə ləğv etmək üçün əlverişli şərait qazanırdı. Lakin Çinin Almaniyaya müharibə elan etməsi Yaponiyanın istəklərinin əleyhinə getməməli idi. Yapon diplomatiyası Uzaq Şərqdə yaranmış əlverişli beynəlxalq şəraitdən öz mənafeləri naminə istifadə etdi. Yaponiya sənayesi və xarici ticarəti sürətlə inkişaf etdi, Avropada müharibə ehtiyaclarını ödəyən çoxlu fabrik və zavodlar tikildi. Yaponiya silah satışından külli miqdarda gəlir götürdü. Çini sülh konfransına buraxmaq istəməyən Yaponiya Çində alman maraqlarının tam ləğvinin də əleyhinə idi. Yaponiya Uzaq Şərqdə gələcək müttəfiqi kimi Almaniyanı görürdü. Yaponiya Çinin Almaniyaya müharibə elan etməsinə razılıq vermədikdə müttəfiqlər Yaponiya ilə bir sıra müqavilələr bağlayıb onun iddialarını qəbul etdilər. 1917-ci ilin fevralmda Antanta dövlətləri sülh konfransında Yaponiyanın Şandun yarımadasma və keçmiş alman ada mülklərinə olan iddialarını müdafiə edəcəkləri barədə öhdəlik götürdülər. Bundan sonra Yaponiya Çinin Almaniyaya qarşı müharibəyə girməsinə etiraz etmədi; 1917-ci il fevralın 14-də Çin Almaniya ilə diplomatik münasibətlərini kəsdi, avqust ayında isə ona müharibə elan etdi. Lakin Yaponiya, İngiltərə, Rusiya və Fransanın bağladıqları məxfi saziş Çinin istəklərinin yerinə yetirilməsini heçə endirdi.

ABŞ-ın Yaponiya ilə bağladığı sazişlər də Çinin mənafeyinə zidd idi. 1917-ci il noyabrın 2-də imzalanan sazişə görə ABŞ hökuməti Çində Yaponiyanın xüsusi hüquqları olduğunu tanıdı.

**AImaniya„ bloku** Antanta blokundan fərqli olaraq **daxilmdə_ziddiyyətlər** alman blokuna daxil olan dövlətlər iqtisadi, siyasi, hərbi inkişaf və qüdrət cəhətdən bir-birindən fərqlənirdilər. Almaniya özünün

hərbi, iqtisadi, maliyyə, siyasi və texniki qüdrətinə görə digər müttəfiqlərini ötüb keçirdi. Osmanlı dövləti, Bolqarıstan və Avstriya-Macarıstan Almaniyadan çox geri qalırdılar. Bu blok daxilindəki ziddiyyətlərin əsas səbəbi müstəmləkələrə sahib olmaq üstündə idi. Fransa, Rusiya, Serbistan və Rumıniyada qələbələr müharibənin nəticəsinə təsir göstərməsə də, Almaniya ilə müttəfiqləri arasında ziddiyyətləri kəskinləşdirdi. Müharibənin ilk günlərindən Almaniya və Avstriya-Macarıstan arasında Polşa üstündə ixtilaf yarandı. Bu iki müttəfiq dövlət arasında ziddiyyətlər həmçinin İtaliya və Rummiyaya münasibətdə də hökm sürürdü. Bolqarıstanla Avstriya- Macarıstan arasmda hökm sürən ziddiyyət Serbistana və Balkan yarımadasına münasibətdə də mövcud idi. Müttəfiq dövlətlərin Osmanlı dövlətində də mənafeləri toqquşurdu. Müharibəyədək Avstriya-Macarıstan Osmanlı dövləti ilə geniş ticarət əlaqələri saxlayırdı. Almaniya müttəfiqi ■ olan Avstriya-Macarıstanı Osmanlı dövlətindən vurub çıxarmağa çalışırdı. Bütün bu ziddiyyətlərə baxmayaraq blok ölkələri müttəfiq kimi Almaniyanın ətrafında birləşdilər.

**Avropanın bölüşdürülməsinə dair Alma niya ya^ Avstriya-Macarıstan^ılanı**

1916- cı ilin oktyabr-noyabrmda Almaniya və Avstriya-Macarıstan hökumətləri sülh konfransında müdafiə edəcəkləri proqramı işləyib hazırladılar. Bu proqram müharibəyə qədərki ərazilərin Almaniya, Avstriya-Macarıstan və Osmanlı dövlətinə qaytarılmasını, təhlükəsizliyi təmin etmək adı altında Belçikanın, Belçika Konqosunun alınmasını, Lüksemburqun, Fransanın Lonqvi və Briye hövzələrinin, Litva və Kurlandiyanın Almaniya imperiyasına birləşdirilməsini, Rusiyadan Polşa çarlığının ayrılmasını, Rusiya, İtaliya, Rumıniya və Serbistan hesabına Avstriya-Macarıstan sərhədlərinin strateji baxımdan yaxşılaşdırılmasını, Qaradağm Avstriya-Macarıstana birləşdirilməsini və Albaniya üzərində protektoratlığının qurulmasını, Serbistan və Rumıniya hesabına

Bolqarıstan ərazlərinin genişləndirilməsini, hərbi xərclərə görə külli miqdarda təzminat alınmasım nəzərdə tuturdu.

Rusiyada fevral inqilabı baş verdikdən sonra Almaniya və Avstriya-Macarıstan hökumətləri Kurlandiya, Litva və Polşanın Almaniyaya, Rumıniyanın xeyli hissəsinin, Serbistan, Qaradağ və Albaniyanın isə Avstriya - Macarıstana birləşdirilməsi barədə razılığa gəldilər. 1917-ci ilin noyabrında Almaniyanın Avstriya-Macarıstanla bağladığı məxfi sazişə əsasən Polşa çarlığı iki hissəyə bölünürdü. Onun böyük bir hissəsi sərhədləri düzəltmək adı altında Almaniyaya, digər hissəsi isə Avstriya-Macarıstana keçməli idi. Litvada böyük knyazlıq, Kurlandiyada böyük hersoqluq yaradılmalı idi. Nəhayət, 1917-ci il dekabrın 18-də Almaniyanın imperiya şurasında əraziləri daha da genişləndirmək barədə qərar qəbul olundu.

**Rusiyada Oktyabr çevrilişinin^beyjıəlxalq münasibətlərə təsiri**

1917-ci il noyabrın 7-də (25 oktyabr) Petroqradda baş verən oktyabr çevrilişi nəticəsində bolşevik hökuməti quruldu. Sovet hökuməti noyabrın 8-də Sülh və Torpaq haqqında dekretlər verdi. 1918-ci ilin yanvarında isə yeni hökumət çar və müvəqqəti hökumətlərinin bütün daxili və xarici dövlət istiqrazlarını ləğv etdi. Sovet hökuməti çar Rusiyasınm bağladığı gizli müqavilələri elan etdi. Oktyabr çevrilişi və müharibənin aparılmasının əzabları həm döyüşən ölkələrdə, həm də müstəmləkə ölkələrində milli-azadlıq hərəkatına böyük təkan vurdu.

Oktyabr çevrilişindən sonra Rusiyanın keçmiş müttəfiqləri olan İngiltərə və Fransa hökumətləri ABŞ hökumətinin köməyi ilə Rusiyanı nüfuz dairələrinə bölməkdən ötrü hərbi müdaxiləyə başladılar. Rusiya ilə keçmiş müttəfiqləri arasında sülh müqaviləsi imzalamaq mümkün olmadı.

**Brest ilanışıqlarj *ya* sülh müqaviləsi**

1917- ci il noyabrın 30-da Almaniya və Avstriya-Macarıstan hökumətləri Rusiya ilə sülh danışıqlarına başlamağa razı olduğunu bildirdilər. Dekabrın 15-də bolşevik və alman orduları

komandanlığı barışıq bağladılar. Dekabrın 22-də isə Brest- Litovskda Rusiya ilə Almaniya, Avstriya-Macarıstan, Osmanlı dövləti və Bolqarıstan arasında sülh danışıqlarma başlandı. Bolşevik nümayəndə heyəti aşağıdakı şərtləri irəli sürdü: müharibə dövründə işğal olunmuş ərazilər boşaldılır; müharibə dövründə müstəqilliklərini itirən dövlətlərin müstəqillikləri bərpa edilir; müharibəyə qədər müstəqilliyi olmayan milli qruplar onu özləri müəyyənləşdirirlər; milli azlıqlara mədəni- milli muxtariyyat və ya ərazi müxtariyyatı verilir; müstəmləkə xalqlarmın taleyi yuxarıda göstərilən, prinsiplər əsasında tənzimlənir; müharibədə iştirak edən bütün tərəflər təzminatdan, iqtisadi müharibədən və iqtisadi baykotdan imtina edirlər. Almaniya bloku ölkələri bu təklifləri danışıqların əsası kimi qəbul edərək müəyyən müddətdən sonra danışıqlara razı olduqlarını bildirdilər. Brest-Litovskda danışıqlara başladılar. Almaniya komandanlığının nümayəndəsi general Hofman Polşa və Belarusiyanm bir hissəsi, bütün Litvaya vƏ Kurlandiyaya iddialar irəli sürdü. Əks- təqdirdə hərbi əməliyyatlara başlanacağı ilə hədələdi. Almaniya bloku ölkələri lÄraniya mərkəzi radası ilə də danışıqlara başladılar. Danışıqlar 1918-ci il fevralm 9-da sülh müqaviləsini imzalamaqla nəticələndi.

Brest-Litovskda sülh danışıqları zamanı Osmanlı dövləti nümayəndə heyəti Güney Qafqaz respublikalannm Rusiyadan ayrılmasını tələb etdi.

Bolşevik nümayəndə heyətinin başçısı Trotski sülh bağlamağın əleyhinə çıxdıqda fevralın 18-də müttəfiq orduları hücuma keçdi. Rusiya 1918-ci ilin martın 3-də Brest-Litovsk sülh müqaviləsini imzalamağa məcbur oldu. Almaniya və Avstriya-Macarıstan Polşanı, Volını və Belarusiyanın bir hissəsini, Litva və Kurlandiyanı, Latviya, Estoniya və Finlandiyanı aldılar.

**A~~BŞ pr~~ezidenti** Birinci dünya müharibəsi davam edən **~~Vudro~~ ~~V~~ılsonun** zaman iştirakçı dövlətlər müxtəlif sülh **~~“14 madda”~~si** proqramları ilə çıxış etdilər. Belə proqramlardan birini 1918-ci il yanvarm 18-

də ABŞ prezidenti Vudro Vilson irəli sürdü. Proqramda aşağıdakılar nəzərdə tutulmuşdu:

**1. Sülh müqavilələrinin açıq müzakirəsi. Bundan sonra heç bir gizli beynəlxalq saziş olmayacaq, diplomatiya isə həmişə açıq-aydın və hamının gözü qarşısında fəaliyyət göstərəcək;**

**2. Ərazi suları xaricində həm sülh, həm də müharibə vaxtı gəmiçiliyin dənizlərdə mütləq sərbəstliyi;**

**3. Mümkün qədər bütün iqtisadi maneələrin ləğvi;**

**4. Dövlət təhlükəsizliyinə uyğun olaraq silahların mümkün qədər azaldılması üçün ədalətli zəmanətlər;**

**5. Müstəmləkələr üzərində suverenliklə bağlı bütün məsələlərin həllində əhalinin maraqlarınm hökumətlərin ədalətli tələblərinə nisbətdə bərabər tutulması prinsipinə əsaslanaraq bütün müstəmləkə mübahisələrinin sərbəst, səmimi və mütləq bitərəflik mövqeyindən həlli;**

**6. Bütün rus torpaqlarının azad edilməsi... Rusiya öz taleyini özü müəyyən etməli, istədiyi idarə formasını seçməli və Millətlər Cəmiyyətinə qəbul edilməlidir;**

**7. Belçika... boşaldılmalı və bərpa edilməlidir;**

**8. Fransa boşaldılmalı; işğala məruz qalmış ərazilər bərpa edilməli; Elzas və Lotaringiya Fransaya verilməlidir;**

**9. İtaliyanın sərhədləri aydın görünən milli sərhədlərə görə dəyişdirilməlidir;**

**10. Avstriya-Macarıstan xalqları... geniş muxtar inkişaf imkanları əldə etməlidirlər (sonralar muxtariyyət prinsipi tam müstəqilliklə əvəz edildi);**

**11. Rumıniya-Serbistan və Qaradağ boşaldılmalıdır;**

**12. Osmanlı imperiyasının türk hissəsi... təminatlı və möhkəm süverenlik almalıdır; tabe edilmiş millətlərə təhlükəsizlik və muxtar inkişafın mütləq pozulmaz şərtləri təmin edilməlidir;**

**1.3. Müstəqil Polşa dövləti yaradılmalıdır;**

**14. Xüsusi müqavilələr əsasında ümumi Millətlər Birliyi (Millətlər Cəmiyyəti) yaradılmalıdır.**

Sonralar, 1918-ci ilin fevralında Vilson 14 maddəyə daha dörd prinsip əlavə etdi. Onların qısa məzmunu belə idi;

**1.** Sülh prosesi qeyd-şərtsiz olaraq ədalətə əsaslanmalıdır;

**2. Xalqlar və vilayətlər dövlətlər arasında şahmat oyunundakı piyada kimi mübadilə vasitəsinə çevrilməməlidir;**

**3. Hər bir ərazi məsələsi aidiyyəti üzrə yerli əhalinin maraqlarına uyğun olaraq həll edilməlidir;**

**4. Öz taleyini qəti müəyyən etmiş bütün milli elementlərin tələbləri ödənilməlidir.**

**Prezident Vilson tərəfindən bəyan edilmiş prinsiplərdən yararlanmaq istəyən və istiqlalının tanınmasım tələb edən xalq aşağıdakı şərtlərə cavab verməli idi:**

**1. Hər bir millət xaralçterindəki müəyyən intellektual və mənəvi-dini xüsusiyyətlərinə görə seçilməlidir.**

**2.** Hər bir millət öz taleyini müəyyən etməyə qadir olduğunu göstərməlidir.

**3. O, öz xərclərini ödəmək üçün iqtisadi, təbii və maliyyə vasitələrinə malik olmalıdır.**

**4. O, özünü xarici təcavüzdən qoruya bilməlidir.**

O, tabe olduğu ölkənin hökumətinin zülmündən əziyyət çəkmiş olmalıdır.

**Bu proqram müharibədən sonrakı dövrdə həm dünya quruluşunu, həm də ABŞ-ın xarici siyasət məqsədlərini müəyyənləşdirməyi güdürdü.**

**Rumıniyanın təslim olması. Buxarest sülhü**

1918-ci il mayın 7-də Buxarestdə Rumıniya ilə Almaniya bloku ölkələri arasında sülh müqaviləsi və bir sıra iqtisadi sazişlər imzalandı. Bu sazişlər Rumıniyanm bütün təbii sərvətləri və ehtiyatlarından istifadə edilməsində Almaniya inhisarlapna müstəsna hüquq verirdi. Buxarest sülh müqaviləsinə görə Rumıniya 15 min km.-lik strateji cəhətdən mühüm və meşələrlə zəngin olan dağlıq sərhəd zolağını Avstriya-Macarıstana güzəştə gedirdi. Cənubi Dobrucanı

Bolqarıstana qaytarırdı, Dobrucanın qalan hissəsini Köstəncə limanı ilə birlikdə Almaniya bloku ölkələrinin istifadəsinə verirdi. İndiyədək istifadə olunmayan neft mədənləri 90 il müddətinə Almaniya kompaniyalarına verilirdi. Buxarest sülhü Rumıniyanın Bessarabiyanı özünə birləşdirməsini qəbul etdi,

**1918-ci ilin əvvəlində** Almaniya Avropanın şərqində **döyüşən ölkələr arasında qüvvələr nisbəti** ^ərbı əməliyyatlar apardıqdan və geniş ərazilər tutduqdan sonra müharibənin artıq başa çatdığını və düşmən ölkələrə öz sülh şərtlərini qəbul etdirəcəyini güman edirdi. 1918-ci il martın ortalarında Qərb cəbhəsində Almaniyanın 181 piyada diviziyası və 3 əlahiddə briqadası var idi. Həlledici döyüşlərin gedişində Almaniya diviziyalarının sayı qərb cəbhəsində başqa cəbhələrdən gətirilənlərin hesabına 205-ə çatdı. Almaniyanın düşmənlərinin isə 171 piyada diviziyası var idi. Lakin almanların 34 diviziyasının çox olması hələ məsələləri həll etmirdi.

Almaniya bloku ölkələrinin beynəlxalq vəziyyətinə onların təsərrüfat-iqtisadi həyatı ciddi təsir göstərirdi. Əhali aclıq çəkirdi. Orduda lazım olan şeylər çatışmırdı. Almaniya iqtisadi cəhətdən tükənmişdi. Əmək məhsuldarlığı aşağı düşmüşdü. Yanacaq və xammal ehtiyatları çatışmırdı. Nəqliyyat bərbad hala düşmüşdü və insan ehtiyatı tükənmişdi. Xalq müharibədən cana doymuşdu.

Avstriya-Macarıstan ordusunun əsgərləri aclıq çəkirdilər. Onlar döyüş qabiliyyətini itinnişdilər. Xalqların ırğlli azadlıq mübarizəsi müharibəni davam etdirməyə mane olurdu.

Osmanlı dövləti və Bolqarıstan da çətin vəziyyətə düşmüşdü. Alman bloku ölkələri içərisində yalnız Almaniya ordusu hələ döyüş qabiliyyətini qoruyurdu.

İngiltərə, Fransa və İtaliyanın da iqtisadi və ərzaq vəziyyəti asan deyildi. Lakin onların tükənməyinə hələ çox var idi. Bu ölkələr içərisində İtaliyanın vəziyyəti daha fəlakətli idi. İngiltərə və Fransanın strateji xammal, ərzaq, işçi qüvvəsi və

osgər aldığı müstəmləkələrlə əlaqəsi Almaniyanın apardığı sualtı müharibə ucbatından çətinləşmişdi,

Mərbi texnika sarıdan İngiltərə, Fransa və ABŞ Almaniya blokunu ötüb keçirdi. ABŞ-ın yardımı müharibədə mühüm rol oynayırdı. 1918-ci ilin yayında Almaniya ordusu döyüş qabiliyyətini itirdi. Sentyabr ayında alman ordusunun ali baş komandanlığı, xüsusən Lüdendorf və Flindenburq alman ordusunun Gaha müqavimət göstərə bilməyəcəyini etiraf etdilər. Sentyabrın 30-da isə Almaniyada liberal Maks Badenskinin başçılığı ilə yeni hökumət yaradıldı. Bu hökumət oktyabrın 4-də ABŞ prezidenti Budro Vilsona nota göndərərək «14 maddə» şərtlərinə uyğun olaraq sülh bağlamağa razı olduğunu bəyan etdi. Berlinlə Vaşinqton arasında notalar mübadiləsi bir ay çəkdi. Vilson öz notalarında Almaniyada II Vilhelm hakimiyyətdən getməyənədək və alman ali komandanlığı siyasi hakimiyyətə tabe ctdirilməyənədək müttəfiqlərin heç bir rəsmi danışıqlar aparmayacağını açıq şəkildə bildirdi. Oktyabrın 26-da l.üdcndorf vəzifədən uzaqlaşdırıldı. Özünü paytaxtda təhlükəsiz hiss etməyən II Vilhelm qərargaha, Hindenburqun yanına getdi. Alman ordularının hərbi əməliyyatlar aparmaq iqtidarında olmadığını görən müttəfiqlər növbəti döyüş planlarım hazırlamaqdan imtina etdilər

**Bolqarıstanın təslim olması və barışığın imzalanması**

Barışıq haqqında danışıqlar davam edərkən Almaniyanın müttəfiqləri bir-bir hərbi əməliyyatlardan çıxırdılar.

1918TCİ ilin ikinci yarısmda Bolqarıstanı kəskin iqtisadi və siyasi böhran bürüdü. Ölkə iqtisadiyyatı tamamilə dağıldı. Xalq və ordu aclıq çəkirdi. Almaniya Bolqarıstanı silah, hərbi sursat və geyimlə təhciz etməyi dayandırdı. Sentyabrın 15-də Antanta ölkələrinin qüvvələri Dobro çölü rayonunda bolqar ordusunu darmadağın etdilər. Sentyabrın 29-da müttəfiq komandanlığı Almaniyaya barışıq şərtlərini diktə etdi. Barışığın şərtlərinə görə Bolqarıstan Serbistanın, Yunanıstanın və Rumıniyanın işğal etdiyi əraziləri azad etməyi öz öhdəsinə götürürdü və bolqar yolları müttəfiq

ordularının əlinə keçirdi. Belə vəziyyət dağılmaqda olan Avstriya-Macarıstanın məğlubiyyətini sürətləndirdi.

### Osmanlı dövlətinin məğlub olması və barışığın imzalanması

Bolqarıstanın məğlubiyyəti Osmanlı dövlətinin məğlub olmasını sürətləndirdi. 1918-ci ilin oktyabrında türk ordusu Fələstində və Suriyada məğlubiyyətə uğradı. Oktyabrın 30-da Hüseyn Rauf bəy Osmanlı dövləti adından ingilis komandanı Kaltorpla barışıq sazişi imzaladı. Kaltorpun Aralıq dənizindəki Saqqız (Lemnos) adasında Mondros limanında müttəfiqlər adından imzaladığı barışıq müqaviləsinin şərtlərinə görə boğazlar müttəfiqlər tərəfindən işğal edilirdi; Osmanlı sularındakı bütün sualtı silahlar və silahlı mövqelər haqqında müttəfiqlərə məlumat verilməli və onların zərərsizləşdirilməsi üçün yardım edilməli idi; müttəfiqlərin hərbi əsirləri İstanbula gətirilərək müvafiq ölkəyə təslim edilməli idi; Osmanlı hökuməti daxili nizam -intizamı və sərhədləri qorumaq üçün lazım olacaq hərbi qüvvələrdən başqa qüvvə saxlamaq hüququndan məhrum edilirdi; ölkənin daxilində asayişi qorumaq üçün lazım olacaq qüvvələrin sayı müttəfiqlər tərəfindən müzakirə edildikdən sonra müəyyən olunmalı idi; Osmanlı sularında üzən hərbi gəmilər müttəfiqlərə təslim edilməli idi; əgər müttəfiqlər öz mövqelərinə qarşı təhlükə hiss edərdilərsə, onda imperiyanın istənilən strateji hissəsinin işğal etmək hüququna malik idilər; Osmanlı limanlarından onun müttəfiqlərinin istifadə etmələri qadağan olunurdu.

Mondros barışığının şərtlərinə əsasən Osmanlı hərbi birləşmələri İranın şimal-qərbini dərhal tərk etməli, onlar tərəfindən nəzarətə alınmış Qafqaz ərazisinin müttəfiqlərin nəzarətinə keçməsinə heç bir etiraz etməməli idi. Müttəfiqlərin nəzarəti altına keçən ərazilər sırasında Qafqaz dövlətləri də var idi. Qalib dövlətlər Batumu və Bakını da işğal edirdilər. Barışıq şərtinə görə Almaniya və Avstriyanın bütün məmurları bir ay ərzində Osmanlı ərazilərini tərk etməli idilər; Hicaz, Yəmən, Suriya və Mesopotomiyadakı türk qarnizonları müttəfiqlərə

verilməli idi; Tripolitaniyada və Kirenaikdəki türk emissar zabitləri İtaliya qarnizonuna tabe etdirilməli idi; hər hansı hərbi əmlakın məhv edilməsi qadağan edilirdi; Osmanlı hərbi əsirləri müttəfiqlərin nəzarəti altında mühafizə olunmalı idi.

**Avstriya-Macarıstamn parçalanması və təslim edilməsi** 1918-ci ilin oktyabrına yaxın daxili sinfi və milli ziddiyyətlərin, müharibənin törətdiyi nətieələrin uebatmdan Avstriya-Macarıstan dağılmağa başladı. Təsərrüfat dağınıqlığı, aclıq, cəbhələrdə məğlubiyyət milli-azadlıq hərəkatını gücləndirdi. Avstriya-Macarıstanda yaşayan müxtəlif xalqlar müstəqil siyasi həyata qədəm qoydular. Oktyabrın 21-də avstriyalı deputatlar özlərini müvəqqəti Avstriya milli məclisi elan etdilər. Oktyabrın 28-də isə çex milli şurası Praqada Çexoslovakiyanın müstəqilliyini bəyan etdi. Oktyabrın sonunda Macarıstanda inqilab qalib gəldi. İmperator Karlın imperiyanı islahatlar yolu ilə saxlamaq cəhdləri uğursuz oldu. Oktyabrın 28-də Avstriya-Macarıstan ordusunun komandanlığı müharibəni dayandırmaq haqqında İtaliyaya müraciət etdi.

1918- ci il noyabrın 3-də Avstriya-Macarıstan komandanlığı təslim olmaq haqqında akt imzaladı. Barışığın şərtlərinə görə müttəfiqlər ölkə təsəiTÜfatma tam sahib oldular. Bundan sonra ingilis, fransız, italyan orduları Almaniyanı cənub və cənub-şərqdən təhlükəyə saldılar.

**Almaniyanın təslim olması. Kompyen barışığı** Müttəfiqlərinin məğlub olmasına baxmayaraq Almaniya hərbi əməliyyatları aparmaqda davam edirdi. Oktyabrın 30-da alman hərbi komandanlığı Kil şəhərində ingilislərlə açıq dəniz döyüşünə ginnək haqqında əmi' verdi. Bu mənasız döyüşə cavab olaraq matroslar üsyana başladılar. II Vilhcim Hollandiyaya qaçdı. Noyabrın 6-da Maks Badenski hökuməti barışıq bağlamaq üçün müttəfiq orduları komandanlığı yanına nümayəndə heyəti göndərdi. 1918-ci il noyabrın 11-də

Fransada Kompyen meşəsində Retond stansiyasında marşal Foş müttəfiqlər adından Almaniya nümayəndə heyətinə barışıq şərtlərini diktə etdi. Bu şərtlərə görə Almaniya 15 gün müddətində Fransanın işğal edilmiş departamentlərini, Belçikanı, Lüksemburqu, Reynin sol sahilindəki vilayətləri azad etməli, öz ordularını Osmanlı dövləti ərazisindən, Rumıniyadan, Avstriya- Macarıstandan və həmçinin Afrikadakı müstəmləkələrindən çıxarmalı idi. Almaniya müttəfiqlərə özünün silahlı qüvvələrinin bir hissəsini, 5 min paravozunu, 150 min vaqonunu, 5 min yük vaqonunu və b. verməli idi.

Beləliklə, müharibədə Almaniya bloku məğlubiyyətə uğradı.

**Almaniya blokunun müharibədə məğlub olmasımn səbəbləri**

Almaniyanın və onun müttəfiqlərinin birinci dünya müharibəsində məğlubiyyətinin əsas səbəbləri aşağıdakılardan ibarət idi:

Birinci, Antanta tərəfindən müharibədə döyüşən dövlətlərin iqtisadi və insan ehtiyatları Almaniya, Avstriya-Macarıstan, Türkiyə və Bolqarıstandan üstün idi. Buna görə də üzücü müharibədə Almaniya blokunun tükənməsi tez baş verdi.

İkinci, hərbi qüvvələrin nisbəti Antanta ölkələrinin xeyrinə idi. Belə ki, Antana ölkələrinin 48355 min. əsgər və zabiti və ya 525 diviziyası var idi. Almaniyd bloku ölkələri isə orduya 25160 min. əsgər və zabit çağıraraq 372 diviziya yaratmışdılar. Müharibə dövründə Antanta ölkələri 9 mindən çox tank istehsal etmişdilər. Almaniya bloku ölkələrində isə tanklar yox idi. Antanta ölkələri aviasiya sarıdan iki dəfə, h»rbi-dəniz donanması sarıdan daha çox üstün idi. Beləliklə Antanta blokunun hərbi cəhətdən üstünlüyü müharibədə qələbjni təmin edən əsas amillərdən biri oldu.

Üçüncü, Almaniyanın siyasi üstqurumu müharibə dövmndə böhran vəziyyətinə düşdü. Alman hakim dairələri və onun müttəfiqləri bu böhrandan çıxa bilmədilər.

Dördüncü, alman bloku ölkələrinin hərbi nəzəriyyəsi, strategiyası və taktikası rəqiblərindən zəif idi. Onlar öz

qüvvələrini şişirdərək rəqibin qüvvələrini lazımınca qiymətləndirmirdilər, iki cəbhədə- Qərbdə Fransaya, Şərqdə Rusiyaya qarşı ildırım sürətli müharibədə qələbəyə ümid edirdilər. Alınan siyasi rəhbərliyi və hərbi komandanlığı XX əsrdə müharibə aparılması şərtlərinə cavab verməyən Şliffen planın əsiri oldu. Bu plan Almaniyanın mövcud iqtisadi, siyasi və hərbi imkanlarına cavab vermirdi.

**Müharibənin beynəlxalq siyasi nəticələri və beynəlxalq iqtisadi əlaqələrə təsiri**

Kompyen barışığının imzalanması ilə əhalisi 1 mlrd, nəfərdən çox olan 34 ölkə-nin və səfərbərliyə alınmış 74 mln. nəfərin iştirak etdiyi birinci dünya müharibəsi başa çatdı. Bu müharibədə 10 mln. nəfər öldürüldü və 20 mln. nəfər yaralandı. Müharibə külli miqdarda xərclərə səbəb oldu. Müharibədəki birbaşa hərbi xərclər 208 mlrd, dollar təşkil etdi.

Müharibə nəticəsində dünyanın siyasi xəritəsində ciddi dəyişikliklər oldu. Avstriya-Macarıstan, Osmanlı, Rusiya imperiyaları dağıldı və yeni müstəqil dövlətlər meydana gəldi.

Müharibə bütün dövlətlərin iqtisadiyyatına dərin təsir göstərdi, onların iqtisadi və siyasi cəhətdən qeyri-bərabər inkişafını sürətləndirdi. O, bir sıra ölkələrin iqtisadiyyatını dağıdaraq on illərlə geriyə atdı, digər ölkələrin isə yüksək inkişafına və varlanmasına şərait yaratdı.

1916-cı ilin sonunda sənayecə inkişaf etmiş bütün dövlətlər fəal hərbi əməliyyatlarda iştirak edirdilər. Əmək qabiliyyətli əhali iqtisadiyyatın müxtəlif sahələrində çalışırdı. Avropa və Yaxın Şərq dövlətlərinin əksəriyyətinin xalqlarının əməyi məhv edildi. Müharibə bütün döyüşən dövlətlərin iqtisadiyyatına böyük maddi ziyan vurdu. Müharibə nəticəsində iki dövlət - ABŞ və Yaponiya varlandı. 1914-cü ilə qədər dünya bankirləri hesab olunan və maliyyə zəncirini öz əllərində saxlayan İngiltərə, Fransa və Almaniya müharibə illərində xarici kapitallarının xeyli hissəsini itirdilər.

Müharibə başlanana qədər Avropa ölkələrinə borclu olan ABŞ müharibənin gedişində İngiltərə, Fransa, İtaliya və

digər Avropa dövlətlərinə külli miqdarda borc verərək dünyanın maliyyə mərkəzinə çevrildi.

Müharibənin ilk günündən Almaniya bloku dövlətlərini blokadaya alan ingilis donanması onları dünyanın xammal və ərzaq mənbələrindən məhrum etdi. Öz növbəsində Almaniya sualtı müharibənin köməyi ilə Antanta ölkələrini blokadaya almağa və onların müstəmləkələrlə əlaqələrini kəsməyə çalışırdı. Avropa dövlətləri ilə digər qitələr arasında təsəiTÜfat mübadiləsinin zorla kəsilməsi əsrlər boyu fonnalaşan iqtisadi əlaqələri qırdı və dünya bazarını dağıtdı.

Dünya müharibəsi müstəmləkə və yarımmüstəmləkə dövlətlərinin iqtisadiyyatında mühüm dəyişikliklər etdi. Müharibə ehtiyaelarınm ödənilməsinə xidmət edən Avropa dövlətlərinin müstəmləkələrə və yarımmüstəmləkələrə sənaye malları ixrac etməsi xeyli azaldı. Bunun əvəzində metropoliyalar öz hərbi qüdrətlərinin artırılması üçün müstəmləkə və yarımmüstəmləkələrdə emal və yüngül sənaye sahələrinin qurulmasına şərait yaratdılar. Fabrik və zavodların tikilməsi müstəmləkə və yarımmüstəmləkələrdə kapitalizmin inkişafına təkan verdi. Bu ərazilərdə millətin formalaşması prosesi bir sıra yerlərdə milli-azadlıq hərəkatı başlandı.

# III BÖLÜM

## 1918-1920 -ci illərdə beynəlxalq münasibətlər

Birinci dünya müharibəsində məğlubiyyətə uğrayan Almaniya bloku ölkələri ilə diplomatik-siyasi münasibətləri və müharibədən som'akı dünya quruluşu məsələlərini tənzimləmək üçün qalib dövlətlər konlrans çağırmaq barədə qərara gəldilər. Konfransın harada keçirilməsi məsələsi üstündə qalib dövlətlər arasında mübahisələr yarandı. Fransa konfransın Parisdə, İngiltərə isə bitərəf ölkədə, konkret olaraq İsveçrədə çağırılmasını təklif edirdi. Uzun diplomatik mübahisələrdən sonra Fransanın istəkləri yerinə yetirildi. Konfransın Parisdə çağırılması barədə razılıq əldə edildi.

**Paris sülh konfransı**

Qalib dövlətlərin sülh konfransı 1919-cu il yanvarın 18-də Parisdə açıldı. Konfransın bu gün açılması əbəs deyildi. Fransa-Prussiya müharibəsində qalib gələn prus yunkerləri 1871-ci il yanvarın 18-də Versalda, Güzgülü salonda Almaniya imperiyasının yaradılmasını elan etmişdilər. Qalib dövlətlər, xüsusən Fransa bu tarixlə Almaniyadan əvəz çıxmağa çalışırdı. Konfransın işində 27 ölkədən, İngiltərənin müstəmləkələri ilə birlikdə 32 ölkədən 1000 nəfərdən çox nümayəndə iştirak edirdi. Ekspert və texniki heyətlə birlikdə sülh konfransının işində iki mindən çox adam var idi. Təkcə ABŞ-dan 400, İngiltərədən isə 200 adam gəlmişdi. Rəsmi nümayəndə heyətləri 4 dərəcəyə’ bölünmüşdü. Məğlub dövlətlərin nümayəndələri konfransın işinə yaxın buraxılmırdılar. Yeni yaranmış dövlətlər bitərəf ölkələrlə birlikdə dördüncü dərəcəyə daxil edilmişdilər. Məsələlərin müzakirəsində onların iştirakı beş əsas dövlətdən birinin dəvəti ilə mümkün idi.

Konfransa əvvəllər «Onlar şurası» deyilən orqan rəhbərlik edirdi. Bu şura beş böyük dövlətin ( ABŞ, İngiltərə, Fransa, İtaliya, Yaponiya) hərəsindən iki nümayəndədən - heyət başçıları və xarici işlər nazirlərindən ibarət idi. Onlar şurasının

iclaslarında çoxlu ekspert iştirak edirdi. Buna görə də konfransın işinin məxfiliyini təmin etmək mümkün deyildi. Bu problemi aradan qaldırmaq üçün martın 25-də «Onlar şurası» iki hissəyyə bölündü. Dördlər şurası ( nümayəndə heyətlərinin başçıları Vilson, Lloyd Corc, Klemanso, Orlando) və Beşlər şurası (böyük dövlətlərin xarici işlər nazirləri Lansinq, Balfur, Pişon, Sonnino və Makino). «Dördlər və Beşlər şuralardan» başqa, sayı 58 -ə çatan müxtəlif komissiyalar yaradıldı. Beş ay yarım ərzində bu komissiyalar 1646 iclas keçirtdilər. Bundan başqa, vəziyyəti öyrənmək üçün yerlərə müxtəlif komissiyalar da göndərildi. Konfransın sədri Fransanın baş naziri Klemanso idi.

Keçmiş Rusiya imperiyasının xarabalıqları üzərində yaranmış yeni dövlətlərin tanınması məsələsi «ümumrus məsələsi»nin həllinə qədər təxirə salındı. Kolçak, Denikin və başqa çar gcnerallarınınm bolşevik Rusiyasına qarşı mübarizə apardığı bu dövrdə Avropa ölkələri, xüsusən Fransa və İtaliya, «vahid və bölünməz Rusiya» şüarını müdafiə edir, onlara hər cür yardım edilməsi lehinə çalışırdılar.

Belə şəraitdə yeni müstəqil dövlətlərin nümayəndələri ən çox Vilson prinsiplərinə çox ümid və istinad etdirdilər. Bu prinsiplər sülh konfransının ideoloji əsasını təşkil edirdi.

Paris sülh konfransının başlıca məqsədi Almaniya və onun müttəfiqləri ilə sülh müqavilələrinin bağlanması idi.

Konfransda qalib dövlətlər arasında dünyanı bölmək uğrunda mövcud olan ziddiyyətlər özünü həmin ölkələrin məqsədlərində göstərdi.

Birinci dünya müharibəsi nəticəsində iqtisadi, maliyyə, hərbi və siyasi cəhətdən xeyli möhkəmlənən ABŞ dünya ağalığına və mənəvi rəhbərliyə can atırdı. ABŞ diplomatiyası Almaniya və Osmanlı dövlətindən alınmış ərazilərin İngiltərə və Fransaya deyil, yaradılması nəzərdə tutulan Millətlər Cəmiyyətinin nəzarəti altına verilməsini tələb edirdi. ABŞ Millətlər Cəmiyyəti vasitəsilə dünyaya rəhbərlik etməyi düşünürdü. «Azad dənizlər», «azad ticarət» və «müstəmləkə məsələlərinin sərbəst tənzimlənməsi», «mandat sistemi haqqında» amerikan təklifləri İngiltərə, Fransa və Yaponiyanın

güclənməsinin qarşısını kəsməyə yönəlmişdi. Almaniyanın tamamilə darmadağın edilməsini də istəməyən ABŞ eyni zamanda gələcəkdə ondan İngiltərə və Fransaya qarşı istifadə etməyi düşünürdü.

Fransa Almaniyanı kiçik dövlətlərə parçalamağa. Bavariyanı ondan ayırmağa, Avropada öz sərhədlərini genişləndirməyə, Osmanlı dövləti və Almaniya müstəmləkələrinə sahib olmağa və Avropada öz hegemonluğunu yaratmağa çalışırdı. Fransa həmçinin Almaniyadan alınacaq ümumi təzminatın 57% - nə iddialı idi.

İngiltərədə Afrikadakı Almaniya müstəmləkələrini, türk mülklərini almağa və Avropada öz hegemonluğunu qurmağa səy edirdi. İngilis diplomatiyası eyni zamanda Avropada tarazlığın saxlanılmasından ötrü Almaniyanın tamamilə məhv edilməsinin əleyhinə çıxırdı.

İtaliya Balkanlarda öz nüfuzunu möhkəmləndirmək, Avstriya-Macarıstanın bir sıra torpaqlarına sahib çıxmaq və Afrikada müstəmləkələr ələ keçirmək istəyirdi.

Yaponiya Şandım əyalətinin və Sakit okeandakı Almaniya mülklərinin ona verilməsini tələb edirdi.

Konfransda müttəfiqlər arasında ziddiyyətlərin kəskin olması nətieəsində bir sıra məsələlər, o cümlədən təzminat məsələsi barədə razılığa gəlmək mümkün olmadı. Təzminat məsələsini sonradan ayrıca müzakirə etmək barədə razılıq əldə olundu.

Sülh müqaviləsinin əsas müddəaları barədə ümumi razılıq əldə olundu. Mayın 7-də Klcmanso Almaniyanın xarici işlər naziri B.Rantçaunu dəvət edərək müttəfiqlər adından sülh müqaviləsinin şərtlərini ona təqdim etdi. B.Rantçau bu şərtlərlə tanış olduqdan sonra 231-ci maddə ilə - dünya müharibəsinin başlanmasında yalnız Almaniyanın təqsirkar olması ilə razılaşmadı. Müttəfiqlər yenidən hərbi əməliyyatlara başlamaqla hədələdikdə o, sülh şərtlərini qəbul etməyə məcbur oldu.

1919- cu il iyunun 28-də Parisdə Versalda Almaniya ilə sülh müqaviləsi imzalandı. Sülh müqaviləsinin iyunun 28-də imzalanması da əbəs deyildi. 1914-cü ildə məhz həmin gün

birinci dünya müharibəsinin başlanmasına bəhanə olan Avstriya-Macarıstan *axt-tacının vəliəhdi Frans Fcrdinand «Gənc Bosna» təşkilatının üzvü, 18 yaşlı Qavrilo Prinsip tərəfindən öldürülmüşdü. Sülh müqaviləsinin şərtlərinə görə Almaniya və müttəfiqləri müharibə təqsirkarları elan edildilər. Məğlub dövlətlər vurulan ziyana görə təzminat ödəməli idilər.

Sülh müqaviləsinə görə Almaniya baş qərargahı buraxılırdı və onun gələcəkdə yaradılması qadağan edilirdi. Almaniya yalnız altı kiçik zirehli gəmi və bir neçə kiçik gəmi saxlaya bilərdi. Reyn zonası hərbsizləşdirildi. Reynin sol sahilinin alman hissəsi və sağ sahilindəki 50 km.-lik zolaq hərbsizləşdirilmiş zona elan olunurdu.

Almaniyada ümumi hərbi mükəlləfiyyət qadağan edilirdi; Almaniya sualtı qayıqlar, hərbi və dəniz aviasiyası, tanklar saxlaya bilməzdi; ordu yalnız könüllülük əsasında qurulmalı idi və 100 min nəfərdən artıq ola bilməzdi. Onun yalnız 4 min nəfəri zabit ola bilərdi. Əsgər və unter zabitlər 12 il, zabitlər isə 45 il xidmət etməli idilər.

Sülh müqaviləsinin şərtlərinə əsasən Fransa 1871-ci ildə Almaniyanın işğal etdiyi Elzas və Lotaringiyaya, Saar vilayətinin daş kömür yataqlarına sahib olurdu, Almaniyanın Toqo və Kamerun müstəmləkələrinin bir hissəsini, Suriya və Livanı alırdı.

Saar vilayəti 15 il müddətinə Millətlər Cəmiyyətinin idarəçiliyinə verilirdi.

İngiltərə Toqonu və Tanqanikanı, Şərqi Afrikadakı alman mülklərini, Fələstini, Transiordaniyanı, İrağı və digər əraziləri alırdı.

İtaliya Trentinə və Cənubi Tirola sahib çıxırdı.

Belçika Eyren dairəsini və Malmedi alırdı. Həmçinin Ruanda və Urunduni, Almaniyanın Cənub-Qərbi Afrikadakı müstəmləkələrini ələ keçirirdi.

Danimarka Şlezviqin şimal hissəsinə sahib olurdu.

Polşa Poznan, Pomeraniya, Qərbi və Şərqi Prussiyanı, həmçinin Sileziyanın yuxarı hissəsini alırdı. Almaniya Polşanın müstəqilliyini tanıyırdı. Almaniya Dansiqdən (Qdansk) əl çəkirdi. Bu liman Millətlər Cəmiyyətinin himayəsi altında azad

şəhər elan olunurdu. Almaniya həmçinin Memeldən (Klaypeda) əl çəkirdi. Bu liman şəhəri 1923-cii ildə Litvaya verildi. Lakin Polşa Baltik dənizinə geniş çıxış ala bilmədi.

Yaponiya Sakit okeandakı Marşal, Marian, Karolin adalarını , həmçinin Çinin Szyao-Çjou vilayətini, Şandunda isə konsessiyalar ələ keçirtdi.

Müharibədə xeyli güclənən ABŞ müstəmləkə məsələsində məğlubiyyətə uğradı. Müstəmləkələrdə bərabərlik haqqında onun tələbləri nəticəsiz qaldı.

Sülh konfransının qərarlarına uyğun olaraq Millətlər Cəmiyyəti yaradıldı. Cəmiyyətin əsas məqsədi sülhü və beynəlxalq təhlükəsizliyi qorumaq idi. Onun nizamnaməsi sülh müqavilələrinin mətninə daxil edilərək 44 ölkə tərəfindən imzalandı. Nizamnamənin 16-cı maddəsində Millətlər Cəmiyyətinin kollektiv iqtisadi və hərbi sanksiyalar tətbiq etməsi nəzərdə tutulmuşdu.

V.Vilsonun təkidlərinə baxmayaraq senatda iki dəfə keçirilən müzakirələr nəticəsində sülh müqaviləsi təsdiq edilmədi. Beləliklə, ABŞ-da təcridçilik xətti qalib gəldi. Bu xəttin tərəfdarlarının təzyiqi altında Birləşmiş Ştatlar Millətlər Cəmiyyəti vasitəsilə dünya işlərində iştirak etməkdən bir müddət kənarda qaldı.

**Saiı-Remo konfransı**

1920-ci il aprelin 19-26-da San-Remo konfransı keçirildi. Konfransda Lransadan Milyeran, İngiltərədən Lloyd Corc, İtaliyadan Nitti və Yaponiyadan Maçui iştirak edirdilər. Amerika Birləşmiş Ştatları konfransda müşahidəçi rolunda iştirak edirdi. Yunanıstan və Belçika yalnız onların mənafeyinə toxunan məsələlərin müzakirəsində iştirak edirdilər. Mesopotamiya və Fələstin üzərində İngiltərə mandatı təsdiq olundu. İngiltərə Suriyanı Fransanın işğal zonası kimi tanıdı. Konfransda Osmanlı dövləti ilə müqavilənin ilkin layihəsi işlənib hazırlandı. Fransa ilə İngiltərə arasında imzalanan sazişdə Yaxın Şərqdə, Rumıniyada, İngiltərə və Fransanın müstəmləkələrində neft məsələləri həll edilirdi. San-

Remo sazişinə görə İngiltərə Mosulu əlinə alırdı və gələcəkdə çıxarılacaq Mosul neftindən 25% -ni Fransaya verməyi öz öhdəsinə götürürdü. Fransa isə İngiltərənin payına düşən neftin Suriyadan Aralıq dənizinə aparılmasını təmin edəcəyinə söz verirdi. Beləliklə, Fransa Yaxın Şərqdə İngiltərəyə, İngiltərə isə Avropada Fransaya güzəştlərə getdi. Almaniyanın silahlı qüvvələrini iki dəfə artırmaq haqqında xahişi isə yerinə yetirilmədi.

**Spa konfransı**

20-ci illərdə Avropada beynəlxalq münasibətlərdə müzakirə olunan mühüm məsələ Almaniyanın tərksilah edilməsi və təzminatın alınması idi. Bu məqsədlə 1920-ci iyulun 5-16-da Belçikanın Spa şəhərində konfrans keçirildi (birinci dünya müharibəsi illərində Almaniyanın baş qərargahı bu şəhərdə yerləşirdi). Müttəfiqlər bununla Almaniya üzərində öz üstünlüklərini nümayiş etdirmək istəyirdilər. Onlar Almaniyadan Versal sülh müqaviləsinin şərtlərinin yerinə yetirilməsini tələb etdilər. Qalib dövlətlər Almaniya qarşısında aşağıdakı şərtləri qoydular: könüllü təşkilatları tərkisilah etmək; ayrı-ayrı adamlardan silahları yığmaq; ordunu könüllülük prinsipi əsasına keçirmək; hərbi əmlakı təhvil vermək və sülh müqaviləsinin digər şərtlərini yerinə yetirmək. Almaniya bu şərtləri qəbul etdiyi təqdirdə 1920- ci il oktyabrın 1-dək 150 min ordu saxlaya bilərdi. Lakin 1921- ci il yanvarın 1-dək ordu 100 min nəfər olmalı idi. Almaniya şərtləri yerinə yetinnədikdə müttəfiqlər onun yeni ərazilərini tuta bilərdilər. Almaniya bu şərtlərlə razılaşaraq 1920-ci il iyulun 9-da müvafiq protokol imzaladı.

Konfransda təzminat haqqında məsələ də müzakirə olundu. Müttəfiqlər Almaniyadan təzminatın ödənilməsini tələb etdilər. Almaniya 20 mlrd, marka əvəzinə yalnız 8 mlrd, təzminat ödəmişdi. Almaniya müttəfiqlərin tələbləri ilə razı olaraq və 1920-ci il iyulun 16-da müvafiq protokol imzaladı. Buna görə almanlar hər ay 2 mln. ton kömür verməli idilər. Konfrans təzminatın ümumi məbləğini müəyyən etməsə də onu alacaq dövlətlərin payını müəyyənləşdirdi: Fransa 52%,

İngiltərə 22%, İtaliya 10%, Yaponiya 0,75%, Belçika 8%, Portuqaliya 0,75%, Yunanıstan, Rum-ıniya və Yuqoslaviya 6,5%. ABŞ üçün təzminat alınaq hüququ saxlanıldı. Lakin ABŞ senatı Versal sülh müqaviləsini təsdiq etmədi.

**Almaniyanın** Almaniya ilə sülh müqavilələri **müttəfiqləri ilə** imzalandıqdan soma qalib dövlətlər onun **sülh müqavilələri** müttəfiqləri ilə müqavilələri hazırlamaqla məşğul oldular. İmzalanacaq müqavilələr Versal sülhündən doğmalı idi.

**Avstriya** ilə sülh müqaviləsi 1919-cu il sentyabrın 10 -da Sen-Jermendə imzalandı. Müqavilənin şərtlərinə əsasən Avstriya-Macarıstan monarxiyasının mövcudluğuna son qoyulurdu; Cənubi Tirolun bir hissəsi İtaliyaya keçirdi; Çexiya və Moraviya yeni dövlət olan Çexoslavakiyanın bir hissəsinə çevrilirdilər; Bukovina Rumıniyaya verilirdi; Avstriya Çexoslovakiyanın müstəqilliyini tanıyırdı; donanması isə müttəfiqlərə verilirdi; Avstriyanın Almaniya ilə gələcəkdə birləşdirilməsi qadağan edilirdi.

Avstriya Yuqoslaviyanın müstəqilliyini tanıdı. Yuqoslaviyanın tərkibinə Slovakiya, Dalmasiya, Bosna və Hersoqovina daxil oldu.

Avstriyada ümumi hərbi mükəlləfiyyət qadağan edildi. O, yalnız 30 min nəfərlik ordu saxlaya bilərdi.

**Bolqarıstanla** sülh müqaviləsi 1919-ci il noyabrın 27-də Paris yaxınlığındakı Neyi-Sür-Sen qəsəbəsində imzalandı. Sülh müqaviləsinin şərtlərinə görə Bolqarıstan ərazisinin xeyli hissəsini itirdi. Onun ərazisinin bir hissəsi Yuqoslaviyaya və Cənubi Dobmca isə Rumıniyaya keçdi; Yunanıstan Qərbi Frankiyanı aldı. Bununla da Bolqarıstan Egey dənizinə çıxışını itirdi; bolqar ordusunun sayı könüllülük əsasında muzdla 20 min nəfər müəyyənləşdirildi. Bolqarıstan müharibədə vurduğu zərərə görə təzminat ödəməli idi.

**Macarıstanla** sülh müqaviləsi 1920-ci il iyulun 4-də Versalda Böyük Trianon sarayında imzalandı. Müqavilənin şərtlərinə görə Macarıstan Çexoslovakiya və Yuqoslaviyanın

müstəqilliyini tanıyırdı. Xorvatıstan, Baçka və Banatın qərb hissəsi Yuqoslaviyaya verilirdi; Transilvaniya və Banatın şərq hissəsi Rumıniyaya keçirdi; Slovakiya və Zakarpat Ukraynası Çexoslavakiyaya verilirdi. Macarıstanda ümumi hərbi mükəlləfiyyət qadağan edildi. Macarıstan 35 min nəfərdən çox ordu saxlaya bilməzdi; Almaniyanın bütün müttəfiqləri kimi o da qalib dövlətlərə təzminat ödəməli idi.

Türkiyə ilə sülh müqaviləsi 1920-ci il avqustun 10-da Sevrdə imzalandı. Qalib dövlətlər Osmanlı imperiyasını dağıtmaq və türk mülklərinə sahib olmaq istəyirdilər. Müqaviləni bir tərəfdən İngiltərə, Fransa, İtaliya, Yaponiya, Ermənistan, Belçika, Yunanıstan, Hicaz, Polşa, Portuqaliya, Rumıniya, Yuqoslaviya, Çexoslovakiya, digər tərəfdən isə Osmanlı dövləti imzaladılar. Müqaviləyə görə Osmanlı dövləti ərazisinin 4/5 hissəsini itirdi. Türk padşahı paytaxt kimi İstanbulu saxladı. Lakin sülh müqaviləsini yerinə yetirmədikdə müttəfiqlər müqavilə şərtlərinə yenidən baxa bilərdilər. Bütün ölkələrin gəmiləri müharibə və dinc vaxtı boğazlardan sərbəst şəkildə keçə bilərdilər. Bu qaydaya nəzarət etməkdən ötrü boğazlar komissiyası yaradıldı. Komissiyaya hər ölkədən iki səsi olan bir nümayəndə daxil edilməli idi: İngiltərə, Fransa, Yaponiya, İtaliya, istədiyi vaxt ABŞ, Millətlər Cəmiyyətinə daxil olduqdan sonra isə Rusiya, Yunanıstan, Rumıniya, Bolqarıstan və Osmanlı dövlətindən bir səsi olan bir nümayəndə daxil ola bilərdi. Bolqarıstan və Osmanlı dövləti yalnız Millətlər Cəmiyyətinə daxil olduqdan sonra belə bir hüquq ala bilərdilər. Osmanlı dövlətində işğal rejimi saxlanılırdı. Maliyyə komissiyasının razılığı olmadan Türkiyə konsessiyalar verə bilməzdi. Osmanlı dövlətinin silahlı qüvvələri əsgər və zabitlərlə birlikdə 50 min nəfər məhdudlaşdırıldı. Jandarmanın sayı 35 min nəfər müəyyənləşdirildi. Osmanlı dövləti erməni dövlətinin müstəqilliyini tanımalı idi. İzmir şəhəri türklərin suverenliyində qalsa da gələcəkdə Yunanıstana verilməli idi. Sevrdə türk ərazilərinin ayrı-ayrı dövlətlərə verilməsinə və keçmiş Osmanlı imperiyasının dəmir yollarından birgə istifadə edilməsinə dair müqavilələr imzalandı. Sülh müqaviləsi Osmanlı imperiyasının parça

lanmasını rəsmiləşdirdi. Müqavilənin şərtlərinə görə Osmanlı dövləti ərazilərinin 80% -ni- Fələstin, Transiordaniya, İrağ, Suriya, Livan və b. itirirdi; Qara dəniz boğazları üzərində Antanta ölkələrinin beynəlxalq nəzarəti qoyulurdu; boğazlar tərksilah edilirdi və qcyri-Qara dəniz dövlətlərinin hərb gəmiləri onlardan sərbəst şəkildə keçə bilərdi; Osmanlı dövlətinin ərazisi Kiçik Asiya və İstanbul şəhəri olmaqla Avropa ərazisində kiçik bir zolaqla məhdudlaşdırılırdı; Osmanlı dövləti müstəmləkə vəziyyətinə salınırdı.

Ədirnə ilə birlikdə Şərqi Frankiya, Dardanelin Avropa sahili və Qallipoliy yarımadası; həmçinin İzmir Yunanıstana verilməli idi. Dodakancs adaları İtaliyaya verilirdi.

Sevr müqaviləsi Osmanlı dövlətini suverenlikdən məhrum edirdi və onu müstəmləkəyə çevirirdi.

Bu müqavilə Osmanlı dövlətinin müstəqilliyini faktiki olaraq ləğv etdi. Özünü xalqın gözündən salmış olan İstanbul hökuməti artıq heç bir real qüvvəyə malik deyildi. Bundan fərqli olaraq Ankarada 1920-ci ilin aprelində Türkiyə Böyük Millət Məclisi hökuməti yaradıldı. Mustafa Kamal Paşanın rəhbərliyi ilə bu hökumət Türkiyənin müstəqilliyinin bərpa edilməsini və işğal rejiminin ləğv olunmasını tələb etməyə başladı. Türk xalqı Sevr müqaviləsini rədd edərək onunla barışmadı və ləğvi uğrunda mübarizəyə başladı.

Düşmüş olduğu ağır vəziyyətdə Türkiyəyə müttəfiq lazım idi. Belə bir müttəfiq Antantanın düşmən münasibət bəslədiyi bolşevik Rusiyası idi. Antantanın Türkiyə və Rusiyaya düşmənçilik münasibəti Ankara və Moskvanı müttəfiqə çevirdi. Rusiya -Türkiyə yaxınlaşması Yaxın Şərqdə qüvvələr nisbətini xeyli dəyişdirdi. Belə şəraitdə Fransa Türkiyəni Rusiyadan aymnağa, onu özünə müttəfiq etməyə və Yaxın Şərqdə İngiltərəyə qarşı istifadə etməyə eəhdlər göstərdi. Fransa kamalçılarla müharibəni dayandırıb sülh bağlamağı təklif etdi. Fransanın bu addımı ingilis və yunan işğalçılarının Türkiyədəki hərbi əməliyyatlarına zərbə vurdu.

Almaniya və onun müttəfiqləri ilə imzalanan sülh müqavilələri Versal sisteminin əsasını qoydu. Bu müqavilələr Avro

pada müharibədən sonrakı qüvvələr nisbətini müəyyənləşdirdi. Lakin Versal sistemi möhkəm deyildi. Ona daxil olan ölkələr arasında kəskin ziddiyyətlər var idi. Versal sisteminin ağır şərtləri Almaniyada qisasçılıq və şovinist meylləri, Türkiyədə isə işğallara qarşı türk xalqının milli-azadlıq hərəkatını gücləndirdi.

Türk xalqının qərbdə ingilis-yunan müdaxiloçdəri ilə ölüm-dirim mübarizəsinə başı qarışdığını görən ennənil.rr Türkiyəyə qarşı növbəti xəyanətkarlıq törədərək yeni cəbhə açdılar. Erməni silahlı dəstələri dinc türk əhalisinə qarşı kütləvi terrora və qətllərə başladılar. Onlar 1920-ci ilin sentyabrında müsəlman əhaliyə qarşı kütləvi qırğını bütün Kars vilayətində, İrəvan quberniyasında, Şərur-Dərələyəzdə və b. yerlərdə törətdilər. Onlar Türkiyənin parçalanacağına və «Sevr müqaviləsi əsasında yaradılması nəzərdə tutulan müstəqil Ermənistanda dünyanın hər yerindən ermənilərin toplaşacağına» ümid edirdilər.

Ermənilərin Türkiyəyə qarşı müharibəyə başlaması bölgədə vəziyyəti daha da mürəkkəbləşdirdi.

Erməni terrorçu dəstələrinin vəhşilik hərəkətlərinə türklər cavab verdilər. Daşnaksütyun partiyasının banilərindən biri və daşnak Ermənistanın baş naziri olmuş Ov.Kaçaznuni sonralar yazırdı; «Türklər nə Vilsonun qərarlarını, nə də Sevr müqaviləsini tammaq istəyirdilər... Müttəfiqlər kimsəyə boyun əyməyən Ankaranı silah gücünə qaydaya çağırmaq barədə heç bir tədbir görmədilər». t

Mustafa Kamal Paşa Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir Paşaya hərbi əməliyyatları sürətləndirməyi və qışa qədər başa çatdırmağı əmr etdi. Kazım Qarabəkir Paşa və Xəlil Paşanın başçılığı ilə türk orduları erməni silahlı dəstələrini əzdi və dekabrın 2-də daşnak hökuməti Ov.Kaçaznuninin yazdığı kimi «... fiziki məhv olmaq təhlükəsi altında Aleksandropol sazişini imzalamağa məcbur etdi». Müqaviləni Türkiyə hökuməti tərəfindən Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir Paşa, Ərzurumun qubernatoru Həmid bəy, Ərzurumun deputatı Süleyman Nicati bəy, Ermənistan tərəfindən Aleksandr Xatisyan, keçmiş maliyyə naziri Gülxanyan, daxili işlər naziri vəzifəsini icra edən Stepan Hurhanyan imzaladılar. Müqaviləyə əsasən

tərəflər mövcud olan müharibəni bitmiş hesab edərək daimi sülh üçün danışıqlara başlayırdılar; Türkiyə-Ermənistan sərhəddi dəqiqləşdirilirdi; Şahtaxtı və Şərur rayonlarında plebisisi keçirilənə qədər Naxçıvanda Türkiyənin himayəsi altında idarəetmə formasını və sərhədlərini müəyyənləşdirən yerli özünüidarəetmə yaradılırdı və Ermənistan ora qarışa bilməzdi; müqavilə imzalandığı andan əhaliyə istədiyi yerə köçüb getmək imkanı yaradılırdı; imperialist dövlətlərinin ictimai sakitliyi pozmaq üçün törətdikləri qızışdırıcı hərəkətlərin qarşısını almaq üçün İrəvan respublikasına daxili qayda-qanunu qorumaq üçün yüngül silahlanmış polis, dövlət sərhəddini qorumaq üçün 20 pulemyot, 8 dağ və ya səhra silahı ilə silahlanmış 1500 nəfərlik muzdlu hərbi qüvvə saxlamağa icazə verilirdi; Ermənistan heç bir ordu saxlamayacağı təəhhüdünü öz üzərinə götümrdü və hərbi mükəlləfiyyət keçirə bilməzdi; yuxarıda göstərilənlərə nəzarət etmək üçün Türkiyənin siyasi nümayəndəsi İrəvanda yaşamalı idi; bunun müqabilində daxili və xarici təhlükəyə qarşı mübarizədə Ermənistan Respublikası tələb edərdisə TBMM hökuməti öhdəlik kimi ona silahlı yardım göstərməyi öz üzərinə götürdü; Ermənistan ərazisindən Türkiyə üçün təhlükə olardısa o, Ennənistana ordu yeridə bilərdi; tərəflər mədəni ölkələrdə olduğu kimi azlıqların bütün haqlarından istifadə etmələri, insanların öz doğma yerlərinə qayıtmaları barədə öhdəlik götürdülər; bu, müharibə dövründə düşmən tərəfə keçən qaçqınlara aid edilmirdi; bu müqavilə təsdiq edilib qüvvəyə mindikdən sonrakı bir il müddətində qayıtmayan qaçqınlara aid edilmirdi və əmlaklarına aid olan məsələlərə baxılmırdı; Ermənistan hökuməti öz ərazisində yaşayan müsəlman əhalinin mədəni və dini inkişafı üçün şərait yaratmalı idi; TBMM hökumətinin məcbür olub müharibə etdiyindən və iki' illik müharibədə ordusunun saxlanılmasına böyük xərc çəkdiyindən Ermənistandan təzminat tələb etməyə haqqı olsa da, humanizm prinsiplərinə hönnət edərək'bundan imtina edirdi.

# IV BOLUM

## Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq münasibətlər sistemində

### Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və ilk diplomatik addımları

Dünya müharibəsinin gedişindəki hərbi məğlubiyyətlər və daxildə vəziyyətin ağırlaşması Rusiya imperiyasında dərin siyasi böhran yaratdı. Fevralda Petroqradda başlanan üsyan çarizmin hakimiyyətinə son qoydu. İnqilabın ilk günlərindən Rusiya Dövlət Dumasının Güney Qafqazdan olan deputatlarının təşəbbüsü ilə Güney Qafqazın idarəsi üzrə xüsusi komitə yaradıldı.

1917- ci il noyabrın 7-də bolşeviklərin çevriliş yolu ilə hakimiyyəti ələ keçinnələrindən sonra tamamilə yeni siyasi vəziyyət yarandı. Noyabrın 24-də xüsusi komitənin Tiflisdə Güney Qafqazdan olan bütün siyasi qüvvələrin iştirakı ilə keçirdiyi müşavirədə Ümumrusiya Müəssislər Məclisi toplanana qədər Güney Qafqazın özünü müstəqil idarə etməsi haqqında qərar qəbul edildi.

Bolşevik Rusiyası Brest-Litovskdə barışıq imzaladıqdan sonra Güney Qafqazda yeni şərait yarandı. 1918-ci ili fevralında Güney Qafqazdan Müəssislər Məclisinə seçilmiş nümayəndələrin Tiflisdə toplaşdıqları Zaqafqaziya seymində azərbaycanlı, gürcü və erməni xalqları arasında kəskin ixtilaflar mövcud idi. Brest-Litovskdan sonra erməni-gürcü qüvvələri Osmanlı ordusunun qarşısını almağa qadir olmadığından Qafqazın müstəqilliyini elan etməyə və Brest-Litovsk sülh şərtlərini qəbul etməyə məcbur oldular. Aprel ayında müstəqil Zaqafqaziya Federativ Demokratik respublikasının yaradıldığı elan edildi. Lakin Seymdə yaranan ixtilaflar nəticəsində gürcü

nümayəndələri ondan çıxıb öz dövlətlərini yaratdıqlarını bildirdilər. Bunun ardınca Azərbaycan nümayəndəferi Milli Şura yaratdılar. Mayın 28-də Milli Şura Azərbaycanın dövlət müstəqilliyi haqqında bəyannamə qəbul etdi.

Güney Qafqaz respublikalarının Batumda Osmanlı dövləti nümayəndələri ilə ayrı-ayrılıqda apardığı danışıqlar nəticəsində iyunun 4-də Osmanlı dövləti ilə Azərbaycan, Gürcüstan və Ermənistan arasında ayrı-ayrılıqda müqavilə imzalandı. Azərbaycan dövləti adından müqaviləni Milli Şuranın sədri M.Ə. Rəsulzadə, xarici işlər naziri M.H.Hacmski, Osmanlı dövləti tərəfindən isə ədliyyə naziri Xəlil bəy və Şərq cəbhəsi komandanı Vehib Paşa imzaladılar. Azərbaycanla bağlanan yardım və dostluq müqaviləsinin şərtlərinə əsasən iki ölkə arasında sülh və möhkəm dostluq münasibətləri bərqərar edilirdi, qayda-qanunu və ölkənin təhlükəsizliyini təmin etmək üçün ehtiyac olduqda Azərbaycan hökumətinə hərbi yardım etməyi Osmanlı hökuməti öz üzərinə götürürdü. İyunun 16-da Azərbaycan Milli Şurası və müvəqqəti hökuməti Gəncəyə köçdü.

İyunun 24-də M.Ə.Rəsulzadə başda olmaqla Azərbaycan nümayəndə heyəti İstanbula getdi. Nümayəndə heyətinin qarşısında duran əsas məqsəd Dördlər ittifaqı dövlətləri və Qafqazda yeni yaranmış dövlətlərin nümayəndələrindən ibarət konfransda iştirak etmək. Osmanlı hökuməti ilə bir sıra məsələləri müzakirə etmək idi. İstanbulda Azərbaycan heyəti mühüm göräşlər keçirərək istiqlal bəyannaməsini bu ölkələrin nümayəndələrinə təqdim etdi. Müharibədə Dördlər ittifaqı dövlətlərinin vəziyyəti ağırlaşdıqca İstanbul konfransının baş tutması ehtimalı azalırdı. Buna baxmayaraq Azərbaycan nümayəndə heyətinin keçirdiyi görüşlərin böyük faydası oldu. Nümayəndə heyətinin xahişini nəzərə alan Osmanlı hökuməti on il müddətinə 2 milyon lirə həcmində borc verməyi qərara aldı. Azərbaycan pullarının çapı da İstanbulda başlandı. Osmanlı hökuməti Azərbaycan heyətinin xahişlərini nəzərə alaraq Azərbaycana kitab və müəllim göndərməyə razılıq verdi.

Nümayəndə heyətinin ən böyük uğuru Azərbaycana hərbi yardım məsələsini həll etməsi idi. Batum müqaviləsinin 4-cü

bəndinə müvafiq olaraq Ənvər Paşa Azərbaycana lazımi qədər hərbi qüvvə göndərəcəyini vəd etdi.

Beləliklə, Azərbaycan dövlətinin ilk diplomatik addımları İstanbul görüşlərində atıldı. Konfransın baş tutmamasına baxmayaraq, Azərbaycan nümayəndə heyəti xariei dövlətlərin nümayəndələri, ilk növbədə Dördlər ittifaqı ölkələri ilə əlaqə yaratdı. Azərbaycan hökumətinin bu və ya başqa məsələlərdə mövqeyini bəyan etdi. Osmanlı dövləti ilə hərtərəfli münasibətlərin təməli qoyuldu. Ən başlıcası isə nümayəndə heyəti Bakını düşməndən azad etmək üçün zəruri hərbi yardım almaq istəyinə çatdı.

4 iyun tarixli Azərbayean-Osmanh müqaviləsinin imzalandığı zaman Azərbaycanda hərbi vəziyyət çox ağır idi. İşğal nəticəsində özünü Sovet Rusiyasının yerli hökuməti elan etmiş Bakı Xalq Komisarları Soveti yad bir rejim qurmuşdu. Bu rejim əvvəlcə Azərbaycanda, sonra isə bütün Güney Qafqazda milli hərəkatları məhv etmək üçün qəti addım atmağa başladı. İyun ayının 6-da əsasən erməni terror dəstələrindən ibarət olan bolşevik ordusu Milli hökumətin yerləşdiyi Gəncə üzərinə hücuma keçdi.

Nunɪ Paşa Gəncəyə gəldiyi vaxt bolşevik qoşunlarına qarşı 600 nəfərdən ibarət dəstə dumrdu. Cəbhəyə güreü polkovniki knyaz Maqalov başçılıq edirdi. Lakin Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra Maqalov gürcü əsgərlərini də cəbhədən götürüb Tiflisə getdi. Çətin vəziyyət yarandı. Azərbaycan ordusunun könüllü toplanması işi lazımi sürətlə getmirdi. Bu çarizm dövründə müsəlmanların hərbi qulluğa çağırılmaması ilə bağlı idi. Azərbaycan hökumətinin iyun ayındakı qərarlarına əsasən Azərbaycanda hərbi vəziyyət elan edildi. Müsəlman korpusu «Əlahiddə Azərbaycan korpusu» adlandınidı. Burada xidmət edəcək zabit kadrlarını hazırlamaq üçün qısamüddətli kurslar açıldı və məcburi hərbi mükəlləfiyyət haqqında fərman verildi. Bütün bunların kifayət etməyəcəyini və ordunun yaranmasının hər şeydən əvvəl, vaxt tələb etdiyini nəzərə alaraq Nazirlər Şurasının sədri Fətəli xan Xoyski Osmanlı dövlətinin bir diviziya həcmində real hərbi yardım göstərməsini

xahiş etdi. Osmanlı dövlətinin başçıları belə bir yardım haqqında əvvəllər vəd versələr də, müttəfiqi olan Almaniyanın narazı qalacağından ehtiyat edirdilər. Buna görə də bu qüvvənin Osmanlı dövlətinə bağlı olmadığı təsəvvümnü yaratmaq üçün yeni qoşun birləşməsi Qafqaz İslam Ordusu adlandırılırdı. Bu ordunun başında Nunı Paşa dururdu.

Azərbaycan hərbi hissələrindən və könüllülərdən ibarət olan Qafqaz İslam Ordusu Göyçay ətrafında döyüşə girdi. Xalq Komissarları Sovetinin iyulun sonunda istefası ilə Bakıda yaranmış «Sentrokaspi və Sovetlərin Müvəqqəti İcraiyyə Komitəsi rəyasət Heyətinin Diktaturası» adlanan yeni yad rejim və onun Ənzəlidən general Denstervilin başçılığı ilə hərbi qüvvə dəvət etməsi də Qafqaz İslam Ordusunun hücumunun qarşısını ala bilmədi. Qafqaz İslam Ordusu sentyabrın 14-də Bakı üzərinə qəti hücuma başladı. Hərbi əməliyyata bilavasitə Nuru Paşa və Xəlil Paşa başçılıq edirdilər. Sentyabrın 15-də Azərbaycan hərbi hissələri Bakını azad etdilər.

Sentyabrın 17-də Azərbaycan hökuməti Bakıya köçdü. Qısa müddətdə Azərbaycan hökumətinin hakimiyyəti bütün ölkədə bərqərar oldu. Milli dövlət quruculuğu işləri sürətləndi.

Bolşevik Rusiyası hökumətinin taleyinin qeyri-müəyyən olmasına baxmayaraq, o. Azərbaycandakı hadisələrə marağını azaltmırdı. Çarəsizlikdən əsas etibarı ilə diplomatik vasitələrlə Bakının Azərbaycan hökuməti əlinə keçməsinin qarşısını almağa çalışırdı. Bu məqsədlə Osmanh-Almaniya ziddiyyətlərindən istifadə etmək və Almaniya ilə siyasi alver vasitəsi ilə neft səltənəti Bakını öz əlində saxlamaq üçün cəhd edirdi. Lakin Bakının azad olunması Moskvanı öz niyyətlərini açmağa məcbur etdi. Sentyabrın 20-də RSFSR xalq xarici işlər komissarı Çiçcrin Osmanlı dövləti xarici işlər nazirinə nota verərək onu Brest- Litovsk müqaviləsini sistematik şəkildə pozmaqda ittiham edərək müvafiq bəndlərin öz qüvvəsini itirdiyini bildirdi.

Sentyabrın 24-də Rusiya səfiri İoffe Osmanlı dövlətinin baş naziri Tələt Paşadan Bakının boşaldılmasını, vurulan zərərin ödənilməsini və bu şəhərin sovet orqanlarına təhvil verilməsini yenidən tələb etdi. Tələt Paşa isə «türklərin Bakını heç vaxt'

Sovet Rusiyasına təslim etməyəcəklərini və Qafqazdakı millətlərin daxili işlərinə əsla qarışa bilmədiklərini bildirdi».

Bu zaman Tələt Paşanın Berlinə səfəri gedişində iki ölkə başçısının danışıqlarında Azərbaycan məsələsi də müzakirə edildi. Danışıqlar nəticəsində sentyabrın 28-də gizli protokol imzalandı. Almanlar əvvəlki etirazlarından imtina edərək Azərbaycan və Ermənistanı tanımaq barədə sovetlərin razılığını təmin etmək vəzifəsini öz üzərlərinə götürdülər. Bunun əvəzində isə osmanlılar hərbi hissələrini Azərbaycandan çıxarmağı vəd etdilər.

Lakin Azərbaycan üçün yaranmış yeni imkanlar gerçəkləşmədən vəziyyət köklü surətdə dəyişdi. Az sonra Dördlər ittifaqından ilk əvvəl Bolqarıstan, onun dalınca Avstriya-Macarıstan, sonra isə Osmanlı imperiyası müharibədə məğlub oldu.

Rusiya ilə Osmanlı dövləti arasında bufer dövlətin yaranmasında maraqlı olan türk hökuməti Güney Qafqazın rus təsirindən qopmasında birinci dərəcəli rol oynadı. Azərbaycan istiqlalının elan olunması və gerçəkləşməyə başlaması da Osmanlı dövlətinin uğurlu Qafqaz siyasəti nəticəsində mümkün oldu. Ağır günlərini yaşayan Azərbaycan Osmanlı dövlətinin timsalında müttəfiqini qazandı. Azərbaycan türklərinin fiziki varlığının qorunması və Azərbaycanın türk yurdu kimi qalmasında Osmanlı dövlətinin köməyinin mühüm tarixi əhəmiyyəti oldu.

İki ölkə nümayəndələri arasında bu və ya digər məsələlərdə fikir ayrılığının olmasına baxmayaraq. Osmanlı dövləti müstəqil Azərbaycan dövlətinin təşəkkülündə ciddi rol oynadı.

1918- ci il oktyabrın 30-da imzalanmış Mondros sülh müqaviləsi Azərbaycanın beynəlxalq vəziyyətini kökündən dəyişdirdi. Osmanlı imperiyasının müttəfiqi hesab olunan Azərbaycan iştirak etmədiyi müharibədə məğlub sayıldı. Sülhün şərtlərinə görə, türk ordu hissələri Azərbaycam tərk etməli, müttəfiq qüvvələri tərəfindən Bakının tutulmasına mane olmamalı. Güney Qafqaz dəmiryolu üzərindəki nəzarət hüququnu Antantaya güzəştə getməli idi. Azərbaycan hökuməti bu müqaviləni

pisləyərək, Osmanlı dövlətinə və Antanta hökumətlərinə qəti etirazını bildirdi.

Noyabrın 10-da baş nazir Fətəli xan Xoyski və xarici işlər naziri vəzifəsini icra edən Adil xan Ziyadxan xalqların öz müqəddəratını təyin etməsi hüququnu tələb edən «14 maddə» proqramının müəllifi Amerika Birləşmiş Ştatlarının prezidenti tanınmaq üçün Vudro Vilsona müraciət etdilər.

Belə şəraitdə Azərbaycan dövləti Ənzəlidə olan ingilis ordu hissələri komandanlığı ilə danışıqlar aparmaq üçün oraya nümayəndə heyəti göndərdi. Nümayəndə heyətinə Ə. Ağaoğlu, N.Yusifbəyli və M.Rəfiyev daxil idilər. Azərbaycan nümayəndə heyəti ölkə ərazisinə daxil olmazdan əvvəl general Tomsondan Azərbaycanın müstəqilliyini tanımaq haqqında bəyanat verməsini təklif etdi. Lakin o, nümayəndə heyətinin təklifini etiraz edərək bildirdi ki, Azərbaycan hökuməti türklərin intriq- rası nəticəsində yaranmışdır və xalq arasında heç bir dayağa malik deyildir. Tomsonun bu bəyanatına Azərbaycan nümayəndələrinin kəskin etirazından sonra general demişdi: «Bir halda ki, siz əksini iddia edirsiniz, onda gələrik, yerindəcə müvafiq qərar qəbul edərik». Tomsonun qərarı qəti idi; noyabrın 17-si saat 10-a kimi Bakı Azərbaycan və Osmanlı qoşunlarından təmizlənməli idi; Bakı neft mədənləri işğal altında olacaqdı, ölkənin qalan hissələri isə Azərbaycan hökuməti və onun qoşunlarının nəzarəti altında qalacaqdı; Azərbaycan rəsmən tanınmırdı, lakin İngiltərə, Fransa və Amerika nümayəndələri onun hökuməti ilə de-fakto əlaqələr yaradırdılar; bütün təşkilat və müəssisələr adi qaydada işləyirdi, general Tomson Bakının general-qubernatoru olacaqdı, şəhər dumasına yenidən fəaliyyət azadlığı veriləcəkdi; Paris sülh konfransında milli müqəddəratı təyin etmək prinsipi əsasında müzakirələr aparmaqdan Azərbaycan xaric edilməyəcəkdi, Lazar Biçeraxovun hissələri Britaniya qoşunları ilə birlikdə Bakıya daxil olacaqdı, silahlı ermənilər isə Bjakıya buraxılmayacaqdılar.

Noyabrın 16-da Azərbaycan Milli Şurası yenidən toplanaraq, vəziyyəti müzakirə etdi. Milli Şura üzvlərinin

əksəriyyəti vəziyyətin ağırlığına baxmayaraq, istiqlal məsələsində güzəştə getməməyi qərara aldı.

Noyabrın 17-də Tomsonun hərbi dəstələrinin Bakıya daxil olmasını şəhərin bütün əhalisi eyni cür qarşılamadı. Rus və erməni milli şuralarının tərəfdarları bayram əhval- ruhiyyəsində idilər. Tomsonla birlikdə gəlmiş Biçeraxovun təyyarələri «Rusiya vətəndaşlarına!» xitablı intibahnamələr səpir və xristian əhalini Bakının «ana vətənə qovuşması» münasibətilə təbrik edirdi.

Biçeraxov tezliklə daha da qabağa gedərək qurama «Qafqaz - Xəzər hökuməti» deyilən təşkilat yaradaraq, daşnaklarla birlikdə Tomsonu Ufadakı Kolçak hökumətinə tabe olmadığı təqdirdə Azərbaycan hökumətini buraxmağa təhrik etməyə çalışdı.

Bakı əlverişli coğrafi-strateji mövqeyinə görə ingilislərin diqqətini cəlb edirdi. İran və Hindistandakı mənafelərini Rusiya təcavüzündən qorumaq üçün ingilis hökuməti Bakıda və bütün Güney Qafqazda möhkəmlənənədək Rusiyaya qarşı bufer zona yaratmağa səy edirdi.

Tomsonun ilk əvvəllər Antanta üzrə müttəfiqi olan Rusiyanın 1914-cü ildəki sərhədlərinin bərpasına yardım edəcəyi haqqında bəyanatları taktiki addım idi. Bakı müttəfiqlər adından işğal edilmişdi. Buraya İngiltərədən başqa Fransa və ABŞ-ın da nümayəndələri gəlmişdilər və bəyanatlar hər üç dövlətin ümumi mövqeyini ifadə etməli idi. Fransanın bu dövrdə güclü və vahid Rusiyanın bərpasına çalışması İngiltərənin nüfuzunun artmasına qarşı idi.

ABŞ nümayəndəsi də bu bölgədə ingilislərin nüfuzunun artması və Bakı neftinin yalnız ingilislərin əlinə keçməsindən narazı qalmışdı.

Tomsonun bəyanatının ruspərəst ruhda olmasının səbəbləri Azərbaycan hökumətinə təzyiq göstərmək və onun müqavimətini qırmaq və Bakıda olan rus ağqvardiyaçı qüvvələrindən istifadə etmək niyyəti ilə bağlı idi. Tomson özünü möhkəmlədənə qədər Biçeraxovun hərbi hissələrindən və başqa qüvvələrdən istifadə etməyə ümid bəsləyirdi.

Tomson Bakıya gələr-gəlməz Azərbaycan dövlətinin başçılarına ölkədə olan əsas millətlərin nümayəndələrindən ibarət yeni hökumət yaratmağı təklif etdi. Bu məqsədlə Rus Milli Şurasının rəhbərliyi ilə də görüşərək onların Azərbaycan hökumətinə 2 nümayəndə vermələrini tövsiyə etdi. Rus Milli Şurasının rəhbərliyi Azərbayeanı Rusiyanın əyaləti hesab etdiklərindən bu ölkənin öz müqəddəratını təyin etmək hüququnu tanımadıqlarını söylədilər. Onlar yeni kabinetə daxil olmaqdan imtina etdilər. Bu əsasda Tomsonla Rus Milli Şurası arasında ziddiyyətlər başlandı.

Paris sülh konfransının qərarlarına uyğun olaraq ingilis hərbi hissələrinin Güney Qafqazı tərk edəcəyi haqqında xəbərlər artıq 1919-cu ilin may ayının əvvəllərindən etibarən gerçəkləşməyə başladı. Mayın 10-da Paris konfransı adından general Tomson Azərbayean hökumətinə aşağıdakı məzmunda teleqram göndərdi: «Sizə bildirməliyəm ki, Britaniya qoşunları İtaliya hissələri ilə əvəz ediləcək. İtaliya zabitləri heyəti artıq Gürcüstana gəlmişdir... Bu dəyişmə yalnız hərbi xarakter daşıyır və səlahiyyətlər məsələsinə təsir etməyəcək. O, sülh konfransının qərarını heç cür qabaqlamırdı».

Belə teleqram Azərbaycan hökumətinin narahatlığına səbəb oldu. Xarici işlər naziri təcili Tiflisə gedərək ingilis qoşunlarının getməsini və italyanların onları əvəz etməsinin arzuolunmaz hal olduğunu bildirdi. Tomson bu qərarın Paris sülh konfransında qəbul olduğunu göstərdi. Azərbaycan nümayəndəsinin Dağlılar respublikasının işğalını tamamlamaqda olan Denikin təhlükəsinin artdığını fikrini irəli sürməsi də təsirsiz qaldı. Tomson bu məsələnin artıq mərkəzdə həll edildiyini və italyan hissələrinin onları əvəz edəeəyi planının dəyişməyəeəyini bir daha bəyan etdi.

Azərbaycan hökumətinin narahatlığını artıran səbəblərdən biri də Parisdə çar Rusiyası generalları ilə Antanta nümayəndələri arasında yaxınlaşmanın baş verməsi «Vahid və bölünməz Rusiya» uğrunda mübarizə aparan Kolçaka Antanta dövlət başçılarının məktubu onun hökumətinin dolayı yolla tanınması demək idi. Antantanın bu addımı keçmiş çar Rusiyası

ərazisində yeni yaranmış dövlətlərin rəsmi nümayəndələrinin etirazına səbəb oldu. Estoniya, Latviya, Belorusiya, Ukrayna, Qüzey Qafqaz, Gürcüstan və Azərbaycan nümayəndələrinin imzaladığı bu etiraz məktubunda yeni yaranmış dövlətlərin tam müstəqilliyinin tanınması və Rusiyadan ayrılması tələb olunurdu.

1919- cu il mayın 16-da Savoya şahzadəsinin başçılığı altında Bakıya gələn ilk İtaliya heyətini Azərbaycan hökuməti hörmətlə qarşıladı. Mayın 22-də isə polkovnik Melxior Qabbanm rəhbərlik etdiyi heyət Bakıya gəldi. İtaliya heyəti Azərbaycanda təhqiqat işlərinə başladı. Onlar sülh və təhlükəsizliyin qorunması üçün Azərbaycana lazım olan hərbi qüvvənin miqdarını bilmək istəyirdilər. Kapitan Oldanyi İtaliya hissələrinə müvafiq hərbi qışlaqlar hazırlamaq üçün Şuşaya və Şəkiyə səfər etdi. Azərbaycan ordusunun silah və hərbi sursatla təmin edilməsinə yardım ediləcəyi vədi verildi.

İtaliya heyətləri öz işlərini hələ sahmana salmamış İtaliyada hökumət dəyişikliyi baş verdi. Yeni baş nazir Françesko Nitti Qafqaz üzərində İtaliya mandatını baha başa gələ biləeək avantüra adlandırdı. Yeni İtaliya kabineti Qafqaza mandatdan və hərbi hissələr göndərməkdən imtina etdi. 1919-cu il iyulun 31-də İtaliya hərbi heyətinin Azərbaycan xarici işlər nazirinə göndərdiyi rəsmi məktubda göstərilirdi: «Britaniya qoşunlarının əvəzinə Güney Qafqazına İtaliya qoşunları göndərilməyəeək».

İtaliyanm Qafqazdan imtina etməsindən sonra Azərbaycan nümayəndəsi Ermənistan və Gürcüstan nümayəndələri ilə birlikdə yenidən sülh konfransına müraciət etdi.

**A/arhaycanm Gürcüstan və Ermənistanla**

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin xarici siyasətində Gürcüstan və Ermənistan özünəməxsus yer tutdu. Sərhəd məsələsi istiqlalını elan etmiş Cənubi Qafqazm üç dövləti arasında münaqişəli problemə çevrildi. 1918-ci il iyunun 5-də Gürcüstan hökumətinin iclasında Borçah, Sığnax və Tiflis

qəzalarının sərhədlərində silahlı qüvvələrin yerləşdirilməsi haqqında qərar qəbul edildi. Bu qərardan az sonra alman hərbi dəstələrinin müşayiəti ilə Borçalıya gürcü qoşunları yeridildi. Onlara Poylu körpüsünə qədər dəmiryol xətti boyu ərazini tutmaq əmri verildi. Borçalıya daxil olan hərbi hissələrin köməkliyi ilə gürcü məmurları öz idarələrini qurmaqla yanaşı, burada taxıl məhsulunu müsadirə edir və yerli azərbaycanlı əhalini incidərək onları yurdlarını tərk etməyə məcbur edirdilər.

Gürcüstanın Borçahnı tələsik özününküləşdirmək cəhdlərinə, buradakı yerli türk əhalisinin incidilməsi və onların kömək haqqında müraciətlərinə Azərbaycan hökuməti dərhal reaksiya verdi. Xarici işlər naziri M.H.Hacınski iyunun 14-də Gürcüstan Respublikasının xarici işlər nazirinə məktubla müraciət etdi.

Məktub «iki qonşu respublikanın dövlət sərhədlərinin bərqərar olması məsələsinin həlli üçün hökumətlərimizin təyinatı ilə xüsusi qarışıq komissiyanın yaradılması» təklifi ilə bitirdi.

M.H.Hacınski 22 iyun tarixli növbəti məktubunda yenidən sərhəd məsələsi üzrə qarışıq Azərbaycan-Gürcüstan komissiyasının yaradılmasını təklif etdi.

Azərbaycanın sərhəd məsələlərinin qarışıq komissiya vasitəsi ilə həll etmək təklifini Gürcüstan hökuməti qəbul etmək istəmir və keçmiş Tiflis quberniyası ərazisinin qeyd-şərtsiz Gürcüstan ərazisi olduğunu bildirdi.

Buna baxmayaraq Azərbaycan hökuməti münaqişəni dərinləşdirməmək yolu tutdu. Eyni zamanda öz təklifindən vaz keçmədiyini bildirdi. Almaniyanın Qafqazdakı nümayəndəsi general fon-Kress münaqişənin həllində öz vasitəçiliyini təklif etdi.

Azərbaycan hökuməti Qarayazıda alman hərbi dəstəsinin yerləşdirilməsini yerli əhali arasında arzuolunmaz reaksiya yaratması təhlükəsi ilə əsaslandıraraq. Qara., .zıdan Gürcüstan və Azərbaycan hissələrinin çıxarılması, əvəzində burada alman və türk dəstələrinin yerləşdirilməsini təklif etdi. Azərbaycan hökumətinin bu təklifini Nuru Paşa da müdafiə etdi.

Son nəticədə Qarayazıda Azərbaycan korpusu dəstəsinin qalmaq şərti ilə beynəlxalq komissiyanın yaradılması haqqında razılıq əldə edildi. Lakin daha sonra qarşılıqlı razılığa əsasən iki ölkə arasındakı ərazi məsələlərinin həlli İstanbulda nəzərdə tutulmuş beynəlxalq konfransa verildi.

1918- ci ilin noyabrında Dördlər İttifaqının müharibədə məğlub olması, Almaniya və Osmanlı qoşunlarının Qafqazdan çəkilməsi, Antanta adından ingilislərin Bakını tutması və sonralar öz nüfuzlarını bütün Güney Qafqaza yaymaları ilə burada bçynəlxalq vəziyyət kökündən dəyişdi. İngilis qoşunlarının Öakını işğal etməsi ilə hələ özünü yetərincə möhkəmləndirməmiş Azərbaycanın vəziyyəti ağırlaşdı.

Almanlar Gürcüstanda olduqları vaxt Ermənistanla sərhəddə daimi toqquşmalar olurdu. 1918-ci il oktyabrın 18-də Gürcüstan Ermənistanı Tiflis quberniyasının bir hissəsini işğal etməkdə ittiham etdi. Oktyabrın 27-də Gürcüstan hökuməti Azərbaycan, Ermənistan və Quzey Qafqaz Dağlılar Respublikasının səlahiyyətli nümayəndələrini konfransa dəvət etdi.

Konfrans 1919-cu il aprelin 25-də Tiflisdə öz işinə başladı. Azərbaycan nümayəndə heyətinə baş nazir və xarici işlər naziri əvəzi Fətəli xan Xoyski başçılıq edirdi.

Qafqaz dövlətləri arasındakı münasibətlərin ayrı-ayrı əhəmiyyətli sahələri üzrə konfransda altı komissiya yaradıldı:

1) Ərazi və sərhəd mübahisələrinin həlli prinsipləri və yollarının müəyyən edilməsi; 2) Respublikalar arasında dəmir yol, poçt-teleqraf əlaqələrinin nizamlanması; 3) Mal mübadiləsi, gömrük, maliyyə və başqa məsələlərlə bağlı maliyyə-iqtisadi; 4) Siyasi məsələlər (respublikaların müstəqilliyinin tanınması və müvafiq bəyannamənin hazırlanması, respublikaların maraqlarının birgə qorunması, xarici təcavüzün qarşısının alınması sahəsində tədbirlər, vətəndaşlıq məsələləri); 5) Məhkəmə-hüquq (cinayətkarların təhvil verilməsi, dövlətlərə iddialar üzrə); 6) Qaçqınlar və köçəri əhali.

Qafqaz konfransında müzakirə olunan əsas məsələlərdən biri ərazi-sərhəd məsələsi idi. Bu məsələyə dair yaradılmış müvafiq komissiyaya hər respublikadan bir neçə tanınmış dövlət

xadimi daxil idi. Azərbaycan nümayəndə heyəti ərazi məsələlərinə münasibətdə aşağıdakı prinsipləri əsas tutmağı təklif etdi; ərazi iddiaları yalnız respublikalararası sərhədyanı əraziyə münasibətdə elan edilə bilər; ərazi məsələlərinin həllində əhalinin iradəsi-təyini-müqəddarat hüququ əsas tutulmalıdır; təsərrüfat-məişət və tarixi bağlarla digər mübahisəsiz rayonla əlaqədar olan rayon haqqında iddia irəli sürülmüşdürsə referendum bütöv şəkildə götürülmüş bütün bu rayonların əhalisi arasında keçirilir.

Uzun mübahisələrdən sonra aşağıdakı formul qəbul edildi: konfrans qarşısında öz müqəddəratını təyin etmək haqqında inqilabın böyük şurasmm həyata keçməsi nəticəsində əmələ gəlmiş Güney Qafqaz dövlətləri sərhədlərinin müəyyən olunması vəzifəsi durur; yalnız respublikalar arasındakı qarışıq əhaliyə malik rayonlar haqqındakı mübahisəli məsələlər müzakirə edilə bilər. Yuxarıda göstərilən mübahisələrlə əlaqədar respublikalar arasında sazişlərin əldə edilməsi, sazişlərə gəlmək mümkün olmadıqda isə bu mübahisələr arbitraj yolu ilə həll olunması idi. Bütün mübahisəli məsələlərin, o cümlədən ərazi- sərhəd məsələlərinin həlli yollarının əsas istiqamətləri və prinsipləri barədə Qafqaz dövlətlərinin razılığa gəlmələri konfransın Ipöyük uğuru oldu.

İyun ayının əvvəllərində regionda vəziyyətin kəskin surətdə dpyişməsi Qafqaz konfransını öz işini dayandırmağa məcbur etdi. Denikin ordusunun Dağıstan üzərinə hücumu və güneyə doğru sürətlə irəliləməsi Azerbaycan və qismən Gürcüstanın taleyi üçün ciddi qorxu törətdi.

Qafqaz konfransının uğurlu işi, o cümlədən burada Azerbaycan tərəfinin təklif etdiyi «Qafqazın müstəqilliyinə təcavüzün qarşısının aimması tədbirləri haqqında» sənədin müzakirəsi Denikin təhlükəsinə qarşı Azərbaycan və Gürcüstan hökumətinin fəaliyyətlərinin əlaqələndirməsi üçün əsas oldu. Bu meylin nəticəsi olaraq Azərbaycanla Gürcüt> m arasında 1919-cu ilin iyunun 16-da Tiflisdə imzalanmış və iyunun 27-də hər iki ölkənin parlamentində təsdiq edilmiş hərbi-müdafiə müqaviləsi meydana çıxdı.

Azərbaycan-Gürcüstan paktı ilə iki ölkə arasında münasibətlərin normal məcraya düşməsi və əlaqələrin inkişafı üçün münasib şərait yarandı. Bu ölkələr arasında hərbi sahədə əməkdaşlıq meylləri artdı.

Gürcüstanla 1918-ci ilin mayın sonlarında qurulan əlaqələr çətin mərhələlərə keçərək çox vaxt böhran həddinə qədər kəskinləşsə də, 1920-ci ilin əvvəllərindən etibarən normal məcraya düşməkdə idi. İki ölkənin maraqları strateji məsələlərdə üst-üstə düşdüyü üçün Azərbaycanla Gürcüstan arasında mehriban qonşuluq münasibətləri formalaşırdı.

Dünya müharibəsinin 1918-ci ilin ortalarında Ermənistan üçün çox ağır şərait yaratdığına baxmayaraq, o, İstanbula göndərdiyi nümayəndə heyətinə geniş ərazi iddiaları irəli sürməyi tapşırdı. Konfransda iştirak etmək arzusu ilə İstanbula getmiş Qafqaz nümayəndə heyətindən ən «hazırhqhsı» ermənilər idi. Onlar konfransda xeyli statistik materiallar, eləcə də özləri hazırladıqları xəritələr və layihələr ilə gəlmişdilər.

İstanbul konfransında iştirak üçün gəlmiş Azərbaycan nümayəndə heyətinin yeni başçısı Ə.M.Topçubaşov da Osmanlı hökumətinin üzvləri ilə görüşləri davam etdirdi.

Azərbaycan hökumətinin başının Bakı məsələsi və ölkənin mərkəzində dövlət orqanlarmın yaradılmasına qarışdığından istifadə edən ermənilər Azərbayean hökumətinin hələ nüfuz dairəsində olmadığı yerlərdə bütün gücləri ilə kütləvi qırğınlar törədərək etnik təmizləmə apardılar.

Ermənilər Mondros barışığı və Antantanın müharibədən qalib çıxmasını toy-bayram kimi qarşıladılar. Azərbaycanın yaxın müttəfiqi olan Osmanlı imperiyasının müharibədə məğlubiyyəti Ermənistanın Azərbaycana münasibətində böyük dəyişiklik yaratdı. Bundan sonra ermənilərin torpaq iddialarının miqyası xeyli genişləndi. «Böyük Ermənistan» yaratmaq ideyası Ermənistan respublikasının rəsmi dövlət siyasətinin əsasını təşkil etməyə başladı. «Böyük Ermənistan» yaratmaq planı etnik cəhətdən «təmiz ərazi» tələb edirdi. Odur ki, ermənilər yaranmış şəraitdən istifadə edərək yenidən qırğınlara başlayaraq «etnik təmizləmə» işinə girişdilər.

Müharibənin sona çatması, İstanbul konfransının baş tutmaması, fürsətdən istifadə edərək ərazi iddialarını gerçəkləşdirmək üçün olmazın vəhşiliklər törədən erməni hücumlarının qarşısını almaq, dəyişən yeni şəraitdə Qafqazda yaranmış dövlətlər arasında pozulmuş münasibətləri tarazlaşdınuaq, o cümlədən ərazi-sərhəd problemlərini müzakirə etmək üçün
1918- ci ilin noyabrında Gürcüstan və Azərbaycan hökumətlərinin Tiflisdə çoxtərəfli danışıqlar təklifini yuxanda göründüyü kimi, ennəni hökuməti müxtəlif bəhanələrlə rədd edərək, həm Gürcüstan (Borçalı), həm də Azərbaycanda (Göyçə, Qarabağ, Zəngəzur, Naxçıvan, Şəıur) elan edilməmiş müharibəni davam etdirmək xəttini tutdu.

Erməni silahlı dəstələri müttəfiq qoşunları komandanının müraciət və əmrlərinə əhəmiyyət vermədən dinc əhalini qmuaqdan əl çəkmədilər.

Tiflisdə başlanmış Qafqaz ölkələri konfransı Dcnikin təhlükəsinin artması ilə bağlı öz işini dayandırmağa məcbur oldu.

**Azərbaycan-İran münasibətləri** Azərbaycan Xalq Cümhuriyyəti İranla normal münasibətlərin qurulmasında maraqlı idi. Azərbaycan torpaqlarının böyük hissəsinin İran daxilində olması bu iki ölkə arasında qumlacaq münasibətlərdə özünü göstənnəli idi. Ona görə də İranla münasibətlərin tənzimlənməsinə xüsusi yanaşma tələb olunurdu.

İran hökuməti Arazın quzeyində Azərbaycan adlı dövlətin yaradılmasının və onun gec-tez Güney Azərbaycana təsir edəcəyindən təşvişə düşdüyünü büruzə verdi. 1918-ci ilin iyulunda Azərbaycanın İstanbulda olan nümayəndə heyəti buradakı digər nümayəndələrlə yanaşı, İran konsulluğuna da Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında bəyannamə təqdim etdi. İran konsulu bu bəyannaməni geri qaytararaq, Azərbaycan adlı müstəqil dövlət tanımadığını bildirdi.

Tehran hökuməti Quzey Azərbaycan təbəələrinin Təbrizdə öz nümayəndəliklərini yaratmasının qarşısını almağa,

bu mümkün olmadıqda isə nümayəndəliyin fəaliyyətini məhdudlaşdıraıağa çalışdı.

Osmanlı qoşunlarının Andranikin dəstələrinin Dcnstervil qüvvələri ilə birləşməsinə mane olmaq məqsidilə təcili Təbrizi tutması ilə həmin komitə «Qafqaz İslam Cümhuriyyəti» konsulluğuna çevrildi. Konsulluğa əvvəl Teymur bəy Məlik-Aslanov, sonra Yusif Ziya, daha soma isə Rauf bəy başçılıq etdi. Türk qoşunlarının Təbrizi tərk etməsindən sonra Tehran hökuməti bu konsulluğu bağladı.

Bir müddət sonra İranın Azərbaycana münasibətində kəskin dönüş yarandı. İran rəsmiləri İranla Azərbaycanın vahid dövlət təşkil etməsinin hər iki ölkə üçün məqsədəuyğun olması tezisini irəli sürdülər. Həmin tezis sülh konfransında iştirak üçün Parisə səfəri zamanı 1918-ci ilin sonralarında iki gün Bakıda qalmış İran nümayəndə heyəti tərəfindən irəli sürüldü. Nümayəndə heyətinin başçısı-İran xarici işlər naziri dünya müharibəsi qurtardıqdan sonra Azərbaycan üçün əlverişsiz vəziyyətin yarandığını qonşu gürcü, xüsusilə də erməni hökumətlərinin düşmən münasibətini nəzərə alaraq Azərbaycan hökumətinin qonşularla birlikdə konfederasiya təşkil etmək ehtimalına şübhə ilə yanaşdığını göstərərək İranla Azərbaycanın birləşməsinin hər iki tərəf üçün faydalı olacağını əsaslandırmağa çalışdı. Azərbaycan bu təklifi kəskin etirazla qarşıladı.

İran xarici işlər naziri bu məsələni 1919-cu ilin yanvarında İstanbulda Ə.Topçubaşovla görüşündə qaldırdı. O, bildirdi ki, sizin Azərbaycan, əlbəttə, daxili muxtariyyətini saxlayacaq, xarici siyasət sahəsinə gəldikdə isə, o, xüsusi rəsmi sənədlə müəyyənləşəcək. Lakin İranın belə mövqeyi iflasa uğradı.

1919-cu ilin yazında Adil xan Ziyadxanın başçılığı ilə Tehrana fövqəladə nümayəndəliyi göndərildi.

İran nümayəndələri ilə diplomatik təmaslar Parisdə də davam etdirildi. 1919-cu ilin oktyabrında Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun İran xarici işlər naziri Əliqulu Müşavirülməmalik Ənsari ilə göidişləri anlaşmaz

lıq şəraitində keçirdi. Sovet Rusiyasının İranla qeyri-bərabər müqavilələri ləğv etməsindən istifadə edərək, İran 1919-cu ilin əvvəllərində Paris konfransına böyük iddialı rəsmi memorandum verdi.

Bununla belə, birinci dünya müharibəsində heç bir rolu olmayan İranın torpaq iddiaları konfransda ciddi qarşılanmadı.
1919- cu il 9 avqust tarixli İngiltərə-İran müqaviləsinin imzalanmasından sonra İran nümayəndələri konfransın işinə yaxın buraxılmadılar.

Sentyabrda yeni xarici işlər naziri Firuz Mirzənin başçılığı ilə nümayəndə heyətinin Avropaya gəlməsindən sonra İran heyətinin Azərbaycan istiqlalına münasibəti dəyişdi.

Paris və Londonda başlanmış danışıqları davam etdirmək üçün dekabrın əvvəlində Seyid Ziyaəddin Təbatəbainin başçılığı ilə Bakıya İranın fövqəladə nümayəndə heyəti gəldi. Dekabrın 5-də başlanmış danışıqlar daha sonra xüsusi komissiyalarda (siyasi-hüquqi, gömrük-ticarət-tranzit, poçt- teleqraf) davam etdirildi.

Azərbaycan Xalq Cümhuriyyəti ilə İran arasında diplomatik danışıqlar 1920-ci il mart ayının 20-də bir sıra sazişlərin- teleqraf, ticarət-gömrük, poçt sazişlərinin və konsul konvensiyasının qəbulu ilə başa çatdı. Həmin gün Azərbaycan Xalq Cümhuriyyəti və İran şahənşahlığı arasında dostluq haqqında da müqavilə imzalandı. Dostluq müqaviləsinin birinci maddəsi Azərbaycan Respublikasının istiqlaliyyətinin təntənəli surətdə tanınması, ikincisi-iki dövlət arasında dostluq münasibətlərinin və iqtisadi əlaqələrin əsasını qoyan sazişlər haqqında, üçüncüsü isə iki dövlət arasında səfirlik (diplomatik nümayəndəlik) səviyyəsində diplomatik əlaqələrin yaranması haqqında idi.

1920-ci ilin əvvəllərindən etibarən Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyi İranın bir sıra şəhərlərində rəsmi nümayəndəliklər şəbəkəsi yaratmağa başladı. Fevralın 2- də Azərbaycanın xarici işlər nazirinin müavini İranın Azərbaycandakı nümayəndəsinə yazdığı məktubda Ənzəli, Təbriz, Məşhəd və Rəşt şəhərlərində Azərbaycanın konsul

agentliklərini yaratmaq niyyətində olduğunu bildirdi. Fevralın 4-də Məmməd bəy Xəlilov Ənzəlidə vitse-konsul təyin olundu.

Azərbaycanın xarici işlər naziri F.Xoyski 1920-ci ilin aprelin 1-dən etibarən Azərbaycanın Təbrizdə baş konsulluğunun, Rəştdə konsulluğunun, Məşhəd şəhərində vitse- konsulluğunun. Əhər və Xoy şəhərlərində konsul agentliklərinin təsis edilməsi haqqında parlamentə müraciət etdi.

**Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransında iştirakı və diplomatik nümayəndəliklər**

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Paris sülh konfransında iştirakı bu dövrün beynəlxalq münasibətlərində mühüm yer tutdu. Azərbaycanın xarici siyasətinin başlıca məqsədi ölkənin müstəqilliyinin gerçəkləşməsindən ibarət idi. Qonşu dövlətlərin Azərbaycan istiqlalını tanıması müstəqilliyin dönməzliyinin təmin edilməsi üçün kifayət deyildi. Dünyanın ən böyük dövlətləri tərəfindən Azərbaycanın müstəqilliyinin tanınması köhnə metropoliyanın iddiaları və birbaşa təcavüzü qarşısında önəmli rol oynaya bilərdi. Xarici siyasətin ana xəttini təşkil edən bu vəzifənin həyata keçirilməsində Azərbaycan istiqlalının tanınması və qorunub saxlanılmasında Qərb ölkələrinin himayəsini əldə etmək işinə ölkənin ən nüfuzlu şəxsləri cəlb olundu.

Dekabrın 7 -də açılmış Azərbaycan parlamenti Paris sülh konfransında iştirak etmək üçün Fransanın paytaxtına tam səlahiyyətli və geniş hüquqa malik nümayəndə heyəti göndərmək haqqında qərar qəbul etdi. Parlamentin sədri Ə.M.Topçubaşov nümayəndə heyətinə başçı təyin olundu.

Nümayəndə heyəti İstanbula gəldiyi 1919-cu ilin yanvarın 20-dən etibarən fransız nümayəndələrindən viza almaq və Parisə yola düşmək məsələləri ilə məşğul olmağa başladı.

Fransız nümayəndəsi hər nümayəndə heyətindən yalnız iki nəfərin gedə biləcəyini bildirdi.

Azərbaycan nümayəndə heyətindən başqa Uki'ayna, Don, Kuban və Quzey Qafqaz Dağlıları Respublikanın nümayəndələri də viza almaq ümidi ilə İstanbulda gözləyirdilər. Nümayəndə heyətlərinin ümumi yığıncağında sülh konfransına kollektiv müraciət etmək barədə qərara gəlindi. Ə.M.Topçubaşov tərəfindən yazılmış memorandumda yeni yaradılmış dövlətlərin xalqlarının müstəqil yaşamaq arzuları və konfransın işində iştirak etmək istəkləri əks olunmuşdu.

1919- cu il aprelin 22-də nümayəndə heyətinin bütün üzvləri (Ə.Ağoğludan başqa) yola düşdü. Heyətin nəzdindəki əməkdaşları və texniki işçiləri isə götürmək mümkün olmadı.

Azərbaycan nümayəndə heyəti may ayının ortasında Parisə çatdı.

Mayın 28-də İstiqlal günü ABŞ prezidenti Vilson Azərbaycan nümayəndə heyətini qəbul etdi. Vilsona təqdim edilmiş memorandumda Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi, onun birillik inkişaf yolu və istiqlal yolunda verdiyi qurbanlardan danışılırdı. Göstərilirdi ki, bu yolda Azərbaycanın 2 şəhəri və 500 kəndi dağıdılmış, Azərbaycan xalqı 100 mindən 150 minə qədər qurban vermişdir. Vilsondan Azərbaycanın istiqlalının tanınması, Vilson prinsiplərinin Azərbaycana aid edilməsi, Azərbaycanın Millətlər Cəmij^ətinə qəbul olunması, ABŞ-ın Azərbaycana hərbi ləvazimat sahəsində yardım göstərməsi, ABŞ-la Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin bərqərar edilməsi məsələlərində Azərbaycan nümayəndə heyətinə kömək göstərilməsi xahiş olunurdu. Bu da əlavə edilirdi ki, müstəqil Azərbaycan çar Rusiyasının borclanndan onun payına düşən hissəni yuxarıdakı şərtlər müqabilində ödəməyə hazırdır.

Prezident Vilson Azərbaycan nümayəndə heyətinə ümidverici bir şey demədi. O, sülh konfransının dünyanı kiçik hissələrə parçalamaq niyyətində olmadığını vurğuladıqdan sonra Azərbaycan nümayəndələrinə federasiya ideyasını müdafiə etməyi məsləhət gördü. Millətələr Cəmiyyətinin mandatı ilə

böyük dövlətlərdən birinin bu federasiya üzərində qəyyumluğunun real çıxış yolu olduğunu dedi. Vilson onu da əlavə etdi ki, Azərbaycan məsələsi rus məsələsindən əvvəl həll oluna bilməz. Bu məsələnin müsbət həllinə erməni nümayəndələrinin pozuculuq fəaliyyəti böyük maneə idi. Onlar ərazi- sərhəd məsələsinə suverenliyin tanınmasından daha çox əhəmiyyət verir, konfederasiya ideyası əleyhinə geniş təbliğat aparır. Qafqazdakı real vəziyyət barədə Avropa və ABŞ ictimaiyyətində yanlış təsəvvür yaradırdılar. Azərbaycan və Gürcüstan nümayəndələrinin kəskin etirazına səbəb olan memorandumda onlar Osmanlı dövlətinin 7 şərq vilayətini (Van, Bitlis, Diyarbəkir, Xarput, Sivas, Ərzurum, Trabzon), Kilikiya, keçmiş İrəvan quberniyası, Tiflis və Yelizavetpol quberniyalarının cənubunu və Kars torpaqlarını tələb edirdilər. Bundan əlavə emıənilər 19 milyard frank həcmində təzminat iddiasında idilər. Erməni təbliğatının əsas hədəfi Osmanlı dövləti və Azərbaycan idi.

Azərbaycan nümayəndə heyətinin ən əhəmiyyətli əməli-təbliğat işlərindən birr «Paris Sülh konfransına Qafqaz Azərbaycanı sülh nümayəndəliyinin tələbləri» adlı kitabçası idi. Bu sənəd böyük tirajla fransız və ingilis dillərində çap edilərək diplomatik nümayəndəliklər və əlaqədar şəxslər arasında yayıldı. «Sülh nümayəndəliyinin tələbləri» Azərbaycanın mənşəyi barədə bölmə ilə başlanır, XVII-XVIIl əsrlərdə müstəqil xanlıqlarda vəziyyət haqqında məlumat verilir, xanlıqların süqutu və çar Rusiyasının Azərbaycanın qüzey hissəsini işğal etməsi şərh edilirdi. Sənədin etnoqrafiya hissəsində Azərbaycanın türk yurdu olması göstərilir və etnik azlıqlar haqqında məlumat verilirdi. İkinci bölmə Azərbaycanın yerli əhalisinin keçmiş nas imperiyasına münasibəti və müstəmləkə rejiminin nəticələrinə həsr edilmişdi. Sonrakı bölmə Zaqafqaziya Seymi, onun zəifiəməsi və Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında tarixi icmal idi. Burada bolşeviklərin və ermənilərin təcəvüzkar hərəkətləri haqqında mühüm məlumatlar verilirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi bölməsində göstərilirdi ki, onun ərazisi xanlıqların ərazisini əhatə edir.

Keçmiş inzibati bölgüyə uyğun olaraq Qafqaz Azərbaycanının ərazisi aşağıdakı inzibati-ərazi vahidlərindən ibarətdir:

Bakı quberniyası; Yelizavetpol (Gəncə) quberniyası (buraya Cavanşir, Nuxa, Ərəş, Şuşa, Cəbrayıl, Zəngəzur və Qazax qəzaları daxildir; Gəncə quberniyasının dağlıq hissəsi Azərbaycan və Ermənistan arasında mübahisə obyekti olaraq qalır); İrəvan quberniyası (Naxçıvan, Şərur-Dərələyaz, Sürməli qəzaları, habelə Yeni Bəyazid-Eçmiadzin və Aleksondropol qəzalarının bir hissəsi); Tiflis quberniyasında Borçalı, Tiflis və Sığnax qəzalarının mühüm bir hissəsi; Zaqatala qəzası; Dağıstan regionunda Kür və Samur nahiyələrini əhatə edən ərazinin bir hissəsi, habelə Dərbənd şəhəri və onun ətrafı da daxil olmaqla Qaytaq-Tabasaran qəzasının bir hissəsi; yuxarıda adları çəkilən İrəvan və Tiflis quberniyalarında, habelə Zaqatala qəzasında mənsubiyyəti Azərbaycan, Ermənistan, Gürcüstan və Şimali Qafqaz respublikaları arasında iddialar doğuran sahədə çox kiçik ərazilər.

Dağıstan haqqında izahatda deyilirdi ki, buranın əhalisinin azərbaycanlılardan ibarət olan hissəsi həmişə Azərbaycana birləşmək meylində olmuşdur. Bu ərazinin iqtisadi mənafeləri Quba və Bakı şəhərləri ilə o dərəcədə bağlıdır ki, Dağıstanı belə siyasi və iqtisadi əlaqələrdən kənarda təsəvvürə gətirmək mümkünsüzdür. Yerli əhali Azərbaycan dövlətinə göndərdiyi pctisiyalarda Sulak çayı boyunca bu ərazinin Azərbaycana birləşdirilməsini tələb edirdi.

Sənəddə göstərilirdi ki, adları çəkilən qəza və əyalətlərdən başqa Azərbaycan Xalq Cümhuriyyəti Tiflis qubemiyasındakı Axalsıx qəzasını; Batum, xüsusən də Qars əyalətlərini öz ərazisinə daxil etməyə xüsusi əhəmiyyət verir. Xüsusən Kars ətrafının sakinləri azərbaycanlılarla eyni etnik qrupa daxildirlər, onların dini, adət-ənənələri, vərdişləri, yaşayış tərzləri və məişətləri Azərbaycanın qalan hissələri ilə eyniyyət təşkil edir. Bütün bunlardan sonra həmin ərazidə yaşayan müsəlmanların dəfələrlə Azərbaycan hökumətinə Kars ətrafının respublikanın tərkibinə qatılması təklifi ilə müraciət etmələrini başa düşmək olar.

Sənəddə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin nəzarəti altında olan ərazinin 94,1 min kv.km., hələlik Azərbaycan hakimiyyətinin yayılmadığı Azərbaycan ərazisi ilə birlikdə isə 150,2 min kv. km. olduğu göstərilirdi.

Bu mükəmməl sənəd Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin tələbləri ilə bitirdi: "1. Sülh konfransı Qafqaz Azərbaycanın Rusiya imperiyasından ayrılmasını bəyənsin; Azərbaycan sərhədləri memoranduma əlavə olunan, xəritədə göstərilən və Azərbaycan Xalq Cümhuriyyəti adı ilə tanınan tam müstəqil dövlət olacaqdır. 2. Azərbaycan Xalq Cümhuriyyətinin sülh nümayəndəliyinin üzvləri sülh konfransının və onun komissiyalarının işinə cəlb edilsinlər. 3. Azərbaycan Xalq Cümhuriyyəti başqa dövlətlər kimi yüksək himayəsi altında olmaq istədiyi Millətlər Cəmiyyətinin üzvlüyünə qəbul edilsin.

Azərbaycan nümayəndə heyətinin müttəfiq dövlətlərin nümayəndələrinə Azərbaycanın müstəqilliyinin tanınması barədə dalbadal cavabsız müraciətlər etdi. 1919-cu ilin payızında general Denikinin Azərbaycan üzərinə hücum təhlükəsi güclənirdi. Parisdəki heyət isə sülh konfransının sədrinə müraciət edərək Denikinin təcavüzkar niyyətlərinə öz etirazını bildirdi. 1919-cu ilin sonlarında beynəlxalq vəziyyətin dəyişməsi Azərbaycandakı şəraitdə müvafiq dəyişikliklər yaratdı. Bolşevik ordu hissələrinin ilk ciddi hərbi uğurlarından sonra Antantanın Kolçak, Denikin və başqa çar generallarına hərtərəfli yardım siyasəti sovet Rusiyası ilə dil tapmaq meyli ilə əvəz olundu. Əgər əvvəllər Antanta ölkələri «böyük, vahid Rusiyanın» bərpasına ümid edirdilərsə, artıq ağ generalların labüd uğursuzluğunu görüb onlara hərbi-siyasi yardımı tədricən azaltdılar, daha sonra isə tamamilə dayandırdılar. Noyabr ayından etibarən Avropa mətbuatında sovet Rusiyasının təklif etdiyi barışıq şərtləri müzakirə olunmağa başlandı. Azərbaycan nümayəndə heyəti keçmiş Rusiya imperiyasından qopmuş yeni dövlətlərin nümayəndələrindən ibarət xüsusi konfransın çağırılmasını təklif etdi.

1920- ci il yanvarın 11-də Lord Kerzonun təklifi ilə Paris konfransının ali şurasında Azərbaycan və Gürcüstanın istiqlalını de-fakto tanımaq haqqında yekdilliklə qərar qəbul olundu. İstiqlalın tanınmasından 3 gün sonra bu tarixi xəbərin sədasını almış Azərbaycan bayram edirdi. Yanvarın 14-də Azərbaycan parlamentinin təntənəli iclası keçirildi.

Yanvarın 19-da Azərbaycan və Gürcüstan rəsmi nümayəndələri Paris konfransı ali şurasının iclasına dəvət edildilər. İclasda müzakirə olunan məsələlərin əksəriyyəti Güney Qafqazın müdafiəsi ilə bağlı idi. Güney Qafqazın yeni dövlətlərini tanımaqla Antanta müvafiq olaraq onların xarici təcavüzdən qorunması haqda da üzərinə təəhhüdlər götürür, yeni yaranmış dövlətlərin rəsmi nümayəndələrinə hərbi sahədə ehtiyaclarını bildirmələri təklif edilirdi.

1920- ci ilin mart ayının 5-də hökumətin qərarı ilə Paris sülh konfransında öz missiyasını uğurla başa vurmuş Azərbaycan nümayəndə heyətinin ləğvi, aprel ayının 1-dən etibarən Fransa, Böyük Britaniya, İtaliya, Birləşmiş Ştatlar və Polşanın paytaxtlarında fəaliyyət göstərəcək Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik nümayəndələiklərinin yaradılması haqqında parlamentə qanun layihəsi təqdim edildi. Qanun layihəsinə əlavə olunmuş izahatda göstərilirdi ki, yuxarıda adı çəkilmiş diplomatik nümayəndəliklər Azərbaycanın xarici təcavüzdən müdafiəsinə yönəlmiş müqavilə şərtlərini hazırlamalı, Azərbaycanın suverenliyinin hüquqi cəhətdən tanınmasına nail olmalı, zərurət hiss olunan ölkələrdə daimi diplomatik nümayəndəliklərinin yaradılmasına çalışmalı idilər.

Siyasi vəzifələrdən başqa bu nümayəndəliklər Azərbaycanın iqtisadi yüksəlişinə də kömək etməli, bu məqsədlə onlar xarici bazardakı vəziyyəti öyrənməli, əmtəə mübadiləsi haqqında müqavilələr imzalamalı, ölkə üçün lazım olan texniki material və maşınlar almalı idilər və s. Polşada yaradılacaq diplomatik nümayəndəlik eyn: zamanda Latviya, Litva, Estoniya, Finlandiya və Ukrayna ilə də rəsmi əlaqələr yaratmalı, bu ölkələrin hökumətləri ilə diplomatik münasibətlərdə Azərbaycan hökumətini təmsil etməli idi.

Azərbaycan hökuməti hələ 1919-cu ilin sonlarında Gürcüstan ( diplomatik nümayəndə M.Y.Cəfərov, sonra F.Vəkilov), Ermənistan (M.U.Təkinski, sonra Ə.Haqverdiyev), İran (A.Ziyadxan), Türkiyə (Y.V.Çəmən-zəminli) ilə rəsmi diplomatik əlaqələr saxlayırdı. Bundan başqa, Azərbayeanın Təbriz, Xoy, Ənzəli, Rəşt, Əhər, Məşhəd, Batum, Kiyev, Knm , Aşqabad və başqa yerlərdə baş konsulluq, konsulluq və konsul agentlikləri fəaliyyət göstərirdi və ya yaradılmaq üzrə idi.

Bakıda isə aşağıdakı ölkələrin müxtəlif səviyyədə rəsmi nümayəndəlikləri fəaliyyət göstərirdi: Gürcüstan, Ermənistan, İran, Belçika, Hollandiya, Yunanıstan, Danimarka, İtaliya, Fransa, İsveçrə, İsveç, İngiltərə, ABŞ, Ukrayna, Litva, Polşa, Finlandiya. Fevralın 7-də Denikin rəsmi olaraq Azərbaycanın istiqlalını tanıdı. Elə həmin günlərdə Yaponiya hökuməti Azərbaycana diplomatik əlaqələr yaratmaq istədiyini bildirdi. Roma Papası öz nümayəndəsini Bakıya göndərdi.

Avropa ölkələrinə hələ diplomatik heyətlər göndərilməmişdi. Ona görə də Topçubaşov başda olmaqla Azərbaycan nümayəndə heyəti London konfransından sonra müttəfiqlərin yarımçıq qalmış məsələləri müzakirə etmək üçün aprelin 19-26-da İtaliyanın San-Remo şəhərində çağırdıqları konfransda iştirak etdi. Konfransda Azərbaycan nümayəndə heyətini maraqlandıran neft, Batum, Osmanlı dövləti ilə sülh müqaviləsinin ilkin layihəsi. Osmanlı dövləti-Ermənistan sərhədləri, Qafqaz respublikalarının daxili sərhədləri və başqa məsələlər müzakirə olunmalı idi. Konfransda sərhəd məsələləri həll olunmadı. Lakin Batumu azad şəhər elan etdi. Ora Fransa və İtaliya dəstələri göndərilməli idi.

**Azərbaycan-Rusiya münasibətləri**

Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətində Rusiya ilə münasibətlər xüsusi yer tuturdu. İstiqlal bəyannaməsində öz əksini tapmış qonşu ölkələrlə mehriban qonşuluq münasibətələrinin bərqərar olması prinsipi sovet Rusiyasına da aid idi. Sovet Rusiyası ilə əlaqələrin

yaradılmasını Azərbaycan Xalq Cümhuriyyəti hökuməti zəmri hesab edərək bəzi addımlar atmaq təşəbbüsünü göstərdi.

Sovet Rusiyası hökuməti sentyabrın 15-də Bakının azad edilməsi və Azərbaycan hökumətinin paytaxta köçməsindən narahat olduğunu gizlətmirdi. RSFSR Xalq xarici işlər komissarı G.Çiçerin sentyabrın 21-də Almaniya baş konsuluna təqdim etdiyi notada «Rusiya respublikasının çox əhəmiyyətli şəhərlərindən birinin», yəni Bakının tutulmasına etirazını bildirib, bu işə, yəni Azərbaycan hökumətinin Azərbaycanın paytaxtına sahib olmasına müqavimət göstərmədiyi üçün müqavilə ilə sövdələşdikləri Almaniyanı tənqid edirdi. 1920-ci ildən başlayaraq Rusiyanın Azərbaycana olan diplomatik təzyiqləri gücləndi və onlara hərbi-siyasi təzyiqlər də əlavə olundu.

1920- ci il aprelin 27-də saat 4-də Azərbaycan K(b)P MK, RK(b)P Qafqaz diyar komitəsinin Bakı bürosu və Fəhlə konfransı adından Azərbaycan parlamentinə hakimiyyətin təhvili haqqında ultimatium verildi.

Bu tarixi iclasda iştirak etmiş M.Ə.Rəsulzadənin yazdığına görə, hakimiyyəti ələ alacaq bolşeviklər aşağıdakı şərtlərə riayət edəcəklərini bildirdilər: “1. Rus ordusu Bakıya girmədən dəmir yolu ilə birbaşa Anadolunun imdadına gedəcək; 2. Azərbaycan istiqlalı və ərazi bütövlüyü hər cür təcavüz və quyuddan (məhdudiyyətdən, ilhaqdan, köləlikdən) qorunacaq; 3. Azərbaycan ordusu olduğu kimi qalıb buraxılmayacaq; 4. Azərbaycan siyasi partiyaları hümyyət və sərbəstliyini mühafizə edəcək; 5.Keçmiş dövlət xadimləri, hökumət üzvləri və millət vəkillərindən heç bir kəs siyasi cinayətdə ittiham edilməyəcək; 6. Azad şəkildə toplanacaq Azərbaycan şuraları hökumətin idarə şəklini təyin edəcək.

1920-ci il aprel ayının 27-si axşam saat 11-də Azərbaycan parlamenti hakimiyyətin təhvil verilməsi haqqında qərar qəbul etdi. Bu, Azərbaycan Xalq Cümhuriyyətinin sonu, Azərbaycan istiqlalının yenidən itirhnəsi və Azərbaycanın yenidən müstəmləkəyə çevrilməsi demək idi.

Az vaxtda bolşeviklərin verdikləri vədlərin heç birinə əməl etmək fıkı ində olmadıqları aydın oldu. Azərbaycanın şəhər və kəndləri bir-birinin ardınca işğal olundu. Azərbaycan rus müstəmləkisinin başqa formasının altına düşdü.

# V BOLUM

## 1921-1923 -cü illərdə beynəlxalq münasibətlərin səciyyəvi cəhətləri

Ziddiyyətlər və mürəkkəbliklərlə dolu olan Versal müqaviləsi faktiki olaraq müharibə dövründə imzalanmış müttəfiqlik haqqında müqavilələri ləğv etdi. Keçmiş müttəfiq dövlətləri belə bir sual düşündürməyə başladı: beynəlxalq münasibətlərin yeni qaydasının möhkəmliyi necədir və sülh müqaviləsinin həyata keçirilməsinə kim nəzarət etməlidir. 1920- ci il yanvarın 10-da qüvvəyə minən müqavilənin həyata keçirilməsinə nəzarət etmək üçün bir sıra təşkilatlar yaradıldı. Komissiyaların çoxluğu Versal müqaviləsinin həyata keçirilməsinə mane olurdu. Problemləri həll etməkdən ötrü çevik daimi orqan lazım idi. Bundan ötrü müttəfiq ölkələrin səfirlərinin konfransı təsis olundu. Lakin bu orqan da mövcud problemləri həll edə bilmədi. Çünki Paris sülh konfransı işğal olunmuş ərazilərdə mandatın bölüşdürülməsi, təzminat və başqa məsələləri həll etməmişdi. Bu problemləri konfransdan sonra həll etmək lazım idi. Keçmiş müttəfiqlər arasında konfransdan sonrakı ziddiyyətlər bu problemlərin həllinə kömək etmirdi. Belə vəziyyət isə Almaniyaya sərf edirdi. Almaniya hər vasitə ilə Versal sülh müqaviləsinin maddələrinin həyata keçirilməsinə mane olurdu. Fransa Avropada Almaniyanın sabotajları ilə üzləşirdi. Fransızlar İngiltərənin köməyinə ehtiyac duyurdu. Bununla belə İngiltərə Avropada hegemonluğa can atan Fransanın rolunun güclənməsini qısqanırdı. Avropada müttəfiqlər arasında olan bu ziddiyyətlərə Yaxın Şərqdəki şərait də əlavə olundu. Türkiyədə Mustafa Kamal Paşanın başçılığı ilə xarici müdaxiləçilərə qarşı güclü milli-azadlıq hərəkatı başlandı.

Belə vəziyyətdə İngiltərə və Fransa birlikdə hərəkət etmək qərarına gəldilər. Onlar üçün başlıca məsələ təzminatı almaq və Yaxın Şərq problemini həll etmək idi. Bu məqsədlə konfrans çağırmaq qərara alındı.

London konfransı London konfransı 1921-ci il fevralın 21-dən martın 14-nə kimi keçirildi. Konfransda təzminat və Yaxın Şərq məsələləri müzakirə edildi. Müzakirələr İngiltərə ilə Fransa arasındaki kəskin ziddiyyətləri üzə çıxartdı. Konfransın işində iki türk nümayəndə heyəti iştirak edirdi. Ankara hökumətinin nümayəndə heyətinə Bəkir Sami bəy, İstanbul hökumətinin nümayəndə heyətinə isə böyük vəzir Tovfiq Paşa başçılıq edirdi. İkinci heyət konfransda əsas rol oynamasa da hər iki nümayəndə heyəti razılaşdırılmış layihələrlə çıxış edirdilər. Konfransda Türkiyənin tələbi aşağıdakılardan ibarət idi: Türkiyənin 1913-cü il sərhədlərinin bərpa edilməsi; İzmirin yunan ordusundan azad edilməsi və türklərə qaytarılması; boğazlardan keçidin sərbəst olduğu şəraitdə Türkiyənin suverenliyinə və təhlükəsizliyinə təminat verilməsi; işğal rejiminin ləğv edilməsi; öz sahillərini və ərazilərini qorumaq üçün Türkiyəyə hərbi-dəniz donanması saxlamaq hüququnun verilməsi.

İtaliya nümayəndə heyəti kamalçılarla müqavilə bağlamaq təklifini müdafiə edirdi. Fransanın baş naziri Aristid Brian da yumşaq mövqe tuturdu. İngiltərə nümayəndələri də fərdi söhbətlərdə Türkiyə ilə razılaşmağa cəhd edirdilər. İngiltərənin baş naziri Lloyd Corc Bəkir Sami bəylə görüşündə belə bir təklif etdi ki, Türkiyə Bakı neft mənbələri ilə birlikdə bütün Güney Qafqazı öz protektoratlığına götürsün.

Konfransın gedişində türklər İtaliya və Fransa nümayəndə heyətləri ilə apardıqları danışıqların nəticəsində hərbi əməliyyatların dayandırılması və iqtisadi məsələlərin tənzimlənməsi haqqında saziş bağladılar. Lakin sonralar TBMM hökuməti Fransa ilə bağlanan sazişi təsdiq etmədi. Bəkir Sami bəy xarici işlər naziri vəzifəsindən istefaya getdi.

Martın 11 -də Fransa və İtaliya türklərə, İngiltərə isə yunanlara aşağıdakı şərtləri qəbul etməyi təklif etdilər: müttəfiq qoşunları İstanbuldan çıxarılır; müttəfiqlərin Türkiyədəki beynəlxalq maliyyə nəzarət komissiyasında türklər iştirak edir; İzmirdə türk suverenliyi saxlanılır, lakin yunan qarnizonu qalır.

Türklərlə yanaşı yunanlar da bu şərtlərə razı olmadılar. Konfrans uğursuzluqla nəticələndi. Yunanlar hərbi əməliyyatları davam etdirdilər. Türklər isə ruslarla danışıqlara başladılar.

London konfransında İngiltərə və Fransa vahid mövqedən çıxış etdilər. Martın 3-də onlar Almaniyaya bəyannamə təqdim etdilər. Bəyannamədə Versal sülhünün şərtlərinə əməl edilməsi tələb olunurdu. Almaniya əgər martın 7-ə qədər Paris qərarlarını qəbul etməsəydi müttəfiqlər Reynin sağ sahilindəki əraziləri tutmalı idilər. Almaniya göstərilən müddətə razılıq vermədiyindən müttəfiqlər onun bir sıra ərazilərini tutdular və ona qarşı iqtisadi sanksiya tətbiq etməyə başladılar. Almaniyanın ABŞ-a vasitəçilik barədə etdiyi təkliflər nəticəsiz qaldığından geri çəkilməyə məcbur oldu.

1921- ci il aprelin 29-dan mayın 5-dək keçirilən ikinci London konfransında Almaniyanın təzminat ödəməsi haqqında komissiyanın qərarı müzakirə edildi. Təzminatın ümumi məbləği 132 mlrd, qızıl marka müəyyənləşdirildi( 1871-ci il Fransa- Prussiya müharibəsində məğlub olan Fransa 5 mlrd, frank təzminat ödəmişdi). Müttəfiqlər Almaniyadan bu şərtləri və sülh müqaviləsinin- tərksilah keçirmək və müharibə canilərini vennək şərtlərini yerinə yetirməyi tələb etdilər. Uitimatiumun vaxtı qurtaran kimi 1921-ci il mayın 11-də Almaniya hökuməti uitimatiumun bütün şərtlərini qəbul etdiyini bildirdi.

**Ankara** , , „ , . „
**müqaviləsi** 1920-cı ılm ortalarından transızlar yeni sulh müqaviləsinin bağlanması haqqında Türkiyə ilə danışıqlara başladılar. Danışıqları Fransa senatının xarici işlər komissiyasının sədri Franklen Buyon aparırdı. Yunanlar Sakariya döyüşündə türklər tərəfindən tamamilə darmadağın edildikdən sonra 1921-ci il oktyabrın 20- də Franklen Buyon Türkiyə ilə müqaviləni imzaladı. Müqaviləyə görə hərbi əməliyyatlar dayandırılırdı, fransız qoşunları

Kilikiyadan çıxarılırdı və Türkiyə dəmir yollarında fransızlar konsessiya alırdılar. Ankara müqaviləsinin imzalanması İngiltərənin kəskin narazılığına səbəb oldu. Bu müqavilənin imzalanması ilə Versal sistemində ilk çatlar meydana gəldi. Fransa-Türkiyə müqaviləsinin imzalanması türk diplomatiyasının qələbəsi demək idi.

**Kiçik Antantanın yaradılması** Avropanın mərkəzində gərgin beynəlxalq münasibətlər Almaniya, Çexoslovakiya, Avstriya, Polşa və Macarıstan arasında hökm sürürdü. İngiltərə və Fransa arasındakı kəskin ziddiyyətlər Avropada, Balkanlarda və Yaxın Şərqdə hegemonluq uğrunda gedirdi. Fransa ilə Almaniya, İtaliya ilə Fransa arasında kəskin ziddiyyətlər hökm sürürdü. Belə şəraitdə Mərkəzi və Cənub-Şərqi Avropa dövlətlərinin birləşdirilməsi haqqında ideyanın həyata keçirilməsini Fransa öz üzərinə götürdü. 1920-ci il avqustun 14-də Belqradda Çexoslovakiya ilə Yuqoslaviya arasında iki il müddətinə müdafiə ittifaqının yaradılması haqqında müqavilə imzalandı. 1921-ci il aprelin 23-də Rumıniya Çexoslovakiya ilə müttəfiqlik haqqında müqavilə bağladı. 1921-ci il iyunun 7-də Rumıniya və Yuqoslaviya, 1922-ci il avqustun 31-də isə Çexoslovakiya ilə Yuqoslaviya müqavilə imzaladılar. Beləliklə, Avropanın Cənub-Şərqində Rumıniya, Çexoslovakiya və Yuqoslaviyadan ibarət Kiçik Antanta yaradıldı. Fransa Kiçik Antantanın yaradılması ilə Avropada hegemonluğa nail olmağa çalışırdı.

Bolşevik Rusiyasının Şərq Antanta ölkələrilə düşmən ölkələri ilə münasibətləri münasibətdə olan bolşevik Rusiyası Şərq ‘ ölkələri arasında özünə dayaq axtarmağa başladı. Belə ölkələrdən biri İran oldu. Əvvəlcə bolşevik Rusiyası özü bilavasitə və Azərbaycan vasitəsi ilə İrana təzyiq göstərdi, sonra isə İranla yaxınlaşdı. 1920-ci ilin sonunda İranın fövqəladə və səlahiyyətli səfiri Moskvaya gəldi. Öz növbəsində bolşevik hökuməti İrana öz- səlahiyyətli nümayəndəsini göndərdi. Aparılan ikitərəfli

danışıqlar nəticəsində 1921-ci il fevialın 26-da Rusiya-Iran müqaviləsi imzalandı. Müqavilə 26 maddədən ibarət idi. Bu müqaviləni Rusiya tərəfindən K.Çiçerin və L.Qaraxan, İran tərəfindən isə Əliqulu xan Müşavirülməmalik xan imzaladılar.

Müqavilənin birinci maddəsinə görə Rusiya hökuməti fəhlə və kəndlilərin devirdiyi imperialist Rusiya hökumətinin İrana münasibətdə yeritdiyi zorakılıq siyasətindən imtina edirdi. Göstərilirdi ki, bu siyasət İran xalqını müstəqil, çiçəklənən və azad görmək istəyir. Rusiya hökuməti İranla əvvəllər bağlanmış bütün müqavilə, saziş və konvensiyaların qüvvədən düşdüyünü bildirdi. İkinci maddəyə görə Rusiya Asiya xalqlarının müstəqilliklərini qorumaq adı altında digər Avropa dövlətləri ilə müqavilə bağlayıb onu istismar etməsini pisləyirdi. Əvvəllər İrana münasibətdə üçüncü dövlətlə bağlanmış sənədlərdən imtina edilirdi. Üçüncü maddəyə görə sərhədlər 1881-ci ildə sərhəd komissiyasının müəyyən etdiyi kimi qalırdı. Lakin Rusiya İranın Astraabad vilayəti sahillərində yerləşən Aşur adadan Firuzə ərazisini ona verirdi, öz növbəsində Sərəx rayonunu torpaqları ilə birlikdə özünə götürürdü. Göründüyü kimi, Azərbaycan torpaqlarının bir hissəsi yenidən İrana verildi, əvəzində Türkmənistan yeni torpaqlar alırdı. Dördüncü maddəyə görə tərəflər bir-birinin daxili işlərinə qarışmaqdan imtina edirdilər. Beşinci maddəyə görə tərəflər öz ərazisində Rusiya və İran əleyhinə mübarizə məqsədi ilə fəaliyyət göstərən təşkilatların, qrupların, ayrı-ayrı şəxslərin, silahlı qüvvələrin, ordu hissələrinin mövcudluğuna imkan vermirdilər. Öz ərazilərində digərinə qarşı yönəldilən üçüncü dövlətin ordu və ya silahlı qüvvələrinin olmasına icazə vermirdilər. Altıncı maddəyə görə əgər üçüncü tərəf İran ərazisindən silahlı müdaxilə yolu ilə Rusiyaya qarşı hərbi çıxışlar və işğalçı siyasət üçün istifadə edərdisə, Rusiya sərhədləri üçün təhlükə törədərsə və İran hökuməti onun qarşısını ala bilməzdisə, Rusiya hökuməti özünü müdafiə etmək və onun qarşısını almaq məqsədilə İrana qoşun yeridə bilərdi. Rusiya öz qoşunlarını tez bir zamanda İran ərazisindən çıxarmalı idi. Yeddinci maddəyə görə Xəzər dənizindəki İran donanmasında Rusiyaya bədxah

münasibət bəsləyən dövlətlərin vətəndaşları olardısa, Rusiya buna son qoymağı İrandan tələb edə bilərdi. Səkkizinci maddəyə görə Rusiya hökuməti çar hökumətinin İrana münasibətdə yeritdiyi maliyyə siyasətindən imtina edirdi. Doqquzuncu maddəyə görə Rusiya hökuməti çar Rusiyasının müəssisələrinin İran banklarında olan vəsaitlərini İran xalqının tam istifadəsinə verirdi. Bunun əvəzində İranın hansı şəhərində Rusiya konsulluğu yaradılardısa ona əvəzsiz istifadə üçün bina verilməli idi. Onuncu maddə yollar, teleqraf və s. məsələləri tənzimləyirdi. Culfa-Təbriz dəmir yolu və s. İrana verilirdi. On birinci maddəyə görə 1828-ci il 10 fevral tarixli Türkmənçay müqaviləsi qüvvədən düşmüş elan edilirdi. İran Xəzər dənizində öz bayrağı altında sərbəst donanma saxlaya bilərdi. Müqavilənin on ikinci və on üçüncü maddələri əmlak və İranla konsessiyalar məsələsini tənzimləyirdi. On dördüncü maddə Xəzər dənizində balıqçılıq məsələlərinə həsr edilmişdi. İran Xəzər dənizinin cənub sahillərində balıqçılıq üçün Rusiya tərəfinə əlverişli şərait yaratmalı ioi. On beşinci maddəyə görə Rusiya hökuməti islam ölkələrində aparılan missionerlik fəaliyyətindən imtina edirdi və çarizmin bu məqsədlə yeritdiyi siyasəti pisləyirdi. On altıncı maddə vətəndaşların hüquqlarından bəhs edirdi. On yeddinci maddəyə görə Rusiyadakı İran vətəndaşları, İrandakı Rusiya vətəndaşları hərbi xidmətdən və vergilərdən azad edilirdilər. On səkkizinci maddəyə görə hər iki ölkənin vətəndaşları bir- birlərinin ərazilərində sərbəst hərəkət üçün əlverişli şərait əldə edirdilər. On doqquzuncu maddəyə görə müqavilə bağlanan kimi tərəflər ticarət əlaqələrinə başlayırdılar. İyirminci maddə bir- birilərinin ərazisindən malların tranzit yolu kimi keçirilməsində əlverişli şərait yaradılmasına, iyirmi birinci maddə teleqraf və poçt əlaqələrinin bərpa edilməsinə, iyirmi ikinci maddə səlahiyyətli nümayəndələr göndərilməsinə, iyirmi üçüncü maddə konsulluq münasibətlərinin qurulmasına həsr edilmişdi. İyirmi dördüncü maddəyə görə müqavilə üç ay müddətində ratifikasiya edilməli idi. İyirmi beşinci maddəyə görə rus və fars dillərində tərtib edilən müqavilənin hər iki mətni eyni qüvvəyə malik idi.

İyirmi altıncı maddəyə görə müqavilə imzalandığı andan qüvvəyə minirdi.

1921- ci il dekabrın 15-də İran məclisi sovet-İran müqaviləsini ratifikasiya etdi. Şah 1922-ci il yanvamn 24-də ratifikasiyanı təsdiq etdi. Fevralın 22-də isə ratifikasiya sənədləri mübadilə edildi.

Bundan sonra Rusiya fevralın 28-də Əfqanıstan, martın 16-da Türkiyə və noyabrın 5-də Monqolustanla müqavilələr bağladı.

Türkiyə ilə 16 maddədən ibarət imzalanan müqavilə dostluq və qardaşlıq haqqında idi.

Müqavilənin birinci maddəsına görə tərəflər onlara zorla qəbul etdirilən istənilən ikitərəfli və beynəlxalq müqaviləni rədd edirdilər. Türkiyə milli hökuməti tərəfindən qəbul edilməyən hər hansı müqaviləni Rusiya hökuməti də rədd edirdi. Tərəflərin mənafelərinə bilavasitə cavab verən bu maddə Rusiyada mövcud olan bolşevik hakimiyyətini tanımamaq siyasətinə son qoymağı və Antanta dövlətləri tərəfindən Türkiyəyə zorla sırıdılmaq istənilən, lakin TBMM-in rədd etdiyi Sevr müqaviləsini ləğv etməyə yönəlmişdi.

İkinci maddəyə görə Türkiyə Batum şəhərinə və limanına suverenlik verilməsinə razı olurdu. Bu şərtlə, ona qanuni idarəçəlik, geniş muxtariyyət verilməli, bütün vətəndaşların mədəni və dini hüquqları qorunmalı idi. Türk malları Batumdan maneəsiz və kömrüksüz keçirilməli idi.

Üçüncü maddəyə görə tərəflər müqaviləyə əlavədə nəzərdə tutulmuş sərhədləri ilə Naxçıvanın Azərbaycanın protektoratlığında muxtar ərazi olmasına razılıq verirdilər və Azərbaycan onu üçüncü dövlətə güzəştə getməyəcəkdi.

Məsələnin bu formada həllinə tərəflər uzun sürən müzakirə və mübahisələrindən sonra gəlib çıxmışdılar. Bu məsələnin müzakirəsini keçirən siyasi komissiyanın 1921-ci il 10,12 və 14 mart tarixli iclaslarının protokollarının öyrənilinəsi türk diplomatiyasının prinsipial mövqeyini təsdiq edir: Bu protokollardan aydın olur ki, Naxçıvan bölgəsi əhalisinin türk qoşunlarını qəbul etməsi faktı onun Türkiyənin himayəsində

olduğunu göstərirdi. Lakin Türkiyə bölgə üzərindəki bu himayəni Azərbaycanın üçüncü dövlətə güzəştə getməyəcəyinə dair öhdəlik götürdüyü təqdirdə ona verməyə razı olurdu.

Dördüncü maddədə tərəflər Şərq xalqlarının yeni sosial qayda uğiTinda mübarizəsinə yardım göstərəcəklərini bildirirdilər.

Beşinci maddəyə görə tərəflər Qara dənizin beynəlxalq statusunu qəti şəkildə işləyib hazırlamaqdan ötrü razılığa gəlirdilər. Hazırlanacaq qərar Türkiyənin suverenliyinə, təhlükəsizliyinə, o cümlədən İstanbulun təhlükəsizliyinə xələl gətirməməli idi.

Altıncı maddəyə əsasən tərəflər bütün əvvəlki illərdə çar hökuməti ilə Osmanlı dövləti arasında bağlanan müqavilələri qarşılıqlı mənafelərə cavab verməyən akt kimi ləğv edirdilər. Rusiya çarizmlə bağlanmış müqavilələrdə və beynəlxalq aktlarda nəzərdə tutulan öhdəliklərdən Türkiyəni azad etdiyini bildirirdi.

Yeddinci maddəyə görə Rusiya işğal rejiminin hər hansı ölkənin azad milli inkişafı ilə bir araya sığmadığını göstərirdi. Türkiyədə işğal rejimindən doğan bütün hüquq və öhdəliklərin fəaliyyətini ləğv olunmuş hesab edirdi.

Səkkizinci maddəyə görə tərəflər bir-birilərinin ərazilərində və ya onun bir hissəsində hakimiyyətə gəlmək istəyən qrupların fəaliyyətinə yol vennəmək barədə öhdəlik götürürdülər. Onlar Güney Qafqaz respublikalarına münasibətdə bu qarşılıqlı şərti gözləməli idilər.

Bu maddə həm də aprel işğalı nəticəsində Azərbaycandan mühacirət edib Türkiyəyə köçməyə məcbur olan müsavatçı şəxslərə və onların təşkilatlarına qarşı yönəldilmişdi. Məhz bu maddə az sonra Türkiyədə müsavatçıların təqib olunması üçün hüquqi-siyasi zəmin oldu.

Doqquzuncu maddəyə görə iki ölkə arasında münasibətlərin daimiliyini təmin etmək üçün tərəflər tezliklə dəmiryol və başqa vasitələrin açılması üçün tədbirlər görməli idi. Bu tədbirlər azad tranzitə, mallara və məhsullara aid edilirdi.

Onuncu maddəyə görə bir ölkədən çıxıb digərində yaşayanlar yaşadıqları ölkənin qanunlarına tabe olmalı idilər. Ailə və vərəsəlik məsələləri ayrıca sazişlə tənzimlənməli idi.

On birinci maddə ilə tərəflər bir-birlərinin ərazilərində yaşayan bu ölkələrin müvafiq xalqları üçün şərait yaratmalı idilər.

On ikinci maddəyə görə 1918-ci ilədək Rusiyaya məxsus olan ərazilərdə yaşayan hər hansı vətəndaş öz əmlakı ilə köçüb Rusiyaya gedə bilərdi. Bu hüquq Batumda yaşayanlara da aid edilirdi.

On üçüncü maddə ilə Rusiya 3-6 ay müddətində öz ərazisində olan hərbi əsirləri və həbs olunmuş türk vətəndaşlarını geri qaytarmalı idi. Türkiyə də eyni öhdəlik götürürdü.

On dördüncü maddəyə görə iki ölkə arasında tezliklə konsulluq münasibətləri qurulmalı, iqtisadi və maliyyə məsələlərinə dair saziş imzalanmalı idi.

On beşinci maddə ilə tərəflər Qafqaz respublikaları qarşısında öhdəliklər götürürdülər.

On altıncı maddəyə görə müqavilə ratifikasiya edilməli və mübadilə Karsda olmalı idi.

RSFSR Mərkəzi İcraiyyə Komitəsi 1921-ci il iyulun 20- də, TBMM isə iyulun 31-də müqaviləni təsdiq etdi. Ratifikasiya sənədləri sentyabrın 22-də Karsda mübadilə edildi.

Müqavilənin imzalanmasının böyük əhəmiyyəti var idi. Əvvəla, müqavilə ölkələr əsasında anlaşmazlıqları aradan götürdü. Müqavilə iki dövlət arasında mövcud olan problemlərin həlli üçün hüquqi-siyasi zəmin hazırladı. •

İkincisi, müqavilə bolşevik Rusiyasını və Türkiyəni düşmənləri olan Antanta ölkələrinə qarşı sıx ittifaqda birləşdirdi.

Üçüncüsü, müqavilə qismən olsa da Azərbaycanın ərazi bütövlüyünü qorudu, Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə aydınlıq gətirdi.

Bu müqavilənin müddəaları əsasında 1921-ci il oktyabrın 13-də RSFSR-in iştirakı ilə Azərbaycan, Gürcüstan və

Ermənistan Türkiyə ilə 20 maddədən və 3 əlavədən ibarət Kars müqaviləsini imzaladılar.

**Vaşinqton konfransı** Versal sülhü ilə quruda beynəlxalq münasibətləri tənzimləyən dövlətlər sularda nüfuz dairələri uğrunda mübarizə aparırdılar. Avropa işlərindən kənarda qalan ABŞ bu sahədə xüsusi fəaliyyət göstərirdi. Bu da səbəbsiz deyildi. Çünki ABŞ dünya müharibəsindən qüdrətli bir dövlət kimi çıxmışdı. Müharibədən əvvəl borc alan ABŞ müharibədən sonra borc verən dövlətə çevrilmişdi. Avropanın bir sıra dövlətləri ABŞ-a 11,6 mlrd, dollar borclu idilər. Bütövlükdə isə ABŞ -ın Avropa ölkələrinə başqa formalarla göstərdiyi yardımın miqdarı 20 mlrd, dollar idi. 20-ci illərin əvvəllərində ABŞ-İngiltərə ziddiyyətləri Çində, Latın Amerikasında və digər xammal mənbələri rayonlarında kəskinləşdi. Lakin ABŞ qarşıdurmadan qaçaraq İngiltərə ilə əməkdaşlığa üstünlük verirdi. Yaponiyanın Uzaq Şərqdə, Fransanın isə Avropada hegemonluğa can atması ingilis və amerikan diplomatiyasını yaxınlaşdırırdı. Uzaq Şərqdə ABŞ- Yaponiya qarşıdurması kəskin idi. ABŞ Sakit okeandakı problemləri öz xeyrinə həll etməyə çalışırdı.

1921- ci il noyabrın 12-də Vaşinqton konfransı açıldı. Konfransda ABŞ, İngiltərə, Yaponiya, Fransa, İtaliya, Belçika, Hollandiya, Portuqaliya, Çin, dominionlarla birlikdə 14 dövlət iştirak edirdi. ABŞ nümayəndə heyətinin başçısı dövlət katibi Çariz Yuz idi. Fransa nümayəndə heyətinə baş nazir Aristid Brian başçılıq edirdi.

ABŞ dövlət katibi Ç.Yuz çox güclü hərbi gəmilərin tikintisini dayandırmağı, köhnə gəmilərin bir qismini istifadədən çıxartmağı, gəmilərin su basımını müəyyənləşdirməyi təklif etdi. O, iri donanmanın ümumi su basımını İngiltərə və ABŞ üçün 500 min, Yaponiya üçün 300 min təklif etdi. Yeni xətt gəmilərinin hər biri 35 min tondan çox olmamalı idi. Amerika təklifi dənizlərdə üstünlük qazanmağa yönəlmişdi. Ona görə də bu təklif sensassiya yaratdı. İngiltərə nümayəndə heyətinin başçısı Balfur ABŞ layihəsini müdafiə etdi. Yaponiya

nümayəndəsi Kato da dəniz qüvvələrinin azaldılması təklifini qəbul etdi. Fransa dəniz qüvvələrinin deyil, qum qüvvələrin azaldılmasında daha çox marağı olduğunu bildirdi. 1921-ci il dekabrın 13-də ABŞ, İngiltərə, Fransa və Yaponiya 4 dövlət müqaviləsini imzaladılar. Tərəflər Sakit okean rayonunda bir- birilərinin hüquqlarına və mülklərinə hörmət edəcəklərini bildirdilər, mübahisəli məsələləri ümumi razılaşmalar yolu ilə həll etmək barədə öhdəlik götürdülər.

Vaşinqton sülh konfransının gedişində 1922-ci il fevralın 6-da ABŞ, İngiltərə, Yaponiya, Fransa və İtaliya dəniz silahlarının məhdudlaşdırılması haqqında müqavilə imzaladılar. Bu müqavilə 5 dövlət müqaviləsi adlandırıldı. Müqaviləyə görə xətt donanmasının ölçüsünün nisbəti yuxarıdakı ölkələr üçün ardıcıllıqla müvafiq olaraq 5:5:3:1,75:1,75 kimi müəyyənləşdirildi. Bu saziş Sakit okeanda dəniz qüvvələrinin yenidən bölüşdürülməsi məsələsini həll etdi. Nəticədə ABŞ az dəniz donanması saxlamaq hüququndan əl çəkdi, öz qüvvələrini İngiltərə ilə bərabərləşdirdi. Bununla belə, İngiltərə hələ də dənizdə öz üstünlüyünü saxlayırdı.

Vaşinqton konfransı Çin məsələsinə xüsusi diqqət yetirdi. Məlum olduğu kimi, Çin Versal müqaviləsini imzalamamışdı. Çin hökuməti ərazisində olan alman mülklərinin özünə deyil, Yaponiyaya verilməsindən narazılıq edirdi. Konfransda Çin nümayəndə heyəti həmin ərazilərin qaytarılmasını tələb etdi. ABŞ Çini müdafiə etməli oldu. Nəticədə Yaponiya Sindaodan və Şandun əyalətindən əl çəkib onları Çinə qaytardı. Fevralın 6-da Vaşinqton konfransının iştirakçısı olan dövlətlər Çində siyasət haqqında müqavilə imzaladılar. Bu müqavilə 9 dövlət müqaviləsi adını aldı. Müqaviləyə görə dövlətlər Çinin suverenliyinə, müstəqilliyinə, ərazi və inzibati toxunulmazlığına hörmət etmək, açıq qapılar və bütün millətlərin ticarəti və sənayesi üçün bərabər imkanlar prinsipinə hörmət etmək barədə öhdəlik götürdülər.

Vaşinqton konfransı sularda beynəlxalq məsələləri həll etməklə Versal sülh müqaviləsini tamamladı. Paris sülh konfransında ABŞ-ı üstələyən İngiltərə və Fransa Vaşinqtonda

istəklərinə tam mənasında çata bilmədilər. Burada ABŞ diplomatiyası şəksiz qələbə qazandı. Vaşinqton konfransı beynəlxalq məsələrdə ABŞ-ın rolununsürətlə artmağa başladığını göstərdi.

**Genuya konfransı** Versal-Vaşinqton sülh sistemi dünyada diplomatik-siyasi münasibətləri tənzimlədi. Lakin dünya təsərrüfatını və ticarətini bərpa etmədən beynəlxalq münasibətlərdə problemləri həll etmək mümkün deyildi. Ona görə də Avropanın qalib dövlətləri, ilk növbədə İngiltərə və Fransa beynəlxalq iqtisadi münasibətləri həll etmək üçün yollar axtarmağa başladılar. Müttəfiqlərin 1922-ci ilin yanvarında Kannda keçirilən ali şurasının iclasında İngiltərənin baş naziri Lloyd Corc beynəlxalq iqtisadi konfrans çağırmaq barədə təklif etdi. Yanvarın 6-da ali şura Lloyd Corcun təklifi ilə razılaşaraq müvafiq qətnaməni təsdiq etdi.Konfransı keçirməkdən ötrü 6 şərt qəbul edildi: heç bir dövlət digər dövlətə özünün mülkiyyət sistemini, daxili iqtisadi həyatını və idarəsini qəbul etdirə bilməz; başqasına kredit verən dövlət öz vətəndaşlarının hüquq və əmlakının qorunmasına əmin olmalıdır; ticarəti aparmaqdan ötıfi maliyyə-pul dövriyyəsini təşkil etmək lazımdır; xarici ki'cditlərdən istifadə etmək istəyən dövlət bütün əvvəlki borc və öhdəlikləri qəbul etməlidir; mövcud quruluşu devirmək üçün təbliğat aparılmasından imtina edilməlidir; bütün ölkələr qarşılıqlı şəkildə qonşularına hücum etməkdən imtina etməlidirlər.

Kann konfransının qətnaməsinə görə Genuyada çağırılacaq konfransda baş nazirlər iştirak etməli idi. İngiltərə və Fransa Almaniyadan təzminat almağı, borclar və Yaxın Şərq məsələlərini həll etməyi vacib sayırdılar.

ABŞ konfransa dəvəti İtaliyanın Vaşinqtondakı səfiri vasitəsilə aldı. ABŞ dövlət katibi konfransda iqtisadi deyil, əsasən siyasi xarakterli məsələlərin həll ediləcəyini əsas götürərək yalnız müşahidəçi sifəti ilə iştirak edəcəklərini bildirdi. ABŞ-m təmsilçisi İtaliyadakı səfiri Çayid oldu.

Uzun mübahisələrdən sonra konfransa Almaniya və Rusiya dəvət edildilər. Fevralın 22-də Rusiya, Azərbaycan, Ermənistan, Belorusiya, Buxara, Gürcüstan, Uzaq Şərq, Ukrayna və Xarəzm respublikalarının nümayəndələri mənafelərini konfransda qorumağı RSFSR-ə verilən protokolda imzaladılar. Nümayəndə heyətinin başçısı RSFSR Xalq Xarici işlər komissarı G.Çiçerin təyin edildi.

Genuya konfransı aprelin 10-da San-Corco sarayında açıldı. Konfransda 29, İngiltərənin dominionları ilə birlikdə 34 dövlət iştirak edirdi. Konfransda İtaliyanı baş nazir Fakt, İngiltərəni Lloyd Corc, Fransanı xarici işlər naziri Lui Bartu, Almaniyanı Virt təmsil edirdi. İtaliyanın baş naziri konfransın sədri seçildi. Konfransda 4 komissiya yaradıldı: siyasi, maliyyə, iqtisadi və nəqliyyat. İqtisadi komissiyanın iclasında fransızların Almaniyaya münasibətdə irəli sürdükləri tələblər rədd edildi. Siyasi komissiyanın iclasında konkret siyasi məsələlərlə məşğul olmaqdan ötrü yarımkomissiya yaratmaq qərarına gəlindi. Burada ekspertlərin məruzəsi əsasən iki məsələyə həsr edilmişdi: Avropanın və Rusiyanın bərpa edilməsi. Məruzənin 7 maddədən ibarət olan birinci fəslində aşağıdakı tələblər irəli sürülürdü: bolşevik Rusiyası çar hökumətinin və müvəqqəti hökumətin maliyyə öhdəliklərini öz üzərinə götürür; Rusiyanın bütün əvvəlki maliyyə öhdəlikləri qəbul edilir; bu öhdəliklərin yerinə yetirilməsi qəbul edilir; bu məsələlərə baxmaqdan ötrü xüsusi olaraq Rusiya borcları komissiyası yaradılır və s.

Avropa dövlətləri bolşevik Rusiyasından 18 mlrd, borcun ödənilməsini tələb edirdilər. Bolşevik nümayəndə heyəti isə birinci dünya müharibəsi, vətəndaş müharibəsi və xarici hərbi müdaxilə dövründə vurulan zərər üçün 30 mlrd, dollar təzminat verilməsini tələb edirdi. O, borcları ödəməyə aşağıdakı şərtlərlə razı idi: əlavə kredit və vaxt verilsin. Lakin Avropa dövlətlərinin düşmüş olduğu maliyyə-iqtisadi vəziyyəti buna imkan vermirdi. Rusiyanın təklifləri və konfransda iştirakı daha çox təbliğat xarakteri daşıyırdı.

Genuya konfransının gedişində rus-alman yaxınlaşması baş^ verdi. Aprelin 22-də Rapalloda iki ölkə arasında müqavilə

imzalandı. Müqavilənin şərtlərinə görə hər iki dövlət hərbi xərcləri, müharibə vaxtı vurulmuş ziyanları ödəməkdən, hərbi əsirləri saxlamaq üçün ayrılan vəsaitdən imtina edirdilər; iki ölkə arasında diplomatik və konsul münasibətləri dərhal bərpa edilirdi; ticarət və təsərrüfat məsələləri əlverişli şərtlərlə tənzimlənirdi.

Konfransın gedişində neft məsələsi mühüm yer tutdu. Bakı nefti uğrunda ABŞ, Fransa və Belçika üçlüyünə qarşı İngiltərə mübarizə aparırdı.

Konfransda iştirak üçün gələn türklərin məsələlərin müzakirəsinə buraxılmaması vəziyyəti mürəkkəbləşdirdi. Bu, Kiçik Asiyada sülhün bərpa olunmasına mane olurdu.

Mayın 19-da konfransın son plenar iclası keçirildi. Müzakirələrdə heç bir razılıq əldə olunmadı. Konfransın işini Haaqada davam etdirmək barədə qətnamə təsdiq edildi.

**Haaqa** 1922-ci il iyunun 15-dən iyulun 20-dək keçirilən **konfransı** konfransda iki komissiya -rus və qeyri-rus komissiyaları, üç yarımkomissiya -xüsusi mülkiyyət, borclar və kredit yarımkomissiyaları yaradıldı. İyunun 27-də kredit yarımkomissiyasının ilk iclası keçirildi. Yarımkomissiyanm sədri öz çıxışında hər hansı bir qərar qəbul etmək deyil, vəziyyəti öyrənmək üçün toplandıqlarını bildirdilər. Borclar üzrə yarımkomissiya da eyni fikirdə idi.

Konfransda Rusiya 3224 milyon qızıl rubl məbləğində kredit almaq istəyirdi.

Xüsusi mülkiyyət yarımkomissiyası isə xaricilərin Rusiyada olan mülklərinin onlara qaytarılmasını tələb edirdi. Bu ilk növbədə neft mədənlərinə aid idi. Xüsusi mülkiyyətin qaytarılması tələbi və Rusiyanın iddiaları konfransın işini pozdu. Belə şəraitdə müzakirələrin aparılması səmərəsiz idi. İyulun 19- da sovet nümayəndə heyəti belə bir təklif irəli sürdü; müharibədən əvvəlki borcları qəbul edir və ödəməyə hazırdır; Rusiyada mülkiyyəti olan və konsessiyalar ala bilməyən keçmiş sahibkarların haqqını ödəyəcəkdir; iki il müddətində maraqlı şəxslərlə borcların ödənilməsi və təltif haqqında sazişə

gələcəkdir. Buna cavab olaraq ingilislər razı qaldıqlarını bildirdilər. Fransızlar isə bunun əleyhinə idilər. Ruslar xaricilərə fərdi qaydada konsessiyalar verilməsinin mümkünlüyünü, Avropa dövlətləri isə vahid konsorsium yaradılması ideyasını irəli sürdülər. İyulun 20-də konfrans belə bir qətnamə qəbul etdi: ayrı-ayrılıqda Rusiyada konsessiyalar alınması ideyası rədd edilsin.

**Yaxın. Şərq** 20-ci illərdə beynəlxalq münasibətlərin mühüm **böhranı** hadisələri Yaxın Şərqdə cərəyan edirdi. Antanta dövlətlərinin Yaxın Şərqdə yeritdikləri siyasətə qarşı kamalçı Türkiyə mübarizə aparırdı. İngilislər öz planlarını Fransa və İtaliyanın köməyi ilə həyata keçirə bilərdilər. İngiltərə Türkiyəni yunanların əli ilə vurmağa çalışırdı. Lakin eyni zamanda onlar başa düşürdülər ki, yunanların qələbəsi Rusiya ilə Türkiyəni yaxınlaşdıra bilər.

1922- ci ilin avqustunda bir sıra məğlubiyyətlərə baxmayaraq yunanlar hələ darmadağın edilməmişdi. Avqustun 26-da türklər qəti hücuma keçərək Afıon Qarahisar rayonunda yunanları darmadağın etdilər və sentyabrın 2-də yunan ordularının komandanı general Trikupisi əsir aldılar. Sentyabrın 9-da türklər İzmirə yaxınlaşdılar və 50 min yunanı əsir aldılar. Başqa rayonlarda da yunanlar geri otumldular. Türk ordusu boğazlara və İstanbula yaxınlaşdı. Sentyabrın 15-də Britaniya nazirlər kabinetinin iclasında kömək' üçün dominionlara, Fransaya, İtaliyaya və Balkan ölkələrinə müraciət etmək haqqında qərar qəbul olundu. Lakin bunun da xeyri olmadı.

Fransız ordularının Çanakqaladan, italyanların isə İstanbul boğazından qovulması ingilislərin vəziyyətini ağırlaşdırdı. Sentyabrın 23-də İngiltərə, Fransa və İtaliya danışıqlara başlamaq haqqında türklərə müraciət etdilər. Danışıqlar oktyabrın 3-də Mudaniyada başlandı. Uzun sürən danışıqlardan sonra oktyabrın 11-də saziş imzalandı. Türk və yunan orduları arasında barışıq yaradıldı. Türklər Şərqi Frakiyada 8 min jandanna saxlamaq hüququ aldılar. Yunanların darmadağın edilməsi Yunanıstanda dövlət çevrilişinə səbəb

oldu. Oktyabrın 13-də Yunanıstan Mudaniya barışığına qoşuldu. Yunanların məğlub olması İngiltərədə də hökumət böhranı yaratdı. Oktyabrın 19-da Lloyd Corc istefaya getməyə məcbur oldu. Bonar Lou baş nazir, lord Kerzon isə xarici işlər naziri oldu.

Bundan sonra İngiltərə Türkiyə ilə sülh konfransını hazırlamağa girişdi. Sülh konfransında İngiltərənin məqsədi 1921- ci il 16 mart tarixli rus-türk müqaviləsini zəiflətmək, ingilis donanmasını Qara dənizdə saxlamaq, Türkiyədə fransız nüfuzunu aşağı salmaq, Mosul məsələsini İngiltərənin xeyrinə həll etmək idi.

**konfransı** İngilis-yunan işğalçıları üzərində qələbə qazanan türklər boğazlara dair konfrans çağırılmasını tələb etməyə başladılar. Lozanna konfransı 1922- ci il noyabrın 20-dən 1923-cü il iyulun 24-dək keçirildi. Konfransda İngiltərəni lord Kerzon, Fransanı Puankare, İtaliyanı Mussolini təmsil edirdilər. Bundan başqa konfransda Yaponiya, Türkiyə, Yunanıstan, Yuqoslaviya, Bolqarıstan və Rumıniya, həmçinin müşahidəçi kimi ABŞ iştirak edirdi. Konfransda üç komissiya yaradıldı: ərazi və hərbi məsələlər siyasi komissiyada, xaricilərin və milli azlıqların rejimi məsələsi hüquqi komissiyada, maliyyə və iqtisadi məsələlər isə iqtisadi komissiyada müzakirə edildi.

Türklər Türkiyənin sərhədlərinin 1913-cü ildəki kimi qurulmasını tələb etdilər. İngilislər isə Türkiyəyə Avropada daha az ərazi saxlamağa çalışdılar.

Konfransda Mosul məsələsi də müzakirə edildi. Bu ərazi 1909-cu ilədək sultan mülkiyyəti hesab olunurdu. Gənc türklər inqilabından sonra bu ərazi müsadirə edilmişdi. 1918-ci ildə Türkiyə məğlub olduqda türk sultanı Mosulu Əbdül Həmidin varislərinə qaytardı. Varislər də öz hüquqlarını Amerika kompaniyalarına verdilər. Türklər Mosulu vermək istəmirdilər. Çünki Mosul təkcə neft rayonu deyildi, həmçinin Kürdüstanın açarı idi. İngiltərə bu rayona ya özü sahib olmaq, ya da onu Millətlər Cəmiyyətinin müzakirəsinə verməyə çalışırdı. ABŞ

bu rayonda İngiltərə, Fransa və İtaliyanın üstünlüyünə qarşı çıxaraq bütün dövlətlər üçün açıq qapılar prinsipini irəli sürürdü.

Konfransda boğazlar haqqında məsələ də müzakirə olundu. Türklər boğazlarda işğal rejiminə qarşı çıxaraq, eyni zamanda Türkiyə ərazisində işğal rejiminin ləğv edilməsini tələb etdilər.

Yanvarın 31-də lord Kerzon İngiltərə, Fransa və İtaliya adından boğazlara dair saziş layihəsini türklərə təqdim etdi və eavab üçün 5 günlük möhlət verdi. Türklər buna cavab olaraq öz şərtlərini irəli sürdülər: dövlət müstəqillyi təmin edilsin; Sevr müqaviləsi ləğv edilsin; işğal rejimi ləğv olunsun; əsas türk əraziləri saxlanılsın və b.

Fevralın 4-də ultimatiumun vaxtı qurtardı. Türklər ultimatiumu qəbul etmədilər. Vağzalda qatannı saxlatdıran Kerzon isə çıxıb getdi. Beləliklə, Lozanna konfransının işi pozuldu. Konfrans pozulduqdan sonra Türkiyənin İtaliya və Fransa ilə yaxınlaşması baş verdi. Lozanna konfransı işinə 1923- cü il aprelin 9-da yenidən başladı. Yunanlar türklərdən, türklər isə müttəfiqlərdən vurulan ziyana görə təzminat tələb edirdilər. İngiltərə belə kəskin vəziyyəti görüb kompromis variant təklif etdi. Bu təklifə görə Türkiyə təzminat tələbindən əl çəkir, əvəzində Qarağac və ətraf əraziləri alırdılar. Türklər güzəştə getdiklərini bildirdilər.

1923- cü il iyulun 24-də 8 aylıq danışıqlardan sonra Lozanna protokolu imzalandı. Protokola görə Türkiyə Ərəbistan, Sudan, Tripolitaniya, Mesopotamiya, Fələstin, Suriya və bir sıra başqa ərazilərdən imtina etdi. Bununla belə, Türkiyə əsas ərazilərini özündə saxladı.

Mosul məsələsi 9 ay müddətində İngiltərə ilə Türkiyə arasında bilavasitə ikitərəfli münasibətlərdə müzakirə edilməli idi. Onlaf razılığa gəlməsəydilər, bu məsələ Millətlər Cəmiyyətinin müzakirəsinə verilməli idi.

Türkiyədə işğal rejimi ləğv edildi.

Boğazlar məsələsində aşağıdakı kimi razılığa gəlindi: ticarət və hərb gəmiləri dinc və müharibə vaxtı sərbəst şəkildə boğazlardan keçə bilərdilər; İstanbul və Çanakkala boğazları

hərbsizləşdirilirdi; İstanbulda boğazlar komissiyası adı ilə beynəlxalq komissiya təsis edilirdi; onun tərkibinə Fransa, İngiltərə, İtaliya, Yaponiya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Rusiya, Yuqoslaviya və Türkiyə daxil olurdular. Komissiyanın sədri türk olmalı idi.

Konfransın qərarlarına görə yunanlar istanbuldan başqa bütün türk ərazilərindən çıxarılmalı idilər. Ermənilərin Türkiyə Ermənistanı yaratmaq planları boşa çıxdı. Uydurma erməni məsələsi Lozannada dəfn edildi. Türkiyədə olan alman, avstriya, macar vətəndaşlarının müttəfiqlərin əlində olan mülkləri xüsusi müqavilə bağlananadək müttəfiqlərdə saxlanılırdı.

Lozrnna sazişini bir tərəfdən İngiltərə, Fransa, İtaliya, Yaponiya, Yunanıstan, Rumıniya, Yuqoslaviya, digər tərəfdən isə Türkiyə imzaladı. Sənəd imzalanan gün Belçika və Portuqaliya da ona qoşuldular.

**Rur münaqişəsi** 20-ci illərin əvvəllərində təzminat məsələsinin həll edilməməsi beynəlxalq münasibətlərdə ən mübahisəli problemlərdən biri idi. Fransa təzminatın tam ödənilməsini tələb edirdi. Almaniya isə bunu ödəməyə imkanı olmadığını bildirirdi. Təzminatın ödənilməsi məsələsində Almaniyada əsasən iki xətt var idi: təzminatı ödəməyin tərəfdarları və təzminatı ödəməməyin tərəfdarları.

Fransanın çətin maliyyə və iqtisadi vəziyyətində fransız rəsmi dairələri Rurun sərvətlərindən istifadə etmək barədə düşündülər. Fransız diplomatiyası Almaniyanı təzminatı ödəməməkdə və Versal sülh müqaviləsinin şərtlərini pozmaqda təqsirləndirirdi. İngiltərə Fransanın Avropada güclənməsini istəmirdi. Bu dövrdə İtaliyada hakimiyyətə gələn Mussolini Rur məsələsində Fransanın mövqelərini müdafiə edirdi. 1922-ci il yanvarın 2-4-də Parisdə keçirilən konfransda İngiltərə 4 il müddətində Almaniyanın təzminat ödəməsinə moratorium qoyulması təklifi ilə çıxış etdi. Fransa buna etirazını bildirdi. Yanvarın İO-da Fransa və Belçika Berlinə nota verərək təzminatın ödənilməsinə nəzarət etmək üçün Rura komissiya göndərdiklərini bildirdilər. Bunun ardınca yanvarın 11-də

Fransa-Belçika orduları Ruru işğal etdilər. İngiltərə bu hadisəyə loyal münasibət bəslədi. İngilislər bu münaqişədə Fransa və Almaniyanın döyüşüb zəifləyəcəklərinə ümid edirdilər.

Almaniya hökuməti işğala etiraz etdi. Reyxstaqda passiv müqavimət göstərmək haqqında qərar qəbul edildi. Rurun işğalı ilə Almaniya daş kömür, dəmir və çuqundan məhrum oldu.

Fransa da işğalla öz istədiyinə çata bilmədi. Passiv müqavimət nəticəsində Fransaya daş kömür göndərilmədi. Bunun əvəzində Almaniyada ictimai rəy Fransanın əleyhinə daha da gücləndi. Avropada münaqişəyə İngiltərənin müdaxiləsini tələb edən çağırışlar eşidilməyə başladı. 1923-cü il mayın 2-də Almaniya nota verərək təzminat məsələsini komissiyanın müzakirəsinə verməyi tələb etdi.

Rurun işğalı ilə Almaniyanı inqilabi böhran bürüdü. Bu böhran tezliklə silahlı üsyana çevrildi.

Rurun işğalı beynəlxalq münasibətlərdə yeni şərait yaratdı. Bundan istifadə edən ABŞ Almaniyaya yardım göstərilməsi təklifləri ilə çıxış etməyə başladı.

# VI BOLUM

## Azərbaycan 1920-1922-ci illərdə beynəlxalq münasibətlərdə

**Aprel işğalından sonra Azərbaycanın daxili və beynəlxalq vəziyyətinin ümumi mənzərəsi**

Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunu qəbul edə bilməyən bolşevik Rusiyası təzyiqlərini və təxribatçılıq hərəkətlərini genişləndirdi. RK(b)P MK Siyasi Bürosu 1920-ci il yanvarın 17-18-də keçirilən iclasında Azərbaycanla sülh danışıqlanmn mümkünlüyünə dair RSFSR Xalqxarici işlər komissarı G.Çiçerinin məruzəsini dinlədi. Müzakirənəticəsində V.İ.Leninin təklifi ilə belə bir qərar qəbul edildi: «Xalq Xarici işlər komissarlığına tapşırılsın ki, Denikinə qarşı birgə hərbi əməliyyatlar aparmaq haqqında təkliflərimizi rədd etdiyinə və Xəzər dənizində bizə qarşı fəaliyyət göstərən İngiltərə hərbi qüvvələrinə xidmət göstərdiyinə görə Azərbaycan hökumətinə münasibətdə xeyli dərəcədə ehtiyatlı və inamsızlıq siyasəti yeritsin... Xalq Xarici işlər komissarlığı Azərbaycanın belə hərəkətlərinə qarşı qəti etiraz etməlidir. Yoldaş Çiçerinə tapşırılsın ki, nota göndərməmişdən əvvəl onun layihəsi haqqında Siyasi Büroya məlumat versin».

Rusiya bolşevikləri Azərbaycanı işğal etməyə hazırlaşdılar. Onlar tezliklə Azərbaycan Xalq Cümhuriyyəti ilə qurtarmaq istəyirdilər. I.Stalin 1920-ci il aprelin 27-də yazırdı: «... yol. Oreonikidze bir qədər özünəməxsus xətt yeridir. Lenin (həm də biz) ona Azərbaycan gerçəkliyinə uyğun gəlməyən göstərişlər veririk. Yəni biz Bakıda qabaqcadan üsyan qalxacağına ümid edirik. Lakin şübhəsiz, bunun şansı yoxdur. Ona görə də Azərbaycan hüdudlarına soxulmaq gərəkdir. Bakını işğal etdikdən sonra gələcək müstəqillik haqqında

danışıqlarda yoldaş Orconikidzenin konstruksiyasında şübhəsiz, Bakının işğalı ilə Azərbaycanın müstəqilliyi haqqında notanın bir araya uğursuz gəlmədiyi faktı əks olunmalıdır. Mənə elə gəlir ki, gələcək (nəzərdə tutulan) müstəqillik ciddi praktik əhəmiyyət daşımadan yalnız bəyanat kimi ola bilər».

Aprelin 27-də Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal edildi. Aprel işğalından sonra Azərbaycan dövlətçiliyinə münasibətdə daxildə əsasən iki xətt var idi: Birinci xəttin tərəfdarları müsavatçılar və onları müdafiə edənlər idi. Onlar müstəqil milli dövlətçiliyin qatı tərəfdarları və bolşevik işğalının əleyhdarları idi.

İkinci xəttin tərəfdarları rusiyapərəst , Azərbaycan bolşevikləri idi. Azərbaycanın işğal edilməsindən sonra respublikada yaranmış daxili vəziyyət aşağıdakı amillərlə səciyyələnirdi. İqtisadi vəziyyətə aclıq və səfalət xas idi. İşğaldan sonra Azərbaycanın iqtisadi vəziyyəti xeyli ağır idi. Zəngin təbii sərvətləri baxımından nadir bir ölkə olmasına baxmayaran vəziyyət çətinləşirdi.

İqtisadiyyatın əsasını təşkil ddən neft sənayesində vəziyyət fəlakətli idi. Çoxlu quyular işləmirdi, istehsal aşağı düşürdü və işçi qüvvəsi çatışmırdı. Dağıntının əsas səbəbini bolşevik liderləri texniki materialın, ərzağın, mənzilin və s. çatışmamasmda görürdülər.

Aprel işğalından sonra Azərbaycanın daxili siyasi vəziyyətini bolşevizm əleyhinə olan üsyanlar; hərc-mərclik; fövqəladə cəza tədbirləri; kütləvi repressiyalar; zorla ruslaşdırma; milli dövlətçilik tərəfdarları olan şəxslərin və mütərəqqi ziyalıların ölkədən qaçıb getmələri və s. səciyyələndirirdi.

Azərbaycanın beynəlxalq vəziyyəti bolşevik Rusiyasının və bütövlükdə ümumi beynəlxalq vəziyyətin tərkib hissəsi idi. Azərbaycan bolşevikləri aprel işğalını «Şərqdə beynəlxalq .inqilabi müharibələrin mərhələlərindən biri kimi» qiymətləndirirdilər.

**Azərbaycan Xalq Cümhuriyyəti Xarici işlər nazirliyinin bağlanması və «yeni xarici siyasətxəttb>**

Aprel işğalından dərhal sonra M.Hüseynov Xalq Xarici işlər komissarı təyin edildi. O, 1920-ci il 2 may tarixdən və 1921-ci ilin dekabrmadək bu vəzifədə qaldı. Azərbaycan Xalq Cümhuriyyəti Xarici işlər nazirliyi bağlandı.

Xalq Xarici işlər komissarlığı yaradıldı. Az sonra komissarlığın ştat tərkibi xeyli ixtisar edildi. Bolşevik hökuməti XXİK sistemində təmizləmə işinə girişdi. Keçmiş peşəkarlar bir- birinin ardınca işdən azad edildilər. XXİK-də işə girmək üçün ərizə verən şəxslərin əksəriyyəti azərbaycanlı deyildi. İşə götürülərkən son rəyi Azərbaycan Fövqəladə Komissiyası verirdi.

İşğaldan dərhal sonra Xalq Xarici İşlər Komissarlığının qarşısında duran vəzifələr aşağıdakı kimi müəyyənləşdirildi; Azərbaycanın qonşuları və Avropa dövlətləri ilə siyasi və iqtisadi xarakterli müqavilə və sazişlər bağlamaq; sovet müəssisə və təşkilatlarına izahat göstərişləri verrıək; xarici ölkələrin dövrü mətbuatının alınmasını təşkil etmək; müxtəlif xəritələri və sərhəd xətlərini çəkmək; Avropaya pəncərə açmaq; Qara dənizə çıxış əldə etmək; Avropa ölkələri ilə ticarət etmək; Gürcüstanın bolşevikləşdirilməsi üçün daxili partlayışa səbəb ola biləcək təbliğat aparmaq; Ermənistanda burjua rejiminin yıxılmasını hazırlamaq; İran və Türkiyə ilə mehriban münasibətlər qunnaq; xarici pasport və viza vermək; xarici ölkə vətəndaşlarının problemlərini həll etmək; Güney Qafqaz kəndlərinin etnoqrafik xəritəsini hazırlamaq.

**Xarici siyasət sahəsində RSFSR hökumətinin təziqləri və əsasnamələrinin yerinə yetirilməsinin məcburi xarakteri**

Rusiya hökuməti xarici siyasət fəaliyyəti sahəsində təzyiqlərini artıraraq mərkəzləşdiiTnə yaratmağa başladı. 1920-ci il iyunun 30-da RSFSR XKS «RSFSR Fəhlə-Kəndli hökuməti yanında akki'editə olunmuş diplomatik nümayəndəliklər

haqqında əsasnamə»ni, 1921-ci il iyulun 7-də isə «RSFSR Fəhlə-Kəndli hökuməti yanında xarici dövlətlərin konsulluq nümayəndəlikləri haqqında əsasnamə»ni 'qəbul etdi. Bu barədə verilmiş dekretin yerinə yetirilməsi qaydalarına dair təlimata görə diplomatik heyətlər sovet müəssisələri ilə əlaqələrini birbaşa deyil, XXİK vasitəsi ilə həyata keçinnəli idi. Birbaşa müraciət edildikdə sovet müəssisələri onlara cavab verməməli və müraciəti XXİK-ə göndərməli idilər. Xarici nümayəndəliklərin fəaliyyəti xeyli məhdudlaşdırıldı. Əsasnamələr yerinə yetirilməkdən,ötrü Azərbaycana da göndərildi.

RSFSR XXİK Azərbaycana xaricilərə viza verilməsini və bir respublikadan digərinə keçmələrini sərtləşdirmək barədə göstəriş verdi.

Rusiya Azərbaycanın başqa sovet respublikalarında konsulluq açmasına da mane olurdu.

RSFSR XKS 1922-ei il 23 yanvar tarixli ielasmda öz vətəndaşlarının Azərbaycana getməsi üçün viza verilməsi qaydasını ləğv etdi. ÜRMİK-in iki bənddən ibarət olan qətnaməsinə görə Rusiya vətəndaşları Azərbaycana gedərkən də RSFSR daxilində olduğu kimi hərəkət edə bilərdilər. RSFSR XXİK kollegiyasının 1921-ei il 30 dekabr tarixli ielasmda vahid vətəndaşlıq, birgə konsulluqların təsis edilməsi, müttəfiq respublikaların bağladığı beynəlxalq müqavilələr, sovet respublikalarında xarici nümayəndəliklərin (diplomatik və konsulluq) vəziyyəti, yaşayışın formaları və xarici pasport, RSFSR-də səlahiyyətli nümayəndəliklər və sovet respublikalarında RSFSR-in səlahiyyətli nümayəndəlikləri haqqında əsasnamə, RSFSR-in xaricdəki diplomatik nümayəndəlikləri ilə sovet respublikaları arasında əlaqələr və b. məsələlər müzakirə edilərək belə bir qərar qəbul edildi: «Başqa sovet respublikalarının xariei ölkələrdəki nümayəndəlikləri RSFSR-in səlahiyyətli nümayəndəliklərinə tabe etdirilsin və Güney Qafqaz respublikalarına alman konsullarının agent göndərmək hüququnun verilməsindən imtina olunsun».

1922- ci ilin fevralında «RSFSR-in digər sovet respublikaları ilə qarşılıqlı münasibətləri haqqında məsələyə dair» RK(b)P MK-nin qətnaməsi qəbul edildi.

**Azərbaycanın xarici siyasət fəaliyyətinin Güney Qafqaz respublikaları ilə birləşdirilməsi və xaricdəki nümayəndəliklərin ləğv edilməsi**

Rusiya hökumətinin atdığı addımlardan biri Güney Qafqaz respublikalarının təsərrüfat həyatını və xarici siyasət fəaliyyətini birləşdirmək, Azərbaycanın xarici ölkələrdəki nümayəndəliklərini ləğv etmək oldu.

Bolşevik hökuməti nəqliyyatın birləşdirilməsi tədbirlərini həyata keçirtdi. 1921-ci il aprelin 18-də Güney Qafqaz dəmiryollarının idarə olunması qaydası haqqında saziş imzaladılar. Vahid Güney Qafqaz dəmiryolu yaradıldı.

1921-ci il aprelin 26-da Azərbaycan, Gürcüstan, Ermənistan və Dağıstan respublikalarının xarici ticarətinin birləşdirilməsi barədə qərar çıxarıldı.

İyunun 2-də isə N.Nərimanovun sədrliyi və Gürcüstan İnqilab Komitəsinin sədri Maxaradze, Ermənistan İnqilab Komitəsinin sədri Myasnikov və b. iştirakı ilə keçirilən müşavirədə Güney Qafqaz respublikalarının bütün dünya bazarlarında vahid orqanının yaradılması barədə sənəd imzalandı.

Azərbaycan, Gürcüstan və Ermənistan «Xarici ticarət, idxal, ixrac və valyuta fondu məsələlərinə dair» 12 maddədən ibarət müqavilə imzaladılar.

1921-ci ildə Güney Qafqaz respublikalarının Birləşmiş İqtisadi Şurası yaradıldı. Onun yaxın məqsədləri belə bəyan edilirdi: respublikaların təsərrüfat planlarını müəyyənləşdirmək; birləşmiş xarici ticarət fəaliyyətini istiqamətləndirmək; hər bir respublikanın valyutasını və tələbatını öyrənmək və onu təmin etmək üçün tədbirlər görmək; bütün respublikaların maliyyə və nəqliyyatını sağlamlaşdırmaq və s.

1921-ci il sentyabrın 28-də RK(b)P MK-nın maliyyə komissiyası öz iclasında S.Orconikidzenin məruzəsini dinləyərək qərara aldı: «Maliyyə-iqtisadi maraqlar cəhətdən bütün

Qafqaz ərazisində vahid valyuta tətbiq etmək məqsədəuyğun hesab edilsin».

1921- ci il noyabrın 3-də RK(b)P MK-nın Qafqaz bürosu Güney Qafqaz respublikaları arasında federativ ittifaq yaradılmasına tərəfdar çıxdı. Noyabrın 20-də isə RK(b)P MK Siyasi Bürosu Güney Qafqaz respublikalarının federasiyasını yaratmaq haqqında qətnamə qəbul etdi.

1922- ci ilin martında Azərbayean, Güreüstan və Ermənistan Zaqafqaziya respublikaları federasiyasını təşkil etdilər. O, 1922-ci ilin dekabrında ZSFSR-ə çevrildi.

Beləliklə, RSFSR hökumətinin göstərişləri ilə Güney Qafqaz respublikalarının təsərrüfat və maliyyə həyatı birləşdirildi.

1920-ci ilin aprelinədək Azərbaycan Xalq Cümhuriyyətinin aşağıdakı ölkələrdə nümayəndəlikləri var idi; Gürcüstan (diplomatik nümayəndə Fərhad bəy Vəkilov, Batumda konsul Mahmud bəy Əfəndiyev); Ermənistan (diplomatik nümayəndə Əbdürrəhman bəy Haqverdiyev); İran (diplomatik nümayəndə A.Ziyadxan); İstanbul (diplomatik nümayəndə Yusif bəy Vəzirov); Ukrayna (konsul Camal Sadixov), Krım (konsul agenti Şeyxəli Hüseynov).

Bundan başqa Azərbaycanın Kubanda və Donda diplomatik nümayəndəliyi, Petrovskda isə konsul agenti də təyin edilmişdi. İrkutskda da konsulluq fəaliyyət göstərirdi.

1920- ci ilin aprelindən sonra Azərbaycanın Təbriz, Ənzəli, Kars və Batumda konsulluqları, Ankara, Tiflis və Moskvada səlahiyyətli nümayəndəlikləri və b. fəaliyyət göstərirdi.

Bolşevik hökumətinin Azərbaycanın xaricdəki nümayəndəliklərini bağlaması əsasən iki mərhələdən keçdi: 1. Əvvəlcə xarici ölkələrdəki nümayəndəliklərin heyəti peşəkar diplomatlardan, müsavatçılardan təmizləndi və onların yerinə bolşeviklər, həm də qeyri-azərbaycanlılar yerləşdirildi; 2. Bolşevik hökuməti tərəfindən nümayəndəliklərin fəaliyyət göstərilməsi üçün maliyyə, təşkilati və b. çətinliklər yaradıldı, nümayəndəliklər bağlandı və onlar RSFSR nümayəndəliklərinə tabe etdirildi.

RSFSR XXİK hökuməti düşünülmüş şəkildə onların fəaliyyəti üçün müxtəlif metodlarla çətinliklər yaratdı: Moskvanın göstərişi ilə onlara lazımi materiallar göndərilmirdi; göstərişlər verilmirdi; maliyyə vəsaiti ayrılmırdı; nümayəndəlik işçiləri hətta aylıq əmək haqqlarını ala bilmirdilər və s.

Belə çətinliklərdən sonra RSFSR XXİK Azərbaycanın xaricdəki nümayəndəliklərinin ləğvi məsələsini qaldırmağa başladı. O, bu addımlarını vahid xarici siyasət xəttinin həyata keçirilməsi zəruriliyi, maliyyə çatışmazlıqları, ümumi düşmənə qarşı birgə mübarizənin vacibliyi və s. əsaslandırırdı.

1921- ci ilin noyabrında Azərbaycanın İrandakı nümayəndəliyi Azərbaycanın Təbriz və Ənzəlidəki konsulluqlannı ləğv etmək qərarına gəlindi. Azərbaycan təbəələrinin mənafelərini qorumaq hüququ müvafiq rus konsulluğuna verildi. Bu konsulluğun tərkibinə Azərbaycan təbəələrinin mənafeyini qorumaq üçün yalnız bir nəfər texniki işçi təyin olundu.

Rusiya Azərbaycanın xarici siyasətini digər Güney Qafqaz respublikaları ilə birləşdirmək işini sürətləndirdi. 1922-ci il iyunun 13-də altı maddədən ibarət 7 saylı dekret ilə Güney Qafqaz respublikalarının xarici siyasətini birləşdirmək haqqında qərar qəbul edildi. Xalq xarici işlər komissarlıqları ləğv olundu və İttifaq Şurasının nəzdində xüsusi əsasnaməsi və ştatı olan Xarici əlaqələr şöbəsi təşkil edilirdi. Bununla yanaşı 1922-ci il 1 avqust tarixli qərarla Güney Qafqaz respublikalarında xarici əlaqələr üzrə katiblik yaradılırdı.

1922- ci il avqustun 21-də N.Nərimanovun imzası ilə İttifaq Şurasının «Xarici siyasətin birləşdirilməsi haqqında» dörd maddədən ibarət dekreti verildi. 1922-ci ilin avqustunda Azərbaycanda Xarici əlaqələr üzrə katiblik yaradıldı. Katibliyin səlahiyyəti xeyli məhdud olmaqla aşağıdakı şöbələri var idi: məxfi-siyasi şöbə; ümumi-siyasi şöbə; məlumat bürosu; viza və pasport şöbəsi; maliyyə-təsərrüfat şöbəsi.

Xarici siyasət fəaliyyətinin birləşdirilməsi ilə yanaşı Rusiya xaricdən gələn və xaricə gedən şəxslərin hərəkətini də öz nəzarətinə götürdü. İttifaq Şurası «Güney Qafqaz Respublikalarına xaricdən gələn şəxslər haqqında» dekret verdi.

**AzərbaycamiLdövlət müstəqiliyinin itirilməsinə İngiltərə, Fransa, ABŞ, Türkiyə və İranın münasibəti**

Azərbaycanın dövlət müstəqilliyinin itirilməsi regiondakı dövlətlərarası və beynəlxalq münasibətlərə təsir göstərdi.

İngiltərənin rəsmi dairələri Müsavat hökumətinin nümayəndələri ilə əlaqə saxlayır və aprel işğalına mənfi münasibətlərini bildirirdilər.1921-ci iliyunun 26-da XI ordu kəşfiyyatının tamamilə mənfi məlumatına əsasən Tehranda ingilis komandanlığının nümayəndələri ilə Müsavat hökumətinin nümayəndələri Yusub bəy Qasımbəyov və Sultan bəy Qulu- bəyov göidiş keçirdilər. Azərbaycan nümayəndələrinin sovet hakimiyyətinə qarşı silahlı mübarizəyə kömək etmək vədi barədə sualına ingilis komandanlığının nümayəndələri cavab verdilər: «Yaxın vaxtlarda Türkiyə hökuməti sovet Azərbaycanını idarə edəcəkdir və Sizə lazım olan köməyi göstərəcəkdir».

Bu zaman Antanta dövlətləri Rusiya-Türkiyə yaxınlaşmasına yol verməк istəmirdilər. 1921-ci il fevralın 21-dən martın 14-dək Londonda keçirilən konfransda ingilis diplomatiyası bu sahədə cəhdlər göstərdi. İngiltərənin baş naziri Lloyd Corc Ankara hökuməti nümayəndə heyətinin başçısı Bəkir Sami bəylə görüşündə belə bir təklif etdi: «Türkiyə Bakı neft mənbələri ilə birlikdə bütün Güney Qafqazı öz protektoratlığına götürsün». Bunun tamamilə əksinə olaraq L.Corc Londona gəlmiş sovet xarici ticarət komissarı L.Krasinə «Kral hökumətinin Qafqazda işlərinə qarışmadığını» bildirmişdi.

Bolşevik işğalına ən kəskin münasibət bəsləyən ölkələrdən biri Fransa idi. Fransa öz hökuməti bolşevik qüvvələrinə qarşı birinci güc kimi Mustafa Kamal Paşanı; ikinci güc kimi Gürcüstanı; üçüncü güc kimi azərbaycanlıların

sovetləşmə əleyhinə olan üsyanlarını; dördüncü güc kimi Quzey Qafqaz dağlıları arasında hərəkatı görürdü. Fransa bu barədə konkret qərarını hərbi nümayəndəliyinin başçısı polkovnik Berqiranla İstanbula göndərmişdi. Dağlıların üsyançı hərəkatlarına Tiflisdəki fransız nümayəndəliyi kömək edirdi.

Fransız hökuməti Güney Qafqaz respublikalarının müstəqilliyinin bərpa edilməsi haqqında konkret təkliflərini işləyib hazırladı. Fransa nümayəndə heyətinin başçısı, senatın xarici işlər komissiyasının sədri Franklin Buyon Ankarada Türkiyə BÖЗdik Millət Məclisində apardığı danışıqlarda Güney Qafqaz hökumətlərinin bərpa edilməsi üçün təkliflər irəli sürdü. Lakin Azərbaycan bolşevik hökuməti həmin məsələnin Fransa-Türkiyə münasibətlərində müzakirəsinə qəti şəkildə etiraz etdi.

Fransa hökuməti Paris sülh konfransında iştirak etmək üçün gələn, lakin bolşevik işğalından sonra orada qalmağa məcbur olan Azərbaycan nümayəndə heyətinə yardım göstərdi.

Fransa hökumətinin belə mövqeyinə heç şübhəsiz, Azərbaycanın coğrafi-siyasi vəziyyətinə və zəngin təbii sərvətlərinə olan marağı da təsir göstərirdi. Fransız rəsmi dairələrinin mövqeyinə görə «heç bir rayon Bakı nefti ilə əvəz edilə bilməzdi. Azərbaycanda yerləşən Bakı neft hövzəsindəki qədər dünyanın heç bir yerində, hətta Meksikada da neft çıxarılmırdı. Bu rayonda neft ehtiyatları tükənməz dərəcədə böyükdür. Ona görə də bizim fəaliyyətimizin əsas mərkəzi məhz Bakı olmalıdır».

Azərbaycanın müstəqilliyinin bərpasına və onunla əlaqələrin qumlmasına maraq hətta Fransanın birinci rəsmi şəxsləri tərəfindən deyilən sözlərdə də öz əksini tapmışdır. Fransa prezidenti Raymond Puankare 1922-ci il martın 31-də parlamentdəki məruzəsində yalnız bir neçə ölkəyə yer ayırdı. Bunlardan biri də Azərbaycan idi. R.Puankare Azərbaycanın Fransa üçün xüsusi əhəmiyyət daşıdığını qeyd etdi. O, bildirirdi ki, «biz Müstəqil Azərbaycan hökumətinin hüquqlarını pozan hər hansı hərəkəti qəbul edə bilmərik. Amerikanın münasibəti bu barədə bizimlə tamamilə eynidir. Azərbaycanda bolşevik rejimi tezliklə məhv ediləcəkdir. Ankaraya diqqətli münasibət bəsləmək Bakını öz təsiri altında saxlamağın ən yaxşı vasitəsidir.

Oyun çətindir, lakin hələ itirilməmişdir. Biz Bakıya nüfuzlu neft siyasətimizi yeridə bilərik».

Rusiyada bolşevik çevrilişi baş verəndə ABŞ prezidenti Vudro Vilson onun nəticəsində yaradılmış hökumətin tezliklə iflasa uğrayacağına ümid edirdi. Amerika liderləri Rusiya məsələsinin həllinə çalışırdılar. ABŞ Nyu-Yorkdan Qafqaza bir komissiya göndərmişdi. Onun tərkibinə bir Amerika mühəndisi və bir neçə iqtisadçı daxil idi. Bu komissiya ABŞ kapitalistlərinə müraciətə cavab olaraq Azərbaycanı da öyrənməli idi. Komissiya başlıca olaraq neft sənayesi, meşələr və tütün plantasiyalarındakı vəziyyəti araşdırmaq məqsədi güdürdü.

Aprel işğalından som'a bir çox türklər aldandıqlarını başa düşdülər. Onlar hətta bolşevik rejimində də Azərbaycanın müstəqil qalacağına ümid bəsləyirdilər.

Hansı rejimin olmasından asılı olmayaraq Türkiyə Azərbaycanı müstəqil və özünə dost kimi görmək istəyirdi.
1921- ci ilin oktyabrında türklər deyirdi: «Dünya müharibəsində tökdüyümüz qanlardan bizim üçün ən qiymətlisi Azərbaycanın müstəqilliyi uğrunda tökdüyümüz qandır. Həm Qalisiya, həm Ruminiya, həm də Suriyada türk əsgərləri öz ideallarına belə möhkəm yaxınlaşmamışdılar. Onlar gələcək müstəqil Azərbaycanın astanasında idi. Bizimlə tarix, din, dil, mənşə və xalqın düşüncə tərzinə görə qardaş olan Azərbaycanın müstəqilliyi bizim üçün milli qürurdur, öz müstəqilliyimiz qədər qiymətlidir. Müstəqillik bizim azərbaycanlı qardaşlarımızın təkcə çoxdan gözlədikləri hüquqları deyildir, bu, həm də Bakı şəhərinin qumlarında və daşlarında həlak olan Anadolu oğullarının əsəridir». Mustafa Kamal Paşa Ankaraya gələn Azərbaycan nümayəndəsi İ.Əbilova demişdi: «Bizim azərbaycanlı qardaşlarımızın kədəri və sevinci bizim şəxsi kədərimizin və sevincimizin mənasıdır».

Bolşevik işğalından sonra türklər deyirdi: «Ümumiyyətlə, sovet Rusiyası indi Azərbaycan üçün tərbiyəçi və müəllim deyil, qarətçidir. Azərbaycan milli dirçəlişə möhtacdır. Azərbaycandakı bolşevik hökuməti yadelli hakimiyyətdir».

Mustafa Kamal Paşa 1920-ci il dekabrın 1-də Şərq cəbhəsi komandanı Kazım Qarabəkir Paşaya, Moskvadakı türk səfiri Fuad Paşaya, Bakıdakı səfir Memduh Şövkət bəyə və Tiflisdəki türk səfiri Kazım bəyə göndərdiyi 472 saylı teleqramda deyirdi: «Azərbaycanın tamamilə və qətiyyətlə müstəqil bir dövlət olmasına tərəfdarıq və bunun üçün ruslarla yaxşı münasibət saxlamaq və onları şübhələndirməmək şərti ilə lazımi addımlar atılacaqdır. Bu xüsusda məmləkətin neft və sair kimi iqtisadi mənbələrinə özünün sahib olması şərti ilə yenə eyni cür çalışılacaqdır. Rusların Azərbaycanda etdikləri hərəkətlərin bütün islam aləminin bolşevikləri yoxlamaları üçün meyar olacağını ruslara başa salmağa çalışılacaqdır».

Türkiyənin Azərbaycanı müstəqil görmək istəklərini və atdığı addımları başqa faktlar da təsdiq edir. Onlar Müsavat hökuməti ilə birinci dünya müharibəsində düşmənləri olan İngiltərə arasında yaxşı münasibətləri istəməsələr də yeni yaranan və ingilislərə düşmən olan bolşevik hökuməti ilə müstəqil şəkildə münasibətlər qurmaq istəyirdilər. 1921-ci il 16 mart tarixli Rusiya-Türkiyə müqaviləsini imzalamaq üçün Moskvaya danışıqlara gedən türk nümayəndə heyəti Azərbaycan, Gürcüstan, sonra isə Ermənistanla ayrı-ayrılıqda müstəqil dövlətlər kimi müqavilə bağlamaq istəklərinə çata bilmədilər. Azərbaycan hökuməti buna etiraz etdi.

Düşmüş olduğu ağır vəziyyətə və yunan-ingilis müdaxiləsinə baxmayaraq Türkiyə Azərbaycanı müstəqil görmək istəyirdi. Türk xalqı təkcə bunu istəmirdi, o, bunun üstündə israr edirdi. 1921-ci ilin oktyabrında Kars konfransının gedişi bunu sübut edir. Konfransda türk nümayəndə heyətinin başçısı Kazım Qarabəkir Paşa dedi: «Hökumətimiz hər bir respublika ilə ayrıca müqavilə bağlamaq haqqında bizə göstəriş vermişdir». O bildirdi: «Moskva Sovet hökuməti Güney Qafqaz respublikalarını müstəqil tanıdığını bildirir. Ona görə də biz onların hər biri ilə müstəqil dövlətlər kimi ayrıca müqavilə bağlamaq istəyirik. Bu barədə bizə Mustafa Kamal Paşa göstəriş vermişdir».

### Avropa dövlətləri ilə diplomatik-siyasi münasibətlər və onların Bakıdakı nümayəndəliklərinin ləğv edilməsi

Aprel işğalı ərəfəsində Bakıda aşağıdakı dövlətlərin nüma>əndələri var idi. İngiltərə (vitse-konsul Hcvclkc), Ermənistan (diplomatik nümayəndə H.A.Bekzadyan), Belçika (konsul Ayvazov), Yunanıstan (konsul Kusis), Gürcüstan (diplomatik nümayəndə N.S.Alşibay), Danimarka (konsul E.F.Bisrinq), İtaliya (səkkizinci missiyanın rəisi Enriko İnsom və konsul L.Qrikurov), Litva (konsul agenti V.İ.Miçkeviç), İran (baş konsul Saad ül Vizir), Polşa (konsul agenti S.Rılskıy), ABŞ (vitse-konsul Randolf), Ukrayna (vitse-konsul Qolovan), Finlandiya (konsul agenti Veqelius), Fransa (konsul agenti Yemelyanov), İsveçrə (konsul Klottyu), İsveç (konsul R.K.Vander-Pluq).

1920- ci il apreldən sonra Bakıda Türkiyə Böyük Millət Məclisinin diplomatik nümayəndəliyi, İranın fövqəladə diplomatik nümayəndəliyi və konsulluğu, Rusiyanın baş konsulluğu, İtaliyanın siyasi agentliyinin nümayəndəsi və konsulluğu, İsveç və İsveçrənin konsul agenti, Hollandiya və Almaniyanın konsulluğu, Estoniya və Litvanın konsul agenti, Ermənistanın diplomatik nümayəndəliyi, Gürcüstanın səlahiyyətli nümayəndəliyi və baş konsulluğu, Buxara Sovet respublikasının nümayəndəliyi və RSFSR-in Güney Qafqazdakı nümayəndəsi Leqran daxil olmaqla 14 nümayəndəlik fəaliyyət göstərirdi.

Aprel işğalından dərhal sonra İngiltərənin Bakıdakı vitse-konsulu həbs edildi.

1920-ci il sentyabrın 19-da Azərbaycan sovet hökuməti İtaliya, Gürcüstan və Eımənistanm diplomatik nümayəndəliklərini və konsulluqlarını tanıdığını bəyan etdi.

Lakin yerli hökumətin xarici dövlətlərlə münasibətlərinin necə olacağı, yeni şəraitdə xarici ölkə vətəndaşlarının hüquq və vəzifələrinin nədən ibarət olması aydın deyildi. 1920-ci il noyabrın 25-də xarici dövlətlərin Azərbaycandakı

nümayəndəliklərinin şurası Xalq Xarici işlər komissarlığından xaricilərin hüquq və vəzifələri haqqında izahat verilməsini xahiş etdi. Lakin sovet hökuməti bu müraciətə cavab vermədi. Belə olduqda xarici dövlətlərin nümayəndəliklərinin şurası dekabrın 31-də XXİK-ə təkrar. müraciət etdi. Cavab yalnız, 1921-ci il martın 10-da verildi.

Həmin tarixdə Azərbayean Xalq Xarici işlər komissarlığı «Xaricilərin hüquq və vəzifələri haqqında» izahat verdi. İzahat 30 maddədən ibarət idi. Burada diplomatik nümayəndəliklərin və konsulluqların hüquq və vəzifələrinə aid ayrıca bölümlər var idi. Bu bölümlərdə göstərilirdi; diplomatik nümayəndələr, konsullar, agentlər və kuryerlər toxunulmazdır, həbs edilə bilməzlər, mənzilləri axtarıla bilməz, arxivləri yoxlanıla bilməz, məktublarına baxıla bilməz. Lakin eyni zamanda göstərilirdi ki, onların mənzilləri yoxlanılarkən heç bir müstəsna hüquqları yoxdur və Azərbaycan vətəndaşları ilə bərabər hüquqa malikdirlər.

1921- ci il dekabrın 30-da RSFSR XXİK kollegiya iclasında vahid vətəndaşlıq, birgə konsulluqların təsis edilməsi, müttəfiq respublikaların bağladıqları beynəlxalq müqavilələr, sovet respublikalarında xarici nümayəndəliklərin (diplomatik və konsulluq) vəziyyəti, yaşayış formaları və xarici pasport, RSFSR-də səlahiyyətli nümayəndəliklər və sovet respublikalarında RSFSR-in səlahiyyətli nümayəndəlikləri haqqında əsasnamə, RSFSR-in xaricdəki diplomatik nümayəndəlikləri ilə sovet respublikalarının müvafiq orqanları arasında əlaqələr və başqa məsələlər müzakirə edildi. Qəbul edilən qərarın «v» bəndində deyilirdi: «Güney Qafqaz respublikalarındakı bütün digər konsulluqlar (Almaniyanın Gürcüstandakı konsulluğu istisna olmaqla — müəl.) yalançı, tamamilə lazımsız və zərərli olduqları üçün ləğv edilsin».

İtaliyanın diplomatik və konsulluq nümayəndəliklərinin tanınmasına baxmayaraq, bu ölkə ilə münasibətlər çətin vəziyyətdə idi. İtaliya nümayəndəliyinin Azərbaycana gəlib- getməsində törədilən çətinliklər onları narazı salırdı.

Azərbaycan-İtaliya münasibətlərində ən çox müzakirə olunan məsələlər aşağıdakılar idi; iki ölkə arasında ticarət əlaqələrinin qumlması; aprel çevrilişinin İtaliya vətəndaşlarına və şirkətlərinə vurduğu ziyanın ödənilməsi; artıq haqqı ödənilən məhsulların Batuma daşınması üçün şərait yaradılması; müsadirə edilən malların geri qaytarılması.

İtaliya hökumətinin siyasi agenti Y.Kolaianni 1921-ci il mayın 8-də Azərbaycan XXİK-ə nota göndərərək iki ölkə arasında ticarət əlaqələrinin qurulmasını xahiş etdi. Lakin Sovet hökumətinin İtaliya şirkətlərinə xeyirxah münasibətini nümayiş etdirməsi üçün aşağıdakıların yerinə yetirilməsini irəli sürürdü: inqilabın onlara vurduğu ziyanlar ödənilməlidir; haqqı ödənilmiş məhsulların Batuma daşınmasına kömək edilməlidir; XI ordunun və sovet hökumətinin müsadirə etdiyi xammal və valyuta malları geri qaytarılmalıdır; İtaliyanın Hella, Marinoti, Saqo, Kotonyere, Marnero, Bakizadə Əli Fəhmi və b. şirkətlərinin problemləri həll edilməlidir. İtaliya tərəfi «ən yaxşı addım kimi aprel çevrilişindən sonra müsadirə edilmiş malların İtaliya nümayəndəliyinin anbarlarına qaytarılmasında» gömrdü.

1922- ci il oktyabrın 1-də Azərbaycan SSR XXİK-in səlahiyyətli nümayəndəsi İtaliya konsulluğunun işlər müdiri A.Qrafiniyə məktub göndərərək bildirdi: «İndiyədək İtaliya hökuməti ilə Güney Qafqaz respublikaları arasında müqavilə münasibətləri olmadığına görə İttifaq Şurası İtaliyanın bütün diplomatik, həmçinin konsulluq nümayəndəliklərinin göstərilən respublikalarda ləğvi barədə qərar qəbul etmişdir. 24 saat müddətində konsulluğu ləğv etməyinizi xahiş edirik. Mənim hökumətim Azərbayeanda Sizin ayrıea şəxs kimi qalmağınıza etiraz etmir». Beləliklə, oktyabrın 2-də İtaliyanın siyasi agenti və konsulluğu ləğv edildi.

Azərbaycan - Almaniya münasibətlərinin qurulması və inkişafı da ziddiyyətli idi. Genuya konfransı işini davam etdirdiyi vaxt aprelin 18-də Azərbayean Fövqəladə Komissiyasının sədr müavini L.Beriya, xüsusi idarənin rəisi Moroz Azərbaycan XXİK-ə tamamilə məxfi və təcili

məktubunda Zaqafqaziya Fövqəladə Komissiyasının 341 №-li teleqramına əsasən Azərbaycandakı bütün nümayəndəliklərin, konsulluqların, səlahiyyətli konsulluqların və b. (İtaliya, İran və Türkiyədən başqa) məlumatı aldıqları gündən sonra iki həftə ərzində Azərbaycan SSR ərazisindən çıxarılmalarını yerinə yetirmək göstərişini verdi. Çıxarılmağa nəzarəti Xalq Daxili işlər komissarlığı həyata keçirməli idi. Bu məktubdan bir neçə gün sonra, aprelin 22-də İttifaq Şurasında Azərbaycandakı Almaniya nümayəndəliyi barədə məsələ müzakirə edildi və Almaniya nümayəndəliyi ləğv edildi. Lakin elə həmin gün, aprelin 22-də Bcriya təkrar məktub yazaraq Almaniya konsulunun Azərbaycandan çıxarılmasının müvəqqəti olaraq dayandırıldığını bildirdi. Mövqedə baş verən dəyişiklik Rapallo müqaviləsinin imzalanması ilə bağlı idi. Bu müqavilə ilə Almaniya konsulu Azərbaycanda fəaliyyətə başladı. 1922- ci il oktyabrın 12-də Emmerix Bemeyə Almaniyanın Bakıdakı konsulu kimi tanınması barədə vəsiqə verildi.

1922- ci il noyabrın 5-də Berlində Rapallo müqaviləsinin Azərbaycan, Ukrayna, Belorusiya, Gürcüstan, Ermənistan və Uzaq Şərq Respublikasına aid edilməsi haqqında müqavilə imzalandı. Noyabrın 5 və 10-da edilən notalar mübadiləsində Almaniya hökumətinin göstərilən sovet respublikalarını dc-yure tanıdığı, onlarla diplomatik və konsulluq münasibətlərini müqavilə təsdiq edilənədək qurmağa razı olduğu bildirildi. Buna baxmayaraq az sonra Almaniya nümayəndəliyi də ləğv edildi.

Avropanın digər ölkələri ilə də əlaqələr mövcud idi. 1920-ci ilin mayında Elollandiyanın Bakıdakı konsulu Manassen Haaqaya, Xarici işlər nazirliyinə teleqram vuraraq «inqilab baş verdiyini» və «Azərbaycanın Hollandiya ilə maneəsiz ticarət etməyə hazır olduğunu» bildirdi. Lakin bir müddət sonra bu konsulluq da bağlandı və əməkdaşları ölkədən qovuldu. İsveçrənin Bakıdakı konsul agentliyi də ləğv edildi. 1922-ci ilin aprelində İsveç konsul agenti də ləğv olundu.

Finlandiya ilə münasibətlərdə də eyni metodlardan istifadə olundu. Finlandiya tərəfi Moskvadakı konsulluğunun

Gürcüstandakı səlahiyyətli nümayəndəsi Knorinqin Bakıda konsul agenti kimi qəbul edilməsini istəyirdi. Lakin bolşevik hökuməti «Azərhayean bolşevik hökumətini tanımayınca» viza verilməyəcəyini bildirdi.

Norveç hökuməti 1922-ci ilin yanvarında Qafqazdakı konsulluğunun ticarət şöbəsinin əməkdaşı Aleksandr Kupermanı Bakıda nümayəndə təyin etdi. O, Azərbaycanla Norveç arasında möhkəm ticarət əlaqələri qurmalı və Norveç malları üçün bazarı genişləndirməli idi. 1922-ci il martın 23-də Norveçin Güney Qafqaz respublikaları üzrə vitse-konsulu Xalq Xariei işlər komissarına müraciət edərək Norveç vitse-konsulluğunun Tiflisdən Bakıya köçürülməsinə icazə verilməsini xahiş etdi. Lakin Azərbayean tərəfi həmin müraciətin üstündə belə bir dərkənar yazdı: «Məlumatlar olmadığı üçün xahişin təmin edilməsi olduğu kimi saxlanılsın».

Yunanıstanla münasibətlər də gərgin idi. N.Nərimanov XI Ordunun xüsusi şöbəsinin rəisinə 1920-ci il oktyabrın 28-də tamamilə məxfi məktub göndərərək Yunanıstan konsulu Kussinin yaşayış yerini dəyişmək barədə göstəriş verdi. Bu göstəriş noyabrın 15-də yerinə yetirildi. Azərbaycan və RSFSR-ə düşmən münasibət bəsləyən Yunanıstan Türkiyə ilə əməkdaşlığın genişləndirilməsinə mane olmağa səy edirdi.

1920-ci ilin aprelinə qədər Güney Qafqaz respublikalarında Polşa diplomatik nümayəndəliyinin başçısı olan Titus Filippoviç və nümayəndəliyin üzvləri Polşa Sovet dövlətinə qarşı müharibəyə başladığı üçün Bakıda həbs edildilər. Polşa hökuməti buna kəskin etirazını bildirdi. Polşanın xarici işlər naziri Saleqe 1920-ci il noyabrın 20-də verdiyi radioqramda Filippoviçin qanunsuz olaraq azadlıqdan məhrum edilməsinə öz etirazını bildirərək Riqada keçirilən RSFSR-Polşa danışıqlarında polyak nümayəndə heyətinin başçısı Dombskdan bu məsələni qaldırmağı tələb etdi. Onun tələbləri yerinə yetirildi. 1920-ei il dekabrın əvvəllərində Bakıda azad edilən Filippoviç Polşaya qayıtdı.

1922-ci ilin fevralında RK(b)P MK-nm «RSFSR-in digər sovet respublikaları ilə qarşılıqlı münasibətləri haqqında

məsələyə dair» qətnaməsi qəbul edildi. Qətnamədə deyilirdi ki, xarici nümayəndəliklər müvafiq sovet respublikalarının ərazisinə yalnız müvafiq dövlətin müqaviləsi olduqda buraxılırlar; müqavilə olmadıqda onları yalnız RSFSR XXİK-in razılığı ilə respublikaya buraxmaq olar; xarici ölkə konsulları yalnız müqavilə münasibətləri olduqda və konsul konvensiyası imzalandıqda respublikaya buraxıla bilərlər; konsullar RSFSR qaydalarına uyğun olaraq təsis edilir və hər bir konkret halda RSFSR XXİK-ə məlumat verilir; sovet respublikaları isə bir-birilərində nümayəndəliklər saxlaya bilərlər.

Bu sənəd Azərbaycanda xarici ölkə nümayəndəliklərinin qalmasını mümkünsüz edirdi. Sənədin qəbulundan az sonra Azərbaycandakı xarici dövlətlərin nümayəndəlikləri şurası ölkədən çıxıb getmək barədə məktubla müraciət etdi. 1922-ci il aprelin 18-də AK(b)P MK-nın Rəyasət heyətinin iclasında xarici dövlətlərin nümayəndəlikləri şurası ağsaqqalının «Azərbaycanla müvafiq müqaviləsi olmayan dövlətlərin nümayəndəliklərinin Azərbaycanı tərk etməsi» haqqında məktubu müzakirə olunaraq qəbul edildi. Xalq komissarları sovetinə MK-nın qərarını təcili həyata keçirtmək təklif edildi.

## Azərbaycandakı Avropa ölkələri vətəndaşlarının vəziyyəti

1920-ci ilin aprelindən sonra Azərbaycanda Avropanın bir sıra ölkələrinin vətəndaşları qalmışdı. Onların bir qismi həmin ölkələrin diplomatik və digər nümayəndəliklərinin əməkdaşları, bir qismi isə ticarətlə məşğul olanlar, hərbi əsirlər, jurnalistlər və b. idi. İşğaldan sonra yaranmış şəraitdə bu şəxslərin hamısının vəziyyəti heç də eyni deyildi. Bolşevik hökuməti xarici ölkə təbəələrinə eyni cür münasibət bəsləmirdi. Kommunist olanlara münasibət başqalarından xeyli fərqli idi.

1920-ci il avqustun 20-dək Azərbaycan Xalq Daxili işlər komissarlığında Yunanıstanın 2306 təbəəsi qeydiyyatdan keçdi. Yunanıstan hökumətinin Tiflisdəki nümayəndəsi avqustun 20-də Azərbaycan XXİK məktub göndərərək Azərbaycanda yunan

vətəndaşlannm hüquqlarının və maraqlarının qomnması üçün səlahiyyəti Gürcüstan Demokratik Respublikasının Bakıdakı diplomatik nümayəndəsi doktor N.S.Alşibaya verdiyini bildirdi. Bu dövrdə Yunanıstan RSFSR və Azərbaycanla düşmən münasibətdə olduğundan XI ordu hərbi tribunalının qərarı ilə bir çox yunan vətəndaşı Azərbaycandan qovuldu.

1920-ci il noyabrın 5-i üçün Azərbaycan Xalq Daxili işlər komissarlığında Yunanıstanın 240 təbəəsi qeydiyyatdan keçdi. 1922-ci il noyabrın 9-dan dekabrın 25-dək Azərbaycanda Yunanıstanın 84, İsveçrənin 1, Türkiyənin 9, Polşanın 7, Litvanın 21, Latviyanın 6, Fransanın 2 təbəəsi qeydə alındı. Əlbəttə, siyahı xarici vətəndaşların sayı barədə heç də tam təsəvvür yaratmırdı. Bu dövrdə Azərbaycanda ABŞ, İran, İngiltərə, Almaniya, Avstriya, İsveç və b. ölkələrin də vətəndaşları da yaşayırdı.

1920- ci il iyulun 30-da xarici təbəələrin mallarının qeydiyyata alınmaması, mənzil məsələsində onların Azərbaycan vətəndaşları ilə eyni vəziyyətdə olmaları haqqında bolşevik hökuməti qərar qəbul etdi.

Xaricilərin Azərbaycandakı hüquq və vəzifələri haqqında qəbul edilən əsasnaməyə görə respublikaya gediş-gəliş ciddiləşdirildi.

Azərbaycan İnqilab Komitəsinin qərarı ilə 1921-ci il yanvarın 9-dan etibarən hər dəfə üçün xüsusi icazə olmadan Azərbaycan ərazisindən ayrı-ayrı şəxslərin və qaçqınların tranzit kimi keçmələri qadağan olundu.

1921- ci ilin iyulunda Xalq Xarici işlər komissarlığı elan verərək Azərbaycandakı bütün xarici vətəndaşların iki həftə müddətinə qeydiyyatdan keçmələrinin zəruriliyini bildirdi. Əks təqdirdə onlara qarşı ciddi tədbirlər görüləcəyi göstərildi.

Azərbaycan bolşevik hökumətinin tədbirləri bilavasitə sovet Rusiyasının göstərişi və ya təsiri ilə həyata keçirilirdi. Rusiyada qəbul edilən hər hansı sənəd, hələ SSRİ yaradılmasına çox qalmasına baxmayaraq bir qayda olaraq Azərbaycanda da tətbiq edilirdi. Belə ki, 1922-ci il yanvarın 16- da verilən 30 saylı əmrlə Ümumrusiya Fövqəladə Komissiyası

XKS-nin 1921-ci il 29 avqust tarixli dekretini nəzərə alaraq və rəhbər tutaraq RSFSR ərazisindən xaricilərin çıxarılması qaydasını elan etdi. Verilən dekretə görə yeni hökumətin prinsipləri ilə bir araya sığmayan xarici ölkə vətəndaşları ya fövqəladə komissiyanın, ya da məhkəmə orqanlarının hökmü ilə Rusiya ərazisindən çıxarılmalı idi.

Azərbaycanda olan Belçika, İngiltərə, Fransa, Finlandiya, Yunanıstan və Polşa vətəndaşlarının hüquqlarını müdafiə etməyi İran konsulluğu öz üzərinə götürmək istəyirdi. Bununla əlaqədar olaraq konsulluq Xalq Xarici işlər komissan M.Hüseynova 1921-ci il 30 aprel və 24 may tarixlərində müraciət etdi. Onun fikrincə. Polşa və Azərbaycan arasında qarşılıqlı tanınma (de-yure) və qarşılıqlı münasibətlər haqqında müqavilənin olmaması polyak mənşəli şəxslərin xarici vətəndaşlar kimi qələmə verilməsinə əsas olmamalıydı. Çünki Polşa başqa dövlətlərlə yanaşı Azərbaycan Xalq Cümhuriyyətini de-fakto tanımışdı, Azərbaycanda diplomatik və konsulluq nümayəndəliyi açmışdı. Polşa hökuməti diplomatik və ticarət münasibətləri qurmaq üçün Azərbaycana xüsusi heyət göndərmişdi. AXC parlamenti də Polşaya nümayəndə heyəti göndəiTnəyi planlaşdırmışdı. Lakin aprel işğalı buna maneçilik törətdi. Azərbaycan hökuməti yanında Polşanın diplomatik və konsulluq agentləri həbs edildi. Bu hadisələrdən sonra Polşa hökuməti Azərbaycana olan münasibətini dəyişdirdi. Polşa vətəndaşlarına viza verilməsi və onların hüquqlarının qorunması müzakirə obyektinə çevrildi. 1921-ci ildə Xalq Xarici işlər komissarlığı Moskvaya teleqram göndərərək Polşa vətəndaşlarının Azərbaycandan çıxıb getmələri barədə rəy verilməsini xahiş etdi.

Bu zaman polyaklar pərakəndə halda Azərbaycanı tərk edirdilər. Xalq Xarici işlər komissarlığı bir sıra orqanlar, o cümlədən Köçürmə mərkəzi ilə uzun yazışmalar apardı.

Azərbaycan tərəfi vətənə getmələri barədə polyakların ərizələrini qəbul etmirdi. O, bunu Azərbaycan və Polşa arasında müqavilənin olmaması ilə əlaqələndirirdi.

Azərbaycanda Avstriya vətəndaşları da var idi. Onlar əsasən hərbi əsirlər idi. Avstriya hökuməti Azərbaycanla əlaqələrinin, o cümlədən ticarət əlaqələrinin canlandınimasma xüsusi fikir verirdi. Avstriya Xarici işlər nazirliyi Tiflisdəki nümayəndəliyinin Bakıdakı nümayəndəsi Otto Ştopperə Bakıdakı avstriyalı hərbi əsirlərə və vətəndaşlara kömək etmək, ticarət mübadiləsi məsələlərinə dair danışıqları aparmaq üçün səlahiyyət verdi. Onun əsas işi avstriyalı larin hüquqlanm qorumaq, onlara pulsuz viza alıb vətənə yola salmaq idi. Lakin Azərbaycan bolşevik hökuməti ikitərəfli münasibətlərin yalnız «Azərbaycan SSR»-i tanımaqdan keçdiyini bildirirdi. 1921-ci ilin mayında Azərbaycan XXİK Avstriya Respublikasının hərbi əsirlər üzrə nümayəndəsinə və Qırmızı Xaç departamentinin rəisinə cavab göndərərək onun hökumətinin Azərbaycan SSR-i de-yure tanımasını xahiş etdi. Avstriyanın Tiflisdəki missiyasının başçısı 1921-ci il mayın 20-də M.Hüseynova cavab məktubunda bildirdi: «Sizin qaldırdığınız məsələni müvafiq məruzə ilə teleqramla Vyanaya öz hökumətimə göndərmişəm. Ölkələrimiz arasında əməkdaşlıq edilə bilər. Azərbaycanın xammalı, Avstriyanın isə maşınlan, kimyəvi məhsulları, kağızı, dərmanlan qarşılıqlı mübadilə edilə bilər».

Aprel işğalından sonra Azərbaycanda olan xarici ölkələrin kommunist vətəndaşlarının vəziyyəti digərlərinə nisbətən xeyli əlverişli idi. 1920-ci ilin iyulunda AK(b)P MK yanında milli azlıqlar şöbəsi yaradıldı. Şöbənin işi milli azlıqlar arasında iş aparmaq. Kommunist Partiyası sıralarına üzv olmağı təbliğ etmək və «inqilabi iş aparmaqdan» ötrü müvafiq ölkələrə göndərmək idi. Şöbə onlara ədəbiyyat və müəyyən qədər maddi vəsaitlə kömək edirdi. Bununla yanaşı olaraq Azərbaycan Xalq Maarif komissarlığında aynca şöbə də yaradıldı. Bu şöbə milli azlıqlar a rasında maarifçilik və mədəni-tərbiyə işləri aparırdı. Hər bir milli azlığın arasında təbliğat işi aparmaqdan ötrü AK(b)P MK yanında Milli azlıqların xüsusi bölmələri yaradıldı. 1921-ci ilin yanvarın 7-də Azərbaycan K(b)P MK-nın Təşkilat Bürosunun iclasında iş aparılması

haqqında məsələ müzakirə edilərək onu gücləndirmək barədə qərar qəbul olundu.

Beləliklə, aprel işğalından sonra yaradılmış bolşevik hökuməti Azərbaycandakı xarici vətəndaşları sıxışdırdı; onları təqib etdi, qanunsuz həbslər apardı; işğalçı bolşevik hökumətinin onların mənsub olduğu ölkələr tərəfindən tanıdılmasına çalışdı və bu cəhdlər uğursuzluqla nəticələndi; xarici ölkə vətəndaşlannm əmlakı müsadirə edildi; diplomatik və başqa nümayəndəliklərin XXİK ilə bu məsələdək! yazışmalannm əsas mövzusunu xarici ölkə vətəndaşlarının hüquqlarının qorunması, təhlükəsizliyi, vətənlərinə dönmələri üçün viza verilməsi məsələləri təşkil edirdi. Bolşevik hökuməti kommunistlərə xüsusi qayğı göstərirdi. Azərbaycan K(b)P MK yanında milli azlıqlar şöbəsi və bolşevik hakimiyyəti xarici ölkə vətəndaşları olan kommunistlərdən müvafiq ölkələrdə təxribatçılıq işi aparmaq üçün istifadə edirdi.

## AzarbaycanJlusiya-Türkiyə-İngiltərə-Eransa münasibətlərində əsir dəyişdirilməsi jnəsələsi

1920-ci ilin aprelin sonunda Bakıda 50 nəfər türk zabit və əsgəri həbs edilsə də, tezliklə onlar azad olundu. Bakıda ingilislər də həbs edildi. Admiralteyin birinci lordu (hərbi dəniz naziri) lord Lonqun 1920-ci il iyunun 9-da İngiltərə parlamentindəki çıxışında onların sayı 52 nəfər qeyd edilir. Lonqa görə onlar Britaniya dəniz nümayəndəliyinin üzvləri. Bakıdakı keçmiş Britaniya konsulu və b. idi.

Bu rəqəm Böyük Britaniya hökumətiriin RSFSR hökumətinə 1920-ci il 9 oktyabr tarixdə verdiyi notasında 72 nəfər, 1920-ci il noyabrın 1-də Tiflisdə imzalanan protokolda isə 62 nəfər göstərilir.

Lord Lonq onlann İrana göndərildiyini bildirdi. Onun sözlərinə görə bu şəxslər Denikin ordusunun yenidən qurulması ilə məşğul olmalı idilər.

Eyni zamända Bakıda fi-ansızlar da var idi.

İngilislərin həbs edərək Maltaya sürgün etdikləri kamalcı türklər 78 nəfər idi.

Britaniya imperiyasının müxtəlif yerlərində Rusiyaya qayıtmaq istəyən ruslar var idi. Kanadada 14 nəfər rus həbs edilmişdi; Hindistanda bir neçə nəfər, Misirdə və b. yerlərdə 129 nəfər rus qalmışdı və s.

Maltaya sürgün edilənlərin əvəzini çıxmaq üçün türklər Türkiyədə ingilisləri əsir götürürdülər.

Əsirlərin dəyişdirilməsi məsələsi müzakirə obyektinə çevrildi. Azərbaycan tərəfi RSFSR Xalq Xarici işlər komissarının müavini M.M.Litvinova əsir dəyişdirilməsi məsələsində səlahiyyət verdi. RSFSR Xalq Xarici işlər komissarı G.Çiçerin 1920-ci il avqustun 16-da N.Nərimanova teleqram göndərdi. Teleqramda deyilirdi: «M.Hüseynov Litvinova əsir dəyişdirilməsi məsələsində səlahiyyət vermişdir. Lakin ona əlavə materiallar göndərmək vəd etsə də yerinə yetirməmişdir. İngilis hökuməti tələsdirir və tələb edir. Mən Sizə dəfələrlə demişəm ki, Siz İstanbulda həbs edilmiş müsəlman millətçilərinin azad edilməsini tələb edə bilərçiniz».

Avqustun 27-də Azərbaycan K(b)P MK Siyasi Bürosunda Bakıda həbs olunmuş ingilisləri Batumda həbs olunmuş bolşeviklərə dəyişmək haqqında məsələ müzakirə edildi. Əsir dəyişdirilməsi məsələsində Siyasi Büroda razılıq əldə olundu. Bu barədə ingilis hökuməti qarşısında məsələ qaldırmaq RSFSR Xalq Xarici işlər komissarı G.Çiçerindən xahiş edildi. 1920-ci il avqustun 28-30-da Azərbaycan Xalq Xarici işlər komissarı M.Hüseynov Moskvadan Kopenhagenə RSFSR Xalq Xarici işlər komissarının müavini və əsir bəyişdirmək üçün vasitəçi olan M.M.Litvinova nota göndərdi. Notada ingilislərin Batumdan apardıqları neft və digər məhsulların əvəzinin qaytarılması və Bakıda «saxlanılan» ingilislərin «həbs olunmuş yoldaşlara dəyişdirilməsi» məsələləri qaldırıldı.

M.Hüseynov 1920-ci il avqustun 29-da bu barədə teleqramı RSFSR-in Tiflisdəki səlahiyyətli nümayəndəsi S.M.Kirova, surətini isə Azərbaycanın səlahiyyətli nümayən

dəsinin müavini Əkbərağa Sadixova göndərdi. Teleqramda deyilirdi: «Azərbaycan Sovet Sosialist Respublikası hökumətinin Bakıda həbs edilmiş ingilislərin İstanbulda həbs edilmiş kamalçı türklərə dəyişməyə razı olduğunu Litvinova çatdırmağınızı xahiş edirəm. Siyahı sizə göndəriləcəkdir».

1920-ci il avqustun 30-da M.Hüseynov RSFSR Xalq Xarici işlər komissarı G.Çiçerinə nota göndərərək «həbs olunmuş jngilislərin İstanbulda həbs edilmiş kamalçı türklərə dəyişdirilməsinə Azərbaycanın razı olduğunu bildirdi». Az sonra M.Hüseynov ' Tiflisə gedərək ingilis-fransız nümayəndəlikləri ilə danışıqlara başladı. Gərgin keçən Tiflis danışıqlarında ingilislər və fransızlar Bakıdakı əsirlərin Maltada sürgündə olan kamalçılara dəyişdirilməyə razı olmadıqlarını bildirdilər. Onlar danışıqlarla hədə-qorxu yolunu tutaraq tələb etdilər: əgər onların tələblərinə axşamadək cavab verilməsə, danışıqları kəsib öz hökumətlərinə məlumat verəcəklər.

İngiltərə və Fransa nümayəndələrinin tələbləri yerinə yetirilmədiyindən danışıqlar kəsildi.

Oktyabrın 2-də G.Çiçerin N.Nərimanova teleqram göndərdi. Teleqramda deyilirdi: «Siz ingilis əsirlərinin dəyişdirilməsi haqqında mənim teleqram və məktublarımı cavabsız qoyursunuz. Sizin hökumətiniz bir dəfə qısa məlumat vermişdi ki, onları kamalçılara dəyişməkdə Litvinova səlahiyyət verir. Lakin sonra o, sizdən heç nə ala bilmədi. Sonrakı göstərişlər olmadan Litvinov heç bir şey edə bilməz. Sizin azad etmək istədiyiniz şəxslərin siyahısı olmadan Litvinov heç nə edə bilməz. Buna görə də İngiltərə hökuməti ilə bizim daimi qovğamız vardır. İngilis hökuməti bildirir ki, Azərbaycan hökuməti bizim hərbi köməyimizlə yaşayır və buna görə də o. Bakıdakı ingilis hərbi əsirləri barədə tələblə bizə müraciət edə bilmir. Biz sizsiz İngiltərəyə heç bir cavab verə bilmirik. Bu əsirlərin ucbatından İngiltərə ilə bütün başqa danışıqlar dayanmışdır... İngiltərə kamalçılar məsələsində qəti şəkildə imtina etmişdir, kamalçıların azad edilməsini tələb etməklə siz təcili bütün siyahını göndərməlisiniz. İndi aydın olacaqdır ki, b« mənada biz nəsə əldə edə biləcəyikmi və ya bundan imtina

etmək lazımdıran və onları İngiltərədə və onun tabeliyində olan bizim əsirlərlə dəyişmək lazımdırmı».

Çiçerin 1920-ci il 9 oktyabr tarixli növbəti notasında N.Nərimanova yazırdı: «Fransızlar Bakıdakı fransız əsirləri barədə analoji tələb edirlər. Yaranmış belə şəraitdə ingilis əsirlərini həbs olunmuş kamalçılara dəyişmək daha mümkün deyildir. Məqam əldən buraxılmışdır. İngilislərin əlindəki keçmiş Rusiya imperiyasının bütün hissələrindən olan əsirləri Rusiya, Ukrayna və Azərbaycandakı ingilislərlə dəyişmək olar. Bir sözlə, kollektiv dəyişmək lazımdır».

1920- ci il oktyabrın 19-da Azərbaycan XXIK Maltada siyasi həbsdə olan kamalçıların siyahısını Gürcüstan hökuməti yanındakı Azərbaycan nümayəndəliyinə göndərdi. Diplomatik nümayəndəliyin müşaviri Əkbərağa Sadixov əsir dəyişdirilməsi məsələləri üzrə İngiltərə və Fransa ilə danışıqlarda səlahiyyətli nümayəndə təyin edildi. Oktyabnn 19-da ona müvafiq mandat verildi.

Əsir dəyişdirilməsi məsələsində Azərbaycan bolşevik hökumətinin mövqeyi türklər tərəfindən rəğbətlə qarşılandı.

İngiltərənin Xarici İşlər naziri Lord Kerzon isə RSFSR XXİK-ə nota göndərərək Rusiya əsirlərinin Bakıdakı ingilislərə dəyişdirilmə vaxtı barədə göstəriş verdiyini bildirdi. G.Çiçerin müvafiq məlumatı N.Nərimanova teleqramla göndərdi. O, bildirirdi: «Kerzon Britaniyanın Tiflisdəki nümayəndəsinə Rusiya əsirlərinin qaytarıldığı vaxtı barədə göstəriş verəcəkdir. Ona görə də elə etmək lazımdır ki. Bakıdakı Britaniya əsirlərinin dəyişdirilməsi ilə o, eyni vaxta düşsün».

G.Çiçerin 1920-ci il 29 oktyabr tarixli notasında N.Nərimanova yazırdı: «İndiki halda əsirlərin dəyişdirilməsi labüddür. Bu işdə hər hansı əyinti sovet respublikalarının ümumi siyasəti üçün xoşagəlməz nəticələr verər. Sovet respublikaları ilə Antanta arasında bu məsələyə dair münaqişə İngiltərənin və Fransanın geniş dairələrində vətənpərvərlik hisslərini gücləndirər və Antanta hökumətlərinə ictimai rəy tərəfindən kömək edər. Əsirlər haqqındakı məsələdə münaqişə yaratmaq bizə əlverişli deyildir. Bizə düşmən olan ingilis

mətbuatı bu məsələ haqqında fəal təbliğat kampaniyası aparır və ingilis ictimai rəyinin böyük hissəsi bu məsələdə hökuməti müdafiə edir. Bizi istəyən elementlər bu məsələni tezliklə və tamamilə həll etməyi məsləhət görürlər. Vaxt var idi bu məsələni yubatmaq Antanta hökumətləri ilə danışıqlar üçün lazım idi. İndi həmin vaxt keçmişdir. Bakıdan ingilis və fransız əsirlərinin azad edilməsinə dair Tiflisdə ingilis və fransız nümayəndələri ilə təcili razılığa gəlmək indiki siyasi şəraitdə çox vacibdir. Sizin nümayəndənizin Tiflisə getməsi, ingilis və fransız nümayəndələri ilə təcili əlaqə qurması zəruridir. Kerzonun son radioqramasına görə noyabrın 5-də rus əsirləri Misir və Konstantinopoldan Odessaya gətirilməlidir və eyni vaxtda Bakıdan ingilis əsirləri Tiflisdəki ingilis nümayəndəliklərinə verilməlidir».

Çiçerinin bu teleqramına uyğun olaraq N.Nərimanov 1920- ci il oktyabrın 31-də əvvəlcə Moskvaya, sonra isə Londona teleqram göndərərək aşağıdakıları bildirirdi; «Oktyabrın 28-də Bakıdakı keçmiş Britaniya konsulu və Britaniyanın bütün digər əsirləri həbsxanadan buraxılmışlar. Onlar Tiflisə yola salınacaqlar. Onların dəyişdirilməsini şəxsən tənzimləmək üçün Azərbaycan Respublikasının Xalq Xarici işlər komissarı ora getmişdir».

N.Nərimanov G.Çiçerinin «eyni vaxtda dəyişdirmək» göstərişlərini M.Hüseynova verib Tiflisə göndərdi. Tiflisdəki danışıqlar M.Hüseynovun rəhbərliyi altında keçdi. 1920-ci il noyabrın 1-də Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi M.İsrafilovun, RSFSR-in Gürcüstandakı səlahiyyətli nümayəndəliyinin müşaviri Leonid- Starkin və Britaniyanın Güney Qafqazdakı ali komissarı, polkovnik K.B.Stoksun iştirakı ilə keçirilmiş birgə müşavirə əsir dəyişdirilməsi məsələlərinə həsr edildi. Müşavirədə müvafiq protokol imzalandı. Protokolda deyilirdi: «Böyük Britaniyanın vətəndaşları olan 62 hərbi əsir Bakıda azad edilsin və Tiflisə gətirilsin». Siyahıdan kənarda qalanlar olardısa və əgər onlar İngiltərəyə getmək istəyərdilərsə, onlar üçün də hər eür şərait yaradılmalıydı.

MuşaMi'ədən bir gün sonra, noyabrın 2-də M.Hüseynov Tiflisdəki diplomatik nümayəndəlikdən N.Nərimanova təcili teleqram göndərdi. O, hərbi əsirlərin Ağstafaya təcili göndərilməsini və bunun günü barədə nümayəndəliyə məlumat verilməsini xahiş edirdi.

N.Nərimanov noyabrın 5-də göndərdiyi eavab teleqramında deyirdi: «Bu gündən ingilis hərbi əsirləri Azərbaycanın Tiflisdəki diplomatik nümayəndəliyinin sərəncamına göndərilir. Orada bu şəxslər Gürcüstandakı ingilis və fransız nümayəndəliyinə təhvil verilməlidir». Eyni zamanda N.Nərimanov bu teleqramın surətini İngiltərə və Fransanın Tiflisdəki nümayəndəliyinə də göndərdi.

1920-ci il noyabrın 3-də N.Nərimanov Fransanın baş nazirinə və Xarici işlər naziri Fcyqə belə bir teleqram göndərdi; «Həbs edilmiş fransızlar oktyabrın 28-də azad edilmişlər və onlar təcili olaraq Tiflisə göndəriləcəklər. Azərbaycan Respublikasının Xalq Xarici işlər komissarı Hüseynov onların verilməsinin təfərrüatını tənzimləmək üçün Tiflisə getmişdir».

Bakıdan Tiflisə yola salınan ingilis və fransızlar oradan Odessaya göndərildi. Onların Odessaya gəlişi həm ingilis nəqliyyatının bura gəlməsi, həm də rus hərbi əsirlərinin olduğu Batumdakı ingilis gəmilərinin Odessaya gəlməsi ilə eyni vaxta düşməli idi.

İngilislərlə türklərin dəyişdirilməsi ayrıea həll edildi.

**AzarbajıcaıtRusiya iDLÜnasihəfləti**

1920-ci il mayın 20-də RK(b)P MK Siyasi Bürosunda «Azərbaycan haqqında məsələ» müzakirə olundu. İkitərəfli münasibətləri müəyyənləşdirməkdən ötrü danışıqlara başlamaq üçün Azərbaycana müraciət etmək XXİK-ə tapşırıldı. Cavab alınan kimi Krestinski, Çiçerin, AXTŞ və hərbi idarə nümayəndələrindən ibarət komissiya yaradılmalı idi. Xalq Millətlər komissarlığının nümayəndəsi Kaminskiyə bu komissiyada iştirak etməyə icazə verildi.

RSFSR Xalq Xarici işlər komissarı G.Çiçerin N.Nərimanova nota ilə müraciət etdi. Notada daimi qarşılıqlı

münasibətlərin qurulmasından ötrü Moskvaya səlahiyyətli nümayəndə göndərmək təklif edildi.

1920-ci il iyulun 13-də AK(b) MK Siyasi Bürosunun iclasında Azərbaycanın Moskvadakı nümayəndəsi kimi Behbud Şahtaxtinskinin məruzəsi haqqında məsələ müzakirə edildi.

İyulun 15-də N.Nərimanov və M.Hüseynov Xalq Ədliyyə komissarı Behbud Şahtaxtinskiyə RSFSR hökuməti ilə bütün məsələlərə dair danışıqlar aparmaq və mümkün olan müqavilələri imzalamaq səlahiyyətləri verən mandatı imzaladılar. Avqustun 5-də RK(b) MK plenumu «Azərbaycanla Rusiya arasında münasibətlər haqqında məsələ» müzakirə etdi. G.Çiçerin başda olmaqla komissiyaya müvafiq layihə hazırlamaq tapşırıldı.

Aparılan danışıqlar nəticəsində 1920-ci il avqustun 24- də RSFSR xarici ticarəti ilə Azərbaycan SSR xarici ticarəti arasında yeddi maddədən ibarət saziş imzalandı.

1920-ci il sentyabrın 30-da poçt, teleqraf və radioteleqram idarələrinin birləşdirilməsi haqqında 7 maddədən ibarət hökumətlərarası saziş imzalandı.

Həmin gün yenə onlar ərzaq siyasətinin birləşdirilməsi haqqında altı maddədən ibarət olan saziş imzaladılar. Yenə həmin tarixdə vahid iqtisadi siyasətin həyata keçirilməsi barədə altı maddədən ibarət saziş imzalandı. Bu sazişlə iqtisadi siyasət sahələri birləşdirildi. Azərbaycan ərazisində xüsusi inhisarlar qurmaq yalnız Ali Xalq Təsərrüfatı Şurasının icazəsi ilə ola bilərdi.

Səkkiz maddədən ibarət maliyyə məsələləri üzrə saziş də həmin tarixdə imzalandı. İki respublikanın maliyyə fəaliyyəti birləşdirildi.

Sentyabrın 30-da Azərbaycanla RSFSR arasında beş maddədən ibarət xarici ticarət məsələlərinə dair saziş imzalandı. Azərbaycanın xarici ölkələrlə bütün iqtisadi əlaqələri RSFSR Xalq Xarici Ticarət komissarlığı tərəfindən müəyyən edilmiş prinsiplər əsasında həyata keçirilməli idi. Azərbaycan neftdən başqa bütün məhsullarının siyahısını tuta və Güney Qafqaz, İran və Türkiyə ilə ticarət edə bilərdi.

Azərbaycanın başqa ölkələrlə hər hansı ticarət müqavilələri və sazişləri öncədən RSFSR XXTK ilə razılaşdırılmalı idi.

1920- ci il sentyabrın 30-da G.Çiçerin və B.Şahtaxtinski RSFSR-lə Azərbaycan arasında hərbi-iqtisadi ittifaq haqqında dörd maddədən və hərbi-dəniz məsələlərinə dair on bir maddədən ibarət müqavilələr imzaladılar. B.Şahtaxtinskinin Moskvada imzaladığı bu sənədlər əslində Azərbaycanın Rusiya tərəfindən müstəqilliyinin itirilməsinin və işğalının təsdiqlənməsi, ona hüquqi-siyasi əsas verilməsi demək idi.

1921- ci il avqustun 7-də RSFSR hökuməti ilə Azərbaycan, Gürcüstan və Ennənistan arasında xarici ticarət məsələlərinə dair beş maddədən ibarət saziş imzalandı. Sazişə görə Güney Qafqaz respublikaları xarici dövlətlərlə ticarət münasibətlərini yalnız RSFSR-in razılığı ilə qura bilərdilər.

1922- ci il mayın 14-də Azərbaycan XKS-nın iclasında Azərbaycanın Moskvadakı səlahiyyətli nümayəndəliyinin fəaliyyəti haqqında məsələ müzakirə edildi. 10-cu məsələ kimi müzakirə edilən bu məsələ barəsində Ə.Şirvani məruzə etdi. Azərbaycanın Moskvadakı İqtisadi nümayəndəliyi saxlanıldı və o, Xalq Sənaye Ticarətinə tabe etdirildi. Təşkilati işləri yerinə yetirmək Ali İqtisadi Şuraya tapşırıldı.

1921- ci il noyabrın 29-da Bakıda RSFSR-in baş konsulluğu fəaliyyətə başladı. Kuznetsov baş konsul təyin edildi. Konsulluğun fəaliyyəti ikitərəfli münasibətləri inkişaf etdirməkdən daha çox münasibətlərdə çətinliklər törətməyə, Azərbaycana təzyiqlər etməyə və iddialar irəli sürməyə yönəlmişdi.

1922- ci ilin noyabrında Bakıdakı baş konsul Kuznetsovun əvəzinə RSFSR-in Buxradakı keçmiş səlahiyyətli nümayəndəsi, bir neçə il Şərq ölkələrində işləmiş A.L.Fratkin təyin olundu. Lakin bir müddət sonra RSFSR XXİK konsulluğunun saxlanılmasına da lüzum görməyərək onu bağladı.

Bolşevik Rusiyasının həyata keçirtdiyi aprel işğalı nəticəsində hakimiyyətə gələn Azərbaycan bolşevikləri müstəqilliyi məhv etdilər; Azərbaycanı Rusiyanın işğal zonasına çevirdilər; «bərabərhüquqlu», «müstəqillik» adı

altında imzalanan müqavilələrlə Azərbaycan Ru>iyanın idarəçiliyinə keçdi; Rusiya Azərbaycanın Moskvadakı səlahiyyətli nümayəndəliyinin işi üçün çətinliklər yaratdı \ə onu lazımsız idarəyə çevirdi; Rusiyanın Bakıda yaratdığı baş konsulluğu əslində Azərbaycana təzyiq vasitəsi idi. Beləliklə, Azərbaycanın bolşevik liderləri Rusiyanın göstərişlərini tamamilə yerinə yetirərək Azərbaycanın dövlət müstəqilliyinin üstündən xətt çəkdilər.

1920-ci il iyulun 19-da Türkiyə Böyük Millət Məclisi hökumətinin nümayəndə heyəti xarici işlər komissarı Bəkir Sami bəy başda olmaqla Moskvaya səfər etdi. Səfərdə əsas məqsəd iki ölkə arasında dostluq müqaviləsi imzalamaq üçün danışıqlar aparmaq idi.

1920-ci ilin iyul-avqustunda keçirilən danışıqlar nəticəsində avqustun 24-də sovet-türk müqaviləsinin layihəsi razılaşdırıldı.

Rusiya-Türkiyə danışıqları qarşılıqlı razılığa əsasən Bakıda keçirilməli idi. G.Çiçerin Türkiyə hökumətinə 1920-ci il 9 dekabrda nota verərək konfransda Azərbaycan və Ermənistan nümayəndələrinin də iştirak etməli olacaqlarını bildirdi. Bunu dörd dövlətin konfransı adlandırdı. 1920-ci il dekabrın 19-da isə G.Çiçerin TBMM Xalq xarici işlər komissarı vəzifəsini icra edən Əhməd Muxtara nota göndərərək xarici siyasət rəhbərlərinin işdən ayrılmasının qətiyyən yolverilməz olduğunu deyərək danışıqların Bakıda deyil, Moskvada keçirilməsini təklif edərək türk nümayəndə heyəti üçün Ermənistan və Novorossiysk üzərindən daimi əlaqə yaradılacağını bildirdi.

Rusiya diplomatiyası konfransa Azərbaycan və Ermənistanı qatmaqla həm onların xarici siyasətini öz əlindö cəmləşdirmək və Türkiyəyə qarşı qoymaq, həm də gələcəkdə Güney Qafqazdakı niyyətlərini həyata keçirtmək üçün zəmin yaratmağa çalışırdı.

Konfransda azərbaycanlı vƏ erməni nümayəndələrinin iştirak etməsinə Türkiyə və Azərbaycan diplomatiyası necə

münasibət göstərdi? 1921-ci il fevralın 26-da B.Şahtaxtinski Moskvadan M.Hüseynova yazırdı; «Türklərlə Azərbayean arasında müqavilə Bakıda məxsusi bağlanacaqdır. Türklər konfransda Azərbaycan və Ermənistan nümayəndələrinin iştirak etməsini istəmirlər. Bildirirlər ki, onlarla Azərbaycan arasında qətiyyən heç bir mübahisəli məsələ yoxdur. Azərbaycanla müqavilə xüsusi bağlanacaqdır. Ermənistan nümayəndəsinin iştirakına qarşı ona görə çıxırlar ki, onlar Aleksandropol müqaviləsini qüvvədə hesab edirlər və ondan imtina etmək 'istəmirlər. Rusiya isə bizimlə ayrıca müqavilə bağlanmasının əleyhinədir. O, əvvəlcə Azərbaycanın, sonra isə Ermənistanın nümayəndələrini konfransa salmaq istəyir. Mən şəxsən konfransda Azərbaycanın iştirakının əleyhinəyəm. Çünki mən orada heç nə haqqında qətiyyətli danışa bilmərəm. Xırda şeylərdə türklərin əleyhinə getmək bizə sərf etmir. Məhz mən onların üzərində təsirə malikəm. Məni Anadoluda çoxlu kombinasiyalar gözləyir və Azərbaycana heç bir aidiyyatı olmayan məsələlər barədə türklərə qarşı konfransda çıxış etsəm, bütün bunların hamısını itirə bilərəm. Rusiya türklərlə danışıqları dostluq və qardaşlıq haqqında aparır, ittifaq haqqında aparmır».

Rusiya ilə danışıqlar aparmaq üçün 1921-ci ilin fevralında Moskvaya gedərkən türklər Azərbaycan, Gürcüstan, sonra isə Ermənistanla müqavilə bağlamaq istəklərinə çata bilmədilər.

Türklər hətta Azərbaycanla 7 maddədən ibarət saziş layihəsini də hazırlamışdılar. Layihəyə görə Şərqi azad etməkdə onlar birləşməli və qüvvələrini imperializmə qarşı yönəltməli idilər; Türkiyə Antanta ilə müqavilə bağlayardısa, Azərbaycana üsyançı dəstələri göndərməli idi. Emissarların maliyyələşdirilməsini Azərbaycan öz üzərinə götürməli idi; Azərbaycan Şərqdə milli-azadlıq hərəkatını müdafiə edirdi; lakin əgər əhali istəyərdisə, yalnız o vaxt sovet quruluşu yaradıla bilərdi; Türkiyənin razılığı olmadan Azərbaycan Antanta ilə sazişə girə bilməzdi; Antanta tərəfindən hücum olardısa Türkiyə Azərbaycana yardım göstərməli idi; Türkiyə

Şərqdə inqilabi hərəkat apardığı müddətdə Azərbaycan onu neft və neft məhsulları ilə təchiz etməli idi. Lakin Bakıdakı söhbətlər nəticəsiz qaldı.

Ankara hökuməti nümayəndə heyətinin tərkibinə TBMM Ali Xalq təsərrüfatı komissarı, deputat Yusif Kamal bəy, doktor Rza Nur bəy və TBMM təhsil komissarı Əli Fuad Paşa daxil idilər.

Fevralın 26-da başlayan danışıqlar nəticəsində «Dostluq və qardaşlıq haqqında» RSFSR-Türkiyə müqaviləsi 1921-ci il martın 16-da 16 maddədən və 2 əlavədən ibarət imzalandı. Onu Rusiya tərəfindən G.Çiçerin və Camal Qorxmazov imzaladılar.

RSFSR Mərkəzi İcraiyyə Komitəsi 1921-ci il iyulun 20- də, TBMM isə həmin ilin iyulun 31-də müqaviləni təsdiq etdi və ratifikasiya sənədləri sentyabrın 22-də Karsda mübadilə edildi.

Müqavilənin imzalanmasının böyük əhəmiyyəti var idi. Hər şeydən əvvəl, müqavilə iki ölkə arasında anlaşılmazlıqları aradan qaldırdı.

İkincisi, müqavilə bolşevik Rusiyasını və Türkiyəni düşmənləri olan Antanta ölkələrinə qarşı sıx ittifaqda birləşdirdi. Türkiyə işğal rejimini ləğv etməkdə, Rusiya isə yeni-bolşevik rejimini tanımamaq siyasətinə son qoymaqda müttəfiqə çevrildilər.

Üçüncüsü, müqavilə qismən də olsa Azərbaycanın ərazi bütövlüyünü qomdu və Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə aydınlıq gətirdi.

Bakı ilə Ankara arasındakı diplomatik-siyasi münasibətlərin ümumi vəziyyətini qarşılıqlı anlaşma, yardım, dostluq və qardaşlıq səciyyələndirirdi. 1921-ci ildə Türkiyənin Bakıdakı səfiri Memduh Şövkət bəy idi. Onunla bolşevik hökuməti arasında qarşılıqlı anlaşma hökm sürürdü. 1921-ci ilin aprelində Memduh Şövkət bəy Azərbaycan Xalq xarici işlər komissarlığına müraciət etdi. Müraciətdə iqtisadiyyat və neft sənayesi sahəsində Türkiyəyə yardım edilməsi xahiş olunurdu. Azərbaycan XXİK bu müraciətə böyük ruh yüksəkliyi ilə müsbət cavab verdi. Tezliklə Türkiyəyə neft məhsulları göndərildi.

Azərbaycan tərəfi bütün türk təbəələrinin Vətənə mütəşəkkil surətdə qayıtmaları üçün şərait yaratdı. Onlar ərzaq və vaqonlarla təmin olundu.

Qarşılıqlı münasibətlərdə müzakirə edilən məsələlərdən biri Türkiyədə Azərbaycanın diplomatik nümayəndəliyinin açılması məsələsi idi. Türk diplomatiyası Ankarada Azərbaycanın nümayəndəliyinin açılmasını xahiş etsə də bolşevik Bakısı məsələni uzatdı.

Azərbaycan XXİK Türkiyədə işləmək üçün əvvəllər Xalq Daxili işlər komissarının müavini işləmiş İ.Əbilovun namizədliyini Rusiya XXİK-ə təqdim etdi. G.Çiçerin 1921-ci il 26 may tarixində M.Hüseynova teleqram göndərərək «Əbilovun namizədliyinin Türkiyəyə təqdim edilməsini» bəyəndi. 1921-ci ilin iyununda İ.Əbilov Ankara hökuməti yanında Azərbaycanın səlahiyyətli nümayəndəsi təyin olundu.

1921-ci ilin avqustunda Ankaradakı nümayəndəliyin tərkibi belə idi: səlahiyyətli nümayəndə, birinei katib, ikinci katib, işlər müdiri, təsərrüfat müdiri, mühasib, diplomatik kuryer, kargüzar, makinaçı, həkim və b. nümayəndəliyin tərkibi 50-60 nəfər olmalı idi. Lakin 1921-ci ilin 4 avqust tarixli məlumata görə nümayəndəlikdə 28, 1922-ci ilin payızında isə 54 nəfər əməkdaş işləyirdi. 1921-ci ilin sonunadək səlahiyyətli nümayəndəlik mehmanxanada yerləşirdi.

1921-ci il oktyabrın 22-də İ.Əbilov Mustafa Kamal Paşaya etimadnaməsini təqdim etdi. Noyabrın 15-də nümayəndəliyin binası üstündə Azərbaycan sovet bayrağı qaldırıldı. Bu münasibətlə verilən ziyafətdə Mustafa Kamal Paşa iştirak etdi.

Azərbaycan-Türkiyə münasibətlərində müzakirə edilən məsələlərdən biri aprel işğalından sonra mübaeirət etməyə məebur olan müsavatçı xadimlərin və təşkilatların fəaliyyətinin qadağan olunması idi. Bolşevik Azərbaycanı mühacirətdə fəaliyyət göstərənlərə təhlükə mənbəyi kimi baxırdı. Ona görə də ikitərəfli münasibətlərdə Azərbaycan tərəfi onların fəaliyyətinin qadağan edilməsi və ya Türkiyədən çıxarılmasını tələb edirdi.

Müsavatçı şəxslərin və təşkilatların fəaliy>ətinin qadağan edilməsi məsələsini Azərbaycan bolşevik hökuməti qaldırdı; Moskvanın göstərişi ilə oturub-duran Azərbaycan bolşevik hökuməti öz hərəkətləri ilə nəinki respublikanın müstəqilliyini istəmirdi, həmçinin onun uğrunda çalışmış şəxsləri ölkədən didərgin salırdı, onlara bolşevik rejimi üçün təhlükə kimi baxırdı; onların ləğvi məsələsini Azərbaycan- Türkiyə qarşılıqlı münasibətlərində ən yüksək səviyyəyə qaldırırdı; Türkiyə tərəfi isə düşmüş olduğu mürəkkəb beynəlxalq şəraitdə bu tələblərin qarşısında bəzi güzəştlərə getməyə məcbur olurdu; bolşevik terrorundan və Türkiyədən çıxarılmaq təhlükəsindən özlərini qorumaq üçün bir çox müsavatçılar Türkiyə vətəndaşlığını qəbul etdilər; lakin onlar işğala qarşı mübarizəni nəinki dayandırmadılar və hətta onu müxtəlif formalarla davam etdirdilər.

Azərbaycan-Türkiyə münasibətlərində Kars konfransı mühüm yer tutdu.

Konfrans ərəfəsində Rusiya diplomatiyası Güney Qafqaz respublikalarını Türkiyə ilə vahid müqavilə bağlamağa məcbur edirdi. Bolşevik hökuməti bu işi həmin respublikaların öz əli ilə həyata keçirtməyə çalışırdı.

Konfrans 1921-ci il sentyabrın 26-dan oktyabrın 13-dək keçirildi. Konfransda Azərbaycan hökumətini Behbud Şahtaxtinski; Ermənistan hökumətini Askanaz Mravyan, Poqos Makinisyan; Gürcüstan hökumətini Şalva Eliava, Aleksandr Svanidze; Türkiyə hökumətini Kazım Qarabəkir Paşa, deputat Vəli bəy, keçmiş ictimai işlər naziri Muxtar bəy, Türkiyənin Azərbaycandakı səlahiyyətli nümayəndəsi Memduh Şövkət bəy; Rusiyanı isə vasitəçi kimi Latviyadakı səlahiyyətli nümayəndə Yakov Qanetski təmsil edirdilər.

Konfransda açılış nitqi söyləyən Kazım Qarabəkir Paşa hərarətli çıxış edərək ümumi işə uğurlar arzuladı. Qanetski də açılışda çıxış edərək Türkiyənin düşdüyü çətin vəziyyətdən çıxacağına ümid etdiyini bildirdi, Azərbaycan-Gürcüstan — Ermənistan dostluğundan və Türkiyə-Yunanıstan münasibətlərindən söz açdı.

Açılış mərasimində Ermənistandan A.Mravyan üç Güney Qafqaz respublikası adından çıxış etdi. O, «qardaş türk xalqının imperializmə və zorakılığa qarşı mübarizədə qalib gəlməsini Güney Qafqaz xalqlarının arzulamalarınm konfransda qeyd edilməsini və möhkəmləndirilməsini» vacib saydı.

Mübahisə yaradan məsələlərdən biri müqavilənin vahid, yoxsa hər bir respublika ilə ayrı-ayrılıqda bağlanması barədə idi.

Bu məsələdə Türkiyənin, Rusiyanın və Güney Qafqaz respublikalarının mövqeləri toqquşurdu.

Türk diplomatiyası hər bir respublika ilə ayrıca müqavilə bağlamağı təklif etdi. Kazım Qarabəkir Paşa türk diplomatiyasının mövqeyini belə dəlillərlə əsaslandırdı: «Moskva sovet hökuməti Güney Qafqaz respublikalarını müstəqil tanıdığını bildirir. Ona görə də biz onların hər biri ilə müstəqil dövlətlər kimi ayrıca müqavilə bağlamaq istəyirik. Bu barədə bizə Kamal Paşa göstəriş vermişdir».

Türk diplomatiyasının bu mövqeyi Rusiya diplomatiyası tərəfindən qəbul olunmadı. Rusiya üç respublika ilə birgə vahid müqavilə bağlamağı təklif etdi.

Tərəflərin mövqelərinin toqquşması mübahisələri qızışdırdı. Kazım Qarabəkir Paşa öz hökuməti ilə məsləhətləşmənin zəruri olduğunu bildirdi. Ankara ilə əlaqə saxladıqdan sonra konfrans iştirakçılarına hökumətinin mövqeyini bir daha bəyan etdi. «Müqavilə Güney Qafqaz respublikalarının hər biri ilə ayrıca bağlanmalıdır». O, bu mövqeyini 28 sentyabr tarixli iclasda bir daha təkrar etdi.

Mübahisələrə B.Şahtaxtinskinin çıxışı son qoydu. Yalnız onun çıxışından sonra Kazım Qarabəkir Paşa geri çəkildi və Moskva müqaviləsi imzalandıqdan sonra Güney Qafqazda yaranmış yeni şəraitdən xəbərsiz olduğunu bildirdi. 30 sentyabr tarixli iclasda ümumi müqavilənin imzalanması barədə razılıq əldə edildi.

1921-ci il oktyabrın 13-də RSFSR-in 'iştirakı ilə Azərbaycan, Gürcüstan və Ermənistan Türkiyə ilə 20 maddədən və 3 əlavədən ibarət Kars müqaviləsini imzaladılar.

Müqavilənin birinci maddəsi ilə tərəflər bütün əvvəlki qeyri-bərabərhüquqlu müqavilələri ləğv edirdilər. İkinci maddəyə görə Azərbaycan, Gürcüstan və Ermənistan zorla qəbul etdirilən müqavilələri rədd edirdilər 'və Türkiyə Millət Məclisinin qəbul etmədiyi sənədləri qəbul etmirdilər. Üç respublika 1920-ci il 10 avqust tarixli Sevr müqaviləsini qeyri- bərabərhüquqlu müqavilə kimi rədd edirdi. Üçüncü maddəyə görə üç respublika Türkiyədəki işğal rejimini rədd edirdi və bunu xalqlann hüquqları ilə bir araya sığmayan sayırdı. Dördüncü maddə ilə sərhəd məsələləri tənzimlənirdi. Beşinci maddəyə görə üç Güney .Qafqaz respublikası və Türkiyə Naxçıvanın Azərbaycan təkibində saxlanılmasına (verilməsinə yox. Seçmə bizimdir. — müəl.) razı olduqlarını bildirirdilər. Altıncı maddə ilə Türkiyə Batumu Gürcüstana güzəştə gedirdi. Gürcüstan burada muxtariyyət yaratmalı idi. Yeddinci maddəyə görə kömrük yumşaldılırdı. Səkkizinci maddəyə görə Türkiyə və Gürcüstan yaylaq və qışlaqlardan birgə istifadə etməli idilər. Doqquzuncu maddəyə görə tərəflər Qara dənizin statusunun hazırlanmasını vacib sayırdılar. Onuncu maddəyə görə tərəflər öz ərazilərində digərlərinə-qarşı yönəldilən qrup və təşkilatların yerləşdirilməsinə icazə verməmək barədə öhdəlik götürürdülər. On birinci maddə ailə hüququna və miras məsələlərinə həsr edilmişdi. Bu məsələlər xüsusi sazişlə həll edilməli idi. On ikinci maddə ilə tərəflər ərazisində olan digər ölkə vətəndaşları üçün əlverişli şərait yaratmaq barədə öhdəlik götürürdülər. Lakin bu hüquq tərəflərin müttəfiqlərinin vətəndaşlarına aid edilmirdi. On üçüncü maddəyə görə 1918-ci ilədək Rusiyanın, indi isə Türkiyənin hesab edilən ərazilərinin hər hansı sakini istəyinə uyğun olaraq türk vətəndaşlığından çıxa, Türkiyəni azad şəkildə tərk edə, əmlakını və ya onun dəyərini özü ilə götürə bilərdi. On gördüncü maddəyə görə tərəflər müqavilə imzalandığı gündən altı ay müddətində 1918-1920-ci illər müharibəsi qaçqınlarına dair xüsusi sazişi bağlamalı idi. On beşinci maddə ilə tərəflər Qafqaz cəbhəsində hərbi əməliyyatlar zamanı cinayət törədən şəxsləri müqavilə imzalanan kimi amnistiyaya buraxırdılar. On altıncı maddəyə

görə tərəflər müqavilə imzalandıqdan sonra iki ay müddətində olan keçmiş hərbi və mülki əsirləri azad etməli idilər. On yeddinci maddəyə görə ölkələr arasında əlaqələrin daimiliyini təmin etmək üçün tərəflər dəmir yolu, teleqraf və başqa rabitə vasitələrini, insanların və malların maneəsiz hərəkətini saxlamalı və inkişaf etdirməli idilər. On səkkizinci maddəyə görə tərəflər ticarət əlaqələrini qurmaq, iqtisadi, maliyyə və digər məsələləri tənzimləmək, dostluq münasibətlərini möhkəmləndirmək üçün müqavilə imzaladıqdan dərhal sonra Tiflisdə müvafiq ölkələrin komissiyasını yaratmalı idilər. On doqquzuncu maddəyə görə tərəflər müqavilə imzalandıqdan sonrakı üç ay müddətində konsul konvensiyasını bağlamalı idilər. İyirminci maddəyə görə müqavilə ratifikasiya edilməli idi. Ratifikasiya sənədləri İrəvanda mübadilə olunmalı idi. Müqavilənin 6, 14, 15, 16, 18 və 19-cu maddələri ratifikasiya edilməməli və dərhal qüvvəyə minməli idi. Müqavilə beş nüsxədən ibarət tərtib edilmişdi.

Müqavilənin imzalanmasının tərəflər üçün böyük əhəmiyyəti var idi. Türk diplomasiyası üçün: ona zorla qəbul etdirilən Sevr müqaviləsinə qarşı Rusiya ilə birlikdə Azərbaycan, Gürcüstan və Ermənistanın dəstəyini aldı; dünyaya və xüsusən Antanta ölkələrinə Sevr müqaviləsinin iflasa uğrayacağam göstərdi; türklərin Versal sülh sisteminin özlərinə aid olan maddələrini dağıtmaları XX əsrin ən böyük hadisələrindən biri oldu; üç Güney Qafqaz respublikası, xüsusən Ermənistanla münasibətlərini tənzimlədi; onlarla mehriban qonşuluq münasibətlərinin və işgüzar əlaqələrinin qurulması üçün hüquqi- siyasi zəmin hazırladı; özünün Güney Qafqaz respublikalan ilə olan sərhədlrinin təhlükəsizliyini təmin etdi.

Konfransda vasitəçi rolunu oynayan rus diplomatiyası üçün: öz siyasi məqsədlərinə çatmaqda rus diplomatiyası tanınmayan bolşevik höküməti üçün Türkiyədən yeni dəstək aldı; Güney Qafqaz respublikalarını vahid dövlətdə birləşdirməkdən ötrü ciddi addımlar atdı; Türkiyə ilə sərhədlərində təhlükəsizliyi təmin etdi; Güney Qafqazda öz təsirini və

hökümranlığını möhkəmləndirdi; üç respublikanı Türkiyəyə qarşı qoymaq üçün cəhdlər etdi.

Azərbaycan, Gürcüstan və Ermənistan diplomatiyası üçün: bu respublikaların Türkiyə ilə ərazi məsələləri həll edildi; Türkiyə ilə mehriban qonşuluq münasibətlərinin əsası qoyuldu; müqavilə imzalanması zahirən üç respublikanın müstəqil xarici siyasət yeritməsi kimi təbliğ edilsə də əslində konfransda üç respublikanın göstəriş verəni konfransda mühüm rol oynayan Rusiya idi.

Türkiyə Böyük Millət Məclisi 1922-ci il martın 17-də 172 səslə Kars müqaviləsini təsdiq etdi. 1922-ci il martın 3-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin III sessiyasının iclasında Kars müqaviləsi yekdilliklə təsdiq olundu. Martın 20- də Ermənistan, İзoinun 14-də isə Gürcüstan Mərkəzi İcraiyyə Komitələri müqaviləni təsdiq etdilər.

1922-ci il sentyabrın 11-də İrəvanda təsdiq fərmanları mübadilə edildi və Kars müqaviləsi həmin gündən qüvvəyə mindi. Kars müqaviləsi imzalandıqdan sonra, hələ təsdiq olunmasına qədər Güney Qafqaz — Türkiyə konfransı keçirildi. Kars müqaviləsinin maddələrini həyata keçirtmək məsələlərinə həsr edilmiş bu konfrans 1922-ci il fevralın 15-də Tiflisdə öz işinə başladı. Aprelin 15-dən iyulun 9-dək Rusiya və üç Güney Qafqaz respublikası ilə Türkiyə arasında aşağıdakı konvensiyalar imzalandı: Konsul konvensiyası; konsul konvensiyasına əlavə; hüquqi yardım haqqında konvensiya; poçt-teleqraf konvensiyası; dəmiryolu konvensiyası.

**Azərbaycan-İran münasibətləri**

1920-ci ilin aprelindən sonra qurulan Azərbaycan SSR-lə İran birbaşa münasibətlər yaratmağa səy edirdi.

Azərbaycanın İrandakı səlahiyyətli nümayəndəliyinin və konsulluğunun işi qoşunların burada olması ilə bağlı təbliğatçılıq niyyətlərini həyata keçirtməklə məhdudlaşırdı.

Azərbaycanla İran arasında münasibətlərdə sərhəd pozulması, İran ərazisindən keçən dəstələrin Lənkəran və Muğanda törətdikləri hərəkətlərə dair məsələlər müzakirə

olunurdu. Azərbaycan tərəfi İran ərazisindən ayrı-ayrı dəstələrin etdikləri hücumlarda İran hökumətini təqsirləndirirdi. Əslində bu hücumlar işğaldan doğan narazılıqlarla, sovet hakimiyyətinə qarşı mübarizə ilə bağlı idi.

Azərbaycan-İran münasibətlərində mübahisəli məsələlərdən biri İran Kommunist Partiyası ilə bağlı idi. İran tərəfi Azərbaycanda yaradılan və yerləşən İran Kommunist Partiyasının ölkəsinə qarşı düşmənçilik hərəkətlərini pisləyərək Bakını təqsirləndirirdi. İran KP-nı yaradan AK(b)P 1921-ci il martın 11-də AK(b)P MK-nın İran bölməsini qurdu. İran bölməsinin təxminən 5 min nəfər üzvü var idi.

Azərbaycan bolşevik hökumətinin inkar etməsinə baxmayaraq əslində İran kommunistləri Bakıda öyrədilirdi, hazırlanırdı və inqilabi iş üçün oraya göndərilirdi. Onlar bolşeviklərin Şərq siyasətinin həyata keçirilməsinə kömək etməli idilər. Azərbaycanda İran kommunistlərinə xaricilər kimi baxılmırdı.

Azərbaycan-İran münasibətlərində müzakirə olunan məsələlərdən biri Azərbaycandakı İran təbəələrinin vəziyyəti idi.

Azərbaycan-İran münasibətlərində müzakirə edilən məsələlərdən biri ticarət, nəqliyyat və başqa sahələrdə əməkdaşlıqla bağlı idi.Əməkdaşlıq daha çox RSFSR-dən asılı idi. Moskva belə əlaqələrə imkan verməyərək Azərbaycanın xarici ticarətini öz əlində cəmləşdirirdi.

**AzəjrhaycanJlrnıənislan münasilıətləri**

1920-ci il mayın 3-də Ermənistan Xarici işlər nazirliyi Azərbaycan SSR-in Ermənistan hökuməti yanında diplomatik nümayəndəliyini yeni saziş bağlananadək ləğv etdi.

Avqust ayında isə vəziyyətin mürəkkəbliyini nəzərə alaraq Azərbaycan tərəfi Ermənistana nümayəndə göndərmədi, lakin Ermənistanın Bakıdakı nümayəndəliyinin fəaliyyətinə icazə verdi.

Ermənistanın sovetləşməsinə qədər Azərbaycan SSR-Ennənistan münasibətlərində ən çox mübahisələrə səbəb olan məsələlərdən biri ermənilərin əsassız ərazi iddiaları ilə bağlı idi.

Türk xalqının qərbdə ingilis-yunan müdaxiləçiləri ilə ölüm-dirim mübarizəsinə başı qarışdığını görən ermənilər lurkiyəyə qarşı növbəti xəyanətkarlıq törədərək yeni cəbhə açdılar. Daşnak ordu hissələri dinc türk əhalisinə qarşı kütləvi tciTora və qətllərə başladılar. Onlar 1920-ci ilin sentyabrında müsəlman əhaliyə qarşı kütləvi qırğını bütün Kars vilayətində, İrəvan quberniyasında, Şərur-Dərələyəzdə və b. yerlərdə törətdilər.

Erməni silahlı dəstələrinin vəhşilik hərəkətlərinə türklər cavab verməyə məcbur oldular.

Darmadağın edilmələrinə baxmayaraq ermənilər bolşevik Rusiyasının köməyi ilə Türkiyə torpaqlarına yiyələnmək iddialarından əl çəkmədilər. «Türkiyə Ermənistanı məsələsində» hətta Rusiyanın köməyi ilə istəklərinə çata bilməyən daşnakların siyasətini bolşevik ermənilər Azərbaycana münasibətdə davam etdirməyə başladılar. Bu işdə onların ən yaxın himayəçisi həm Azərbaycanın, həm də Ermənistanın ağası olan, lakin Ermənistanı özünə daha yaxın bilən bolşevik Rusiyası idi.

Sovetləşmədən sonra Ermənistanın daxili vəziyyətini aclıq, iqtisadi və ərzaq böhranı, bolşevik ordu hissələrinin özbaşınalığı və Rusiyadan asılı olmaq səciyyələndirirdi.

Ermənistanı aclıqdan qurtarmaqda Azərbaycan mühüm rol oynadı. Ermənilərə Azərbaycandan çörək, ərzaq məhsulları və yanacaq göndərildi.

1921-ci il iyunun 11-də Azərbaycanla qonşu sovet respublikaları, o cümlədən Ermənistan arasında kömrük ləğv olundu.

Elakimiyyətə bolşeviklərin gəlməsinə baxmayaraq onlar Azərbaycana münasibətdə daşnak siyasətini davam etdirməyə başladılar.

Ermənistanla Azərbaycan arasında münasibətlərdə ən kəskin məsələlərdən biri ermənilərin əsassız ərazi iddiaları idi. Ermənistan sovet hökuməti daşnakların Qazaxda tutduğu Azərbaycan yaylaqlarını və meşələrini geri qaytarmaq və Azərbaycan kəndlilərini həmin yerlərə nəinki buraxmaq istəmirdi, həmçinin yeni-yeni iddialar irəli süıürdü. Ermənistanın iddiaları ilə yaranan ərazi məsələləri müxtəlif səviyyələrdə müzakirə obyektinə çevrildi. 1921-ci il iyunun 27- də AK(b)P MK-nm Siyasi Bürosunun və Təşkilat Bürosunun iclasında Dağlıq Qarabağ haqqında məsələ müzakirə edildi. Bildirildi ki, bu məsələ «... Dağlıq Qarabağın Azərbaycana qəti iqtisadi meylinin» nəzərə alınması ilə həll edilə bilər.

Ermənistanla Azərbaycan arasında olan ixtilafı nəzərə alaraq RK(b)P MK-nın Qafqaz Bürosunda Dağlıq Qarabağ haqqında məsələ müzakirə edildi. İyulun 4-də Qafbüro plenumunun iclası keçirildi. İclasda Stalin, Oreonikidze, Kirov, Nazaretyan və Firatner iştirak edirdilər. Beşinci məsələ kimi Qarabağ məsələsi müzakirə olundu. Müzakirələr məsələyə dair iki müxtəlif fikri üzə çıxartdı: Qarabağın Azərbaycanın hüdudlarında saxlanılmasının (verilməsi yox. - Seçmə bizimdir. — müəl.) lehinə Nərimanov, Maxaradze, Nazaretyan, əleyhinə Oreonikidze, Myasnikov, Kirov və Fiqatner səs verdilər. Qarabağın bütün əhalisinin arasında plebisist keçirilməsi lehinə Nərimanov və Fiqatner səs verdilər. Qarabağın Ermənistanın tərkibinə qatılmasının lehinə Oreonikidze, Myasnikov, Fiqatner və Kirov səs verdilər. Nəticədə belə bir qərar qəbul edildi: Dağlıq Qarabağ Ermənistan SSR tərkibinə qatılsın. Plebisist yalnız Dağlıq Qarabağda keçirilsin.

Lakin Nərimanovun bu ədalətsiz qərara etiraz etdiyinə və kəskin narazılıq yarandığına görə Qafbüro qəti qərar üçün məsələni RK(b)P MK-nın müzakirəsinə verdi. 1921-ci il iyulun 5-də İ.V.Stalin, S.Oreonikidze, F.Maxaradze, S.Kirov, N.Nərimanov, A.Myasnikov, A.Nazaretyan, M.Oraxelaşvili və Y.Fiqatnerin iştirakı ilə Büroda müzakirə keçirildi. Qəbul edilmiş qərarda deyilirdi: «Müsəlmanlar və ermənilər arasında milli sülhün. Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqəsinin

zəruriliyinə, onun Azərbaycanla daimi əlaqəsinə əsaslanaraq Dağlıq Qarabağ Azərbaycanın hüdudları daxilində saxlanılsın, muxtar vilayətin tərkibinə daxil olan inzibati mərkəzi Şuşa şəhərində olmaqla ona geniş vilayət muxtariyyəti verilsin».

1921-ci il iyulun 20-də AK(b)P MK-nın Siyasi Bürosu və Təşkilat Bürosu Qarabağla bağlı məsələlərin işlənib hazırlanması üçün komissiya yaratmağı qərara aldı.

1921-ci ilin sentyabrın 26-da AK(b)P MK-nın Siyasi Bürosu və Təşkilat Bürosunun iclasında bu məsələ yenidən müzakirə edildi. Səs çoxluğu ilə belə bir qərar qəbul olundu: «Qafqaz bürosundan xahiş edilsin ki. Dağlıq Qarabağın muxtar vahidə ayrılması haqqında öz qərarına yenidən baxsın; buna qədər muxtariyyət elan etməməli».

Muxtariyyətin yaradılması məsələsi 1922-ci il dekabrın 14-də RK(b)P-nın Zaqafqaziya diyar komitəsinin iclasında nəzərdən keçirildi. Belə bir qərar qəbul edildi: «... ASSR Xalq Komissarları Sovetinin nəzdində RK(b)P MK-ya bilavasitə müraciət etmək hüququ olan Dağlıq Qarabağ işləri üzrə xüsusi Komitə yaradılsın». AK(b)P MK Rəyasət Heyətinin 1922-ci il dekabrın 15-də qəbul etdiyi qərara uyğun olaraq Azərbaycan XKS yanında Dağlıq Qarabağ işləri üzrə Mərkəzi komissiya yaradıldı. A.Qaragözov başda olmaqla Dağlıq Qarabağ işləri üzrə Komitə təsdiq edildi. Müvafiq qərar Azərbaycan XKS tərəfindən qəbul olundu. Komitə yerlərdə vəziyyəti öyrənərək AK(b)P MK-nın Rəyasət Heyətinə layihə təqdim etdi. S.M.Kirovun sədrliyi ilə Rəyasət Heyəti 1923-cü il iyunun 20- də qərara aldı: «İstər dağlıq və istərsə də düzən olsun, Qarabağın bir inzibati vahid şəklində ayrılması zəruri sayılsın».

1923- cü il iyunun sonunda ÜİK(b)P Zaqafqaziya diyaı komitəsinin plenumunda Ə.Qarayevdən (sədr), İ.Dövlətovdan. A.Mirzoyandan və b. ibarət komissiyanın qərarı ilə Zaqafqaziya diyar komitəsi Dağlıq Qarabağın muxtar vilayətə çevrilməsi haqqında qərar qəbul etdi. AK(b)P MK Rəyasət Heyəti 1923-cü il 1 iyulda bu qərarı təsdiq etdi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə təklif olundu ki. Rəyasət Heyətinin adından Dağlıq Qarabağa muxtariyyət verilməsi barədə dekret versin, İeraiyyə

Komitəsi başda olmaqla və Xankəndi mərkəz olmaqla Qarabağ Muxtar Vilayəti yaratsın.

Azərbaycan MİK 1923-cü il iyulun 7-də «Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqmda» dekret verdi.

Beləliklə, bolşevik Azərbaycanı ilə daşnak Ermənistanı arasında ilk aylarda diplomatik münasibətlər mövcud idi; diplomatik nümayəndəliklər çətin şəraitdə fəaliyyət göstərirdilər; bolşevik Azərbaycanını daşnak Ermənistanında erməni İ.İ.Dövlətov təmsil edirdi; Ermənistanın sovetləşməsinə qədər ikitərəfli münasibətlərdə ən kəskin məsələlərdən biri ermənilərin ərazi iddiaları idi; onlar Azərbaycan, Gürcüstan və Türkiyə torpaqları hesabına «böyük Ermənistan» yaratmaq istəyirdilər; Azərbaycanda aprel işğalı baş verən kimi Ermənistan hərbi hissələri Qazax qəzasında, Qarabağda və Zəngəzurda göründülər, azərbaycanlılara qarşı qırğınlar törətdilər; belə vəziyyət notalar mübadiləsinə səbəb oldu; ərazi-sərhəd mübahisələrini həll etmək üçün daşnak Ermənistanı sovet Rusiyasının vasitəçiliyinə çalışırdı; Ermənistan Azərbaycanın mübahisəsiz ərazilərinə də iddia edirdi; Ermənistanın Azərbaycana, o cümlədən Türkiyəyə ərazi iddialarını bir sıra dövlətlər də qızışdırırdılar; Erməni-azərbaycanlı konfransının çağırılması məsələsi də müzakirə edildi, lakin onu keçirmək mümkün olmadı; ikitərəfli münasibətlərdə müzakirə edilən məsələlərdən biri Azərbaycanda həbs edilən daşnakların və Ermənistanda həbs edilən kommunistlərin azad edilməsi idi; müvafiq ilkin sazişin imzalanması ilə məsələ həll edildi; daşnak Ermənistanının Türkiyəyə qarşı müharibəyə başlaması və qırğınlar törətməsi bölgədəki münasibətlərə təsir göstərdi; Türkiyə cavab tədbirlərini görərək daşnak EiTnənistanmı əzdi və demək olar ki, bütün Ermənistan Türkiyənin protektoratlığına düşdü; bu vaxtlarda daşnak Ermənistanına münasibətdə Azərbaycanın və Rusiyanın baxışlarında fərqli cəhətlər var idi; bolşevik Rusiyası daşnak Ermənistanını Türkiyə ilə vuruşdurub öz istəyinə nail olmaq istəyirdi; başqa rejimin hakimiyyətdə olmasına baxmayaraq sovet Rusiyası Ermənistana isti münasibət bəsləyirdi; Türkiyə daşnak Ermənistanını darmadağın edərək

onun sovetləşdirilməsində Rusiyaya kömək etdi; lakin həm sovet Ermənistanı, həm də sovet Rusiyası Aleksandropol (Gümrü) sülh müqaviləsini tanımaqdan imtina etdilər; onun yerinə 1921-ci il 16 mart tarixli Rusiya-Türkiyə və Türkiyə-Azərbaycan-Gürcüstan-Ermənistan konfransının (Rusiyanın vasitəçiliyi ilə) nəticəsində 13 oktyabr tarixli Kars müqaviləsi imzalandı;Ermənistanın sovetləşmədən sonrakı vəziyyətini aclıq, ərzaq böhranı, istiliyin olmaması kimi acınacaqlı şərait səciyyələndirirdi; belə dəhşətli vəziyyətdə Azərbaycan Ermənistana çörək və yanacaq verdi; bunu həm daşnak, həm də erməni sovet liderləri etiraf edirdilər; lakin sovetləşən Ermənistan liderləri mahiyyətinə görə daşnak siyasətini davam etdirdilər; ikitərəfli münasibətlərdə yenə də əsas yeri ərazi- sərhəd məsələləri tutdu; ərazi məsələlərinin həlli Kommunist Partiyasının inhisarına çevrildi; Moskva Azərbaycan torpaqlarını kəsərək Ermənistana verdi; Dağlıq Qarabağın erməni icması üçün muxtariyyət yaradan bolşevik liderləri Ermənistanda yaşayan azərbaycanlı əhalinin istəklərini nəzərə almadılar; Rusiya Güney Qafqazda istəklərinə çatmaqda azərbaycanlılardan istifadə etdikdən sonra onları arxa plana keçirdi, onlann yerini rus, erməni və gürcü bolşevikləri tutdu.

**münasibətləri**

1920-22-ci illərdə Azərbaycan-Gürcüstan münasibətləri xeyli mürəkkəb və ziddiyyətli inkişaf yolu keçmişdir. Münasibətlərin inkişafını mahiyyətinə görə iki əsas mərhələyə bölmək olar: 1. Azərbaycan SSR-in Gürcüstan Demokratik Respublikası ilə münasibətləri; 2. Azərbaycan SSR-Gürcüstan SSR münasibətləri.

Aprel işğalından sonra Gürcüstana münasibətdə Azərbaycan diplomatiyasının qarşısında duran vəzifələr aşağıdakılardan ibarət idi: Gürcüstanın bolşevikləşdirilməsi üçün daxili partlayışa səbəb ola biləcək təbliğat aparmaq və Rusiya tərəfindən yenidən işğal edilməsinə yardımçı olmaq; Gürcüstanla iqtisadi və siyasi müqavilələr imzalamaq; ərazi-

sərhəd məsələlərini nizama salmaq; Qara dənizə çıxışa sahib olmaq və s.

Bolşevik Azərbaycanının Gürcüstan Demokratik Respublikası ilə diplomatik-siyasi münasibətləri əslində əlaqələrin inkişaf etdirilməsinə deyil, Rusiyanın niyyətlərinin yerinə yetirilməsinə xidmət edirdi.

Aprel işğalından dərhal sonra Azərbaycan bolşevik hökuməti Gürcüstandakı nümayəndəliyin fəaliyyətinə və tərkibində dəyişiklik edilməsinə xüsusi diqqət yetirdi.

1920- ci ilin sentyabrı üçün Azərbaycanın Tiflisdəki nümayəndəliyində 40 nəfər əməkdaş çalışırdı. Onlardan 31-i diplomatik şöbədə, 3-ü informasiya şöbəsində, 5-i konsul şöbəsində işləyirdi. Əməkdaşların 19 nəfəri rus, erməni, gürcü və b. millətlərin nümayəndələri idi.

Azərbaycanın Gürcüstandakı nümayəndəliyinin fəaliyyəti bir sıra çətinliklərlə üzləşirdi. Bu çətinliklər həm obyektiv, həm də subyektiv amillərlə əlaqədar idi.

Birincisi, nümayəndəlik hətta Azərbaycanın siyasi həyatının mühüm məsələlərinə dair materiallan ala bilmirdi. Nümayəndəliyi materiallarla vaxtı-vaxtında təmin edə bilməməyinin səbəbini Xalq Xarici işlər komissarlığı işin çoxluğu və cari məsələlərə başının qarışması ilə izah edirdi.

İkincisi, Gürcüstanın Rusiya tərəfindən işğal edilməsindən sonra Azərbaycandakı bir sıra rəhbər şəxslər nümayəndəliyin fəaliyyətini lüzumsuz hesab edirdilər və bu məqsəddən ötrü maliyyə ayırmağı yersiz sayırdılar.

Üçüncüsü, Gürcüstan İnqilab Komitəsinin qərarı ilə Gürcüstan ərazisində Azərbaycan sovet pullarının işlədilməsi qadağan edildiyi üçün nümayəndəlik çətin vəziyyətdə qaldı.

Dördüncüsü, bolşevik Rusiyası Güney Qafqaz respublikalarının arasında diplomatik münasibətlərin qurulmasına yol verməkistəmirdi. Moskva onları vahid ittifaqda Rusiya ilə birlikdə görməyə səy edirdi.

1921- ci il dekabrın 8-də Azərbaycanın Gürcüstandakı səlahiyyətli nümayəndəliyi təcili ləğv edildi.

Azərbaycanın nümayəndəliyi Batumda da fəaliyyət göstərirdi. 1921-ci il dekabrın 23-də Batumdakı konsulluq hüquqi cəhətdən öz işini dayandırdı, dekabrın 28-də konsulluğun ləğvi başa çatdırıldı və işçilər dekabrın 31-də azad edildilər.

Gürcüstan Demokratik Respublikası hökuməti Azərbayean və Rusiya sovet hökumətlərini möveud qumluşa qarşı gizli iş aparmaqda, terrorçuluqda, qatarlan və dəmiryolçuları saxlamaqda, elementar beynəlxalq qaydalara əməl etməməkdə, Gürcüstan daxilində iqtisadi böhran yaratmaqda və s. təqsirləndirirdi.

Azərbaycan tərəfi isə GDR-i Azərbaycan ərazisindən mal-qaranı aparmaqda, əsassız ərazi iddialarında, əraziləri tutmaqda, düşmənçilikdə və s. ittiham edirdi.

İki respublika arasında münasibətlərdə müzakirə edilən məsələləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Gürcüstanın Rusiya tərəfindən işğal edilməsinə qədər Azərbaycan-Gürcüstan münasibətlərində müzakirə edilən əsas məsələlərdən biri Azərbaycan sovet orqanlarının Güreüstan ərazisində mövcud qumluşu devirmək məqsədi ilə təbliğat aparması haqqında idi. Rusiyanın Azərbaycan vasitəsilə Gürcüstanı yenidən işğal etmək üçün ölkə daxilində narazılıq yaratmağa çalışması GDR-in etirazlarına səbəb olurdu.
2. Azərbayean-Güreüstan münasibətlərində müzakirə edilən əsas mübahisəli məsələlərdən biri ərazi- sərhəd məsələləri idi.

1920-ci il iyunun 12-də Ağstafa stansiyasında Azərbayean SSR-lə Güreüstan Demokratik Respublikası arasında sülh və dostluq haqqında müqavilə bağlandı. Müqavilə 18 maddədən, ona əlavə olan saziş isə 4 maddədən ibarət idi.

Müqavilənin birinci maddəsinə görə iki respublika arasında bütün hərbi əməliyyatlar dayandırılırdı və tərəflər bir- biri ilə möhkəm sülh və dostluq münasibətlərinə daxil olurdular, hərbi əsirlər dəyişdirilirdi.

İkinci maddə ilə Azərbaycanla Gürcüstan arasında sərhəd xətti müəyyənləşdirilirdi.

Üçüncü və dördüncü maddələrə görə tərəflər arasında bir il müddətində qüvvədə olacaq bitərəf zonalar yaradılırdı və bu zonalarda heç bir tikili və hərbi hissə yerləşdirilə bilməzdi. Bu maddəyə əməl etməkdən ötrü hər tərəfdən iki nəfər olmaqla dörd nəfərlik qarışıq komissiya qurulurdu.

Beşinci maddə Qırmızı körpü, altıncı maddə isə Zaqatala qəzası ilə bağlı məsələləri tənzimləyirdi.

Yeddinci maddəyə görə Gürcüstan və Azərbaycan bir-birlərinin müstəqilliyini və suverenliyini qeyd-şərtsiz tanıyırdılar və bir-birilərinin daxili işlərinə qarışmaqdan imtina edirdilər.

Səkkizinci maddə ilə tərəflər suveren dövlətlər kimi bir-birilərinin gerb və bayraq rəmzlərini tanıyırdılar.

Doqquzuncu maddəyə görə tərəflər müqavilə bağlandıqdan dərhal som'a diplomatik və konsulluq münasibətləri qururdular. İmzalanacaq xüsusi saziş ona aid olan normaları müəyyənləşdinnəli idi.

Onuncu maddəyə görə tərəflər öz ərazilərində Azərbaycan və Gürcüstan hökumətlərinə iddia edən hər hansı qrup, təşkilat və şəxsin fəaliyyət göstərməsinə icazə vermirdilər.

On birinci maddəyə görə tərəflər həmin qrup, təşkilat və ya şəxsə yardım etməyəcəklər! barədə öz üzərlərinə öhdəlik götürürdülər.

On ikinci maddəyə görə tərəflər bir-biriləri üçün əlverişli ticarət və iqtisadi şərait yaradırdılar.

On üçüncü maddəyə görə tərəflər ticarət-tranzit müqaviləsini hazırlayıb imzalayanadək azad tranzit prinsipini həyata keçirməli idilər.

On dördüncü maddə tərəflər arasında əmlak məsələlərini tənzimləyirdi. Tərəflərin vətəndaşlarının əmlakları qarşılıqlı surətdə qaytarılmalı idi.

On beşinci maddəyə görə vətəndaşlara aid məsələlər xüsusi saziş imzalananadək qarışıq komissiya tərəfindən həll edilməli idi.

On altıncı maddəyə görə saziş imzalananadək Azərbaycan heyvandarları Gürcüstan heyvandarlarının yaylaqlarından maneəsiz və azad istifadə edə bilərdilər.

On yeddinci maddəyə görə ictimai və xidməti vəzifəsindən asılı olmayaraq bütün vətəndaşlar sərbəst şəkildə öz vətənlərinə qayıda bilərdilər.

On səkkizinci maddəyə görə müqavilə imzalandığı andan qüvvəyə minirdi və ratifikasiya olunmalı idi. Ratifikasiya sənədlərinin mübadiləsi iki həftə müddətində Tiflisdə həyata keçirilməli idi.

Dörd maddədən ibarət imzalanan saziş isə Azərbaycanın Gürcüstana neft və neft məhsulları göndərməsi, bunun əvəzində isə Gürcüstanın Azərbaycana ekvivalent miqdarda və məbləğdə manifaktura və kağız verməsi, tərəflərin bərabər qaydada ayırdığı vəsait hesabına Gürcüstanın Poylu körpüsünü bərpa etməsi və vətəndaşlara vurulan ziyanın ödənilməsi məsələlərini tənzimləyirdi.

Azərbaycan Ağstafa müqaviləsinə Gürcüstana təzyiq vasitəsi və sovetləşməyə keçiddə bir fasilə kimi baxırdı. Gürcüstana münasibətdə Azərbaycan müstəqil deyildi. Onun mövqeyi Rusiyanın Gürcüstan siyasətinin təzahürü idi.

Gürcüstanda isə bu müqaviləyə münasibət birmənalı deyildi. Ağstafa müqaviləsinin imzalanmasından sonra Rusiyanın Gürcüstana münasibətdə tutduğu mövqe aşağıdakı kimi idi. Rusiyanın gücü olmadığı üçün Gürcüstana münasibətdə hərbi yoldan daha çox diplomatik-siyasi yola meyl etdi.

Müqavilə bağlandıqdan sonra Zaqatala dairəsinə Rusiya qoşunlarının girib-girməməsi məsələsi də müzakirə obyektinə çevrildi.

Beləliklə, Rusiya da Ağstafa müqaviləsindən Gürcüstana təzyiq kimi istifadə etdi.

3. İkitərəfli münasibətlərdə müzakirə edilən məsələlərdən biri hər iki ölkədə vətəndaşların həbs olunması barədə idi.

4. İkitərəfli münasibətlərdə müzakirə edilən məsələlərdən biri ticarət-tranzit sazişinin imzalanmasına dair idi. Noyabrın 14-də Tiflisdə Azərbaycan Xalq Xarici işlər komissarı M.Hüseynov, RSFSR-in Gürcüstanın səlahiyyətli nümayəndəsi Şeynman, GDR Xarici işlər naziri vəzifəsini icra edən G.Sabahtaraşvili RSFSR, Azərbaycan və GDR arasında ticarət-tranzit sazişini imzaladılar. Saziş 20 maddədən ibarət idi. Sazişə əlavə olaraq protokol və 3 maddədən ibarət məxfi sənəd imzalandı. Sazişə görə ticarət-tranzit müqaviləsi imzalananadək Rusiya və Azərbaycan Gürcüstana müəyyən edilmiş məbləğdə neft məhsulları göndərməli idilər. Tərəflər neft kəməri və b. məsələlərlə bağlı öhdəliklər götürürdülər. Məxfi sənədin üçüncü maddəsində Gürcüstan tərəfi öz ərazisindəki Azərbaycan və Rusiya anbarlarından başqa heç bir dövlətin neft anbarlarının qorunmasına təminat vermirdi. Bu öhdəlik Gürcüstanın daxili ehtiyatlarına və Ermənistana verilən neftə aid deyildi.

5. İkitərəfli münasibətlərdə müzakirə edilən məsələlərdən biri bölgədə Türkiyənin siyasəti barəsində idi.

Müxtəlif sənədlərin imzalanmasına baxmayaraq Rusiya Gürcüstana təziylərini davam etdirirdi. Rusiya Gürcüstanın daxilində partlayışa səbəb ola biləcək vəziyyət yaratmaq istəyirdi.

Bu və digər amillər Gürcüstanın Rusiya tərəfindən ikinci dəfə işğalı üçün zəmin oldu. Xarici müdaxilə nəticəsində 1921-ci il fevralında Tiflis işğal edildi, martda isə müqavimət yatırıldı.

Azərbaycan SSR — Gürcüstan SSR münasibətləri Azərbaycan SSR — GDR münasibətlərindən əsaslı şəkildə fərqlənirdi. Rusiya tərəfindən Gürcüstanın işğalına qədər Azərbaycan SSR GDR-ə münasibətdə özünü müstəqil dövlət kimi aparmağa çalışırdı; amma əslində GDR-ə qarşı Rusiyanın əlində təzyiq vasitəsi idi; Gürcüstanı bütün vasitələrlə bolşevikləşdirməyə çalışırdı' ikitərəfli münasibətlərini təzyiqlər üzərində qurmağa səy edirdi.

Gürcüstanın işğalı nəticəsində baş verən sovetləşmədən sonra isə Azərbaycanla münasibətlərdə «müstəqillik» öz mənasını itirdi, bütün münasibətlər «müttəfiqlik» müstəvisinə keçirildi. Əslində hər iki respublikanın qarşılıqlı münasibətləri Moskva tərəfindən işğal edilən və əyalətə çevrilən respublikaların münasibəti idi.

İşğaldan dərhal sonra Azərbaycanın Gürcüstana münasibətdə atdığı addımlar deyilənləri sübut edir. Əwəla, Azərbaycan Gürcüstana ilk növbədə neft verdi.

İkincisi, Azərbaycan iki respublika arasında kömrük rejimini ləğv etdi.

Üçüncüsü, iki respublika arasında mübahisəli olan ərazi-sərhəd məsələlərinin danışıqlar yolu ilə həllinə başlandı. 1921-ci il iyulun 5-də Tiflisdə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Muxtar Hacızadə və Gürcüstan SSR İnqilab Komitəsinin sədri Budu Mdivani Güney Qafqaz respublikalarının daxili sərhədlərini müəyyənləşdirən xüsusi qarışıq komissiyanın materialları ilə tanış olaraq Azərbaycanla Gürcüstan arasında sərhəd məsələlərinə dair üç paraqrafdan ibarət saziş bağladılar.

Güney Qafqaz respublikaları arasında daxili sərhədlərin tənzimlənməsi üzrə konfransın Azərbaycanla Gürcüstan arasında sərhəd xəttinə dair qətnaməsini 1921-ci il avqustun 5-də Tiflisdə F.Maxaradze və N.Nərimanov imzaladılar. Qətnamə 5 maddədən ibarət idi. Birinci maddəyə görə Azərbaycanla Gürcüstan arasında siyasi sərhədlər dəyişməz qalırdı. Çünki sonrakı maddələrdə bu, müəyyənləşdirilməmişdi. İkinci maddəyə görə Qazax qəzası kəndliləri Qarayazı düzündən müstəsna mülkləri kimi istifadə edə bilərdilər. Bu düzə faktiki olaraq sahib olan və ondan istifadə edən Qazax qəzası kəndlilərini bütün mənalarda Azərbaycan SSR Konstitusiyasına uyğun olaraq Qazax qəza İcraiyyə Komitəsi idarə edirdi. Bu maddədə sərhədlər dəqiqləşdirildi. Üçüncü maddəyə görə Eldar düzü məsələsi qarışıq komissiyaya tapşırıldı. Dördüncü maddəyə görə Gürcüstan SSR Zaqatala dairəsinə olan hər hansı iddialarından əl çəkdi və bu barədə Gürcüstan İnqilab Komitəsi müvafiq bəyanat verməli idi. Beşinci maddəyə görə hər iki tərəfin kəndliləri

müvafiq bəyanat verməli idi. Beşinci maddəyə görə hər iki tərəfin kəndliləri indiyədək istifadə etdikləri ərazilərdən bundan sonra da istifadə etməli idilər.

Bu dövr ərzində Gürcüstanla imzalanan müqavilələri Azərbaycan MİK plenumu 1921-ci il oktyabrın 5-də müzakirəsiz qəbul etdi.

Noyabrın 15-də Azərbaycanla Gürcüstan arasında sərhədlərin qurulmasına dair yeni saziş imzalandı.

Beləliklə, Azərbaycanda aprel təcavüzü nəticəsində milli hökumətin devrilməsindən sonra Azərbaycan-Gürcüstan münasibətləri kəskin və ziddiyyətli idi; sovet Rusiyası Azərbaycandan Gürcüstana qarşı təzyiq vasitəsi kimi istifadə edirdi; Azərbaycan bolşevikləri də Gürcüstanın sovetləşdiril- məsinə çalışırdılar; aprel işğalından sonra Azərbaycan hökuməti Gürcüstandakı nümayəndəliyini və konsulluğunu müsavatçılardan təmizlədi, onların yerinə bolşevik partiyasının müxtəlif millətlərdən olan nümayəndələrini xüsusi tapşırıqları yerinə yetirmək üçün göndərdi; Gürcüstanın Azərbaycana iqtisadi cəhətdən xeyli möhtac olduğuna görə Bakı bolşevikləri ikitərəfli münasibətlərdə daha çox təzyiq metodlarından istifadə etdilər və Gürcüstanın Rusiya tərəfindən ikinci dəfə işğal edilməsinə yardım etdilər; işğaldan sonra ziddiyyətlər olmasına baxmayaraq Azərbaycan və Gürcüstan öz problemlərini danışıqlar yolu ilə həll etdilər; onların arasında müstəqil dövlətçiliyin atributları ləğv edildi.

**Beynəlxalq konfranslar və Azərbaycan**

1920-ci il aprel işğalından som'a beynəlxalq münasibətlərdə keçirilən konfranslarda bu və ya başqa formada Azərbaycanla bağlı məsələlər müzakirə edilmiş və Azərbaycan nümayəndə heyətləri iştirak etmiş və ya iştirak etməyə cəhd göstərmişdir. Azərbaycanı bir tərəfdən, 1919-cu il Paris sülh konfransında iştirak etmək üçün buraya gələn, lakin aprel işğalından som'a qalmağa məcbur olan Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyəti təmsil etməyə çalışmışdır. Digər tərəfdən isə, bolşevik Azərbaycanı

Moskvanın məqsədlərinə uyğun olaraq bu və ya digər səviyyədə beynəlxalq konfranslarda ümumi-vahid nümayəndə heyətinin tərkibində iştirak etməyə buraxılmışdır. Birinci dünya müharibəsindən som'a Almaniyanın tərksilah və təzminat məsələlərinə həsr edilmiş, 1920-ci il iyulun 6-16-da keçirilən Spa (Belçika) iştirak etmək üçün Parisdən gələn Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyəti konfransa iki sənəd təqdim etdi: Azərbaycanın bolşeviklər tərəfindən işğal edilməsi və qarşıdakı ildə keçirilməsi nəzərdə tutulan London konfransında Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin iştirakına icazə verilməsi haqqında. Birinci sənəddə aprel işğalının səbəbləri və nəticələri göstərilirdi və iştirakçı dövlətlərin onu pisləmələri təklif edilirdi. Lakin müharibədən sonra öz daxili və beynəlxalq problemlərinə başı qarışmış Avropa dövlətləri ona xüsusi diqqət yetirmədilər. İkinci məsələ də soyuq qarşılandı.

Azərbaycanla bağlı məsələ 1921-ci il fevralın 21-dən martın 14-dək keçirilən London konfransının gedişində də müzakirə edildi. London konfransında iştirak edən İngiltərənin baş naziri Lloyd Corc inqilabi Türkiyə hökumətinin nümayəndə heyətinin başçısı Bəkir Sami bəylə görüşünün sonunda türklərə birbaşa təklif etdi: «Türkiyə Bakı neft mənbələri ilə birlikdə bütün Güney Qafqazı öz protektoratlığına götürsün». Əlbəttə, Lloyd Corcun bu təklifi əbəs deyildi. Onun bir sıra tarixi-siyasi, iqtisadi və strateji səbəbləri var idi.

Əvvəla, İngiltərə bolşevizmin yayılmasından qorxurdu və ona Şərqdən vurulub çıxarılması kimi baxırdı. Çünki bolşeviklər Şərqi ingilislərdən azad etməyi təbliğ edirdilər. İngilis diplomatiyası yeni şəraitdə bolşevik Rusiyasından daha çox Türkiyə ilə münasibətləri qurmağı və əməkdaşlığı səmərəli sayırdı.

İkincisi, bu təklif Türkiyə-Rusiya yaxınlaşmasına yol verməmək, Türkiyə-Fransa yaxınlaşmasını sarsıtmaq və türkləri öz tərəfinə çəkmək istəkləri ilə bağlı idi. Lakin ingilislərin bu təkliflərini və istəklərini həyata keçirmək mümkün olmadı.

Üçüncüsü, türklərə Qafqazı götürməyi təklif edən Lloyd Corc sovet ticarət komissarı L.Krasinlə görüşündə «ki'al hökumətinin Qafqaz işləri ilə daha maraqlanmadığını və qarışmadığını» bildirməsi ingilis diplomatiyasının rus-türk münasibətlərinin soyuqlaşdıqmaq cəhdlərini sübut edən fakt kimi qəbul edə bilər.

Bolşevik hökuməti Genuya konfransından aşağıdakı iqtisadi məsələlərin həllini tələb edirdi; Rusiyanın borcları məsələsi həll edilsin; onun daxili işlərinə xarici dövlətlərin qarışması nəticəsində dağıdılmış daxili tikililər bərpa edilsin; Rusiyanın donanması özünə qaytarılsın.

Rusiya ondan tələb olunan çar hökumətinin 18 milyard rubl borcunu (bunun 16 milyard rublu hərbi borclar idi) nəinki qəbul etmək istəmirdi, əksinə birinci dünya müharibəsi, vətəndaş müharibəsi və xarici hərbi müdaxilə nəticəsində dəymiş təxminən 32 milyard qızıl rbldan çox ziyanın müvafiq dövlətlər tərəfindən ödənilməsinə çalışırdı. Bolşevik diplomatiyasının siyasi məqsədləri də var idi. O, eyni zamanda yeni hökuməti tanıtdırmaq üçün konfransda iştirak etmək istəyirdi. Lakin sovet Rusiyası işin öhdəsindən təkbaşına gələ bilməzdi. Ona görə də Rusiya konfransda iştirak etmək və istəklərinə çatmaq üçün digər sovet respublikalarını birgə fəaliyyət göstərməyə məcbur etdi. 1922-ci il yanvarın 17-də RSFSR MİK sədri M.Kalinin və XXİK Çiçerin Bakı, Xarkov, Minsk, Tiflis, İrəvan, Buxara, Xivə və Çita şəhərlərinə rəhbər sovet hakimiyyət orqanlarına teleqram göndərərək mövcud şəraitdə Avropa konfransında «kapitalist hökumətləri ilə diplomatik mübarizə üçün» vahid cəbhə yaratmağı zəruri hesab etdi. Bütün respublikaların tam diplomatik birliyə təcili nail olmaları tələb edildi. Yanvarın 27-də Genuya konfransına gedəcək nümayəndə heyətinin tərkibini müəyyənləşdirmək üçün URMİK-in iclasının təcili çağırılmasını və onda bütün müttəfiq respublikaların MİK sədrlərinin işurakmı zəruri hesab etdi. Bütün respublikalar üçün ümumi mühüm məsələlərin həlli vacib sayıldı. Moskva Avropa konfransında iştirak edəcək nümayəndə heyətinin hər bir üzvünün müttəfiq respublikalardan

MİK sədrlərinin imzaladıqları kollektiv mandat almasını təklif etdi. Həmin gün URMİK-in fövqəladə sessiyasında nümayəndə heyətinin tərkibi müəyyənləşdirildi. Onun tərkibinə K.V.Çiçerin (V.İ.Leninin əvəzində), L.B.Krasin, M.M.Litvinov, N.N.Nərimanov, V.V.Vorovski, Y.E.Rudzutak və b. daxil oldu.

1922-ci il fevralın 11-də Azərbaycan MİK sədri, XKS sədrinin müavini və Xalq Xarici işlər komissarının imzası ilə N.Nərimanov Genuya konfransında «sovet respublikalarının vahid və ümumi səlahiyyətli nümayəndə heyətinin tərkibində» Azərbaycanın nümayəndəsi təyin edildi. Verilən mandatda ona Azərbaycanın mənafeyini qorumaq, bəyanatlar vermək, qərarlar qəbul etmək, aktlar və müqavilələr imzalamaq səlahiyyəti verildi.

Lakin konfransa yola düşənədək Moskvada bir sıra məsələləri hazırlamaq və sənədləri imzalamaq lazım idi. Ona görə də Azərbaycan MİK sədrinin müavini S.A.Ağamalıoğlu 1922-ci il fevralın 22-də Azərbaycanın RSFSR hökuməti yanındakı səlahiyyətli nümayəndəsi Əliheydər Şirvaniyə teleqram vuraraq digər müttəfiq respublikalarla bərabər RSFSR- in vahid nümayəndə heyəti tərkibində protokolların imzalanması səlahiyyətinin Azərbaycan MİK tərəfindən ona verildiyini bildirdi. Fevralın 22-də Kremldə Azərbaycan hökuməti adından Ə.Şii'vani, Ermənistan hökuməti adından səlahiyyətli nümayəndə S.Ter-Qabrielyan, Bclonısiya hökuməti adındaiı XKS sədri və Xalq Xarici işlər komissarı A.Çervyakov, Buxara XSR adından səlahiyyətli nümayəndə Ataxoca Xocayev, Gürcüstan hökuməti adından səlahiyyətli nümayəndə M.Sxakaya, Uzaq Şərq Respublikası . hökumətin sədri N.Matvcyev, Ukrayna hökuməti adından səlahiyyətli nümayəndə M.Poloz, Xarəzm Sovet Respublikası adından fövqəladə ticarət nümayəndəliyinin başçısı və XKS sədri A.Xocaycv protokol imzaladılar. Respublikalar bu protokolla Genuya konfransında bütün səlahiyyətlərini və onların mənafelərini müdafiə etməyi RSFSR-ə verdilər. Həmin gün ÜRMİK sədri M.Kalinin bu barədə bəyanat verdi. Bəyanat konfransda iştirak edəcək dövlətlərə göndərildi.

Vahid nümayəndə heyətinin təşkil edilməsi və onların səlahiyyətlərinin RSFSR-ə verilməsi sovet respublikalannda müstəqil xarici siyasətin olmadığını, bolşevik hökumətinin niyyətlərini həyata keçirmək üçün hərəkətlərinin təməlini yaratdığını göstərirdi.

Martın 25-də N.Nərimanov Moskvaya gəldi. Lakin Nərimanovun Genuya konfransına olan ümidləri az idi. Martın 27-də Stalinə yazırdı: «Mən şəxsən düşünürəm ki, Genuya konfransı bizə heç nə verməyəcəkdir, ona görə də əgər lazım bilərsəniz, məni özünüzün Tatarıstan, Başqırdıstan və Qırğızıstan səfərinizə götürün».

Genuyada beynəlxalq maliyyə və iqtisadi konfransı Antanta ölkələri Ali Şurasının Kann konfransının qərarlarına uyğun olaraq çağırıldı. I922-ci il aprelin 10-dan mayın 19-dək keçirilən Genuya konfransında 29, İngiltərənin dominionları ilə birlikdə cəmi 34 dövlət iştirak edirdi. Konfrans Avropada sülhün bərqərar edilməsi və iqtisadi əməkdaşlıqla bağlı məsələləri, o cümlədən Rusiyanın borcları məsələsini müzakirə etdi. Konfransda dörd komissiya yaradıldı: siyasi, maliyyə, iqtisadi və nəqliyyat. Konfransda iştirak edən bolşevik nümayəndə heyətinin fəaliyyətinə dair göstərişləri şəxsən V.İ.Lenin vermişdi. Bu göstərişlər daha çox iqtisadi məsələlərin həllinə yönəldilməmişdi, siyasi və təbliğat xarakteri daşıyırdı.

Konfransda sovet nümayəndə heyətinin iddialı mövqeyi öz əksini bəyanatlarda, G.Çiçerinin çıxışlarında, məruzələrin layihələrinə qeydlərdə, məktublarda, bəyannamədə və s. tapdı.

Siyasi komissiyanın yarımkomissiyasının beşinci iclasında Çiçerin Azərbaycan və digər sovet respublikaları adından sənəd imzalayaraq sədrə tədqim etdi: «... Azərbaycan... Rusiya ilə müttəfiq respublikalardır». Lloyd Corc bu respublikaları Rusiya tərəfindən işğal edilmiş «sovet», Çiçerin isə onun əksinə olaraq «müttəfiq» adlandırırdı. Çiçcrinə görə «bu respublikaların hamısı heç də «sovet» deyil, yalnız Rusiya ilə müttəfiq idilər».

Müxtəlif maliyyə və sənaye kompaniyaları konfransın əlverişli qərarlar qəbul etməsində maraqlı idilər. Bakı neftini

ələ keçirmək və istifadə etmək üçün planlar quran neft şirkətləri xüsusilə fəallıq göstərirdilər. Genuya konfransı ilə paralel olaraq keçirilən neft krallarının qurultayı Bakı nefti uğrunda əsl mübarizəni və döyüşü xatırladırdı. Rəqabət aparan qruplar artıq keçmiş Bakı neft sənayesi səhmlərini almışdılar. İngiltərənin «Royal Detç» və ABŞ-ın «Standart Oyl» şirkətləri Bakı neft konsessiyalarını almağa ümid edirdilər. «Nişanlısı çox olan Bakı neft gözəlinə» (ifadə S.Oreonikidzenindir) dair ingilis planlarına qarşı ABŞ-Fransa-Belçika neft ittifaqı yaradıldı. Şirkətlər hətta bir-birinə böhtan atmaqdan çəkinmirdilər. «Royal Detç» öz rəqibinə zərbə vurmaq üçün mətbuatda belə bir xəbər yaydı: «Guya «Standart Oyl» Bakı neftində inhisarçı olmuş Nobel qardaşları eəmiyyətində nəzarət qazanmışdır». «Standart Oyl» haqqındakı bu fikri Emmanuel Nobel bəyanat verərək təkzib etdi.

Neft kralları diplomatlara təsir etməyə çalışırdılar. Diplomatlar da öz növbəsində konsessiyaların keçmiş sahiblərinə yenidən verilməsini tələb edirdilər. Konfransın gedişində bolşevik nümayəndə heyəti Qərb dövlətlərinin birliyini pozmaq və aralarında rəqabəti güeləndirmək üçün Bakı neftinə dair tək-tək müqavilələr bağlamağı təklif' edirdi. N.Nərimanov belə hesab edirdi; «Neft mədənlərinin qismən konsessiyaya verilməsi Azərbayean üçün xeyirli olardı və sənayeni inkişaf etdirmək üçün də geniş imkanlar açardı».

Qərb dövlətləri isə Bakı neft mədənləri yalnız öz keçmiş sahiblərinə qaytarıldıqdan sonra konsessiya müqaviləsi bağlanılmasının mümkünlüyünü bildirirdilər. Bu təklifi isə bolşevik nümayəndə heyəti qəbul etmirdi. Beləliklə, konsessiyalar məsələsi həll edilməyərək açıq qaldı.

Mayın 19-da konfrans rəsmi şəkildə bağlandı. Moskvaya qayıdan nümayəndə heyəti adından N.Nərimanov, Y.Rudzutak və A.İoffe hesabat verdilər (G.Çiçerin müalicə olunmaq üçün xaricdə qaldı). RK(b)P MK plenumu və URMİK-in üçüncü sessiyası konfransda iştirak haqqında hesabatı dinləyib bəyəndi.

İyunun 1-də isə Bakı Soveti yarımçıq qalmış Genuya konfransının gedişi və nəticələri haqqında N.Nərimanovun hesabatını bəyəndi. Sonralar o, «Genuya xatirələri»ni yazdı.

Genuya konfransının yarımçıq qalmış işini 1922-ci il iyunun 15-dən iyulun 20-dək Haaqada (Hollandiya) keçirilən konfrans davam etdirdi. Konfransda üç yarımkomissiya yaradıldı: xüsusi mülkiyyət, borclar və kredit.

Keçmişdə Bakı və Qroznıda müəssisələri olan neft kompaniyalarının konfransa xüsusi təsiri var idi. Onlar Genuyadakından çox idi. Haaqaya «Royal Detç» kompaniyasının sədri Hemd Deterdinq, «Standart Oyl»un nümayəndələri, Fransa-Belçika sindikatının vitse-prezidenti və katibi gəlmişdilər. Fransa-Belçika sindikatına aprel işğalından sonra milliləşdirilən Bakı neft mədənlərinin səhmlərini alan kompaniya və qruplar daxil idi. Qruplar birinci dünya müharibəsinədək və 1918-ci ildən sonra neft yataqlarının birgə istismarına dair qazanılmış bərpa etmək məqsədi daşıyırdı.

Konfransın birinci on günü sakit keçdi. Lakin iyunun 26- da əsl döyüş başladı. Bu, sovet diplomatı Litvinovun Haaqaya gəlməsi ilə bağlı idi. Litvinov Rusiyanın pula şiddətli ehtiyacı olduğunu irəli sürərək hər şeydən əvvəl, kredit kimi müəyyən məbləğ tələb edərək bildirdi ki, bu istək yerinə yetirilmədikcə Rusiya nəinki kapitalistlərə heç bir imtiyaz verməyəcəkdir, hətta keçmiş sahibkarlara hər hansı təzminat və ümid verə bilməyəcəkdir, müzakirəyə qoşulmayacaqdır. Litvinovun bu bəyanatı dünya ictimai rəyində sovetlərə doğru müsbət meyllər yaradırdı. Bu dövrdə Rusiyada böyük bir aclıq hökm sürürdü. Rusiya diplomatiyası kredit almaq şansını əldən vermək istəmirdi.

İyulun 7-də Litvinov ingilis nümayəndəsinin sədrliyi ilə keçirilən xüsusi mülkiyyət yarımkomissiyasında sovet hökumətinin hansı şərtlər çərçivəsində xüsusi kapitala imtiyaz verəcəyi haqqında bəyanat verdi və müzakirə üçün bir cədvəl təqdim etdi. Bu cədvəl Azərbaycanda, Quzey Qafqazda və Türküstanda işlənməkdə və işlənməməkdə olan əraziləri əhatə edirdi. Bəyanatda sovet hökumətinin keçmiş sahibkarlara imtiyaz verib-verməyəcəyi haqqında heç bir söz deyilmirdi. Bu

işdə sovet hökuməti özünü sərbəst elan edirdi. Hətta o, Azərbayeanda və başqa yerlərdə heç bir zaman neft işləri ilə əlaqədar olmayan şəxslərin belə neft imtiyazları ala bilməsi imkanlarını elan edirdi. Müraciət edən şəxsin təklifləri müzakirə ediləcəkdi və lazım bilindikdə cədvəldə göstərilən ərazidən bir parça veriləcəkdi. Litvinovun bəyanatına görə əgər iki tələb eyni zamanda və eyni şərtlərlə edilərdisə, onda təcrübə və xüsusi haqq nəzərə alınmalı idi və Moskvada ayrı-ayrılıqda müzakirə edilməli idi.

Bolşevik diplomatiyasının belə təklifi ilə heç bir nümayəndə heyəti razılaşmadı. Təkcə fransızlar və belçikalılar deyil, hətta ingilislər də bu təklifə qarşı çıxdılar. Doğrudan da sovet hökuməti müsbət olaraq heç bir şey təklif etmirdi. Belə təkliflə rus diplomatiyası neft işində qarışıqlıq yaradırdı. Şübhəsiz, bu, bolşeviklər tərəfindən manevr idi. Onlar bununla ingilislərlə amerikanlıların münasibətini pozmağa çalışırdılar.

İyulun 12-də konfransda gözlənilmədən və daha doğrusu, ümid edilməyən bir fikir söylənildi. İngilis nümayəndə heyətinin başçısı Filipp Lloyd Qrim sədr olduğu yarımkomis- siyada bəyanat verdi. Bəyanatda deyilirdi: «Burası aşkardır ki, müsadirə edilmiş əmlakla qarşılıq olaraq sovet hökumətinin hal- hazırda edə biləcəyi yeganə həqiqi bir təminat varsa, o da hər dəfə mümkün olduğu halda mövzu mülk iddiasından ibarətdir. Bizim buraya gəlməkdə məqsədimiz isə geri qaytarılacaq şeylərin nədən ibarət olduğunu anlamaqdan ibarətdir». Bundan bir ay əvvəl ingilislər xüsusi mülkiyyətin geri qaytarılması haqqında heç bir söz eşitmək istəmirdilər və icarə prinsipini müdafiə edirdilər.

Konfi-ans günlərində «Röyter» agentliyi müdirlərindən biri Amet Londondakı Azərbaycan siyasətçilərindən bir müsahibə almışdı. Mühacirətdə olan Azərbaycan siyasi xadimi «heç bir zaman gələcək Azərbaycan milli hökumətinin Azərbaycanın milli sərvətinin bu surətlə qarət edilməsinə razı olmayacağını» qətiyyətlə bildirmişdi. Digər tərəfdən isə, Parisdə yaşamağa məcbur olan Azərbaycan nümayəndə heyəti

eyni məzmunlu memorandumu Haaqa konfransına təqdim etmişdi.

Haaqada böyük dövlətlər tərəfindən bolşevik nümayəndə heyətinə kollektiv müqavilə bağlamaq təklif olundu. Lakin rus nümayəndə heyəti separat sazişə və sövdələşmələrə çalışırdı. Bolşevik nümayəndə heyəti bununla Qərb dövlətləri arasında ixtilafların yaradılmasına və bolşevik hökumətinin tanınmasına nail olmaq istəyirdi. Litvinov güzəştlərə getməyə hazır olduğunu bildirdi və hökumətinə teleqram vurub məsləhətləşmək üçün üç günlük möhlət istədi. Konfransı təşkil edən dövlətlər ona etiraz etmədilər. Lakin Moskvanın cavabını gözləməyən ikinci yarımkomissiya konfransın sona çatdığını elan etdi.

İyulun 20-də Belçika nümayəndəsi Kattye Haaqa konfransına müvafiq qətnaməni təqdim etdi. Qətnamədə oktyabr çevrilişindən sonra sahiblərinin razılığı olmadan əmlaklarının bolşevik hakimiyyət orqanları tərəfindən müsadirə edilməsi pislənilirdi və iştirakçı dövlətlərin vətəndaşları tərəfindən ayrı-ayrılıqda yenidən alınmasının müdafiə edilməməsi təklif edilirdi.

Konfranslardan sonra Avropa dövlətləri maliyyə-iqtisadi problemləri həll etmək üçün yollar axtarışını davam etdirdilər. Bolşevik hökuməti isə konfranslar başa çatan kimi onların gedişindən və nəticələrindən təbliğat kimi istifadə etdi.

Beləliklə, konfranslarda bolşevik Rusiyası Azərbaycanın xarici siyasət fəalİ5^ətini öz əlinə aldı və ondan beynəlxalq aləmdə düşmənlərinə qarşı istifadə etdi. Moskva konfranslardakı müzakirələrdən və Qərb dövlətlərinin mövqeyindən vahid dövlət yaratmaq işini sürətləndirmək qərarına gəldi. Azərbaycanın və digər respublikaların iqtisadi, siyasi, hərbi və b. cəhətdən birləşdirilməsi geniş təbliğ edildi.

# VII BOLUM

## 1924-1929-cu illərdə beynəlxalq münasibətlər

AYrD.pada_siyasi 20-ci illərin ikinci yarısında Avropada va/iyyət. Daııes beynəlxalq münasibətlərdə Fransa ilə planı Almaniya arasında kəskin diplomatik-siyasi

vəziyyət aparıcı rol oynayırdı. Rur uğrunda səkkiz aylıq gərgin mübarizə Almaniyanın təslim olması ilə nəticələndi. İlk baxışda Fransa öz məqsədlərinə çatmış kimi görünürdü. Lakin fransızların inadkarlığı ingilislərin mənafelərinə cavab vermirdi. İngilis-fransız narazılığı isə Almaniyanın xeyrinə idi. 1923-cü il oktyabrın 1-də İngiltərənin baş naziri Stenli Bolduin və xariei işlər naziri lord Kerzon Fransanın mövqeyini kəskin şəkildə tənqid etdilər. Fransa Avropada hegemonluğuna gedən yolda maneə olan İngiltərə- ABŞ planlarını dağıtmağa səy edərək bundan ötrü müxtəlif metodlara əl atırdı. Belə metodlardan biri Reyndə və Bavariyada seperatçı hərəkatı müdafiə etmək idi. Əvvəllər Fransa ilə sıx əlaqələri olan Reyn və Vestfalın bir sıra şirkətləri yeni şəraitə uyğunlaşdılar. 1923-cü il oktyabrın 21-də separatçıların yaratdıqları «Müstəqil Reyn Respublikası» tezliklə Fransa tərəfindən tanındı. Separatçı hərəkat Bavariyada da gücləndi. Bavariya faktiki olaraq Almaniyadan ayrıldı. Belə vəziyyət İngiltərəni kəskin şəkildə narahat etməyə başladı.

Payızda Almaniyada gərgin daxili vəziyyət yarandı. Rur münaqişəsi alman xalqına infilyasiya və müflisləşmə gətirdi. Ölkədə gizli faşist təşkilatlarının fəaliyyəti gücləndi. 1923-cü il noyabrın 8-9-da Bavariyada (Münhen) qiyam baş verdi. Lakin alman sənayeçiləri qiyamçıları müdafiə etmədilər və qiyam iflasa uğradı.

Bu dövrdə fransız və Rur sənayeçiləri birgə konsern yaratmaq barədə danışıqlar apardılar. Danışıqlar 1923-eü il noyabrın 23-də müqavilə imzalanması ilə başa çatdı. Bu müqavilə ilk baxışdan Fransanın qələbəsi idi. Lakin Fransanın

iqtisadi vəziyyəti nəinki düzəlmədi, əksinə getdikcə pisləşdi. Almaniya təzminatı ödəməkdən imtina etdi. Belə şəraitdə Fransa İngiltərəni və ABŞ-ı təzminata dair beynəlxalq ekspertlər komissiyasını çağırmağa razı sala bildi. 1923-cü il noyabrın 13-də ekspertlər komitəsini çağırmaq haqqında təzminat komissiyasının rəsmi məlumatı yayıldı. Komissiya ekspertlərin iki komitəsini yaratmaq barədə qərar qəbul etdi. Birinci komitə alman markasının sabitləşdirilməsi və büdcənin sağlamlaşdırılması ilə məşğul olmalı, ikinci komitə isə Almaniyadan xaricə çıxarılmış kapitalı geri qaytarmaq üçün yollar axtarmalı idi. Beynəlxalq ekspertlər komitəsinin iclası

1924- cü il yanvarın 14-də Londonda açıldı. Birinci ekspertlər komitəsinin sədri vəzifəsinə ABŞ nümayəndəsi, keçmiş vəkil, general və Morqan bank qrupu ilə bağlı olan Çariz Daues seçildi. Komitənin başlıca vəzifəsi təzminatla bağlı məsələyə dair tövsiyyələr vermək idi. Komitənin iclasında ekspertlər belə bir qərara gəldilər ki, Almaniyanın təzminat ödəmək qabiliyyətinin bərpası yalnız onun işğal edilmiş və işğal edilməmiş ərazilərinin yenidən iqtisadi və maliyyə cəhətdən birləşdirməsi yolu ilə mümkündür və Almaniyaya beynəlxalq istiqrazlar verilməsi lazımdır. 1924-cü il aprelin 9-da təzminat komissiyası işinin başa çatdığını bildirərək və ekspertlərin məruzəsinin mətnini təqdim etdi. Ekspertlərin məruzəsi Daues planı adlandırıldı. Daues planı üç hissədən ibarət idi. Birinci hissə ekspertlərin ümumi nəticələri və komitənin mövqeyindən bəhs edirdi. Ekspertlərin əsas məqsədi Almaniyaya qarşı cəza tədbirlərini tətbiq etmək deyil, borc vermək üçün yollar axtarmaq idi. İkinci hissə Almaniyanın ümumi iqtisadi və maliyyə vəziyyətinə həsr olunmuşdu. Üçüncü hissə birinci iki hissəyə dair əlavələrdən ibarət idi. Daues planı Almaniya təsərrüfatını bərpa etməklə təzminatın alınmasını irəli sürürdü. Almaniya büdcəsini və markasını sabitləşdirməkdən ötrü ona 800 mln. qızıl marka beynəlxalq istiqraz verilməsi nəzərdə tutulurdu. Almaniyanın bütün təsərrüfatı nəzarətə götürülürdü. Almaniya birinci il 1 mlrd, marka, sonrakı illərdə isə artaraq 1928-1929-cu illərədək ildə 2,5 mlrd, marka təzminat ödəməli

idi. Təzminatı ödəmək üçün mənbələr, ağır sənaye və dəmir yollarından gələn gəlir, dövlət büdcəsi, vergilər və başqaları nəzərdə tutulmuşdu.

Daues planı bir tərəfdən Versal müqaviləsi çərçivəsində iqtisadi cəhətdən güclü və təzminatı ödəmək qabiliyyətində olan Almaniyanın bərpa etdirilməsini, digər tərəfdən isə onun iqtisadiyyatını nəzarətə götürməklə təhlükəli rəqibə çevrilməsinin qarşısını almağı nəzərdə tuturdu. Bu plan Avropada sabitləşməyə yönəlmişdi.

Bu plan Avropada hegemonluğa can atan Fransa üzərində ABŞ və İngiltərənin qələbəsi idi. Daues planı Avropa işlərində bu dövlətləri önə çıxartdı. Bundan sonra Fransada hökumətin siyasətini tənqid edən çıxışlar artdı. 1924-cü ilin may seçkilərində Raymond Puankare məğlubiyyətə uğradı. Hakimiyyətə Eduard Errio başda olmaqla sol blok hökuməti gəldi. Prezident Milyeranın yerinə bu vəzifəyə Qaston Dumerq seçildi. Bundan sonra da İngiltərə ilə Fransa arasında ziddiyyətlərdə kərginlik hökm sürürdü. Belə şəraitdə İngiltərə Fransaya münasibətdə nisbətən sakitləşdirici mövqe tutmağa başladı. Belə mövqe E.Errio hökumətinə Fransanın milli nüfuzunu qaldırmağa, ingilis-amerikan blokunun təzyiqlərinə tab gətirməyə kömək etdi.

Təzminat məsələsinə həsr edilmiş London konfransı 1924- cü il iyulun 16-dan avqustun 16-dək keçirildi. Konfransda əsas məqsəd Almaniyanın iqtisadi və maliyyə birliyini bərpa etmək və ona iri istiqrazlar verən kreditorlar üçün təminat yaratmaq idi. Konfransda sədrliyi İngiltərənin baş naziri R.Makdonald edirdi. ABŞ konfransda müşahidəçi deyil, rəsmi heyətlə iştirak edirdi. Konfransın işi komissiyalarda keçirilirdi. Birinci komissiyada Almaniyanın götürdüyü öhdəlikləri pozmaq imkanları olduqda tətbiq ediləcək sanksiyalar mübahisələrə səbəb oldu. Almaniyaya qarşı sanksiyalar yalnız ABŞ və İngiltərənin razılığı ilə tətbiq edilə bilərdi. Konfransın gündəliyində Rur hövzəsindən hərbi hissələrin çıxarılması məsələsi də həll olundu. Qəbul edilən qərara görə Fransa- Belçika orduları Ruru ən geci bir il müddətində boşaltmalı

idilər. 1924-cü il avqustun 2-də London konfransının əsas komissiyaları öz işini başa çatdırdı. Yeddilər şurasında məsələlər müzakirə olunaraq qəbul edildk 1924-cü il avqustun 16-da ekspertlərin məruzəsi təsdiq edildi. London konfransının qərarları beynəlxalq münasibətlərin inkişafında yeni mərhələnin əsasını qoydu. Konfransın yekunları başlıca olaraq aşağıdakılardan ibarət idi:

Fransa tərəfindən təzminat məsələsinin müstəqil həlli metodu rədd edildi və bütün mübahisəli məsələlərin ABŞ nümayəndəsi başda olmaqla Antanta nümayəndələrinin arbitraj komissiyasında həlli qəbul edildi; Rurun işğalı rədd edildi, bu ərazinin təsərrüfat cəhətdən təcili, hərbi cəhətdən isə bir il müddətində boşaldılması zəruri sayıldı; hərbi müdaxilə rədd edildi; Almaniya üzərində maliyyə və təsərrüfat nəzarəti qəbul olundu; Fransanm daş kömür və digər sənaye məhsulları almaq hüququ qəbul edildi; Almaniya isə onun azaldılması haqqında arbitraj komissiyasına müraciət edə bilərdi; Almaniyaya İngiltərə və Amerikänın ŞOÖ mln. marka istiqrazı verildi. London konfransının qərarlan və Daues planının qəbul edilməsi beynəbcalq aləmdə qüvvələr nisbətini dəyişdirdi. Avropa işlərində ön plana İngiltərə -ABŞ bloku çıxdı.

Lokarno sazişi Rurun işğalından sonra Avropada təhlükəsizlik üçün təminat yaradılması məsələsi böyük dövlətlər arasında müzakirə obyektinə çevrildi. Fransa Avropadakı hüquqlarına dair ABŞ və Böyük Britaniyadan təminat almağa səy edirdi. Lakin Fransa ilə Britaniya arasında təminat paktı məsələsində fikir aynlığı hökm sümrdü. Bu dövrdə Fransanın beynəlxalq vəziyyəti kifayət qədər əlverişli deyildi. Mərakeşin şimalında rif tayfalarına qarşı İspaniyanın apardığı müharibə və Suriyada fransızların hərbi əməliyyatları onun beynəlxalq vəziyyətini kəskinləşdirdi. Bundan istifadə edən İngiltərə İraq üzvjrindəki rhandatmı Millətlər Cəmiyyətinin xətti ilə 1924-cü il sentyabnn 27-də uzatdı. 1925-ci ildə Millətlər Cəmiyyəti Mosul rayonunu İraqa verdi. Lakin Türkiyə buna etirazını bildirdi.

Təminat paktı məsələsində İtaliya İngiltərənin təklifini qəbul etdi. Təklifə görə Reyn paktında İtaliya ikinci təminatçı olmalı idi. Beləliklə, Fransa diplomatiyası uğursuzluğunu qəbul etməli oldu.

Təminat məsələsinə həsr edilmiş Lokarno (İsveçrə) konfransı 1925-ci il oktyabrın 5-16-da keçirildi. Konfransın sədri Ostin Çemberlen idi. Konfransda Reyn təminat paktı müzakirə edildi.

Lokarno konfransı aşağıdakı sənədləri qəbul etdi; konfransın yekun aktı; Almaniya, Belçika, Fransa, Böyük Britaniya və İtaliya arasında təminat müqaviləsi və ya Reyn paktı; Almaniya ilə Belçika arasında arbitraj sazişi; Almaniya ilə Fransa arasında arbitraj sazişi; Almaniya ilə Polşa arasında arbitraj sazişi; Almaniya ilə Çexoslovakiya arasında arbitraj müqaviləsi; Fransa ilə Polşa arasında saziş; Fransa ilə Çexoslavakiya arasında saziş. Sənədi imzalayan dövlətlər Versal sülhü ilə müəyyən edilmiş ərazilərdə status-kvoya hörmət edəcəklərini bildirərək, bir-birinə qarşı müharibədən imtina edirdilər və sərhədlərinin toxunulmazlığına dair öhdəlik götürürdülər. Lokarno sazişi Almaniya ilə bərabərhüquqlu əsasda imzalandı və Almaniya Millətlər Cəmiyyətində daimi yer aldı. Lokarno sazişləri 1925-ci il dekabrın 1-də Londonda son olaraq imzalandı və iştirakçı dövlətlərin parlamentləri tərəfindən təsdiq olundu.

Lokarnodan sonra böyük dövlətlər, xüsusən İngiltərə ilə Fransa arasındakı ziddiyyətlər xeyli kəskinləşdi. Fransanın Avropada hegemonluğunun qarşısını almaqdan ötrü İngiltərə Almaniya və İtaliya ilə əməkdaşlığa üstünlük verdi. Belə şəraitdə İtaliya da İngiltərə ilə əlaqələr qurulmasına xüsusi diqqət yetirdi; 1925-ci ilin dekabrında Rapalloda Çemberlenlə Mussolinin görüşündə bir sıra sənədlər imzalandı. İtaliya ilə İngiltərə arasında qarşılıqlı inam bərqərar oldu. 1926-cı il yanvarın 27-də İngiltərə ilə İtaliya daha irəli gedərək hərbi borclar məsələsi barədə saziş imzaladılar. Birinci dünya müharibəsi illərində İtaliya yaranan borclarını ödəməsində güzəşt əldə etdi. Bu, İtaliyanın maliyyə vəziyyətini

yaxşılaşdırdı. İtaliya İngiltərə yaxınlaşmasını görən Fransa Rumıniya ilə müqavilələr imzaladı. Balkanlarda yə Aralıq dənizində nüfuz dairəsi uğrunda mübarizə 1926-cı il mayın 30- da Fransa-Türkiyə, iyunun 5-də isə İngiltərə-Türkiyə dostluq konvensiyalarının imzalanması ilə nəticələndi.

20-ci illərdə beynəlxalq münasibətlərdə İtaliyanın rolu güclənməyə başladı. O, Balkanlar, Kiçik Asiya və Şimali Afrikada yeni bazarlar ələ keçirtdi. İtaliyanın Aralıq dənizində hegemon mövqeyə nail olmaq istəklərinə İngiltərə yardım edirdi.

20-ci illərin ikinci yarısından başlayaraq beynəlxalq münasibətlərdə ən çox müzakirə olunan məsələlərdən biri Almaniyanın Millətlər Cəmiyyətinə daxil edilməsi idi. Müttəfiqlər Almaniyanın Millətlər Cəmiyyətinə daxil olmasını və nizamnaməsində nəzərdə tutulan bütün öhdəlikləri yerinə yetirməsini tələb edirdi. Almaniya isə Millətlər Cəmiyyətinə daxil olmaqla digər dövlətlərlə bərabər hüquq almaq, Versal sülh müqaviləsinin hərbi maddələrini ləğv etmək və öz silahlı qüvvələrini leqallaşdırmaq istəyirdi. Almaniya Millətlər Cəmiyyətində daimi yer almağı tələb edirdi. Bu məsələdə Almaniyanın mənafeləri həmin yerə iddiaçılar olan Polşa, İspaniya və Braziliya ilə toqquşurdu. İngiltərə uzun sürən diplomatik mübarizədən sonra Almaniyanın Millətlər Cəmiyyətinə daxil edilməsinə nail oldu. 1926-cı il sentyabrın 10-dan etirabən Almaniya nümayəndə heyəti Millətlər Cəmiyyətinin işində iştirak etməyə başladı.

20-ci illərin ikinci yarısının sonlarından beynəlxalq münasibətlərdə nüfuz dairələri, yeni xarici bazarlar və xammal mənbələri ələ keçirtmək uğrunda mübarizə kəskinləşdi. Almaniya, İtaliya və Yaponiya Versal sülh müqaviləsinə uyğun olaraq dünyanın bölüşdürülməsinin qəti şəkildə əleyhinə idilər. Yeni xammal mənbələri ələ keçirməyə daha çox Almaniya çalışırdı. Daues planına əsasən Almaniyai.m aldığı istiqraz, xarici kapital axını, markanın sabitləşməsi, əlverişli ticarət müqavilələrinin imzalanması və sənayenin texniki cəhətdən yenidən qurulması alman maliyyə kapitalının

nüfuzunu gücləndirdi. 1927-ci ildə Almaniya məhsullarının ixracı müharibədən əvvəlki səviyyəni ötüb keçdi. Belə şəraitdə Almaniya açıq şəkildə müstəmləkələr və yeni bazarlar tələb etməyə başladı. 1928-ci ildən Almaniya Reyn vilayətindən müttəfiq ordularının çıxanlmasım və təzminatın məbləğinin aşağı salınmasını tələb etdi. Bu tələblər Fransa tərəfindən yaxşı qarşılanmadı. Lakin Fransa ilə bərabər İngiltərə də Almaniya- ABŞ yaxınlaşmasına yol verməmək üçün təzminat məsələsini müzakirəsinə hazır olduqlarını bəyan etdilər.

Yımq_ıılaıu 1928-ci il dekabrın 22-də İngiltərə, İtaliya, Belçika, Fransa və Yaponiya təzminat məsələsinə dair ekspertlər komitəsini təsis etdiklərini rəsmi şəkildə elan etdilər. Komitənin ilk iclası 1929-cu il fevralın İldə keçirildi. Komitənin tərkibinə Fransa, İngiltərə, İtaliya, Yaponiya, Belçika, ABŞ və Almaniyanın hər birindən iki nəfər olmaqla 14 nəfər daxil oldu. Komitənin sədri Daues planının müəlliflərindən biri olan ABŞ eksperti Ouen Yunq idi. Komitədə Almaniya, İngiltərə' və ABŞ -la Fransa və Belçika ekspertləri arasında kəskin mübahisələr meydana çıxdı. Müzakirələr nəticəsində Yunq planı ekspertlər tərəfindən qəbul olundu. Yekun razılıq 1929-cu il i)nınun 7-də əldə edildi. 37 il müddətində Almaniyanın ödəyəcəyi təzminatın orta məbləği ildə 1988 mln. marka olmalı idi. Bu məbləğə Almaniyanın 1924-cü ildə Daues planına əsasən aldığı istiqrazların ödənilməsi də əlavə olundu.

. Yunq planı 1929-cu ildə Haaqada keçirilən beynəlxalq konfransda geniş müzakirə edildi. Konfransda 12 dövlət- Fransa, İngiltərə, Almaniya, Belçika, İtaliya, Yaponiya, Çexoslovakiya, Yuqoslaviya, Polşa, Rumıniya, Yunanıstan və Portuqaliya iştirak edirdilər. İştirakçı dövlətlər iki komissiya yaratdılar: maliyyə və siyasi. Reyn vilayətinin azad edilməsi məsələsində konfrans ilkin razılığa gəldi. Versal müqaviləsinə görə, üçüncü zona yalnız 1935-ci ildə azad olunmalı idi. Lakin İngiltərə bu işin 1929-cu ilin sonunda başa çatdırılmasını təklif

etdi. Nəticədə üçüncü zonanın 1930-cu ilin ortalannadək azad edilməsi razılaşdırıldı.

Yunq planı prinsipcə 1929-cu il avqustun 31-də müvafiq protokol imzalanması ilə bəyənildi. Son olaraq isə 1930-cu il yanvarın 20-də keçirilən ikinci Haaqa konfransında qəbul edildi. Yunq planı təzminatın ödənilməsində böyük dəyişikliklər etmədi. Daues planınn müəyyənləşdirdiyi istiqraz vərəqələri sistemi ləğv edildi. Bundan sonra təzminat yalnız dəmir yolları və dövlət büdcəsindən gələn gəlir hesabına ödənilməli idi. Sənayedən gələn gəlirlər hesabına təzminatı ödəmək də ləğv olundu. Almaniya təsərrüfatına və maliyyəsinə nəzarət ləğv edildi. Bu isə Versal sisteminə ağır zərbə vurulması idi.

Yunq planı alman xalqı üçün irəliyə doğru addım olmasına baxmayaraq Almaniyada kəskin narazılıq yaratdı. Müharibədən sonrakı ərazi məsələlərinə yenidən baxmaq tələbləri Almaniyada daha çox eşidilməyə başladı. Almaniyada faşist təşkilatları öz fəaliyyətlərini gücləndirdilər. Polşada yaşayan alman milli azlıqlarının hüquqlarının qorunması, Dansiq və Memelin Almaniyaya verilməsi məsələləri qaldırıldı. 1930-cu ilin sentyabrında reyxstaqa seçkilərdə nasional- sosialistlərin qələbə çalması vəziyyəti daha da mürəkkəbləşdirdi. 20-ci illərin sonlannda Almaniyanın hərbi cəhətdən güclənməsi də baş verdi. Əgər 1925-ci ildə Almaniyanın ordu və donanmaya çəkdiyi xərc 490,9 mln. marka idisə, 1928-1929-cu illərdə bu məbləğ 827 mln. markaya çatdı. Ordu və donanmanın texniki təchizatı da təkmilləşdirildi.

## Avropadan kənarda böyük dövlətlər

20-ci illərin sonunda Avropada hərbi qarşıdurma təhlükəsinin artması şəksiz idi. Eyni zamanda Avropadan kənarda da böyük dövlətlər arasında kəskin mübarizə gücləndi. Aralıq dənizi və Sakit okean problemləri həll olunmamışdı. Asiya bazarları və ona gedən yollara sahib olmaq uğrunda mübarizə xeyli kəskin idi. Böyük dövlətlər Avropadan Asiyaya gedən ticarət yollarına yiyələnməyə çalışırdılar. İngiltərə İran, Hindistan və

Əfqanıstana hökmran olmaq, Aralıq dənizində donanmasının üstünlüyünü saxlamaq, Asiya və Afrikaya gedən yollarda üstün nüfuz qazanmaq istəyirdi. Bu dövrdə İngiltərə Fransaya qarşı İtaliyanı qızışdıraraq iki ölkə arasında hakim rolunu oynamağa çalışırdı. İtaliya da İngiltərənin köməyi ilə Tancer limanı məsələsini öz xeyrinə həll etmək istəyirdi. Fransa ilə İtaliya arasında mübahisəli olan bu məsələni həll etməyə həsr olunmuş konfrans 1928-ci il iyulun 25-də Parisdə keçirildi. Konfransda Fransa, İngiltərə, İtaliya və İspaniya iştirak edirdi. Konfrans Tancer limanının statusunu İtaliyanın xeyrinə dəyişdirdi. Tancerin idarə edilməsində İtaliya bərabər hüquq aldı. İtaliyanın bu dövrdə eyni zamanda Suriya, Fələstin, İraq və Misirdə də üstün hüquqlar tələb etməsi isə artıq İngiltərənin mənafelərinə cavab vermirdi. Buna cavab olaraq İngiltərə 1927- ci il dekabrın 14-də İraqla müqavilə bağlayaraq onu müstəqil dövlət kimi tanıdı. İngiltərə ilə Misir arasında 1928-ci ildə müqavilə imzalandı. Lakin Misir parlamenti bu müqaviləni təsdiq etmədi.

20-ci illərin sonunda Sakit okeanda nüfuz dairəsi uğrunda Yaponiya, ABŞ və İngiltərə arasında kəskin mübarizə başladı. Yaponiya Vaşinqton sistemini ləğv etmək və Sakit okeanda üstün hüquqlar əldə etməyə çalışırdı. Bu məqsədlə, o, 1927-ci il Cenevrə və 1930-cu il London konfranslarında iştirak etdi. 1927-ci ildən Yaponiyada hakimiyyətə gələn general Tanaka Yaponiyanın xarici siyasəti xəttini elan etdi. Bu xətt Tanaka memorandumu adlandırıldı. Memorandum Yaponiyanın regionda nüfuzunun güclənməsinə yönəlmişdi. Yaponiyanın Sakit okeandakı iddiaları ABŞ-m narahatlığına səbəb oldu.

Tərk.silah pxoJılemi

20-ci illərin ortalarından hərbi təhlükənin artması bütün ölkələrdə sürətlə silahlanmaya təkan verdi. Dövlətlərin hərbi büdcələri artdı və orduların sayı çoxaldı. Təkcə 1929-cu ildə Avropada silahlanmaya 524 mln. funtsterlinq xərcləndi. Ordular texniki cəhətdən təkmilləşdirildi. Rumıniya, Polşa, Yuqoslaviya və

Çexoslovakiya Fransa istiqrazları ilə öz ordularını yenidən qurdular. Sürətlə silahlanmanın getməsi Millətlər Cəmiyyətini narahat etdi. Hələ 1925-ci il sentyabrın 25-də Millətlər Cəmiyyəti silahların azaldılması və məhdudlaşdırılmasına dair konfransı hazırlamaq haqqında qətnamə qəbul etmişdi. 1927-ci ilin payızında Cenevrədə tərksilaha dair məsələ müzakirə olundu. Millətlər Cəmiyyətinin sessiyasında təhlükəsizlik komitəsi yaradıldı. Komitəyə tərksilah və təhlükəsizlik problemləri ilə məşğul olmaq tapşırıldı. Müzakirələrdə ümumi tərksilah tələbi yerinə yetirilmədi.

**BriaıtKelloq (laktı**

20-ci illərin sonunda beynəlxalq münasibətlərdə müharibələrdən imtina edilməsi xüsusi əhəmiyyət kəsb etdi. Fransanın xarici işlər naziri Brianm 1927-ci il aprelin 6-da ABŞ-ın birinci dünya müharibəsinə qoşulmasının 10 illiyi münasibəti ilə etdiyi çıxışında Fransanın ABŞ-a dost münasibətlərini bəyan edərək onunla istənilən qarşılıqlı öhdəlik götürmək və müharibəni qanundan kənar etmək haqqında saziş bağlamağı təklif etdi. İyunun 20-də Brian Parisdəki ABŞ səfirinə əbədi dostluq haqqında Fransa-Amerika müqaviləsinin layihəsini verdi. Fransa bundan istifadə edərək frankın dəyərini möhkəmləndirməyə, ABŞ qarşısında olan borclarını tənzimləməyə. və Avropada hərbi-siyasi vəziyyətini möhkəmləndirməyə çalışırdı. Fransanın təklifindən ABŞ dərhal öz daxili və xarici siyasət məqsədləri üçün istifadə etdi. Dekabrın 28-də ABŞ dövlət katibi Kelloq yalnız Fransa ilə müvafiq müqavilənin bağlanmasını mümkünsüz sayaraq bütün başlıca dövlətlərlə belə bir müqavilə imzalnmasını təklif etdi. Fransanın ikitərəfli müqavilə imzalamaq əvəzinə ABŞ-m çoxtərəfli müqavilə bağlamaq təklifi Parisdə narazılıq yaratdı. Belə şəraitdə ingilis-fransız yaxınlaşması üçün addımlar atıldı. Bunu görən ABŞ 1928-ci il iyunun 23-də Lokarno sazişini imzalayan tərəflərə və Britaniya dominionlarına müharibədən imtina etmək haqqında müqavilənin mətnini göndərdi. Bu mətn bütün dövlətlər tərəfindən qəbul olundu. İyulun 12-də

Almaniya, 14-də Fransa, 15-də İtaliya, 17-də Polşa, 18-də Belçika və Böyük Britaniya, 20-də isə Yaponiya və Çexoslovakiya pakta qoşuldular. Paktın imzalanması mərasimi avqustun 27-də Parisdə oldu. İmzalanma mərasimində İngiltərə, Belçika, Almaniya, İtaliya, Polşa, Fransa, Çexoslovakiya və Yaponiya nümayəndələri iştirak edirdilər. Paktın birinci maddəsinə görə, tərəflər qarşılıqlı münasibətlərində mübahisələrdən və müharibələrdən imtina edirdilər. İkinci maddəyə görə, mübahisələri və münaqişələri həll edərkən iştirakçılar yalnız dinc vasitələrdən istifadə etməli idilər. Üçüncü maddəyə görə, pakt bütün digər dövlətlər üçün açıq elan edilirdi. 1929-cu ilin əvvəli üçün Kelloq paktına 44 dövlət qoşuldu. Pakt 1929-eu il iyulun 24-də qüvvəyə mindi.

Beləliklə, 20-ci illərin ikinci yarısında beynəlxalq münasibətlərdə təzminat məsələsi, Almaniyaya yardım, müharibədən sonrakı ərazi-sərhəd məsələlərinin toxunulmazlığı, Reyn təminat paktı, Sakit okeanda və Aralıq dənizində dövlətlərarası ziddiyyətlərin kəskinləşməsi, Avropadan Asiyaya və Afrikaya gedən yollara nəzarətin əldə edilməsi, tərksilah və milli siyasətdə müharibələrdən imtina məsələləri əsas problemlər oldu. Böyük dövlətlər arasında olan ziddiyyətlər 30-cu illərdə daha da kəskinləşdi.

# VIII BOLUM

## 30-cu illərdə beynəlxalq münasibətlərin inkişaf xüsusiyyətləri

**Dünya iqtisadi**

**münasibətlərə təsiri. Bam^Axropa planı**

1929- cu ilin sonunda dünyanın başlıca ölkələrini bürüyən böhran 1932-ci ilədək davam etdi. Sənayedə baş verən böhran iqtisadi və maliyyə böhranı ilə çulğalaşdı. Dünya iqtisadi böhranı bütün ölkələrdə həyat səvi>q/əsinin aşağı düşməsinə və işsizliyin artmasına gətirib çıxartdı. İşsizlərin ümumi sayı 30 rnin. nəfərə çatdı. Böhranın davam etməsi bazarlar, nüfuz dairəsi, kapital ixracı və müstəmləkələrin bölüşdürülməsi uğrunda mübarizəni kəskinləşdirdi. Dünya iqtisadi böhranı şəraitində böyük dövlətlər arasında ziddiyyətlər kəskin xarakter aldı. Versal-Vaşinqton sistemi iflasa uğrayırdı. Almaniya, Avstriya, Macarıstan və Bolqarıstan açıq şəkildə təzminat öhdəliklərini yerinə yetirməkdən imtina edirdilər. Onlar silahlanma üçün hüquqlar əldə etməyə və müharibədən sonrakı mövcud vəziyyəti dəyişdirməyə çalışırdılar. Belə şəraitdə Avropa dövlətlərinin birliyi mühüm əhəmiyyət kəsb edirdi. Bu təşəbbüsü Fransanın xarici işlər naziri Aristid Brian öz üzərinə götürdü. O, 1930-cu il mayın 17-də Avropanın 27 ölkəsinə «Avropa federal ittifaqı rejimini yaratmaq haqqında» müraciət etdi. Belə bir ideyanı o, iqtisadi əməkdaşlıq və böhranla birgə mübarizə aparmaq tədbirləri ilə bağladı. Bundan ötrü Avropa komitəsi yaradılmalı idi. Pan-Avropa planı adını alan bu plan Avropada Fransanın mövqelərini möhkəmləndirmək məqsədi güdürdü. Fransa bu planın həyata keçirilməsi ilə Avropada hegemon rolu oynamağa çalışırdı. Bu plandan istifadə etməklə Fransa Almaniya ilə münasibətlərini normallaşdırmaq, kömrük maneələrini aradan qaldırmaq.

ümumi təhlükəsizliyi təmin etmək və b. məsələlərin həllinə çalışırdı. Lakin Pan-Avropa planını həyata keçirtmək mümkün olmadı. Çünki Avropa dövlətlərinin bu plana münasibəti birmənalı deyildi. İngiltərə Avropada Fransanın möhkəmlənməsinə yol vermək istəmirdi. Öz növbəsində Almaniya Fransanın cəhdlərinə Versal sisteminin möhkəmləndirilməsi kimi baxırdı. İtaliya da bu planın əleyhinə çıxdı.

**Lojıdojı dəniz konfransı**

Dünya iqtisadi böhranı dəniz yollarına sahib olmaq uğrunda' mübarizəni gücləndirdi. Vaşinqton konfransı linkornların və zirehli gəmilərin tikintisini məhdudlaşdırırdı. Belə şəraitdə hərbi-dəniz gəmilərinin digər növlərinin tikintisi uğrunda rəqabət gücləndi. Bu sahədə geniş maliyyə imkanları olan ABŞ xüsusi proqramlar həyata keçirirdi. Maliyyə cəhətdən kifayət qədər imkanları olmayan İngiltərə Yaponiya ilə yaxınlaşaraq ABŞ planlarına mane olmağa və onun dəniz tikintilərini məhdudlaşdırmağa çalışırdı. Bu məqsədlə Londonda maraqlı dövlətlərin konfransı çağırıldı. Konfrans 1930- cu il yanvarın 21-dən aprelin 22-dək keçirildi. Konfransda Vaşinqton konfransında hərbi-dəniz sazişini imzalayan 5 dövlət-ABŞ, İngiltərə, Yaponiya, Fransa və İtaliya iştirak edirdilər. Konfrans dəniz məsələsində Fransa-İtaliya ziddiyyətlərini üzə çıxartdı, nəticədə onların arasında saziş imzalanmadı. Konfransın qərarları yalnız İngiltərə, ABŞ və Yaponiyaya aid edildi. Üç dövlət üçün donanmalardakı kreyser, esmines və sualtı qayıqların həcminin həddi müəyyən edildi. Konfransda İngiltərə böyük uğur əldə edə bilmədi. Esmineslərin və sualtı qayıqların həcmində İngiltərə və ABŞ-m gücü bərabərləşdi. Yaponiya isə konfransda ingilis-amerikan ziddiyyətlərindən istifadə edərək istəyinə nail oldu. Kreyserlərə dair Vaşinqton konfransının bölgüsü -5:5:3 qəbul edildi. Böyük kreyserlərin norması ABŞ üçün 18, İngiltərə üçün 15, Yaponiya üçün 12 müəyyənləşdirildi. Esmineslərin sayı isə Yaponiya üçün əlverişli idi. Sualtı qayıqların həcmində Yaponiya ABŞ və İngiltərə ilə birlikdə bərabər imkanlar əldə etdi.

**Qjıver moratoriumu** 30-cu illərin başlanğıcında Avropada beynəlxalq münasibətlərdə ən çox müzakirə edilən məsələlərdən biri Avstriya-Almaniya kömrük itttifaqı barədə idi. Versal sülh müqaviləsinin şərtlərini təftiş etmək Almaniya həyatı üçün başlıca məsələyə çevrildi. Almaniya Versal-Vaşinqton sülh sistemi ilə mövcud olan bütün öhdəliklərin əksinə olaraq Avstriya ilə 1931-ci il martın 19-da vahid kömrük ittifaqı, razılaşdırılmış tariflər və iki ölkə arasında kömrük sərhədlərinin ləğv edilməsi barədə saziş imzaladı. Lakin Antanta dövlətləri bunun əksinə çıxdılar. Belə olduqda 1931- ci il sentyabrın 5-də beynəlxalq daimi tribunal Avstriya ilə kömrük ittifaqını ləğv etdi. Bundan sonra Almaniyada faşizm, revanşizm və Versal sistemini dağıtmaq meylləri daha da gücləndi. İqtisadi fəlakət qarşısında duran Almaniyanın növbəti müddət-1931-ci il iyunun 5-də təzminatı ödəməsi sual altına düşdü. Ölkəni maliyyə-kredit böhranı bürüdü. Belə olduqda Almaniya prezidenti Hindenburq ABŞ prezidenti Quverə kömək üçün müraciət etdi. Quver bir il müddətinə bütün təzminatların və istiqrazların ödənilməsini dayandırmaq təklifini bəyan etdi. Bu təklif Quver moratoriumu adını aldı. Fransa bu müraciətin əleyhinə çıxaraq şərtlər irəli sürdü. Buna baxmayaraq iyulun 20-də baş nazirlərin Londonda keçirilən konfransında Almaniyaya uzunmüddətli kredit vermək və ölkənin maliyyə vəziyyətini öyrənmək üçün komissiya yaratmaq tövsiyə edildi. Yaradılmış komissiya Quver moratoriumundan sonra Almaniya hökuməti təzminatı ödəməyə imkanı olmadığını bəyan etdi.

**Uzaq Şərqdə müharibə ocağının yaranması** Versal-Vaşinqton sisteminin zor gücü ilə ləğvində birinci addım Yaponiyanın silahlanması oldu. Bu isə Uzaq Şərqdə müharibə ocağının yaranması demək idi. 1931- ci il sentyabrın 18-dən 19-na keçən gecə yapon orduları Mudkeni və Cənubi Mancuriyanın bir sıra şəhərlərini işğal etdilər.

Mancuriyanın işğal edilməsi Yaponiya-Çin münasibətlərini kəskinləşdirdi. Çin nümayəndəsi yapon təcavüzü məsələsinin müzakirəsini keçirtməkdən ötrü Millətlər Cəmiyyətinə müraciət etdi. Sentyabrın 30-da Millətlər Cəmiyyəti yapon təeavüzü məsələsini müzakirə edərək tərəfləri normal münasibətlər qunnağa çağırdı. Oktyabrın 24-də keçirilən növbəti müzakirələrdə Millətlər Cəmiyyəti Yaponiyanın öz ordularını üç həftə müddətində Mancuriyadan çıxarılmasım nəzərdə tutan qətnamə qəbul etdi. Yaponiya bunun əleyhinə səs verdi. Millətlər Cəmiyyəti Maneuriyadan yapon ordularının çıxarılmasına nail ola bilmədi. Belə olduqda Mancuriyaya təhqiqat komissiyası göndərmək qərara alındı. Dekabrın 10-da Millətlər Cəmiyyəti Şurası ABŞ, İngiltərə, Fransa, İtaliya və Almaniya nümayəndələrindən ibarət 5 nəfərlik komissiya yaradaraq yerlərdə vəziyyəti öyrənmək üçün göndərdi. Komissiyanın sədri İngiltərə nümayəndəsi Litton təyin edildi.

Yaponiyanın Mancuriyanı tutması SSRİ ilə münasibətlərdə də gərginlik yaratdı. Mancuriyanın işğalı ABŞ və Avropa dövlətləri tərəfindən birmənalı qarşılanmadı. ABŞ bu işğalı pisləsə də, İngiltərə Yaponiya ilə mehriban münasibətlərini pozmaq istəmirdi. Buna baxmayaraq 1932-ci il martın 11-də Millətlər Cəmiyyəti ABŞ-m təklifi ilə Yaponiya təcavüzünü pisləyən qətnamə qəbul etdi.

Mancuriyada vəziyyəti öyrənən komissiya işğala dair yapon planının olduğunu təsdiqlədi, işğalı tanımamağı və Mancuriyanın b vnəlmiləlləşdirilməsi məsələsinə həsr edilmiş konfrans çağırm ğı və münaqişənin sülh yolu ilə həllini təklif etdi.

Yapon hökuməti komissiyanın məruzəsini rədd etsə də Millətlər Cəmiyyəti onu qəbul etdi. Buna cavab olaraq Yaponiya hökuməti 1933-cü il martın 27-də Millətlər Cəmiyyətindən çıxdığını bildirdi. Yaponiyanın Millətlər Cəmiyyətindən çıxması ilə yapon hərbçiləri müharibə haqqında məsələni daha açıq qoymağa başladılar. Millətlər Cəmiyyətindən çıxmaqla Yaponiya bütün müqavilə və

öhdəliklərdən özünü azad etdi. Yaponiyanın Uzaq Şərqdə belə hərəkəti Almaniya və İtaliyanın təcavüzkar addımlar atmasına təsir göstərdi. 1936-cı il noyabrın 25-də Almaniya və İtaliya 3 maddədən ibarət beş il müddətində qüvvədə olan saziş imzaladılar. Saziş antikomintern paktı adını aldı. 1937-ci il noyabrın 6 -da İtaliya bu pakta qoşuldu. Nəticədə «Berlin-Roma oxu» «Berlin - Roma - Tokio üçbucağına» çevrildi. Beləliklə, Yaponiyanın təcavüzkar hərəkətləri ilə Uzaq Şərqdə müharibə meydana gəldi. Bundan sonra Yaponiya özünün Çinə qarşı təcavüzkar hərəkətlərini daha da genişləndirdi. 1937-ci il iyulun 7-8-də yapon hərbi hissələri Çinə hücum etdilər. Buna cavab olaraq SSRİ 1937-ci il avqustun 21-də Çinlə hücum etməmək haqqında müqavilə bağladı. Yapon təcavüzünə qarşı Çin hökumətinin kömək üçün Millətlər Cəmiyyətinə müraciətini Millətlər Cəmiyyəti Vaşinqton müqaviləsini imzalayan dövlətlərə göndərdi. Məsələyə baxmaq üçün 1937- ci il noyabrın 3-də Brüsseldə konfrans öz işinə başladı. Konfransda Yaponiya iştirak etmirdi. İştirakçılar Yaponiya ilə Çin arasında münasibətləri dinc vasitələrlə tənzimləməyə dair müraciət etdilər.

**Tərksilah problemi** 30-cu illərin əvvəllərindən bəzi dövlətlərin Versal-Vaşinqton sülh sistemini təftiş etmək və sürətlə silahlanmaq cəhdləri beynəlxalq münasibətlərdə tərksilah məsələsini aktual etdi. 1932-ci il fevralın 2-də Cenevrədə tərksilaha dair beynəlxalq konfrans çağırıldı. Konfransda Amerika Birləşmiş Ştatları Millətlər Cəmiyyətini beynəlxalq borclar, təzminat, tərksilah və təhlükəsizlik məsələlərini həll etmək iqtidarında olmadığına görə tənqid edərək qum qüvvələrini azaltmağı təklif etdi.

Fransa Almaniya təhlükəsi qarşısında Millətlər Cəmiyyətinin ordusunu yaratmağı, Fransanın təhlükəsizliyi üçün müqavilələr bağlamağı və yeni hərbi ittifaq qurmağı təklif etdi. Lakin Fransanın tələblərini İngiltərə rədd etdi.

Yaponiya ABŞ təklifinə qarşı çıxaraq Versal-Vaşinqton sülh sisteminə yenidən baxmağı, amerikan və ingilis diplomatiyasına dəniz konfranslarının qərarlarını dəyişdirməyi irəli sürdü.

İngiltərə konfransda başlıca rol oynayırdı. İngilis diplomatiyası Almaniya ilə Fransa arasında bərabər hüquqlar təklif etdi.

İtaliya da konfransda silahlanma məsələsində Almaniyaya bərabər hüquqular verilməsi tələbini irəli sürdü. Bu tələb İtaliya-Fransa ziddiyyətlərini kəskinləşdirdi. Hərbi-dəniz donanması məsələsində İtaliya Fransa ilə bərabərlik tələb etdi.

Almaniya təzminatın ləğv edilməsini və silahlanmada ona bərabər imkanlar verilməsini irəli sürdü. Fransa Almaniyanın bu təkliflərini rədd etdi. Almaniya aprel ayında İngiltərə və Fransa nümayəndələri ilə danışıqlara girdi. Almaniya orduda xidmət müddətinin 12 ildən 5 ilə endirilməsini, 100 min nəfərlik alman milisinin yaradılmasına icazə verilməsini və Almaniya üçün hücum silahı növlərinin qadağan edilməsinin aradan qaldırılmasını təklif etdi.

Kəskin mübahisələr iri gəmilər və sualtı qayıqlar məsələsində oldu. Bu məsələdə Almaniyanın bütün linkom və kreyserlərin ləğvini tələb etməsinə qarşı İngiltərə və Fransa çıxdı.

Konfransın birinci sessiyası 1932-ci il iyulun 23-də öz işini başa çatdırdı. Almaniya ona bərabər hüquqlar verməyən qətnamənin qəbul edilməsinin əleyhinə çıxaraq istəkləri yerinə yetirilmədiyi üçün konfransı tərk etdi. Cenevrə konfransının uğursuzluğu beynəlxalq münasibətlərdəki vəziyyəti daha da kəskinləşdirdi. Almaniya nəinki mənəvi, eyni zamanda faktiki bərabərlik də tələb etməyə başladı. İngiltərə Almaniyaya güzəştə getməyi təklif etdi. 1932-ci ilin dekabrında Cenevrədə İngiltərə, Fransa, İtaliya, ABŞ və Almaniya nümayəndələrinin müşavirəsi oldu. Müşavirədə qəbul edilən qətnamə hamı üçün bərabər təhlükəsizlik sistemində Almaniyaya silahlanmada bərabər hüquqlar, Fransaya isə təhlükəsizliyini təmin etməyi vəd edirdi. Əslində müşavirənin yekunları Almaniyanın

qələbəsi, Fransanın istəklərinin isə formal təmin olunması demək idi.

**Almaniyada faşizmin hakimiyyət başına**

30-cu illərin əvvəllərində Almaniyada hakimi}^ət uğrunda gedən mübarizə beynəlxalq münasibətlərə də təsir göstərdi. Bu mübarizədə nasional-sosialistlər partiyası öz proqramlarını həyata keçimıəkdən ötrü müxtəlif metodlardan istifadə etməyə başladılar. 1933-cü ilin yanvarın 30-da Hitler reyxkansler, fon Papen vitse-kansler, Neyrat isə xarici işlər naziri oldu. Bu illərdə Almaniyanın xarici siyasətinin qarşısında iki mühüm vəzifə dururdu: yaşamaq hüququnu təsdiq etmək; Almaniya üçün, xüsusən silahlanma sahəsində bərabər hüquqları və azadlığı bərpa etmək. Almaniyada faşizmin hakimiyyət başına gəlməsinin beynəlxalq münasibətlərə təsirini görən ABŞ gərginliyi aşağı salmaqdan ötrü 1933-cü ilin mayın 16-da tərksilaha dair konfrans çağırmaq təklifi ilə çıxış etdi. Təklifə görə hücum silahları məhdudlaşdırılmalı və dövlətlər öz aralarında hücum etməmək haqqında müqavilə imzalamalı idilər. Almaniya bu təklifi bəyəndiyini bildirdi. Eyni zamanda o, bərabər imkanlar hüququnu tələb etməyə başladı. Tərksilaha dair Cenevrə konfransının keçirildiyi vaxt Almaniya bərabərliyi daha təkidlə tələb etdi. Fransa bu təklifin əleyhinə çıxdı. Lakin, İngiltərə və İtaliya Fransanı müdafiə etmədilər. İngiltərə, Fransa və ABŞ-m Almaniyaya təklif etdikləri iki mərhələli tərksilah layihəsini alman diplomatiyası qəbul etmədi. Bu mərhələlərin birincisində üç ildən dörd ilə qədər sabitləşmə getməli və Almaniya uzun müddətli hərbi xidməti qısa müddətli hərbi xidmətlə əvəz etməli idi. İkinci mərhələdə isə üç-dörd il müddətində faktiki tərksilah həyata keçirilməli idi. Bu təklifləri qəbul etməyən Almaniya 1933-cu il oktyabrın 19-da Millətlər Cəmiyyətindən çıxdığını bildirdi.

Almaniyanın Millətlər Cəmiyyətindən çıxması Avropada müharibənin ikinci ocağının yaranması demək idi.

Almaniyanın bu hərəkətlərinə qarşı Millətlər Cəmiyyəti heç bir sanksiya tətbiq etmədi.

Bundan sonra Almaniya beynəlxalq münasibətlərdə özünə sülhsevər imici qazanmaqdan ötrü Fransa ilə düşmənçiliyə son qoymaq niyyətində olduğunu bəyan etdi. Eyni zamanda Almaniya Saar vilayətinə, silahlarının və silahlı qüvvələrinin artırılmasına olan iddialanndan əl çəkmədi. Almaniyanın planlarında Polşa və SSRİ də mərkəzi yerləri tuturdu.

30-cu illərdə Avropada beynəlxalq münasibətlərdə İtaliya-Almaniya münasibətləri özünəməxsusluq təşkil edir. İtaliya-Fransa ziddiyyətlərinin kəskinləşməsi və Almaniya ilə İtaliyanın xarici siyasət məqsədlərinin üst-üstə düşməsi onları yaxınlaşdırdı. İtaliya-Almaniya münasibətlərində Avstriya məsələsi geniş müzakirə olundu. Almaniyanın Avstriyanı özünə birləşdirmək ideyası İtaliya tərəfindən yaxşı qarşılanmadı. Çünki bu ideyanın həyata keçirilməsi Almaniyanı Balkanlara və Adriatik dənizinə yaxınlaşdırırdı.

Eyni zamanda Almaniyanın Avstriyanı özünə birləşdirmək planları Balkan ölkələrini yaxınlaşdırdı. Bu dövlətlər Versal-Vaşinqton sülh sisteminin qərarlarına yenidən baxılmasının əleyhinə çıxdılar. Bu vəziyyətdən istifadə edən İngiltərə və Fransanın Balkan ölkələrinə təsiri artdı. 1934-cü il fevralın 9-da Afinada Türkiyə, Yunanıstan, Yuqoslaviya və Rumıniya Balkan paktını imzaladılar. Pakta görə tərəflər öz xarici siyasətini razılaşdırmalı və daxili sərhədlərini birlikdə qorumalı idilər. Lakin Almaniya və İtaliyanın təsiri ilə Bolqarıstan və Albaniya bu paktı imzalamadılar.

Almaniyanın Millətlər Cəmiyyətindən çıxması silahlanma sahəsində onun əl-qolunu açdı. O, bir illik hərbi xidməti, silahlanmada bərabər hüququ, ordularının sayını 300 min nəfərə çatdırmağı və aviasiiyada bərabər imkanları, Saar hövzəsini almağı, bütövlükdə Versal sülhünün şərtlərini ləğv etməyi, Fransa, Polşa və digər qonşularla 10 il müddətinə hücum etməmək haqqında paktı imzalamağı tələb etdi. 1934- 1935-ci illər üçün Almaniyanın hərbi-hava qüvvələrinə çəkilən

xərclər 78 mln. markadan 210 mln. markaya, orduya çəkilən xərclər isə 344,9 mln. markadan 574,5 mln. markaya çatdı.

Bu dövrdə ayrı-ayn dövlət xadimlərinə qarşı terrorçuluq hərəkətləri gücləndi. 1934-cü ilin iyulunda Avstriyada baş verən faşist qiyamı nəticəsində baş nazir Dolfıis öldürüldü. 1934-cü ilin oktyabrın 9-da isə Fransanın xarici işlər naziri Lui Bartu Marseldə qətlə yetirildi.

Siyasi qətllər Almaniyanın əl-qolunu açdı. Almaniya ilə yanaşı olaraq İtaliya da Avropada öz fəaliyyətini genişləndirdi. Mussolini başda olmaqla İtaliyadakı faşist rejiminin xarici siyasət məqsədləri müharibənin üçüncü ocağının yaranması demək idi. İtaliyanın 1935-ei ilin oktyabrından Həbəşistana qarşı hərbi müdaxiləyə başlaması beynəlxalq münasibətlərə mənfi təsir etdi. Buna görə də Millətlər Cəmiyyəti İtaliyaya qarşı sanksiyalar tətbiq etdi. Lakin sanksiyalar İtaliya təcavüzünü dayandırmadı. Belə olduqda 1936-cı il iyulun 4-də Millətlər Cəmiyyəti İtaliyaya sanksiya tətbiq etməkdən imtina etdi. Beləliklə, Həbəşistan İtaliya təcavüzünün qurbanı oldu.

Bu şəraitdə Almaniya Saar hövzəsini özünə birləşdirmək üçün geniş təbliğat aparmağa başladı. 1934-cü il noyabrın sonunda Almaniyanın xarici işlər naziri Ribbentropla Fransanın xarici işlər naziri Lavalın görüşündə Saar məsələsi müzakirə olundu. Laval Saarda keçiriləcək plebisistin nəticələri ilə Fransa hökumətinin maraqlanmayacağım bildirdi. 1935-ci il yanvann 13-də plebisist keçirildi. Səsvermədə iştirak edən 539 min nəfərdən 477 min nəfəri Saarm Almaniyaya birləşdirilməsinə, 46 min nəfərindən çoxu əvvəlkitək Millətlər Cəmiyyətinin nəzarətində qalmasına, yalnız 2 min nəfəri Fransaya birləşdirilməsinə səs verdi. Millətlər Cəmiyyəti baş verən bu hadisəni təsdiqlədi. Martın 1-də Saar vilayəti Almaniyaya verildi. Bundan sonra Almaniya Versal sülh müqaviləsi ilə ondan alınmış almanlar yaşayan digər ərazilərin də qaytarılmasını tələb etdi.

Saarm birləşdirilməsindən sonra Almaniya sürətli silahlanmanı, xüsusən aviasiya sahəsində proqramların yerinə yetirilməsini gücləndirdi.

Almaniyanın bu yolu tutması digər Avropa dövlətlərinin də silahlanmasına təsir göstərdi. 1934-cü il iyulun 19-da Böyük Britaniyanın baş naziri Stenli Bolduin hərbi hava qüvvələrinin genişləndirilməsinə dair təklif etdi. Sürətlə silahlanma xəttinin götürülməsi Avropa dövlətlərini müharibəyə tərəf sürükləyirdi. 1935-ci il fevralın 1-3-də Fransanın baş naziri Flanden, xariei işlər naziri Laval, İngiltərənin baş naziri Stenli Boldum və xarici işlər naziri Saymon Londonda bəyannamə imzalayaraq yeni sürətlə silahlanma üçün bütün bəhanələri kəsməyin zəruri olduğunu bildirdilər. Bəyannamədə İngiltərə, Fransa, Belçika, İtaliya və Almaniya arasında hava konvensiyasının, Avstriyanın müstəqillyini təmin edən Dunay paktının, qarşılıqlı yardım haqqında Şərq paktının imzalanması və Almaniyanın Millətlər Cəmiyyətinə qaytarılması təklif olundu. Lakin bu təkliflər Almaniya tərəfindən soyuq qarşılandı. Almaniya açıq şəkildə Versal sülh müqaviləsinin şərtlərindən imtina etməyə başladı. 1935-ci il martın 13-də Almaniya yarımrəsmi şəkildə özünü Versal sülh müqaviləsi ilə nəzərdə tutulan öhdəliklərdən azad etdiyini bildirdi. Martın 16-da isə ümumi hərbi mükəlləfiyyətin keçirilməsi haqqında dekret verildi. Bu dekret Versal sülh müqaviləsinin hərbi maddələrindən Almaniyanın imtina etməsi demək idi. 1935-ci il martın 24-26-da Berlində Saymonla Hitler arasında keçən görüşlər iki ölkə arasında ciddi fikir ayrılığını üzə çıxartdı.

Belə vəziyyətdə İngiltərə SSRİ ilə danışıqlara başladı. 1935-ci ilin martında İngiltərənin xarici işlər naziri Antoni İden Moskvada, aprelində isə Polşada danışıqlar apardı. Bu danışıqların gedişində Avropada yaranan mürəkkəb vəziyyət və faşizm təhlükəsinə qarşı mübarizə məsələləri müzakirə olundu.

Avropada baş verən prosseslər və Almaniya qarşısında təhlükə Fransanı da SSRİ ilə yaxınlaşdırdı. 1935-ci il mayın 2- də qarşılıqlı yardım haqqında sovet-fransız paktı imzalandı. Bunun ardınca mayın 16-da qarşılıqlı yardım haqqında sovet- Çexoslovakiya müqaviləsi bağlandı.

Avropada faşist təhlükəsinin artdığını görən İngiltərə Almaniyanı bitərəfləşdirməyə çalışırdı. 1935-ci il iyunun 18-də

İngiltərə-Almaniya dəniz sazişi imzalandı. Sazişə görə Almaniya donanmasının gücü Böyük Britaniya donanması gücünün 35 faizini təşkil edə bilərdi. Bu saziş İngiltərənin Almaniya qarşısında güzəştə getməsini göstərdi.

**Qarışmamaq** Müharibə təhlükəsinin artdığı bir şəraitdə **siyasəti** Avropa dövlətlərinin sakitləşdirmə, ABŞ-m isə təcridçilik və qanşmamaq siyasəti beynəlxalq münasibətləri də gərginliyin artmasına kömək etdi. 1935-ci ildə ABŞ konqresi bitərəflilik haqqında qanun qəbul etdi. 1936-cı iiln fevralında isə bu qanuna bir sıra düzəlişlər edildi. Düzəlişə "görə döyüşən tərəflərə silah satmaq, müharibə dövründə ABŞ gəmilərində hərbi yükləri daşımaq və Amerika vətəndaşlanna döyüşən dövlətlərin gəmilərində səyahət etmək qadağan olundu.

1936-cı il martın 6-da alman kabinetində Lokarno sazişlərindən imtina etmək haqqında məsələ müzakirəyə çıxarıldı. Martın 7-də isə İngiltərə, Fransa, Belçika və İtaliyanın Berlindəki səfirlərinə Almaniyanın Lokarno sazişlərindən imtina etdiyi bildirildi. Həmin gün alman ordulan Reyn vilayətinə girdilər. Almaniyanın Lokarno sazişlərini pozaraq Reyni işğal etməsi İngiltərə və Fransa tərəfindən narazılıqla qarşılandı. Lakin narazılıqlara məhəl qoymayan Almaniya sürətlə silahlanmanı davam etdirdi. Avqustun 24-də Almaniya silahlı qüvvələrində xidmət bir ildən iki ilə qədər artırıldı.

**Beynəlxalq münasibətlərdə boğazlar məsələsi**

30-cu illərdə beynəlxalq münasibətlərdə boğazlar məsələsi müzakirə obyektinə çevrildi. 1923-cü il 24 iyul tarixli Lozanno konvensiyası Türkiyənin suverenliyinə və müdafiəsinə zidd idi. Demək olar ki, bütün beynəlxalq konfranslarda türk nümayəndə heyəti Lozanno konvensiyasına yenidən baxmaq barədə təkliflər irəli sürmüşdü. 30-cu illərdə Avropada beynəlxalq münasibətlər Türkiyənin xeyrinə cərəyan etməyə başladı. İtaliya-Həbəşistan müharibəsindən sonra İngiltərə Türkiyə ilə yaxınlaşmaq üçün

lürsət qazandı. 1935-ci ilin dekabrında İngiltərə Türkiyə, Yunanıstan və Yuqoslaviya ilə centelmen sazişləri bağladı. Sazişlərə görə Aralıq dənizində İtaliya təcavüzü olacağı təqdirdə tərəflər bir-birlərinə yardım göstərməli idilər. 1936-Cı il aprelin 10-da türk hökuməti Lozanno konvensiyasını imzalayan dövlətlərə məsələyə yenidən baxmaq haqqında müraciət etdi. Türk höküməti İngiltərə, SSRİ, Fransa, İtaliya, Rumıniya, Yunanıstan, Yuqoslaviya, Bolqarıstan və Yaponiyadan müsbət cavab aldı. 1936-cı il iyunun 22-dən iyulun 20-dək İsveçrənin Montre şəhərində 9 dövlətin nümayəndələrinin konfransı keçirildi. Konfransda yalnız İtaliya nümayəndə heyəti iştirak etmədi. Boğazların hərbsizləşdirilməsi məsələsi konfransda etiraz doğurmadı. Dövlətlər türk təkliflərinə prinsipcə razı oldular. Lakin iki məsələ mübahisələr doğurdu: Qara dəniz dövlətlərinin hərbi gəmilərinin boğazlardan keçməsi haqqında; başqa dövlətlərin hərbi donanmasının Qara dənizə buraxılması haqqında. 1936-cı il iyulun 20-də Montredə boğazlara dair yeni konvensiya bağlandı. Konvensiyaya görə boğazlar zonasında Türkiyənin hüquqları tamamilə bərpa edildi. Boğazlardan keçməyə nəzarət və müşahidə hüququ Türkiyəyə verildi. Türkiyə boğazlar zonasında silahlı qüvvələr saxlaya və onları möhkəmləndirə bilərdi. Bütün ölkələrin ticarət gəmiləri boğazlardan sərbəst keçmək hüququ aldılar. Qara dəniz və qeyri-Qara dəniz dövlətlərinin hərbi gəmilərinin keçirilməsində fərqlər var idi. Qara dəniz dövlətlərinin hərb gəmiləri boğazlardan ciddi məhdudiyyətlər olmadan bir sıra tələbləri yerinə yetirmək şərtilə keçə bilərdilər. Qeyri-Qara dəniz dövlətlərinin hərb gəmiləri üçün ciddi məhdudiyyətlər müəyyənləşdirildi. Bu dövlətlər Qara dənizə yüngül suüstü gəmilər, kiçik hərbi və köməkçi gəmilər keçirə bilərdilər. Gəmilər Qara dənizdə yalnız 21 gün qala bilərdilər. Türkiyə müharibədə iştirak etmədiyi təqdirdə istənilən ölkənin hərb gəmiləri üçün boğazları bağlaya bilərdi. Türkiyə müharibədə iştirak edərdisə, türk hökuməti qaydam özü müəyyənləşdirə bilərdi.

İtaliya və Almaniya bu konvensiyaya mənfi münasibət bəslədilər. İtaliya yalnız 1938-ci ildə bu konvensiyanı imzalamağa məcbur oldu.

**İspaniya hadisələrinin beyjLəixalq münasibətlərə təsiri**

30-cu illərdə İspaniya hadisələri beynəlxalq münasibətlərə təsir etdi. 1931-ci ilin aprelində İspaniyada respublika qurulan kimi hərbi faşist qiyamına hazırlıq başlandı. Qiyam 1936-cı il iyulun 17-18-də baş verdi. Qiyamdan istifadə edən Almaniya və İtaliya iyulun sonunda Həbəşistana müdaxilə etdilər. Fransa hökuməti 1936-cı il iyulun 25-də bitərəflik və İspaniyaya silah daşınmasını qadağan etmək haqqında qanun qəbul etdi. İspaniyaya Almaniya və İtaliyanın müdaxiləsində Avropa dövlətlərinin bitərəf qalması dövlətlərarası münasibətləri müharibəyə doğru sürüklədi.

İtaliyaya qarşı sanksiyalardan imtina edilməsi, Versal sülh müqaviləsinin şərtlərini kobudcasına pozan Almaniyanın cəzasız qalması və müdaxiləçilərin İspaniyada hərbi qələbələri müharibə qızışdırıcılarmı şirnikləşdirdi. 1936-cı il oktyabrın 25- də İtaliya və Almaniya arasında 5 maddədən ibarət saziş imzalandı. İtaliya xarici işlər naziri Çiano və Almaniya xarici işlər naziri Ribbcntropun imzaladıqları bu sazişlə Həbəşistanın işğal edilməsi və İspaniyada Franko hökuməti tanındı. Tərəflər Balkanlarda və Dunay hövzəsində iqtisadi fəaliyyətlərinin çərçivəsini müəyyən etdilər.

Almaniya vBerlin-Roma-Tokio üçbucağı» yaradıldıqdan sonra özünün fəaliyyətini daha da genişləndirdi. Alman diplomatiyasının əsas vəzifəsi Belçika, Polşa, Hollandiya, Danimarka və İsveçi öz tərəfinə çəkmək, düşmüş olduğu iqtisadi və maliyyə böhranından çıxmaq idi. Almaniya artıq təkcə almanlar yaşayan əraziləri deyil, eyni zamanda müstəmləkələrinin də ona verilməsini tələb edirdi. İngiltərə Almaniyanın mənafelərini Avstriya və Çexoslovakiyada nəzərə alardısa, alman diplomatiyası 6 il müddətinə müstəmləkələr məsələsini qaldırmayacağı barədə öhdəlik götütürdü. İngiltərə Almaniyanın Avropa işlərinə qarışmayacağmı və Mərkəzi

Avropadakı bütün hərəkətlərinə münasibətdə bitərəf mövqe tutacağım bəyan etdi.

**AvsMyanmlşğalt və Çexoslovakiyanın Harç^anmasının heyjıalxalq münasibətlərə təsiri**

1938-ci ilin əvvəlində Avropanın müharibə astanasında olduğu görünürdü. Uzaq Şərqdə, Latın Amerikasında, Afrikada, Aralıq dənizində, İspaniyada və Mərkəzi Avropada faşist təcavüzkarları öz qüvvələrini birləşdirmişdilər. Almaniya Avstriyanın birləşdirilməsini yenidən tələb etməyə başladı. Avstriyanın birləşdirilməsi Almaniyaya Çexoslovakiyanı işğal etməyə, Cənub-Şərqi Avropa və Balkanlara çıxmağa imkan verərdi. 1938-ci il fevralın 11-də Hitler Avstriya kansleri Şuşniki yanma çağıraraq onun qarşısında bir sıra tələblər qoydu: Avstriya nasional-sosialistlərinin hamısına tam aministiya vermək, Hitlerin yaxını Zeys-İnkvartı ictimai təhlükəsizlik və qayda-qanun naziri təyin etmək; Avstriya nasional-sosialistlərinə leqal və azad fəaliyyət üçün şərait yaratmaq. Lakin Şuşnik bu şərtləri imzalamadı. Bunula belə o, Zeys-İnkvartı göstərilən vəzifəyə təyin etdi. Martın 13-də Avstriyanın müstəqilliyi məsələsinə dair plebisist təyin olundu. Martın I2-də Hitler özü Avstriyaya gəldi. Zeys-İnkvart baş nazir təyin edildi. Həmin gün alman orduları Avstriya sərhədlərini keçdilər. Avstriyanın müstəqilliyinə son qoyuldu. Martın 13-də Zeys-İnkvart Avstriyanı alman dövləti elan etdi. Beləliklə, Avstriya alman imperiyasının tərkibinə qatıldı.

Avstriyanın anşlüsü Avropa dövlətləri tərəfindən birmənalı qarşılanmadı. İtaliya onu bəyəndi, İngiltərə və Fransa isə ona etiraz etdi. Bir müddət keçdikdən sonra İngiltərə hökuməti Avstriyanın anşlüsünü tanıdı. Avstriyanın Almaniyaya birləşdirilməsi Avropada müharibənin yaxınlaşdığını göstərdi.

Avstriyanın anşlüsündən sonra İngiltərə İtaliya ilə münasibətlərini istiləşdirməyə çalışdı.

Həbəşistan, İspaniya və Avstriyanın ardınca Çexoslovakiya gəlirdi. Avstriyanı birləşdirdikdən sonra Almaniya xaricdəki almanlar yaşayan ərazilərin qatılması şüarları ilə çıxış

etməyə başladı. Lakin o bunu zorla deyil, demokratik don geyindirməklə həyata keçirtmək istəyirdi. Almaniya Çexoslovakiyanın daxilindəki böhrandan istifadə edərək Fransa, İngiltərə və İtaliyanın razılığım alıb Çexoslovakiyanın almanlar yaşayan Sudct vilayətini özünə birləşdirməyə çalışırdı. Çexoslovakiya ilə Almaniya arasında olan ziddiyyətləri dinc yolla həll etmək barədə ABŞ prezidenti Ruzvcltin təşəbbüsü nəticəsiz qaldı. Bu məsələni müzakirə etməkdən ötrü 1938-ci ' sentyabrın 29-30-da Münhendə Qəhvəyi evdə Almaniya, İngiltərə, Fransa və İtaliya nümayəndələrinin konfransı oldu. Konfransda Hitler, Çemberlen, Daladye və Mussolini iştirak edirdilər. Çexoslovakiyanın bütün sərhəd rayonlarını Almaniyaya vermək barədə qərar qəbul olundu. Oktyabrın 1- dən 10 -dək Çexoslovakiya bu əraziləri təmizləməli idi. Həmin ərazidəki hərbi tikililər Almaniyaya keçirdi.

Münhen sövdələşməsi ilə iştirakçı dövlətlər Almaniyanın təcavüzkar niyyətlərini şərqə doğru yönəldəcəklərinə ümid edirdilər. Bu, ingilis diplomatiyasının qarışmamaq siyasəti və fransız hökumətinin təslimçilik mövqeyi demək idi. Sudet vilayətini birləşdirdikdən sonra Almaniya Çexoslovakiyanı işğal etdi. Bu isə Avropada tamamilə yeni bir şəraitin yaranması idi. Çexoslovakiyanın işğalından az sonra «ox dövlətləri» hərbi sazişlər imzaladılar. Bundan sonra Almaniya Şərqi Avropa ölkələrinə qarşı təcavüzkar niyyətlərini genişləndirdi. Almaniyanın bu hərəkətlərinə qarşı Fransanın Avropa dövlətlərinin blokunu yaratmaq cəhdləri isə heç bir nəticə vermədi. Eyni addımları İngiltərə hökuməti də atdı. 1939-cu ilin martından avqustunadək Moskvada keçirilən ingilis-fransız-sovet danışıqları uğursuzluqla qurtardı. Danışıqlarda iştirak edən tərəflər eyni zamanda separat şəkildə Almaniya ilə danışıqlar aparmağa da cəhd etdilər.

Danışıqların uğursuzluğunu görən SSRİ 1939-cu il avqustun 19-da Almaniya ilə ticarət sazişini, avqustun 23- də isə hücum etməmək haqqında paktı və ona əlavə olan gizli protokolu imzaladı. Müqaviləni Almaniyanın xarici işlər naziri Ribbentrop və SSRİ Xalq Xarici işlər komissarı Molotov

imzaladılar. Müqaviləyə görə tərəflər bir-birlərinə qarşı hər cür zorakılıqdan, təcavüzkarlıq hərəkətlərindən və hücum etməkdən imtina edirdilər. Əslində bu sənədlər Almaniyanın Qərbi Avropada, xüsusən Polşaya qarşı təcəvüzkar hərəkətlərinə, SSRİ-nin isə Qərbi Ukrayna, Qərbi Belorusiya, Bessara- biya və Baltikyanı ölkələrə işğalçı hücumlarına əsas verdi.

Beləliklə, dövlətlərin siyasəti, beynəlxalq münasibətlərin kəskin və ziddiyyətli inkişaf meylləri nətieəsində dünya müharibə astanasında idi.

# IX BOLUM

## İkinci dünya müharibəsi illərində beynəlxalq münasibətlər

**Avropada müharibənin haşlanması**

1939-cu il sentyabrın 1-də Almaniya Polşaya hücum etdi. Buna cavab olaraq sentyabrın 3-də İngiltərə və Fransa Almaniyaya müharibə elan etdilər. Həmin gün İngiltərənin bir sıra dominionları da müharibəyə qoşuldular. Müharibə elan etmələrinə baxmayaraq İngiltərə və Fransa Almaniyaya qarşı hərbi əməliyyatlara başlamağa can atmırdılar. Onlar Polşa qarşısında öhdəliklərini yerinə yetirmədilər.

Polşanı məğlub etdikdən sonra Almaniya müharibənin aparılması üçün əlverişli şərait qazanmaqdan ötrü hərbi əməliyyatları dayandırmağa tərəfdar olduğunu, İngiltərə və Fransaya qarşı heç bir düşmənçilik münasibətləri olmadığını bəyan etdi. Almaniyanın bu təkliflərinin dərin siyasi məqsədləri var idi. O, bütün işğallarını və müstəmləkələrə olan iddialarını qəbul etdirməyə çalışırdı. Lakin İngiltərə və Fransa hakim dairələri Almaniyanın bu təkliflərinin onların əleyhinə olduğunu başa düşərək imtina etdilər, Balkanlarda və Skandinaviyada geniş hərbi əməliyyatlara başlamağın müzakirəsini keçirtdilər.

Almaniyanın Polşaya hücum etməsindən az sonra 1939- cu il sentyabrın 17-də SSRİ Qərbi Ukrayna və Qərbi Belorusiyanı tutdu.

Hərbi tədbirlərin görülmədiyini başa düşən Almaniya qərb ölkələrinə zərbə endirmək qərarına gəldi. Nəticədə, Fransa' və İngiltərənin apardığı qəribə müharibə oıilarm özlərinə qarşı çevrildi. Almaniyanın Norveçə və Danimarkaya hücumu, ingilis-fransız ordularının Qərbi Avropada məğlubiyyətə uğradılması Avropada kəskin diplomatik müzakirələrə gətirib çıxardı. Az müddət içərisində Belçika

məğlubiyyətə uğradı. Vəziyyəti belə görən İngiltərə və Fransa diplomatiyası İtaliyanın rəhbəri Mussolininin vasitəçiliyi ilə kompromis axtarmağa bağladı. Lakin belə cəhdlərin nəticəsi olmadı. Bunun əvəzində İtaliya hökuməti 1940-cı il iyunun 10- da Fransaya müharibə elan etdi. İngilis diplomatiyası Fransanın məğlub edilməsindən öz xeyrinə istifadə etmək istədi. İngiltərə hökuməti vahid hərbi komandanlıq yaratmaq barədə təklif etdi. Lakin fransız hakim dairələri bu təklifləri rədd etdi. Fransada Peten hökuməti Almaniyaya barışıq barədə müraciət edərək mübarizənin dayandırılmasının vacibliyini bildirdi. Şari de Qoll isə Londonda çıxış edərək Almaniyaya qarşı mübarizənin davam etdirilməsinin zəmriliyini.göstərdi. Fransanın düşmüş olduğu vəziyyətindən İngiltərə və ABŞ istifadə etməyə, onun müstəmləkələrinə və donanmasına nəzarət əldə etməyə çalışırdılar. Lakin bu da heç bir nəticə vermədi. Hitler Mussolini ilə görüşərək yaranmış yeni vəziyyəti müzakirə etdi. Hiitlerin əsas məqsədi Fransada faşistpərəst rejimi hakimiyyətə gətirmək, Avropada Almaniya başda oldmaqla yeni qayda yaratmaq, Fransanı bir sıra mülklərindən məhrum etmək, İngiltərə ilə əlverişli sülh bağlamaq yolu ilə üstünlük əldə etmək idi. Lakin İngiltərə Almaniya qarşısında güzəştə getmək istəmirdi. Bundan fərqli olaraq fransız diplomatiyası Almaniya qarşısında saziş bağlamağa razı idi. 1940-cı il iyunun 22-də Almaniya ilə Fransa Kompyen meşəsində dəmiryolu stansiyasındakı vaqonda Fransanın məğlub olması haqqında saziş imzaladı. Paris hökuməti barışıq şərtlərini qəbul etdi.

Bunun ardınca iyunun 23 - də Romada İtaliya - Fransa sazişi imzalandı. Barışıq şərtlərinə görə Fransa ərazisinin xeyli hissəsi işğal zonalarına bölündü. Ölkənin əsas sənaye rayonları işğal zonalarına düşdü. Fransa yalnız 100 minlik ordu saxlaya bilərdi. Fransız hərbi əsirləri sülh bağlanana qədər Almaniyada saxlanılmalı idi.

İtaliya Fransada işğal zonası ala bilməsə də Almaniyanın bütün tələblərinə tabe oldu.

**Cənub-Şərqi Asiyada, Sakit okeanda və Latın Amerikasında beynəlxalq**
münasikətLər

Böyük dövlətlərin Avropadakı Münhen siyasəti Uzaq Şərqdə təcavüzkarı sakitləşdirmək siyasəti ilə yanaşı gedirdi. 1939-cu ilin iyulunda bağlanmış ingilis-yapon sazişi Çin'əleyhinə idi. İkinci dünya müharibəsi başlayandan sonra İngiltərə Uzaq Şərqdə Yaponiyanı sakitləşdirmək xəttini davam etdirdi. Amerika diplomatiyası Uzaq Şərqdə baş verən hadisələri diqqətlə izləyirdi. Bununla belə, Yaponiya ilə ABŞ arasında Sakit okeanda kəskin ziddiyyətlər də hökm sürürdü. ABŞ Uzaq Şərqdə və Sakit okean regionunda Yaponiyanın güclənməsinin əleyhinə idi. Bu ziddiyyətlərin əsas mövzusu neft idi. Lakin ABŞ diplomatiyası Yaponiyanı Çinə qarşı yönəltmək istəyirdi. 40-cı ilin yayından başlayaraq Cənub Şərqi Asiyada Yaponiyanın təcavüzkarlıq hərəkətləri genişləndi.

Müharibənin başlanması Latın Amerikası ölkələrinin Avropa ilə təsərrüfat əlaqələrini zəiflətdi və qərb yarımkürəsində ABŞ-m nüfuzunun artması üçün əlverişli şərait yaratdı. Müharibə başlayan kimi Panamerika ittifaqı sistemində daimi xarici siyasət orqanı yaradıldı. Bu, xarici işlər nazirlərinin məşvərət məclisi oldu. Məşvərət məclisinin 1939-cu il sentyabrın 23-də Panamada keçirilən birinci toplantısında Amerika qitəsi dövlətlərinin müharibədə bitərəfliyi haqqında bəyannamə qəbul edildi. Latın Amerikası dövlətləri hərbi əməliyyatlann qitəyə buraxılmasına yol vermək istəmirdilər. Təhlükəsizlik zonası haqqında əsasnamə pozulardısa qitə dövlətləri fərdi və kollektiv tədbirlər görməli, fəaliyyətlərini əlaqələndirməli idilər. Avropada müharibə Almaniyanın Latın Amerikasındakı mövqelərini xeyli zəiflətdi. Latın Amerikası ölkələri daha çox ABŞ-la yaxınlaşdılar. Qitə dövlətlərinin ikinci məsləhət məclisi 1940-cı il iyulun 21-30-da Havanada keçirildi. Müşavirədə müzakirə edilən əsas məsələ Amerika qitəsində Avropa dövlətlərinin mülkləri barədə idi. Bu məsələ ilə bağlı iki sənəd qəbul olundu: Amerika qitəsindəki Avropa
müstəmləkələrinin və mülklərinin müvəqqəti idarə edilməsi

haqqında və əlavə konvensiya. Bu sənədlərə görə qitə dövlətləri üçün təhlükə olardısa onlar həmin ərazilərin idarə edilməsini Amerika dövlətləri arası ərazi idarəetmə komissiyasına verməli idilər.

Müşavirənin ikinci mühüm nəticəsi Amerika dövlətlərinin müdafiəsində qarşılıqlı yardım və əməkdaşlıq haqqında bəyannamənin qəbul edilməsi oldu. Bəyannamədə məsləhətləşmələr, qarşılıqlı yardım və ölkələrdə qayda- qanunun yaradılması məsələləri əks olundu.

**1940-1941-ci illərdə dÖYİətlar ^jasında**

1940-cı ilin ortalarında Almaniyanın Avstriya, Çexoslovakiya, Polşa, Danimarka, Norveç, Hollandiya, Belçika, Lüksemburq və Fransanı işğal etməsi ilə böyük silah cəbbəxanası, hərbi sənaye, metallurgiya və sənayenin digər mühüm sahələri onun əlinə keçdi. Almaniyanın Qərbi Avropada asan hərbi qələbələr qazanması bütün Avropa üzərində onun şəriksiz hegemonluq iddialarını gücləndirdi. Lakin Avropada tam hegemon olmaq yolunda Sovet İttifaqı və İngiltərə başlıca əngəl olaraq qalırdılar. Sovet İttifaqına qarşı müharibəyə hazırlıq tam məxfi şəkildə aparılırdı. Almaniya əvvəlcə Sovet İttifaqını məğlub etmək, sonra isə İngiltərə ilə problemlərini həll etmək niyyətində idi. Ona görə də Almaniya diplomatiyası İngiltərəyə 1940- cı il iyulun 19-da müharibəni davam etdirməmək və sülh bağlamaq barədə təklif etdi. İngiltərə bu təkliflərdən imtina edərdisə, Almaniya onu tamamilə darmadağın və məhv etməklə hədələdi. Lakin İngiltərə diplomatiyası Almaniyanın bu hədələrini rədd etdi. Belə olduqda Almaniya Yaponiya və İtaliya ilə əlaqələrini daha da gücləndirdi. Almaniya 1939-cu ilin mayında İtaliya ilə bağladığı «Polad paktına» uyğun olaraq Misirdə ingilis ordularına qarşı əməliyyatlar aparmağı İtaliyadan tələb etdi. Eyni zamanda Almaniya Yaponiya ilə də əlaqələrini sıxlaşdırmaq niyyətində idi. 1940-cı il sentyabrın 27-də Tokioda Almaniya-Yaponiya-İtaliya hərbi paktının (Üçlər paktının) imzalanması mərasimi oldu. Üç dövlət paktında

Yaponiya Almaniya və İtaliyanın Avropada, İtaliya və Almaniya isə Şərqi Asiyada Yaponiyanın yeni qayda yaratmaq istəklərinə hörmət etməli idilər. Tərəflər bir sıra məxfi sazişlər imzaladılar və ümumi, hərbi və iqtisadi komissiyalar yaratdılar. Ümumi komissiya Tokio, Berlin və Romada çalışmalı idi. Ümumi komissiyanın məqsədi üç ölkənin siyasətini əlaqələndirmək, hərbi və iqtisadi komissiyaların məqsədi isə müharibənin birgə aparılması və qarşılıqlı iqtisadi yardım problemlərini həll etmək idi. Üçlər paktının imzalanması təcavüzkar dövlətlərin hərbi blokunun formalaşmasını başa çatdırdı. Blokun əsas məqsədi dünya ağalığına sahib olmaq idi. Bolqarıstan 1940-cı il noyabrın 17-də, Macarıstan noyabrın 20- də, Rumıniya noyabrın 23-də, Slovakiya isə noyabrın 24-də Üçlər paktına qoşuldular. 1941-ci ilin sonunda Finlandiya da müharibədə Almaniya tərəfdən iştirak edəcəyini bəyan etdi.

Diplomatik mübarizədə İspaniyanın müharibədə kim tərəfindən iştirak etməsi mübahisəli məsələlərdən biri idi. İspaniya Cəbəllütariqin, Mərakeşin, Əlcəzairin bir hissəsinin İspaniyaya veriləcəyi və hərbi-iqtisadi yardım göstəriləcəyi şərtlər əsasında müharibəyə qoşulmağa razı idi. 1941-ci ildə İspaniya Almaniya tərəfdən müharibədə iştirak etməyə razılıq verdi.

1941- ci il martın 25-də Vyanada Yuqoslaviyanın Almaniya blokuna qoşulması haqqında protokol imzalandı. Lakin bu ölkələrdə baş verən dövlət çevrilişindən sonra aprelin 6-da Almaniya Yuqoslaviya və Yunanıstana hücum edərək onları tutdu. Yuqoslaviya bölüşdürüldü.

Diplomatik mübarizədə Türkiyəni öz tərəfinə çəkmək və Balkanlara sahib olmaq başlıca yer tutdu. 1941-ci il iyulun 18-də Almaniya ilə Türkiyə arasında dostluq və hücum etməmək haqqında müqavilə imzalandı. Bu müqavilə ilə Almaniya özünün cənub sərhədlərinin təhlükəsizliyini təmin etdi. Almaniya Türkiyədən kifayət qədər ərzaq və digər strateji xammal almağa başladı.

1940- cı il dekabrın 5-də Almaniya rəhbərliyi SSRİ-yə hücum planını müzakirə etdi. 1941-ci ilin sonunda ŞSRİ-yə

qarşı müharibəyə başlamaq haqqında qərar qəbul edildi. Hitler dekabrın 18-də «Barbarossa planı» adlanan bu planı təsdiq etdi.

Almaniyanın Avropadakı hərbi uğurları və Yaponiyanın Asiyadakı təcavüzkarlığı qüvvələr nisbətini dəyişdirdi. Fransanın məğlub olması ilə İngiltərə özünün başlıca müttəfiqini itirdi. Bu dövrdə İngiltərə iki yol qarşısında qalmışdı: o, ya Almaniya ilə kompromisə getməli, ya da ABŞ-la əməkdaşlıq edib müharibəni davam etdirməli idi. ABŞ-la əməkdaşlıq etmək üçün İngiltərə bir sıra güzəştlərə getməyə məcbur idi. İngiltərə ABŞ-la əməkdaşlıq yolunu tutdu. ABŞ Almaniyaya qarşı mübarizədə İngiltərəyə maddi və hərbi kömək etdi, hərbi gəmilərini onun ixtiyarına verdi. 1941-ci martın 11 -də ABŞ konqresi lend-liz haqqında qanun qəbul etdi. Bu qanun prezidentə silahları, hərbi materialları və ərzağı icarəyə vermək, müdafiə məsələlərində digər dövlətlərə kömək etmək hüququ verdi. Bununla da ABŞ-İngiltərə əlaqələri xeyli genişləndi. 1940-ci ilin birinci yarısı-1941-ci ilin ikinci yarısında Avropada mövcud olan vəziyyət antifaşist hərəkatı üçün mühüm şərait yaratdı.

Almaniyanın Avropada təcavüzünün genişlənməsi ilə paralel olaraq SSRİ 1940-cı ilin iyununda Litva, Latviya və Estoniyanı tutdu.

1941- ci il iyunun 22-də səhər tezdən Almaniya SSRİ üzərinə hücum etdi. Onunla bərabər müttəfiqləri olan Rumıniya, Finlandiya, İtaliya, növbəti gün Slovakiya, iyunun 27-də isə Macarıstan Sovet İttifaqına qarşı müharibəyə girdilər. SSRİ-yə qarşı müharibənin başlanması İngiltərə və ABŞ-da pis qarşılandı. Onlar faşizmə qarşı mübarizədə Sovet İttifaqına kömək edəcəklərini bəyan etdilər. 1941-ci il iyulun 12-də Moskvada SSRİ ilə İngiltərə Almaniyaya qarşı müharibədə birgə fəaliyyət haqqında iki maddədən ibarət saziş imzaladılar. Bundan sonra sovet-ingilis münasibətlərində Avropada ikinci cəbhənin açılınası mərkəzi məsələyə çevrildi. İyulun 18-də və sentyabrın 3-də Sovet İttifaqı ikinci cəbhənin açılması məsələsini qaldırdı.

İkinci dünya müharibəsi ərəfəsində Almaniyanin İrandakı mövqeləri güclü idi. SSRİ üzərinə hücumdan sonra bu mövqelər daha da rdöhkəmləndi. Almaniya SSRİ-nin cənub sərhədləri üçün təhlükə törətməyə başladı. Belə vəziyyət SSRİ və Böyük Britaniyanı Almaniya təhlükəsinə qarşı birgə tədbirlər görməyə sövq etdi. Verilən bəyanatlardan sonra 1941- ci il avqustun 25-də qoşunlar İrana daxil oldu. 1942-ci il yanvarın 29-da isə SSRj-İngiltərə-İran müqaviləsi imzalandı. Müqaviləyə görə SSRİ və İngiltərə İranın suverenliyini və müstəqilliyini qoruyacaqlarını və ona iqtisadi yardım göstərəcəklərini bəyan etdilər. Bu müqavilənin böyük əhəmiyyəti var idi. O, antihitlerçi koalisiya ilə İranın əlaqələrini gücləndirdi.

1941- ci ildən ABŞ və İngiltərənin xarici siyasətində ciddi dəyişiklik yarandı. 1941-ci il avqustun 9-12-də Nyufaundİend adasında Ardcentiya buxtasında ABŞ prezidenti Ruzvelt və Böyük Britaniyanın baş naziri Çerçil konfrans keçirtdilər. Avqustun 14-də Atlantika xartiyası qəbul edildi. Bu sənəddə milli siyasətin bəzi ümumi prinsipləri elan edildi; bu dövlətlər ərazi iddialarına can atmırlar; hər hansı ərazi sərhəd dəyişikliklərinə imkan verməyəcəklər; bütün xalqların öz müqəddəratını təyin etmək hüququna tərəfdardırlar; faşist rejimi tam məhv ediləcəkdir; dövlətlər zor gücünə mübahisəli məsələləri həll etməyəcəklər; dənizlərdə və okeanlarda gəmilər sərbəst üzəcəklər; səmərəli əməkdaşlıq ediləcəkdir. Atlantika xartiyasında dünyanın müharibədən sonrakı quruluşuna dair bir sıra demokratik və mütərəqqi prinsiplər əks olundu.

Bundan sonra SSRİ, ABŞ və İngiltərə münasibətləri daha da inkişaf etdi. 1941-ci il sentyabrın 29-u- oktyabrın l-də Moskvada üç dövlət nümayəndələrinin konfransı oldu. Konfransda Sovet İttifaqına ABŞ və İngiltərə silahlarının, sənaye məhsullarının və ərzağmmın göndərilməsi məsələsi müzakirə edilərək müvafiq protokol imzalandı. Moskva konfransı antihitlerçi koalisiyanın yaradılmasında mühüm rol oynadı.

**AnlifaşisLkaalisiyanın möhkəmləndirilməsi. 1942-ci ilda_SSRLABŞ-ln gillərə münasibətləri**

1941-ci ilin dekabrında Moskva altında Almaniya ordu hissələrinin məğlub edilməsi antihitlerçi koalisiyanın beynəlxalq vəziyyətinə müsbət təsir etdi. 1941-ci il dekabrın 22-dən 1942-ci il yanvarın 14-dək Vaşinqtonda ABŞ və İngiltərə rəhbərlərinin görüşündə «Arkadiya» adı altında müharibənin birgə strateji planını işləyib hazırlamaq məsələləri müzakirə olundu. Konfransın nəticəsində tərəflər Almaniyanın bir nömrəli düşmən olaraq qaldığını təsdiq edərək «ox» dövlətlərinə qarşı birgə mübarizə aparmaq planının layihəsini işləyib hazırladılar.

1942- ci il yanvarın 1-də Vaşinqtonda 26 ölkənin nümayəndələri Birləşmiş Millətlərin bəyannaməsini imzaladılar. Burada ölkələrin hökumətləri faşist bloku dövlətlərinə qarşı özlərinin bütün iqtisadi və hərbi ehtiyatlarını birləşdirəcəkləri barədə öhdəlik götürdülər.

1942- ci il mayın 26-da Londonda sovet-ingilis, iyunun 11-də isə sovet-amerikan müqavilələrinin imzalanması antifaşist koalisiyasını gücləndirdi.

1942- ci ildə ikinci cəbhənin açılması məsələsi ABŞ, İngiltərə və SSRİ münasibətlərində müzakirə edildi. 1941-ci il dekabrın 7-də ABŞ-m müharibəyə qoşulması ilə Avropada ikinci cəbhənin açılması məsələsi üçtərəfli məna kəşf etməyə başladı. 1942-ci il aprelin 1-də ABŞ prezidenti Ruzvelt Qərbi Avropada hərbi əməliyyatlara dair strateji planı təsdiq etdi. Aparılan üçtərəfli yazışmalar 1942-ci ilin may -iyun aylarında V.M.Molotovun Vaşinqtona və Londona səfərləri zamanı müzakirə edildi. İkinci cəbhənin açılması məsələsinin müzakirəsi heç də rəvan getmirdi. Sovet-amerika, sovet-ingilis bəyannamələrində Avropada ikinci cəbhənin açılması zəruriliyi göstərildi.

SSRİ-yə ABŞ və İngiltərə yardımmınm göstərilməsi həm antihitlerçi koalisiyanı möhkəmləndirdi, həm də sovet- alman cəbhəsindəki vəziyyəti müttəfiqlərin xeyrinə yaxşılaşdırdı. 1942-ci ilin payızından ingilis və amerikan

orduları Şimali Afrikaya çıxarılmağa başlandı. Bu əməliyyatın böyük diplomatik - siyasi əhəmij^əti var idi. Afrikada maraqlan olan Fransa müttəfiqlərə meyl etdi. Şimali Afrikaya müttəfiqlərin girməsi Almaniya və İtaliyanın dayaqlarını sarsıtdı, onlar Fransanın Afrikadakı mülklərindən aldıqları xammaldan məhrum oldular. ABŞ və İngiltərənin birgə fəaliyyəti faşist blokunun böhranını dərinləşdirdi.

Eyni zamanda 1941-1942-ci illərdə Sakit okeanda hərbi əməliyyatlar aparan dövlətlərin diplomatik mübarizəsi kəskinləşdi. ABŞ və İngiltərə Sakit okeanda Yaponiyanın rolunu azaltmağa səy göstərirdilər. Bu məqsədlə 1941-ci il dekabrın 19-da ABŞ, İngiltərə və Çin hərbi nümayəndələrinin Çunçində keçirilən konfransında hərbi əməliyyatları əlaqələndirmək barədə razılıq əldə olundu. Çin 1941-ci il dekabrın 9-da rəsmi şəkildə Yaponiya və Almaniyaya müharibə elan etdikdən sonra ilk dəfə olaraq əlverişli beynəlxalq şərait qazandı. Uzaq Şərq və Sakit okean regionunda bu ölkənin rolu artdı. Bununla yanaşı olaraq 1941-1942-ci illərdə Hindistan, Avstraliya və Yeni Zelandiyanın beynəlxalq münasibətlərdə nüfuzu gücləndi. Yaponiyanın Asiyanın dərinliklərinə doğru irəliləməsi İngiltərənin mənafelərinə zərbə \oırduğundan ingilis diplomatiyasının bu region dövlətləri ilə əməkdaşlığı gücləndirdi.

1942-ci ilin sonu - 1943-cü ilin əvvəlində Stalinqrad ətrafında Almaniya ordu hissələrinin məğlub edilməsi antihitlerçi koalisiyanı gücləndirdi. Almaniyanın müttəfiqlərindən olan İtaliya, Rumıniya və Macarıstanın separat sülh bağlamaq eəhdləri uğursuzluqla başa çatdı. Antihitlerçi koalisiyanın möhkəmləndirilməsində 1943-cü il yanvarın 14- 24-də Ruzevlt və Çerçilin Kasablankada keçirilən görüşü başlıca rol oynadı. Yüksək hərbi rəhbərlərin də iştirak etdiyi konfransda müzakirə edilən əsas məsələ müttəfiqlərin hərbi əməliyyatlarının perspektivləri barədə idi. Konfransda siyasi problemlərə də diqqət yetirildi. Fransanı antihitlerçi koalisiyaya cəlb etmək və müqavimət hərəkatına yardım göstərmək müzakirə olundu. Şari de Qollun Kasablankaya gəlməsi Fransanın nüfuzunun artdığını göstərdi. Konfransda Türkiyənin

mövqeyi məsələsi də müzakirə edildi. İngiltərə və ABŞ Türkiyəni Almaniya bloku ölkələrinə qarşı müharibəyə qoşmaq barədə qərar qəbul etdilər. Konfransda müstəmləkələrin müharibədən sonrakı taleyi, Sakit okeanda müharibə və s. məsələlər müzakirə edildi. Müzakirələrəin nəticəsində bəyannamə qəbul olundu. Bəyannamədə tərəflərin birgə fəaliyyəti və hücum kampaniyasının planlaşdırılması, faşist bloku ölkələrinin danışıqsız təslim olması prinsipi irəli sürüldü.

1943- cü il avqustun 14-24-də Kvebekdə «Kvadrant» şərti adı altında konfrans keçirildi. Konfransda ABŞ (Ruzvelt), İngiltərə(Çerçil) və Çin(Sun Çzı-ven) və yüksək hərbi-siyasi xadimlər iştirak etdilər. Konfransın əsas məsələsi 1944-cü ildə Şimali Fransaya müttəfiq ordularının çıxarılması idi. Konfrans qərargah rəislərinin birləşmiş komitəsinin yekun məruzəsini və «Overlod» əməliyyatının ilkin planını üç mərhələdən ibarət olmaqla bəyəndi. Əməliyyatın başlanması müddəti 1944-cü il mayın 1-i üçün müəyyənləşdirildi. Konfransda Yaponiyaya qarşı müttəfiqlərin hərbi əməliyyatlar planı təsdiq edildi. ABŞ və İngiltərə rəhbərləri avqustun 19-da atom bombasının yaradılması haqqında gizli saziş imzaladılar. ABŞ və İngiltərə BMT-nin yaradılması haqqında ABŞ, İngiltərə, Çin və SSRİ-nin bəyannaməsinin mətnini hazırladılar. Konfransda Fransa milli- azadlıq komitəsinin bəyanatı, SSRİ, ABŞ və İngiltərənin xarici işlər nazirlərinin görüşü haqqında ilkin məsələ müzakirə edilərək prinsipcə bəyənildi. İtaliyanın təslim olması haqqında şərtlərə baxıldı.

1943- cü ildə Kursk altında Almaniya ordu hissələrinin darmadağın edilməsi, iyulun 10-da ingilis-amerikan ordu hissələrinin Sicilyaya çıxarılması və İtaliyanın lideri Mussolinin devrilməsi beynəlxalq münasibətlərə ciddi təsir göstərdi. 1943- cü il sentyabrın 3-də Siciliya adasında Kassibilye adlanan yerdə İtaliya ilə qısa şərtlər imzalandı. Bundan sonra ABŞ və İngiltərənin İtaliya siyasətində dəyişiklik əmələ gəldi. İtaliya müttəfiqlərin strateji planlarında Balkan siyasətini həyata keçirmələrində əsas baza rolunu oynamağa başladı. 1943-cü il sentyabrın 29-da Malta adasında Eyzenhayer və Badalyo

İtaliyanın təslim olmasının geniş şərtlərini imzaladılar. Oktyabrın 13-də İtaliya hökuməti Almaniyaya müharibə elan etdi. İtaliyanın müharibədən çıxaraq Almaniyaya müharibə elan etməsi ilə «Berlin-Roma oxu» iflasa uğradı, Almaniyanın hərbi və siyasi vəziyyəti pisləşdi və beynəlxalq aləmdə təcrid olunması sürətləndi.

Uzaq Şərqdə hərbi əməliyyatların aparılmasında Çin özünəməxsus yer tuturdu. Antihitlerçi koalisiyanın üzvü olan dövlətlər Çinə xüsusi diqqət verirdilər. 1943-cü ilin noyabrın ikinci yarısında Qahirədə Uzaq Şərqdə müharibə aparılması ilə bağlı məsələləri müzakirə etməkdən ötrü Ruzvelt, Çerçil və Çan Kay-Şi başda olmaqla nümayəndə heyətləri görüşdülər. Dekabrın 1-də üç dövlətin Qahirə bəyannaməsi elan edildi. Üç dövlətin məqsədi müharibənin gedişində Yaponiyanın işğal etdiyi Sakit okean adalarından onu məhrum etmək idi. Dövlət başçıları Atlantika Xartiyasının prinsiplərinə sadiq qaldıqlarını bəyan etdilər.

**Tehran konfransı**

İkinci dünya müharibəsinin gedişində diplomatik mübarizədə Tehran konfransının hazırlanması, gedişi və nəticələri xüsusi yer tutur. Ruzvelt və Çerçil üç dövlət başçısının konfransının keçiriləcəyi yer kimi Alyaskada Ferbcnksi, İraqda Bəsrəni, Bağdadı, Türkiyədə Ankaranı, Misirdə Qahirəni, Eritreyada Asman təklif etdilər. Konfransın keçiriləcəyi yer məsələsi mübahisələrə səbəb oldu. Bundan ötrü üç dövlətin xarici işlər nazirlərinin Moskvada müşavirəsini keçirtmək qərara alındı. Moskva konfransı 1943-cü il oktyabrın 19-30-da keçirildi. V.V. Molotov, K. Hell və A. İdenin iştirak etdiyi konfransda müharibənin müddətinin qısaldılması və ikinci cəbhənin açılması, müttəfiq dövlətlər arasında ümumi təhlükəsizlik haqqında bəyannamənin ' imzalanması, Almaniya, İtaliya, Avstriyanın taleyi, Avropa məsləhət komissiyasının təsis edilməsi və digər məsələlər müzakirə olundu. İkinci cəbhənin açılması haqqında məsələnin müzakirəsində müttəfiqlərin başlıca məqsədi müharibəni tezliklə başa çatdırmaq idi.

Konfransda müharibədən sonra dövlətlərin əməkdaşlıq etməsi və Avropa məsləhət komisiyassmın yaradılması barədə qərarlar qəbul edildi. Bu işdə Fransanın iştirakı zəruri sayıldı, Avropanın kiçik dövlətlərinin hər hansı formada birliyi haqqında layihələr ləğv edildi, hitlerçilərin törətdikləri vəhşiliklərə görə məsuliyyəti və ümumi təhlükəsizlik məsələləri haqqında bəyannamələr qəbul olundu.

Moskva konfransının qərarları üç dövlət başçısının birinei görüşü üçün zəmin hazırladı.

Tehran konfransı 1943-eü il noyabrın 28-dən dekabrın 1- dək Stalin, Ruzvelt və Çerçilin iştirakı ilə keçirildi. Konfransda dövlət başçıları ikinci cəbhənin açılması və müharibənin aparılması məsələlərini müzakirə etdilər. Bu, müttəfiqlər arasında ən kəskin məsələlərdən biri idi. Məsələnin müzakirəsi müttəfiqlər arasında fikir müxtəlifliyini göstərdi. Çerçil ikinci cəbhənin Aralıq dənizindən və Balkanlardan, Ruzvelt və Stalin isə Avropanın şimalından açılmağı təklif edirdilər. Lakin Çerçil planı həyata keçmədi, ikinci cəbhəni 1944-cü ilin mayında «Ovcrlord» adı altında Fransanın şimalından açmaq barədə qərar verildi.

Müttəfiq dövlətlər Türkiyənin antihitlerçi koalisiya tərəfindən müharibəyə qoşulması və Yuqoslaviya partizanlarına yardım göstərilməsinə dair tədbir görəcəkləri barədə razılığa gəldilər.

Yaponiyanın bitərəflik haqqında sovet-yapon müqaviləsini pozmasını əsas götürərək Stalin, Almaniya məğlub edildikdən sonra Yaponiyaya müharibə elan ediləcəyini bildirdi.

Konfransda Almaniyanın taleyi məsələsi müzakirə edildi. Üç dövlət başçısı Almaniyadan bir daha yeni müharibə törənməməsi üçün tədbirlər görəcəklərini bildirdilər. Ruzvelt Almaniyanı beş dövlətə- Prussiya; Hammver və Almaniyanın şimal-qərb rayonları; Saksoniya və Leypsiq; Hessen əyaləti, Darmştadt, Kessel, Reyndən cənuba olan rayonlar, Vestfaliyanm qədim şəhərləri, Bavariya, Baden, Vürtenberq bölməyi təklif edirdi. Bundan başqa Almaniyadan Hamburq və Kil kanalı

rayonu ayrılmalı ya Birləşmiş Millətlərin, ya da dörd dövlətin idarəçiliyinə verilməli idi. Rur və Saar vilayətləri də Millətlər Təşkilatının nəzarətinə keçməli idi. Çerçil bu təklifi bəyəndi. Almaniya haqqında məsələni Avropa məsləhət komissiyasında müzakirə etmək qərara alındı.

Konfransda Polşa haqqında məsələ də müzakirə olundu. Polşa dövlətinin sərhədlərini Kerzon xətti ilə Oder çayı boyunca ədalətli və tarixi həll etmək barədə qərar qəbul edildi. Həmçinin Keniqsbcrq və onun ətrafındakı rayonların SSRİ-yə verilməsi barədə prinsipcə razılıq əldə olundu. Tehran konfransı müttəfiq dövlətlərin müharibənin tezliklə qurtarmasına yönəldilən birgə səylərini nümayiş etdirdi. Konfransın böyük tarixi əhəmiyyəti oldu. O, faşist blokunun böhranının dərinləşdirilməsində mühüm rol oynadı.

**EaşisjLiüoJiuımıı höhEajımm dərinləşməsi və mültafiqləxiıin məğlub olması**

Almaniyanın hərbi-strateji vəziyyəti pisləşdikcə onun müttəfiqi olan ölkələrdə müharibədən çıxmaq və Almaniya ilə əlaqələri kəsmək barədə çağırışlar gücləndi. 1944-cü il sentyabrın 12-də Moskvada SSRİ, ABŞ və İngiltərə adından Rumıniya ilə barışıq imzalandı. Bundan sonra Rumıniya antifaşist xətt yeritməyə başladı.

1944- cü il sentyabrın 7-də Bolqarıstan Almaniya ilə münasibətləri rəsmi şəkildə kəsdiyini bəyan etdi. Sentyabrın 8-də isə ona müharibə elan etdi. Müttəfiqlər Bolqarıstanla oktyabrın 26-28-də Moskvada keçirilən danışıqlarda barışıq əldə edildi.

1944- cü il sentyabrın 14-dən 19-dək Moskvada müttəfiqlərin Finlandiya ilə keçirilən danışıqlarının nəticəsində barışıq imzalandı. Barışıqda Finlandiya ərazisinin hərbi cəhətdən işğalı nəzərdə tutulmamışdı. Barışıq şərtlərinə görə Finlandiya hökuməti öz qoşunlannı sovet-fin sərhəddindən geri çəkməli, ərazisindəki Almaniya silahlı qüvvələrini tərksilah

etməli, bir sıra ərazilərini Sovet İttifaqına verməli və SSRİ-yə 300 milyon Amerika dolları hƏemində təzminat ödəməli idi.

194.5-ci il yanvarın 20-də isə Macarıstan barışıq haqqında saziş imzaladı. Barışıq şərtlərinə görə o, müharibədən çıxaraq Almaniyaya müharibə elan edirdi, Çexoslovakiya, Yuqoslaviya və Rumıniya torpaqlarmmın Macarıstan tərkibinə daxil edilməsi haqqında bütün əvvəlki qərarlarını ləğv edirdi, Macarıstan sərhədləri bərpa olunurdu və bütün müttəfiq hərbi əsirləri tezliklə azadlığa buraxılırdı.

Beləliklə, faşist bloku süquta uğradı və Almaniya Avropadakı bütün müttəfiqlərindən məhrum oldu. Keçmiş müttəfiqləri Almaniyaya müharibə elan etdilər.

Tehran konfransından sonra Çerçil və Ruzvelt 1943-cü il dekabrın 4-6-da Qahirədə görüşərək Avropa strategiyası ilə bağlı məsələləri müzakirə etdilər. Onlar «Overlord» və «Envil» (Cənubi Fransaya qoşun çıxarılmasının köməkçi əməliyyatı) əməliyyatlarını 1944-cü ilin başlıca hərbi əməliyyatları kimi qəbul etdilər. Onlar ABŞ generalı Duayt Eyzenhaueri Şimali Fransaya çıxarılacaq ümumi qoşunun komandanı kimi qəbul etdilər.

1944-cü il iyunun 6-da Fransanın şimalında Normandiya sahillərində ingilis-amerikan aviasiyası düşmənin müdafiə mövqelərini bombardman edərək desant çıxartdılar. İkinci cəbhənin açılması Almaniyanın beynəlxalnq mövqelərini sarsıdaraq və antifaşist koalisiyanı gücləndirdi.

**Krım konfransı** Krım konfransı «Arqonavt» adı altında Yaltada Livadiya sarayında 1945-ci il fevralın 4-11-də oldu. Konfransa gələrkən Ruzvelt və Çerçil fevralın 2-də Maltada görüşərək müzakirələr keçirtdilər. Konfransda məğlub edildikdən sonra Almaniya ilə davranmaq, beynəlxalq təhlükəsizlik təşkilatı yaratmaq. Polşa, Avropanın azad edilməsi haqqında bəyannamələr, Yuqoslaviya, hərbi məsələləri və b. müzakirə və qəbul edildi. Hərbi məsələlərin müzakirəsində müttəfiqlər cəbhələrdə vəziyyəti müzakirə edərək fəaliyyətin əlaqələndirilməsini vacib saydılar.

Almaniya ilə bağlı məsələdə danışıqsız təslim olmanın şərtləri və məğlub edilmiş reyxlə davranmanın ümumi prinsipləri razılaşdırıldı. Avropa məsləhət komissiyası Almaniyanın danışıqsız təslim olması şərtlərini və ona nəzarət edilməsi məsələrini işləyib hazırlamalı idi. «Almaniyanın danışıqsız təslim olması» sənədində təslim olmanın şərtləri göstərildi. Almaniya işğal zonalarına bölünməli idi. Şərq işğal zonasını sovet, şimal-qərb zonasını ingilis, cənub-qərb işğal zonasını amerikan qoşunları tutmalı idi. İşğal dövründə Almaniyada ali hakimiyyət müttəfiq dövlətlərin silahlı qüvvələrinin ali baş komandanı olmalı idi. Almaniya üçün nəzarət şurası yaradılmalı idi. O, işğal zonalarında fəaliyyəti əlaqələndirməli, hərbi, siyasi və iqtisadi məsələləri həll etməli idi. Nəzarət şurasının nəzdində əlaqələndirmə komitəsi yaradılmalı idi. Nəzarət şurasında qərarlar yekdilliklə qəbul olunurdu.

Konfransda Almaniyanın işğalında və ona nəzarətdə Fransanın bərabər hüquqda iştirak etməsi barədə razılığa gəlindi. Britaniya və ABŞ -m işğal zonaları hesabına Fransaya işğal zonası verildi. -

Təzminatın alınması məsləsi də müzakirə edildi. Almaniyanın ödəyəcəyi 20 mlrd, dollar təzminatın 10 mlrd, dolları Sovet İttifaqına çatmalı idi. Almaniya təzminatı üç formada- milli sərvətlərinin alınması və hərbi potensialının ləğv edilməsi; cari məhsullarının alınması; alman işçi əməyindən istifadə olunması yolu ilə ödəməli idi. Təzminat məsələsində fəaliyyəti əlaqələndirməkdən ötrü müttəfiqlərarası komissiya yaradıldı.

Konfransda üç dövlət başçısı Almaniyanın bölünməsi məsələsini müzakirə etdilər. Bu məsələni öyrənməkdən ötrü komissiya yaratmaq barədə qərara gəlindi.

Konfransda BMT-nin nizamnaməsini tam şəkildə işləyib hazırlamaqdan ötrü 1945-ci il aprelin 25-də San-Fransiskoda konfrans keçirtmək barədə razılıq əldə edildi. 1942-ci il yanvarın 1-də Birləşmiş Millətlərin bəyannaməsini imzalayan və 1945-ci il martın 1-dək ümumi düşmənə müharibə elan edən dövlətlərin konfransa dəvət olunması qərarı qəbul olundu. BMT

Təhlükəsizlik Şurasında qərarların yekdilliklə qəbul olunması barədə Ruzvcltin təklifi bəyənildi.

Krım konfransında Polşa məsələsi polyak hökuməti və Polşanın gələcək sərhədləri aspektində müzakirə edildi. Fikir ayrılıqlarına baxmayaraq üç dövlət başçısı Polşanın şərq sərhədlərinin Kerzon xətti boyunca getməsi və ona torpaqlar verilməsi barədə qəti qərar qəbul etdilər.

Konfrans «Avropanın azad edilməsi haqqında» bəyannaməni bəyəndi.

Krım konfransı Yuqoslaviya haqqında məsələni müzakirə edərək yuqoslav hökumətinin yaradılmasını sürətləndirməyi zəruri hesab etdi.

Fevralın 11-də üç dövlət başçısı SSRİ-nin Yaponiyaya qarşı müharibəyə girməsinin şərtlərinə dair sənəd imzaladılar. Yaponiyaya müharibə elan etməyin şərtləri belə idi: Monqolustan Xalq Respublikasında mövcud vəziyyətin saxlanılması; Saxalinin cənub hissəsi və ona bitişik adaların SSRİ-yə verilməsi, Dayren ticarət limanının bcynəlmiləlləşdirilməsi, Port-Arturun hərbi-dəniz bazası kimi icarəyə verilməsi, Şərqi Çin və Cənubi Mancuriya dəmir yollarının Çin və SSRİ tərəfindən birgə istifadə olunması; Kuril adalarının SSRİ-yə verilməsi. SSRİ Avropada müharibə qurtardıqdan iki-üç ay sonra Yaponiyaya müharibə elan edəcəyi barədə öhdəlik götürdü.

Krım konfransının böyük əhəmiyyəti oldu: o, antihitlerçi koalisiyada olan yekdilliyi nürnayiş etdirdi; müharibədən sonrakı dünyanın demokratik quruluşuna dair proqramı işləyib hazırladı; gələcəkdə dövlətlər arasında məsləhətləşmələrin vacibliyini göstərdi.

**^Lat m Amerikası heynalxaLq**

İkinci dünya müharibəsinin gedişində Yaxın və Orta Şərq rayonu «ox» ölkələri ilə antihilerçi koalisiya dövlətləri arasında gərgin mübarizə meydanı idi. Mübarizə başlıca olaraq neft hövzəsi bölgələrində gedirdi. Almaniya Türkiyə, İran,

Səudiyyə Ərəbistanı və digər ölkələrə xüsusi diqqət yetirirdi. 1943-cü il sentyabrın 9-da İran da Almaniyaya müharibə elan etdi. İranda müharibə dövründə sovet, ingilis və amerikan qoşunları var idi. Müttəfiq dövlətlərin Tehran konfransı İran haqqında üç dövlətin bəyannaməsini qəbul etdi. Bəyannamədə İrana yardım, onun müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə hörmət etmək nəzərdə tutulurdu.

Dövlətlərin Türkiyədə mənafeləri toqquşurdu. Hər iki blok dövlətləri Türkiyəni öz tərəfinə çəkməyə çalışırdılar. Türkiyənin mühüm strateji vəziyyəti onu önəmli edirdi. Kasablanka konfransındakı razılığa əsasən Çerçil 1943-cü il yanvarın 31-də Adana şəhərində "fürkiyə prezidenti İsmət İnönü ilə görüşdü. Türkiyənin təhlükəsizliyini möhkəmləndirmək üçün ona ABŞ və İngiltərə yardımı göstərmək barədə razılıq əldə olundu. Görüşdən sonra Türkiyəyə hərbi nümayəndə heyətləri göndərildi.

1943-cü il dekabrın 4-6-da Ruzvelt və Çerçil Qahirədə İnönü ilə görüşdülər və Türkiyənin Almaniyaya müharibə elan etməsi barədə razılığa gəldilər. 1944-cü il avqustun 2-də Türkiyə Almaniya ilə, 1945-ci il yanvarın 3-də isə Yaponiya ilə diplomatik münasibətlərini kəsərək fevralın 23-də onlara müharibə elan etdi.

İngils ordularının tutmasından sonra 194I-ci il sentyabrın 27-də Suriyanın, noyabrın 26- da isə Livanın müstəqilliyinin elan edilməsi beynəlxalq münasibətlərə və antihitlerçi koalisiyanın güclənməsinə mühüm təsir göstərdi.

Ərəb dövlətləri cəmiyyətinin yaradılması Yaxın və Orla Şərqdə beynəlxalq münasibətlərdə əsaslı rol oynadı. 1945-ci ilin fevral-martında Qahirədə Suriya, Livan, 'fransiordaniya. Səudiyyə Ərəbistanı, İraq və Misir Ərəb dövlətləri cəmiyyətini yaratdılar və martın 22-də nizamnaməsini imzaladılar. Yəmən konfransa nümayəndə heyəti göndərmədi, lakin sonralar onun nizamnaməsini imzaladı. Konfrans baş katibin rəhbərliyi ilə cəmiyyətin katibliyini təsis etdi. 1945-ci ilin mart-aprelindo bütün yeddi ərəb dövləti cəmiyyətin yaradılmasını ratifikasiya etdi. Sənəd 1945-ci il mayın 10-da qüvvəyə mindi.

İkinci dünya müharibəsi Latın Amerikası ölkələrində dərin dəyişikliklərə səbəb oldu. Bu dəyişikliklər Avropa dövlətlərinin, xüsusən Almaniyanın, həmçinin Yaponiyanın mövqeləri zəiflədikdən sonra ABŞ-ın rolunun artması ilə səciyyələnirdi. Yaranmış şərait ABŞ-ın mənafelərinə uyğun idi. ABŞ-m güclənməsi ilə paralel olaraq Latın Amerikası ölkələrində milli-azadlıq hərəkatı da genişləndi. Yaponiyanın Perl-Xarbora hücumundan və ABŞ-m ona müharibə elan etməsindən sonra Latın Amerikası və Karib hövzəsinin bütün ölkələri (Qvatemala, Honduras, Kosta-Rika, Nikaraqua, Panama, Salvador, Haiti, Dominikan respublikası və Kuba) 1941-ci il dekabrın 8-12-də Almaniya bloku dövlətlərinə müharibə elan etdilər. Dekabr ayında Venesuela, Kolumbiya və Meksika «ox» ölkələri ilə diplomatik münasibətlərini kəsdilər. Latın Amerikasının ən böyük ölkəsi olan Braziliya 1942-ci il avqustun 22-də Almaniya və İtaliyaya müharibə elan etdi. Latın Amerikası ölkələrinin hərbi əməliyyatlarda iştirak etmələrini arzulamalarına baxmayaraq ABŞ buna razılıq vermədi. Hərbi əməliyyatlarda yalnız Braziliya və Meksika iştirak etdi. Qalan ölkələr isə döyüşən müttəfiqlərinin müharibə ehtiyaclarını ödəmək üçün fəaliyyət göstərdilər.

1942-ci il yanvarın 15-29-da Rio-de-Janeyroda Amerika dövlətlərinin xarici işlər nazirlərinin üçüncü məsləhət məclisi keçirildi. Məelisdə «ox» ölkələri ilə diplomatik münasibətlərin kəsilməsi barədə məsələ müzakirə edildi. Amerika qitəsində «ox» dövlətlərinin təxribatçılıq hərəkətlərinə qarşı fəaliyyət gücləndirildi. Ölkələrə gəliş və gediş eiddiləşdirildi. Bu qətnaməyə uyğun olaraq siyasi müdafiə üzrə fövqəladə məsləhət komitəsi yaradıldı. Müşavirədə Latın Amerikası ölkələrinin xammal bazası rolu oynaması bir daha təsdiqləndi. ABŞ Latın Amerikasınmm 16 ölkəsi ilə kömrük rüsumlarını qarşılıqlı azaltmaq haqqında saziş imzaladı. Müşavirənin nəticəsində Amerika arası müdafiə şurası yaradıldı. Müşavirədə müharibədən sonrakı dünya quruluşu məsələləri də müzakirə edildi. Beynəlxalq təhlükəsizlik məsələləri üzrə təşkilat

yaratmaq tövsiyə edildi. Konfransdan sonra Latın Amerikasında ABŞ-m rolu xeyli artdı.

**Almaniyanın danışıqsız təslim olması. BMT-nin yaradılması**

1945-ci ilin əvvəlində Almaniya tamamilə təcrid olunmuş vəziyyətə düşdü. Onun yeganə müttəfiqi olaraq yalnız Yaponiya qalırdı. Məğlub olacağını başa düşən alman diplomatiyası Avropa dövlətləri ilə separat sülh bağlamağa cəhdlər etdi. 1945-ci il aprelin 12-də Ruzveltin vəfat etməsi Almaniyanın separat sülh danışıqlarına olan ümidini artırdı. Lakin ingilis və amerikan hökumətləri belə danışıqları aparılmasını mümkünsüz saydılar. Hərbi əməliyyatların Almaniya ərazisində aparılması separat danışıqlar haqqında məsələni tamamilə arxa plana keçirtdi. 1945-ci il mayın 8-də Berlində Almaniyanın danışıqsız təslim olması haqqında sənəd imzalandı.

Müttəfiqlərin qələbəsi Aropada mürəkkəb xarici siyasət məsələlərinin həllini ön plana çıxartdı. İlk növbədə Almaniyanın danışıqsız təslim olması haqqında aktdan irəli gələn məsələləri həll etmək lazım idi. Müttəfiqlər arasında Almaniyada işğal rejimi və onun idarə olunması ilə bağlı fikir ayrılıqları üzə çıxdı. Fikir ayrılığı' eyni zamanda Polşa məsələsində də hökm sürürdü.

1945-ci il iyunun 5-də SSRİ, ABŞ, İngiltərə və Fransa Avropa məsləhət komissiyasının Ijazırladığı danışıqsız təslim olmaq haqqında aktın şərtlərinə uyğun olaraq tərtib edilən «Almaniyanın məğlubiyyəti haqqında» bəyannaməni imzaladılar. Bəyannamə Almaniyanın təslim olması şərtləri haqqında baş sənəd idi. Bəyannaməyə görə mərkəzi hökumət ləğv olunurdu. Alman silahlı qüvvələri quruda, dənizdə və havada tamamilə məğlub edilmiş hesab olunurdu. Almaniyada hakimiyyət dörd dövlətin əlinə keçirdi. Onlar işğal zonalarını və nəzarət mexanizmini yaradırdılar.

SSRİ Şərqi Avropa ölkələrinə qoşun çıxartmaqla Çexoslovakiya, Polşa, Yuqoslaviya, Bolqarıstan, Macarıstan və Rumıniyada hakim rolu oynamaq və onları öz nəzarətinə salmaq

istəyirdi. Bu ölkələrdə SSRİ-nin mənafeləri müttəfiqləri ilə toqquşurdu.

1945-ci il aprelin 25-də San-Fransiskoda sülhü və beynəlxalq təhlükəsizliyi təmin etmək üçün təşkilat yaratmağı qaı^ıya məqsəd qoyan konfrans açıldı. Konfransın işində 1942-ci il 1 yanvar tarixli bəyannaməni imzalayan və sonradan ona qoşularaq Almaniyaya müharibə elan edən dövlətlər iştirak edirdilər. İştirakçı dövlətlərə dəvətnamə ABŞ, İngiltərə, SSRİ və Çin adından göndərilmişdi. Bütövlükdə konfransa əlli dövlət qatıldı. Konfransın sədrləri V.M.Molotov, E.Stcttinius, A.lden, Sun Çzı-Ven seçildilər. Konfransın gündəliyində BMT nizamnaməsini işləyib hazırlamaq dururdu. Konfransın gedişində dörd komissiya yaradıldı: 1. Ümumi məsələlər. 2. Baş məclis. İqtisadi və Sosial şura, qəyyumluq şurası məsələləri. 3. Təhlükəsizlik Şurası məsələləri. 4. Beynəlxalq məhkəmə və digər hüquqi məsələlər. Bundan başqa nümayəndə heyəti başçılarının müntəzəm olaraq müşavirəsi də keçirildi. Məsələlərin müzakirəsi zamanı fikir müxtəlifliyi üzə çıxdı. Layihələrə düzəlişlər bir neçə qrupda sistemləşdirildi: birinci qrup düzəlişlərdə Baş Məclisin hüquqlarının genişləndirilməsi nəzərdə tutulurdu. İkinci qrup düzəlişlərdə Təhlükəsizlik Şurasının, onun daimi üzvlərinin hüquqlarının məhdudlaşdırılınası və Təhlükəsizlik Şurasının üzvlərinin sayının artırılması nəzərdə tutulurdu. Üçüncü qrup düzəlişlər beynəlxalq məhkəmənin hüquqlarının genişləndirilməsi barədə idi. Digər düzəlişlər texniki xarakter daşıyırdı. Konfrans iştirakçılarının əsas diqqəti birinci iki qrup düzəlişlər ətrafında idi.

Təhlükəsizlik Şurasında səsvermə məsələsində Krım konfransında irəli sürülən daimi üzvlər arasında yekdillik prinsipi qəbul olundu. Qəyyumluq məsələsində dövlətlərin ümumi fikir birliyi əsasında himayədə olan ərazilərin əhalisinin inkişafı üçün qəyyumluq sistemi yaratmaq irəli sürüldü. Konfrans beynəlxalq məhkəməni təsis etdi. BMT-nin iqamətgahmm yerləşdiyi yer Nyu-York müəyyən olundu.

1945-ci il iyunun 26-da BMT nizamnaməsnin qəbul edilməsi ilə San-Fransisko konfransı öz işini başa çatdırdı.

BMT-nin yaradılmasının böyük tarixi əhəmiyyəti oldu. O, beynəlxalq sülhü və təhlükəsizliyi qoruyan və əməkdaşlığı həyata keçirən* təşkilat funksiyasını yerinə yetirməyə başladı. BMT özünün mühüm.prinsiplərini- dövlətlərin bir-birinin daxili işlərinə qarışmaması, beynəlxalq mübahisələrin dinc vasitələrlə həlli və b. elan etdi.

**Potsdam konfransı** «Terminal» şərti adı altında keçiri'ən üç dövlət başçısının konfransı Berlinin 60 km-də yerləşən Potsdamda Sisilionxof sarayında (Babelsberq qəsəbəsi yaxınlığında) Stalin, Çerçil və Tnnnen başda olmaqla 1945-ci il iyulun 17-dən avqustun 2-dək oldu. Konfransın gedişində Çerçili seçkilərdə qələbə qazanmış leyborist partiyasının lideri K.Ettli əvəz etdi.

Konfransda müharibədən sonrakı Avropanın quruluşu və keçmiş düşmən dövlətlərlə sülh müqaviləsinin hazırlanması məsələsi müzakirə olundu. Dövlət başçıları bu məqsədlə ABŞ, İngiltərə, SSRİ, Fransa, Çin xarici işlər nazirlərinin şurasını təsis etdilər. Şuranın birinci vəzifəsi sülh müqavilələrini işləyib hazırlamaq idi. Şuranın yaradılınası ilə Avropa məsləhət komissiyası öz fəaliyyətini dayandırdı.

Konfransda əsas yeri Almaniya məsələsi tutdu. Müttəfiq dövlətlərin rəhbərləri Almaniya ilə davranmağın siyasi və iqtisadi prinsiplərini qəbul etdilər. Almaniyaya münasibətdə əsas prinsiplər onun demilitarizasiyası, demokratikləşdirilməsi və dcnasifikasiyası idi. Almaniya tam tərksilah olunmalı, hərbsizləşdirilməli, bütün hərbi sənayesi tamamilə ləğv edilməli, nasional-sosialist partiyası məhv edilməli, Almaniya həyatı demokratik əsasda dinc əmakdaşlıq üçün qurulmalı idi. Almaniyada nəzarət mexanizmini dörd dövlətin silahlı
qüvvələrinin ali baş komandanları həyata keçirməli idi.

Konfransda Almaniyanın ödəyəcəyi təzminat məsələsi müzakirə edildi. Almaniyanın ödəyəcəyi təzminat barədə xüsusi saziş imzalandı. Bu məsələdə Krım konfransının qərarı əsas götürüldü. Bundan başqa SSRİ qərb zonasından da əlavə kömür, ərzaq və digər məhsullar almalı idi.

Konfransda Almaniyanın hərbi-dəniz və ticarət donanmasının bölüşdünilməsi barədə qərar qəbul olundu. Alman hərbi-dəniz gəmiləri 1946-cı il fevralın 15-dək bölüşdürülüb başa çatdırılmalı idi. Ticarət gəmilərinin verilməsi isə Yaponiyaya qarşı müharibə başa çatdıqdan sonra olmalı idi.

Potsdam konfransının qərarına görə Keniqsberq rayonu SSRİ-yə verildi. Konfransda müharibə canilərinin siyahısının elan edilməsi və törətdikləri cinayətə görə cavab vermələri barədə qərar qəbul edildi.

Konfransda Polşanın dövlət sərhəddi məsələsi həll olundu. Sərhəd Oder və Neyse çayları boyunca keçməli idi.

Potsdam konfransında Almaniya tərəfindən döyüşən Avropa dövlətləri ilə sülh bağlamaq və onları BMT-yə daxil etmək haqqında məsələ kəskin mübahisələr yaratdı. Məsələnin müzakirəsi nəticəsində «Sülh müqavilələrinin bağlanması və BMT-yə daxil olma» adlı saziş imzalandı. Sazişə görə İtaliya, Bolqarıstan, Finlandiya, Rumıniya və Macarıstanla sülh müqavilələri bağlanmalı və onların BMT-yə üzvlüyü məsələsinə baxılmalı idi.

Dunayda və Reyndə üzgüçülük məsələlərini həll etmək üçün müvəqqəti naviqasiya orqanı yaradılması haqqında təklif xarici işlər nazirləri şurasının müzakirəsinə verildi.

Potsdam konfransında Stalinin Qara dəniz boğazlarına dair Montrc konvensiyasını dəyişdirmək təklifi qəbul edilmədi. Hər üç ölkənin hökumətlərinin Türkiyə ilə bilavasitə danışıqlar aparması qərara gəlindi.

Konfransda Tancer beynəlxalq zonası, Avropada daxili nəqliyyat, İrandan qoşunların çıxarılması və başqa məsələlər müzakirə olundu.

Konfransda Çerçil və Trumen ABŞ-ın atom silahına sahib olması məsələsini iclasdan kənar görüşlərində müzakirə edərək Stalinə çatdırdılar.

Konfransın gedişində, iyulun 26-da /\BŞ, İngiltərə və Çin Yaponiyanın tezliklə təslim olması haqqında bəyannaməni imzaladılar. Bəyannamənin bir surəti məlumat üçün SSRİ

nümayəndə heyətinə göndərildi. Sovet hökuməti bu bəyannaməyə avqustun 8-də qoşuldu.

Potsdam konfransının nəticəsində avqustun 1-də üç dövlət başçısı protokol və Berlin konfransı haqqında məlumat imzaladılar; Potsdamda qəbul edilən əsas sazişlərə Fransa hökuməti də qoşuldu.

Konfransın böyük tarixi əhəmiyyəti var idi. O, Avropada təhlükəsizliyin başlıca şərti kimi alman militarizminin və nasizminin kökünün kəsilməsini irəli sürdü, dövlətlərarası münasibətlərin suverenlik, milli müstəqillik, bərabər hüquqluq və daxili işlərə qarışmamaq, demokratik prinsiplər əsasında qurulmasını vacib hesab etdi.

**Yaponiyanın danışıqsız təslim olması. İkinci dünya müharibəsinin başa çatması**

1944-cü ilin sonu -1945-ci ilin əvvəlində Yaponiyanın vəziyyəti xeyli çətin idi. Müttəfiqlərin Sakit okeanda hərbi əməliyyatları genişləndirmələri, Filippin və Binnanm azad olunması və Yaponiya üzərinə hava hücumları onun vəziyyətini kəskinləşdirirdi. Aprelin 1-də Okinava adasına amerikanlar desant çıxartdıqdan sonra Yaponiyada hakimiyyət dəyişkənliyi oldu. Yapon hakim dairələrinin gözlənilən hərbi əməliyyatların qarşısını almaq üçün sülh danışıqlarına başlamağa İsveç, İsveçrə və Portuqaliyanın vasitəsi ilə cəhd etmələri uğursuz nəticələndi. Müttəfiqlərin Yaponiyaya münasibətdə əsas prinsipləri aşağıdakılardan ibarət idi: Yaponiya təcavüzkar müharibələr nəticəsində işğal etdiyi əraziləri geri qaytarmalı idi; Yaponiya məğlub edildikdən sonra yapon hökuməti öz fəaliyyətini dayandırmalı idi; Yaponiyanın işğalında müttəfiq dövlətlər iştirak etməli idilər.

Avqustun 8-də SSRİ özünü avqustun 9-dan etibarən Yaponiya ilə müharibə vəziyyətində elan etdi.

Avqustun 6-da ABŞ 13 kilotonluq atom bombasını Xirosimoya, avqustun 9-da isə 17 kilotonluq atom bombasını Naqasakiyə tulladı. Bu bombalar şəhərlərin əhalisinin 55%-ni \ ə ya 350 min nəfərini məhv etdi.

Avqustun ikinci yarısında yapon ordularının darmadağın edilməsi İndoneziya, Birma və b. ölkələrdə milli-azadlıq hərəkatına təkan vurdu. Yaponiyanın məğlub edilməsində Çin ordusu da müəyyən rol oynadı. Yaponiyanın danışıqsız təslim olması haqqında aktın rəsmi imzalanması sentyabrın 2-də ABŞ-ın Sakit okeandakı Missuri xətt gəmisində oldu. Yaponiyanın məğlub olması ilə ikinci dünya müharibəsi sona yetdi.

# X BÖLÜM

## 1941-1946-cı illərdə beynəlxalq münasibətlərdə Güney Azərbaycan məsələsi

### İrana qoşun yeridilməsi

İkinci dünya müharibəsi beynəlxalq münasibətlərdə və müstəmləkə zülmü altında olan xalqların həyatında dönüş əmələ gətirdi. Müharibənin gedişində yaranan və güelənən antifaşist hərəkatı xalqların milli-azadlıq mübarizəsinə təkan vurdu. Dünyanın böyük dövlətləri yaranmış yeni şəraitdə xalqların milli-azadlıq mübarizəsini müdafiə etsələr də onun arxasında özlərinin dərin siyasi, iqtisadi və hərbi-strateji mənafelərini güdürdülər. Dünya müharibəsinin gedişində milli-azadlıq mübarizəsinə qoşulanlardan biri də XIX əsrdə işğalçı müharibələr nəticəsində iki yerə bölünmüş Azərbaycan xalqı idi.

Almaniya Sovet İttifaqına hücum etdikdən sonra - iyunun 22-də İngiltərə, iyunun 24-də isə ABŞ SSRİ-yə yardım edəcəklərini bəyan etdilər. İngiltərənin baş naziri U.Çerçil 1941- ci il avqustun 30-da İ.Stalinə göndərdiyi məktubunda yazırdı ki, neft mənbələrini mühafizə etmək məqsədilə bizim İrana girməyimiz və Hindistandan gətirilən məhsulları defşımaq üçün İran körfəzindən Xəzər dənizinə qədər olan dəmir yolunu yenidən qunnağımız və onun fasiləsiz işini təmin etməyimiz vacibdir. Lakin yaxşı olardı ki, həm biz, həm də siz Tehrana indi daxil olmayaq. Amma Stalinin göstərişi ilə sovet qoşunları artıq avqustun 25-də Güney Azərbaycan ərazisinə yeridilmişdi. İngiltərə həmin ilin sentyabrında İrana ordu hissələrini göndərdi. Moskvanın bu addımı qonşu dövlətə qarşı hərbi təcavüz idi.

Sovet dövlətinin bu addımı onun iqtisadi, siyasi və hərbi mənafeləri ilə bağlı idi. Sovet dövləti bu regionda mühüm

iqtisadi mənafelər güdürdü. 1921-ci il 26 fevral tarixli Rusiya- İran müqaviləsi ilə Moskva əvvəllər Rusiyaya verilmiş neft, dəmiryol və filiz mədənləri konsessiyalarından imtina etdi. Lakin burada belə bir şərt də müəyyənləşdirilmişdi: Müqavilənin 13-cü maddəsinə görə İran dövləti bu konsessiyaları üçüncü dövlətin və onun vətandaşlarmın sərəncamına vcnnəməli idi. Bu maddə ilə Rusiya strateji niyyətlər güdərək İranın ərazisindən ona qarşı istifadə edilməməsinə çalışırdı. Moskvanın qəti etirazları nəticəsində 1922-ci ildə İran tərəfi ABŞ-ın «Standart oyl» şirkəti ilə bir il əvvəl bağladığı müqaviləni ləğv etdi.

1923- cü ilin dekabrında İran ABŞ-ın «Sinkler» neft şirkətinə şimal əyalətlərində-Azərbaycan, Mazandaran və Xorasanda axtarışlar aparmağa və neft çıxarmağa icazə verdi. Konsessiyalar haqqında bu müqaviləni reallaşdırmaq mümkün olmadı.

1937-ci ilin yanvarında İran hökuməti ABŞ-ın «Delavar» şirkətinə 500 min kvadrat kilometrlik ərazini konsessiyaya verdi. Konsessiya İranın şərq və şimal-şərq hissələrini əhatə edirdi. İranın bu hərəkəti Moskva tərəfindən Türkmənistanın neft rayonları üçün təhlükə və SSRİ ilə ABŞ-ın mənafelərini toqquşdurmaq cəhdi kimi qiymətləndirildi.

SSRİ İranı 1921-ci il müqaviləsini pozmaqda təqsirləndirdi. Nəicədə növbəti ildə «Delaver» şirkəti ilə bağalanan müqavilə də ləğv edildi.

1939-cu ilin martında İran hökuməti Hollandiyanın «Alqemaync Eksplokastie Maçapay» şirkətinə neft və filiz mədənlərini konsessiyaya verdi. Bu da SSRİ-nin kəskin etirazına səbəb oldu. Konsessiyanın 30 min kvadrat kilometrlik ərazini tutması və bilavasitə Bakının yaxınlığında olması SSRİ hökumətini narahat etdi. İran hökumətinin bağladığı müqaviləyə görə şirkət bu ərazidə dəmiryolları çəkməli, aerodromlar, radiostansiyalar və telefon stansiyaları tikməli idi. Bu isə Bakı neft rayonu və Moskva üçün təhlükə kimi qiymətləndirilirdi. Moskvanın kəskin etirazı nəticəsində 1944- cü ildə bu konsessiya da ləğv edildi. İran tərəfi ABŞ, İngiltərə və Hollandiya şirkətlərinə konsessiya verilməsini maliyyə

vasitələrinin, texnikanın və mütəxəssislərin çatışmaması ilə izah edirdi. Lakin SSRİ özünün iqtisadi mənafelərini güdürdü. 1944- cü ilin sentyabrında SSRİ İran hökumətinə Güney .Vzərbaycanda ona neft konsessiyaları vermək barədə rəsmi müraciət etdi. So\'ot hökuməti SSRİ-İran münasibətlərinin yaxşılaşmasının yolunun yalnız neft konsessiyalarından keçdiyini bildirdi. SSRİ-nin ləklill İran hakim dairələri tərəfindən etirazla qarşılandı. Məclis xüsusi qanunla bu barədə danışıqlar aparmağı qadağan etdi. Bu da Moskvanın kəskin narazılığına səbəb oldu.

Qoşun yeridilməsində Moskvanın siyasi və hərbi məqsədləri var idi. Hələ 1918-ci ildə sovet hökuməti 1907-ci ildə İngiltərə ilə Rusiya arasında bağlanmış İranın bölüşdürülməsi haqqında təcavüzkar niyyətlər güdən müqaviləni ləğv etdi.

1919-cu ilin martında Paris sülh konfransında İran hökuməti ərazi iddiaları barədə memorandum təqdim etdi. Bu sənəddə Azərbaycan, Ermənistan və Dağıstanın bir hissəsi tələb olunurdu. Daha sonra İran tərəfi Xəzər sahillərini, Aşqabad, Mərv, Xivə və başqa ərazilər barədə də iddialar irəli sürürdü. Sənəddə göstərilən ərazilərin ümumi sahəsi 570 min kvadrat kilometrdən çox idi. Lakin İran birinci dünya müharibəsində iştirak etmədiyindən onun tələblərinə Paris sülh konfransında baxılmadı. İkinci dünya müharibəsi ərəfəsində SSRİ rəhbərləri İranın bu hərəkətlərini bir daha xatırlatdılar və onu təsadüfi hesab etmədilər. Stalin və onun ətrafındakılar faşist Almaniyası SSRİ-yə hücum etdikdən sonra trana yenidən şübhə ilə yanaşmağa başladılar. Hitlerin hücumunu İranın niyyətlərinin həyata keçirilməsində əlverişli şərait kimi qiymətləndirən SSRİ rəhbərləri bu ölkəyə qoşun yeritmək üçün bəhanələr axtardılar. Həmin dövrdə sovet mətbuaiında faşisi Almaniyasının İran ərazisindən SSRİ-nin əsas neft rayonu olan Bakıya zərbə endirməsi fikri geniş yer aldı. Almaniyanın trana nüfuz etməsinə, iqtisadi və siyasi həyatında rol oynamasına SSRİ-yə qarşı təcavüzkarlıq kimi qiymət verildi. İranın xarici siyasətinin bu dövrdə SSRİ-yə deyil, Avropa ölkələrinə, xüsusən Almaniyaya meyl etməsi Moskvanı narahat edirdi. İran-Almaniya

iqtisadi əlaqələri də qorxu törədirdi. Məsələn, əgər 1933-34-cü illərdə, yəni faşizmin hakimiyyətə gəldiyi ilk vaxtlarda Almaniya İranın xarici ticarətində altıncı yeri tuturdusa, sonrakı illərdə bu, sürətlə artdı. 1936-1937-ci illərdə Almaniya İranın xarici ticərətində ikinci, 1938-ci ildə Sovet-İran ticarət müqaviləsi öz fəaliyyətini dayandırdıqdan sonra isə birinci yeri tutdu. Sovet dövləti belə əlaqələrindən və Almanyianın İrana casuslar yerləşdirməsindən narahat idi. İkinci dünya müharibəsi ərəfəsində İrandakı alınan ticarət nümayəndələrinin sayı 3 min nəfər idi. Onların min nəfəri Telii'anda yaşayırdı. İranın dövlət idarə və müəssisələrində alman məsləhətçilərinin işləməsi də SSRİ-ni narahat edirdi. Guya İranın xüsusi xidmət idarələrində çalışan 700 nəfərə qədər alman ölkənin iqtisadiyyatına rəhbərlik edirdi.

SSRİ-də belə hesab edirdilər ki, almanlar İran ərazisindən Bakı, Aşqabad və Qroznıya göndərilmək üçün casus qrupları hazırlayırlar. İranda silahlı faşist dəstələrinin yaradılması və silah anbarlarının tikilməsi də güman edilirdi. Sovet İttifaqında belə düşünürdülər ki, guya alman casusları İranda dövlət çevrilişi etmək istəyirlər. 1941-ci il iyunun 26-da İran hökuməti müharibədə bitərəf olacağını qəti şəkildə bildirdi. Buna baxmayaraq, sovet - hökuməti iyunun 26-da, iyulun 19-da və avqustun 16-da Hitlerçi kəşfiyyatın təxribatları barədə İran hökumətinə xəbardarhq etdi. 1941-ci il avqustun 25-də sovet hökuməti İrana nota verdi.

Notanın cavabını gözləməyən Sovet hökuməti 1941-ci il avqustun 25-də öz qoşunlarını İranın şimalına yeritdi. Bu hərəkətini sovet hökuməti 1921-ci il fevralın 26-da İranla bağladığı müqavilənin altıncı maddəsilə əsaslandırdı. Bu maddədə deyilirdi ki, əgər sovet dövlətinin sərhədləri üçün təhlükə yaranarsa və İran hökuməti onu aradan qaldınnaq iqtidarında olmazsa, Rusiyanın sovet hökumətinin müdafiə məqsədləri üçün hərbi tədbirlər görməklə İran ərazisinə öz qoşunlarını yeritmək hüququ vardır.

Qoşun yeridildikdən yalnız beş ay sonra SSRİ, İngiltərə və İran arasında müqavilə imzalandı. Müqavilədə göstərilirdi

ki, müvafiq dövlətlər İranın ərazi bütövlüyünə, suverenliyinə və siyasi müstəqilliyinə birgə hörmət edəeəklər. Sovet qoşunlarının İrana yeridilməsi asan olmadı, o, eiddi müqavimətə rast gəldi. İran tərəfi ona qarşı edilən təeavüzlə barışmaq istəmirdi. Qoşunların İrana yerləşdirilməsi ilə l'aşist planları xeyli məhdudlaşdırıldı. Rza şah və o vaxtkı rəhbərlik rus qoşunlarının təeavüzünə qarşı əsaslı şəkildə etiraz etdilər, məclisdə və mətbuatda qatı antisovet çıxışlar artdı. İrana qarşı edilən hərəkətlərə cavab olaraq müxtəlif təşkilatlar İran millətçiləri qurumunda birləşdilər. Onun tərkibinə siyasi xadimlər, hərbçilər və din xadimləri daxil oldular. İrandakı belə müqaviməti daxildən zəillətmək üçün SSRİ Güney Azərbaycandakı hərəkatı oızışdırmağa başladı. Bununla belə, İran dövləti daxilində muxtariyyət və demokratik dəyişikliklər uğrunda mübarizə Azərbaycan əhalisinin köklü mənafelərinə cavab verirdi.

Stalin 1941-ci il sentyabrın 3-də Çerçilə göndərdiyi məktubunda yazırdı ki, İranla iş həqiqətən pis alınmadı. Lakin İran bir epizoddur. Digər məktubunda Stalin ingilis qoşunlarını hətta SSRİ-nin müxtəlif rayonlarına dəvət etdi. Onun 1941-ci il 13 sentyabr tarixli məktubunda Stalin yazırdt; «Mənə elə gəlir ki, İngiltərə heç bir riskə getmədən Arxangelskə 25-30 diviziya tökə bilər, ya da onları İrandan keçməklə SSRİ ərazisində hərbi əməkdaşlıq üçün SSRİ-nin güney rayonlarında yerləşdirə bilər».

Çerçil müharibənin davam etdiyi şəraitdə farsları öz ölkəsinin daxilində qayda-qanun yaratmaq üçün məcbur etməyi irəli sürdü. Stalinə 1941-ci il 1 oktyabr tarixli məktubunda Çerçil göstərdi ki, İranın daxilində tayfalar arasında ciddi qarışıqlıq vardır və fars hökumətinin nüfuzu aşağı düşür. Onun fikrincə, belə qarışıq və mürəkkəb vəziyyət müharibənin aparılmasına mane olurdu. Çerçil Stalindən xahiş etdi ki, bu «ikinci dərəcəli cəbhədə bizim işlərimizin əlverişli inkişafı naminə fars hökumətinə qayda-qanun yaratmaq üçün qətiy>ətli göstəriş versin».

Çerçil 12 oktyabr tarixli məktubunda bu məsələ barəsində fikrini daha da formalaşdıraraq yazırdı ki, İran məsələsi barədə bizim mənafeyimiz aşağıdakından ibarətdir: birincisi, Almaniyanın Şərqə nüfuz etməsi üçün maneə yaradılması; ikincisi. Xəzər hövzəsindən göndərişlər üçün dolayı yol qurmaq. Biz burada mslarm ədalətli mənafeyinin əleyhinə həm müharibə dövründə, həm də müharibədən sonrakı vaxtda çıxmayacağıq.

İran, onun ərazisi və xalqlarının taleyi ilə bağlı məsələlər Tehran, Kj'im və Potsdam konfranslarında keçirildi. Stalin, Ruzvelt və Çerçil 1943-cü il dekabrın 1-də Tehranda keçirilən konfransın sonuncu günü qəbul etdikləri «Üç dövlətin İran haqqında bəyannaməsi»ndə bunu bir daha təsdiqlədilər. Sənəddə tərəflər İranın tam müstəqilliyini, suverenliyini və ərazi toxunulmazlığını təmin etmək istəyini bəyan etdilər.

Potsdam konfransının yeddinci iclasında da İran haqqında məsələ müzakirə edildi. İştirakçılar İran ərazisindən öz ordu hissələrini çıxaracaqlarına dair öhdəlik götürdülər.

Konfransın yekununda İran haqqında qəbul edilmiş sənəddə göstərilirdi ki, «...müttəfiq qoşunları təcili olaraq Tehrandan çıxarılacaqdır və İrandan qoşunların çıxarılmasının növbəti mərhələlərinə isə Xarici işlər nazirləri şurasının 1945-ci ilin sentyabrında Londonda keçiriləcək iclasında baxılacaqdır».

Müharibənin gedişində antihitlerçi koalisiyanın üzvü olan dövlətlərin mənafeyi faşizmə qarşı mübarizədə eyni olsa da o, qurtardıqdan sonra SSRİ İrana münasibətdə tədricən xüsusi mövqe tutmağa başladı. O, İranı parçalamağa və onu zəiflətməyə yönəldilən xəttə üstünlük verdi. Bu da səbəbsiz deyildi. Müharibənin sonuna yaxın üç böyük müttəfiq dövlət arasında mənafelər uğrunda kəskin mübarizə başlandı: onlar dünyanı öz nüfuz dairələrinə bölmək xətti götürdülər. Sovet dövləti Yaxın və Orta Şərqdə və Şərqi Avropada hegemonluq etmək məqsədilə fəal xarici siyasət yeritməyə başladı. Bu isə beynəlxalq münasibətlərdə «soyuq müharibə»nin başlanmasının səbəblərindən biri oldu.

**Birləşmiş Millətlər Təşkilatında müzakirələr**

Müharibənin sonlarında başlayan demokratiya və milli-azadlıq uğrunda mübarizənin genişlənməsi ionunda Güney Azərbayeanda milli muxtariyyai uğrunda hərəkat genişləndi. Bu təkcə rus qoşunlarının Güney Azərbaycanda yerləşdirilməsi ilə deyil, problemin uzun illər boyu mövcud olması və bütöv bir xalqın hüquqlarının pozulması ilə bağlı idi. Müharibənin gedişində yaranmış tarixi şərait ona yalnız təkan verdi. 1945-ci il dekabrın 12-də (1324-cü il azər ayının 21-də) qurulanAzərbaycan Milli hökuməti Azərbaycan xalqının mənafeyi naminə geniş tədbirlər həyata keçirtdi. Lakin bu hərəkatı və görülən tədbirləri İran tərəfi beynəlxalq miqyaslı mübahisəyə çevirdi. Azərbaycan məsələsi 1946-cı il martın 5-də Böyük Britaniyanın keçmiş baş naziri U.Çerçilin ABŞ-ın Fulton şəhərindəki çıxışı ilə əsası qoyulan «soyuq müharibə»nin ilk toxumlarının səpildiyi kəskin beynəlxalq münasibətlərin ən mübahisəli məsələlərindən biri oldu. Bu məsələ müxtəlif səviyyəli görüşlərdə, o cümlədən yenicə yaradılmış Birləşmiş Millətlər Təşkilatında mübahisə obyektinə çevrildi. S.C.Pişəvəri hərəkatı ilə Güney Azərbaycanda yaranmış vəziyyətə İran dairələrinin öz daxili işləri kimi deyil, Moskvanın müdaxiləsi kimi qiymət vermələri və buna uyğun hərəkət etmələri əbəs deyildi. Əgər İran hakim dairələri Güney Azərbaycanda milli muxtariyyat uğrunda mübarizəni ölkənin daxili işi kimi qələmə versəydi, onda bu problemi mütləq hər hansı formada həll etməliydilər və dünya dövlətləri də belə şəraitdə azərbaycanlıların hüquqlarını pozan İranı təqsirləndirə bilərdilər. Bu isə müharibədən sonrakı ilk illərdə İranın daxili və beynəlxalq vəziyyətinə xeyir gətirə bilməzdi. İranın daxili inkişafından irəli gələn və həll edilməmiş Güney Azərbaycan probleminə yalnız beynəlxalq don geyindirməklə, onu müdaxilənin nəticəsi kimi qiymətləndirməyə çalışmaqla İranın hakim dairələri ölkənin ərazi bütövlüyünü və suverenliyini qoruya bilərdilər. Yenicə

yaradılmış Birləşmiş Millətlər Təşkilatı isə məsələni öz xeyrinə həll etmək üçün ən münasib yer ola bilərdi. Buna görə də İran BMT-dən istifadə etdi. Müharibənin başa çatmasından sonrakı ilk illərdə ABŞ, İngiltərə və Fransanın SSRİ ilə kəskin qarşıdurması İran tərəfinin mənafelərinə tam uyğun gəlirdi. Ona görə də Tehran rəsmi dairələri Güney Azərbaycanda azərbaycanlıların milli muxtariyyat uğrunda hərəkatını və göidilən tədbirləri İranın daxili işlərinə Moskvanın qarışması kimi qiymətləndirməyə və dünya dövlətlərinin diqqətini buna cəlb etməyə başladılar. İranın səyləri nəticəsində Güney Azərbaycan məsələsi Birləşmiş Millətlər Təşkilatında müzakirə edildi. İranın BMT Baş Məclisindəki nümayəndə heyətinə Böyük Britaniyadakı səfiri, əslən Ordubaddan olan Seyid Həsən Tağızadə başçılıq edirdi. S.H.Tağızadonin İran nümayəndə heyətinə rəhbərlik etməsinə Tehranın müxtəlif dairələri etiraz etdilər. İran Xalq Partiyası Mərkəzi Komitəsi bildirdi ki, o, azərbaycanlıdır və xaricilərin, daha doğrusu, Moskvanın tərəfini saxlayır. Lakin 1945-ci il dekabrın 1-də Tağızadə yuxarıdan verilən göstərişləri sözsüz yerinə yetirərək İranın iki ərizəsini BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü olan SSRİ, İngiltərə, ABŞ, Fransa, Çin və eyni zamanda müvəqqəti üzvləri arasında yaydı. Həmin sənədlərdə Güney Azərbaycanda baş verən hadisələrə SSRİ-nin İranın daxili işlərinə qarışması və ölkənin parçalanmasına yönəldilən addım kimi qiymətləndirildi.

S.H.Tağızadənin geri çağırılması tələbləri şah tərəfindən yerinə yetirilmədi.

1946-cı il yanvarın 10-da Londonda BMT Baş Məclisinin birinci sessiyasında onun nizamnaməsini imzalayan dövlətlər, o cümlədən İran iştirak edirdi. Sessiyanın açılışı ərəfəsində Tehran qəzetləri İran nümayəndə heyətinə İngiltərədəki səfir Tağızadənin başçılığına yenidən kütləvi şəkildə etiraz edərək bildirdilər ki, Tağızadə "İrana münasibətdə xəyanət edir, bir xarici dövlətin mənafeyini qoruyur və onun

məqsədlərini həyata keçirir». Məcliin iclasında da bir çox deputatlar onun əleyhinə kəskin çıxış etdilər. Bütün bunlara baxmayaraq İran hökuməti Tağızadəni geri çağırmadı. Yanvarın 15-də Baş Məclisin birinci sessiyasında İran nümayəndə heyətinin başçısı Tağızadə ABŞ dövlət katibi Birnsdən sonra çıxış edərək İranın vəziyyətinin geniş şərhini verdi. Lakin onun antiazərbaycan məzmun daşıyan bu şərhi yenə də İranın bəzi dairələrini qane etmədi. 1945-ci ilin oktyabrında istefaya çıxan baş nazir Sədrin əvəzinə bu vəzifəyə seçilən Hakimi İngiltərədəki səfir Tağızadənin geri çağırılmasını qətiyyətlə tələb etdi. Lakin Hakiminin belə çıxışları da Tağızadəni geri çağırılmasına kömək etmədi. Bu vaxt Tehranın göstərişi ilə BMT Baş Məclisinin sessiyasında İranın nümayəndə heyətinin başçısı Tağızadə BMT Baş Katibinə «SSRİ-nin İranın daxili işlərinə qarışması barədə» məktub təqdim etdi. Məktubda Güney Azərbaycanda baş verən hadisələr Moskvanın işi kimi qiymətləndirildi.

Buna cavab olaraq SSRİ-nin ÇMT Baş Məclisindəki nümayəndə heyətinin başçısı A.Y.Vışinski yanvarın 24-də Təhlükəsizlik Şurasının sədrinə məktubla müraciət etdi. Vışinski İran tərəfinin məktubunu rədd edərək Güney Azərbaycandakı hadisələr üçün səbəbin xarici qoşunlarla ilə bağlı olmadığını bildirdi. Sovet qoşunları İran ərazisinə 1921-ci il 26 fevral tarixli Sovet-İran müqaviləsinə və 1942-ci il Sovet-İngiltərə-İran müqaviləsinə əsasən yeridilmişdir. Güney Azərbaycandakı hadisələr sovet qoşunlarının burada olması ilə bağlı deyildir və bunu obyektiv faktlar da təsdiq edir. Bu hadisələr İranın sırf daxili işidir. Məlumdur ki, İranın quzeyindəki xalq İran dövləti daxilində milli muxtariyyətə can atır. Həm də qeyd etmək lazımdır ki, İranın irticaçı dairələri Azərbaycana və Bakıya qarşı düşmənçilik hərəkətləri edirlər; Vışinski bu məktubun mətni ilə yanvarın 25-də Təhlükəsizlik Şurasının gündüz iclasında çıxış edəcək, Tağızadənin məktubunu əsassız hesab etdi.

Yanvarın 28-də və 30-da Vışinski 'fəhlükəsizlik Şurasında yenidən çıxış etdi. Yanvarın 30-da iclası açan Təhlükəsizlik Şurasının sədri Meykin səhv nəticəsində İran

nümayəndə heyətinin 1946-cı il 26 yanvar tarixli məktubunun gündəliyə salınmadığım bildirdi. Meykin dedi ki, İran nümayəndə heyətinin başçısı şifahi bəyanat vermək istəyir. Əgər onun xahişi yerinə yetirilərsə, onda sovet nümayəndə heyətinin başçısına da eavab sözü üçün icazə verilməlidir. İran nümayəndə heyətinin başçısı Tağızadə çıxış edərək Güney Azərbaycandakı vəziyyətin geniş şərhini verərək onu sovet qoşunlarının olması ilə əlaqələndirdi. Tağızadə bu hadisələri SSRİ-nin İranın daxili işlərinə qarışması kimi qiymətləndirdi və tərəflər arasında heç bir danışıqlar aparılmadığını göstərdi. Tağızadə bildirdi ki, əgər Sovet İttifaqı bu məsələ ilə bağlı birbaşa danışıqlara razıdırsa və Təhlükəsizlik Şurası bu yolu məsləhət görürsə, İran da razıdır.

Vışinski Tağızadənin dediklərini təkzib etdi. Göstərdi ki, Tağızadə SSRİ ilə İran arasında birbaşa danışıqların aparılmasını inkar edir, əgər dolayı yolla danışıqlar aparılsaydı, heç şübhəsiz, onu üçüncü tərəf biləidi. O, İranla SSRİ arasında bu məsələ barədə birbaşa danışıqlar aparıldığını bildirdi. Güney Azərbaycandakı hadisələri Vışinski İranın daxili problemi kimi qiymətləndirdi. Bu, Azərbaycan xalqının İran dövləti daxilində milli muxtariyyətə can atmasının təzahürüdür və onun sovet qoşunlarının bu ölkədə olması ilə heç bir əlaqəsi yoxdur. Vışinski Güney Azərbaycandakı hadisələrin Azərbaycan xalqının, milli hissələrinin sadə və düzgün əks olunduğunu söylədi. Vışinski daha sonra göstərdi ki, hadisələr baş verən vaxt İran hökumətinin kifayət qədər ordusu və polisi var idi. O, Güney Azərbaycanda qayda-qanun yarada bilərdi. Lakin sovet hökuməti bu əyalətlərə özünün əlavə qoşun hissələrini göndərməklə qan tökülməsinin qarşısını aldı. Vışinski iran tərəfinin İran ərazisindən qoşunların tezliklə çıxarılması tələb edən 13 və 15 dekabr tarixli notalarına etiraz etdi.

Vışinski Tağızadənin çıxışında deyilən «İran hökuməti sovet tərəfi ilə danışıqlara tərəfdardırv fikrinə tər əfdar olsa da göstərdi ki, bu danışıqlar İran tərəfinin istədiyi kimi Təhlükəsizlik Şurasının nəzarəti altında aparıla bilməz.

Sədr Meykin Tağızadənin xahişi ilə ona yenidən söz verdi. Tağızadə qeyd etdi ki, tan və sovet tərəfi heç bir danışıqlar apannamışlar. Müzakirələrdən sonra Təhlükəsizlik Şurası yekdilliklə qətnamə qəbul edildi. Qətnamədə deyilirdi: «Yanvarın 28 və 30-da keçirilən iclaslarda Sovet İttifaqı və İran nümayəndələrinin bəyanatını dinləyərək, Sovet yə İran tərəflərinin təqdim etdikləri sənədlərlə tanış olaraq və hər iki tərəfin müzakirə olunan məsələnin danışıqlar yolu ilə həllinə hazır olduqlarını və danışıqlara yaxın vaxtlarda başlayacaqlarını təsdiq etdiklərini nəzərə alaraq Təhlükəsizlik Şurası bu danışıqların nəticələri barədə məlumat verməyi tərəflərə təklif edir. Eyni zamanda Təhlükəsizlik Şurası danışıqların gedişi barədə məlumat tələb etmək hüququnu özündə saxlayır».

Təhlükəsizlik Şurasının iclasından sonra Sovet-İran münasibətlərində yaxınlaşma baş verdi.

Güney Azərbaycan məsələsinin BMT-də müzakirəyə çıxarıldığı bir zamanda dünya ermənilərinin Türkiyə üzərinə hücumu gücləndi. Uruqvayda yaşayan 8 min erməni adından erməni komitəsi BMT Baş Məclisinin sədrinə teleqram vura."aq «Türkiyənin ərazisində yerləşən erməni rayonları»nın sovet Ermənistanına verilməsini xahiş etdi. Eyni məzmunlu teleqramı 30 minlik Argentina erməniləri adından erməni komitəsi də BMT Baş Məclisinə göndərdi. Amerika Birləşmiş Ştatlarındakı «Ermənistanın hüquqlarının Amerika müdafiə komitəsi»nin sədri Smitin başçılığı altında Təhlükəsizlik Şurasının diqqətini bu məsələyə yönəltmək və Türkiyədən torpaqları tələb etmək üçün ABŞ-ın bir çox şəhərlərində mitinqlər keçirildi.

1946-cı ilin may ayı da ermənilərin nümayişləri ilə keçdi. ABŞ-dakı 16 erməni təşkilatı BMT Baş Katibi Tryuqve Liyə məktub göndərərək Təhlükəsizlik Şurasının gündəliyinə erməni məsələsini salmağı və onların öz vətənlərinə qayıtmalarına imkan verməyi xahiş etdi. Məktubda göstərildi: “Bütün dünyadakı 4 milyon erməni tələb edir ki, sovet Ermənistanı Qarsı, Ərdəhanı, Ərzurumu, Trabzonu, Bitlisi və Vanı alsın. Məktubda daha sonra

göstərilirdi ki, guya Emıənistan ərazisinin 0,9 hissəsi Türkiyənin tərkibindədir və «tarixi Ennənistan ennənilərdən təmizlənmişdir və bu torpaqların geri qaytarılmasından dünya siviliziyasiyası yalnız udacaqdır». Kaliforniyadakı erməni arxiyepiskomu Kalfayan da Təhlükəsizlik Şurasına eyni məzmunlu məktubla müraciət edərək bildirdi ki, «əgər indi də böyük dövlətələr rəqabət və ’ saxtakarlıqla Ermənistana xəyanət edərlərsə, bəşəriyyət ədalət haqqında danışa bilməz». Eyni məzmunlu tələblərlə dolu məktubu Livan ennəniləri də BMT Təhlükəsizlik Şurasına göndərdilər.

Ermənilərin qaldırılmasında əsasən iki məqsəd güdülürdü. Əvvəla, müəyyən qüvvələr Türkiyəni parçalamaq və zəiflətmək istəyirdi. Bunu 1945-ci ilin dekabrında iki gürcü aliminin bir sıra tarixi türk torpaqlarını qopartmaq tələbləri ilə mətbuatda dərc olunan məktubu da təsdiq edir. Yalnız 1953-cü il mayın 30-da sovet hökuməti Türkiyəyə ərazi iddiaları olmadığını rəsmi şəkildə bildirdi. İkincisi, əgər Güney Azərbaycan məsələsi həll edilərdisə, bu, Qafqazda rus siyasətinin dayağı olan ermənilərə güclü zərbə ola bilərdi.

Lakin müharibədən sonra Avropada qüvvələr nisbəti və nüfuz dairəsi uğrunda mübarizə Moskvanın xarici siyasətində dəyişikliyə səbəb oldu. O, Avropanın «xalq demoki'atiyası» ölkələrində xüsusi diqqət yetirərək Güney Azərbaycandakı hadisələri özünün dərin imperiya niyyətəlrinə qurban verdi. Bu işdə Qərb dövlətlərinin, xüsusən ABŞ və İngiltərənin təzyiqlərinin, atom silahı ilə hədələmələrinin də təsiri oldu.

1946-cı ilin martında A.A.Qromıko SSRİ-nin BMT Təhlükəsizlik Şurasındakı nümayəndəsi təyin edildi. Martın 26- da Təhlükəsizlik Şurasının iclasında İranın təklif etdiyi məsələnin gündəliyə salmıb-salmmaması üstündə mübahisələr oldu. Qromıko çıxışında bu məsələnin Təhlükəsizlik Şurasının gündəliyinə salınmamasını təklif etdi. O, bildirdi ki, sovet və İran hökumətləri arasında danışıqların nəticəsində sovet qoşunları İranın ərazisindən çıxarılacaq və fövqəladə bir şey olmasa bu prosses 5-6 həftə müddətində başa çatdırılacaqdır.

ABŞ nümayəndəsi Bims və Böyük Britaniyanın nümayəndəsi Kadoqan çıxış edərək A.A.Qromıkonun fikrinin əleyhinə çıxaraq İranın təklifinin Təlükəsizlik Şurasının gündəliyinə salınmasının vacibliyini göstərdilər. Uzun mübahisələrdən sonra SSRİ, ABŞ və Fransa nümayəndələrindən ibarət komissiya yaradıldı. Komissiya Təhlükəsizlik Şurasında məsələnin lüüzakirə qaydasını nəzərdən keçirməli idi.

1946'cı il aprelin 3-də saat 20"-da BMT Təhlükəsizlik Şurasının iclası keçirildi. Təhlükəsizlik Şurasının sədri Qo-Tay- Si iclası açaraq Baş Katib Tyurqve Linin martın 29-da A.A.Qromıkoya və İran səfiri Hüseyn Alaya göndərdiyi məktubun məzmunu ilə iştirakçıları tanış etdi. Məktub İran məsələsinin indiki vəziyyətinin izahı haqqında sorğu idi.

Sədr cavab məktublarını da oxudu. Qromıkonun məktubunda deyilirdi: «Siz 29 mart tarixli məktubunuzda sovet- İran hökümətləri arasında danışıqların vəziyyyəti, o cümlədən sovet qoşunlarının İrandan çıxarılmasının şərtləri, başqa məsələlər haqqında hər iki hökumətin saziş bağlanması barədə məlumat verməyi xahiş edirsiniz. Öz hökumətimin adından aşağıdakıları Sizə bildirməyi özümə borc bilirəm:

Bu danışıqlar İrandan sovet qoşunlarının çıxarılması barədə razılığa gətirmişdir. Qoşunların çıxarılması martın 24- dən başlanmışdır və ay yarım müddətdə başa çatacaqdır. Bu barədə mən martın 26-da Təhlükəsizlik Şurasına rəsmi məlumat vermişəm. Beləliklə, martın 18-də İran hökumətinin Təhlükəsizlik Şurasında qaldırdığı sovet qoşunlarının çıxarılması haqqında məsələ sovet-İran hökumətləri arasında razılaşmalarla həll edilmişdir.

Başqa məsələlərə gəldikdə isə onlar sovet qoşunlarının çıxarılması ilə bağlı deyildir».

Sonra Qu-Tay-Si İran səfirinin 2 aprel tarixli cavabını oxudu. Təhlükəsizlik Şurası müzakirələri aprelin 4-dək təxirə saldı.

Aprelin 4-də Təhlükəsizlik Şurasında məsələ yenidən müzakirə edildi. Təhlükəsizlik Şurası tərəflərin danışıqlara

başlamasını nəzərə alaraq məsələnin müzakirəsini yenidən aprelin 6-dək təxirə saldı.

1946-cı il aprelin 6-da SSRİ-nin BMT-dəki nümayəndəsi A.Qromıko Təhlükəsizlik Şurasına məktub göndərdi. Məktubda göstərilirdi ki, «sovet qoşunları martın 24-dən İrandan çıxarılmağa başlanmışdır və altı həftə müddətində başa çatacaqdır. Buna görə də Təhlükəsizlik Şurasının İran məsələsinə baxmasının heç bir əsası yoxdur. Sovet-İran danışıqları nəticəsində qəbul edilmiş birgə bəyannamədə bütün məsələlər barəsində razılaşmaların əldə edildiyi göstərilir. Bütün bunlar bir daha göstərir ki, İi'an məsələsinə Təhlükəsizlik Şurasında baxıla bilməz. Həm də İranın daxilində vəziyyət beynəlxalq sülh və təhlükəsizlik üçün təhlükə törətmir, bu problem onun daxili işidir. BMT nizamnaməsinin 34-cü maddəsinə görə o yalnız beynəlxalq sülh və təhlükəsizliklə bağlı məsələləri müzakirə edə bilər. Beləliklə, Təhlükəsizlik Şurasının aprelin 4-də məsələnin müzakirəsini davam etdirmək barədə qəbul etdiyi qətnamə düzgün deyildir, qeyri-qanunidir və BMT nizamnaməsi ilə ziddiyyət təşkil edir. Buna görə də sovet hökuməti tələb edir ki, bu məsələ Təhlükəsizlik Şurasının gündəliyindən çıxarılsın».

BMT Baş Katibi Tryuqve Li Təhlükəsizlik Şurasının sədri Qo-Tay-Siyə məktubla müraciət etdi. Məktub Təhlükəsizlik Şurasının 16 aprel tarixli iclasında oxundu. Tryuqve Li az qala açıq-aşkar göstərdi ki, bu məsələ gündəlikdən çıxarılmalıdır. İkitərəfli danışıqlardan sonra İran tərəfi öz şikəyətini geri götürdü. Sovet-İran münasibətlərində yaxınlaşma baş verdi. İranın mövqeyində əsaslı dəyişiklik əmələ gəldi. İran tərəfi ABŞ-daki səfiri Hüseyn Alanın fəaliyyətini və məktubunda göstərdiyi «SSRİ İranın daxili işlərinə qarışır» fiki'ini kəskin tənqid etdi. Baş nazirin müavini Müzəffər Firuz İranın ABŞ-dakı səfiri Hüseyn Alanın BMT Baş Katibinə göndərdiyi məktubla əlaqədar xarici jurnalistlərə verdiyi müsahibəsində bildirdi ki, SSRİ İranın daxili işlərinə qarışmır və belə məktubdan rəsmi Tehranın xəbəri yoxdur. O,

bildirdi ki, İran hökuməti belə bəyanatla çıxış etmək barədə ABŞ-dakı səfiri Hüseyn Alaya heç bir ğöstəriş verməmişdir.

Güney Azərbaycan məsələsinin Birləşmiş Millətlər Təşkilatında müzakirəsinə Amerika Birləşmiş Ştatlarının münasibəti necə idi? ABŞ İrandan SSRİ qoşunlarının çıxarılması məsələsindən Moskvaya təsir etmək istəyirdi. Lakin ABŞ hökuməti Güney Azərbaycanda hərəkatın əleyhinə deyildi. Bu məsələ o vaxt ABŞ dövrü mətbuatında özünə geniş yer tuturdu. 1946-cı il aprelin 14-də «Nyu-York Herald tribun» qəzeti yazırdı ki, ABŞ BMT-də həmin məsələnin müzakirəsini tələb edir. İran tərəfi öz şikayətini geri götürsə də Vaşinqton məsələnin gündəlikdən çıxarılmasının qəti əleyhinə idi. Yenə də həmin qəzet Təhlükəsizlik Şurası tərəfindən məsələnin müzakirəsinin rədd edilməsini pisləyərək göstərirdi kr, bu əslində Azərbaycan məsələsinin Şuranın gündəliyindən çıxarılmasıdır. Qeyd olunurdu ki, indiyədək Təhlükəsizlik Şurasının qərarları BMT-nin qələbəsi kimi qiymətləndirilmişdir. Əgər bu qərar qələbədirsə, onda Pirr qələbəsindən başqa bir şey deyildir. BMT Baş Katibi Tryuqve Li və Fransa nümayəndəsi Bonnenin təklifi ilə Təhlükəsizlik Şurası kompromis variant qəbul edib onu başqa vaxta keçirtdi.

Təhlükəsizlik Şurasında məsələnin müzakirəsini ABŞ və İngiltərənin təkidlə tələb etməsi İranda ciddi narazılıqla qarşılandı.

İngiltərə parlamentinin mühafizəkarlar partiyasından olan deputatı Hed «Deyli Teleqraf» qəzetində dərc etdiyi məqaləsində göstərirdi ki, İranın şikayətlərinə baxılmaması SSRİ-nin ona olan qeyri-qanuni tələbəlrinə və daxili işlərinə qarışmasına müqavimət göstənnəsi silahını əlindən alır. Lakin İran tərəfi bu fikirləri təkzib edərək bildirdi ki, məsələ İranın daxili işidir və SSRİ onun işlərinə qarışmır.

ABŞ-ın Təhlükəsizilk Şurasındakı mövqeyi ölkə xarici siyasətində ciddi müzakirələrə səbəb oldu. Dövlət departamenti Güney Azərbaycan məsələsinin və ya SSRİ-nin İranın daxili işlərinə qarışması məsələsinin gündəlikdə saxlanmasını təkid edirdi. ABŞ-ın Təhlükəsizlik Şurasındakı daimi nümayəndəsi,

dövlət katibinin müavini Stettinius isə sovet ordusu İrandan çıxarıldıqdan sonra bu məsələnin gündəlikdə saxlanmasını yersiz hesab edirdi.

Dövlət katibi Bims Güney Azərbaycan məsələsinin Təhlükəsizlik Şurasının gündəliyində saxlanmasına səs verməyi təkid edirdi. Birns Stettiniusa göstəriş vermişdi ki, Sovet, ordu hissələrinin İrandan çıxması barədə Tehranın məlumatına baxmayaraq həmin məsələ Təhlükəsizlik Şurasında müzakirə edilsin. ABŞ-m BMT Təhlükəsizlik Şurasındakı daimi nümayəndəsi Stettinius dövlət departmentinin ona təzyiqini əsas götürərək istefaya çıxmaq haqqında prezident H.Trumenə ərizə göndərdi. Stettiniusun məktubuna H.Trumen çox gec cavab verdi. Prezident ümid edirdi ki, Stettinius öz vəzifəsində qalacaqdır. Lakin Stettinius qəti şəkildə bildirdi ki, onu dövlət departamentinin «dəhlizlərində oyan-bu yana qaçan oğlan uşağına» çevirdikləri üçün fəaliyyətini dayandırır. Nəhayət, H.Trumen Stettiniusun istefasını qəbul etdi.

ABŞ höküməti Güney Azərbaycan Milli hökumətinə xüsusi maraq göstərirdi. ABŞ-ın İrandakı konsulu Rossou Güney Azərbaycan Milli hökumətinin baş naziri S.C.Pişəvəri ilə görüşündə Milli hökumətin yaradılmasını Birləşmiş Ştatların bəyəndiyini söylədi. Söhbət hökumətin gələcək planlarından gedəndə Rossou məsləhət gördü ki, Tehranla danışıqlar üçün yolu açıq saxlasın. Pişəvəri göstərdi ki, Tehran bu yolu özü bağlayır. Rossounun «Şah sizin muxtariyyətinizi tanısa necə hərəkət edəcəksiniz?» sualına Pişəvəri cavab verdi ki, təkcə tanımaq azdır, muxtariyyətin saxlanması üçün təminat lazımdır. Rossou ABŞ-ın Milli hökumətə hər cür yardım edəcəyini vəd edərək ona uğurlar dilədi.

BMT Təhlükəsizlik Şurasında İranla toqquşan Moskva müharibədən sonrakı Paris sülh konfransına İranın dəvət olunmasını təklif etdi. Vışinski çıxış edərək göstərdi ki, hələ 1946-cı il iyulun 4-də İran hökuməti beş dövlətin səfirlərinə müraciətində sülh konfransında öz iştirakını tələb etmişdir. 25 iyulda o öz tələbini yenidən təkrar etmişdir. Nəhayət, avqustun 10-da Parisdəki İran nümayəndəliyi konfransın Baş katibinə

eyni məzmunlu məktubla müraciət edərək ümumi düşmən üzərində qələbəyə töhfə və müharibədə itkilər verdiyinə görə iştirakını zəruri saymışdır. Vışinski İran hökumətinin müraciətinin yerinə yetirilməsinin vacibliyini göstərərək bildirdi ki, İran hökuməti müttəfiq dövlətlər kimi konfransa dəvət oluna bilər. Çin və ABŞ nümayəndələri də çıxış edərək bu təklifi bəyəndilər. İran nümayəndə heyəti konfransa dəvət olundu.

**Sovet-İran münasibətlərində** Birləşmiş Millətlər Təşkilatı **Güney Azərbaycan məsələsi** Baş Məclisində Güney Azərbaycan məsələsi ilə bağlı müzakirələr və Moskvanın mövqeyi İranı qətiyyən qane edə bilməzdi. Moskva ilə Tehran arasında qarşılıqlı münasibətlərdə təmas nöqtələrini tapmağa, İranın milli və dövlət mənafeyini var gücü ilə qorumağa qadir şəxsin rəhbərliyə gəlməsi, Moskva ilə danışıqların başlanması zəruri idi. Təhlükəsizlik Şurasının iclasları keçdiyi vaxtlarda, 1946-cı ilin yanvarın sonlarına yaxın İran məclisi Qəvvam-əs-Səltənəni ölkənin baş naziri seçdi. O seçilən kimi İranın Təhlükəsizlik Şurasına müraciəti məsələsi ilə məşğul olacağını bəyan etdi. Şah onu təsdiq edən kimi isə ruslarla birbaşa danışıqlara başlayacaqdır.

BMT Baş Məclisinin- birinci sessiyasında Tağızadə və Vışinskinin bəyanatı ilə əlaqədar uzun müzakirələrdən və müvafiq qətnamənin qəbul edilməsindən sonra sovet-İran münasibətlərində yaxınlaşma baş verdi. Bu yaxınlaşma həm də ABŞ-ın SSRİ-yə təzyiq göstərməsi və onu atom silahıyla hədələməsi ilə bağlı idi. 1946-cı il fevralın 23-də Qəzvin şəhərindəki «İran teatrın»da İran-SSRİ mədəni əlaqələr cəmiyyətinin Qəzvin şöbəsi Sovet ordusunun yaradılmasının 28-ci ildönümünə həsr edilmiş yığıncaq keçirtdi. Zalda sovet və İran bayraqları, Stalinin və Şahın böyük portretləri, rus və fars dillərində şüarlar asılmışdı. İclasda 800-dən çox adam iştirak edirdi. SSRİ-nin Qəzvindəki vitse-konsulu Çivile, Qəzvinin qubernatoru Şahin, mədəni əlaqələr cəmiyyəti Qəzvin şöbəsinin sədri doktor Muruzavi və «İranın dostu» qəzetinin

redaktoru Mirzə İbrahimov və başqalarının iştirak etdiyi yığıneaqda sovet-İran dostluğundan geniş bəhs edildi.

Mart ayında İrandakı sovet səfiri dəyişdirildi. İ.Sadçikov İranda SSRİ-nin fövqəladə və səlahiyyətli səfiri təyin edildi. Qəvvam-əs-Səltənə Moskvaya səfər etdi. Stalinlə bağlı qapı arxasında keçirilən danışıqlardan sonilı tərəflər heç bir sənəd imzalamadılar. Moskva danışıqları başä çatdıqdan sonra Tehrana qayıdarkən Qəvvam-əs-Səltənə yolüstü Bakıda oldu. Binə aeroportunda Azərbayean nümayəndələri onu qarşıladılar. O, Azər- bayean Dövlət Opera və Balet Teatrında «Leyli və Məcnun» tamaşasına baxdı. Səltənənin Moskva səfəri və Stalinlə keçirtdiyi müzakirələr əslində Güney Azərbaycan məsələsinin Tehranın və Moskvanın əli ilə dəfn olunması deməк idi.

Moskvada başlanan danışıqlar İran baş nazirinin Bakıda təmtəraqla qarşılanmasından sonra Tehranda davam etdirilərək 1946-cı il aprelin 4-də hər iki tərəfi təmin edən sənədin imzalanması ilə möhkəmləndirildi. Sənəd Moskva və Tehranın Güney Azgrbaycan məsələsində yekdilliyini göstərdi. Sovet- İran danışıqları haqqında bəyannamədə deyilirdi: “İran baş nazirinin Moskvada Sovet Sosialist Respublikaları İttifaqı hökumətinin rəhbərləri ilə başladığı, sovet səfiri gəldikdən sonra isə Tehranda davam etdirilən danışıqları 1325-ci il aprelin 4-də bütün məsələlər barəsində tam razılaşmaya gətirmişdir. Bunlar:

1. Qızıl Ordu hissələri 1946-cı il martın 24-dən, yəni bazar günü 1325-ci il 4 farvardindən başlayaraq bir ay yarım müddətində İranının bütün ərazisindən çıxarılırlar.
2. Qarışıq İran - Sovet Neft Cəmiyyəti yaratmaq və onun şərtləri bu ili martın 24-dən hesablanmaqla 7 ay müddətə qədər məclisin 15-ci çağırışının müzakirəsinə verilir.

Azərbaycan haqqında məsələ üzrə. Bu məsələ İranın daxili işi olduğundan hökumət və Azərbaycan əhalisi arasında mövcud qanunlara uyğun olaraq və Azərbaycan əhalisinə xeyirxah münasibət ruhunda islahatlar keçirtmək üçün dinc yol tapılacaqdır.

Bəyannaməni İranın baş naziri Əhməd Qəwam-əs Səltənə və SSRİ-nin İrandakı səfiri İ.Sadçikov imzaladılar. Sənədi şərh edən İran hökumətinin nümayəndəsi bildirdi ki, bu saziş İran hökumətinin və xalqının istəklərinə tamamilə cavab verir, sovet və İran xalqları arasında qarşılıqlı münasibətlərdə yeni mərhələ açır. Bu sənədi imzalamaqla hökumətimiz öz siyasətini həyata keçirtməkdə tam səlahiyyət və sərbəstlik almışdır. Biz Sovet İttifaqı ilə İran, həmçinin ABŞ, Böyük Britaniya ilə yaxşı qarşılıqlı münasibətlərə can atırıq. Sovet-İran sazişinin imzalanması böyük əhəmiyyətli hadisədir və biz ümid edirik ki, bu, bütün müttəfiqlər tərəfindən yaxşı qarşılanacaqdır, çünki ümumi sülhün möhkəmlənməsinə xidmət edir.

Qəvvam-əs-Səltənə bildirdi ki, sovet-İran müqaviləsi və sovet qoşunlarının İrandan çıxarılması Güney Azərbaycan məsələsinin Birləşmiş Millətlər Təşkilatında müzakirəsini artıq və lüzumsuz edir.

Danışıqlar başa çatdıqdan sonra iki ölkə arasında münasibətlərin yaxşılaşmasım Tehrandan Qəvvam-əs- Səltənənin Stalinə vurduğu teleqram da təsdiq edir. Teleqramda deyilirdi ki, Moskvada başlanan və Telıranda davam etdirilən danışıqlar əlverişli nəticələrlə başa çatdı. Bunun sayəsində iki dost və qonşu ölkələr arasında tam qarşılıqlı anlaşmaya nail olundu.

Qəvvam-əs-Səltənəyə göndərdiyi cavab teleqramında Stalin yazırdı: «İnanıram ki, danışıqlar nəticəsində SSRİ və İran arasında əldə edilən saziş ölkələrimizin xalqları arasında əməkdaşlığın və dostluğun inkişafına və möhkəmlənməsinə kömək edəcəkdir».

Beləliklə, hətta İngiltərə parlamentinin deputatları Fut və Hed ilə söhbətində İran Xalq Partiyası MK-nın üzvü də etiraf edirdi ki. Azərbaycandakı «demokratik və azadlıqsevər hərəkatın iki dövlət arasındakı münasibətlərdə əslində boğulmasının əsası qoyuldu».

SSRİ- İran danışıqlarından sonra iki ölkə arasındakı münasibətlərdə yaxınlaşma gücləndi. Aprelin 18-də İran Xarici işlər nazirliyində baş nazir Qəvvam-əs-Səltənə SSRİ-nin

İrandakı səfiri Sadçikovun şərəfinə ziyafət verdi. Nazirlərin, sovet səfirliyi əməkdaşlarının və diplomatik missiya başçılarının iştirak etdiyi ziyafətdə həm baş nazir, həm də səfir çıxış edərək iki ölkə arasındakı dostluq və qarşılıqlı anlaşmadan danışdılar.

Aprelin 22-də İran radiosu hökumətinin Güney Azərbaycana münasibətinə dair rəsmi xəbərini yaydı. Burada göstərilirdi ki, kənd təsərrüfatı, ticarət, sənaye və səhiyyə rəhbərləri yerli əncüman tərəfindən təyin edilir, onlar haqqında rəsmi əmri hökumət verir. General-qubernator əncümənin razılığı ilə hökumət tərəfindən təyin edilir, hərbi qüvvələrin və jandarmların tərkibini hökumət müəyyən edir, Azərbaycanın rəsmi dili İranın bütün digər ərazilərində olduğu kimi fars dilidir. İbtidai məktəblərdə ilk beş sinifdə dərslər Azərbaycan dilində aparılır. Azərbaycanda demokratik təşkilatların fəaliyyəti sərbəstdir, demokratik xadimlərə və əhaliyə qarşı heç bir cəza tədbirləri görülməyəcəkdir və s.

Aprelin 28-də Təbrizdə 15 min adam S.C.Pişəvə'ri başda olmaqla İran Azərbaycanı Milli hökumətinin nümayəndə heyətini danışıqlar aparmaq üçün Tehrana yola saldı. İyunun 13- də Təbrizdə Müzəffər Firuz və S.C.Pişəvəri İran hökuməti və' Güney Azərbaycan arasında sazişi imzaladılar. Sazişə görə fədailər jandarmeriyalara çevrilirdi və Azərbaycan ordusu İran ordusunun tərkib hissəsi olurdu. Azərbaycanın gəlirinin 75%-i yerli xərclərə, 25%-i mərkəzə ümumdövlət məqsədləri üçün verilirdi. Bir neçə gün sonra Pişəvəri Azərbaycan əncüməninə ərizə yazıb azad edilməsini xahiş etdi. O, baş nazir vəzifəsindən çıxsa da partiya rəhbərliyində qaldı.

İran hökuməti ilə Azərbaycan Milli hökuməti arasında bağlanmış saziş 1946-cı il iyulun 14-dən etibarən həyata keçirildi. Azərbaycan Milli Məclisi əvəzinə Azərbaycan əyalət əncüməni fəaliyyətə başladı. Azərbaycan Milli hökuməti əvəzinə Azərbaycanı idarə edən Şura yaradıldı.

İyulun 31-də İran hökumətinin nazirləri Qəvvam-əs-Səltənəyə fəaliyyət azadlığı verməkdən ötrü istefaya çıxdılar. Baş nazir yeni kabinet üzvlərinin qarşısında çıxış edərək bildirdi

ki, ölkənin bütövlüyünü qorumaqdan ötrü Rusiya, İngiltərə və ABŞ-la həqiqi dostluq münasibətləri quracaq, ölkədə sakitliyi pozanlar, irticaçılar və xalq düşmənləri ciddi cəzalandırılacaqlar.

Bu dövrdə Tehranda Qəvvam-əs-Səltənə ABŞ konsulu ilə görüşündə istiqrazlar almağa səy etdi. ABŞ tərəfi bildirdi ki, əgər İran hökuməti öz üzərinə müəyyən siyasi təəhhüdlər götürsə, ABŞ buna razı olar. Bu göıüşdən sonra İran jandarma- sında işləyən ABŞ məsləhətçilərinin müqavilə müddəti uzadıldı.

Noyabr ayından başlayaraq bəzi yerlərdə partiyalar qadağan edildi, demokratik xadimlərə böhtanlar atıldı, fövqəladə vəziyyət elan edildi, mitinq və yığıncaqlar qəli qadağan olundu.

Mərkəzi hökumət 1946-cı il sentyabrın 1-də Azərbaycan üzərinə ümumi silahlı hücuma başladı. İranın irticaçı dairələrinin bəhanələrinin qarşısını almaq məqsədilə Azərbaycan əyalət əncüməni 1946-cı il noyabrın 12-dən başlayaraq Azərbaycan xalq qoşunlarının və fədai qüvvələrinin Zəngan vilayətindən çıxmasına göstəriş verdi. İran qoşunu Zəngan vilayətini işğal etdi. Zəngana həmçinin irticaçı mülkədarların silahlı quldur dəstələri də gətirildi.

İran baş naziri Qəvvam-əs-Səltənə noyabrın 21-də İranın XV məclisinə seçkilərin guya azad keçirilməsini təmin etmək üçün bütün seçki məntəqələrinə hökumət tərəfindən «nəzarət qüvvələri» adı altında qoşun göndəriləcəyini elan etdi. Azərbaycan əyalət əncüməni buna qəti etirazını bildirdi.

Güney Azərbaycana hücum edildi. Qəvvam-əs-Səltənə dine yolla məsələni həll etmək vədinə xilaf çıxdı, h'an qoşunları toplar, tanklar, minaatanlar və təyyarələrlə dekabrın 1-dən bütün cəbhə boyu şiddətli döyüşlərə başladılar. Mərkəzi hökumət cəbhəyə bütöv ordu və onlarca tank yeritdi. Azərbaycan əyalət əncüməninin göstərişi ilə dekabrın 11-də Azərbaycan xalq ' qoşunları və fədai qüvvələri döyüş meydanlarını tərk edərək geri çəkilməyə başladılar. İran qoşunlarının ilk dəstələri 50 kəndlini güllələyib Qızıləzən

çayına atdılar. Tanklar Ərdəbil vilayətində kəndləri viran qoydular. Təbrizdə binalardan tutmuş abidələrədək hər şey dağıdıldı. Azərbaycanın şəhər, rayon və kəndlərinin küçə və meydanları fədai meyidləri ilə doldu.

Cənubi Azərbaycanın general-qubernatoru doktor Cavid və əncümənin sədri Şəbüstəri həbs edildi. Xalqa qarşı kütləvi terrora keçildi. Güney Azərbaycan İran hərbçilərinin əlinə keçdi. Təkçə dekabrın ikinci yarısında təxminən 25 min adam öldürüldü. Komendant saatı qumldu. Milli-azadlıq hərəkatına zərbə endirildi. Xalq hakimiyyəti devrildi. Azərbaycan Milli Demokratik hərəkatının qəddarcasına yatırılmasından sonra maarif və mədəniyyət sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş qanun və qərarlar ləğv edildi. Mərkəzi hakimiyyət Azərbaycan dilindən istifadə dairəsini xeyli məhdudlaşdırdı. Ana dilində çıxan kitablar yandırıldı. Təbriz universiteti və teatrı bağlandı, ana dilində radio yayımlarının və kinofilmlərinin nümayiş etdirilməsi qadağan olundu. Fars dilini rəsmi dövlət dili və ünsiyyət Vasitəsi kimi yaymaq siyasətinə yenidən başlandı.

Təhsildə Azərbaycan dili qadağan olundu. Bütövlükdə Güney Azərbaycanda orta, xüsusilə də ali təhsilə zərbə endirildi. Sonrakı illərdə Azərbaycanda yeganə təhsil ocağı kimi Təbriz universiteti saxlanılsa da onun şəraiti aşağı səviyyədə idi. İran hakim dairələri Universitetdə azərbaycanlıların azlıq təşkil etməsinə və başqa şəhərlərdən gələnlərin sayının çox olmasına çalışırdılar. Yeridilən siyasət nəticəsində az^i'baycanlılar Güney Azərbaycandan mühacirət etməyə başladılar.

İran hakim dairələri Güney Azərbaycanda mədəniyyətə də ciddi zərbə vurdu. Demokratik hüquqlar uğrunda mübarizə ruhlu bədii və elmi nəşrlər qadağan edildi. Cənubi Azərbaycanın bir sıra şair və yazıçısı mühacirət etdi. Təqib edilən mütərəqqi şair və yazıçıların əksəriyyəti öz əsərlərini xarici ölkələrdə çap etdirməyə məcbur oldular.

Şah rejimi düşünülmüş şəkildə Güney Azərbaycan tarixi abidələrini məhv etməyə başladı. Sənət adamları təqib edildi.

Mərkəzi hökumət radio və televiziyadan güclü ideoloji təsir vasitəsi və farslaşdırma aləti kimi istifadə edirdi. Azərbaycan dilindəki mətbuata kəskin zərbə endirildi. İran hakim dairələri azərbaycanlılara ölkənin bütövlüyünü parçalaya biləcək potensial bir qüvvə kimi baxmağa başladılar və onların assimilyasiya edilməsi siyasətini yeritdilər. Bu isə bütün sahələrə kəskin zərbə endirdi. Mərkəzi hökumət Güney Azərbaycanda eyni siyasəti sosial-iqtisadi sahədə yeritməyə başladı. İrticanın hücumu Güney Azərbaycanın inkişafına zərbə endirdi.

## XI BÖLÜM
# MÜHARİBƏDƏN SONRAKI İLK İLLƏRDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR. "SOYUQ MÜHARİBƏ"NİN BAŞLANMASI

İkinci dünya müharibəsi başa çatdıqdan sonra beynəlxalq münasibətlərin inkişafında yeni mərhələ başladı. 40-cı illərin ikinci yarısında beynəlxalq münasibətlər faşizmin kökünün kəsilməsinə yönəldilən tədbirlər, Almaniya və onun müttəfiqləri ilə dinc nizama salınma məsələləri, Paris sülh konfransı, iki alman dövlətinin yaradılması, "soyuq müharibə"nin başlanması, bir sıra beynəlxalq və regional təşkilatların yaradılması, Koreya, Uzaq Şərq, Çin, Fələstin məsələləri, müstəmləkə sisteminin dağılması, yeni xarici siyasət doktrinalarının meydana çıxması, iki sistem arasında mübarizə, atom diplomatiyası və s. ilə səciyyələnir.

***Miiharihədən sonrakı ilk illərdə beynəlxalq aləmdə ha^ verən əsaslı dəyiaikliklər***

1945-ci ilin mayında Avropada müharibə başa çatdı. Sentyabrın əvvəllərində isə Sakit okeanda hərbi ^əməliyyatlar dayandırıldı. Antifaşist koalisiyasının birgə səyləri ilə alman və yapon orduları məğlub oldular. Mayın 8-də Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı. Sentyabrın 2-də isə Yaponiya təslim oldu. Almaniyada nasional-sosializm, İtaliyada faşizm, Yaponiyada militarizm məğlubiyyətə uğradıldı. Beləliklə, ikinci dünya müharibəsi başa çatdı.

Müharibənin başa çatması ilə dünyanın siyasi xəritəsində əsaslı dəyişiklik əmələ gəldi. Faşizm üzərində qələbə dünyada milli-a?adhq mübarizəsini genişləndirdi. Avropa və Asiyanın əhalisi 700 mln-dən çox olan bir çox ölkələri milli-azadlıq yoluna qədəm qoydular. İmperializmin

müstəmləkə sistemi dağılmağa başladı. Nəticədə yeni-yeni müstəqil dövlətlər yarandı.

Dünyada siyasi qüvvələr nisbətində ciddi dəyişiklik baş verdi. Beynəlxalq siyasətdə, dünya məsələlərinə münasibətdə iki əsas xətt yarandı. Bir tərəfdən, ABŞ və onun müttəfiqlərinin xətti, digər tərəfdən isə SSRİ və onun rəhbərliyi ilə "xalq demokratiyası" adlandırılan dövlətlərin xətti. Əslində ikinci xətt daha çox SSRİ-nin buyruğuna əsaslanırdı. Beynəlxalq işlərdə iki xəttin mübarizəsi kapitalist və sosialist adlandırılan dövlətlər arasında mübarizəni əks etdirirərək bütün müharibədən sonrakı dövr üçün xarakterik idi.

***Almaniyanın keçmiij mntojiqhri ih dinc nizamasalma məsəl,ıhii***

Müharibə qalibiyyətlə başa çaldıqdan sonra faşizm üzərində qələbəni möhkəmləndirmək, uzun-müddətli və ədalətli demokratik sülh yaratmaq beynəlxalq münasibətlərdə mühüm vəzifələrdən biri oldu. Avropa xalqlarının milli müstəqilliyinin və demokratik azadlıqlarının bərpa edilməsi, hərbi eanilərin cəzalandırılması, Avropada faşizmin bir daha baş qaldıımaması üçün şəraitin qəti məhv edilməsi, Avropa dövlətləri arasında uzunmüddətli siyasi, iqtisadi və mədəni əməkdaşlığın həyata keçirilməsi ön plana keçdi.

Potsdam konfransının qərarlarına uyğun olaraq dinc nizamasalma məsələlərini həll etmək üçün yaradılmış Xarici İşlər Nazirləri Şurasının birinci sessiyası 1945-ci il sentyabrın ll-dən oktyabrın 2-dək Londonda keçirildi. Bütövlükdə Şuranın 6 sessiyası keçirildi: İlk üç sessiya 1945-1946-cı illərdə Londonda (1945-ci il 11 sentyabr - 2 oktyabr), Parisdə (1946- cı il 25 aprel - 16 may və 15 iyun - 12 iyul), Nyu-Yorkda (1946-cı il 4 noyabr - 12 dekabr) keçirildi. Bu sessiyalarda Almaniyaya dair məsələlər, İtaliya, Rumıniya, Bolqarıstan, Macarıstan və Finlandiya ilə sülh müqavilələri müzakirə

olundu. Sülh müqavilələrinə hazırlıq işləri XİNŞ-in Nyu- Yorkda keçirilən üçüncü sessiyasında başa çatdırıldı. Dörd, beş və altıncı sessiyalar 1947 və 1949-cu illərdə Moskva, London və Parisdə keçirildi. Bu sessiyalarda isə alman məsələsi və Avstriya dövlət müqaviləsi layihəsi məsələsi müzakirə edildi.

Birinci sessiyada SSRİ nümayəndə heyətinə Xarici İşlər naziri V.M.Molotov, ingilis nümayəndə heyətinə Xarici İşlər naziri E.Bevin,' ABŞ nümayəndə heyətinə dövlət katibi C.Birns başçılıq edirdilər. Bevin və Birnsin təklifi ilə XİNŞ birinci sessiyasına Fransa və Çin nümayəndə heyətləri də dəvət olundular.

ABŞ və Böyük Britaniya Sovet İttifaqının Rumıniya və Bolqarıstanda yeritdiyi sovetləşdirmə siyasətinə və ordularını bu ölkələrdə saxlamaq istəyinə qarşı çıxaraq demokratik hökumətlər yaradılmaymca onlarla sülh müqaviləsi bağlanmasının mümkünsüzlüyünü bəyan etdilər.

Macarıstana gəlincə, ABŞ və İngiltərə nümayəndə heyətləri bildirdilər ki, bu ölkədə vəziyyət amerikan anlamında demokratiyaya yaxınlaşarsa, mövcud müvəqqəti hökuməti tanımaq mümkündür. ABŞ və İngiltərə Dunay çayının müharibədən əvvəlki rejimini bərpa etməyi təklif etdilər. Rumın və bolqar hökumətləri demokratiyaya meylli olmadıqları j üçün konkret sülh müqaviləsinə baxılmadı.

İtaliya məsələsinin müzakirəsi zamanı iki mübahisəli məsələ yarandı: İtaliya-Yuqoslaviya sərhəddi və keçmiş İtaliya müstəmləkələri. Nazirlər bu məsələləri yenidən işləməyi müavinlərinə tapşırdılar.

Sessiyanın işinə və sülh müqavilələrinin hazırlanmasına ABŞ və İngiltərənin yeni-yeni dövlətləri cəlb etmək təşəbbüsü SSRİ tərəfindən narazılıqla qarşılandı.

Sentyabrın 29-da Birns Almaniyanın keçmiş müttəfiqləri ilə sülh müqavilələrinə baxmaqdan ötrü konfrans çağırmaq barədə'təkliflə çıxış etdi. Birns konfransın tərkibinə

BMT-nin Avropadan olan bütün üzvlərini və qeyri Avropa dövlətlərini qoşmağı təklif etdi. Sülh müqavilələrinin son mətnini konfransa dəvət olunan Almaniyaya müharibə elan edən dövlətlərlə birgə işləyib hazırlamaq nəzərdə tutulurdu. Oktyabrın 2-də sessiya işini başa çatdırdı. XİNŞ-in birinci sessiyası dinc nizamasalma məsələsində iki xəttin mövcud olduğunu nümayiş etdirdi.

1945-ci il oktyabrın 24-25-də İ.V.Stalinin ABŞ səfiri A.Harrimanla söhbətində XİNŞ-i toplamaq, onda sülh müqavilələri layihəsini hazırlamaq, dəvət üçün razılaşdırılmış ölkələrin konfransını çağırmaq məsələləri müzakirə edildi.

Ümumi razılığa əsasən 1945-ci il dekabrın 16-26-da Moskvada ABŞ, SSRİ və Böyük Britaniya Xarici İşlər nazirlərinin müşavirəsi oldu. Potsdam konfransının qərarlarına ' uyğun olaraq sülh müqavilələrinin işlənib hazırlanmasına dair razılıq əldə edildi.

Müşavirə həmçinin XİNŞ-in hazırladığı sülh müqavilələrinin layihəsini müzakirə etmək üçün konfrans çağırılması məsələsinə baxdı. Konfrans iştirakçılarının hansı dövlətlərdən dəvət edilməsi məsələsi, kəskin müzakirələr yaratdı. Nəticədə iştirakçıların tərkibinin 21 dövlətdən ibarət olması barədə razılıq əldə edildi. Rumıniya və Bolqarıstan hökumətlərinə öz tərkiblərinə müxalifət partiya və qruplarından iki loyal nümayəndə daxil etmək təklif olundu. Təklif yerinə yetirilən kimi ABŞ və Böyük Britaniya Bolqarıstan və Rumıniya hökumətlərini tanıyacaqlarını bəyan etdilər.

Moskva müşavirəsinin qərarlarına uyğun olaraq Xarici İşlər Nazirləri Şurasının ikinci sessiyası keçirildi. İclasın birinci hissəsi 1946-cı il aprelin 25-dən mayın I6-dək Parisdə oldu. Sessiyada iqtisadi, Dunayda gəmiçilik, İtaliya- Yuqoslaviya sərhəddi və İtaliyanın ödəyəcəyi təzminat məsələləri kəskin mübahisələr yaratdı. ABŞ və İngiltərə sülh müqaviləsinə azad ticarət və xarici kapital üçün bərabər imkanlar yaradan şərtlərin daxil edilməsini təklif etdilər.

Sovet İttifaqı bu təklifi xarici inhisarların İtaliya, Rumıniya, Macarıstan və Bolqarıstanda ağalıq etməsi cəhdi kimi qiymətləndirdi, ABŞ və İngiltərə isə həmin məsələyə bu ölkələrin müharibədə dağıdılmış təsərrüfatının bərpasına yönələn xətt kimi baxırdılar.

Dunayda gəmiçilik məsələsində ABŞ, İngiltərə və Fransa azad gəmiçiliyi təmin edən beynəlxalq nəzarəti irəli sürdülər. Bunun əleyhinə çıxan SSRİ Yuqoslaviya və Çexoslovakiyanın mənafelərinin nəzərə alınmasını təklif etdi. Triest, İtaliya-Yuqoslaviya sərhəddi və b. Dunay məsələsi ilə bağlı idi. Sovet İttifaqı sərhədlərin etnoqrafik prinsiplərə görə qurulmasını, Triestin federal vahid kimi Yuqoslaviya tərkibinə daxil edilməsini, Yuqoslaviya, İtaliya, Avstriya, Çexoslavakiya və başqa maraqlı dövlətlərdən ibarət beynəlxalq komissiya tərəfindən Triestdə azad liman rejimi qurulmasını təklif etdi. ABŞ, İngiltərə, Fransa isə Triesti İtaliyanın tərkibinə qatmağa çalışırdılar. Uzun müzakirələrdən sonra kompromis tövsiyə qəbul olundu: sərhəd xətti etnik prinsipə yaxınlaşmalıdır və Triest limanının rejimi digər azad limanlarda olduğu kimi işlənib hazırlanmalıdır. Lakin Triestin hansı dövlətə mənsub olması məsələsi barədə razılıq əldə edilmədi.

İtaliya müstəmləkələri və İtaliyanın ödəyəcəyi təzminat barədə məsələ də kəskin mübahisələrə səbəb oldu. Nəticədə İtaliya müstəmləkələri haqqında məsələnin təxirə salınması və əgər dörd dövlət bir il müddətində onu həll edə bilməzlərdisə, onda bu məsələni BMT Baş Məclisinin müzakirəsinə vermək barədə razılığa gəlinməliydi. Sonralar İtaliya müstəmləkələri haqqında məsələ BMT Baş Məclisinin müzakirəsinə verildi. 1949-1950-ci illərdə BMT Baş Məclisi Liviyanın müstəqilliyi haqqında qərar qəbul etdi. 1949-cu ildə BMT Baş Məclisi Somalinin cənub-şərq hissəsini 1960-cı il iyulun l-dən BMT himayəsində olan ərazi kimi İtaliyanın idarəçiliyinə verdi. 1960-cı il iyulun 1-də isə Somalinin müstəqilliyi elan olundu.

Rumıniya, Macarıstan və Finlandiya ilə sülh müqavilələrinin əsasını barışıq haqqında saziş tuturdu. Buna görə Rumıniya və Finlandiya SSRİ-yə 300 mln.dollar, Macarıstan isə 200 mln.dollar SSRİ-yə, 100 mln.dollar Çexoslovakiyaya və Yuqoslaviyaya, İtaliya bundan əlavə SSRİ-yə 100 mln.dollar təzminat ödəməli idi. ABŞ və Böyük Britaniya təzminatın cari italyan sənaye məhsulu hesabına ödənilməsinə qarşı çıxdı.

Sessiyanın işinin birinci hissəsində tam razılığa gəlinmədi. Bununla belə, Birns və Bevin sülh konfransının tezliklə çağırılmasına səy etdilər.

XİNŞ ikinci sessiyasının ikinci hissəsi 1946-cı il iyunun 15-dən iyulun 12-dək keçirildi. İlk iclaslardan birində Birns konkret təklif irəli sürdü: əgər Şuranın digər üzvləri təzminat almaqdan imtina edərlərsə, ABŞ da ondan imtina etməyə hazırdır. Bevin ABŞ dövlət katibini müdafiə etdi. Sülh müqaviləsi layihəsinin iqtisadi maddələrinin müzakirəsində ümumi razılıq əldə olunmadığından həmin maddələr və Dunayda gəmiçilik rejiminə dair maddələr də iki redaksiyada verildi. ABŞ və İngiltərə bütün Dunay çayında sərbəst gəmiçiliyi, SSRİ isə yalnız Dunayətrafı dövlətlərin üstünlüyünü təklif edirdi.

İtaliya-Yuqoslaviya sərhəddi və Triestin statusu məsələsi müzakirə edilərkən Fransa nümayəndə heyəti öz planını irəli sürdü. Bu plana görə İtaliya-Yuqoslaviya sərhəddində yalnız fransız ekspertləri qəbul edilirdi, Triest üçün isə BMT nəzarəti altında 10 il müddətində beynəlxalq rejim yaradılırdı. Tərəflər uzun mübahisələrdən sonra bu məsələ barədə kompromisə gəldilər. Triest azad ərazisi İstriya sahillərinə qədər geniş bir'sahəni əhatə etməli idi. Triestin statusu haqqında layihə qəbul olundu, SSRİ bu məsələdə Yuqoslaviyadakı mövcud rejimi müdafiə etdi.

Təzminat məsələsi həll edilmədi'. İtaliya təzminatı və konfrans çağırmaq məsələlərini eyni vaxtda həll etmək barədə iyulun 4-də Şuranın qapalı iclasında qərar qəbul edildi. ABŞ

və İngiltərə italyan sənayesinin cari məhsulları hesabına təzminatın ödənilməsinə qarşı olan etirazlarını geri götürdülər. Konfransı iyulun 29-da çağırmaq barədə qərar qəbul edildi. İyulun l2-də XİNŞ sessiyası öz işini başa çatdırdı.

***Paris sülh konfransı.***

1946-cı il iyulun 29-da 21 dövlətin sülh konfransı açıldı. Konfransın ilk günü prosedura qaydaları müzakirə edilərkən iki xəttin mövcud olduğu üzə çıxdı. ABŞ və İngiltərə qərarların sadə səs çoxluğu ilə, SSRİ isə 2/3 ilə qəbul olunmasını irəli sürdü. Nəticədə kompromis variant kimi hər iki səsvermə qaydası qəbul edildi.

Konfransda əsas yeri İtaliya-Yuqoslaviya sərhəddi və Triest məsələləri tutdu. Sovet İttifaqı Yuqoslaviyanı müdafiə etdi. Triestin statusu haqqında məsələ iki aya yaxın müzakirə edildikdən sonra ABŞ layihəsi qəbul olundu.

Dunayda gəmiçilik məsələsində SSRİ bərabər imkanlara, azad ticarətə qarşı çıxmasına baxmayaraq, səsvermə zamanı ingilis-amerikan layihəsi qəbul edildi. Dunayda naviqasiya bütün dövlətlərin gəmiləri, malları və vətəndaşları üçün tam bərabərlik əsasında azad və açıq olmalı idi. Qətnamənin ikinci bəndinə əsasən məsələləri həll etmək üçün dörd dövlət və Dunay sahili dövlətlər konfrans çağırmalı idilər.

Kompensasiya verilməsi məsələsində ABŞ kompensasiyanın həcmini vurulan ziyanın 1/4 qədər, Fransa isə 75% təklif etdi. Səsvermə nəticəsində ABŞ və müttəfiqləri Fransanın təklifinin lehinə səs verdilər. SSRİ isə bu təklifin əleyhinə çıxdı.

Konfransda təzminat məsələsi də kəskin müzakirələr yaratdı. Avstraliya nümayəndə heyəti Rumıniya ilə sülh müqaviləsi layihəsinə iki düzəliş etdi. Birincisi, təzminat məsələsi üzrə komissiya yaradılsın. Bu komissiya təzminatın məbləğini müəyyənləşdirməli və ödənilməsinə nəzarət etməli

idi. İkincisi, təzminat məhsullarla deyil, dollarlarla və funt sterlinqlə ödənilsin. Lakin bu düzəlişlər qəbul olunmadı.

İngiltərə İtaliyadan 2880 mln.funt sterlinq (11 mlrd, dollar) təzminat tələb etdi. ABŞ İtaliyanın ona 20 mlrd.dollar ziyan vurduğunu bəyan etdi. Yunanıstan İtaliyadan 2 mlrd. 887 mln.dollar, Bolqarıstandan isə 985 mln.dollar təzminat istəyirdi. Lakin ABŞ və İngiltərə onlara çatacaq təzminatı tam həcmdə alınmasından könüllü imtina etdilər. Onlar yalnız xarici banklardakı ' İtaliya * aktivlərini almaqla kifayətlənəcəklərini bəyan etdilər.

Paris konfransı 1946-cı il oktyabrın 12-də öz işini sona çatdırdı.

Nyu-Yorkda BMT Baş Məclisinin sessiyası ilə paralel olaraq 1946-cı il noyabrın 4-dən dekabrın 12-dək XİNŞ üçüncü sessiyası keçirildi. Sessiyada Dunay məsələsində bəzi dəyişiklik edildi. Bu dəyişikliyə görə Dunay çayında azad gəmiçilik yalnız limanlar və naviqasiya üçün məhdudlaşdırıldı. Dunay məsələsi barədə konfrans çağırılması sülh müqaviləsinin mətninə daxil edilməyərək, yalnız XİNŞ-in qərarı kimi qəbul olundu.

Xarici mülkiyyətçilərin kompensasiyası məsələsində razılığa gəlindi. Vurulan ziyanın 2/3 hissəsində kompensasiya ödənilməli idi. Bolqarıstan Yunanıstana 45 mln.dollar. Yuqoslaviya isə 25 mln.dollar kompensasiya ödəməli idi. İtaliya Yuqoslaviyaya 125 mln.dollar, Yunanıstana 105 mln.dollar, Albaniyaya 5 mln.dollar təzminat verməh idi.

Triest azad ərazisi hərbisizləş'dirilmiş və tərəfsiz elan edildi. Triestdən karici orduların çıxarılması müddəti müəyyənləşdirildi. Müvafiq qətnamə İtaliya ilə sülh müqaviləsinin mətninə daxil edildi. Sonralar 1954-cü ildə ingilis-amerikan orduları Triestdən çıxarıldı. Yuqoslaviya və İtaliya arasındakı müqaviləyə görə azad ərazi bu ölkələr arasında bölüşdürüldü. “A” zonası adlandırılan Triest (ərazisi 200 kv.km, əhalisi 290 min nəfər) İtaliyaya, “B” zonası isə (ərazisi 525 kv.km, əhalisi 70 min nəfər) Yuqoslaviyaya keçdi.

Sülh müqavilələri 1947-ci il fevralın 10-da imzalandı. Dörd dövlət tərəfindən təsdiq edildikdən sonra 1947-ci il sentyabrın 15-də qüvvəyə mindi.

Sülh müqavilələrinin məzmunu aşağıdakı kimi idi. Müqavilələrin preambulasmda müharibə vəziyyətinin başa çatması və bu dövlətlərin BMT-yə qəbul edilməsi nəzərdə tutulurdu.

İtaliya ilə sülh müqaviləsi onun sərhədlərini aşağıdakılar istisna olmaqla 1938-ci il 1 yanvar tarixdə olduğu kimi müəyyənləşdirdi. İtaliya Afrikadakı bütün müstəmləkələrini - Liviya, Eritreya və Somalinin cənub-şərqini itirdi. İtaliya müstəmləkələri məsələsi sülh müqaviləsi qüvvəyə mindikdən sonra bir il müddətində dörd dövlət tərəfindən həll edilməli idi. Macarıstanın sərhədləri 1938-ci il 1 yanvar tarixindəki kimi saxlanıldı. Çexoslavakiya ilə sərhədlərdə cüzi dəyişiklik edildi. Bratislava rayonunda bəzi ərazilər Çexoslovakiyaya verildi. Şimali Transilvaniya, Zakarpat Ukraynası və Slovakiyanın cənub rayonları ona qaytarıldı.

Rumıniya sərhədləri Macarıstan-Rumıniya sərhədləri istisna olmaqla 1941-ci il 1 yanvar tarixdəki kimi quruldu. Vyana arbitrajının 1940-cı il qərarları ləğv olundu.

Finlandiya sərhədləri 1940-cı il 12 mart tarixli sovet-fin müqaviləsinə uyğun quruldu. Finlandiya Peçenqa vilayətini SSRİ-yə qaytardı.

Bolqarıstan sərhədi 1941-ci ildəki kimi qaldı.

Sülh müqavilələrinin siyasi qətnamələri də var idi. Bütün sülh müqavilələri dövlətlərin qarşısında irqi, cinsi, dili və dinindən asılı olmayaraq vətəndaşlar üçün əsas demokratik azadlıqları təmin etməyi, faşist təşkilatların fəaliyyətinin dirçəldilməsinə yol verməməyi öhdəlik kimi qoyurdu.

Sülh müqavilələrinin hərbi qətnamələri də var idi. Məğlub dövlətlər ölkənin müdafiəsi üçün məhdud sayda milli ordu saxlaya bilərdilər. İtaliya 250 min əsgər və zabit, Finlandiya isə 34 min 400 nəfərlik quru ordusu saxlamaq hüququ əldə etdi.

Müqavilənin ayrıca maddəsi sülh müqaviləsi qüvvəyə mindikdən 90 gün sonra İtaliya, Macarıstan, Rumıniya, Bolqarıstan və Finlandiya ərazilərindən xarici dövlətlərin ordularının çıxarılmasını nəzərdə tuturdu. Sovet orduları Avstriya ilə kommunikasiya xətlərini qorumaq adı altında Macarıstan və Rumıniya ərazilərində saxlanıldı.

Sülh müqavilələrinin iqtisadi qətnamələri də var idi. Müqaviləni imzalayan dövlətlər sülh müqavilələri qüvvəyə mindikdən 18 ay sonra bütün xarici ölkə vətəndaşlarına sənaye və ticarətdə bərabər imkanlar verməyi öhdələrinə götürdülər. Sülh müqavilələrində təzminatın tədricən ödənilməsi prinsipi əsas götürüldü. İtaliya SSRİ-yə 100 mln.dollar, Albaniyaya 5 mln.dollar, Həbəşistana 25 mln.dollar, Yunanıstana 105 mln.dollar, Yuqaslaviyaya 125 mln.dollar təzminat ödəməli idi. Finlandiya 8 il müddətində öz malları ilə SSRİ-yə 300 mln.dollarlıq təzminat verməli idi. Bolqarıstan Yunanıstana 45 mln.dollar, Yuqaslaviyaya isə 25 mln.dollar təzminat ödəməli idi. Rumıniya, Macarıstan və Finlandiya da SSRİ-yə müəyyən edilmiş məbləğdə təzminat verməli idi.

Sülh müqavilələri müharibədən sonrakı illərdə Avropada beynəlxalq münasibətlərdə köklü dəyişikliklər etdi.

### *Almaniya ərazisində müharibədən sonrakı problemləri dinc nizamasalma məsələləri*

1945- 1949-cu illərdə beynəlxalq münasibətlərin ən mürəkkəb məsələlərindən biri keçmiş Almaniya imperiyasının ərazisində müharibədən scnrakı problemləri dinc nizamasalma oldu. Bu məsələ beynəlxalq münasibətlərdə mövcud olan iki xətt tərəfdarları arasında mübarizə meydanına çevrildi. Alman işlərinin tənzimlənməsinə müxtəlif yanaşmalar yarandı. Nizamasalmada başlıca məqsəd Avropanın mərkəzində təcavüz ocağının ləğv edilməsi, alman xalqının öz həyatını

demokratik əsasda qurması, gələcəkdə təcavüzün alman torpağından bir daha baş qaldırmaması, Avropada sülhün və təhlükəsizliyin bərqərar edilməsi idi. Bunun yolları Potsdam konfransının qərarlarında, dördtərəfli sazişdə göstərilmişdi və onun həyata keçirilməsi üçün xüsusi nəzarət mexanizmi yaradılmışdı. Almaniyanın məğlub edilməsi haqqında bəyannaməyə müvafiq olaraq bu ölkədə ali hakimiyyəti SSRİ, ABŞ, Böyük Britaniya və Fransa öz üzərinə götürdülər. Almaniya işğal zonalarına bölündü. Onların hər birində ali hakimiyyəti işğal ordularının baş komandanı həyata keçirirdi. Bütövlükdə Almaniya ilə bağlı problemləri dörd baş komandanın daxil olduğu Nəzarət Şurası həll edirdi.

Müharibədən sonrakı ilk illərdə müttəfiq qərarlarının - Almaniyanın demilitarizasiyasmm, denasifikasiyasmm, demokratikləşdirilməsinin və dekartelizasiyasmm həyata keçirilməsi mühüm yer tutdu. 1945-1946-cı illərdə Almaniyanın demilitarizasiya ilə əlaqədar olaraq bir sıra tədbirlər görüldü. 1945-ci il dekabrın 12-də 18 №-li direktivlə alman silahlı qüvvələri tərxis edilərək buraxıldı; 1946-cı il oktyabrın 17-də Almaniyanın hərbi sənaye kompleksi potensialını ləğv etmək haqqında 39 №-li direktiv verildi; 1945-ci *il noyabrın 30-da 8 №-li qanunla hərbi təhsil ləğv edilərək qadağan olundu; 1946-cı il aprelin 10-da 23 №-li qanunla Almaniyada hərbi quruculuq ləğv edildi; 1946-cı il avqustun 20-də Vermaxtm ləğvi haqqında 34 №-li qanun verildi.

Ümumiyyətlə, demilitarizasiya Potsdam konfransının digər qərarları ilə müqayisədə kifayət qədər sürətli gedirdi.

1945- ci il avqustun 8-də alman müharibə canilərinin cəzalandırılması barədə Londonda saziş bağlandı. 1946-cı il oktyabrın 1-də Nürnberq hərbi tribunalı 19 müharibə canisini mühakimə etdi. Onlardan 12-i ölüm cəzası aldı. Qərb işğal zonasında 12.457 nəfərə qarşı cinayət işi qaldırıldı. Onlardan 6.100 nəfər mühakimə olundu. Bunların 7 nəfəri edam edildi. 71 nəfəri ömürlük həbs cəzası aldı. 1945-ci ilin martından 1964-cü ilin dekabrmadək sovet işğal zonasında 16.572 nəfərə

qarşı cinayət işi qaldırıldı. Onlardan 12.807 nəfəri isə ölüm cəzası, 231məfəri isə ömürlük həbs cəzası aldı.

Potsdam qərarlarına əsasən denasifikasiyanın həyala keçirilməsi nəzərdə tutulurdu. Burada məqsəd nasizmin kölqü- nü kəsmək, Hitler qanunvericiliyini ləğv etmək, faşist təbliğatını, faşist təşkilatlarını qadağan etmək və s. idi. Denasifi- kasiya həyata keçirilərkən sovet işğal zonasında '1945-1946-cı illərdə 390.478 nəfər, bütövlükdə 500'min nəfər vəzifədən uzaqlaşdırıldı. Onlar başlıca olaraq sənayedə işləməyə göndərildi. Nasist ideyalarının təbliği qadağan edildi.

Almaniyanın demokratikləşdirilməsi məsələsində iki baxış mövcud idi. Sovet rəhbərliyi demokratikləşdirməni sovetsayağı başa düşürdü. ABŞ, Böyük Britaniya və Fransa isə real demokratikləşdirməni irəli sürürdülər.

Müharibədən sonrakı inkişaf üçün Almaniyanın dekartelizasiyasmm həyata keçirilməsinin mühüm əhəmiyyəti var idi. Alman inhisarları həmişə alman imperializminin hərəkətverici qüvvəsi olmuşdu. Potsdam sazişinə görə alınan iqtisadiyyatında mərkəzsizləşdirmə həyata keçirilməli idi.
1945- 1946-cı illərdə Nəzarət Şurası alman iqtisadiyyatının dekartelizasiyası və dekonsentrasiyası üzrə dördtərəlli komissiya yaratmaq haqqında qərar verdi. Bir sıra səhmdar cəmiyyətlərin əmlakı müsadirə edildi. ABŞ hərbi administrasiyası 1947-ci il fevralın 12-də alman iqtisadi qüdrətinin həddindən artıq təmərküzləşməsinin qadağan edilməsi haqqında 56 №-li qanun verdi. Müvafiq aktları ingilis hərbi komandanlığı 1947-ci il fevralın 12-də, Fransız hərbi komandanlığı 1947-ci il iyunun 9-da qəbul eldilər.

Təzminat haqqında qərar yerinə yetirilmədi. Hitler işğalının digər ölkələrə vurduğu ziyanın qismən ödənilməsi antihitler koalisiyası tərəfindən elan edilmişdi. Qərb dövlətləri bu qərarların yerinə yetirilməsini əvvəlcə ləngitdi, daha sonra isə onun yerinə yetirilməsindən alınmasından tamamilə imtina etdilər. 1946-cı il mayın 5-də Kley SSRİ-yə verilməsi nəzərdə tutulan təzminatın ödənilməsinin dayandırılması əmrini verdi.

1946- cı il mayın 25-də bunu ABŞ və İngiltərə hökumətləri də rəsmi elan etdilər. Tezliklə Fransa da onlara qoşuldu.

1947- ci il yanvarın 1-nə qədər Sovet İttifaqı işğal edilmiş qərb zonalarından 12,5 milyon dollar həcmində təzminat aldı. Bunun 7,5 mln. dolları ödənişə aid idi. ABŞ və İngiltərə Almaniyanın bütün qızıl ehtiyatlarını, bütün xarici aktivlərini, alman ticarət donanmasının böyük hissəsini ələ keçirdilər, alman kömürü və meşə məmulatlarının satışından, laboratoriya və digər avadanlıqların ixracından mühüm gəlir əldə etdilər. Bundan başqa onların əlində qiymətli alman patentləri və ixtiraları da cəmləşdi. ABŞ, İngiltərə və Fransanın Almaniyadan əldə etdiyi qənimət təxminən 20 milyard dollar həcmində idi. Bu da müttəfiqlər tərəfindən müəyyən edilmiş cərimənin həcmini təşkil edirdi.

Almaniya ərazisində müharibədən sonrakı vəziyyətin nizama salınma məsələsi ilk dəfə olaraq Potsdam konfransından sonra XİNŞ-nin II (Paris) sessiyasında müzakirə olundu. 1946-cı il martın 5-də Fultonda Böyük Britaniyanın keçmiş baş naziri U.Çerçil ABŞ prezidenti N.Trumenin iştirakı ilə soyuq müharibəni rəsmən elan etdi. Qərbi Almaniya 1946-cı ildə martın 24-də K.Adenauerin nitqi ilə "Avropa Birləşmiş Ştatları"nm yaradılması proqramını irəli sürdü.

XİNŞ-nin birinci (London) sessiyasında alman məsələsi üzrə 1945-ci il 14 sentyabrda fransız hökuməti tərəfindən irəli sürülmüş • memorandumla bağlı fikir mübadiləsi ilkin xarakter daşıyırdı. XİNŞ-in ikinci (Paris) sessiyası 1946-cı il 25 apreldən 16 maya qədər (I hissə) və 15 iyundan 12 iyula qədər (II hissə) keçirildi. Sessiyanın işində fasilə Parisdə antihitlerçi koalisiyanın üzvü olan dövlətlərin sülh müqavilələrinin layihəsinə hazırlıq işinə aid onları maraqlandıran məsələlərə həsr olunmuş sülh konfransı ilə əlaqədar idi. Sessiyanın birinci hissəsində 18 plenar, ikinci hissəsində 23 (dar çərçivədə olan görüşləri saymamaq etibarı

ib) plenar iclas oldu. Sessiyanın gedişində XİNŞ-ə 260 sənəd müzakirə edildi.

1946- cı il 4 noyabr - 12 dekabrda Nyu-Yorkda Valdorf-Astoriya mehmanxanasında Hitler Almaniyasının keçmiş müttəfiqləri olan beş dövlət ilə sülh danışıqlarının layihəsi üzərində işi XİNŞ-nin üçüncü sessiyasında başa çatdıran dörd dövlətin xarici işlər nazirləri müzakirə etdilər.

1946- cı il dekabrın 7-də sovet tərəfi XİNŞ-nin növbəti sessiyasında Avropanın mərkəzində müharibədən sonrakı vəziyyətin nizama salınmasını təklif etdi. Növbəti sessiyanın 1947- ci ildə fevral ayında Moskvada çağırılması irəli sürüldü. Nazirlər müavinlərinə 1947-ci il yanvarın 14-də Londonda toplaşmasını, hazırlıq işinin aparılmasını və fevralın 25-nə qədər bu məsələlərlə bağlı təklilbrin hazırlanmasını tapşırdılar.

XİNŞ-in sessiyası 1947-ci il martın 10-dan aprelin 24-, nə qədər davam etdi. Bu müddətdə 43 rəsmi və müəyyən miqdarda qeyri-rəsmi görüşlər keçirildi. Moskva sessiyası qoyulmuş problemin həllinə yönəlmiş uzunmüddətli müşavirə hesab olunurdu. Moskva sessiyasında bütün aspektlərdə alman məsələsinin həlli yolları müzakirə edildi. Bu məsələlərin həllinə Sovet İttifaqı və qərb dövlətlərinin əks istiqamətdə yanaşması özünü büruzə verdi.

Demilitarizasiya haqqında qərarların Qərb dövlətləri tərəfindən öz zonalarında pozulmasının və ingilis nümayəndələrinin alman hərbi müəssisələrinin bitərəiliyinə istinad edərək onların sökülməsini rədd etməyin əleyhinə çıxan sovet tərəfi bu məsələ üzrə dördtərəni qətnamələrin yerinə yetirilməsini tələb etdi.

Denasifikasiya haqqında məsələ müzakirə olunarkən ABŞ, İngiltərə və Fransa Sovet nümayəndə heyətinin Qərb dövlətlərinin Potsdam qərarlarından tamamilə uzaqlaşmasını iddia edən məlumatlarını rədd etdilər.

Almaniyanın demokratikləşməsi haqqında məsələ müzakirə olunarkən sovet tərəfi Potsdam prinsiplərinin Qərb

dövlətləri tərəfindən pozufduğunu qeyd edib bütün zonalarda siyasi həyatın demokratik və sülh əsasında bərpa olunması məqsədi tənzimlənmiş siyasət yeritməyi təklif etdi. Lakin iştirakçı dövlətlərin hər biri demokratiyanı öz başa düşdüyü kimi qəbul edirdi.

Buna müvafiq olaraq SSRİ nümayəndə heyəti «iqtisadi birlik» haqqında xüsusi sənədin müzakirəsini ortaya atdı. Sovet İttifaqının bu qeyri-real təklifi Qərb dövlətləri tərəfindən rədd edildi.

• Gündəliyin «Almaniyanın müvəqqəti siyasi təşkilinin forması və həcmi» adlı ikinci bəndi müzakirə edilərkən sovet tərəfi iddialı çıxış etdi. SSRİ Qərb dövlətlərinin «desentralizasiya» (mərkəzi orqanların bəzi vəzifələrinin yerli orqanlara verilməsi) və «federalizasiya» kimi ifadələri Almaniyanın parçalanması kursunu ört-basdır etmək cəhdi kimi qiymətləndirdi.

Gündəliyin - «Almaniya ilə sülh danışıqlarına hazırlıq» adlı üçüncü bəndini müzakirə edərkən Yalta, Potsdam konfranslarının, XİNŞ və Nəzarət Şurasının qərarları, xüsusilə orada səslənən demilitarizasiya, denasifi- kasiya, dekartelizasiya, demokratikləşdirmə prinsipləri və Hitler işğalından zərər çəkən ölkələrə ziyanın qismən ödənilməsi əsas kimi qəbul edilə biləcək layihənin tezliklə işlənib hazırlanması təklifləri irəli sürüldü.

Gündəliyin dördüncü bəndinin - «Tərksilah və demilitarizasiya haqqında müqavilənin amerikan layihəsi və Almaniya üzərində siyasi, iqtisadi və hərbi nəzarətə münasfbətdə digər ölçülər» - müzakirəsində sovet tərəfi burada bir sıra düzəlişlərin edilməsi, üç əlavə maddənin daxil edilməsi və onu «Almaniyanın demilitarizasiyası və alman işğalının dayandırılması haqqında müqavilə» adlandıraraq 1947- ci il aprelin 14-də tamamlanmış mətnini təqdim etmək təklifi ilə çıxış etdi.

1947-ci il martın 31-də ingilis nümayəndə heyəti «Almaniya ilə münasibətdə istifadəsi vacib olan əlavə prinsiplər» başlığı altında memorandum elan etdi.

İngilis-amerikan diplomatiyası • «iki zonalı iqtisadi orqanların yenidən təşkili haqqında» razılığa gəldilər. 1947-ci ilin iyununda «Marşal planının» elan edilməsi ilə eyni gündə Qərbi Almaniya üçün parlament funksiyasını daşıyan 52 nümayəndənin daxil olduğu İqtisadi Şura, hökumət funksiyasını daşıyan 8 hökumət nümayəndəsinin daxil olduğu İcraedici komitə, müəyyən sahəyə aid olan nazirlərin funksiyasını daşıyan 6 direktorat yaradıldı.

Londonda çağırılmış XİNŞ-in V sessiyası alman məsələlərini müfəssəl şəkildə müzakirə edən yeni beynəlxalq məclis idi. Məclisin işi 1947-ci il noyabrın 25-dən dekabrın 15-dək davametdi.

XİNŞ-in London sessiyasında müharibədən sonra sülhün bərqərar edilməsi problemi ilə birlikdə Almaniyanın birliyini bərpa etmək məsələsi də qalxdı.

Artıq 1947-ci ilin oktyabrında ABŞ-da («Big Dog» əməliyyatının şərti adı altında) yeni pul basıldı. Elə həmin il Qərbi Almaniyaya 30 vaqon belə pul gətirildi.

Uzunmüddətli fasilədən sonra 1949-cu il mayın 23-də dörd dövlətin xarici işlər nazirləri Parisdə növbəti sessiyaya toplaşdılar.

***İki alman dövləminin yaradılması***

1949-cu il iyunun 20-də XİNŞ-nin Paris sessiyasının günü Qərbi Almaniya üçün ABŞ, İngiltərə və Fransanın Ali Müttəfiq Komissiyası haqqında alman məsələləri üzrə Parisdə əldə edilən danışıqlar və dördtərəfli müqavilənin şərtlərinə dair qərar imzalandı.

1949-cu il sentyabrın 12-də qərbi alman bundestaq və bundesratı yeni yaradılmış Qərbi Almaniya dövlətinə

prezident, 3 gündən sonra isə - kansler seçdi. Birinci federal kansler 73 yaşlı Konrad Adenauer oldu.

1949-cu il sentyabrın 20-də Qərbi Almaniya hökuməti öz funksiyalarını həyata keçirməyə başladı. Beləliklə, AFR yaradıldı.

1949-cu il mayın 30-da III Alman Xalq Konqresi tərəfindən seçilmiş Alman Xalq Şurası özünü Müvəqqəti Xalq Palatası elan etdi. 1949-cu il oktyabrın 7-də Alman Xalq Konqresinin IX sessiyasında Almaniya Demokratik Respublikasının yaradılması haqqında qərar qəbul olundu.

Beləliklə, vahid dövlət əvəzində əks istiqamətdə inkişaf edən iki müstəqil dövlət - AFR və ADR yaradıldı. Bu dövlətlərin birinin - ADR-in tərkibində Qərbi Berlin adlanan, qərb dövlətləri tərəfindən ətraf ərazilərdən alınan torpaqlar hesabına xüsusi dairə yaradıldı. İki ayrı dövlətin və Qərbi Berlinin mövcudluğu Avropanın mərkəzində yaranmış şəraitin xüsusiyyətlərindən biri, Avropa qitəsində müharibədən sonrakı illərdə meydana çıxmış ərazi-siyasi status-kvonun əsas elementlərindən biri oldu.

### *«Xalq demokramiyası» ölkələri arasında miinasibəmlər*

1947-1949-cu illər «xalq demokratiyası» dövlətlərinin inkişafında mühüm mərhələ oldu. Bu mərhələ iqtisadi və sosial münasibətlərdə köklü dəyişikliklərlə və həmçinin sovet yardımı nəticəsində qurulan hökumətlərin möhkəmlənməsi ilə üst-üstə düşdü. Sovet İttifaqı bu dövlətlərdə nüfuz dairəsini qoruyub saxlamaq üçün özünə sərfəli olan rejimlər yaratdı.

Bu mərhələdə Sovet İttifaqının «konkret köməyi» sovet hökuməti tərəfindən yaradılmış «xalq-demokratik» dövlətlərin ilk hökumətlərinin diplomatik tanınması oldu. Bu aksiya mahiyyətinə görə yalnız formal xarakter daşımırdı. Əslində sovet rəhbərliyi bu ölkələrə öz nüfuz dairəsi kimi baxırdı.

«Xalq demokratik» dövlətlərin hökumətlərinin diplomatik tanınması məsələsində qərb dövlətləri Sovet İttifaqını kommunist ideologiyalı quruluş yaratmaqdan çəkindirməyə çalışırdılar.

SSRİ bunlara əhəmiyyət vermədən həmin dövlətlərlə münasibətlərini sıxlaşdırdı. Diplomatik tanınma yeni - dostluq və qarşılıqlı yardım prinsipləri əsasında təsərrüfat əməkdaşlığının gələcək inkişafı üçün uzunmüddətli və ikitərəfli iqtisadi müqavilələrin bağlanması üçün əsas yaratdı.

SSRİ-nin «xalq demokratik» dövlətlərlə 1947'1950-ci illərdə bağladığı ticarət-iqtisad i müqavilələri sosialist dövlətləri arasında yaranmış yeni iqtisadi münasibətlərin ifadəsi idi.

1949-cu il yanvarın 1-də Moskvada Bolqarıstan, Macarıstan, Polşa, Rumıniya, SSRİ, Çexoslovakiya nümayəndələrinin iqtisadi müşavirəsi keçirildi. Burada geniş iqtisadi əməkdaşlığın təşkili barədə məsələ müzakirə olundu. Müşavirədə iştirak edən dövlətlərin bərabərhüquqlu prinsipləri əsasında ümumi iqtisadi orqanın - Qarşılıqlı İqtisadi Yardım Şurasının - yaradılması nəzərdə tutuldu. Qarşılıqlı İqtisadi Yardım Şurasının əsas vəzifəsi təsərrüfat təcrübəsi mübadiləsi, bir-birinə texniki yardım, maşın, avadanlıq, xammal və s. təmin edilməsinə köməklik göstərilməsi idi. QİYŞ açıq təşkilat idi. Burada Avropanın bütün dövlətləri iştirak edə bilərdilər.

Lakin QİYŞ-də bütün məsələlərdə Sovet İttifaqı hökmran idi. Moskva bu ölkələrə gəlir və xammal mənbəyi kimi baxırdı.

QİYŞ-in yaradılmasından sonra SSRİ «xalq demokratiyası» ölkələrini qarşılıqlı yardım haqqında müqavilələr bağlamağa sövq etdi. Belə müqavilələrin bağlanmasında məqsəd Avropanın inkişaf etmiş dövlətlərinə və ABŞ-a qarşı blok yaratmaq idi. Dostluq və qarşılıqlı yardım haqqında müqavilələr müxtəlif dövlətlərlə ayrı-ayrı tarixi şəraitlərdə imzalandı. Belə müqavilələri SSRİ-nin təsir dairəsində olan dövlətlər öz aralarında da imzaladılar. 1947-1949-cu illərdə dostluq, qarşılıqlı yardım və əməkdaşlıq haqqında müqavilə

lər aşağıdakı dövlətlər arasında imzalandı: Polşa və Çexoslovakiya (10 mart 1947), Albaniya və Bolqarıstan (16 c^ekabr 1947), Bolqarıstan və Rumıniya (16 yanvar 1948), Bolqarıstan və Çexoslovakiya (23 aprel 1948), Bolqarıstan və Polşa (29 may 1948). Macarıstan və Polşa (18 iyun 1948), Bolqarıstan və Macarıstan (16 iyul 1948), Rumıniya və Çexoslovakiya (21 iyul 1948), Polşa və Rumıniya (26 yanvar 1949), Macarıstan və Çexoslovakiya (16 aprel 1949-cu il). Nəticədə SSRİ-nin hökmranlığı ilə 40-cı illərin sonuna doğru dünya sosializm sistemi meydana gəldi. Bu ölkələrdə sosialist' istehsal münasibətləri möhkəmləndi, proletariat diktaturası quruldu və «xalq-demokratik inqilabı»nm sosialist inqilabına çevrilməsi prosesi sona yetdi. JBelə quruculuq yollarına bir sıra Asiya ölkələri də qədəm qoydu. Onlar bu müddətdə «xalq- demokratik inqilabı»nın ilkin mərhələsini həyata keçirdilər. Bu ölkələrdə sosialist həyat quruculuğuna aparan proseslər meydana gəldi. Həmin proseslər kommunist partiyalarının hegemonluğu yolu ilə əsasən zorla aparılırdı. SSRİ-nin mövqeyinə görə, dünya sosializm sisteminin qurulması və inkişafı, sosialist beynəlmiləlçiliyi, dostluğu və qarşılıqlı yardımı prinsipləri əsasında yaranan yeni sosialist beynəl.xalq münasibətlərin formalaşması ilə sıx əlaqədə idi.

Dünya sosializm sisteminin yaranması sosializm xeyrinə dünya meydanında siyasi qüvvələrin nisbətini, beynəlxalq münasibətlərin quruluşunun köklü surətdə dəyişdirilməsini nəzərdə tuturdu. Dünya problemlərinin həllində SSRİ başda olmaqla, sosialist ölkələri hakim rol oynamağa çalışırdılar.

Dünya sosializm sisteminin yaranması tarixi inkişafın gedişinə təsir göstərən yeni faktları meydana gətirdi və dünya inkişafını ümumən geri saldı.

***Uzaq Şərqdə dinc tənzindəınə məsələləri***

İkinci dünya müharibəsindən sonra Uzaq Şərq məsələsi mürəkkəb və ziddiyyətli problemlər arasında xüsusi yer tutdu. Bu problem yapon işğalçılarının darmadağın edilməsində silahlı qüvvələri ilə çıxış edən bir çox dünya ölkələrinin maraq dairəsində idi. 1945-ci ilin payızmadək toplanmış bir sıra Avropa problemlərinin həlli təcrübəsi onu sübut edirdi ki. Uzaq Şərqin bir sıra məsələlərinin nizama salınmasında beynəlxalq əməkdaşlığın yollarında uğurun əldə olunmasını gözləmək olardı. Bu, ilk növbədə öz əksini yapon probleminin həllində tapdı. ABŞ ittifaqlararası razılaşmada Yaponiyanın təslim edilməsinə və bu ölkəyə yardım göstərilməsinə çalışırdı. Məhz bunun əsasında «İşğalın ilkin mərhələsində *(23* sentyabr 1945) Yaponiyaya münasibətdə ABŞ siyasətinin əsas prinsipləri» haqqında sənəd işlənib hazırlandı. 1945-ci ildə Vaşinqtonda Yaponiyanın təslim aktını imzalayan dövlətlər: ABŞ, Sovet İttifaqı, Çin, İngiltərə. Fransa, Avstraliya, Yeni Zelandiya, Kanada, Niderlanddan ibarət Uzaq Şərq Məsləhətçi orqanının yaradılması elan olundu. ABŞ hökumətinin bir sıra güzəştlərə getməsi XİNŞ Moskva müşavirəsində SSRİ, ABŞ və Böyük Britaniyanın yapon məsələsi üzrə müqaviləsinin işlənib hazırlanmasına kömək etdi.

XİNŞ Moskva müşavirəsində Koreya məsələsi də özünəməxsus yer tutdu.

Müşavirə iştirakçılarının mövqeyində nəinki onların hər birinin müharibənin sonuna qədər Koreya məsələsində güddüyü məqsəd, həmçinin Yaponiyanın təslimindən sonrakı ilk aylarda Koreyanın vəziyyətinə onların münasibəti öz əksini tapdı.

Yaponiyanın darmadağın edilməsi ərəfəsində işlənmiş Uzaq Şərqdə müttəfiq dövlətlərin ali komandanlığının «1 №- li Ümumi əmr»i Koreyada 38-ci paraleldən şimala doğru

sovet komandanlığı, 38-ci paraleldən cənuba doğru isə arrierikan komandanlığının yapon qoşunlarını təslim etməsini nəzərdə tuturdu.

Amerikan qoşunları Cənubi Koreyada 1945-ci il sentyabrın 8-də yerləşdirildi.

XX əsrin əvvəllərində yaponlar tərəfindən devrilmiş axırıncı Koreya sülaləsinin nəslindən olan, 40 il ABŞ-da yaşamış Li Sm Man 1945-ci ilin payızında Seula gəldi. Bu illər ərzində Li Sın Man və onun tərəfdarları Koreyada ABŞ-m marağına uyğun antiyapon mübarizəsini həyata keçirməyə çalışırdı.

XİNŞ Moskva müşavirəsində Çində vəziyyət də müzakirə olundu. Sun Teza Venin Vaşinqtona gəlişi onu göstərdi ki, çankayşilər ABŞ tərəfindən hər bir köməyə arxalana bilərlər. Bu, 1945-ci il sentyabrın 30-da Tyantezində amerikan dəniz qoşunları diviziyasının yerləşdirilməsindən sonra xüsusilə gücləndi. Çində Amerikanın nüfuzunun artmasına qarşı çıxış edən Sovet İttifaqının mövqeyi onun Uzaq Şərq siyasətinin tərkib hissəsi idi.

ABŞ prezidenti Trumen 1945-ci il noyabrın 27-də general Marşalı Çində öz şəxsi təmsilçisi təyin etdi. Onun missiyasının əsas məqsədi 1945-ci il dekabrın 15-də Trumenin bəyanatı və xüsusi göstərişi əsasında müəyyənləşdirildi. General daxili-siyasi vəziyyət problemləri üzrə homindan və Çin Kommunist partiyasının danışıqlarında vasitəçi rol oynamalı idi.

Kommunist partiyası Çan Kay Şi hökumətinin amerikan ortaqlığma dair təklifi ilə razılaşdı. Bundan sonra da 1946-cı il yanvarın 3-də hərbi münaqişələrin dayandırılması məsələsini müzakirə etmək üçün «Üçlər komitə»si yaradıldı. Bu komitənin tərkibinə ÇKP-nm nümayəndəsi Çjou En-lay, Çan Kay Şi hökumətinin nümayəndəsi Çjan Te-Yun və vasitəçi Marşal daxil oldu.
1946- cı il yanvarın 10-da «Üçlər komitə»si Mancuriyadan başqa yaxın ərazilərdə hərbi münaqişələrin dayandırılmasına

nail oldu. İstefaya getmiş Birnsin yerinə ABŞ-ın dövlət katibi vəzifəsinə 1947-ci il yanvarın 7-də Marşal təyin edildi. Yanvarın 29-da dövlət departamenti Çində vasitəçiliyin dayandırıldığını elan etdi.

1949-cu ildə homindan rejimi devrildi. Oktyabrın 1-də Çin Xalq Respublikası elan olundu.

Müştərək sovet-amerikan komissiyası 1946 və 1947-ci illərdə Koreya məsələsi üzrə diplomatik mübarizənin əsas meydanı idi. Bu komissiya 1946-cı ilin yanvarında Xİb'Ş-nin Moskva müşavirəsinin razılığı ilə yaradılmışdı. Onun tərkibinə 10 üzv: 5 nəfər sovet, 5 nəfər amerikan
komandanlığından daxil oldu. Komissiyanın daimi iş yeri Seul şəhəri oldu.

1947- ci il avqustun 26-da ABŞ dövlət departamenti Koreya məsələsinin müzakirəsinin dörd dövlətə - ABŞ, SSRİ, İngiltərə və Çinə verilməsini təklif etdi.

1947-ci il sentyabrın 17-də ABŞ-m dövlət katibi Marşal BMT Baş Məclisinin II sessiyasında çıxış edərək Seulda müştərək sovet-amerikan komissiyasının vəziyyətini şərh etdi.

Əvvəlcə Siyasi Komitədə, daha, sonra isə 1947-ci il noyabrın 14-də Baş Məclisin plenar iclasında Koreya üzrə BMT Müvəqqəti Komissiyasının yaradılması haqqında qətnamə qəbul olundu. Səsvermədə SSRİ nümayəndə heyəti iştirak etmədi. Komissiyanın tərkibinə 8 dövlətin - Avstraliya, Hindistan, Kanada, Salvador, Suriya, Filippin, Fransa və Çin nümayəndələri daxil oldu.

Qətnaməäə deyilirdi ki, Koreyada seçkilər BMT komissiyasının nəzarəti altında 1948-ci il martın 31-dən gec olmayaraq keçirilsin. Elə həmin komissiyanın nəzarəti altında seçilmiş Milli Məclis Koreya üçün vahid Hökumət təşkil etməli idi.

1948-ci il aprelin ikinci yarısında Pxenyanda Şimali və Cənubi Koreyanın 56 siyasi partiya və ictimai təşkilatlarının nümayəndələrindən ibarət birləşmiş müşavirə toplandı. 1948- ci il aprelin 23-dən birləşmiş müşavirə SSRİ və ABŞ höku

mətlərinə müraciətlərində BMT komissiyasının nəzarəti altında cənubda seçkilərin keçirilməsi əleyhinə qəti çıxış etdi.

Vahid demokratik xalq cəbhəsi Milli Məclisə seçkilərin Koreyanın hər iki hissəsində keçirilməsini qərara aldı. Belə seçkilər 1948-ci il avqustun 28-də keçirildi. Burada Şimali Koreyadan 99,97%, Cənubi Koreyadan 77,52% seçici iştirak etdi. Cənubda seçkilər leqal keçirildi. Koreyanın Ali Milli Məclisinə ölkənin hər iki hissəsinin bütün əsas partiya, bütün sosial təbəqələrinin nümayəndələri seçildilər.

***Müsmomhko sismeminin dağılması***

Müharibədən sonrakı ilk illərdə beynəlxalq aləmdə baş verən əsaslı dəyişikliklərdən biri müstəmləkə sisteminin dağılması idi. Müharibənin son illərində müstəmləkələrdə və asılı ölkələrdə milli - azadlıq mübarizəsi başlandı. Müharibə illərində və müharibədən sonrakı ilk illərdə müstəmləkə sisteminin böhranı daha da dərinləşdi. Antifaşist koalisiyanın müharibədəki məqsədləri müstəmləkə və asılı ölkələrin xalqlarının yadelli hökmranlığının ləğvi uğrunda mübarizəsinə kömək etdi. Faşizm üzərində qələbə milli - azadlıq hərəkatının uğurları üçün daha əlverişli şərait yaratdı. Müharibə illərində tutulmuş ərazilərdə müstəmləkəçilərin xalqlar üzərində hökmranlığı ciddi müqavimətə rast gəldi.

Müharibə illərində və müharibədən sonra bu proses Asiya və Afrikanı bürüyərək Qərb yarımkürəsinə keçdi. İngiltərə, Fransa, Niderland və Belçikanın müstəmləkə imperiyaları -iflasa uğradı. 100 milyonlarla insan üzərində olan müstəmləkəçilik siyasi, iqtisadi və strateji mövqelərini itirdi. Yeni-yeni müstəqil dövlətlər yarandı. Beləliklə, bəşəriyyətin üçdə iki hissəsi müstəqil inkişaf yolunu tutdu. Müstəmləkə sisteminin iflası müharibədən sonrakı ilk illərdə beynəlxalq münasibətlərin mühüm hadisəsi oldu. Yeni dövlətlərin beynəlxalq münasibətlər sisteminə daxil olması

inkişaf etməkdə olan ölkələrin xarici siyasətini və diplomatiyasını canlandırdı.

İkinci dünya müharibəsinin əsas beynəlxalq siyasi nəticələrindən biri müstəmləkə və asılı ölkələrdə kölə halına salınmış xalqların milli-azadlıq hərəkatının güclənməsi idi.

Müharibədən sonrakı ilk illərdə bu hərəkat Asiyada, xüsusilə Hind-Çin, Hindistan və İndoneziyada genişləndi.

Milli-azadlıq hərəkatı ikinci dünya müharibəsi illərində Birma, Vyetnam, Laos, Kamboca, Tailand. İndoneziya, Filippin, Sinqapuru ələ keçirən yapon imperialistlərinə qarşı mübarizədə daha da gücləndi. 1945-ci ilin yayında Birma yapon işğalçılarından azad edildi, avqustun 17-də İndoneziya Respublikası, sentyabrın 2-də Vyetnam Demokratik Respublikası yaradıldı, oktyabrda Laosun müstəqilliyi elan olundu. Hindistanda da kütləvi antimüstəmləkə nümayişləri geniş vüsət aldı.

Misir, Suriya, Livan xalqları öz ölkələrindən ingilis və fransız qoşunlarının çıxarılması uğrunda mübarizəyə başladılar. Lakin ingilis, niderland və digər • müstəmləkəçilər Yaponiyanın təslimindən sonra müharibəni milli - azadlıq hərəkatına qarşı yönəltdilər. 1945 -ci.ilin oktyabrında ingilis qoşunları İndoneziyada, fransızlar isə Vyetnamda hərbi mübarizəyə girişdilər. 1946-cı ildə amerikan zabitlərinin rəhbərliyi ilə Filippin hökuməti partizan dəstələrinə qarşı hərbi kampaniyaya başladı.

BMT-də İndoneziya məsələsi müzakirə edilərkən iki meylin mövcud olduğu müəyyənləşdi. Bir tərəfdən, qərb dövlətləri öz hökmranlığını möhkəmlətməyə çalışırdılar. Digər tərəfdən də Sovet İttifaqı və başqa sosialist ölkələri İndoneziyada özmüfuzları uğrunda mübarizə aparırdılar.

1947-ci il avqustun 15-də Hindistanın dövlət müstəqilliyi elan olundu. Flökumətin baş naziri və xarici işlər naziri C.Nehru oldu. Hindistanın xarici siyasətinin əsas prinsipləri beynəlxalq sülh işində və təhlükəsizlikdə iştirak etmək, hərbi bloklara qoşulmamaq, dövlətlərarası

münasibətləri ədalət və ehtiram əsasında müdafiə etmək və müstəmləkəçiliyə qarşı mübarizə idi.

1947-ci ilin oktyabrından 1949-cıı il yanvarın 1-dək Kəşmir üstündə Hindistanla Pakistan arasında ziddiyyətlər və Hindistanın iki dövlətə parçalanmasının iqtisadi nəticələri ilə bağlı bir sıra məsələlərin müzakirəsində yaranmış şəraitlə Hindistan yarımadasında vəziyyət mürəkkəbləşdi. 1947-ci ilin avqustunda iki suveren dövlət: Hindistan və Pakistan yarandıqdan sonra pnların hər ikisi Kəşmiri özlərinə birləşdirməyə cəhd göstərdilər. 1947-ci il oktyabrın 27-də Kəşmirin Hindistana birləşdirilməsi haqqında fərman imzalandı. Hindistan 1948-ci il yanvarın 1-də BMT Təhlükəsizlik Şurasına müraciət edərək Pakistanı Kəşmirin işğalında günahlandırdı. 1948-ci il yanvarın 15-də isə Pakistan BMT Təhlükəsizlik Şurasına müraciət edərək Hindistanı təqsirləndirdi. Təhlükəsizlik Şurası 5 dövlətin nümayəndəsindən ibarət vasitəçi komissiya təşkil etdi. 1949-cu il yanvarın 1-də Kəşmirdə hərbi münaqişə dayandırıldı. 1949-cu il iyulun 27- də atəşkəs yaradıldı. Kəşmirin çox hissəsi Hindistanda, şimali- qərb və qərb əraziləri isə Pakistanda qaldı.

1952-ci ilin iyulunda Kəşmir maxaracası və Hindistan arasında Dehli müqaviləsi imzalandı. Bu müqavilənin şərtlərinə görə Kəşmir (Camu və Kəşmir) ştat hüququnda Hindistanın tərkibinə daxil oldu. 1956-cı il noyabrın 17-də Kəşmirin Müəssislər Məclisi konstitusiya qəbul etdi. Bu konstitusiyaya Kəşmirin Hindistan Respublikasının tərkib hissəsi olması haqqında əsasnamə də daxil oldu. Hind hökuməti bu məsələnin artıq həll olunduğunu hesab etsə də Pakistan hökuməti referendumun keçirilməsini təkid etdi. Sonrakı illərdə Kəşmir məsələsi iki ölkə arasında münasibətlərdə gərginlik mənbəyi oldu.

Milli-azadlıq hərəkatının güclənməsi şəraitində İngiltərə öz qoşunlarını Cənubi Vyetnamdan çıxararaq 1946- cı il yanvarın sonunda səlahiyyətlərini Fransaya verdi.

■Fransa Hind-Çində müstəmləkələrin itirilməsi ilə barışmaq istəmirdi. 1945-ci ilin sonunda 35 min nəfərlik fransız ekspedisiya korpusu Cənubi Vyetnam ərazisini ələ keçirdi. Hücumları davam etdirmək üçün kifayət qədər imkanları olmayan fransızlar Vyetnamın cənubunda meydan yaratmağa səy etdilər.

Müharibədən sonra Yaxın və Orta Şərq ölkələrində də milli-azadlıq hərəkatı yeni mərhələyə qədəm qoydu. Region xalqlarının milli özünüdərki gücləndi. Bu mərhələ imperialist dövlətləri hökmranlığının süqutunun başlanğıcı idi.

İkinci dünya müharibəsində faşist blokunun darmadağın edilməsi nəticəsində Yaxın Şərqdə daha iki təcavüzkar dövlət - Almaniya və İtaliya da öz- mövqelərini itirdilər.

İngiltərə Transiordaniya (1946) və Fələstin (1947) üzərində mandatlardan imtina etdi. O, Yaxın Şərqdə müəyyən hərbi mövqeyə malik idi. İran körfəzində, Liviya, Ədən. Kipr və Maltada hərbi bazajar, İordaniya və İraqda hərbi missiya. Səudiyyə Ərəbistanı, Misir, İordaniya və İraq 'ilə ittifaq haqqında müqavilələr ingilis hegemonluğunun möhkəmliyini təmin etdi. Amma Yaxın Şərqdə imperialist dövlət rolunu saxlamaq niyyətində olan Böyük Britaniya bir-birinin ardınca uğursuzluğa düçar oldu. Öz nəzarəti altında dini dövlət qruplaşmaları yaratmaq haqqında planları pozuldu. Azadlıq və müstəqillik uğrunda izdihamlı xalq çıxışları müştərək müdafiə haqqında Misirə və İraqa vadar edilmiş müqavilələrin layihəsini qeyri-real edirdi.

ABŞ ikinci dünya müharibəsindən sonra Orta Şərqdə öz mövqeyini daha da gücləndirməyə çalışırdı. Birləşmiş Ştatlar bir tərəfdən ərəb azadlıq hərəkatına qarşı polis qüvvəsi kimi Britaniya ordusu və Britaniya müstəmləkə aparatından istifadə edərək zəifləmiş ingilis partnyorunu müdafiə edir, digər tərəfdən isə yeni-yeni mövqelər ələ keçirərək iqtisadi ekspansiyasını genişləndirirdi.

1945- ci ildə Orta Şərqdə amerikan kompaniyaları 2,5 mln.ton, ingilis və holland kompaniyaları isə 7 dəfə çox neft əldə etmişdilər. 1949-cu ildə isə mənzərə bir qədər dəyişdi: amerikanlar ingilisləri geridə qoyaraq təxminən 40 mln.ton neft çıxardılar.

Amerikan kompaniyaları «İraq Petroleum kompani» aksiyasının dörddə bir hissəsini. Səudiyyə Ərəbistanı və Bəhreyndə bütün konsessiyaları, Küveytdə konsessiyanın yarısını ələ keçirdilər və ingilis-iran kompaniyası tərəfindən əldə olunan neftin 40%-ni aldılar. İngiltərə 1950-ci ildə Yaxın Şərqdə 86,6 mln.ton neft əldə etdi. Bu da bütün dünya neft gəlirinin 16,8% (518 mln.ton) demək idi.

ABŞ-ın iqtisadi üstünlüyü sənaye cəhətdən zəif inkişaf etmiş ölkələrə iqtisadi və texniki kömək edilməsi və borc verilməsi məsələlərinə dair müqavilələr bağladı. Bu, həm həmin ölkələrin iqtisadiyyatının inkişafına, həm də amerikan inhisarçılarına bu ölkələr üzərində nəzarəti əlinə almağa yol verdi.

ABŞ-m Türkiyə, Səudiyyə Ərəbistanı, İran, Misir, Suriya, Livan, Transiordaniya və b. ölkələrlə iqtisadi əməkdaşlığı, çoxlu sayda missiya, məsləhətçi və təlimatçılarm gəlişi ilə müşayiət olundu.

ABŞ-m Yaxın Şərq ölkələrinə əmtəə idxalında payı 40- cı illərin sonunda müharibədən əvvəlki dövrlə müqayisədə 2,5 dəfə çoxaldı. 50-ci illərin əvvəllərindən ABŞ ərəb dövlətlərinin əsas idxalat mövqelərindən İngiltərəni sıxışdırıb çıxardı. Müharibədən sonrakı dövrdə imperialist dövlətləri ilə müstəmləkə və asılı dövlətlər arasında münasibətlər kəskinləşdi. Ərəb ölkələri xalqlarının milli-azadlıq hərəkatı gücləndi, müharibədən əvvəlki dövrə nisbətən bu hərəkat daha mütəşəkkil xarakter aldı. Suriya və Livan xalqları onlara vəd edilmiş, lakin həyata keçməmiş müstəqillik uğrunda mübarizələrini davam etdirdilər. Hələ 1941-ci ilin sentyabrında general Katru Fransa adından Suriya və Livanın müstəqilliyini formal olaraq elan etmişdi. Bu ölkələrin

müstəqilliyinin təminatı İngiltərə tərəfindən də təsdiq olundu. SSRİ Suriya və Livanın müstəqilliyini tanıyaraq 1944-cü ildə onlarla diplomatik münasibətlər yaratdı. Hər iki ölkədə fransız və ingilis qoşunları hələ də qalmaqda idi. Ona görə də Suriya və Livanda sayca fransızlardan çox olan. Fransanın çətin vəziyyətindən istifadə edərək, bu rayondan öz rəqiblərini çıxarmağa və ərazini öz təsir dairəsi altına salmağa çalışan İngiltərə bu ziddiyyətlərə qarışmaq qərarına gəldi.

Suriya və Livan hökumətləri Fransaya etirazını bildirdilər və fransız qoşunlarının gətirilməsinin dayandırılmasım tələb etdilər. Bu demarşlara cavab olaraq, 1945-ci il mayın 18- də Beyruta yeni qoşun hissələri yerləşdirildi. Bununla əlaqədar olaraq Suriya və Livanda xarici qoşunların bu ərazidən çıxarılması tələbi ilə milli-azadlıq hərəkatı başlandı.

İngiltərə və Fransa 1945-ci ilin dekabrında Suriya və Livana dair danışıqlara başladılar.

İngilis - fransız müqavilələri Suriya və Livanda narazılığa səbəb oldu.

1946- cı ilin fevralında BMT Təhlükəsizlik Şurasında Suriya və Livan xalqlarının hüquqlarının müdafiə olunması zəruri sayıldı.

1946- cı ilin martında Parisdə müqavilə imzalandı. Bu müqavilənin şərtlərinə görə xarici qoşunlar 1946-cı ilin sonuna qədər Suriya və Livanı tərk etməli idilər. Suriyadan xarici qoşunların çıxarılması günü - 17 aprel 1946-cı il hər il milli bayram kimi qeyd olunur.

***Ərəl) Dövlətləri Cəmiyyətinin yaradılması.***

Müharibədən sonrakı illərdə Yaxın Şərqdə beynəlxalq münasibətlərin əsas amili ərəb xalqlarının öz birliyini möhkəmlətmək cəhdi oldu. Bu öz əksini, xüsusən 1945-ci ildə Ərəb Dövlətləri Cəmiyyətinin yaradılmasında tapdı. Cəmiyyətin nizamnaməsi 1945-ci il martın 22-də Misir, İraq, Suriya, Livan, İordaniya. Səudiyyə

Ərəbistanı, daha sonra Yəmən tərəfindən Qahirədə qəbul olundu, mayın 10-da isə qüvvəyə mindi. Nizamnaməyə görə Cəmiyyətin məqsədi dövlətlərarası əlaqələri möhkəmlətmək, əməkdaşlığı gücləndirmək üçün vahid siyasi xətt təyin etmək və onların suverenliyini, azadlığını müdafiə etmək və ümumiyyətlə, ərəb ölkələrinin maraq dairələrinə uyğun hərəkət etmək idi.

Bu cəmiyyət Yaxın Şərqin inkişafı üçün vacib həyati məsələlərə cavab verir və milli-azadlıq hərəkatını fəallaşdıran qətnamələr qəbul edirdi. Cəmiyyət Suriya və Livan ərazisində ingilis-fransız qoşunlarının çıxarılması, Fələstin üzərində ingilis mandatının ləğv edilməsi və müstəqil dövlətin yaradılması uğrunda çıxış etdi.

1950-ci ildə Cəmiyyətin üzvləri olan ərəb dövlətləri ümumi müdafiə paktını imzaladılar. Bu pakta görə üzvlərdən birinə edilən hücum bütün üzvlərə hücum kimi qiymətləndirilirdi. Ərəb ölkələrinin mədəni və texniki sahələrində də əməkdaşlıq üçün bir çox işlər görüldü.

Ərəb Dövlətləri Cəmiyyətinin gördüyü işlər müstəqillik və azadlıq uğrunda mübarizədə ərəb ölkələrinin birliyinin obyektiv təzahürü oldu.

***Fəhstiu m^səlssi***

1920-ci ildə Fələstin üzərində mandat alan İngiltərə siyasətinin əsas məqsədi ərəblər və yəhudilər arasında toqquşma yaradılması, fələstinlilərin mandat rejiminin ləğv edilməsi, müstəmləkə zülmündən və azadlıq uğrunda mübarizədən yayındırmaq idi.

ABŞ-m Fələstinə marağı Səudiyyə Ərəbistanında amerikan inhisarlarının neft konsessiyaları alması və Ərəbistandan Fələstinə neft kəmərinin çəkilməsi layihəsinin işlənib hazırlanması ilə bağlı daha da artdı.

1947- ci ildə ABŞ-m Fələstin üzərində kapital qoyuluşu müharibədən əvvəlki dövrə nisbətən dörd dəfə çoxalaraq 150 mln.dollara çatdı.

**1945-** ci ilin avqustunda ABŞ prezidenti Trumen İngiltərənin baş naziri Ettliyə məktub yazaraq Fələstinə yüz min yəhudinin gətirilməsini təklif etdi. .

1945- ci ilin noyabrında yaranan komitə amerikan və ingilis nöqteyi-nəzərinin müxtəlifliyinə baxmayaraq 1946-cı ilin aprelində öz tövsiyəsini irəli sürdü. Bu tövsiyə aydın şəkildə ABŞ və İngiltərənin siyasətinin mahiyyətini əhatə edirdi. Mandatın ləğv edilməsi haqqında Fələstin xalqının tələblərini saya salmayan komitə onun fəaliyyətini ərəb və yəhudilər arasında düşmənçiliyə son qoyulmasına qədər uzadılmasına dair çıxış etdi.

Komitənin 10 tövsiyəsindən birində Avropadan Fələstinə 100 min yəhudinin köçməsinə kömək etmək haqqında ABŞ prezidentinin təklifi bəyənildi. Trumen dərhal bu tövsiyəni bəyənərək bildirdi ki, məruzənin qalan hissəsi uzağa tuşlanmış siyasət məsələləri kimi nəzərə alınmalıdır. Komitənin üzvləri üçün nəzərdə tutulmuş təlimatlarda Yaxın və Orta Şərqə aid istənilən siyasi qərar qəbul edilərkən sovet təhlükəsi amilinin nəzərə alınması haqqında göstəriş var idi.

İngilis-amerikanların ekspertlər komitəsinin vahid dövlətin qismini təşkil edən ərəb və yəhudilərin ayrı-ayrı muxtar rayonlarına və əyalətlərinə köçürülməsi planını təklif etməsi də uğursuzluqla nəticələndi.

1946- cı ildə ərəb ölkələrinin nümayəndələri Fondonda konfransda toplaşdılar. Ərəb dövlətlərinin nümayəndələri yəhudilərin tam vətəndaşlıq hüququna malik olmasını qəbul edərək Fələstinin müstəqil elan olunmasını irəli sürdülər.

İngiltərəyə ABŞ-ın təzyiqi getdikcə artdı. 1946-cı ilin oktyabrında Trumen yenidən Fələstinə 100 min yəhudinin köçürülməsi təklifi ilə çıxış edərək bunun üçün maliyyə köməyini də irəli sürdü.

1947- ci il aprelin 2-də İngiltərə Fələstin məsələsinə dair BMT Baş Məclisinin xüsusi sessiyasının çağırılması xahişi ilə müraciət etdi. 1947-ci ilin mayında BMT Baş Məclisinin xüsusi sessiyası Fələstin məsələsini müzakirə etmək üçün 11

dövlətin nümayəndələrindən ibarət komitənin yaradılması haqqında qərar qəbul etdi. Avstraliya, Qvatemala, Hindistan, İran, Kanada, Niderland, Peru, Uruqvay, Çexoslovakiya, İsveç, Yuqoslaviyanın nümayəndələrindən ibarət Fələstin məsələsi üzrə xüsusi komitə 1947-ci il sentyabrın 3-də məlumat təqdim etdi. Burada Fələstin məsələsini həll etmək üçün iki plan təklif olundu. Çoxluq tərəfindən təklif olunan plana görə, Fələstin iki müstəqil dövlətə; ərəb və yəhudi dövlətlərinə parçalanmalı, Yerusəlim şəhəri isə BMT-nin himayəsi altında xüsusi beynəlxalq rejimdən faydalanan birlik kimi ayrılmalı idi. Bu, hər iki dövlətin və Yerusəlim xüsusi zonasının iqtisadi ittifaqda birləşməsi də nəzərdə tutulurdu.

Hindistan, İran və Yuqoslaviya Fələstində ərəb və yəhudi xalqlarını birləşdirən, paytaxtı Yerusəlim olmaqla federativ dövlətin yaranması təklifini irəli sürdü.

1947- ci il noyabrın 29-da Baş Məclisin II növbəti sessiyası 2/3 səslə xüsusi komitədə çoxluq təşkil edənlərin təklifini; Fələstinin 2 dövlətə - ərəb və yəhudi dövlətinə və Yerusəlimin inzibati dairəyə (xristian, müsəlman və iudey dinlərinin müqəddəs yerlərinin qorunması məqsədi ilə xüsusi beynəlxalq rejim altında) parçalanması planını təqdir etdi.

Ərəb dövlətinin ərazisi - 11,1 min km- (Fələstin ərazisinin 46 %-ni), yəhudi dövlətinin ərazisi isə 14,1 min km- (Fələstinin 54%-ni) təşkil etməli idi. Fələstinin əhalisi o zaman 1845 min nəfər idi. Bu da aşağıdakı kimi bölünməli idi; ərəb dövlətində - 725 min ərəb və 10 min yəhudi, yəhudi dövlətində - 498 min yəhudi və 407 min ərəb, Yerusəlimdə - 100 min ərəb və 100 min yəhudi.

Qətnamədə 1948-ci il avqustun 1-nə qədər ingilis qoşunlarının Fələstin ərazisindən çıxarılması, iki ay sonra ərəb və yəhudi dövlətlərinin elan edilməsi, Yerusəlim üçün beynəlxalq rejimin təyin olunması, bu dövlətlərin və Yerusəlim şəhərinin vahid iqtisadi ittifaqda birləşməsi nəzərdə tutulurdu.

Fələstində iki yeni dövlətin yaranması haqqında BMT Baş Məclisinin qərarından dərhal sonra ərəb və yəhudi əhalisi arasında silahlı toqquşmalar başlandı.

Fələstində öz mövqelərini gücləndirməyə çalışan ABŞ təklif edilən qətnaməyə səs verməsinə baxmayaraq 1948-ci ilin martında Fələstin üzərində müddət qoyulmadan qəyyum- luğun təyin olunması təklifi ilə çıxış edərək müqavilənin şərtlərinə dair müvafiq layihəni təqdim etdi. Lakin BMl' Baş Məclisinin ikinci xüsusi sessiyası (16 aprçi - 14 may 1948-ci il) Fələstin üzərində qəyyumhığun təyin olunması haqqında ABŞ-m təklifini rədd etdi.

1948- ci il mayın 14-dən 15-nə keçən gecə İsrail dövlətinin yaradılması elan olundu. Ərəb dövlətləri (Misir, İordaniya, Livan, Suriya, İraq, Səudiyyə Ərəbistanı, Yəmən) və İsrail arasında İsrail dövlətinin elan olmasından bir neçə saat sonra müharibə başlandı.

Mayın 15-də Misir, İordaniya. Livan və Suriyanın qoşunları Fələstinə da.xil oldular. Hərbi əməliyyatlarda İraq hərbi hissəsi, Səudiyyə Ərəbistanı və Yəmən də iştirak edirdi.

1948- ci il dekabrın 11-də İngiltərə və ABŞ Baş Məclisinin sessiyasında ABŞ Fransa və Türkiyənin iştirakı ilə icra müddəti təyin edilməyən Fələstin üzrə saziş komissiyasının yaradılması haqqında təklifin qəbul edilməsinə nail oldular. Bu, Fələstin məsələsində ABŞ və İngiltərənin öz xəttini yeritməsini asanlaşdırdı.

Fələstində hərbi münaqişələr 1949-cu il yanvarın 7-də dayandırıldı.

1948- 1949-cu illərdə ərəb dövlətləri və İsrail arasında müharibə nəticəsində BMT Baş Məclisinin Fələstin ərazisində iki dövlətin yaradılması haqqında qərarı həyata keçinədi. Yalnız İsrail dövləti yaradıldı. Fələstin dövləti - ərəb dövlətinin ərazisinin əsas hissəsi İsrail tərəfindən ələ keçirildi (6,7 min km-). BMT qətnaməsinə görə yəhudi dövlətinin ərazisi 14,1 min knF olmalı idisə də faktiki olaraq, müharibənin gedişində Fələstinin bütün ərazisini ələ keçirtdi

(tordan çayından qərbə doğru, Qəzzə bölgəsində bir sıra torpaqlar, Aralıq dənizi boyunca ərəb torpaqlarını çıxmaq şərti ilə).

195C-Cİ ildə İsrail hökuməti BMT Baş Məclisinin 1947- ci il 29 noyabr tarixli qətnaməsinin şərtlərini pozaraq Yerusəlimin qərb hissəsini paytaxt elan edərək bütün dövlət müəssisələrini oraya keçirtdi.

***BMT-nin sıralarının genişhnnwsi***

**1946-** 1949-cu illərdə BMT-nin tərkibinə Əfqanıstan, Birma, Yəmən, İsrail, İslandiya, Pakistan, Tailand və İsveç daxil oldu. Bu ölkələrdən əlavə həmin illərdə Albaniya, Monqolustan, Bolqarıstan, Macarıstan, Rumıniya, İtaliya, Finlandiya, İrlandiya, Portuqaliya, İordaniya, Avstriya, Seylon və Nepal qəbul haqqında ərizələrini təqdim etdilər. BMT-nin tərkibinə 13 dövlətin qəbul edilməsi məsələsi Təhlükəsizlik Şurasında dəfələrlə müzakirə olundu. Lakin ABŞ və İngiltərənin mövqeyi nəticəsində bu məsələ 1955-ci ilə qədər həll olunmamış qaldı. Bu dövrdə Qərb dövlətləri SSRİ-nin təsiri altında olan Albaniya, Bolqarıstan, Macarıstan, Monqolustan və Rumıniya kimi ölkələrin BMT üzvlüyünə daxil olmasının əleyhinə idilər. ABŞ və onun tərəfdarları BMT üzvlüyünə yalnız azad demokratik yönlü ölkələrin daxil olmasına çalışırdılar. Bu, 1947-ci ilin sentyabr-oktyabr aylarında Bolqarıstan, Macarıstan, İtaliya, Rumıniya və Finlandiyanın BMT-yə daxil olma haqqında ərizələrinin müzakirəsi zamanı xüsusilə nəzərə çatdı. Bu ölkələrlə bağlanan sülh müqavilələrində belə bir maddə də var idi ki, onların BMT üzvlüyünə qəbul olunmaq haqqında müraciəti iri dövlətlər tərəfindən dəstəklənir. Bu maddələrin müqabilində Polşa nümayəndəliyi adı çəkilən 5 dövlətin BMT üzvlüyünə qəbul olunması təklifini irəli sürdü. SSRİ bu təklifi dəstəklədi. ABŞ və İngiltərə Təhlükəsizlik Şurasında

**tövsiyəyə qarşı çıxaraq, yalnız İtaliya və Finlandiyanın müraciətinin qəbul edilməsində təkid etdilər. BMT-yə yeni üzvlərin qəbulu məsələsi təxirə salındı. 1950-ci ildə İndoneziya; 1955-ci ildə Avstriya, Albaniya, Bolqarıstan, Macarıstan, İordaniya, İrlan<%a, İspaniya, İtaliya, Kamboca, Laos, Liviya, Nepal, Portuqaliya, Rumıniya, Finlandiya, Seylon; 1956-1958-ci ildə Hana, Qvineya, Malayya, Mərakeş, Sudan, Tunis, Yaponiya; 1960-cı ildə Fil sümüyü sahili. Yuxarı Volta, Qabon, Daqomey, Kamerun, Kıbrıs, Konqo (Brazzavil), Konqo (Kinşasa) Malaqas Respublikası, Mali, Niger, Nigeriya, Seneqal, Somali, Toqo, Mərkəzi Afrika Respublikası, Çad; 1961-ci ildə Mavritaniya, Monqolustan, Syerra-Leon BMT üzvülüyünə qəbul olundular.**

**BMT-yə yeni üzvlərin qəbulu məsə-ləsmin uzadılması ilə əlaqədar olaraq, 1949-cu ildə SSRİ BMT Təhlükəsizlik Şurasına ərizə verən bütün ölkələrin BMT üzvlüyünə qəbul olunmasım təklif etdi.**

**Yalnız 1955-ci ildə BMT-yə təqdim olunmuş 16 ərizə sahibi olan dövlətlər eyni vaxtda üzvlüyə qəbul olundular.**

***Qarşısım alma doktrinası. U.Çerçilin Fulton nitqi (5 mart 1946-cı il)***

**Güc diplomatiyasının ən fəal təbliğatçılarından biri olan 1945-1947- ci illərdə Moskvada ABŞ səfirliyində məsləhətçi vəzifəsində çalışan Corc Kennan üç geniş məlumat qeydləfini - «Almaniya ilə müharibənin sonu ərəfəsində (may, 1945-ci il) Rusiyanın beynəlxalq vəziyyəti», «1946-cı il 22 fevral memorandumu» və «Birləşmiş Ştatlar və Rusiya» (1946-cı il, qış) - yazaraq dövlət departamentinə göndərdi. O, bu qeydlərdə - kommunizmin qarşısını almaq doktrinasını irəli sürdü. 1946-cı il 22 fevral memorandumunda Kennan bildirdi ki. Sovet İttifaqı amerikan cəmiyyətinin daxili ■ harmoniyasım və ənənəvi həyat tərzini məhv etmək niyyətindədir.**

Qarşısını alma doktrinasının praktiki surətdə həyata keçirilməsi, onun adının yayılmasından daha tez başladı. 1946- cı ildə bir neçə ay ABŞ-da olan Böyük Britaniyanın sabiq baş naziri U.Çerçil prezident Trumen və ölkənin digər rəhbər üzvləri ilə görüşdü.

***Tyumen doktrinası***

Prezident Trumenin müşayiəti ilə Çerçil 1946-cı il martın 5-də Fulton şəhərində (Missuri ştatı) Vestminster kollecində nitq söylədi. O, azad dünya ölkələrini yeni dünya müharibəsinin təhdid etdiyini və bu təhlükənin əsas səbəbkarının SSRİ və beynəlxalq kommunist hərəkatı olduğunu bəyan etdi. Çerçil SSRİ-yə qarşı ən qəddar siyasətin yeridilməsinə çağırdı, amerikan atom stansiyasından istifadə etməklə hədələdi və SSRİ-yə qarşı böyük dövlət-lərindən ibarət ittifaqın yaradılmasında təklif etdi. Bu məqsədlə o, ingilis dilində danışan xalqlardan ibarət cəmiy-yətin yaradılmasını təklif etdi. Natiq belə bir cəmiyyətdə Qərbi Almaniyanın da iştirakını mümkün hesab etdi.

**1946-** cı il martın 5-də Çerçilin Fultondakı nitqinin nəticələri dərin idi. 1946-cı ilin ikinci yarısından ingilis-amerikan danışıqları başladı. Bu danışıqlar əsasən Yunanıstan və Türkiyənin taleyi məsələlərinin müzakirəsinə yönəldi. Amerika diplomatları öz ingilis həmkarlarını inandırdılar ki, onların hökumətinin vəziyyətdən ən əlverişli çıxışı - İngiltərənin maliyyə yükünü yüngülləşdirmək və Yunanıstana müdaxiləsinə görə hər tərəfdən məruz qaldığı tənqidlərdən yaxa qurtarmaq üçün ağırlığın bir hissəsini ABŞ-a verməkdir.

**1947-** ci il fevralın 21-də ABŞ hökuməti Birləşmiş Ştatların Yunanıstan və Türkiyəyə kömək etməsi barədə İngiltərənin razılığını rəsmən elan edən Böyük Britaniyanın iki müraciətini aldı. ABŞ-m xarici siyasət idarəsinin məmurları «Yunanıstan və Türkiyəyə dərhal yardım edilməsi haqqında dövlət departamentinin mövqeyi və göstərişi» adlı sənəd hazırladılar. Onun əsasında prezidentin konqresə

müraciəti hazırlandı. Trumen 1947-ci il martın 12-də müvafiq müraciət ilə çıxış etdi.

Prezidentin çıxışı SSRİ, ABŞ, İngiltərə və Fransa Xarici İşlər Nazirləri Şurasının Moskva sessiyasının açılışı ilə eyni vaxta düşdü.

Trumenin müraciətində Yunanıstan və Türkiyə kommunist təhlükəsi altında olan dövlətlər hesab edildi. Bunu aradan qaldırmaq üçün 400 mln.dollar həcmində amerikan yardımı ayrıldı. Bu vəsait Yunanıstan və Türkiyənin ABŞ-ın müttəfiqinə çevrilməsi məqsədini güdürdü. Müraciətdə deyilirdi ki. Sovet İttifaqı ABŞ mənafeləri üçün təhlükə yaradır.

Konqres prezidentin təklifini qəbul etdi. Türkiyə və Yunanıstana ABŞ-m hərbi ehtiyatlarından silahlar, amerikan hərbi və mülki heyəti göndərildi. SSRİ-nin Türkiyəyə böhtanlar atması və ərazi iddiaları irəli sürməsi Türkiyəni ABŞ-la daha da yaxınlaşdırdı. Amerikan hərbçiləri Yunanıstan və Türkiyədə hərbi bazalar yaratdı. Bu bazalar Yaxın və Orta Şərqdə kommunist təhlükəsinin yayılmasının qarşısını alaraq region dövlətlərinin təhlükəsizliyini qorudu. Trumen doktrinası Qafqaza qədərki ərazini də əhatə edirdi. Bu doktrina regionda ABŞ maraqlarını qorudu. Yaxın Şərq nefti beynəlxalq münasibətlərdə başlıca rol oynayırdı. Əgər 1938-ci ildə ABŞ inhisarlarının payına Yaxın Şərq neftinin 14% (3,2 mln.ton) gəliri düşürdüsə, 1951-ci ildə bu rəqəm - 57,8%-i (56,6 mln.ton) təşkil etdi.

Trumen doktrinası diplomatiya və beynəlxalq münasibətlər tarixində yeni mərhələnin başlanğıcını qoydu. Bu mərhələ tezliklə - «soyuq müharibə» adlandırıldı. «Soyuq müharibə»nin tarixi kökləri oktyabr çevrilişinə və ikinci dünya müharibəsinin gedişinə gedib çıxırdı.

İngilis tarixçisi - beynəlxalq hüquq mütəxəssisi Vudhauz yazırdı: «Soyuq müharibə... qəfildən başladı. Düşünən insanlar - bu və ya digər dərəcədə cərəyan edən hadisələr üzərində fikirləşir, onun tarixi köklərini təkcə ikinci

dünya müharibəsində deyil, hərbçinin daha əvvəl, 1938-ci ilin sentyabrında Münhen sazişlərində axtarırlar».

***Marşal planı***

Amerika diplomatiyası digər ölkələri itaət altına almağa yönələn SSRİ siyasətinə qarşı ABŞ-m iqtisadi qüdrətindən istifadə etməyin mümkünlüyünə əmin idi. Bu siyasət müharibədən sonrakı dünyada ABŞ-m təsirini gücləndirmək və möhkəmləndirmək məqsədləri güdən Marşal planında öz əksini tapdı.

Planın ideyası heç yeniliklə də fərqlənmirdi. Onun kökləri 1919-1923-cü illərdə «ARA»-dan («Amerikan Relief Administrftion» - «Amerikan Yardım Təşkilatı») irəli gəlirdi. Bu, birinci dünya müharibəsindən zərər çəkmiş Avropa ölkələrinə yardım göstərməyə, amerikan iqtisadi və siyasi mövqelərinin güclənməsinə və sovet təsirinə qarşı mübarizə siyasətini həyata keçirilməsinə xidmət edirdi.

1945-ci il iyulun 22-də ABŞ hərbi naziri Stimson prezident Trumenə memorandum göndərdi. Burada o, ABŞ- m «Avropanın bərpası» planını işləyib hazırlayaraq, Avropa dövlətlərinin müharibədən sonrakı çətinliklərindən çıxartmaqdan ötrü bu dövlətlərin təsərrüfatının bərpasına kömək göstərməyini təklif etdi.

Beləliklə, yeni plan hərbi, iqtisadi və siyasi təsisatlar mühitində yarandı. Onun güclü tərəfdarı - 1947-ci ilin yanvarında dövlət katibi vəzifəsinə təyin olunmuş ABŞ Baş Qərərgahmm sabiq gçnerah Marşal oldu. Marşalın rəhbərliyi altında bütün hazırlıq işləri görüldü. Planın əsas müddəaları iri inhisar və bank nümayəndələri ilə razılaşdırılmışdı. Bu məsələ üzrə danışıqlar İngiltərə, Fransa və İtaliya hökumət nümayəndələri arasında aparıldı. Danışıqlar Avropa ölkələrinin azad və demokratik inkişafı tərəfdarlarının kommunist təhlükəsinə qarşı əməkdaşlığı xarakterini aldı.

1947- ci il mayın 8-də dövlət katibi köməkçisi D.Açeson Missisipi plantasiyaçılan qarşısında çıxış edərək

ABŞ hökumətinin yeni plan hazırladığını və bu planın əsas mövzusunun Avropa və Asiyanın güclü mərkəzləri kimi Almaniya və Yaponiyanın bərpa edilməsi təşkil etdiyini bildirdi.

1947-ci il iyunun 5-də Kembricdə Harvard universitetinin keçmiş tələbələri - cəmiyyət üzvləri qarşısında Marşal nitq söyləyərək yeni plan haqqında məlumat verdi. Bu nitq amerikan diplomatiyasının ənənəvi üslubunda söylənildi. Yeni plan natiqin qəfil improvizasiyası kimi təqdim olundu. Əsasən ümumi ifadələrlə çıxtş edən və konkretləşmədən qaçan Marşal müharibədən zərər çəkmiş Avropanı bərpa etmək üçün amerikan yardtmının göstərilməsinin zəruriliyini bəyan etdi. O, belə bir fikri nəzərə çatdırmağa çalışdı ki, amerikan yardımının yubadılması Qərbi Avropa dövlətlərində mövcud quruluşun davamlılığı üçün ciddi sınaq ola bilər. Çünki o. iqtisadi, sosial və siyasi nəticələri hədələyici xarakterə sürükləyib aparar. Avropaya, ilk növbədə Qərbi Almaniyaya arxalanmağı irəli sürən yeni planın mahiyyəti belə açıqlandı.

Bir tərəfdən ABŞ, digər tərəfdən isə İngiltərə və Fransa hökumətləri arasında ilkin danışıqlara müvafiq olaraq Marşal planının həyata keçirilməsindən sonrakı təşəbbüslər gec edildi. İyunun 17-18-də Parisdə görüşən İngiltərə və Fransa nümayəndə heyətləri amerikan planını həyata keçirmək üçün ən zəruri tədbirlər haqqında danışdılar və müşavirədə iştirak etmək üçün Sovet İttifaqına müraciət etdilər. Bu müraciətin öz diplomatik yönü var idi. Onlar Avropanın iqtisadi bərpasında Sovet İttifaqının iştirak ^etməsini istəyirdilər. Əsas vəzifə SSRİ üçün qapıların açılması idi. Sovet hökuməti bu dəvəti qəbul etdi.

İngiltərə, Fransa və SSRİ Xarici İşlər nazirləriıbn Marşal planına dair müşavirəsi 1947-ci il iyunun 27-dən iyulun 2-dək Parisdə keçirildi. Müzakirə olunan məsələ Birləşmiş Ştatlara aid olmasına baxmayaraq ABŞ nümayəndələri burada iştirak etmirdilər.

Lakin az sonra Sovet İttifaqı Marşal planında iştirak etməkdən imtina etdi. Sovet nüfuz dairəsində olan Avropa ölkələri də SSRİ-nin təzyiqi ilə bu planda iştirak etməkdən imtina etdilər.

İngiltərə, Fransa və SSRİ nümayəndələrinin Paris müşavirəsindən sonra ABŞ hökuməti bu planın həyata keçirilməsini qeyri-rəsmi adamlara etibar etdi. Marşall planına əsasən ABŞ hökuməti tərəfindən baş inzibatçı vəzifəsinə təyin olunmuş iri amerikan iş adamı Kleyton Avropaya gəldi. Onun iştirakı ilə 1947-ci il iyulun 12-15-də amerikan yardımının şərtlərini qəbul edən 16 Avropa dövlətinin - Avstriya, İngiltərə, Belçika, Yunanıstan, Danimarka, İrlandiya, İslandiya, İtaliya, Lüksemburq, Niderland, Norveç, Portuqaliya, Türkiyə, Fransa, İsveçrə və İsveç nümayəndələrinin müşavirəsi oldu. Müşavirədə Qərbi Almaniya təqdim olunmadı. Amerikan yardımının ən yaxşı hissəsi onun üçün nəzərdə tutulmuşdu.

Müşavirə Marşal planı üzrə ABŞ hökumətinin təklifini mübahisəsiz qəbul etdi. Bu təklifə görə yardım alan hər bir ölkə özünün iqtisadi vəziyyəti, valyuta ehtiyatlan və hərbi dağıntılar, bərpa edilmiş işlər və s. haqqında ətraflı hesabat təqdim etməli idi. İcraçı komitənin rəhbərliyi ilə Avropa İqtisadi Əməkdaşlıq Təşkilatı təsis edildi. Sovet diplomatiyasının mövqeyinə görə bu komitə formal olaraq okeanın o tayındakı dövlətləri ABŞ-dan yardım alan dövlətlər kimi təqdim etsə də, işdə onların siyasi hökmranlıq orqanı idi. Marşal planının amerikan inzibatçısı komitəyə rəhbərlik etdi. Marşal planı və onun vacib təxsisatları təsdiq üçün ABŞ konqresinə təqdim olundu. Konqresə təsir göstərmək üçün Qərbi Avropa ölkələrinin siyasi xadimləri kommunizm hədəsini əsaslandırdılar. İngiltərə feldmarşah Montqomeri Qərbdə kommunist təsirinin genişlənməsinin qarşısını almaq üçün tələsməyə çağırdı. «Xarici dövlətlərə kömək haqqında 1948- ci il qanunu» 1948-ci il aprelin 3-də ABŞ konqresi tərəfindən qəbul edildi. Qanun səhərisi gün prezident

tərəfindən imzalandı. Marşal planı bir çox münasibətlərdə hərbi blokların yaradılmasını hazırladı. Qanun Avropa ölkələrinin iqtisadiyyat və siyasətini ABŞ-a sıx bağladı, onların iqtisadiyyatının bərpasının və daha da möhkəmləndirilməsinin başlanğıcını qoydu. Qərbi Almaniyanın iqtisadi potensialının dirçəlməsinə və inkişafına kömək etdi.

Marşal planının həyata keçməsinin birinci ilində Qərbi Almaniya - 2422 mln., İngiltərə - 1324 mln., Fransa - 1130 mln, İtaliya - 704 mln dollar yardım aldılar. Qərbi Almaniya İngiltərə və Fransanın aldığı payın cəmi qədər yardım aldı. Marşal planı Avropa dövlətlərinin müharibədə dağıdılmış iqtisadiyyatının bərpasına, onların inteqrasiyasına və ABŞ-la əməkdaşlığının genişləndirilməsinə kömək etdi.

***Qərb ittifaqının yaradılınası***

«Soyuq müharibə» siyasətinin yeridilməsi, Marşal planının elan edilməsi və onun həyata keçirilməsi hərbi blokların yaradılmasına təkan verdi.

Hərbi blokların yaradılmasına hazırlıq dövründə İngiltərə bu prosesdə aparıcı rol oynamağa cəhd göstərdi. Almaniyanın iştirakı ilə antisovet blokun yaradılması ideyası Çerçilin 1946-cı il Fulton nitqində irəli sürülmüşdü. Çerçil bu blokda rəhbər rolu İngiltərənin rəsmi dairələrinə verirdi. Bu, 1946-1948-ci illərdə onun söylənilmiş nitqlərində özünü büruzə verdi. Bu nitqlərdə Çerçil SSRİ və onun təsiri altında olan ölkələrə qarşı və eyni zamanda səmərəli əməkdaşlıq üçün «Birləşmiş Avropanın» yaradılmasına çağırdı. O, İngiltərəni öz aralarında üç dünya təbəqəsini birləşdirən yeganə dövlət adlandırdı.

Hərbi blokun yaradılması yollarında Britaniya diplomatiyasının ilk addımı 1947-ci il martın 4-də Dyunkerkdə Böyük Britaniya və Fransa arasında ittifaq və qarşılıqlı yardım haqqında müqavilənin bağlanması oldu. Bu

müqavilənin ideyası hələ Çerçilin 1946-cı ildə sentyabrın 19-da Sürix universitetindəki nitqində öz əksini tapmışdı.

Avropa ölkələrinin birləşməsi yolunda növbəti addım **1948-** ci il martın 17-də Brüsseldə 50 il müddətinə İngiltərə, Fransa, Belçika, Niderland və Lüksemburq arasında Qərb İttifaqını yaradan müqavilənin imzalanması oldu. Bu müqavilə onun iştirakçılarını hərbi və iqtisadi qarşılıqlı yardım göstərməyi, hər hansı bir təhlükənin yarandığı an hərbi əməliyyatlarda və iqtisadi sabitliyi pozmaq təhlükəsinin qarşısının alınmasında kollektiv iştirak etməyi nəzərdə tuturdu.

Brüssel sazişi Qərb İttifaqının daimi fəaliyyət göstərən orqanlarının - məsləhət şurası, hərbi komitə və hərbi qərargahın yaradılmasını nəzərdə tuturdu. Fransız şəhəri Fontenbloda yerləşdirilmiş hərbi qərargaha ingilis feldmarşah Montqomeri rəhbərlik edirdi.

Müqavilədə Almaniya tərəfindən təcavüzün təkrarlanmasına qarşı yönəlmiş maddələr var idi. Qərbi Avropa ölkələri bu təhlükəni aradan qaldırmaq üçün Qərbi Almaniyaya iqtisadi yardımlar göstərilməsinə yönəlmiş kursun həyata keçirilməsini irəli sürdülər.

***NATO-nun yaradılması***

Marşal planının qüvvəyə minməsindən dərhal sonra amerikan diplomatiyası ABŞ-m rəhbərliyi altında hərbi blok yaratmaq üçün Qərbi Avropa dövlətləri ilə danışıqlara başladı. Bu danışıqlar Berlin böhranının gərgin vaxtında keçirildi.

Hərbi blokun yaradılması haqqında ilkin danışıqlar ABŞ hökuməti ilə Marşal planında iştirak edən dövlətlərin hökumətləri arasında aparıldı. Marşal planında iştirak edən bəzi dövlətlər - Avstriya, İrlandiya, İsveçrə və İsveç hərbi ittifaqda iştirak etmək istəmədiklərini bildirdilər. Türkiyə və Yunanıstanın hərbi bloka qəbulu məsələsi isə təxirə salındı. Beləliklə, ilkin mərhələdə blok iştirakçılarının sayı 12 dövlət

müəyyən olundu: 10 Avropa dövləti, okeanın o tayından ABŞ və Kanada. Blok belə adlandırıldı; Şimali Atlantika İttifaqı - NATO («North Atlantic Treaty Organization»).

**1949-** cu il aprelin 4-də Belçika, İslandiya, Danimarka, Kanada, Lüksemburq, Niderland, Norveç, Portuqaliya, İtaliya, Böyük Britaniya, Fransa və ABŞ-m Xarici İşlər nazirləri Vaşinqtonda Şimali Atlantika paktını imzaladılar. Müqavilə 20 il müddətinə nəzərdə tutulurdu.

Şimali Atlantika müqaviləsinin birinci maddəsində ümumi sülhün, kollektiv təhlükəsizliyin və BMT nizamnaməsinin qorunması məqsədinin güdüldüyü bəyan edildi.

Müqavilənin ikinci maddəsində üzv ölkələrdə mövcud ictimai quruluşun birgə müdafiəsi məqsədilə onun üzvlərinin sıx əməkdaşlığı göstərildi.

Üçüncü maddədə deyilirdi ki, pakt iştirakçıları hərbi qüdrətin güclənməsində birgə iştirak etməlidirlər.

Dördüncü maddə mövcud qayda və onun təhlükəsizliyinə qarşı istənilən təcavüzə qarşı birgə əməliyyatlar aparılmasını nəzərdə tuturdu.

Beşinci maddə tərəflər arasında hərbi qüvvələrin tətbiqi məsələlərində qarşılıqlı yardımın vəzifələrini müəyyənləşdirirdilər.

Sonrakı maddələr hərbi təcavüzə qarşı pakt iştirakçılarının gəmi və ya təyyarə ilə müdaxilə etməsi imkanını nəzərdə tuturdu.

Müqavilənin səkkizinci maddəsinə görə NATO iştirakçıları bloka daxil olmayan dövlətlərlə beynəlxalq müqavilələr bağlaya bilərdilər.

Müqavilənin doqquzuncu maddəsi blokun daimi hərbi orqanlarının yaradılmasını nəzərdə tuturdu. Bu maddə NATO-nun iri və işlək hərbi-siyasi maşına çevrilməsinə yönəlmişdi.

Aprelin 5-də NATO-nun üzvü olan Avropa dövlətləri onlara vəd edilmiş hərbi və maliyyə köməyini almaq məqsədi

ilə ABŞ-a müraciət etdilər. Buna müvafiq olaraq proqram ABŞ hökuməti tərəfindən təxirə salınmadan hazırlandı və «Xarici dövlətlərə hərbi yardım haqqında» qanun layihəsi kimi 1949-cu il iyulun 25-də təsdiq üçün konqresə təqdim olundu. Qanun layihəsi konqres tərəfindən bəyənildi və qüvvəyə mindi.

1951-ci ildə ABŞ konqresi yaxın 3 il ərzində NATOnun üzvü olan Avropa dövlətlərinin silahlanmasını təmin etmək üçün ABŞ tərəfindən qoyulan kreditləri ayıran «Qarşılıqlı təhlükəsizliyin təmin edilməsi haqqında» qanun qəbul etdi.

Bu siyasəti davam etdirən ABŞ hökuməti «NATO üzvü olan dövlətlərin hərbi qüvvələri haqqında status» konvensiyasını işləyib hazırlayaraq Şimali Atlantika blokunun Şurasında qəbul etdirdi. Konvensiya 1951-ci il iyunun 19-da imzalandı və 1953-cü il avqustun 23-də qüvvəyə mindi. NATO üzvləri olan Avropa dövlətlərinin ərazisində ABŞ tərəfindən hərbi bazalar yaradıla bilərdi. Konvensiya ABŞ-a NATO ölkələrində özünün və həmçinin blokun digər üzvlərinin hərbi qüvvələrini yerləşdirmək səlahiyyətini verdi.

Qarşısını almaq doktrinası NATO-nun rəhbər hərbi doktrinasına çevrildi. 1949-cu ilin payızında Sovet İttifaqı ABŞ-m atom silahı üzərində inhisarını ləğv edərkən bu doktrina daha da mütəşəkkil oldu. O, 1953-cü ildə kütləvi qisas doktrinası ilə əvəz olundu.

### *Amerika Dövbtbri Təşkilatının yaradılması*

40-cı illərdə Qərb yarımkürəsində beynəlxalq münasibətlərdə Amerika Dövlətləri Təşkilatının yaradılması mühüm yer tutdu. 1947-ci il sentyabrın 2-də Rio-de-Janeyroda qarşılıqlı yardım haqqında Amerika dövlətləri arası müqaviləsi imzalandı.

Qitə dövlətləri arasında ikitərəfli hərbi, siyasi, iqtisadi və b. müqavilələrin imzalanması Amerika dövlətləri arası sisteminin yaradılmasının təməlini qoydu.

1948-ci il aprelin 30-da Boqotada IX Amerika ölkələri arası konfrans iştirakçıları Amerika Dövlətləri Təşkilatının nizamnaməsini təsdiq etdilər. Nizamnamə 1951-ci il dekabrın 13-də qüvvəyə mindi.

ADT-nin nizamnaməsinə Rio-de-Janeyro paktının əsas müddəaları daxil edildi. Təşkilatın xərclərinin böyük hissəsini ABŞ ödəyirdi. ADT qitə dövlətləri arasında əməkdaşlıqda mühüm rol oynamağa başladı.

XII BÖLÜM

# 50-Cİ İLLƏRDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN BAŞLICA İNKİŞAF MEYLLƏRİ

***Koreya müharibəsi və beynəlxalq***

1948-ci il avqusTun 24-də amerikan hərbi nümayəndəliyinin nəzarəTİ aİTinda Cənubi Koreya ordusunun yaradılması barədə ABŞ-Cənubi Koreya hərbi müqaviləsi bağlandı. 1949- cu ilin iyununda ABŞ öz qoşunlarının Cənubi Koreyadan çıxarılacağını elan erdi.

50-Cİ illərdə beynəlxalq münasibətlər «soyuq mühari- bə»nin güclənməsi, iki siyasi-ideoloji xəttin qarşıdurması, Avropada ittifaqların yaradılması, alman məsələsinin nizama salınması, yeni xarici siyasət doktrinalarının yaranması, Koreya müharibəsi, Yaponiya ilə sülh müqaviləsinin imzalanması, Asiya qitəsində hərbi-siyasi blokların qurulması, Hind- Çinə dair danışıqlar, Asiya və Afrika ölkələrinin beynəlxalq aləmdə rolunun artması və b. məsələlərlə səciyyələnir.

1950- ci ilin yanvarında amerikan hərbi məsləhətçilərinin fəaliyyətinin genişlənməsi və ABŞ-dan hərbi materialların gətirilməsi barədə ABŞ və Cənubi Koreya arasında müqavilə imzalandı. Lakin Koreyada vəziyyət mürəkkəbləşərək vətəndaş müharibəsi həddinə çatdı.

İyunun 27-də ABŞ prezidenti Harri Trumen ordu və donanmaya Şimali Koreyaya hərbi müdaxiləyə başlamaq və Tayvanı mühasirəyə almaq əmrini verdi. Bütün bu tədbirlər BMT-nin razılığı ilə həyata keçirildi. Təhlükəsizlik Şurasının 25 iyun tarixli qətnamələri Koreyaya, hətta Çin və Asiyanın digər ölkələrinə aid idi. BMT üzvləri Cənubi Koreyaya hərbi hücum üçün mühüm olan yardıma çağıran 27 iyun tarixli

**qətnaməsini, iyulun 7-də isə - BMT qoşunları adlandırmaq və BMT bayrağından istifadə etmək razılığı haqqında qətnaməni qəbul etdilər. Amerikan generalı Makartur BMT qoşunlarının rəhbəri oldu.**

**1950- ci il iyunun 13-də onlar yarımfövqəladə vəziyyət elan etdilər. Bu böhranlı günlərdə Cənubi Koreyaya dövlət departamentinin məsləhətçisi Con Foster Dalles gəldi. O, Uzaq Şərqdə amerikan qoşunlarına rəhbərlik edən general Makarturla, ABŞ-m müdafiə naziri L.Consonla və qərargah rəislərinin birləşmiş qrupunun rəhbəri O.Bredli ilə Tokioda görüşərək müşavirə keçirdikdən sonra Cənubi Koreyaya gəldi. Dalles 38-ci paralel rayonunu yoxladıqdan sonra Milli müdafiə ordusunun hissəsi qarşısında çıxış edərək belə bir fikir söylədi ki, onlara ən güclü düşmən də müqavimət göstərə bilməz və öz qüvvələrini nümayiş etdirmək anma çox da qalmamışdır. Cənubi Koreya Milli Məclisində Dalles Birləşmiş Ştatların bu ölkəyə kommunizmə qarşı mübarizədə həm maddi, həm də mənəvi yardım göstərəcəyini bildirdi. İyunun 21-də Tokiodan qayıtdıqdan sonra o, tezliklə Uzaq Şərqdə əməliyyatlar başlayacaqlarını bəyan etdi.**

**1950-ci il iyunun 27-də ABŞ hökuməti Moskvadakı səfirinin köməyi ilə sovet hökumətini inandırmağa çalışırdı ki, SSRİ Şimali Koreyanın təxribat məqsədilə törətmiş hücumuna görə cavabdehlik daşımır və ABŞ hökuməti Şimali Koreya hökumətinə qoşunlarını dərhal çıxarması üçün təsir edəcəkdir. Təhlükəsizlik Şurasının qətnaməsini SSRİ qəbul etmədi. Sentyabrın 15-də prezident H.Trumen Makartura KXDR-i mühasirəyə almaq əmrini verdi.**

**Oktyabrın 1-də BMT komandanlığı qiyamçı ordunun bütünlüklə və sözsüz təslim olmasını tələb etdi. Elə həmin gün BMT orduları 38-ci paraleli keçdilər. Bu aksiya Cənubi Koreya ərazisində hərbi əməliyyatlara icazə verən BMT qətnaməsinə əsasən aparıldı. ABŞ və onun müttəfiqləri tələb etdilər ki, BMT Baş Məclisinin sentyabrın 19-da işə başlayan 5-ci sessiyası Açeson tərəfindən hazırlanmış Koreyanın**

birləşməsi üçün qüvvələrin tətbiq edilməsinə və Li Sm Man rejiminin Koreyanın bütün şimal hissəsinə yayılmasına icazə verən 8 dövlətin (İngiltərə, Avstraliya, Braziliya, Kuba, Niderland, Pakistan, Filippin və Norveç) qətnaməsini qəbul etsin. Bu layihəyə qarşı SSRİ, USSR, BSSR, Polşa və Çexoslovakiya hərbi əməliyyatların dərhal dayandırılması və Koreyadan bütün xarici qoşunların çıxarılması haqqında qətnamənin layihəsini irəli sürdülər. Koreya ilə həmsərhəd dövlətlərin iştirakı ilə BMT komissiyası tərəfindən seçkilərin keçirilməsinə nəzarəti nəzərdə tuturdu.

Səkkizlərin layihəsinin əleyhinə 5 sosialist dövləti və Hindistan səs verdi, yeddi dövlət isə bitərəf qaldı. Layihə oktyabrın 7-də səs çoxluğu ilə təsdiq edildi. Qətnamə BMT ordularına Şimali Koreyanı mühasirəyə almaq, BMT komissiyasına isə hərbi mühasirə şəraitində və Cənubi Koreyanın Konstitusiyası əsasında Seul Milli Məclisində 300 yerdən 100- nü Şimali Koreya üçün nəzərdə tutan seçkilərin keçirilməsinə nəzarət etmək tapşırığını verdi. Baş Məclis Koreyanın bərpası və birləşməsi üzrə komissiya da təsis etdi. Lakin Şimali Koreya SSRİ-nin təzyiqləri ilə BMT qətnaməsinə tabe olmadı.

Şimali Koreya hissələri BMT ordusuna qarşı hərbi əməliyyatlara başladı. Noyabrın 6-da BMT qoşunlarına qarşı KXDR-in təcavüzü haqqında Makarturun bəyannaməsi Təhlükəsizlik Şurasına təqdim edildi. 6 dövlətin hazırladığı (ABŞ, İngiltərə, Fransa, Kuba, Norveç və Ekvador) birgə qətnamənin layihəsində hərbçi dəstələrin dərhal geri çağırılması təklif olundu.

Noyabrın 24-də BMT orduları hücuma başladı.

Dekabrın 12-də Hindistanın nümayəndəsi B.Rau Asiya və Afrika ölkələrinin qrupları adından iki yeni qətnamə irəli sürdü. «13-lər qətnaməsi» (Hindistan, Əfqanıstan, Birma, Misir, İndoneziya, İraq, İran, Yəmən, Livan, Pakistan, Səudiyyə Ərəbistanı, ^riya və Filippin) Baş Məclis tərəfindən sonra qəbul edilən barışığın əsasını təşkil etmək

üçün «üçlər qrupu»nu təsis etmək təklifini irəli sürdü. «12-lər qətnaməsi»', (həmin ölkələrin iştirakı ilə, yalnız Filippin istisna olmaqla) bielə tövsiyə irəli sürdü ki, SSRİ, ÇXR, ABŞ, İngiltərə, Fränsa, Hindistan və Misir Uzaq Şərqin mübahisəli məsələlərini', həmçinin KXDR-in BMT-yə buraxılması və Tayvan məsələlərini həll etmək məqsədilə dərhal toplaşsınlar.

ABŞ BMT Baş Məclisinin onların təqdim etdiyi KXDR-in müdafiəsində Çin könüllülərinin iştirakına görə ÇXR-i təcavüzkar elan edən qətnamənin dərhal qəbul olunmasını tələb etdi. Danışıqların pozulduğunu bildirmək üçün «12-lər qətnaməsi»nin müəllifləri yanvarın 24-də qısa müddətdə Koreya və digər Uzaq Şərq problemlərinin sülh yolu ilə nizamlanma məqsədilə Fransa, İngiltərə, ABŞ, SSRİ, ÇXR, Misir və Hindistan nümayəndələrindən ibarət müşavirə çağırılmasını təklif etdilər. Fevralın 1-də bəyənilən amerikan qətnaməsinə 44 səs verildi, 7-si əleyhinə (Belorusiya, Birma, Hindistan, Polşa, SSRİ, Ukrayna, Çexoslovakiya) və 9 dövlət bitərəf qaldı.

Cənubi Koreyaya yardım haqqında BMT Təhlükəsizlik Şurasının qətnaməsini 53 dövlət təqdir etdi. Müharibədə iştiraka ABŞ və digər NATO dövlətləri də razılıq verdilər. Türkiyə, İngiltərə, Fransa, Avstraliya, Belçika, Kanada, Kolumbiya, Efiopiya, Yunanıstan, Lüksemburq, Niderland, Yeni Zelandiya, Filippin, Tailand və Cənubi Afrika İttifaqı razı oldular. Ordu hissəsi və hərbi dəniz qüvvələri göndərən İngiltərə və 25 min əsgər verən Türkiyədən başqa, ABŞ-ın müttəfiqləri müharibədə rəmzi olaraq iştirak etdilər.

Belə bir vaxtda ABŞ-da müharibəyə qarşı hərəkat gücləndi. ABŞ prezidenti ordu rəhbərini uzaqlaşdırmaq qərarına gəldi. Aprelin 11-də Makartur istefa verdi. 1951-ci il mayın 17-də konqres hərbi əməliyyatların dayandırılması haqqında qətnamə qəbul etdi.

Seçkiqabağı kompaniyada Koreya müharibəsinə son qoymaq vədi 1952-ci ildə respublikaçılar partiyasının namizədi D.Eyzenhauerin ABŞ prezidenti seçilməsinə kömək

**etdi. Dekabrın əvvəlində prezident Koreyaya gələrək hərbi qələbənin perspektivsizliyini gördü. Onun bütün ekspertləri barışıq imzalamaq nəticəsinə gəldilər. Qayıdarkən Eyzenhauer Ueyk adası yaxınlığında «Helena» adlı amerikan gəmisində gələrək dövlət katibi Dalles, müdafiə naziri Vilson və qərargah rəislərinin birləşmiş qrupuna rəhbərlik edən Bredli ilə görüşüb söhbət apardı.**

**Barışıq sazişi 1953-cü il iyulun 27-də imzalandı. BMT komandanlığı həmçinin bu mərasimə Çan Kay Şi və Li Sm Man nümayəndələrinin buraxılmaması təklifini də rədd etdi. Bunun nəticəsində tərəflərin hərbi qüvvə rəhbərlərinin əvəzinə danışıqlarda nümayəndə heyətləri başçıları təqdim olundu. Tam sakitlik içində Nam İr və Harrison saziş imzaladılar.**

**Preambulada sazişin məqsədinin Koreya münaqişəsinin dayandırılması və vəziyyətin tam nizamlanmasına qədər bütün düşmən xarakterli aktların və hərbi əməliyyatların dayandırılmasını təmin edən barışığın imzalanması olduğu göstərildi. Bu isə barışıq sazişinin Koreya məsələsinin tam həllinə qədər qüvvədə qalması demək idi. Saziş tərəflərin qoşunlarının yerləşməsinə müvafiq olaraq 38-ci paraleldə hər iki tərəfdən xətt boyunca 2 km hərbsizləşdirilmiş zona ilə demarkasiya xəttini və zonada silahlanma və hərbi heyətin dəyişdirilməsi qaydasını təyin etdi. Hər iki tərəfin nümayəndələrindən ibarət hərbi komissiya və barışığa nəzarət etmək üçün tərəfsiz dövlətlərin - Polşa, Çexoslovakiya, İsveç və İsveçrənin nümayəndələrindən ibarət komissiyanın funksiyaları bərpa olundu. Vətəninə qayıtmaq istəyən bütün hərbi əsirləri 60 gün ərzində vətəninə göndərmək, qalanlarını isə tərəfsiz zonaya gətirib 90 gün müddətində aydınlaşdırma işləri aparmaq üçün hind qoşunlarının nəzarəti altına vermək nəzərdə tutuldu. Barışıq sazişinin imzalanmasından 3 ay sonra xarici qoşunların çıxarılması və Koreya probleminin dinc yolla həlli üçün siyasi müşavirə çağırılmalı idi.**

1953- cü ilin avqustunda Baş Məclisin VII sessiyasında ABŞ çağırılacaq siyasi müşavirədə Hindistanın və bir sıra başqa Asiya ölkələrinin iştirakı haqqında SSRİ təklifini rədd etdi. ABŞ BMT üzvlərinin çox hissəsinin əhval-ruhiyyəsini nəzərə alaraq, bu məsələnin həllini döyüşən tərəflər arasında müşavirədə müzakirə etməyi təklif etdi. KXDR və ÇXR-in razılığı ilə müşavirə 1953-cü ildə oktyabrın 26-da Panmmçjonda açıldı. KXDR və ÇXR Koreya müharibəsinin iştirakçıları ilə yanaşı - Sovet İttifaqı, Hindistan, İndoneziya, Pakistan və Birmanın yalnız məşvərətçi səslə siyasi konfransda iştirak etməsini təkid edirdilər.

Koreya məsələsi Cenevrə müşavirəsinin gündəliyinə salındı. Onun müzakirəsində 5 iri dövlətlə yanaşı KXDR, Cənubi Koreya və ABŞ-m hərbi əməliyyatlar üzrə müttəfiqləri olan 12 dövlətin nümayəndələri də iştirak etdilər. Aprelin 27-də KXDR nümayəndə heyəti Koreya vahid hökumətinin təşkili üçün gərəkli olan seçkilər yolu ilə ölkənin bütövlüyü haqqında təklif irəli sürdü. Tərətlərin bərabərliyi əsasında fəaliyyət göstərən KXDR və Cənubi Koreyanın demokratik təşkilatlarının nümayəndələrindən ibarət komissiyaya seçkilərə hazırlıq işlərinin tapşırılması nəzərdə tutuldu. KXDR altı ay müddətində bütün ordu hissələrinin çıxarılmasını tələb etdi. ABŞ isə BMT ordularının Koreyada qalmasını və BMT-nin nəzarəti altında Şimali Koreyada da seçkilərin keçirilməsini irəli sürdü.

Danışıqları dayandıran Koreya müharibəsinin iştirakçıları BMT Baş Məclisinin IX sessiyasına Cenevrə danışıqları haqqında məruzənin salınmasını təklif etdilər. Cenevrə müşavirəsi barışıq sazişində göstərilən siyasi konfransı təmsil edirdi. Məruzənin müəllifləri yekdilliklə bildirdilər ki, tərəfsiz komissiya tərəfindən seçkilərə nəzarət məsələsində sosialist ölkələrinin təkidi və xarici qoşunların çıxarılması BMT-yə etinasızlıq deməkdir. Onlar Koreyada siyasi nizamlanmanın prinsipləri kimi kollektiv ölçü götürməyi, öz xidmətlərini təqdim etməyi, I^orcya

məsələsinin həllinə yönəlmiş seçkilərin keçirilməsi də daxil olmaqla BMT qətnaməsinin qəbulunu təqdir edirdilər.

***Yaponiya ilə sülh müqaviləsi***

1947-ci ilin əvvəlində ABŞ Sakit okeanda əvvəllər yapon mandatlığı altında olan adaların (Karolin, Marian, Marşall) statusunun müəyyənləşdirilməsi təklifi ilə BMT Təhlükəsizlik Şurasına müraciət etdi. Təhlükəsizlik Şurası bu ərazilərin müstəqillik və yaxud özünüidarəetmə istiqamətində inkişafı haqqında düzəlişləri qəbul etdi.

1947-ci il iyulun 11-də Uzaq Şərq Komissiyasının iştirakçıları 11 dövlətdən ibarət müşavirənin çağırılması təklifini irəli sürdülər.

İngiltərə və onun dominionları işğal rejiminin ləğv olunmasına təkid edirdilər. Hələ 1947-ci ildə Millətlər Birliyinin konfransında ölkələr müttəfiq dövlətlərin razılaşdırılmış qərarı əsasında Yaponiya ilə sülh müqaviləsinin bağlanmasını tezləşdirməyə çalışırdılar. 1949-cu ildə bu istək Kanberradakı görüşdə təsdiq olundu. Bundan sonra İngiltərə Xarici İşlər naziri Bevin Vaşinqtonda Açesonla danışıqlarda Yaponiya ilə sülh məsələsini müzakirə etdi.

Sentyabrın 14-də Trumen dövlət departamentinə Yaponiya ilə sülh danışıqlarına başlamaq vəzifəsini tapşırdı. Bu məqsədlə 1951-ci ilin yanvarında Dalles yenidən Tokioya göndərildi. Yaponiya hökuməti danışıqlara razılıq verdi.

ABŞ-a qayıdan Dalles müqavilə layihəsini hazırladı. 1951-ci ilin martında bu layihə nəşr edildi. Regionda marağı olan dövlətlərin vəziyyətini əks etdirən bu layihə ABŞ- İngiltərə əməkdaşlığını nəzərə alırdı. 1951-ci ilin yanvarında Yaponiya ilə danışıqlar məsələsi üzrə Birləşmiş Ştatların mövqeyini iştirakçı ölkələrin baş nazirlərinin müşavirəsi bəyəndi.

İyulun 20-də İngiltərə və ABŞ Yaponiya ilə sülh müqaviləsi bağlamaq üçün San-Fransiskoda müşavirə

çağırılması təklifini irəli sürdü. Layihənin kollektiv işlənib hazırlanması üçün dəvət olunmuş ölkələrə layihəyə əlavə etmək təklif olundu. Müşavirənin əsas vəzifəsi sülh müqaviləsinin imzalanması idi.

San-Fransisko müşavirəsi 1951-ci il sentyabrın 4-8-də keçirildi. Yaponiyadan başqa burada 51 dövlət iştirak edirdi. ÇXR, KXDR, MXR, VDR müşavirəyə dəvət olunmadılar. Yaponiya ilə müharibə aparmayan ölkələr, Latın Amerikası ölkələri və Lüksemburq da bu müşavirədə iştirak etmədilər. Müşavirə açılanda sovet nümayəndə heyəti ÇXR-in dəvət edilməsi təklifini irəli sürdü. Lakin bu təklif rədd olundu. SSRİ, Polşa, Çexoslovakiya və layihədən narazı olan digər ölkələrin bu layihəni təsdiq etməməsindən ehtiyat edərək ABŞ göstərdi ki, müşavirə yalnız müqaviləni imzalamaq üçün toplanmışdır.

Müqavilənin imzalanması mərasimi sentyabrın 8-də saat 12™-da keçirildi. SSRİ, Polşa və Çexoslovakiya bu mərasimdə iştirak etmədilər. Müqaviləni imzalayan dövlətlərdən çoxu Yaponiya ilə müharibədə birbaşa iştirak etmirdi. Müqaviləyə 27 maddədən ibarət 2 qətnamə, kontrakt, möhlət müddəti və qiymətli kağızlar haqqında protokol daxil idi.

Birinci maddəyə görə yapon xalqının Yaponiya üzərində tam suverenliyini tanıyan müqavilə iştirakçıları ilə bu ölkə arasında müharibə dayandırılırdı.

Əraziyə dair maddələr Koreyanın müstəqilliyinin Yaponiya tərəfindən tanınmasını və keçmiş yapon mandatı əraziləri haqqında Təhlükəsizlik Şurasının qərarlarını nəzərdə tuturdu. Yaponiya Kuril, Cənubi Saxalin, Tayvan və Penxuledao, Spratli və Paraselsk adalarına olan iddialarından imtina etdi.

Ryukyu, Bonin, Rozario, Volkano, Pares Vela, Markus və Dayto kimi yapon adalarım ABŞ-m idarəsinə vermək qərara alındı.

Təhlükəsizlik bölməsi amerikan qoşunlarının Yaponiyada qeyri-müəyyən vaxta qədər qalmasını təsdiqlədi. Müqavilə yapon silahlı qüvvələrinin məhdudlaşmasını nəzərə almırdı. İqtisadiyyat haqqında maddələr Yaponiya iqtisadiyyatı və xarici ticarətinin inkişafını şərtləndirdi. Müqavilə bu məqsəd üçün yapon ehtiyatlarının kifayət etmədiyinə görə məbləğ göstərilmədən Yaponiyanın təzminat ödəməsi vəzifəsini təsdiq etdi. İşğaldan zərər çəkən ölkələrə öz iddialarını ikitərəfli danışıqlar yolu ilə nizama salmaq tövsiyə edildi.

Müqavilə adı çəkilən 11 ölkə - Avstraliya, Kanada, Seylon, Fransa, İndoneziya, Niderland, Yeni Zelandiya, Pakistan, Filippin, İngiltərə və ABŞ tərəfindən təsdiq edildikdən sonra qüvvəyə mindi. Yaponiyaya qarşı müharibədə ittifaq dövlətləri yalnız San-Fransisko müqaviləsini imzalayan dövlətlər hesab edildilər.

1951- ci il sentyabrın 8-də sülh müqaviləsinin imzalanmasından 5 saat sonra Açeson və İosido təhlükəsizliyə dair müqaviləni imzaladılar. Yapon hökuməti Uzaq Şərqdə beynəlxalq sülhü və təhlükəsizliyi təmin etmək, daxili münaqişə və qarışıqlığı aradan qaldırmaq üçün ərazisində və ona yaxın yerlərdə ABŞ-m öz qüvvələrini yerləşdirməsi səlahiyyətini təsdiq etdi.

1952- ci il aprelin 28-də San-Fransisko sülh müqaviləsi, təhlükəsizlik müqaviləsi və inzibati razılıq qüvvəyə mindi.

1956-cı il oktyabrın 19-da SSRİ və Yaponiya birgə bəyannamə imzaladılar. Bəyannaməyə əsasən SSRİ və Yaponiya arasında müharibə dayanmalı və diplomatik münasibətlər bərpa olunmalı idi. Hər iki tərəf mübahisələri sülh yolu ilə həll etməyə, mübahisələrin qüvvə tətbiq etmədən aradan qaldırılmada, bir-birinin daxili işlərinə qarışmamağa, BMT nizamnaməsinə müvafiq təkbaşına, yaxud kollektiv müdafiə olunma hüquqlarını tanımağa hazır olduqlarını bəyan etdilər. Onlar müharibə nəticəsində meydana gələn SSRİ-nin təzminat üzərində səlahiyyəti də daxil olmaqla

iddialardan əl çəkdilər və sülh müqaviləsinin bağlanması üçün danışıqları davam etməyə dair öhdəlik götürdülər. SSRİ Yaponiyanın BMT üzvlüyünə qəbul edilməsi təklifini dəstəklədi və Sovet İttifaqında mühakimə olunan yapon vətəndaşlarının azad edilməsinə razılıq verdi.

1951- ci il sentyabrın 1-də Avstraliya, Yeni Zelandiya və ABŞ San-Fransiskoda Sakit okean paktını imzaladılar. Bu pakt ANZYUS adı alan hərbi ittifaqı qanuniləşdirdi. Müqavilə hücum təhlükəsi və Sakit okean rayonunda tərəflərdən birinin ərazisinə hücum olduqda birgə hərbi əməliyyatları nəzərdə tuturdu. Müqavilənin şərtlərinə görə iştirakçı ölkələrin xarici işlər nazirlərindən ibarət Sakit okean paktı şurası təsis edildi.

### *Hind-Çinə dair 1954-cü il Cenevrə müşavirəsi*

Koreyada müharibə sona çatdıqdan sonra Hind-Çində sülhün bərqərar edilməsi uğrunda mübarizə aparmaq üçün yeni imkanlar yaradıldı.

1954- cü il iyulun 21-nə keçən gecə Vyetnam ordusunun nümayəndəsi Tu Kuanq Bu və Hind-Çin Fransız İttifaqının silahlı qüvvələrinin generalı Deltey Vyetnama və Laosa, Ta Kuanq Bu və Kxmer milli silahlı qüvvələrinin generalı Nxiek Tiulonq isə Kambocaya dair barışıq sazişi imzaladılar.

Danışıqların son mərhələsi ikitərəfli münasibətlər formasında keçirildi. Bunun təməli 1954-cü il iyunun 23-də Berndə Mendes-Fransın Çjou En-lay ilə görüşündə qoyuldu.

Cenevrə müşavirəsində barışıq haqqında qərar qəbul edildi və 1955-ci ildə Laos və Kambocada, 1956-cı ildə isə Vyetnamda azad seçkilərin keçirilməsinin gərəkliyini vurğulandı. Müşavirə iştirakçıları Hind-Çin dövlətlərinin suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə hörmət etmək, daxili işlərə qarışmamaq, həmçinin onlara beynəlxalq komissiya tərəfindən verilmiş istənilən məsələ ilə bağlı məsləhətləşmək təəhhüdünü götürdülər.

### 1954-cü il Manila konfransı. SEA T 0-nun yaradılması

1954-cü il sentyabrın 6-8-də Manilada keçirilən müşavirədə ABŞ, İngiltərə, Fransa, Avstraliya, Yeni Zelandiya, Filippin, Tailand və Pakistan iştirak edirdilər. İngilis nümayəndə heyətinə dövlət naziri Ridinq, fransız nümayəndə heyətinə birləşmiş dövlətlərin məsələləri üzrə nazir Lya Şambr, ABŞ nümayəndə heyətinə Dalles başçılıq edirdilər. Konfransda SEATO (Cənub-Şərqi Asiya Müqaviləsi Təşkilatının ingiliscə adının baş hərfləri) yaradıldı.

SEATO Cənub-Şərqi Asiya ölkələrinin təhlükəsizliyini qorumaqla onlara qarşı mümkün ola biləcək sovet təhlükəsinin qarşısını almaq və bu ölkələrin hərbi-siyasi əməkdaşlığı məqsədlərini güdürdü.

1955- ci ilin fevralında SEATO Şurasının birinci sessiyasında yeni blokun əsas orqanları - Müvəkkillər şurası və Hərbi məsləhətçilər komitəsi yaradıldı. Cari işlərə rəhbərlik etmək üçün katiblik yaradıldı və baş katib seçildi.

### Beynəlxalq münasibətbrdə Asiya və Afrika ölkələrinin rolunun artması. Bandunq konfransı

50-ci illərin ortalarında Asiya və Afrikada bir sıra yeni müstəqil dövlətlər yarandı. Formal olaraq müharibədən əvvəlki dövrdə suveren olan ölkələrin müstəqilliyi möhkəmləndi. Asiya və Afrika ölkələrinin xarici siyasəti və diplomatik fəaliyyəti beynəlxalq münasibətlərdə özünəməxsus yer tutmağa başladı.

Hələ 1947-ci ilin martında Dehlidə keçirilən 26 ölkənin nümayəndəsindən ibarət Asiya ölkələri arası qeyri-hökumət müşavirəsində Hindistanın baş naziri C.Nehru Asiya ölkələrini əməkdaşlığa çağırmışdı. Müşavirə iştirakçıları

müstəmləkə idarəetməsinin ləğv edilməsi və milli iqtisadiyyatın inkişafı uğrunda yekdilliklə çıxış etdilər. Amma bu məqsədlərə çalmaq yolunda fikir ayrılığı olduğu üçün müşavirə iştirakçıları ümumi siyasi platforma hazırlaya və müstəqillik uğrunda mübarizənin əlaqələndirilməsi haqqında razılığa gələ bilmədilər. Asiya ölkələri arası münasibətlər təşkilatının yaradılması və yeni müşavirənin çağırılması haqqında qərarlar yerinə yetirilmədi.

Bu ölkələr bloklara qoşulmamaq xətti götürdülər. Həmin məqsədlə çağırılan Bandunq konfransı 1955-ci il aprelin 18-də İndoneziya prezidenti A.Suxartonun nitqi ilə öz işinə başladı. O, qeyd etdi ki, Asiya və Afrika yalnız birliyi saxlamaqla çiçəklənə bilər. Bu konfransda Türkiyə, Birma, Hindistan, İndoneziya, Pakistan, Seylon, Əfqanıstan, Kamboca, ÇXR, Misir, Mərakeş, Qızıl Sahil, İran, İraq, Yaponiya, İordaniya, Laos, Livan, Liberiya, Liviya, Nepal, Filippin, Səudiyyə Ərəbistanı, Sudan, Suriya, Tailand, VDR, Yəmən və Cənubi Vyetnam nümayəndə heyətləri iştirak edirdilər. Müşahidəçi kimi konfransa Kıbrıs nümayəndəsi arxiyepiskop Makarios və Yerusəlimin keçmiş müftisi Əmin- əl Hüseyn dəvət edildilər.

İlk dəfə olaraq onilliklər ərzində imperializm tərəfindən təcavüz edilən ölkələrin nümayəndələri onları maraqlandıran məsələləri həll etmək üçün toplaşdılar. Bu, Bandunq görüşünə xüsusi əhəmiyyət verdi. Konfrans dünyada baş verən tarixi dəyişikliklərin nümunəsi olaraq müstəmləkə hökmranlığının bərpasının və saxlanılmasının əsassızlığını göstərdi.

Konfrans iştirakçıları siyasi, iqtisadi və mədəni məsələlər üzrə komitələr təsis etdilər. Gündəliyə aşağıdakı məsələlər daxil olundu: 1) iqtisadi əməkdaşlıq; 2) mədəni əməkdaşlıq; 3) insan hüquqları və özünütəyinetməyə dair hüquqlar; 4) asılı xalqların problemi; 5) beynəlxalq sülh və əməkdaşlıq.

Aprelin 24-də yekdilliklə qəbul edilən son bəyannamədə konfrans Asiya və Afrika ölkələri arasında hərtərəfli iqtisadi və mədəni əməkdaşlığın inkişafına və bu məqsədlə bir-birinə köməklik göstərməyə çağırdı.

Konfransda qəbul edilən «Ümumdünya sülh və əməkdaşlığa yardım etmək haqqında qətnamə» xüsusilə böyük əhəmiyyət kəsb edirdi. Bu qətnamə aşağıdakıları nəzərdə tuturdu: 1) BMT nizamnaməsini və insanların əsas hüquqlarını nəzərə almaq; 2) bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət etmək; 3) bütün millət və irqlərin bərabərliyini tanımaq; 4) digər ölkələrin daxili işlərinə qarışmamaq və müdaxiləyə yol verməmək; 5) bütün tərəflərin fərdi və ya kollektiv müdafiəsi hüququna hörmət etmək; 6) bu hüquqlardan hansısa böyük dövlətin marağı və yaxud başqa ölkəyə təzyiq göstərmək üçün istifadədən imtina etmək; 7) istənilən ölkənin müstəqilliyinə və ərazi bütövlüyünə hər cür təcavüz aktından özünümüdafiə; 8) beynəlxalq mübahisələri sülh yolu ilə nizamlamaq; 9) qarşılıqlı maraq və əməkdaşlığa kömək göstərmək; 10) ədalət və beynəlxalq tələblərə hörmət etmək. Praktiki olaraq bu müddəalar dinc yanaşı yaşamağın beş prinsipini inkişaf etdirdi, müstəmləkəçiliyə son qoymaq qətiyyətini ifadə etdi və hərbi blokları pislədi.

***Pleven planı. Avropa kömür va polad birliyi***

1950-ci il oktyabrın 24-də Fransanın baş naziri R.Pleven hökumətinin yeni planını açıqladı. Bu plan AFR hərbi kontingenti də daxil olmaqla Avropa ordusunun təşkilini nəzərdə tuturdu. 1951-ci ilin sentyabrında plan rəsmi surətdə Vaşinqtonda keçirilən müşavirədə ABŞ, İngiltərə və Fransanın xarici işlər nazirləri tərəfindən təsdiq edildi. AFR-in hərbiləşməsi planı Brüsseldə NATO Şurasının sessiyasında (18-19 dekabr 1950-ci il) təsdiqləndi.

1951-ci il aprelin 18-də AFR, Fransa, İtaliya, Belçika, Niderland və Lüksemburq Avropa kömür və polad birliyinin

yaradılması haqqında müqavilə imzaladılar. Fransanın xarici işlər naziri R.Şuman tərəfindən hələ 1950-ci il mayın 9-da təklif olunan bu plan Şuman planı adlanırdı. Avropa kömür və polad birliyinin yaradılması (saziş 1952-ci ilin iyulundan qüvvəyə mindi) bu birlikdə xüsusi rolu olan AFR üçün iqtisadi və hərbi siyasi əhəmiyyət kəsb etdi. AFR-in AKPB-də iştirakı hərbi-sənaye potensialını daha sürətli inkişaf etdirməyə imkan verdi.

***Bonn və Paris müqavilələri***

1952- ci il mayın 26-da ABŞ, İngiltərə, Fransa və AFR nümayəndələri Bonnda ümumi müqavilə - «Almaniya Federativ Respublikası və üç dövlət arasında münasibətlərə dair müqavilə»ni imzaladılar. Müqavilə işğal statusunun ləğvini qanuniləşdirdi. Ali ittifaq komissiyası buraxıldı. Üç dövlət və AFR arasında diplomatik münasibətlər bərpa olundu. Müqavilə Qərbi Almaniya hökumətinə daxili və xarici siyasət məsələlərinin həllində tam səlahiyyət verdi. Bu, Avropa müdafiə birliyi haqqında müqavilənin bağlanması üçün AFR-i beynəlxalq-hüquq zəminlə təchiz etdi.

Bonn müqaviləsi AFR-in Avropa ordusunda iştirakını nəzərdə tuturdu. O, genişlənən Atlantik birliyinin tərkibinə daxil oldu. ABŞ, İngiltərə və Fransa çevriliş və yaxud ictimai təhlükəsizliyin pozulması məqsədilə AFR-ə və Qərbi Berlinə hücum zamanı Qərbi Almaniyada fövqəladə vəziyyət elan etmək hüququ aldılar. Hər bir komandana ona tabe olan silahlı qüvvələrə bilavasitə təhlükə yarandıqda müvafiq ölçü götürmək, hətta təhlükənin aradan qaldırılması üçün silah işlətmək hüququ verildi. Müqavilədə onun fəaliyyət müddəti göstərilmirdi. ABŞ, İngiltərə və Fransa sülhün bərqərar edilməsinə və Almaniyanın birləşdirilməsinə 4ədər öz ordu hissələrini AFR ərazisində saxlamaq hüququnu daha da möhkəmlətdilər. AFR öz ərazisində ingilis, fransız və amerikan

ordularını saxlamaq üçün çəkilən xərclərin 50%-ni ödəməli idi.

Mayın 27-də Fransa, AFR, İtaliya, Belçika, Niderland və Lüksemburqun xarici işlər nazirləri Parisdə «Avropa Müdafiə Birliyinin təsis edilməsi haqqında müqavilə»ni imzaladılar. Bu müqavilə 132 maddədən, bir sıra protokol və sazişlərdən ibarət idi. Müqavilənin birinci maddəsinə görə ümumi orqan, ümumi hərbi qüvvələr və ümumi büdcə altında Avropa Müdafiə Birliyi təsis olunurdu. İkinci və beşinci maddələrdə göstərilirdi ki, bu birlik NAd'O çərçivəsində və onunla sıx əməkdaşlıqda fəaliyyət göstərir. Yaradılan Avropa ordusuna Fransa - 14 diviziya, AFR və İtaliya - hərəsi 12, Belçika, Niderland və Lüksemburq birlikdə 5 diviziya ayırmalı idilər. Bu ordu Avropada NATO silahlı qüvvələrinin ali komandanlığının tabeliyinə keçirdi. Paris müqaviləsində Avropa Müdafiə Birliyinin orqanları, onun quruluşu, funksiyaları və vəzifələri haqqında ətraflı məlumat verildi.

Dörd böyük dövlətin xarici işlər nazirlərinin Berlin müşavirəsi 1954-cü il yanvarın 25-dən fevralın 18-dək keçirildi. Müşavirədə alman problemi, Avropa təhlükəsizliyinin təmin edilməsi, Avstraliya ilə dövlət müqaviləsi haqqında məsələ və s. müzakirə olundu.

ABŞ, İngiltərə, Fransa, Kanada, AFR, İtaliya, Belçika, Niderland, Lüksemburq nümayəndələrinin sentyabrın 28- dən oktyabrın 3-dək Londonda keçirilən müşavirəsində elə həmin ay Parisdə keçirilməsi nəzərdə tutulan müşavirədə imzalanacaq sənədlər paraflandı.

1954- cü il oktyabrın 23-də Paris müqavilələri imzalandı. Oktyabrın 23-də qəbul olunan Paris müqavilələrinin ən vacibi bunlar idi: AFR-də təcavüzkar rejimin başa çatması barədə; AFR və üç dövlət arasında AFR ərazisində xarici hərbi qüvvələr və onların heyətinin hüquqlarına və vəzifələrinə dair münasibətlər haqqında; müharibə və təcavüz nəticəsində yaranmış məsələlərin tənzimlənməsi Berlində və

AFR ərazisində xarici hərbi qüvvələrin yerləşdirilməsi haqqında; 1948-ci il Brüssel müqaviləsinin genişlənməsi və yenidən baxılması və Şimali Atlantika müqaviləsinin təşkili və s. haqqında sənədlər. 1955-ci ildə AFR NATO-ya qəbul edildi.

1955- ci il iyulun 18-23-də Cenevrədə SSRİ, ABŞ, İngiltərə və Fransanın dövlət başçılarının müşavirəsi keçirildi. Müşavirənin işində əsas yeri alman məsələləri və Avropada təhlükəsizliyin təmin edilməsi barədə məsələlər tutdu. Bu məsələlərin müzakirəsində yenidən beynəlxalq münasibətlərdə mövcud olan iki xətt toqquşdu.

***A vropa İqtisadi Birliyinin yaradılması***

1957-ci ildə Romada AFR, İtaliya, Fransa, Belçika, Niderland və Lüksemburq Avropa İqtisadi Birliyinin yaradılması haqqında müqavilə imzaladılar. Birliyin başlıca məqsədi iştirakçı ölkələr arasında gömrük ittifaqının yaradılması, işçi qüvvəsi, xidmət və kapital üçün ümumi bazarın formalaşdırılması, üçüncü ölkəyə qarşı vahid ticarət siyasətinin həyata keçirilməsi, iqtisadi və valyuta ittifaqının yaradılması, iştirakçılar arasında iqtisadi və valyuta siyasətində fərqlərin aradan qaldırılması, kənd təsərrüfatı və nəqliyyat sahəsində ümumi siyasətin həyata keçirilməsi, iqtisadi qanunvericiliyin yaxmiaşdırılması idi. AİB-in yaradılması ilə dünyada ikinci iqtisadi güc mərkəzi meydana çıxdı. Birliyin yaradılmasında son məqsəd siyasi ittifaqın qurulmasına nail olmaq idi. AİB-in rəhbər orqanları olan komissiya və Nazirlər Şurası Brüsseldə (Belçika) yerləşdi.

***Yaxın və Orta Şərqdə beynəlxalq münasibətlər***

Sovet İttifaqının təzyiqinə qarşı ABŞ . nun cənub sərhədlərində blok yaratmağa və Türkiyəni müdafiə etməyə başladı. 1952-ci ildə Türkiyə NATO-ya üzv oldu.

1953- cü ilin yayında SSRİ hökuməti adından Moskvadakı türk səfirinə müraciət edildi. Mehriban qonşuluq münasibətləri saxlamaq, sülh və təhlükəsizliyi təmin etmək üçün sovet hökuməti Türkiyəyə olan ərazi iddialarından əl çəkməyi üstün tutdu. Boğazlar məsələsində sovet hökuməti əvvəlki mövqeyini nəzərdən keçirdi. Həm SSRİ, həm də Türkiyəyə müqabil şərtlərlə boğazlar tərəfindən SSRİ-nin təhlükəsizliyinin təmin edilməsini mümkün hesab etdi. Beləliklə, Sovet hökuməti Türkiyəyə qarşı heç bir ərazi iddiası irəli sürmədiyini elan etdi.

1949- cu ilin sonu - 1950-ci ilin əvvəllərində Ərəb Dövlətləri Cəmiyyətinin üzvü olan dövlətlər öz müdafiəsini artırılması və qarşılıqlı iqtisadi yardımın güclənməsinin tədbirləri barədə danışıqlar apardılar. 1950-ci il aprelin 13-də belə bir müqavilənin layihəsi əvvəlcə siyasi komitə, daha sonra Ərəb Dövlətləri Cəmiyyəti Şurası tərəfindən bəyənildi.

1950- ci il iyunun 17-də Misir, Yəmən, Livan, Səudiyyə Ərəbistanı və Suriya nümayəndələri Ərəb Dövlətləri Cəmiyyəti arasında iqtisadi əməkdaşlıq və müştərək müdafiə haqqında müqavilə imzaladılar. BMT nizamnaməsi və Ərəb Dövlətləri Cəmiyyətinin prinsipləri əsasında imzalanan bu müqavilənin əsas məqsədi ərəb dövlətləri arasında münasibətləri möhkəmləndirmək, onların müstəqilliyini gücləndirmək, müştərək müdafiəni, sülh və təhlükəsizliyi təmin etmək üçün əməkdaşlığı qurmaq idi. Müqavilə iştirakçıları öz aralarında və digər dövlətlərlə mübahisəli məsələləri dinc yolla həll etməli idilər. Onlar cəmiyyət üzvlərindən birinə edilən istənilən təcavüzkar aktın bütün cəmiyyət üzvlərinə aid edildiyini qeyd etdilər. Müştərək müdafiə və ərəb dövlətlərinin müdafiə qüvvələrinin koordinasiyası üçün Müştərək Müdafiə Şurası və Daimi hərbi komitə yaradıldı. Müqavilə iştirakçı dövlətlərin iqtisadi problemləri ilə məşğul olan nazirlərdən ibarət İqtisadi Şuranın yaradılmalı idi. Daha sonra bu Şuraya İraq və İordaniya da qoşuldu. Müqavilə 1952-ci il avqustun 22-də qüvvəyə

mindi. Bu müqavilə ərəb dövlətləri arasında ümumi milli maraq ruhunda əməkdaşlığın bərpası yolunda mühüm addım oldu.

1951- ci il oktyabrın 13-də Qahirədə ABŞ, İngiltərə, Fransa və Türkiyə səfirləri «Yaxın Şərqin müdafiəsinin təşkili» haqqında təklif ilə Misir hökumətinə müraciət etdilər. Amerikan layihəsi onun əsasına əlavə olundu. Müraciət iki sənəddən ibarət idi. Birinci sənəddə deyilirdi ki, ABŞ, İngiltərə, Fransa və Türkiyə Misiri başqa üzvlərlə bərabərlik və əməkdaşlıq əsasında Orta Şərq komandahğınm yaradıcı üzvü olmağa dəvət edir. Burada qeyd edilirdi ki, Avstraliya, Yeni Zelandiya və Cənubi-Afrika İttifaqı bu ərazinin müdafiəsində öz maraqlarını ifadə edirlər və müdafiədə iştirak etmək üçün öz razılıqlarını verirlər. Misir bu təklifi qəbul edəcəyi təqdirdə İngiltərə 1936-cı il ingilis-misir müqaviləsini dəyişməyi və Misir hökuməti ilə digər üzv ölkələrin hökumətləri arasındakı müqaviləyə görə müttəfiq Orta Şərq komandanlığı çərçivəsində saxlanılması nəzərdə tutulmayan Britaniya qoşunlarını Misirdən geri çağıracağını vəd etdi. «Texniki əlavə» adlanan sənəd isə Misirin öz ərazisində bu komandanlığın mənzil qərargahını yerləşdirməsini, Süveyş kanalı zonasında Britaniya hərbi bazasının misirlilərə verilməsini və bu bazanın eyni zamanda Orta Şərq komandanlığına tabe olan ittifaq bazasına çevrilməsini nəzərdə tuturdu.

1956- cı il sentyabrın 23-də İngiltərə və Fransanın BMT-dəki nümayəndələri Təhlükəsizlik Şurasının sədrinə Şuranın gündəliyinə «Süveyş kanalının beynəlxalq idarəetmə sisteminə son qoyan» Misirin fəaliyyəti barədə məsələnin salınması müraciətini təqdim etdilər. Növbəti gün isə Misir hökuməti Təhlükəsizlik Şurasında BMT nizamnaməsini pozan, sülh və beynəlxalq təhlükə üçün qorxu yaradan İngiltərə və Fransanın fəaliyyəti barədə ıiiəsələyə baxılması təklifini irəli sürdü.

BMT Təhlükəsizlik Şurası Süveyş məsələsini sentyabrın 26- dan oktyabrın 13-dək müzakirə etdi. Oktyabrın 1-də

Londonda 18 dövlətin - Dalles planı tərəfdarlarının müşavirəsi keçirildi. Bu müşavirədə «Süveyş kanalından istifadə edənlərin assosiasiyası»nm əsasnaməsi elan olundu. Kanalı həmin assosasiya idarə etməli idi. Təhlükəsizlik Şurasının birinci iclasında çıxış edən İngiltərənin xarici işlər naziri birgə ingilis-fransız qətnamə layihəsinə əlavə etdi. Bu qətnamədə Süveyş kanalı kompaniyasının milliləşdirilməsi- nin ittiham edilməsi və Süveyş kanalından istifadə edənlərin əvvəlki hüquqlarının bərpası təklif olunurdu. Dalles İngiltərə və Fransa nümayəndələrinin tələbini dəstəklədi.

Süveyş böhranının lap əvvəlindən İngiltərə və Fransa hökumətləri Misirə qarşı hərbi qüvvə tətbiq etməyi planlaşdırırdılar. Payızda Böyük Britaniya, Fransa və İsrail Süveyş kanalını milliləşdirmiş Misirə qarşı hərbi təcavüzə başladılar.

Oktyabrın 29-dan 30-na keçən gecə İsrailin 100 minlik ordusu Misir ərazisinə daxil oldu. Oktyabrın 30-da Gi Molle və Pino Londona gəldilər. Onların İden və Lloyd ilə müşavirəsindən sonra İsrail və Misirin diplomatik nümayəndələri Xarici İşlər Nazirliyinə çağrıldılar. Burada onlara ingilis-fransız ultimatumu verildi.

1956- cı il dekabrın 22-də ingilis və fransız qoşunlarının Misirdən çıxarılması başa çatdı. 1957-ci il martın 7-də İsrail qoşunları da ölkədən çıxarıldı.

***Eyzenkauer doktrinası***

1957- ci il yanvarın 5-də ABŞ prezidenti D.Eyzenhauer Yaxın və Orta Şərq ölkələrində Birləşmiş Ştatların siyasəti haqqında xüsusi məktubla konqresə müraciət etdi. EyZenhauerin bu məktubu Sovet İttifaqının və beynəlxalq kothmunizmin təcavüzünə qarşı yönəldilmişdi. Bu rayonda böhranlı vəziyyətin olduğunu, həmin dövrdə dünya neft ehtiyatlarının 2/3-sinin burada yerləşməsini və Yaxın Şərqin Avropa, Asiya və Afrika arasında qapı rolu oyaamasını və üç səmavi dinin yarandığı yer olduğunu qiymətləndirən

prezident lazım olan vaxtda Yaxın və Orta Şərqdə ABŞ hərbi qüvvələrini tətbiq etməyə icazə verilməsini konqresdən xahiş etdi.

Doktrinanın əsasında Yaxın və Orta Şərqdə İngiltərə və Fransanın təsirinin zəifləməsi nəticəsində yaranmış boşluğu kommunizmin tutması üçün əlverişli şərait yaratmaq haqqında tezis var idi. Region ölkələri ilə hərbi, siyasi, iqtisadi və b. sahələrdə əməkdaşlığı nəzərdə tutan doktrina onların təhlükəsizliyini qoruyurdu. Burada təcavüzün qarşısını almaq üçün qüvvə tətbiq edilməsi də əsaslandırıldı.

Eyzenhauerin müraciəti sovet hökuməti tərəfindən ABŞ-m Yaxın və Orta Şərq ölkələri üzərində hökmranlığının yaradılması proqramının elan edilməsi kimi qəbul olundu. Sovet İttifaqı bu proqramın əleyhinə çıxdı. 1957-ci ilin yanvar və fevralında Qahirədə keçirilmiş müşavirədə Misir prezidenti C.Nasir, Səudiyyə Ərəbistanının kralı Səid, İordaniya kralı Hüseyn, Suriyanın baş naziri Əsali və İordaniyanın baş naziri Nabulsi bu doktrinanı rədd etdilər. Bundan fərqli olaraq Livan, İraq, İran, Türkiyə, həmçinin İsrail isə Eyzenhauer doktrinasını dəstəklədilər. Livanın razılığından sonra 1958-ci ilin iyulunda amerikan hökuməti bu ərazidə ABŞ qoşunlarını yerləşdirdi.

***Bağdad paktı və SENTO***

1955-ci ildə tərkibində Böyük Britaniya, Türkiyə, İraq, Pakistan və İranın olduğu Bağdad paktı yaradıldı. 1958-ci ilin yayında İraqda inqilab baş verdikdən sonra 1959-cu il martın 24-də İraq Respublikasının hökuməti İraqın Bağdad paktından çıxmasını rəsmi şəkildə elan etdi. 1959- cu il iyulun 25-də bu blokun qalan üzvləri blokun Mərkəzi Müqavilə Təşkilatı - SENTO adlandırılması qərarına gəldilər. Paktın rəhbər orqa’^ları Bağdaddan Ankaraya köçürüldü.

Misirə qarşı üçlər təcavüzünün məğlubiyyəti, Livana amerikan, İordaniyaya isə ingilis müdaxiləsinin başa çatması,

ərəb xalqlarının yüksələn milli-azadlıq hərəkatı SENTO-nun əsasını təşkil edən siyasi və hərbi-strateji konsepsiyaların mükəmməl olmadığını göstərdi. Bu təşkilatı xilas etməyə çalışan ABŞ 1959-cu il martın 5-də Ankarada Türkiyə, İran və Pakistanla ikitərəfli hərbi sazişlər imzaladı. ABŞ dövlət departamenti bu sazişlərin mətnini ciddi və dəqiq hazırladı. Sazişlər ABŞ üçün üç ölkə ərazisində hərbi-strateji tədbirlər həyata keçirmək və onlardan meydan kimi istifadə etmək imkanını yaratdı.

Lakin 60-cı illərin əvvəllərində SENTO böhran dövrünə daxil oldu.

***Varşava Miiqavihsi Təşkilatının vav/iflılmnsı***

1955-ci il mayın 11-14-də Varşavada səkkiz sosialist ölkəsinin Avropada sülh və təhlükəsizliyin təmin edilməsinə dair müşavirəsi keçirildi. Müşavirə iştirakçıları Avropada kollektiv təhlükəsizlik sisteminin yaradılması uğrunda çıxış etdilər. Albaniya (1968-ci ildə Albaniya Varşava Müqaviləsi Təşkilatından çıxdığını elan etdi), Bolqarıstan, Macarıstan, ADR, Polşa, Rumıniya, Sovet İttifaqı və Çexoslovakiya nümayəndələri sonralar Varşava adını alan dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqaviləni müzakirə edərək imzaladılar.

Müqavilənin preambulasmda ictimai quruluşundan asılı olmayaraq bütün Avropa dövlətlərinin iştirakı ilə qitədə kollektiv təhlükəsizlik sisteminin yaradılmasına iştirakçıların cəhdi təsdiq olunurdu. Burada həmçinin qeyd olunurdu ki, Paris sazişlərinin ratifikasiyası müharibə təhlükəsini gücləndirir, sülhsevər dövlətlərin təhlükəsizliyi üçün qorxu yaradır, onlardan Avropada sülhün saxlanması və təhlükəsizliyi təmin etmək üçün lazımi tədbirlərin həyata keçirilməsini tələb edir.

Sazişin birinci maddəsində deyilirdi ki, m'iqaviləni imzalayan bütün dövlətlər beynəlxalq mübahisələri dinc yolla həll etməli və güc tətbiq etməkdən çəkinməlidirlər.

İkinci maddədə müqavilə iştirakçıları beynəlxalq sülh və təhlükəsizliyi təmin etmək məqsədi daşıyan bütün beynəlxalq tədbirlərdə iştirak etməyə hazır olduqlarını bildirir və əməkdaşlıq etmək istəyən digər dövlətlərlə ümumi razılıq əsasında nüvə və adi silahların kütləvi ləğvinə xidmət edən səmərəli tədbirlərin qəbul edilməsinə nail olmağa çalışacaqlarını qeyd edirdilər.

Üçüncü maddədə deyilirdi ki, tərəflər öz aralarında onların ümumi maraqlarına toxunan bütün vacib beynəlxalq məsələləri həll etmək və müqavilə iştirakçılarının bir və yaxud bir neçə üzvünə qarşı yarana biləcək hərbi təhlükə zamanı təcili məsləhətləşməlidirlər.

Dördüncü maddəyə görə Avropada müqavilə iştirakçılarına bir və ya bir neçə dövlətin, yaxud bir qrup dövlətin hərbi müdaxiləsi zamanı müqavilə iştirakçısı olan hər bir dövlət hücuma məruz qalmış dövlətə və yaxud dövlətlərə tək və müqavilə iştirakçıları, olan digər dövlətlərin razılığı ilə bütün vasitələrlə, hərbi qüvvə tətbiq etmək də daxil olmaqla lazımi təxirəsalınmaz kömək göstərməlidirlər.

Beşinci maddədə Varşava müqaviləsi iştirakçıları olan dövlətlərin hərbi qüvvələrinin birləşmiş komandanlığını yaratmaq nəzərdə tutulurdu. Burada deyilirdi ki, tərəflər onların müdafiə qabiliyyətinin güclənməsi üçün razılaşdırılmış lazımi tədbirlər də tətbiq edəcəklər.

Müqavilənin altıncı maddəsində iştirakçı dövlətlər arasında müqavilədə nəzərdə tutulan məsələlərin həyata keçirilməsi məqsədi və müqavilənin reallaşması ilə bağlı yaranmış məsələlərə baxılmaq üçün Siyasi Məsləhət Komitəsinin yaradılması haqqında qərar da var idi.

Yeddinci maddə ilə tərəflərin müqavilənin məqsədlərinə zidd olan saziş bağlamaq və istənilən koalisiya və ittifaqlarda iştirak etmək hüququ yox idi.

Səkkizinci maddədə müqavilə iştirakçıları bir-birlərinin müstəqilliyinə və suverenliyinə hörmət prinsiplərinə əsaslanaraq gələcək iqtisadi və mədəni əlaqələrin inkişafı və güclənməsi məqsədi ilə dostluq və əməkdaşlıq ruhunda hərəkət etməli idilər.

Doqquzuncu maddədə göstərilirdi ki, sülhsevər dövlətlərin birləşməsinə zəmin olan müqavilədə sülh və təhlükəsizliyi təmin etmək məqsədləri ilə iştiraka hazırlığını bildirən və ictimai dövlət quruluşundan asılı olmayaraq hər bir dövlət bu müqaviləyə qoşula bilər.

Müqavilə 20 il müddətinə qüvvədə idi. Bu müddətin bitməsinə bir il qalmış müqavilənin etibarsız olması haqqında bəyanat verməyən müqavilə iştirakçıları üçün o, növbəti 10 il ərzində qüvvədə olmalı idi. Bununla yanaşı qeyd olunurdu ki, tərəflərin durmadan səy göstərdiyi Avropada kollektiv təhlükəsizlik sistemi yarandığı və bu məqsədlə kollektiv təhlükəsizlik haqqında ümumavropa müqaviləsi qüvvəyə mindiyi gündən hazırki müqavilə öz qüvvəsini itirir. Onuncu maddəyə müvafiq olaraq müqavilə 1955-ci il iyunun 4-də qüvvəyə mindi.

XIII BÖLÜM
# 60-CI İLLƏRDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN ÜMUMİ SƏCİYYƏSİ

60-cı illərdə beynəlxalq münasibətlər iki sistem arasında mübarizə, Karib böhranı, tərksilah, Kıbrıs, Hind-Çində müharibə, Avropada təhlükəsizlik və əməkdaşlıq, Qərbi Berlin problemləri və b. ilə səciyyələnir.

***Qərhi Berlin məsələsi***

Paris müqavilələri imzalandıqdan və AFR NATO-ya daxil olduqdan sonra Avropada yeni şərait yarandı. Qarşıdurma siyasəti nəticəsində iki alman dövlətinin birləşməsinə yönələn xətt çətinliklərlə üzləşdi. Lakin Avropada sülh və təhlükəsizliyin təmin olunmasına və yeni hərbi təhlükə ocağının yaranmasına yol verilməməsinə dair Potsdam qərarlarından irəli gələn öhdəliklər əvvəlki kimi üç dövlətin üzərinə düşürdü. Belə şəraitdə AFR-in yenidən silahlandırılmaması, Avropada ikinci dünya müharibəsindən sonra münaqişələrə son qoyulması, qitədə sülhün bərqərar edilməsi və Qərbi Berlində vəziyyətin normallaşması tələb edilirdi.

1961-ci il mayın 19-da ilkin danışıqlar nəticəsində SSRİ Nazirlər Sovetinin sədri N.S.Xruşşov ilə ABŞ prezidenti C.Kennedinin görüşünün keçiriləcəyi elan olundu. Görüş yeri tərəfsiz ölkə olan Avstriyanın paytaxtı təyin edildi. Görüşün keçiriləcəyi diplomatik kanallarla elan olundu və rəsmi müraciətdə öz əksini tapdı. Rəsmi müraciətdən göründüyü kimi görüş danışıqlar aparmaq və başqa ölkələrin marağına toxunan ən vacib beynəlxalq problemlər üzrə ilkin razılığa nail olmaq məqsədilə keçirilməli idi. Görüş iki ölkə arasında münasibətlərə aid əsas problemlər üzrə fikir mübadiləsinin keçirilməsi və amerikan prezidenti ilə Sovet hökumət başçısı arasında ilk şəxsi əlaqənin yaradılmasına yönəlmişdi.

Görüşdə əsas yeri tərksilah problemi və Qərbi Berlin məsələsi tutdu. İyunun 4-də ABŞ prezidentinə sülh nizam

lanması və Qərbi Berlin məsələsi haqqında yaddaş qeydi ləqdim olundu. Açıq xarakter daşıyan söhbət nəzərdə tutulan müddətdən çox vaxt aparsa da ortaq fikrə gəlmək mümkün olmadı.

Tərkisilah probleminin müzakirəsi məsələsində fikir ayrılığı üzə çıxdı.

Laosun müstəqilliyini dəstəkləmək və onun tərəfsizliyinə hörmət etmək məsələsində tərəfiər müəyyən razılığa gəldilər. Onlar həmçinin bütün dünya üçün maraq kəsb edən hər bir məsələ üzrə əlaqələr saxlamağa və bu məsələlərin dinc yolla həll edilməsinə razılıq verdilər.

Lakin Avropada dinc nizamasalma məsələlərini həll etmək elə də asan deyildi.

***A vropada tahliikjsizlik Dimkdaşlıq problemləri***

60-cı illərdə Avropada beynəlxalq münasibətlərdə gərginlik tədricən zəifiəməyə doğru gedirdi. Bu prosesin baş verməsində SSRİ ilə ABŞ arasında, NATO ilə Varşava Müqaviləsi Təşkilatı arasında qüvvələr nisbətində təxmini tarazlığın yaranmağa başlaması, böyük dövlətlərin əməkdaşlığa üstünlük verməsi və SSRİ ilə Qərbi Avropa ölkələri arasında iqtisadi əlaqələrin inkişafı mühüm rol oynadı. Beynəlxalq münasibətlərdə yaranan belə müsbət meyllər Avropada təhlükəsizliyin təmin olunmasına kömək edirdi. Lakin Qərb və Şərq ölkələrinin Avropada təhlükəsizliyin təmin olunması yollarına münasibəti fərqli idi. SSRİ-də belə hesab edirdilər ki, müharibədən sonra formalaşmış sərhədlərin dəyişməzliyi, ADR-in suveren dövlət kimi tanınması. AFR-in kütləvi qırğın silahına yaxın buraxılmaması və qisas doktrinalarından imtina edilməsi Avropada təhlükəsizliyin başlıca təminatıdır. Həm SSRİ, həm də Qərb çalışırdı ki, bu məsələ ilə əlaqədar yalnız öz təklifiəri və proqramları qəbul olunsun, 60-cı illərdə bu problemə aid təkliflərin çoxalması məhz həmin rəqabətdən irəli gəlirdi. 1965-ci ilin yanvarında Varşava Müqaviləsi Təşkilatının Siyasi

Məsləhət Komitəsinin iclasında Avropada kollektiv təhlükəsizliyi təmin edəcək tədbirləri müəyyənləşdirmək üçün müşavirə keçirmək təklif olundu.

1966-cı ilin iyununda Varşava Müqaviləsi'Təşkilatının Siyasi Məsləhət Komitəsinin Buxarest sessiyasında Avropada sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi haqqında bəyanat qəbul edildi. Bəyanatda Avropada gərginliyin zəiflədilməsinə dair konkret təkliflər irəli sürüldü. Bəyanatda Avropa dövlətləri arasında əlaqələrin dinc yanaşı yaşamaq prinsipləri əsasında inkişaf etdirilməsi, Avropada sülhün möhkəmləndirilməsi yollarının birgə axtarılınası, Avropada hərbi gərginliyin zəifləməsi üçün NATO-nun və Varşava Müqaviləsi Təşkilatının eyni vaxtda ləğvi, ilk addım kimi onların hərbi idarələrinin buraxılması, xaricdəki hərbi bazaların ləğvi, hər iki alman dövlətinin silahlı qüvvələrinin ixtisarı, nüvə silahı olmayan zonalar yaradılması, AFR-in nüvə silahına yaxın buraxılmaması, alman məsələsinin nizama salınması, sərhədlərin dəyişməzliyi, Avropada təhlükəsizlik və əməkdaşlıq məsələlərini müzakirə etmək üçün Ümumavropa müşavirəsinin çağırılması təklifləri irəli sürüldü. Bəyanatdakı təkliflər Qərbi Avropa ölkələrinin hökumətləri tərəfindən müzakirə edildi. 1968-ci ilin yayında Çexoslovakiyada sosializmə münasibətdə hökumətlə müxalifət arasında qarşıdurma və Varşava Müqaviləsi Təşkilatının hadisələrə silahlı müdaxiləsi Ümumavropa müşavirəsi ideyasının əhəmiyyətini daha da artırdı. 1969-cu ilin martında kommunist blokuna daxil olan ölkələr Ümumavropa müşavirəsini keçirmək üçün hazırlıq işlərinə başlamağı təklif etdilər. Müşavirə ideyası Avropa dövlətlərinin əksəriyyəti tərəfindən bəyənildi.

***SSRİ-nin Qərbi A vropa ölkələri ilə münasibətləri***

1969-cu il mayın 5-də Finlandiya hökuməti 32 Avropa dövlətinin, ABŞ-ın və Kanadanın rəhbərlərinə məktub göndərərək müşavirənin təşkili üçün öz xidmətini təklif etdi. 1969-cu il

iyunun 9-da SSRİ həmin təklifləri müdafiə etdiyini bildirdi. 1969-cu ilin sonuna qədər 23 Avropa dövləti Finlandiyanın təklifinə müsbət cavab verdi. Bu da müşavirə ilə əlaqədar ikitərəfli və çoxtərəfli məsləhətləşmələrə başlamağa imkan verdi. 1969-cu ilin oktyabrında Praqada Varşava Müqaviləsi Təşkilatına daxil olan ölkələrin xarici işlər nazirlərinin yığıncağı keçirildi. Yığıncaqda müşavirənin 1970-ci ilin birinci yarısında Helsinkidə keçirilməsi və orada iki məsələnin müzakirəsi təklif olundu: 1. Avropa təhlükəsizliyinin təmin olunması və Avropa dövlətlərinin qarşılıqlı münasibətlərində qüvvədən istifadə olunmaması haqqında; 2. Avropa dövlətləri arasında bərabərhüquqlu əməkdaşlığın inkişafı.

Avropa təhlükəsizliyinə kömək edən mühüm amillərdən biri kimi Qərbi Avropa ölkələri ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi zəruri idi. SSRİ Fransa ilə əlaqələri yaxşılaşdırmağa xüsusi diqqət yetirdi. Sovet rəhbərliyi Fransanın xarici siyasətindəki yeni meylləri; bəzi NATO ölkələri ilə Fransa arasında ziddiyyətlərin artmasını, Fransa da SSRİ-nin imkanlarını və gərginliyin zəifləməsinə çalışdığını nəzərə aldı. 1966-cı ildə NATO-nun hərbi təşkilatından çıxan Fransa qarşısında duran bir sıra məqsədlərə kommunist bloku ölkələri ilə əməkdaşlıq hesabına nail ola biləcəyinə ümid edirdi. Fransa SSRİ ilə iqtisadi əməkdaşlığın faydasını da nəzərə alırdı. Avropada və Asiyada təhlükəsizlik, BMT-nin fəaliyyəti kimi məsələlərdə SSRİ ilə Fransanın mövqelərində ümumi cəhətlər mövcud idi.

1960- cı ildə Sovet hökumətinin başçısı Fransada rəsmi səfərdə oldu. İki ölkə arasında elm və mədəniyyət sahəsində əməkdaşlığa dair sazişlər imzalandı. İmzalanan sənədlərdən ən mühümü nüvə enerjisindən dinc məqsədlə istifadə sahəsində elmi əməkdaşlığın şərtlərinə dair Sovet-Fransa sazişi idi. 1966-cı ilin yayında Fransa prezidenti Şari de Qoll SSRİ- də rəsmi səfərdə oldu. 1966-cı il iyunun 30-da nəşr dunmuş birgə bəyanaldı gərginliyin zəifləməsinin əhəmiv} ti c\ı] olundu. Bəy ıi ci da deyilirdi k: Avropanm | rob’c:'dən ir
'

şeydən əvvəl, qitə ölkələrinin özü tərəfindən həll olunmalıdır. Səfər zamanı iki ölkə arasında kosmik fəzadan dinc məqsədlərlə istifadə, iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında sazişlər imzalandı. 1966-cı ilin dekabrında SSRİ hökumət nümayəndə heyətinin Fransaya səfəri zamanı müzakirə edilən əsas məsələlərdən biri Avropada təhlükəsizlik və əməkdaşlığa dair müşavirənin çağırılması oldu. 1969-cu ildə Fransanın prezidenti seçilən J.Pompidu da Sovet-Fransa münasibətlərinin inkişafına çalışacağını bəyan etdi.

1966- cı ildə AFR-də hakimiyyətə gələn «böyük koalisiya» hökumətində kommunist bloku ölkələri ilə münasibətlərə yeni baxış formalaşdı. Bu zaman AFR hökuməti dünyada dəyişmiş qüvvələr nisbətini və NATO xətti ilə müttəfiqlərinin təkliflərini nəzərə alırdı.

«Böyük koalisiya»nm xarici işlər naziri V.Brandtm irəli sürdüyü «Yeni Şərq» siyasəti Şərq bloku ilə münasibətlərin yaxşılaşdırılmasını nəzərdə tuturdu. AFR hökuməti ADR-in mövcudluğu və Avropada müharibədən sonra yaranmış sərhədlərlə barışa bilmədiyinə görə «Yeni Şərq» siyasəti əsasən

1969- cu ildən sonra reallaşmağa başladı. 1969-cu ildəki seçkilərdən sonra AFR-də ASDP və Az.DP-dən ibarət koalisiya hökuməti quruldu. V.Brandt federal kansler oldu. 1969-cu il oktyabrın 28-də bundestaqdakı çıxışında V.Brandt bildirdi ki, AFR alman torpağında iki müstəqil dövlətin mövcudluğunu etiraf edir və SSRİ, ADR,PXR və ÇSSR-lə qarşılıqlı anlaşmaya və münasibətləri inkişaf etdirməyə hazırdır. 1969- cu ilin noyabrında AFR nüvə silahının yayılmaması haqqında müqaviləyə qoşuldu. 1969-cu ilin dekabrında AFR-lə SSRİ arasında başlanan danışıqlar uğurla nəticələndi.

SSRİ ilə münasibətləri yaxşılaşdırmağa çalışan İngiltərə həm də Qərblə Şərq arasında vasitəçi olmaq istəyirdi. Beynəlxalq həyatın mühüm məsələlərinə münasibətdə İngiltərə ABŞ-la eyni mövqedən çıxış edirdi. 1959-cu ilin əvvəlində baş nazir H.Makmillanın SSRİ-yə səfəri tanışlıq xarakteri daşısa da iqtisadi və mədəni sahədə əlaqələrə təkan verdi. 1964-cü il

seçkilərindən sonra hakimiyyətə gələn leyboristlərin dövründə Sovet-İngiltərə əlaqələri intensivləşdi. 1966-cı ilin yanvarında baş nazir H.Vilson Moskvada səfərdə oldu. 1965 və 1967-cı illərdə sovet nümayəndə heyəti İngiltərəyə səfər etdi. Danışıqlar zamanı həm beynəlxalq problemlər, həm də ikitərəfli münasibətlər müzakirə edildi. Elmi-texniki əməkdaşlıq, maliyyə və əmlak iddialarının tənzimlənməsi, ticarət gəmiçiliyi, hava rabitəsinin genişlənməsi, uzunmüddətli ticarət sazişləri və Kremllə Dauninq-Strit arasında rabitə xəttinin çəkilməsi haqqında sazişlər imzalandı. İngiltərə Ümumavropa müşavirəsi ideyasına tərəfdar olduğunu bildirdi və nüvə silahının yayılmaması haqqında müqaviləni təsdiq etdi. Sovet-İngiltərə münasibətlərində qarşılıqlı məsləhətləşmələr təcrübəsindən geniş istifadə olundu. 1963-cü ildə İngiltərə güzəştli şərtlərlə SSRİ-yə 15 il üçün 200 milyon funt sterlinq kredit verdi. Ticarət dövriyyəsinin həcmi 1964-cü ildə 307,6 milyon, 1970-ci ildə isə 641,4 milyon manat təşkil etdi.

İtaliya da SSRİ ilə münasibətləri yaxşılaşdırmağa başladı. 1960-cı ilin fevralında İtaliya prezidenti, 1961-ci ilin avqustunda isə İtaliyanın baş naziri Moskvaya səfər etdilər. İqtisadi əməkdaşlıq sürətləndi. 1966-cı ilin aprelində SSRİ xarici işlər nazirinin İtaliyaya səfəri zamanı ikitərəfli münasibətlərin, dünya və Avropa siyasətinin aktual məsələləri müzakirə olundu. İtaliya təhlükəsizlik və əməkdaşlığa dair Ümumavropa müşavirəsinin çağırılmasına tərəfdar çıxdı. SSRİ-nin Qərbi Avropa ölkələri iİə ticarətində İtaliya dördüncü yeri tuturdu. İtaliya AİB-in üzvləri içərisində birinci olaraq 1964-cü ildə SSRİ isə uzunmüddətli ticarət sazişi imzaladı. İtaliya 1962-ci ildə SSRİ ilə uzunmüddətli kredit verdi. 1966-cı ilin avqustun 15-də SSRİ Xarici İşlər Nazirliyi ilə İtaliyanın FİAT konserni arasında Voljsk avtomobil zavodunun tikintisində əməkdaşlıq haqqında saziş imzalandı.

60-cı illərdə SSRİ-nin Finlandiya, İsveç, Danimarka, Norveç, Avstriya, İsveçrə ilə münasibətləri inkişaf etdi, tərəflər

həm dövrün siyasi reallıqlarını, həm də əməkdaşlığın faydasını nəzərə alırdılar.

***60-cı illərdə Qərb äövlətləri arasında qarşılıqlı münasibətlər*** Qərbi Avropa inteqrasiyası beynəlxalq münasibətlərə mühüm ^)S'l göstərdi. 1961-ci ildə AİB ölkələı ı vahid gömrük tariflərinə keçdilər. 1962- ci ildə AİB-in Brüsseldə keçirilən konfransında vahid aqrar siyasətə dair bir sıra qərarlar qəbul edildi. 1967-ci il iyulun 1- də Avropa Kömür və Polad birliyinin, Avroatomun və AİB-in rəhbər orqanları birləşdirildi. AİB çərçivəsində kömrük maneələri ləğv edildi, üçüncü ölkələrə münasibətdə vahid tariflər müəyyənləşdirildi, kapitalın və işçi qüvvəsinin sərbəst hərəkəti təmin edildi. İqtisadi inteqrasiya böhrandan çıxmağı daha da asanlaşdırdı.

Qərbi Avropa ölkələrinin siyasi yaxınlaşmasında çətinliklər var idi. 1964-cü ilin noyabrında AFR öz müttəfiqlərinə xarici siyasi və hərbi sahədə vahid tədbirlər planı təklif etdi. Lakin dövlətlərarası ziddiyyətlər AİB-in normal fəaliyyətinə mane olurdu.

Avropa İqtisadi Birliyi yaradılan vaxt İngiltərə ora daxil olmadı. 1960-cı ilin yanvarında Avropa Azad Ticarət Birliyi məhz İngiltərənin təşəbbüsü ilə yaradıldı. Bu təşkilata İngiltərə ilə yanaşı Avstriya, Danimarka, Norveç, Portuqaliya, İsveç və İsveçrə daxil oldu. İngiltərənin AİB-lə iqtisadi əlaqələrə marağı artdı. 1961-ci ilin avqustunda İngiltərə Ümumi Bazara daxil olmaq haqqında danışıqlara başlamağı təklif etdi. 1963-cü ilin yanvarında Fransanın tələbi ilə danışıqlar kəsildi. 1967-ci ildə danışıqlar bərpa olunsa da Fransa İngiltərənin bu təşkilata daxil olmasının əleyhinə çıxırdı.

ABŞ isə Qərbi Avropa inteqrasiyasını diqqətlə izləyirdi və Qərbi Avropada müxtəlif iqtisadi blokların yaranmasının tərəfdarı deyildi. ABŞ Avropada mənafelərinə zidd olan pros- seslərə kəskin reaksiya verirdi. Eyni zamanda Vaşinqton

Transatlantika əlaqələrinin hərtərəfli inkişafında maraqlı idi.
1962- ci ildə ABvŞ Qərbi Avropadakı müttəfiqlərinə Atlantika azad ticarət zonası yaratmağı təklif etdi. Qeyd etmək lazımdır ki, 1960-cı ildə İqtisadi əməkdaşlıq və inkişaf təşkilatı ABŞ-ın fəal iştirakı ilə yaradıldı. Bu təşkilata bütün NATO ölkələri, həmçinin İspaniya, Avstriya, İsveç, İsveçrə və İrlandiya daxil idi. 1962-ci ilin martında ABŞ-la AİB arasında bir sıra mallar üçün gömrüyün qarşılıqlı surətdə 20% azalması haqqında saziş imzalandı. 1964-cü ildə Cenevrədə danışıqlar zamanı ABŞ AİB ölkələrinə gömrüyü 50% azaltmağı təklif etdi. 1967- ci ilin martında ABŞ-la AİB arasında gömrüklərin 35% ixtisarına dair saziş imzalandı.

NATO üzvləri arasında hərbi-siyasi sahələrdə də narazılıqlar var idi. Bu, hər şeydən əvvəl, ABŞ-la Qərbi Avropa ölkələrinin mənafeləri arasında ziddiyyətlərlə bağlı idi. Bununla əlaqədar olaraq ABŞ öz xarici siyasət strategiyasında müəyyən dəyişikliklər etdi. ABŞ Avropada silahlı qüvvələrini artırmağa, İngiltərə və Fransanın nüvə silahlarına nəzarət etməyə çalışırdı. 1960-cı ildə ABŞ-ın təklif etdiyi çoxsahəli nüvə qüvvələri yaratmaq planı NATO şurasında müzakirə olundu. 1962-ci ilin dekabrında ABŞ prezidenti C.Kennedi ilə İngiltərənin baş naziri H.Makmillan arasında görüş zamanı bu məsələ müzakirə edildi. ABŞ və İngiltərə «Nüvə müdafiəsi sistemi haqqında» birgə bəyanat imzaladılar. Bu, Qərbdə görüşün keçirildiyi yerin adı ilə «Nassau paktı» adlandırıldı.
1963- cü ilin yanvarında Fransa həmin pakta qoşulmayacağını bildirərək AFR-lə yaxınlaşmağa başladı. AFR hökuməti NATO çərçivəsində təsirini artırmağa çalışırdı və nüvə silahı əldə etmək üçün Fransa ilə yaxınlaşmaqda maraqlı idi.

1963-cü il yanvarın 22-də əməkdaşlıq haqqında Fransa-AFR müqaviləsi imzalandı. Müqaviləyə görə bu ölkələrin rəhƏbərləri, xarici işlər, müdafiə nazirləri, baş qərargah rəisləri hərbi doktrina və strateji planlarını razılaşdırmaq üçün müntəzəm görüşməli, müxtəlif sahələrdə əməkdaşlığı təşkil etmək üçün nazirliklərarası komitələr

yaradılmalı və birgə silah istehsal etməli idilər. Fransa bu müqavilənin köməyi ilə Avropada ABŞ-a daha ciddi müqavimət göstərmək niyyətində idi. AFR isə bu müqavilədən ABŞ-a qarşı istifadə olunmasının əleyhinə idi. Fransa da AFR-i nüvə silahına yaxın buraxmaq fikrində deyildi. AFR həmçinin İngiltərənin AİB-ə daxil olmasına çalışırdı.

1964- cü ilin noyabrında AFR-lə ABŞ arasında hərbi əməkdaşlıq sazişi imzalandı. AFR çoxtərəfli nüvə qüvvələrinin yaradılması planının həyala keçirilməsinə çalışırdı. 1965-ci ilin mayında NATO-nun nüvə planlaşdırılması komitəsi yaradıldı. Komitəyə AFR də daxil oldu.

AFR-ABŞ yaxınlaşması Fransanın mənafelərinə uyğun deyildi. 1966-cı ilin fevralında prezident Şari de Qoll keçirdiyi mətbuat konfransında Fransanın NATO-nun hərbi təşkilatından çıxdığını bəyan etdi. 1966-cı ilin martın 7-də Fransa NATO strukturlarının ölkədən çıxarılmasını tələb etdi. 1966-cı ilin oktyabrında Fransa nümayəndələri NATO-nun daimi komitəsini tərk etdilər. Az sonra NATO-nun mənzil-qərargahı Brüsselə köçürüldü.

***Sovet-A merika münasibətləri***

60-cı illərdə beynəlxalq vəziyyət bu iki böyük hərbi yə iqtisadi potensiala malik olan dövlətin xarici siyasətindən və qarşılıqlı münasibətlərindən bilavasitə asılı idi. Sovet-ABŞ ziddiyyətləri beynəlxalq gərginliyin əsas mənbəyi idi. Sovet-Amerika münasibətlərinin yaxşılaşması sülhün, təhlükəsizliyin qorunması və gərginliyin zəifIədilməsi üçün böyük əhəmiyyət daşıyırdı. 1959-cu ilin sentyabrında SSRİ hökumətinin başçısı ABŞ-a rəsmi səfər eldi 1960-cı ilin mayında Sverdlovsk səmasında U-2 tipli ABŞ kəşfiyyatçı təyyarəsinin vurulması ilə əlaqədar ABŞ prezidenti D.Eyzenhauer SSRİ-yə ca\ab səfərinə gəlmədi, ABŞ ıı 1960-cı ildə seçilmiş yeni prezidenti C.Kennedi SSRİ-ı in ' A B Ş - m təhlükəsizliyi üçün ən ya,\ ı vasitənin dinc əməkdaşlıq olduğunu söylədi. 1961-ci ilin iyununda Vyanada So’ ‘t və ABŞ rəhbərlərinin görüşü oldu

1962- ci ilin payızında Karib böhranının siyasi- diplomatik vasitələrlə həlli Sovet-ABŞ münasibətlərinin inkşafma təkan verdi.

1963- cü ildə SSRİ, ABŞ və İngiltərənin nüvə sınaqlarının ləğvinə dair imzaladıqları saziş, 1967-cı ildə kosmosdan istifadə sahəsində fəaliyyət prinsipləri haqqında həmin dövlətlərin bağladıqları saziş və kosmonavtların xilas edilməsinə dair 1968-ci ilin aprelində imzalanmış sazişlər Sovet-ABŞ münasibətlərində əməkdaşlıq meylinin üstünlüyünü göstərdi.

1967- ci ilin iyununda SSRİ rəhbərinin ABŞ-m Qlasbero şəhərində prezident L.Consonla görüşü oldu. 1968-ci ildə Sovet-Amerika konsul konvensiyası qüvvəyə mindi, Moskva - Nyu-York aviasiya xətti açıldı, elm, mədəniyyət və idman sahəsində əlaqələr çoxaldı.

60-cı illərin sonunda ABŞ prezidenti seçilmiş R.Nikson 1969-cu ilin yanvarında qarşıdurmanın danışıqlar dövrü ilə əvəz olunduğunu bəyan etdi.

***SSRİ-nin Türkiyə, İran və Əfqanıstanla münasibətləri***

Bu ölkələr arasında qarşılıqlı münasibətlər Yaxın və Orta Şərqdə beynəlxalq vəziyyətə təsir edirdi.

Türkiyə və SSRİ əlaqələrin inkişafına qarşılıqlı maraq göstərirdilər. Bu isə iki ölkənin iqtisadi və elrjii-texniki əməkdaşlığına şərait yaradırdı. 1964-1965-ci ildə xarici işlər nazirlərinin səfərlər mübadiləsi oldu. 1965-ci ilin avqustunda Türkiyənin baş naziri Moskvaya gəldi. 1967-cı ildə imzalanmış sazişə əsasən SSRİ Türkiyədə 7 iri sənaye müəssisəsinin tikilməsinə kömək etməli idi. Tərksilah, müstəmləkələrin ləğvi və Yaxın Şərq böhranı kimi məsələlərdə SSRİ ilə Türkiyənin mövqelərini yaxınlaşdıran cəhətlər çox idi. Eyni zamanda SSRİ bildirdi ki, Türkiyənin NATO üzvü olması onların daha geniş əməkdaşlığına mane olur.

60-cı illərdə SSRİ ilə İranın münasibətlərində müəyyən irəliləyişlər əldə olundu. 1962-ci ilin sentyabrında imzalanmış

sazişə əsasən İran hökuməti ölkə ərazisindən SSRİ-yə hücum məqsədilə istifadəyə imkan verməməli idi. 1963-cü ildə imzalanmış iqtisadi və texniki əməkdaşlığa dair sazişlər əsasən İranda ağır sənayenin inkişafına kömək məqsədi daşıyırdı. Bu sazişlər həmçinin Xəzərdə balıqçılıq sahəsində əməkdaşlığı və İran mallarının SSRİ ərazisində satılmasını nəzərdə tuturdu. Daimi fəaliyyət göstərən Sovet-İran iqtisadi əməkdaşlıq komissiyası yaradıldı.

SSRİ ardıcıl şəkildə bloklara qoşulmaq siyasəti yeridən Əfqanıstanla geniş əlaqələr saxlayırdı. Əfqanıstana xaricdən göstərilən iqtisadi yardımın 50%-dən çoxu, xarici ticarətinin isə 40%-i SSRİ-nin payına düşürdü. 1965-ci ildə Moskvada imzalanmış protokola əsasən hücum etməmək və bitərəflik haqqında Sovet-Əfqan mliqaviləsinin müddəti daha 10 il uzadıldı.

***60-cı illərdə beynəlxalq münasibətlərdə tərksilah problemi***

60-cı illərdə beynəlxalq aləmdə tərksilah uğrunda mübarizə genişləndi. Bu mübarizədə dövlətlərin, xalq diplomatiyasının və BMT başda olmaqla beynəlxalq təşkilatların səyləri gücləndi. Bu sübut edirdi ki, sülhü və təhlükəsizliyi qorumaq, müharibələrin qarşısını almaq üçün tərksilah böyük əhəmiyyətə malikdir. Bu dövrdə tərksilah uğrunda mübarizənin məzmunu da zənginləşərək və bir sıra nəticələr verdi. Bu mühüm məsələdə böyük dövlətlərin öz mövqeyi var idi. Onlar ardıcıl şəkildə mövqelərini müdafiə edirdilər. Eyni zamanda dövlətlər ictimai rəyi nəzərə alaraq irəli sürülən təkliflərə ehtiyatla yanaşırdılar. Hələ 1959-cu ildə SSRİ və İngiltərə tərəfindən ümumi və tam tərksilaha dair irəli sürülən təkliflər BMT Baş Məclisində müzakirə edildi. 1959-cu ilin sentyabrında tərksilah üzrə 10-lar komitəsi ^aradıldı.

1961- ci ilin iyun-sentyabr aylarında tərksilaha dair Sovet-Amerika danışıqları oldu. ABŞ əvvəlcə tərksilahın ümumi prinsiplərini hazırlamağı təklif etdi. 1961-ci ilin

dekabrında BMT Baş Məclisinin XVI sessiyası həmin prinsiplər haqqında birgə Sovet-Amerika bəyanatını dəstəkləyən qətnamə qəbul etdi. Sessiyada tərksilah üzrə 10-lar komitəsinin tərkibinə 8 azad olmuş ölkənin nürnayəndəsi də daxil edildi. 1965-ci ildə BMT Baş Məclisinin XX sessiyası tərksilaha dair beynəlxalq konfrans çağırılması haqqında qərar qəbul olundu.

Nüvə silahlarının sınaqlarının dayandırılması tərksilah uğrunda mübarizənin əsas istiqamətlərindən biri idi. Sınaqların dayandırılması nüvə silahlarının istehsalını dayandırmaq və ətraf mühiti qorumaq üçün böyük əhəmiyyətə malik idi. Bu məsələ həm BMT Baş Məclisinin sessiyalarında, həm də 18-lər komitəsində müzakirə olundu. SSRİ nüvə sınaqlarının tamamilə dayandırılmasını təklif etdi. Qərb dövlətləri isə yeraltı nüvə sınaqlarının dayandırılmasını mümkün saymayaraq buna nəzarətin çətinliyindən danışırdılar. 1963-cü ilin iyulunda SSRİ havada, kosmosda və suda nüvə sınaqlarının dayandırılması haqqında saziş imzalamağı təklif etdi. İyulun 15-dən 25-ə qədər Moskvada SSRİ, ABŞ və İngiltərə arasında aparılan danışıqlar 5 avqust tarixli müqavilə ilə başa çatdı. Havada, suda və kosmosda nüvə sınaqlarının dayandırılmasını nəzərdə tutan həmin müqavilə 1963-cü ilin oktyabrın 10-da qüvvəyə mindi. Giriş və 5 maddədən ibarət olan bu müqavilə müddətsiz idi.

Tərksilah uğrunda mübarizədə kosmik fəzadan dinc məqsədlə istifadənin əhəmiyyəti böyük idi. 1961-ci ildə BMT Baş Məclisinin XVI sessiyası kosmosdan dinc məqsədlə istifadə sahəsində beynəlxalq əməkdaşlığa çağıran qətnamə qəbul etdi. 1963-cü ildə isə BMT Baş Məclisinin XVIII sessiyasında dövlətlərin kosmosa nüvə silahı çıxartmamasmı nəzərdə tutan qətnamə qəbul olundu. 1967-ci ilin yanvarında SSRİ, ABŞ və İngiltərə arasında kosmik fəzanın tədqiqi və ondan istifadə sahəsində dövlətlərin fəaliyyət prinsipləri haqqında müqavilə hər üç ölkənin paytaxtında eyni vaxtda imzalandı. Giriş və 17 maddədən ibarət olan bu müqavilədə

bütün dövlətlərin kosmik fəzadan istifadə hüququna malik olduqları qeyd olundu. Bu müqaviləyə 100-dən çox dövlət qoşulmuşdur.

60-cı illərdə tərksilah uğrunda mübarizənin istiqamətlərindən biri nüvə silahının yayılmaması idi. 1965-ci ilin dekabrında BMT Baş Məclisində bütün dövlətləri nüvə silahının yayılmaması haqqında müqavilə bağlamağa çağıran qətnamə qəbul edildi. 1966-1967-ci illərdə bu məsələ ilə əlaqədar SSRİ ilə ABŞ arasında məsləhətləşmələr aparıldı. 1968- ci il iyulun l-də nüvə silahının yayılmaması haqqında müqavilə SSRİ, ABŞ və İngiltərə arasında, həm də hər üç ölkənin paytaxtında eyni vaxtda imzalandı. Bu müqavilə 1970- ci il martın 5-dən qüvvəyə mindi. Fransa, Çin, Pakistan, CAR, İsrail, Hindistan və bir sıra ərəb ölkələri bu müqaviləyə qoşulmadılar.

***Bloklara qoşulmamaq hərəkatı***

60-cı illərdə beynəlxalq münasibətlərin səciyyəvi cəhətlərindən biri müstəmləkəçilikdən azad olub müstəqillik qazanmış dövlətlərin sayının artması idi. Dünyanın siyasi xaritəsində 41 yeni dövlətin yaranması həm istiqlaliyyat uğrunda mübarizənin, həm də metropoliyaların köhnə müstəmləkəçilik metodlarından əl çəkməsinin nəticəsi idi. Böyük dövlətlər yeni müstəmləkəçilik siyasətinə keçdilər. Bunun əsasında iqtisadi asılılıq mexanizmlərinin təkmilləşdirilməsi, azad olmuş ölkələrin siyasi müstəqilliyinin tanınması və həmin ölkələrlə əlaqələrin daha çox transmilli şirkətlər vasitəsilə saxlanması dayanırdı. Sosialist ölkələri isə azad olmuş ölkələri öz tərəfmə çəkmək üçün onlara «yardım» göstərirdilər. Hansı inkişaf yolunun seçilməsi gənc dövlətlərin qarşısında duran əsas vəzifələrdən biri idi. Qərb dövlətləri bu ölkələrin kapitalizm yolu ilə inkişatuida maraqlı idi. Kommunist bloku isə onlardan Qərbə qarşı öz siyasətlərində istifadə etməyə çalışırdı. Azad olmuş ölkələr də hər iki tərəfin təzyiqlərinə davam gətirə bilmək və beynəlxalq münasibətlərdə

daha fəal iştirak etmək üçün müxtəlif təşkilatlar yaratmağa başladılar. Bloklara qoşulmamaq hərəkatının yaranması da azad olmuş ölkələrin təşəbbüsü ilə bağlı idi. Bu hərəkatın təşkilində Hindistanın baş naziri C.Nehru, Misir prezidenti C.Nasir, Yuqoslaviya prezidenti İ.'fito və İndoneziya prezidenti A.Suxarto böyük rol oynadılar. 1961-ci il sentyabrın 1-6-da bloklara qoşulmayan ölkələrin Belqradda keçirilən birinci konfrasmda 25 /öövlətin rəhbərləri iştirak etdi. Bu konfransda bloklara qoşulanamaq lıərəkatınm prinsipləri təsdiq olundu: 1) Bu ölkələr ur'ıstəqil siyasət həyata keçirir; 2) Bu siyasət dinc yanaşryaşaitla.ğa əsaslanır; 3) Bu ölkələr heç bir hərbi ittifaqa daxil olnıdri ', 4) Öz ərazilərində xarici hərbi bazalar yerləşdirmir.

Bloklara qoşulmamaq hərəkatının iştirakçısı olan dövlətlər «soyuq müharibə»nin elementlərindən biri olan hərbi bloklara, irqçiliyə qarşı çıxır, tərksilah uğrunda mübarizədə iştirak edir və dövlətlərarası əməkdaşlığın hüquq bərabərliyi və qarşılıqlı fayda prinsiplərinə əsaslanmasını təklif edirdilər.

1964- ci ilin oktyabrında Qahirədə bloklara qoşulmayan ölkələrin II konfransında 46, 1970-ci ildə Lusakada keçirilən III konfransında isə u3 dövlətin nümayəndəsi iştirak etdi. Hərəkatın iştirakçıları öz xarici siyasətlərini əlaqələndirir və beynəlxalq həyatın mühürn məsələlərində eyni mövqedən çıxış edirdilər.

Azad olmuş ölkdərin bir qismi SSRİ ilə əlaqələrə üstünlük verirdi.60-cı dkadə 50-yədək belə ölkə SSRİ ilə uzunmüddətli ticarət sazişləri imzaladı.

SSRİ-nin köməyi ilə həmin ölkələrdə 400-dən artıq sənaye rfıüəssisəsi tikildi SSRİ həmin ölkələrin sosialist inkişaf yolu seçməsinə çalışaraq^ bu yolla həmin ölkələrdə öz təsirini artırırdı.

***Yaxın V3 Orta Şərqäs beynəlxalq münasibətlər***

Ərəb-İsrail münasibətləri Yaxın Şərqdəki beynəlxalq vəziyyətə böyük təsir göstərirdi. İsrail ərəb torpaqlarının

hesabına Nildən Fərata qədər Böyük İsrail yaratmaq niyyətlərini gizlətmirdi. İsrailin hərbi və iqtisadi potensialının artmasında ABŞ əhəmiyyətli rol oynayırdı. İsrail ordusuna İngiltərə, Fransa və AFR hərbi texnika göndərirdilər. 60-cı illərdə İsrail beynəlxalq sionist təşkilatlarından hər il 500 milyon dollar yardım aldı. ABŞ İsraili Yaxın və Orta Şərqdə «azad» dünyanın qalası hesab edirdi. Yeni müharibəyə haArhğı başa çatdıran İsrail qonşu ərəb ölkələri ilə münasibətləri gərginləşdirməyə başladı. İsrail Neqev səhrasını suvarmaq üçün İordan çayının axın istiqamətini dəyişməyə çalışırdı. Ərəb ölkələri bunu öz mənafelərinə zidd hesab edirdilər. 1966-cı ildə İsrail aviasiyası Suriya ərazisini bombalamağa başladı. 1966-cı ilin noyabrında Suriya ilə Misir arasında, 1967-ci ilin mayında isə Misirlə İordaniya arasında birgə müdafiə haqqında sazişlər imzalandı.

1967-ci il mayın 22-də Misir hökuməti Tiran boğazını İsrail gəmiləri və İsrailə silah və strateji materiallar gətirən digər ölkələrin gəmiləri üçün müvəqqəti bağladı. Eyni zamanda Misir Sinay yarımadasından BMT ordularının çıxarılmasını tələb etdi. Misir silahlı qüvvələrini İsraillə sərhəddə döyüşə hazır vəziyyətə gətirdi. İsrail yaranmış vəziyyətdə qonşu ərəb ölkələrinə qabaqlayıcı zərbə vurmaq qərarına gəldi. Eyni zamanda İsrail iyunun 6-da Nyu-Yorkda münaqişənin siyasi həllinə dair danışıqlara hazır olduğunu bəyan etdi.

Misir prezidenti C.Nasir də BMT Baş Katibi U.Tanı əmin etdi ki, onun ölkəsi hərbi əməliyyatlara birinci başlamayacaqdır. ABŞ özünün 6-cı donanmasını Aralıq dənizinin şərq hissəsində döyüşə hazır vəziyyətdə saxladı.

1967-ci il iyunun 5-də İsrail müharibə elan etmədən Misir, Suriya və İordaniyaya qarşı hərbi əməliyyatlara başladı. BMT Təhlükəsizlik Şurasının atəşin dərhal dayandırılması haqqında qətnamələrinə məhəl qoymayan İsrail hərbi əməliyyatları genişləndirdi. Komunist ölkələri də İsraildən hərbi əməliyyatları dayandırmağı tələb etdilər. İyunun 10-da SSRİ İsrail hökumətinə təcavüzün qarşısını almaq üçün zəruri

tədbirlər görəcəyini bildirdi. SSRİ İsraillə diplomatik münasibətlərini gəsdi. SSRİ ABŞ və digər Qərb ölkələrindən İsrailə təzyicı göstərməyi xahiş etdi. İyunun 10-da axşam İsrail Suriyaya qarşı müharibəni dayandırdı. Amma İsrail bu dəfə Qəzza bölməsini və Sinay yarımadasını, Yerusəlimin şərq hissəsini, İordaniya və Suriya ərazilərinin bir hissəsini işğal etdi. İsrail 1967-ci il hərbi əməliyyatlar kampaniyası zamanı həm də Misir və Suriyada Qərbə meylli hökumətlərin qurulması məqsədini güdürdü. ABŞ və digər Qərb dövlətlərinin məqsədlərindən biri də ərəb ölkələri ilə Şərq blokunun əməkdaşlığına mane olmaq idi. Ərəb ölkələri isə siyasi-diplomatik vasitələrlə təcavüzün nəticələrini aradan qaldırmaq uğrunda mübarizə aparırdılar.

ABŞ başda olmaqla Qərb dövlətləri İsraili müdafiə edərək onu təcavüz qurbanı sayırdılar. Kommunist ölkələri isə İsrailin işğal etdiyi ərəb torpaqlarından çıxmasını Yaxın Şərqdə ədalətli və möhkəm sülhün zəruri şərti sayırdılar. 1967- ci il noyabrın 22-də Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamədə münaqişənin aşağıdaki prinsiplər əsasında həlli təklif edildi: 1. İşğal olunmuş ərəb torpaqlarından İsrail qoşunlarının çıxarılması; 2. Qarşılıqlı iddialara və müharibə vəziyyətinə son qoyulması; 3. Münaqişə rayonundakı beynəlxalq dəniz sularında gəmiçilik azadlığının təmin olunması; 4. Qaçqınlar probleminin ədalətli həlli; 5. Yaxın Şərq dövlətlərinin müstəqilliyinin qorunması və ərazi bütövlüyünün təmin edilməsi.

BMT-in baş katibi bu qətnamənin icrasına nəzarət etmək üçün Yaxın Şərqə xüsusi nümayəndə göndərdi. İsrail bu qətnaməni narazılıqla qarşıladı. Misir və İordaniya isə qətnaməni bəyəndi. Suriya və Fələstin Azadlıq Təşkilatı onun əleyhinə çıxdı. 1969-cu ildə İsrail aviasiyası Misir və Suriya ərazisində bir sıra yerləri bombaladı. SSRİ həmin ölkələrdə hava hücumundan müdafiə sisteminin yaradılmasına gömək etdi.

Yaxın Şərq münaqişəsi beynəlxalq münasibətlərə daha bir neçə istiqamətdə təsir göstərdi. Bir sıra NATO ölkələri ABŞ-m

İsraili müdafiə etməsindən narahat idilər. Onlar Süveyş kanalının bağlanması nəticəsində Qərbi Avropaya neft daşınmasının çətinləşməsinə, iqtisadiyyatına böyük ziyan dəyməsinə etiraz edirdilər. ABŞ-ın özündə böyük neft şirkətləri ABŞ-m israilpərəst siyasətinin Yaxın Şərqdə onların normal fəaliyyəti üçün çətinlik yaratdığını bildirirdilər. İsrailin daxilində və beynəlxalq sionist dairələrində də İsrailin fəaliyyət metodlarından narazılıq var idi. İsrail rəhbərliyi deyilənləri nəzərə alaraq siyasi manevr taktikasını seçdi. Onun əsas məqsədi işğal etdiyi torpaqlarda möhkəmlənmək və Fələstin Azadlıq Təşkilatına qarşı daha ardıcıl mübarizə aparmaq idi.

İsrailin siyasəti nəticəsində 2 milyona qədər Fələstin ərəbi İordaniya, Suriya və Livana qaçdı. Fələstin xalqı itirilmiş torpaqları qaytarmaq üçün silahlı mübarizəni genişləndirdi. 1967-ci ilin ikinci yarısında genişlənmiş partizan hərəkatına FAT başçılıq edirdi. İsrail Fələstin müqavimət hərəkatını yatırmaq üçün hərəkat daxilindəki ziddiyyətlərdən istifadə edirdi. Fələstin partizanları ilə İordaniya ordusu arasında münaqişəni də İsrail təşkil etdi. Ona görə də 1970-ci ildə Fələstin Azadlıq hərəkatının mərkəzi Livana keçdi.

***Kıbrıs problemi***

İngiltərənin müstəmləkəsi olmuş Kıbrıs 1960-cı ildə müstəqillik qazandı. Müstəqil Kıbrıs dövlətinin yaranması Yunanıstan, İngiltərə və Türkiyə arasında kompromisin nəticəsi idi. Yunanıstan isə bütövlükdə adanı özünə birləşdirməyə çalışırdı. İngiltərə adada yaşayan türklərlə yunanlar arasındakı düşmənçilikdən öz məqsədi üçün istifadə edirdi. 1960-cı ildə ABŞ-m təsiri ilə Yunanıstan və Türkiyə Kıbrısa olan iddialarından əl çəkdilər. İngiltərə adada hərbi bazalarını saxladı. Türkiyə və Yunanıstan adada qoşun yerləşdirə bilərdilər.

1963-cü ildə Kıbrıs prezidenti Makarios dövlətin suverenliyini məhdudlaşdıran amillərin ləğvini tələb etdi. Buna

görə Kıbrıs heç bir hərbi-siyasi bloka qoşulmurdu və sosialist ölkələri ilə əlaqələrini genişləndirirdi. Bunlar ABŞ və İngiltərənin xoşuna gəlmədi və adada türk-yunan düşmənçiliyi yeni qüvvə ilə qızışdı. 1964-cü ildə Londonda İngiltərə, Yunanıstan, Türkiyə və Kıbrısm iştirakı ilə keçirilən konfransda adaya NATO qoşunlarını göndərmək və orada idarəçiliyə kömək etmək üçün beynəlxalq komitə yaratmaq məsələsi müzakirə olundu. Kıbrıs hökuməti BMT Təhlükəsizlik Şurasından kömək istədi. 1964-cü il martın 4-də BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamədə Kıbrısm suverenliyi təsdiq olundu. Münaqişə edən icmaları barışdırmaq üçün oraya BMT qoşunlarının göndərilməsi nəzərdə tutuldu. SSRİ bu məsələdə ABŞ və İngiltərəyə əks mövqe tuturdu, xüsusilə xarici qoşunların adadan çıxarılmasını tələb edirdi. Adada yaşayan türk və yunan icmalarının rəhbərləri arasındakı danışıqlar nəticəsiz qaldı. Yunanıstan isə öz məqsədinə çatmaq üçün adadakı türkləri sıxışdıraraq Kıbnsda dövlət çevrilişi planları hazırlayırdı.

***Hindistan-Çin miinaqişDSİ***

Bu ölkələr arasında ziddiyyətlərin gəskinləşməsində iqtisadi, siyasi və beynəlxalq xarakterli amillərin rolu var idi. Münaqişə üçün bəhanə ölkənin sərhədindəki 125 min kv. kilometrlik mübahisəli ərazi idi. 1960-cı ilin aprelində sərhədi dəqiqləşdirmək üçün xüsusi ekspert komitəsi yaradıldı. Lakin komissiyanın işi nəticə vermədi. Çünki Çin Hindistan tərəfdə olan 120 min kv.km. ərazinin ona verilməsini tələb edirdi. Böyük dövlətlərin heç biri Hindistanla Çin arasında müharibənin başlanmasında maraqlı deyildi. 1962-ci ilin payızında sərhədin şərq hissəsində Çin ordu hissələri Hindistan ərazisinə girdi. Hərbi əməliyyatlar 1962-ci il noyabrın 22-də dayandırıldı. Hindistanı sovetpərəst siyasətdən ayırmaq üçün ABŞ və İngiltərə ona kömək təklif etdilər. Lakin Hindistan öz xarici siyasət kursunu dəyişmədi.

***Hindistan-Pakistan milnaqisəsi***

60-cı illərin ortalarında Kəşmir üstündə Hindistanla Pakistan arasında münasibətlər kəskinləşdi. 1962-1963-cü illərdə aparılan danışıqların uğursuzluğu məsələnin siyasi yolla həllinə imkan vermədi.

1965- ci ilin aprelində Pakistan ordusu Hindistanın cənub- qərbinə hücuma keçdi. 1965-ci ilin iyununda İngiltərənin vasitəçiliyi ilə tərəflər atəşkəs haqqında saziş imzaladılar. Lakin avqustda Pakistan yenidən Kəşmir rayonunda hərbi əməliyyatlara başladı. Qüvvələr nisbəti Hindistanın, xeyrinə idi. Müharibə nəticəsində Asiyanın cənubunda vəziyyət gərginləşdi. Vasitəçilik etməyə razı ‘olduğunu bildirən SSRİ Hindistana və Pakistana aralarındakı ixtilafları dinc yolla həll etmək barədə danışıqlara başlamağı təklif etdi. Çin isə Hindistanı Pakistana qarşı təcavüzdə ittiham etdi. 1965-ci il sentyabrında SSRİ Hindistanın baş nazirinə və Pakistanın prezidentinə Daşkənddə görüşməyi təklif etdi. Tərəflər təklifi qəbul etdilər. 1965-ci il sentyabrın 20-də BMT Təhlükəsizlik Şurası münaqişə edən tərəfləri hərbi əməliyyatları dayandırmağa və mübahisəli məsələləri siyasi vasitələrlə həll etməyə çağıran qətnamə qəbul etdi. 1965-ci il sentybrın 22-də Hindistanla Pakistan arasında hərbi əməliyyatlar dayandırıldı.

1966- cı il yanvarın 4-10-da keçirilən Daşkənd görüşü də uğurla nəticələndi. İmzalanmış Daşkənd bəyannaməsində deyilirdi ki, tərəflər mübahisəli məsələlərin həlli üçün qüvvə tətbiqindən imtina edir, qoşunlarını 1965-ci il avqustun 5-ə qədərki mövqelərə geri çəkir, münasibətlərini tam həcmdə bərpa edir və bir-birinin daxili işlərinə qarışmırlar. Həqiqətən də tərəflər göstərilən şərtlərə əməl etdilər. Lakin Kəşmir məsələsi öz həllini tapmadığından Hindistan və Pakistan silahlanmaqda davAm etdilər və yeni münaqişə üçün zəmin saxlanıldı.

***ÄBŞ-ın H:ml-Çimb sıyasDtı***

L. Conson prezident olandan sonra ABŞ hökumətinin Hind-Çin yarımadasında möhkəmlənmək üçün fəallığı artdı. ABŞ Cənubi Vyetnam ərazisində əsgərlərinin sayını 60-cı illərin sonunda 500 min nəfərə çatdırdı. ABŞ Cənubi Vyetnamda xalqın iradəsi ilə seçilmiş demokratik hökumət qurmağa çalışırdı. Lakin SSRİ və VDR buna mane olurdu. ABŞ yaranmış şəraitdən istifadə edib Vyetnam Demokratik Respublikasına qarşı müharibəyə başlamaq qərarına gəldi. 1964-cü il avqustun 7-də ABŞ konqresinin qəbul etdiyi Tonkin qətnaməsi ilə prezidentə Vyetnamda hərbi əməliyyatlar aparmaq üçün geniş səlahiyyətlər verildi. Belə qətnamənin qəbul edilməsi üçün bəhanə 1964-cü il avqustun 2-də Tonkin körfəzində ABŞ gəmisinin VDR-ə məxsus olan hərbi qayıqlar tərəfindən batırılması oldu. ABŞ təyyarələri və gəmiləri 1964-cü il avqustunda VDR-in sahildə yerləşən məntəqələrini atəşə tutdu. 1965-ci il fevralından ABŞ təyyarələri bütün VDR ərazisini bombaladı. Vyetnamdakı müharibəni L.Conson 1966-cı ildə irəli sürdüyü «Sakit okean doktrinası» ilə əsaslandırmağa çalışdı. Doktrina Hind-Çin ölkələrində ABŞ üçün sərfəli qaydalar yaradılmasını nəzərdə tuturdu. ABŞ-ın təşəbbüsü ilə Vyetnamdakı müharibəyə Avstraliya, Yem Zelandiya, Filippin, Tailand və Cənubi Koreya da cəlb olundu. Amma ABŞ-ın NATO üzrə müttəfiqlərin heç biri Vyetnama qoşun göndərmədi. Fransa isə ABŞ-ın Hind-Çin- dəki siyasətini tənqid edərək Amerikan qoşunlarının oradan çıxarılmasını tələb etdi. Bloklara qoşulmayan ölkələrin əksəriyyəti Vyetnamda müharibənin dayandırılmasını tələb etdilər. Hindistan, Misir və Yuqoslaviya rəhbərləri Vyetnam məsələsinin 1954-cü il Cenevrə sazişləri əsasında həllini təklif etdilər. BMT rəhbərliyi də müharibənin dayandırılmasını tələb etdi.

1967- ci ildə BMT Baş Məclisinin sessiyasında Vyetnamda vəziyyətin müzakirəsi zamanı çıxış edən 110 nümayəndədən cəmi 7-si ABŞ siyasətini müdafiə eldi. Beynəlxalq ictimai rəyi nəzərə alan ABŞ məsələni dinc yolla həll etməyə

hazır olduğunu bildirməklə yanaşı VDR qoşunlarının Cənubi Vyetnamdan çıxarılmasını tələb etdi. Cənubi Vyetnam Milli Azadlıq Cəbhəsi və VDR hökuməti 1965-ci ilin yazında dinc tənzimləməyə dair proqramla çıxış etdilər. Burada ABŞ qoşunlarının Cənubi Vyetnamdan çıxarılması, daxili problemlərin Vyetnam xalqı tərəfindən həll olunması tələbləri var idi.

SSRİ və digər sosialist ölkələri VDR-ə hərtərəfii kömək göstərdilər. Bu yardımın çox hissəsi SSRİ-nin payına düşürdü. 1966-cı ilə ildə Varşava Müqaviləsi Təşkilatının Siyasi Məsləhət Komitəsinin Buxarestdə, 1968-ci ildə isə Sofiyada keçirilən müşavirəsində qəbul edilmiş bəyanatlarda deyilirdi ki. VDR-ə lazımi yardım edəcəklər, Vyetnamda ABŞ təcavüzünə son qoyulmalıdır, 1954-cü il Cenevrə sazişlərinə əməl edilməlidir və s.

60-cı illərin sonunda ABŞ Vyetnamdakı siyasətində dəyişiklik etməyə başladı. Müharibə xüsusilə iqtisadi cəhətdən ABŞ üçün sərfəsiz oldu. Ölkədə əhalinin narazılığı artdı. Vyetnam xalqı ABŞ qoşunlarına daha qətiyyətlə müqavimət göstərirdi. 1968-ci ilin martında ABŞ VDR-in bombalan- masını zəifıədərək VDR hökuməti ilə danışıqlara hazır olduğunu bildirdi. 1968-ci ilin aprelində VDR rəhbərliyi danışıqlara razı olduğunu bəyan etdi. Mayın 13-də Parisdə dinc tənzimlənməyə dair ABŞ-VDR danışıqları başlandı. 1968-ci il noyabrın 1-də ABŞ VDR-in bombalanmasını tamamilə dayandırdı. Bu addım həm də ABŞ-da növbəti prezident seçkiləri ilə əlaqədar idi. Yeni prezident seçkilərində respublikaçıların namizədi R.Nikson qalib gəldi. Seçkinin nəticəsinə Vyetnam müharibəsi böyük təsir göstərdi. R.Nikson hökuməti VDR-lə sülh danışıqlarını davam etdirdi. 1969-cu ilin yanvarında Parisdə davam etdirilən danışıqlarda ABŞ və VDR-lə yanaşı Cənubi Vyetnam Milli Azadlıq Cəbhəsinin və Cənubi Vyetnam hökumətinin də nümayəndələri iştirak etdi. Vyetnamda müharibə «vyetnamlaşdırıldı», yəni hərbi əməliyyatlar bundan sonra başlıca olaraq VDR-lə Sayqon rejiminin əsgərləri arasında aparıldı.

***60-cı illərdə Uzaq Şərqdə heynJxalq münasibətlər***

Regiondakı beynəlxalq vəziyyətə təsir edən amillər içərisində SSRİ-Çin, ABŞ-Çin münasibətlərini, Y aponiyanm xarici siyasətini, Koreya və Tayvan məsələlərini, ABŞ-m Vyetnamdakı müharibəsini xüsusi qeyd etmək lazımdır. Regionda siyasi qüvvələrin yerləşməsini əhəmiyyətli dərəcədə həmin amillər müəyyən edirdi. Uzaq Şərq dünya siyasətinin təsir mərkəzlərindən birinə çevrildi. Bölgənin hər bir dövləti regional beynəlxalq münasibətlər sistemində yerini möhkəmləndirmək üçün xarici əlaqələrdən geniş istifadə etməyə çalışırdı. Məsələn, Monqolustan BMT-nin üzvü oldu. Kamboca, Kuba, Nepal, Mali, Əlcəzair kimi ölkələrlə diplomatik münasibətlər qurdu, nüvə silahına dair imzalanmış müqavilələrə qoşuldu, BMT-nin tərksilah komitəsinin üzvü oldu və dünyanın müxtəlif yerlərində aparılan müharibələrə etirazını bildirdi. 1963-cü ildə Monqolustan İngiltərə ilə, 1965-ci ildə isə Fransa ilə diplomatik münasibətlər yaratdı. Monqolustan
1962- ci ildən başlayaraq Qarşılıqlı İqtisadi Yardım Şurasının işində iştirak etdi. Beynəlxalq əlaqələr ölkənin iqtisadi ink- şafma kömək etdi. 1960-cı ildə Monqolustanla Çin arasında dostluq və qarşılıqlı yardım, 1962-ci ildə isə sərhədlər haqqında müqavilələr imzalandı. Eyni zamanda Çinin Monqolustana ərazi iddiaları olduğundan ona müxtəlif istiqamətlərdə təzyiq edirdi. O, cümlədən tez-tez sərhəd pozma halları baş verirdi.

1966-cı ilin yanvarında Ulan-Batorda SSRİ ilə Monqolustan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında yeni müqavilə imzalandı. Müqavilə müxtəlif sahələrdə əməkdaşlığı, hərbi yardımı, bütün mühüm beynəlxalq problemlərə dair müntəzəm məsləhətləşmələri nəzərdə tuturdu. Tərəflər Asiyada beynəlxalq münasibətlərin əməkdaşlıq istiqamətində inkişafına və bölgədəki müharibələrin dayandırılmasına çalışmalı idilər.

Koreyada baş verən hadisələr də diqqət mərkəzində idi. Koreyanın birləşməsi məsələsində həm Şimali, həm Cənubi

Koreyanın, həm də böyük dövlətlərin mövqeləri fərqli idi. Bu məsələlərdə KXDR daha çox SSRİ və Çinin köməyinə arxalanırdı. 1961-ci ilin iyulunda Moskvada SSRİ ilə KXDR arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə imzalandı. Müqavilə beynəlxalq ‘həyatın ümumi maraq kəsb edən məsələlərində məsləhətləşmələri, xarici hərbi müdaxilə zamanı qarşılıqlı yardımı nəzərdə tuturdu. 'rərəHər onlardan birinə qarşı yönəlmiş blok və ya koalisiyalarda iştirak etməməli idilər. Həmin vaxt KXDR Çinlə də belə bir müqavilə bağladı. KXDR ABŞ-a qarşı mübarizədə VDR-i müdafiə edirdi. 60-cı illərin sonunda KXDR 40-dan çox ölkə ilə diplomatik münasibətlər saxlayırdı. Cənubi Koreyada isə ABŞ-m mövqeyi güclü idi. Onun iqtisadiyyatında ABŞ kapitalı başlıca rol oynayırdı. 1965-ci ildə Cənubi Koreya Yaponiya ilə münasibətləri yaxşılaşdırdı və 1970-ci ilə qədər Yaponiya ona 305 milyon dollar kredit verdi. 1965-ci ildə Cənubi Koreya Vyetnama 50 minlik qoşun göndərdi. ABŞ-ın köməyi ilə Cənubi Koreya ordusu yenidən quruldu və iki dövlətin ordu hissələrinin birgə təlimləri keçirildi.

1960-cı ildə KXDR ölkənin birləşdirilməsinə dair proqram təklif etdi. Proqramda Şimalda və Cənubda azad seçkilərin keçirilməsi, konfederasiya yaradılması, hər iki hökumətin nümayəndələrindən ibarət milli komitənin təşkili nəzərdə tutulurdu. Milli komitə xarici siyasət və müdafiə məsələləri ilə verilmiş səlahiyyətlər çərçivəsində məşğul ola bilərdi. Cənubun konfederasiya yaratmaqdan imtina edəcəyi halda hər iki tərəfin işgüzar nümayəndələrindən ibarət İqtisadi Komitə təşkil olunmalı və iqtisadi əlaqələr inkişaf etdirilməli idi. Cənubi Koreyadan ABŞ qoşunları çıxarılmalı və hər iki dövlətin qoşunlarının sayı 100 min nəfərə qədər azaldılmalı idi. 1961-ci ilin sentyabrında və 1970-ci ilin noyabrında KXDR birləşməyə dair yeni təklifiərlə çıxış etdi. Cənubi Koreyanın rəhbərliyi bu müraciətlərə mənfi cavab verdi. Koreya məsələsi BMT Baş Məclisinin sessiyalarında da müzakirə olundu.

***Çinin xarici siyasəmi***

60-cı illərdə Çinin beynəlxalq münasibətlərdə rolu xeyli gücləndi. Onun ııam Qərb, həm də Şərq ölkələri ilə münasibətləri gərgin idi. Amma kommunist ölkələri ilə əlaqələri zəiflədikcə Pekin Qərblə yaxınlaşırdı.

Siyasi gərginlik nəticəsində müxtəlif sahələrdə Sovet-Çin əməkdaşlığının əhəmiyyəti azalırdı. 50-ci illərdə SSRİ Çinə güzəştli şərtlərlə təxminən 2 milyard rubla qədər kredit verdi və 250-dən çox müəssisənin tikilməsinə yardım etdi. 1961-ci ildə iqtisadi və elmi-texniki əməkdaşlığa dair bir sıra sazişlər Çin hökuməti tərəfindən qüvvədən salındı. 1961-ci ildə Sovet mütəxəssisləri ölkədən çıxarıldı. 1962-ci ildə əmtəə dövriyyəsinin həcmi 1959-cu isə nisbətən 60% azaldı. Qarşıdurma iki dövlətin sərhədində də özünü göstərdi. 1962-ci ildən SSRİ-nin sərhədləri Çin tərəfindən tez-tez pozulurdu. 1963-cü ilin iyulunda Moskvada hökumət başçıları səviyyəsində keçirilən görüş nəticə vermədi. 1964-cü ilin iyulunda Çin rəsmi şəkildə SSRİ-ə qarşı ərazi iddiası irəli sürdü. 1963-cü ildə iki ölkə arasında 4 mindən çox sərhəd münaqişəsi baş verdi. Çində aparılan təbliğata görə SSRİ Çinə 1,5 milyon kv.km. ərazi qaytarmalı idi. Primorye, Xabarovsk diyarı, Saxalin, Baykal gölünədək Şərqi Sibir, Balxaş gölünə qədər Mərkəzi Asiya həmin əraziyə daxil idi. 1964-cü ilin əvvəlində sərhədlərin dəqiqləşdirilməsinə dair Pekində aparılan məsləhətləşmələr az sonra dayandırıldı. 1969-cü ildə Daman adasında Sovet və Çin əsgərləri arasında toqquşma baş verdi.

Qərb dövlətləri Çinin antisovet mövqeyindən öz məqsədləri üçün istifadə etdilər. 1964-cü ilin dekabrında ABŞ prezidenti L.Conson bildirdi ki, ABŞ hökuməti Çinlə qarşılıqlı anlaşmaya hazırdır. Çində münasibət yumşalmağa başladı.

60-cı illərdə Çinin Yaponiya ilə münasibətləri xeyli yaxşılaşdı və onların arasında iqtisadi əlaqələrin inkişafı sürətləndi. Lakin Yaponiya Tayvanla da əlaqələr saxlayaraq və «İki Çin» ideyasını müdafiə edirdi.

60-cı illərdə Uzaq Şərqdə beynəlxalq münasibətlərə Yaponiyanın təsirinin artması həm də onun sürətli iqtisadi inkişafının nəticəsi idi. Yaponiya Vyetnamdakı müharibə zamanı ABŞ-a hərtərəfli kömək göstərdi. Yaponiya dünyada əsas iqtisadi rəqabət mərkəzlərindən birinə çevrildi. ABŞ-a, Avropaya, Latın Amerikasına Yaponiyadan ixrac olunan malların miqdarı artdı. Siyasi-hərbi cəhətdən Yaponiya ABŞ- ın müttəfiqi idi. Digər tərəfdən, ABŞ yapon malları üçün yüksək gömrük tarifləri müəyyən etdi. Daxili bazarı xarici rəqabətdən qorumaq Yaponiyanın ənənəvi siyasətinə çevrildi.

Yaponiya ABŞ-dan əvvəl Çinlə diplomatik münasibətlər yaratmaq istəmirdi. Tayvan problemi də buna mane olurdu. Amma Yaponiya iqtisadi sahədə Çinlə əməkdaşlıqda maraqlı idi. Yaponiyanın SSRİ-yə qarşı ərazi iddiaları olduğundan o. Çinlə yaxınlaşdı. Digər tərəfdən, Yaponiya SSRİ ilə əməkdaşlığı genişləndirməyə səy göstərdi. Qarşılıqlı rəsmi səfərlər əlaqələrə təkan verdi.

1966-cı ildə SSRİ xarici işlər naziri ilk dəfə Yaponiyaya rəsmi səfər etdi. Yaponiya SSRİ ilə müxtəlif sahələrdə əməkdaşlıq etsə də Kuril adalarına olan tələbindən əl çəkmədi.

### *Latın A merik asında beynəlxalq münasibətlər*

60-cı illərdə Lalın Amerikasındakı beynəlxalq münasibətlərə Kuba inqilabı. Qərb dövlətlərinin regionda öz mövqelərini saxlamaq cəhdləri və Latın Amerikası ölkələrinin ədalətli beynəlxalq əlaqələr uğrunda mübarizəsi amilləri böyük təsir göstərdi. Kuba inqilabı nəticəsində ölkənin ABŞ-la əlaqələri zəiflədi və sosialist dövlətləri ilə əməkdaşlığı genişləndi. Kubaya hərtərəfli kömək SSRİ-nin strateji məqsədi idi. Kuba hadisələrinin təsiri ilə Lalın Amerikası ölkələrinin münasibətlərinin beynəlxalq hüquq prinsipləri əsasında qurulmasına yönəlmiş tələbləri artdı.

1959- cu ilin ortalarında Kuba inqilabının qarşısını almaq cəhdləri boşa çıxandan sonra ABŞ Kubaya qarşı mübarizə üçün bütün qüvvələrini cəmləşdirdi. İlk növbədə amerikan diplomatiyası Amerika Dövlətləri Təşkilatından istifadə etdi.

1960- cı ilin martında ABŞ prezidenti D.Eyzenhauer Latın Amerikasının bir neçə ölkəsində səfərdə oldu. Bu ölkələrin rəhbərləri ilə söhbətdə D.Eyzenhauer onları "Kuba təhlükəsi"nə qarşı mübarizədə birgə tədbirlər həyata keçirməyə çağırdı.

Vaşinqton özü də Kubaya qarşı bir sıra tədbirlər həyata keçirtdi. 1960-cı il iyulun 6-da Eyzenhauer Kuba şəkərinin alınmasını və ABŞ-dan Kubaya neft göndərilməsini qadağan etdi.

1960- cı ilin noyabrında ABŞ Kuba tərəfindən ola biləcək hücumdan Nikaraqua və Qvatemalanı qorumaq adı ilə bir neçə hərbi gəmini Kuba sahillərinə göndərdi. 1961-cı il yanvarın 3-də ABŞ Kuba ilə diplomatik əlaqələri kəsdi.

1961- ci ilin aprelin 17-də ABŞ-m köməyi ilə silahlı kubalı mühacirlər tərəfindən həyata keçirilən hərbi aksiya gözlənilən nəticəni vermədi.

1962- ci ildə Latın Amerikasındakı beynəlxalq münasibətlərə təsir göstərən ən mühüm hadisə Karib böhranı oldu.

Karib böhranı 1962-ci ilin payızında ABŞ-la Kuba və ABŞ-la SSRİ arasında ziddiyyətlərin kəskinləşməsi nəticəsində yarandı. Kubaya Latın Amerikasında öz strateji müttəfiqi kimi baxan SSRİ 1962-ci ilin yayında orada gizli şəraitdə orta mənzilli raketlər, yerləşdirmişdi. ABŞ 1962-ci il oktyabrın 16- da bu barədə məlumat aldı. ABŞ prezidenti C.Kennedi dərhal həmin raketlərin (bu raketlərin fəaliyyət radiusu ABŞ-m bir neçə iri şəhərini əhatə edirdi) Kubadan çıxarılmasını tələb etdi. Oktyabrın 22-də ABŞ Kubanı dənizdən və havadan blokadaya aldı. Kuba sahillərinə 183 hərbi gəmi göndərdi. Həmin gəmilərdə 85 min dəniz piyadası var idi. Bu mühasirə Kubaya başqa ölkələrdən silah və hərbi texnika göndərilməsinin qarşısını almalı idi. Kuba və SSRİ ABŞ-m hərəkətlərini

beynəlxalq hüquqa zidd hesab edərək onun iradəsinə tabe olmaq niyyətində deyildilər. Nəticədə nüvə müharibəsinə çevrilə biləcək kəskin hərbi qarşıdurma yarandı. ABŞ özünün həm ölkədə, həm Avropada, həm də dənizlərdə yerləşən silahlı qüvvələrini yüksək döyüş hazırlığı vəziyyətinə gətirdi. Oktyabrın 23-də SSRİ və Varşava Müqaviləsi Təşkilatına daxil olan digər ölkələr də cavab tədbirləri gördülər. Kuba ordusu da döyüşə hazır vəziyyətə gətirildi. Oktyabrın 24-də Karib hövzəsində vəziyyət BMT Təhlükəsizlik Şurasında müzakirə edildi. Burada ABŞ SSRİ-ni Karib hövzəsində vəziyyəti qəsdən mürəkkəbləşdirməkdə ittiham etdi. SSRİ Kubanı müdafiə etmək məqsədi ilə raketlərini yerləşdirdiyini bildirdi. İclasda Rumıniya SSRİ-nin və Kubanın mövqeyini müdafiə etdi. Birləşmiş Ərəb Respublikası və Qana ABŞ-ın hərəkətlərinin dəniz azadlığı prinsipinə zidd olduğunu, sülh və təhlükəsizlik üçün qorxu yaratdığını qeyd etdilər. Onlar eyni zamanda ABŞ, SSRİ və Kubanı böhranı birbaşa dinc yolla həll etməyə çağıran qətnamə layihəsi təklif etdilər. BMT-nin baş katibi U.Tan da tərəlləri problemin həlli üçün danışıqlara başlamağa çağırdı. İngiltərə ABŞ-m Karib hövzəsindəki siyasətini müdafiə etdi. Lakin sonra həm İngiltərə, həm də Fransa və İrlandiyanın nümayəndələri SSRİ ilə ABŞ arasında danışıqlara tərəfdar olduqlarını bəyan etdilər.

BMT Təhlükəsizlik Şurasının iclası baş katibin SSRİ və ABŞ hökumətlərinə göndərmək üçün hazırladığı müraciətin mətnini bəyəndi. Müraciətdə SSRİ, ABŞ və Kuba hökumətlərinə görüşüb böhranı həll etmək yollarını müzakirə etmək təklif olundu. Bu işdə BMT-nin onlara kömək etməyə hazır olduğu bildirildi. Karib böhranının bütün mümkün nəticələrini real nəzərə alan ABŞ və SSRİ hökumətləri həmin müraciətə müsbət cavab verdilər. Oktyabrın 28-də SSRİ və ABŞ hökumətləri arasında məktublar mübadiləsi oldu. SSRİ Karib böhranını dinc yolla həll etmək üçün öz üzərinə düşən bütün işləri görməyə hazır olduğunu bildirdi. ABŞ hökumətinin Moskvaya göndərdiyi məktubda deyilirdi ki.

Karib böhranının qısa vaxtda siyasi vasitələrlə həlli beynəlxalq gərginliyin zəifləməsinə və tərksilah məsələlərinin həllinə kömək edə bilər. 1962-ci il noyabrın 1-də SSRİ hökumətinin nümayəndəsi danışıqlar aparmaq üçün əvvəl Nyu-Yorkda, sonra isə Kubada oldu. Əldə olunmuş razılığa əsasən, ABŞ hökuməti 1962-ci il noyabrın 21-də Kubanın hərbi mühasirəsini ləğv etdi, Kubaya hücum etməməyə və ABŞ-dakı Kuba mühacirlərinə kömək göstərməməyə söz verdi. SSRİ də öz raketlərini Kubadan çıxartdı. Beləliklə, Karib böhranı siyasi-diplomatik vasitələrlə həll olundu.

Kubadakı hadisələr və Latın Amerikasındakı azadlıq mübarizəsi və SSRİ-nin bu ölkələrə təsirinin artması ABŞ-ı bu regiondakı siyasətini yenidən nəzərdən keçirməyə məcbur etdi.

Bu məqsədlə ABŞ diplomatiyası 1961-ci ildə "Tərəqqi naminə ittifaq" adlı yeni proqram hazırladı. Proqram Latın Amerikası ölkələrinə ABŞ iqtisadi yardımının artırılmasını nəzərdə tuturdu. Bu proqrama görə ABŞ Latın Amerikası ölkələrinin iqtisadi və sosial inkişafına kömək məqsədilə 10 il ərzində 20 milyard dollarlıq yardım göstərməli idi.

ABŞ-m Latın Amerikası ölkələrinə yardım vasitəsilə Kuba inqilabının Amerika qitəsinə təsirini zərərsizləşdirməyə və milli-azadlıq hərəkatının inkişafına mane olmağa çalışırdı. Kuba inqilabına qarşı mübarizəyə regionun ölkələrini məhz bu proqram cəlb etməli idi.

«Tərəqqi naminə ittifaq» proqramı Amerika Dövlətləri Təşkilatının 1961-ci ilin avqustunda Uruqvayda keçirilən müşavirəsində qəbul edildi. Təbii ki, ABŞ-m əsas məqsədlərindən biri narazılığı azaltmaq yolu' ilə Latın Amerikasında sabitliyi təmin etmək idi. ABŞ Latın Amerikasında mövqelərini möhkəmləndirmək üçün ADT- dən geniş istifadə etdi. Bununla əlaqədar olaraq Latın Amerikası ölkələrinin ADT-yə münasibətində dəyişiklik baş verdi. Latın Amerikası ölkələrinin əksəriyyəti ADT-nin başlıca olaraq iqtisadi əməkdaşlıq məsələləri ilə məşğul olmasını tələb etdi. 1970-cı ildə ADT-nin yeni nizamnaməsi qüvvəyə mindi.

Nizamnamə ilə təşkilatın iqtisadi, sosial və mədəni sahələrdə səlahiyyətləri artırıldı. 1967-ci ilin fevralında Lalın Amerikasının 14 ölkəsi regionda nüvə silahının qadağan edilməsi haqqında Tlatelelko müqaviləsini imzaladılar (Tlatelelko ^ Meksikada yer adıdır). Müqaviləyə görə onun iştirakçıları nüvə silahı istehsal elməməli, kənardan gətirib öz ərazisində saxlamamalı və istifadə etməməli idilər.

Latın Amerikasındakı beynəlxalq münasibətlər ABŞ-ın xarici siyasətinə böyük təsir göstərdi. Latın Amerikasında öz mövqelərini saxlamaq üçün ABŞ çoxsaylı vasitələrdən - siyasi manevrlərdən, çevik taktikadan, region ölkələrinə müəyyən güzəştlərdən, həmin ölkələrə iqtisadi yardımdan və hərbi müdaxilədən istifadə etdi. ABŞ-m təşəbbüsü ilə Kuba 1962-ci ildə ADT-dən çıxarıldı. 1964-cü ildə isə ADT Kubaya qarşı iqtisadi sanksiyalar tətbiq etdi. Lakin Latın Amerikasında «yeni inqilablar»!!! başlanması ABŞ-a sərfəli deyildi. Ona görə də ABŞ 1963-cü ildən region ölkələrinə münasibətini xeyli sərtləşdirdi və orada «böyük dəyənəyin» elementlərindən istifadə etməklə hərbi rejimlərə daha çox yardım göstərməyə başladı. 1964-cü ildə ABŞ hökuməti Latın Amerikasındakı siyasətini əsaslandıraraq «Mann - Conson» doktrinasını irəli sürdü. Bu doktrina ABŞ-m regiondakı diktatura rejimlərini fəal müdafiə etməsini və onların devrilməsinə yol verməməsini nəzərdə tuturdu. 1965-ci ildə çıxışlarının birində ABŞ prezidenti L.Conson bildirdi ki, ABŞ «kommunist təhlükəsi»nə qarşı mübarizə məqsədilə istənilən Lalın Amerikası ölkəsinin daxili işinə qarışa bilər. 1965-ci ildə Dominikan Respublikasında ordu növbəti çevriliş etdi. ABŞ buna mane olmaq üçün «Amerika vətəndaşlarını müdafiə» adı ilə oraya qoşun göndərdi. SSRİ və bir neçə digər ölkə ABŞ-ın hərəkətini tənqid etdi. Dominikandakı vətəndaş müharibəsi BMT Təhlükəsizlik Şurasında müzakirə olundu. ABŞ Amerika Dövlətləri Təşkilatını da Dominikan hadisələrinə cəlb etmək qərarına gəldi. 1965-ci ilin mayında ADT-nin müşavirəsində Dominikan Respublikasında sülhü bərpa

etmək üçün «Amerikaarası silahlı qüvvələr»ıı yaradılması haqqında qərar qəbul edildi. Müşavirədə Meksika, Çili, Uruqvay, Ekvador və Peru kollektiv silahlı qüvvələrin yaradılmasına etiraz etdilər. Braziliya, Honduras, Nikaraqua, Paraqvay və Kosta-Rika isə Dominikan Respublikasına qoşun göndərməyə razı oldu. Lakin belə hadisələr bütövlükdə Latın Amerikasında ədalətli beynəlxalq qaydalar uğrunda mübarizənin qarşısını ala bilmədi.

SSRİ Latın Amerikası ölkələrinin ABŞ-a qarşı narazılığından istifadə edərək region ölkələri ilə əlaqələrini genişləndirdi. ABŞ isə SSRİ-nin Latın Amerikası ölkələri ilə əlaqələrinin genişlənməsinə mane olmağa çalışırdı. 60-cı illərin sonunda Latın Amerikası ölkələrinin yarıdan çoxu SSRİ ilə diplomatik münasibətlər yaratdı. Latın Amerikasının sosialist ölkələri ilə iqtisadi əlaqələri də inkişaf etdi. SSRİ region ölkələrinə kredit verir və təsərrüfat obyektlərinin tikilməsinə kömək göstərirdi. Region dövlətlərinin kommunist bloku ölkələri ilə əlaqələri beynəlxalq münasibətlərə müvafiq təsir edirdi.

# XIV BOLUM
# 70-80-CI İLLƏRDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

70-ci illərdə beynəlxalq münasibətlər iki sistem dövlətləri arasında qarşıdurmadan qarşılıqlı anlaşmaya, gərginliyin zəinədilməsinə və əməkdaşlığa keçid baş verdi. Lakin 70-ci illərin sonu - 80-cı illərin əvvəllərində beynəlxalq vəziyyət yenidən mürəkkəbləşdi. 80-cı illərin ortalarından isə beynəlxalq münasibətlərdə yumşalma prosesləri gücləndi, sosializm zəifiədi və iflasa doğru getməyə başladı.

***70-ci illərin birinci yarısında beynəlxalq gərginliyin zəifləməsini şərtləndirən amillər***

60-cı illərin sonu - 70-ci illərin əvvəllərində siyasi gərginliyin zəifləməsi beynəlxalq münasibətlərin başlıca inkişaf meyllərindən oldu. Dövlətlərin və xalqların əməkdaşlığı üçün əlverişli şərait yaradan gərginliyin zəilləməsi obyektiv və əhəmiyyətli proses olub bilavasitə böyük dövlətlərin xarici siyasət fəaliyyətinin nəticəsi idi. 70-ci illərin əvvəlində beynəlxalq gərginliyin zəifləməsinin bir sıra özünəməxsus cəhətləri var idi. Birinci, bu proses SSRİ ilə ABŞ, NATO ilə Varşava Müqaviləsi Təşkilatı arasında yaranmış hərbi qüvvə tarazlığının nəticəsi idi. İkinci, beynəlxalq gərginliyin zəifləməsi dövründə Qərb-Şərq əlaqələrinin geniş inkişafı beynəlxalq həyatın bir sıra mühüm problemlərinin dinc yanaşı yaşamaq prinsipləri əsasında həllinə şərait yaratdı. Üçüncü, gərginliyin zəifləməsi meyli Ümumavropa prosesinə təkan verdi. Dördüncü, bu əhəmiyyətli hadisə birbaşa Sovet-Amerika münasibətlərinin müvəqqəti yaxşılaşmasının nəticəsi idi. Nəyahət, Qərb ölkələri heç də kommunist ölkələrinə «soyuq müharibə»nin təzyiq metodlarından əl

çəkmədilər, sadəcə, uzunmüddətli qarşıdurmadan bir növ özləri də yorulduqlarına görə müvəqqəti taktikalarını dəyişdilər. Gərginliyin zəilləməsi tərksilah prosesinə kömək etdi.

***Sovet-Amerika miinasibethri***

70-ci illərin əvvəllərində beynəl- ggrginliyin zəifləməsində SSRİ ilə ABŞ arasında münasibətlərin yaxşılaş ması böyük rol oynadı. SSRİ ilə münasibətlərdə qarşıdurmadan danışıqlara keçən ABŞ ilk növbədə öz mənafeyini, sonra isə beynəlxalq aləmdə baş vermiş dəyişiklikləri nəzərə aldı. Dövlətlər arasında qüvvələr nisbəti yarandığından, hər iki tərəf nüvə müharibəsinin əleyhinə idi. Qərbi Avropa ölkələri sosialist ölkələri ilə əməkdaşlığı genişləndirdi. Vyetnamda müharibəni davam etdirmək ABŞ-a heç bir cəhətdən sərfəli deyildi. ABŞ bütün bunları nəzərə almaya bilməzdi. O, birinci növbədə SSRİ-nin sürətlə silahlanmasına mane olmağa çalışırdı. Ona görə də 1969-1971-ci illərdə Helsinkidə və Vyana- da SSRİ ilə strateji silahların məhdudlaşdırılmasma dair danışıqlar apardı. 1971-ci ilin sentyabrında onlar nüvə müharibəsi təhlükəsini azaldan tədbirlər haqqında saziş imzaladılar.

1972-ci ilin mayında ABŞ prezidenti R.Nikson SSRİ-yə rəsmi səfər etdi. Mayın 28-də «SSRİ ilə ABŞ arasında qarşılıqlı münasibətlərin əsasları» adlı sənəd imzalandı. Sənəddə ilk dəfə olaraq yazıldı ki, bu ölkələrin münasibətləri dinc yanaşı yaşamaq prinsipinə əsaslanır və heç biri o biri üzərində qüvvə üstünlüyünə çalışmayacaq və hərbi qarşıdurmadan qaçmaq üçün səylərini əsirgəməyəcəkdir. Daha sonra tərəflər beynəlxalq gərginliyi artıran münaqişə vəziyyətlərinin qarşısını almağı və tərksilaha çalışmağı öhdələrinə götürdülər. 1972-cı il mayın 26-da Moskvada SSRİ ilə ABŞ «raketdən müdafiə sistemlərinin məhdudlaşdıniması haqqında müddətsiz müqavilə» və «strateji hücum silahlarının məhdudlaşdırılması sahəsində bəzi tədbirlər» haqqında müvəqqəti saziş imzaladılar (SSM-1). Raketdən müdafiyə aid olan müqavilədə

deyilirdi ki, onlar bütün ərazini qoruyan raketdən müdafiə sistemi yaratmayacaqlar. Yalnız hər iki ölkənin paytaxtı və qitələrarası ballistik raketlərin bazalarından biri belə sistemlə qorunmalı idi.

Müqavilə dəniz, hava və kosmik bazah raketdən müdafiə sistemlərinin yaradılmasını qadağan edirdi, 'l'ərəllər digər ölkələrə raketdən müd’afiə sistemləri verməməli idilər. SSM-1 sazişində deyilirdi ki, 5 il müddətində tərəfiər yer bazah qitələrarası ballistik raketlər və sualtı qayıqlarda olan ballistik raketlər üçün buraxıcı qurğuları artıra bilməzlər. Həmin müddətdə yeni sualtı qayıqlar da tikilməməli idi. Bu sazişlərə milli texniki vasitələrlə nəzarət edilməli idi. Bunlardan əlavə.

1972- ci ildə Moskvada kosmosun tədqiqi, ətraf mühitin mühafizəsi və səhiyyə sahəsində əməkdaşlıq haqqında sazişlər də imzalandı. 1972-ci ilin oktyabrında SSRİ ilə ABŞ arasında dəniz gəmiçiliyi, ticarət və kredit haqqında sazişlər imzalandı. Tərəflər qarşılıqlı ticarətdə ən əlverişli rejim tətbiqinə keçdilər. Məlum olduğu kimi, ikinci dünya müharibəsi dövründə SSRİ ABŞ-dan zend-liz .xətti ilə xeyli borc almışdı. 1972-ci ildə imzalanmış sazişlərin birində deyilirdi ki, SSRİ 2000-ci ilə qədər həmin borcun bir hissəsini (722 milyon dollar) ödəyəcəkdir.

1973-cü ilin iyununda L.İ.Brejnev ABŞ-a rəsmi səfər etdi. Səfər zamanı imzalanmış sənədlərdən biri «strateji hücum silahlarının daha da məhdudlaşdırılmasma dair danışıqların əsas prinsipləri» idi. Sənəddə deyilirdi ki, tərəflər strateji hücum silahlarının məhdudlaşdırmasma dair daimi saziş imzalamaq üçün danışıqları davam etdirəcəklər, tərksilahın həm kəmiyyətinə, həm də keyfiyyətinə fikir verəcəklər və bərabər təhlükəsizlik prinsipinə əməl edib birtərəfli üstünlüyə cəhd etməyəcəklər. 1973-cü il iyunun 22-də Vaşinqtonda SSRİ ilə ABŞ arasında «nüvə müharibəsinin qarşısının alınması» haqqında müddətsiz saziş bağlandı.

1973- cü ilin sentyabrında Cenevrədə SSRİ ilə ABŞ arasında strateji silahların məhdudlaşdırılmasma dair

danışıqlar davam etdirildi. 1974-cü ilin yayında ABŞ prezidenti R.Niksoıuın SSRİ-yə növbəti səfəri zamanı strateji silahlara dair sazişin hazırlanmasını sürətləndirmək qərara alındı. Yeni saziş 1985-ci ilə qədər qüvvədə olmalı idi. Səfər zamanı RMS-yə dair 1972-ci il müqaviləsinə əlavə protokol imzalandı. Protokola əsasən hər tərəfdə müdafiə sistemi olan rayonların sayı 2-dən 1-ə endirildi. Həmin ərazilərdə raketə qarşı silahların sayı da 200-dən 100-ə qədər azaldıldı. SSRİ-də belə rayon Moskva şəhəri, ABŞ-da isə Qrand-Foks QBR bazası müəyyənləşdirildi. İmzalanmış sazişlərin biri yeraltı nüvə sınaqlarının məhdıιdlaşdırılmasma dair idi. Sazişə görə, tərəflər 1976-cı il martın 31-dən gücü 150 kilotondan çox olan nüvə silahlarının sınağını dayandırmalı, digər sınaqların isə sayını azaltmalı idilər. Növbəti Sovet-Amerika görüşü 1974-cü ilin dekabrında Vladivostokda oldu. Görüş nəticəsində imzalanmış birgə bəyanatda strateji silahlara dair danışıqların davam etdirilməsi və həmin silahların .xeyli azaldılmasına dair yeni saziş imzalanması nəzərdə tutulurdu. Saziş 1975-ci ilin sonuna qədər imzalanmalı idi.

Siyasi əlaqələr digər sahələrdə də Sovet-ABŞ əməkdaşlığına təkan verdi. 1974-1975-ci illərdə SSRİ ilə ABŞ arasında parlament nümayəndə heyətlərinin mübadiləsi oldu. Vaşinqtonda SSRİ-nin ticarət nümayəndəliyi, Moskvada ABŞ-m ticarət bürosu, 20 Amerika firmasının və bankının nümayəndəliyi açıldı. 1976-cı ildə Sovet-Amerika ticarətinin həcmi 2,2 milyard rubl idi. SSRİ ilə ABŞ arasında elmi- texniki, kənd təsərrüfatı, ətraf mühitin qorunması sahəsində də əməkdaşlıq sürətləndi. 1975-ci ilin iyulunda birgə «Soyuz- Apollon» kosmik layihəsi həyata keçirildi.

SSRİ ilə əməkdaşlığın genişlənməsi heç də qarşıdurmadan əl çəkilməsi demək deyildi. Təsadüfi deyildi ki, 70-ci illərin ortalarından ABŞ-m SSRİ-yə münasibətində gərginliyin artması elementləri müşahidə olunmağa başladı. Eyni zamanda qeyd etmək lazımdır ki, ABŞ-m xarici siyasətinə hərbi-sənaye kompleksi güclü təsir göstərirdi. Digər

tərəfdən, ABŞ hökuməti SSRİ ilə münasibətləri yenidən gərginləşdirməyə başlayarkən, dövləti «milli satqınlıqda» ittiham edənlərin dediklərini də əkas gətirirdi. SSRİ-də isə ABŞ-la əlaqələrin əleyhdarları ABŞ-m SSRİ-nin daxili işlərinə qarışmasından danışırdılar. Təbii ki, gərginliyi artırmaq sürətlə silahlanmaya bəraət qazandırmaq üçün lazım idi. 1976-cı ilin martından SSM-2-yə dair danışıqlar dayandırıldı.

Sovet-ABŞ münasibətlərində gərginliyin artması bütövlükdə beynəlxalq münasibətlərə mühüm təsir göstərdi. 1976-cı ilin martında ABŞ prezidenti C.Ford bildirdi ki, o, daha «gərginliyin zəifləməsi» ifadəsini işlətməyəcəkdir. ABŞ-ın xarici siyasət təbliğatında sovet hərbi təhlükəsi, mövcud təhlükəyə qarşı mübarizə, SSRİ-nin beynəlxalq aləmdə ABŞ-a mane olması kimi sözlər daha geniş işlənməyə başladı. 1976-cı ildə hakimiyyətə gələn C.Karter hökuməti SSRİ ilə münasibətləri «əməkdaşlıq və rəqabət» prinsipi əsasında qurmağa başladı.

1978- ci ilin mayında ABŞ-m təşəbbüsü ilə NATO-nun Vaşinqtonda keçirilən sessiyasında blokun hərbi xərclərinin artırılması qərara alındı. 1978-ci ilin dekabrında silah ticarətinin məhdudlaşdırılması haqqında Sovet-Amerika danışıqları kəsildi, SSRİ-yə neft və qaynaq avadanlıqlarının göndərilməsi qadağan edildi. Lakin 1979-cu il iyunun 18-də Vyanada yüksək səviyyəli Sovet-Amerika görüşündə strateji hücum silahlarının məhdudlaşdırılması haqqında ikinci müqavilə imzalandı. NATO-nun 1979-cu ilin dekabrında Brüsseldə keçirilən sessiyasında Avropada ABŞ-ın yeni ballistik və qanadlı raketlərinin yerləşdirilməsi haqqında qərar qəbul edildi. Sovet qoşunlarının Əfqanıstana müdaxiləsindən sonra ABŞ SSM-2 müqaviləsinin təsdiqini ləngitdi. ABŞ hökuməti SSRİ ilə ticarəti dayandırdı. Amerika 1980-cı ildə Moskva olimpiadasını baykot etdi. 1980-cı il iyulun 25-də C.Karterin imzaladığı 59 №-li direktivdə SSRİ-yə qarşı uzunmüddətli nüvə müharibəsinə hazırlıq əsaslandırıldı. 1980-cı ildə R.Reyqan hakimiyyətə gələndən sonra isə ABŞ kommunist bloku ölkələrinə qarşı daha sərt qarşıdurma mövqeyinə keçdi. R.Reyqan hökuməti

nin ilk tədbirlərindən biri həlledici hərbi üstünlüyə malik olmaq üçün silahlanmanın sürətləndirilməsi oldu. Eyni zamanda ABŞ tərksilahın bəzi məsələlərinə dair SSRİ ilə danışıqları davam etdirdi. 1981-ci ilin noyabrında SSRİ ilə ABŞ arasında Cenevrədə Avropada nüvə silahlarının məhdudlaşdırılmasma, 1982-ci il iyunun 29-da isə həm də strateji silahların məhdudlaşdırılmasma və ixtisarına dair danışıqlar başlandı.

1981- ci il iyunun 8-də R.Reyqan İngiltərə parlamen- tindəki çıxışında sosializm üzərinə səlib yürüşü elan etdi. 1982- ci il iyunun 18-də ABŞ hökumətinin qəbul etdiyi qərarda Qərbi Avropa ölkələrindən SSRİ ilə iqtisadi əlaqələri kəsmək tələb olundu. Həmin dövrdə bir sıra Qərbi Avropa ölkələri SSRİ- dən təbii qaz almaq üçün Sibirdən çəkiləcək kəmər üçün avadanlıq göndərməyə razılıq verdilər. ABŞ-m məqsədi həm də Qərbi Avropanın SSRİ ilə ticarətinə mane olmaq idi. Lakin Qərbi Avropa dövlətləri bu qərara tabe olmadılar. Qaz kəməri vaxtından əvvəl istifadəyə verildi. 1983-cü ilin martında ABŞ hökuməti kosmik bazah raketdən müdafiə sisteminin yaradılması haqqında qərar qəbul etdi. 1983-cü ilin avqustun sonunda SSRİ səmasında Cənubi Koreyanın sərnişin təyyarəsinin vurulmasından istifadə edən ABŞ Avropada yeni raketlər yerləşdirməyə başladı. 1984-cü ilin yanvarından isə iki ölkə arasında münasibətlərdə nisbətən yumşalma baş verdi.

1985- ci ilin yanvarında ABŞ dövlət katibi C.Şultsla SSRİ xarici işlər nazirinin Cenevrədəki görüşü zamanı kosmik və nüvə silahlarına dair danışıqlara başlamaq haqqında razılıq əldə olundu. 1985-ci ilin martında belə danışıqlar başlandı.

1985- ci il noyabrın 19-21-də Cenevrədə M.S.Qorbaçovla ABŞ prezidenti R.Reyqanm görüşü oldu. Bu görüşdə ikitərəfli münasibətləri yaxşılaşdırmağın zəruriliyi və bunun beynəlxalq münasibətlər üçün əhəmiyyəti geniş qeyd olundu. Bundan əlavə tərəflər nüvə müharibəsinin yolverilməzliyini qeyd edib hərbi üstünlüyə çahşmayacaqlarmı bildirdilər. Müxtəlif sahələrdə əməkdaşlığa və tərksilaha dair danışıqların davam etdirilməsinə dair razılıq əldə olundu. Sovet - Amerika yaxmlaş-

ması beynəlxalq gərginliyin zəilləməsinə kömək etdi. SSRİ-m'n təşəbbüsü ilə 1986-cı il oktyabrın 11-12-də Reykyavikdə yeni yüksək səviyyəli görüş keçirildi. 1987-ci ilin dekabrında Vaşinqtonda, 1988-ci ilin mayın sonu - iyunun əvvəlində Moskvada keçirilən yüksək səviyyəli görüşlər zamanı həm ikitərəlli münasibətlərə, həm də dünya siyasətinin mühüm məsələlərinə dair geniş fikir mübadiləsi edildi. Görüşlər iki ölkə arasında siyasi dialoqun dərinləşməsinə və fəallaşmasma səbəb oldu. Bu görüşlər zamanı bir daha beynəlxalq təhlükəsizlik üçün hər iki dövlətin böyük məsuliyyət daşıdığı qeyd olundu. 1989-cu ildən ABŞ prezidenti C.Buş iki ölkə arasında 1985-1988-ci illərdə əldə olunmuş prinsipial razılıqlara əməl edəcəyini bildirdi. 1989-cu ilin martında SSRİ və ABŞ xarici işlər nazirlərinin görüşündə qarşılıqlı anlaşmanın dərinləşməsinə yönəlmiş siyasi dialoqu davam etdirmək qərara alındı. 1989- cu ilin mayında ABŞ dövlət katibi C.Beykerin SSRİ-yə səfəri zamanı ikitərəfli münasibətlərin bütün cəhətləri və akıual beynəlxalq problemlər müzakirə edildi. Nüvə və kosmik silah- lära dair 1988-ci ildə dayandırılmış danışıqlarırt bərpa olunması haqqında razılıq əldə olundu. 1989-cu ilin sentyabrında SSRİ xarici işlər naziri E.Şevardnadzenin Vaşinqtona səfəri zamanı 1990-cı ilin yayında yüksək səviyyəli görüş haqqında razılıq əldə olundu, ikitərəfli əlaqələrə dair bir sıra sazişlər imzalandı. İkitərəfli parlament əlaqələri inkişaf etdirildi. 1989- cu ilin oktyabrında SSRİ və ABŞ rəhbərləri arasında yüksək səviyyəli qeyri-rəsmi görüş keçirilməsi haqqında razılaşma oldu. Bu görüş 1989-cu il dekabrın 2-3-də Malta sahilində keçirildi. Görüş zamanı müzakirə olunan bütün məsələlərə dair konkret nəticələr əldə edildi. Növbəti yüksək səviyyəli Sovet-Amerika görüşü 1990-cı ilin iyunun əvvəlində Vaşinqtonda keçirildi. Görüş nəticəsində -nüvə silahlarının və adi silahların ixtisarına, Avropa problemlərinə, məhəlli münaqişələrin həllinə və ikitərəfli əlaqələrin inkişafına dair konkret razılaşmalar oldu.

*Sovet-Qərbi A vropa münasibətləri*

Beynəlxalq gərginliyin zəifləməsində SSRİ-nin Qərbi Avropa ölkələri ilə əlaqələrinin yaxşılaşması əhəmiyyətli rol oynadı. Dövlətlər siyasi əlaqələrin inkişaf etdirilməsinə daha çox çalışırdılar. Bu da iqtisadi əməkdaşlığa kömək edirdi. 70-ci illərdə SSRİ-nin Qərb dövlətləri ilə münasibətlərinin inkişafında Sovet-AFR münasibətlərinin yaxşılaşması böyük rol oynadı.

AFR-in yeni Şərq siyasəti de- *"iasəti*^^*^ dikdə 70-ci illərdə SSRİ başda olmaq- ^ la sosialist ölkələri ilə münasibətlərinin yaxşılaşması, AFR-in ikinci dünya müharibəsinin yekunları ilə barışması və ADR-in mövcudluğunu qəbul etməsi başa düşülür. «Soyuq müharibə»nin fəal iştirakçılarından biri olan AFR bu siyasətə hər şeydən əvvəl, dünyada yaranmış vəziyyəti nəzərə alaraq keçdi. Bu həm də 1969-cu ilin sonunda ölkədə hakimiyyətə gəlmiş «kiçik koalisiya» hökumətinin (ASDP və ,AzDP-dən ibarət V.Brandt - V.Şeel hökuməti) siyasəti idi.Həmin hökumət SSRİ ilə iqtisadi əməkdaşlığın əhəmiyyətini, AFR-in dünya siyasətinə təsirini artırmağın zəruriliyini nəzərə alaraq və Almaniyanın gələcəkdə dinc yolla birləşməsinə şərait yaratmaq məqsədi ilə Şərqə üz tutdu. AFR- in yeni Şərq siyasəti beynəlxalq gərginliyin zəifləməsinə kömək edən amillərdən biri oldu.

1970- ci il avqustun 12-də Moskvada SSRİ ilə AFR arasında 5 maddədən ibarət müqavilə imzalandı. Müqavilədə deyilirdi ki, tərəflər Avropada müharibədən sonra yaranmış sərhədlərin dəyişməzliyini təsdiq edirlər və dövlətlərarası münasibətlərdə qüvvə tətbiqindən imtina edirlər, sülhün qorunmasına və gərginliyin zəifləməsinə kömək göstərmək onların əsas məqsədidir. SSRİ və AFR bütün Avropa dövlətlərinin ərazi bütövlüyünə hörmət etməyi öhdələrinə götürdülər, bildirdilər ki, heç bir dövlətə qarşı ərazi iddiaları yoxdur. Müqavilənin «Tərəflərin niyyətləri haqqında

razılaşma» adlı gizli əlavəsi var idi. Orada deyilirdi ki. Polşa. Çexoslovakiya, ADR, Bolqarıstan və Macarıstan da münasibətlərini yaxşılaşdırmaq haqqında AFR müqavilələr bağlamalı, ADR-in müstəqilliyinə və ərazi bütövlüyünə hörmət etməli, Münhen sazişi (1938) qüvvədən düşməli, həm SSRİ, həm də AFR təhlükəsizlik və əməkdaşlıq məsələlərinə dair Ümıımavropa müşavirəsinin keçirilməsinə kömək etməlidirlər. Bu müddətsiz müqavilə 1972-ci il iyunun 3-də qüvvəyə mindi.

1970-ci il dekabrın 7-də AFR-lə Polşa arasında qarşılıqlı münasibətlərin əsasları haqqında müqavilə imzalandı. Müqavilənin birinci maddəsində deyilirdi ki, AFR Potsdam konfransının qərarı ilə müəyyən olunmuş qərb sərhəddini tanıyır. Tərəflər ərazi iddialarından əl çəkməli, mübahisəli məsələləri dinc yolla həll etməli, iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlığı genişləndirməli idilər. AFR bundestaqı bu müqaviləni 1972-ci ilin mayında təsdiq etdi.

Beynəlxalq gərginliyin zəifləməsi və AFR-in yeni Şərq siyasəti Qərbi Berlin məsələsinin həllində irəliləyişə şərait yaratdı. 1971-ci il sentyabrın 3-də SSRİ, ABŞ, İngiltərə və Fransa arasında Qərbi Berlinə dair dördtərəfli saziş imzalandı. Sazişə görə Qərbi Berlin AFR-in tərkib hissəsi sayılmırdı. Qərbi Berlini beynəlxalq əlaqələrdə ABŞ, İngiltərə və Fransa təmsil etməli idi. Bu saziş 1972-ci il iyunun 3-də qüvvəyə mindi.

1972-ci il dekabrın 21-də Berlində AFR-lə ADR arasında münasibətlərin əsasları haqqında müqavilə bağlandı. Müqaviləyə görə bu dövlətlər arasında münasibətlər beynəlxalq hüquq prinsipləri əsasında qurulmalı idi. Beynəlxalq münasibətlərdə onlar biri digərinin adından fəaliyyət göstərə bilməzdi. Ən başlıcası, AFR ADR-in mövcudluğunu və suverenliyini tanıdı. Müqavilə dövlətlərin bütün sahələrdə əməkdaşlığını və diplomatik münasibətlər yaratmasını nəzərdə tuturdu. 1974-cü ildə AFR-in Berlində, ADR-in isə Bonnda daimi nümayəndəliyi açıldı. Bu müqavilə 1973-cü il iyunun

21-də qüvvəyə mindi. 1973-cü ilin sentyabrında AFR və ADR BMT-yə daxil oldular.

1973-cü ilin dekabrında AFR-lə ÇSSR arasında qarşılıqlı münasibətlər haqqında müddətsiz müqavilə imzalandı. Müqaviləyə əsasən Münhen sazişi ləğv edildi. Tərəflər bir birinə qarşı ərazi iddialarından imtina etdilər. Bu müqavilə
1974- cü ilin iyulunda qüvvəyə mindi. 1973-cü ilin dekabrında AFR Bolqarıstan və Macarıstanla da diplomatik münasibətlər qurdu. AFR-in sosialist ölkələri ilə münasibətlərinin yaxşılaşması həm əməkdaşlıq edən tərəflər üçün, həm də Avropa təhlükəsizliyi üçün böyük əhəmiyyətə malik idi.

***Sovet-AFR münasibətləri*** 1971-ci ildə Krımda, 1973-cü ildə Bonnda yüksək səviyyəli Sovet-AFR görüşləri keçirildi. İki ölkə arasında parlamentlərarası əlaqələr və iqtisadi, elmi-texniki əməkdaşlıq üzrə birgə komissiya yaradıldı. Görüşlər zamanı müxtəlif sahələrdə əməkdaşlıq sazişləri imzalandı. 1974-cü ilin oktyabrında AFR kansleri H.Şmidt SSRİ- yə rəsmi səfərə gəldi. 70-ci illərdə SSRİ sənaye avadanlığını ən çox AFR-dən alırdı. SSRİ-nin Qərblə ticarətində AFR birinci yeri tuturdu. AFR-lə əməkdaşlığın Avropa təhlükəsizliyi üçün böyük əhəmiyyəti var idi. Lakin rəsmi Bonn ADR-ə və Qərbi Berlinə münasibətdə SSRİ-nin siyasətindən narazı idi. 1978-ci ilin mayında SSRİ rəhbərinin AFR-ə rəsmi səfəri oldu. Səfər zamanı birgə bəyannamə ilə yanaşı 25 il ərzində iqtisadi əməkdaşlıq sazişi imzalandı. AFR bir tərəfdən SSRİ-nin tərksilaha dair təşəbbüslərini müdafiə etdi, digər tərəfdən isə 1979-cu ildə ABŞ-m Qərbi Avropada yeni raketlər yerləşdirilməsinə tərəfdar çıxdı. Belə ki, NATO sessiyasının qərarına əsasən AFR ərazisində 108 ədəd «Perşinq-2» raketi və 96 ədəd qanadlı raket yerləşdirilməli idi. SSRİ isə NATO ölkələrini, o cümlədən AFR-i bu addımdan çəkinməyə çağırdı. AFR ABŞ-m təzyiqlərinə baxmayaraq. Qərbi Sibir - Qərbi Avropa qaz kəmərinin çəkilməsində də iştirak etdi. 1983-cü ilin iyulunda

AFR kansleri H.Kolun Moskvaya səfəri zamanı sovet rəhbərliyi onu inandırmağa çalışırdı ki, Qərbi Avropada yeni ABŞ raketlərinin yerləşdirilməsi mövcud qüvvələr nisbətini pozur və Avropa təhlükəsizliyi üçün təhlükəni artırır. Lakin bunun AFR hökumətinə heç bir təsiri olmadı. 1985-ci ilin dekabrında AFR hökuməti ABŞ-ın «strateji müdafiə təşəbbü- sü»ndə iştirak etmək haqqında qərar qəbul etdi. Bununla, bağlı, SSRİ AFR hökumətinin qərarının Sovet-AFR münasibətlərinin pisləşməsinə səbəb olajağmı bildirdi. 1986-cı ilin iyulunda AFR-in xarici işlər naziri Fl.D.Genşerin SSRİ-yə səfəri zamanı elmi-texniki əməkdaşlıq haqqında saziş və AFR-in Kiyevdə, SSRİ-nin Münhendə baş konsulluğunun açılması haqqında protokol imzalandı. 1975-1985-ci illərdə SSRİ ilə AFR arasında əmtəə dövriyyəsinin həcmi 8 dəfə artdı. 1988-ci ilin oktyabrında H.Kolun SSRİ-yə səfəri zamanı hər iki tərəf həm əməkdaşlığın inkişafında maraqlı olduğunu, həm də bütün əvvəlki razılaşmalara əməl etmək fikrində olduqlarını bildirdilər. 1989-cu ilin yayında M.S.Qorbaçovun AFR-ə səfəri zamanı aparılan danışıqlarda həm ikitərəfli, həm də beynəlxalq münasibətlərin aktual problemləri, o cümlədən tərksilah, ümumavropa prosesi və ekoloji problemlər müzakirə edildi. İmzalanmış birgə bəyanatda dövrün başlıca siyasi reallıqları, o cümlədən Avropanın parçalanmasına son qoyulması. Almaniyanın yenidən birləşməsi kimi mühüm məsələlərə münasibət öz əksini tapdı.

### *Sovet-Fransa nıünasibətləri*

70-ci illərin birinci yarısında yeddi yüksək səviyyəli Sovet-Fransa görüşü oldu. Xarici işlər nazirlərinin görüşlərində həm ikitərəfli əlaqələr, həm də beynəlxalq həyatın mühüm məsələləri müzakirə edildi.

1970-ci ilin oktyabrında Fransa prezidenti J.Pompidunun SSRİ-yə səfəri zamanı imzalanmış birgə bəyanatda deyilirdi ki, hər iki dövlət sülhün qorunması və beynəlxalq gərginliyin zəifləməsi sahəsində səylərini müntəzəm şəkildə əla-

qəbndirəcəklər. Bəyanatda daha sonra tərəflərin təhlükəsizlik və əməkdaşlıq məsələlərinə dair Ümumavropa müşavirəsinin çağırılması ideyasını müdafiə etdikləri əks olundu. 1971-ci ilin oktyabrında sovet rəhbərinin Fransaya rəsmi səfəri zamanı «Əməkdaşlığın prinsipləri» adlı sənəd imzalandı. Sənədə görə, dövlətlər beynəlxalq hüquq prinsipləri əsasında əməkdaşlıq etməli idilər. Burada həmçinin deyilirdi ki, dövlətlər sülhün qorunması, gərginliyin zəifləməsi, təhlükəsizlik məsələləri, məhəlli münaqişələrin həlli, tərksilah və beynəlxalq təşkilatların rolunun artması məsələlərində geniş əməkdaşlıq edəcəklər. Hind-Çində sülh yaradılması məsələsində SSRİ və Fransanın mövqeyi oxşar idi: onlar Hind-Çin xalqlarının suverenliyini, Hind-Çinə dair 1954-cü il Cenevrə sazişlərini müdafiə edərək regionun işlərinə xarici müdaxiləni ittiham etdilər. SSRİ və Fransa Yaxın Şərq probleminin siyasi yolla tənzimlənməsinə yönəlmiş bütün tədbirləri müdafiə etdilər. Tərksilah məsələsində də onların mövqeyi əsasən eyni idi. SSRİ ilə Fransa arasında ticarət-iqtisadi və elmi-texniki, mədəni əməkdaşlıq da inkişaf edirdi. 1969-cu və 1974-cü illərdə SSRİ ilə Fransa arasında iqtisadi əməkdaşlıq sazişləri imzalandı. 70- ci illərdə SSRİ ilə Fransa arasında əmtəə dövriyyəsinin həcmi 1 milyard rublu ötdü. 1971-ci ilin oktyabrında SSRİ ilə Fransa arasında 10 illik iqtisadi əməkdaşlıq sazişi imzalandı. 1975-ci ildə onlar ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında saziş imzaladılar. Mədəni əlaqələrin tənzimlənməsi ilə qarışıq Sovet-Fransa komissiyası məşğul olurdu.

1975- ci ilin oktyabrında Fransa prezidenti V.Jiskar dEstenin SSRİ-yə səfəri zamanı «SSRİ ilə Fransa arasında dostluq və əməkdaşlığın inkişafı haqqında bəyannamə» imzalandı. 1977-ci ilin iyulunda SSRİ ilə Fransa arasında beynəlxalq gərginliyin zəifləməsinə dair birgə bəyanat imzalandı. Bəyanatda gərginliyin zəifləməsi üçün səylərin artırılması zəruriliyi göstərildi. 1977-ci ildə SSRİ və Fransa silahlı qüvvələri arasında əlaqələr haqqında saziş imzalandı. 1979-cu ildə Fransa prezidentinin SSRİ-yə səfəri zamanı 1980-1990-cı

illərdə iqtisadi əməkdaşlıq proqramı imzalandı. 70-ci illərdə SSRİ ilə Fransa arasında əmtəə dövriyyəsinin həcmi 3 dələ artdı. 1982-ci ildə Sovet və Fransa kosmonavtlarmm kosmosa birgə uçuşu oldu. Lakin 80-cı illərin əvvəllərində Sovet-Fransa əlaqələri xeyli zəillədi. 1983-cü ilin aprelində Fransa hökuməti ölkədəki mii.xtəlif təşkilatlarda çalışan sovet mütəxəssislərinin böyük bir qrupunu çıxartdı. Bununla belə, Fransa SSRİ ilə iqtisadi əlaqələri kəsmədi və Uranqoy-Ujqorod qaz kəmərinin çəkilişində iştirak etdi. 1983-cü ildə xarici işlər nazirlərinin səfərlər mübadiləsi oldu. 1984-cü ilin iyununda Fransa prezidenti SSRI-yə rəsmi səfərə gəldi. 1984-1985-ci illərdə ikitərəBi əlaqələr xeyli fəallaşdı. 1985-ci ilin oktyabrında Parisdə, 1986- cı ilin iyulunda Moskvada yüksək səviyyəli Sovet-Fransa görüşləri keçirildi. Bu görüşlər zamanı həm ikitərəHi, həm də beynəlxalq münasibətlərin aktual problemləri müzakirə edildi.

1987-ci ilin mayında Fransanın baş naziri .I.Şirakın SSRİ-yə səfəri zamanı iki ölkə arasında siyasi əməkdaşlığın inkişafının zəruriliyi xüsusi qeyd olundu. 1989-cu ilin iyulunda M.S.Qorbaçovun Fransaya səfəri zamanı aparılan danışıqlarda tərksilah, ümumavropa prosesi kimi mühüm məsələlər müzakirə edilərək qarşılıqlı faydalı əməkdaşlığı genişləndirməyin əhəmiyyəti qeyd olundu.

***Sovet-Ingiltərə ınänasihətbri***

70-ci illərdə İngiltərə SSRİ ilə siyasi əlaqələrə ehtiyatla yanaşsa da onunla iqtisadi əməkdaşlıqda maraqlı idi. 1973-cü ilin dekabrında İngiltərə xarici işlər nazirinin SSRİ-yə rəsmi səfəri iki ölkə arasında qarşılıqlı anlaşmam artırdı. 1975-ci ilin fevralında İngiltərənin baş naziri H.Vilsonun SSRİ-yə səfəri zamanı birgə bəyanat, məsləhətləşmələr haqqında protokol, iqtisadi, elmi-texniki və səhiyyə sahələrində uzunmüddətli əməkdaşlıq proqramları imzalandı. Bundan əlavə, İngiltərənin SSRİ-yə 950 milyon funt sterlinq kredit verməsi barədə saziş imzalandı. 1976-cı ilin martında Londonda, 1977-ci ilin oktyabrında Moskvada xarici işlər

nazirlərinin danişıqlan keçirildi. 70-ci illərin ikinci yarısından Sovet-İngiltərə münasibətlərində gərginlik artmağa başladı.
1979- cu ildə M.Tetçer başda olmaqda mühafizəkarların hakimiyyətə gəlməsindən sonra İngiltərənin xarici siyasətində əhəmiyyətli dəyişiklik baş verdi. 1980-ci ildən İngiltərə də ABŞ-m başladığı antisovet kampaniyada fəal iştirak etdi və iki ölkə arasında siyasi, parlament əlaqələri, mədəni, elmi-texniki əlaqələr kəsildi. İngiltərə SSRİ-yə kredit verməkdən və 1980-cı il Moskva olimpiadasında iştirakdan imtina etdi.

Lakin İngiltərə 1982-ci ildə Qərbi Sibir - Qərbi Avropa qaz kəmərinin çəkilməsində iştirakdan imtina etmədi. İngiltərə ilə SSRİ arasında iqtisadi əlaqələr tədricən artdı. 1984-cü ilin iyulunda İngiltərə xarici işlər nazirinin SSRİ-yəsələri zamanı nazir öz ölkəsinin SSRİ ilə münasibətlərin yaxşılaşdırılmasında maraqlı olduğunu bildirdi. 1984-cü ilin dekabrında SSRİ parlament nümayəndə heyəti Londona səfər etdi. Səfər zamanı tərəfiər sabit və işgüzar əlaqələrə tərəfdar olduqlarını bildirdilər. 1986-cı ilin iyulunda SSRİ xarici işlər nazirinin İngiltərəyə səfəri zamanı qeyd olundu ki, İngiltərə tərksilah probleminin həllində yaxından iştirak edə bilər. Səfər zamanı müxtəlif sahələrdə əməkdaşlığa dair bir neçə saziş imzalandı. 1987-ci ilin martında M.Tetçerin SSRİ-yə səfəri iki ölkə arasında əlaqələrin inkişafına təkan verdi. 1988-ci ilin fevralında İngiltərə xarici işlər nazirinin Moskvaya səfəri zamanı əməkdaşlığın perspektivlərinə dair geniş fikir mübadiləsi edildi. 1989-cu ilin aprelində M.S.Qorbaçovun İngiltərəyə səfəri zamanı aparılan danışıqlar qarşılıqlı anlaşmanı və həm Avropa, həm də dünya işlərində əməli qarşılıqlı fəaliyyət imkanlarını artırdı.

***Sovet-İtaliya miuıasih,ıthri***

70-ci illərdə Sovet-İtaliya münasibətlərinin inkişafı daha da sürətləndi. 1972-ci ilin oktyabrında İtaliyanın xarici işlər naziri C.Andreot- tinin SSRİ-yə səfəri zamanı iki ölkə arasında məsləhətləşmələr

haqqında protokol imzalandı. 1974-1975-ci illərdə Moskvada və Romada xarici işlər nazirlərinin danışıqları oldu. İtaliya SSRİ-nin Qərblə ticarətində qabaqcıl yerlərdən birini tuturdu. 1975-ci ildə İtaliya prezidenti C.Leone SSRİ-yə rəsmi səfərə gəldi. Danışıqlar nəticəsində imzalanmış birgə bəyanatda deyilirdi ki, tərəllər bütün sahələrdə əməkdaşlığı dərinləşdirmək və intensivləşdirmək niyyətindədirlər. Səfər zamanı həmçinin iqtisadi əməkdaşlıq və SSRİ-yə 2 milyard dollar kredit verilməsi haqqında sazişlər imzalandı. 1975-1980-cı illərdə SSRİ ilə İtaliya arasında əmtəə dövriyyəsi 2 dəfə artdı. 80-cı illərin əvvəlində beynəlxalq gərginliyin artması ilə əlaqədar olaraq İtaliyanın SSRİ ilə əlaqələri zəiflədi. ABŞ-ın SSRİ-yə qarşı tətbiq etdiyi iqtisadi sanksiyalara İtaliya da qoşuldu. 1984-cü və 1985-ci illərdə xarici işlər nazirlərinin səfərlər mübadiləsi əlaqələrin artmasına təkan verdi. 1985-ci ilin mayında İtaliya baş nazirinin SSRİ-yə səfəri zamanı qeyd olundu ki, hərbi gərginliyin zəilləməsi tərksilah prosesindən bilavasitə asılıdır. 1987-ci ilin əvvəlində İtaliyanın xarici işlər nazirinin SSRİ-yə səfəri zamanı imzalanmış birgə bəyanatda əvvəlki razılaşmalar təqdir olundu.

1987-ci ilin oktyabrında İtaliyanın baş nazirinin SSRİ-yə səfəri zamanı aparılan danışıqlarda beynəlxalq münasibətlərdə Avropa amilinin, Avropa işlərində isə Sovet-İtaliya əlaqələrinin mühüm rolu bir daha qeyd olundu və ikilərəlli münasibətlərdə yeni mərhələnin başlandığı bildirildi. 1989-cu ilin sonunda M.S.Qorbaçovun İtaliyaya səfəri zamanı əməkdaşlığa dair sənədlər imzalandı. Səfər zamanı o. Roma papası ilə də görüşdü və SSRİ ilə Vatikan arasında rəsmi münasibətlər yaradıldı.

Beynəlxalq gərginliyin zəifləməsi və Helsinki müşavirəsinin qərarları SSRİ-nin Finlandiya, İsveç. Danimarka, Norveç, İspaniya və Yunanıstan kimi ölkələrlə də əlaqələrinin inkişafına kömək etdi. 80-cı illərin birinci yarısında beynəlxalq gərginliyin artması SSRİ-nin həmin dövlətlərlə münasibətlərinə də təsir göstərdi. 80-cı illərin

ortalarından etibarən beynəlxalq vəziyyətin tədricən yaxşılaşması ilə əlaqədar olaraq SSRİ-nin Qərbi Avropanın kiçik ölkələri ilə əlaqələri genişlənməyə başladı.

***Helsinki miiijavirəsi və onun yekun aktı***

60-cı illərin sonu - 70-ci illərin əvvəllərində sosialist və kapitalist ölkələri arasında münasibətlərin, xüsusilə, Sovet-Amerika münasibətlərinin yaxşılaşması, SSRİ ilə ABŞ, NATO ilə Varşava Müqaviləsi Təşkilatı arasında hərbi-strateji tarazlığın yaranması beynəlxalq aləmdə «soyuq müharibə»dən gərginliyin zəilləməsinə doğru dönüşə səbəb oldu. 1970-ci il avqustun 12-də SSRİ ilə AFR arasında, 1970-ci il dekabrın 7-də AFR ilə Polşa arasında müqavilələrin imzalanması, 1971-ci il sentyabrın 3-də SSRİ, ABŞ, İngiltərə və Fransa arasında Qərbi Berlinə dair dördtarəBi sazişin bağlanması, 1972-ci il dekabrın 21-də AFR-lə ADR arasında münasibətlərin normalaşması haqqında müqavilənin bağlanması nəinki beynəlxalq gərginliyin zəilləməsi prosesinə güclü təkan verdi, həm də Avropada ümumi vəziyyətin sabitləşməsinə kömək etdi və Ümumavropa müşavirəsinin hazırlanması və çağırılmasına şərait yaratdı. Bu müşavirə isə beynəlxalq münasibətlərdə mühüm yer tutan beynəlxalq təhlükəsizlik, münaqişə ocaqlarının ləğvi və kollektiv təhlükəsizlik, hərtərəHi əməkdaşlıq kimi problemlərin həlli yolunda əsas mərhələ və gərginliyin zəifləməsi prosesinin zirvəsi oldu, Ümumavropa prosesinin inkişafının yeni mərhələsinin başlanğıcını qoydu.

1970-ci ilin iyununda Varşava Müqaviləsi Təşkilatı ölkələrinin Xarici İşlər nazirlərinin Budapeştdə keçirilmiş iclasında qəbul edilmiş memorandumunda Ümumavropa müşavirəsində Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə orqanın yaradılması, Avropa dövlətlərinin ərazisində silahlı qüvvələrin ixtisarı və mədəni əlaqələrin inkişafı məsələlərinin müzakirə edilməsi təklif olundu. Onlar

Ümumavropa müşavirəsində ABŞ-ın və Kanadanın iştirakına razılıq verdilər. Bir sıra Avropa dövlətləri siyasi xadimlərinin təşəbbüsü ilə 1969-cıı ilin noyabr-dekabr aylarında Vyanada təhlükəsizlik və əməkdaşlıq ıığrıında Ümumavropa qeyri- hökumət konfransı oldu. Konfransda Avropanın 26 ölkəsinin və 23 beynəlxalq ictimai təşkilatı təmsil edən 300 nümayəndə və müşahidəçi iştirak edirdi. Vyana konfransı 1970-ci ildə Helsinkidə Ümumavropa müşavirəsinin çağırılması ideyasını müdafiə edərək etibarlı Ümumavropa təhlükəsizliyi sisteminin yaradılması üçün Avropa ölkələrinin, kollektiv səylərinin zəruriliyi haqqında bəyannamə qəbul etdi. 1971-ci ilin fevralında Varşava Müqaviləsi Təşkilatı üzvləri olan dövlətlərin xarici işlər nazirlərinin Berlində keçirilən müşavirəsində qeyd olundu ki, Ümumavropa müşavirəsinin çağırılmasını ləngitmək üçün heç bir əsas yoxdur. Müşavirəyə hazırlıq Qərb dövlətləri ilə kommunist bloku ölkələri arasında gündəlikdəki və Avropada təhlükəsizlik və əməkdaşlıq probleminin məzmunu kimi məsələlər ətrafında kəskin mübarizə şəraitində gedirdi. Qərb ölkələri müşavirədən sosialist ölkələrində liberallaşdırma üçün istifadə etmək istəyirdilər. 70-ci illərin əvvəllərində bu çox çətin iş idi və sıx qarşılıqlı fəaliyyət göstərən sosialist dövlətləri SSRİ-nin buyruğu ilə Avropa problemlərinə münasibətdə vahid mövqe işləyib hazırladılar. Varşava Müqaviləsinin üzvü olan dövlətlərin 1972-ci ilin yanvarında Praqada qəbul etdikləri bəyanatda Avropa təhlükəsizliyinin aşağıdakı əsas prinsipləri müəyyən olundu; sərhədlərin toxunulmazlığı, güc tətbiq etməmək, dinc yanaşı yaşamaq, sülh naminə xeyirxah münasibətlər və əməkdaşlıq, dövlətlər arasında qarşılıqlı faydalı əlaqələr, tərksilah və BMT-nin müdafiə edilməsi.

Qərbin uzaqgörən və realist düşüncəli siyasi xadimləri sosialist dövlətlərinin təklif etdiyi bu prinsiplərə tərəfdar çıxdılar. Onlar Avropa ictimaiyyətinin bu məsələdəki mövqeyini də nəzərə aldılar. Avropada təhlükəsizlik və əməkdaşlıq uğrunda ictimai qüvvələrin 1972-ci ilin iyununda Brüsseldə

keçirilən Assambleyası tərəfindən qəbul edilmiş bəyannamədə Ümumavropa təhlükəsizliyinin əsas prinsipləri irəli sürüldü və Ümumavropa müşavirəsi ideyası müdafiə olundu. 1972-ci ilin mayında NATO ölkələri müşavirəni hazırlamaq üçün çoxtərəfli məsləhətləşmələrdə iştirak etməyi qərara aldılar. 1972-ci il noyabrın 22-də Finlandiyanın təşəbbüsü ilə 33 Avropa dövlətinin, ABŞ və Kanada dövlətlərinin nümayəndələri müşavirənin vəzifələrini, onun işinin təşkilini, gündəliyini, iştirakçılarının tərkibini və maliyyələşdirmə üsullarını müəyyən etmək üçün Helsinkidə çoxtərəfli məsləhətləşmələrə başladılar. 7 aya qədər davam edən məsləhətləşmələrin gedişində çoxsaylı çətinliklər meydana çıxdı. Bu çətinliklər qarşıdakı müşavirənin görünməmiş xarakteri, onun tərkibinin rəngarəngliyi və iştirakçıların mövqelərinin müxtəlifiiyi ilə bağlı idi. Qərarların konsensusa əsaslanması da hamı üçün məqbul razılaşmaların qəbulunu çətinləşdirdi. 1972-ci il dekabrın 13-də sovet nümayəndə heyəti müşavirənin gündəliyinə aşağıdakı məsələləri təklif etdi; Avropa təhlükəsizliyinin təmin olunması və Avropa dövlətləri arasında münasibətlərin prinsipləri; bərabərhüquq əsasında ticarət, iqtisadi, elmi-texniki əlaqələrin və ekologiya sahəsində əməkdaşlığın genişlənməsi, Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə orqanın yaradılması. Birinci maddə məsləhətləşmə iştirakçılarının prinsipial etirazına səbəb olmasa da Qərb dövlətləri humanitar sahədə əməkdaşlıq məsələsinin ayrıca müzakirəsini təklif etdilər. 1973-cü il yanvarın 23-də sovet nümayəndə heyətinin təklif etdiyi dəqiqləşdirilmiş gündəlik layihəsində hümanitar sahədə əməkdaşlıq müstəqil məsələ kimi qeyd edildi. Çoxtərəfii məsləhətləşmələr nəticəsində 1973-cü ilin iyununda «Mavi kitab» adı almış Yekun tövsiyələri razılaşdırıldı. «Mavi kitab»m 96 maddəsi müşavirənin təşkili, gündəliyi, iştirakçıların tərkibi, yeri və vaxtı, maliyyələşdirmə qaydalarını tənzimləyirdi. «Mavi kitab» müşavirənin üç mərhələdə keçirilməsini nəzərdə tuturdu: birinci mərhələ Helsinkidə xarici işlər nazirləri səviyyəsində keçirilməli idi. Bu mərhələdə yekun tövsiyələri təsdiq olunub

ümumi mövqelər müəyyən edilməli idi, Cenevrədə keçirilən ikinci mərhələdə ekspertlər səviyyəsində Yekun sənədləri hazırlanmalı idi. Üçüncü mərhələdə həmin sənədlər təsdiq olunmalı idi. Müşavirənin razılaşdırılmış gündəliyində dörd məsələ var idi: 1. Avropada təhlükəsizlik məsələləri. 2. İqtisadiyyat, elm-te.xnika və ətraf mühitin mühafizəsi sahələrində əməkdaşlıq məsələləri. 3. Humanitar və digər sahələrdə əməkdaşlıq problemləri. 4. Müşavirədən sonra Ümumavropa prosesinin inkişaf istiqamətləri. Ümumavropa müşavirəsinin keçirilməsi haqqında razılıq əldə edilməsi və onun gündəliyinin müəyyən olunması gərginliyin zəifləməsi siyasətinin mühüm qələbəsi idi. Çoxtərəfii məsləhətləşmələrin uğurla başa çatması kompromis əsasında hamı üçün məqbul razılaşmaların əldə olunmasının mümkünlüyünü göstərdi.

1973- cü il iyulun 3-də Helsinkidə Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə müşavirənin birinci mərhələsi başladı. İyulun 7-nə qədər davam edən bu mərhələdə 35 dövlətin xarici işlər naziri iştirak edirdi. Bu mərhələ məzmunca zəngin, yekunlarına görə mühüm idi. Müşavirəni açan Finlandiya prezidenti U.K.Kekkonen dedi: «Bizim qitənin tarixində indikinə bənzər müşavirə keçirilməmişdir. Bu müşavirə qaliblərin və böyük dövlətlərinin görüşü deyildir. Bu müşavirə bizim hər birimizə aid olan həyati əhəmiyyətli məsələlərin bərabərlik və qarşılıqlı hörmət əsasında həllində maraqlı olan bütün hökumətlərin birgə səylərinin nəticəsidir». Xarici işlər nazirləri Avropada təhlükəsizlik və əməkdaşlığın mühüm cəhətlərinə dair öz hökumətlərinin baxışlarını şərh edəndən sonra yekun tövsiyələrini təsdiq etdilər və müşavirənin sonrakı iş qaydasını müəyyən etdilər. İştirakçılar ən çox gündəliyin 3- cü maddəsinə diqqət yetirərək bildirdilər ki, gərginliyin zəifiəməsinin başlıca şərti insanlar arasında əlaqələrdir. Qərb ölkələri gündəliyin birinci məsələsinə dair 2, üçüncü məsələsinə dair isə 15 təklif irəli sürdülər.

Ümumavropa müşavirəsinin ikinci mərhələsi 18 sentyabr 1973- cü ildən 21 iyul 1975-ci'ilə qədər Cenevrədə oldu. Bu

müddət ərzində müşavirənin işçi orqanları 2500-ə qədər rəsmi iclas keçirtdilər və 4700-ə qədər müxtəlif layihə müzakirə etdilər. İkinci mərhələ daha kəskin diplomatik mübarizə şəraitində keçdi. Müşavirənin əsas işçi orqanlarından olan üç əsas komissiyanın birincisində əsas mübahisə obyekti sərhədlərin toxunulmazlığı prinsipi oldu. Sosialist ölkələri bildirdilər ki, müharibədən sonrakı dövr ərzində qitənin təhlükəsizliyi üçün əsas qorxu mənbələrindən biri bəzi Qərb dövlətləri tərəfindən Avropada ərazi-siyasi status-kvonun tanmmamasıdır və sərhədlərin pozulmazlığının çoxtərəfii səviyyədə aydın və danışıqsız etiraf olunması Avropa dövlətlərinin dinc yanaşı yaşamasının və əməkdaşlığının möhkəm bünövrəsi ola bilər. AFR təkid edirdi ki, sərhədlərin dinc yolla dəyişməsinə razılıq verilsin. AFR həmçinin təklif edirdi ki. Avropadakı sərhədlərin statüsu müxtəlif olsun. Tərəfiər razılaşdılar ki, sərhədlər yalnız beynəlxalq hüquqa uyğun dinc yolla və razılıq əsasında dəyişdirilə bilər. Birinci komissiyanın işindəki çətinliklər etimadı möhkəmləndirmək tədbirləri məsələsi ilə də bağlı idi. İkinci komissiyada bütövlükdə ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq məsələlərində tərəfiər hamı üçün məqbul qərarlar qəbul etdilər. Üçüncü komissiyada bir sıra Qərb ölkələri humanitar sahədə əməkdaşlıq məsələsindən kommunist ölkələrinin daxili işlərinə qarışmaq üçün istifadə etməyə cəhd göstərdilər. Lakin müşavirə iştirakçılarının əksəriyyəti belə cəhdlərə qarşı çıxdı. Razılıq əldə olundu ki, humanitar sahədə əməkdaşlıq xalqlar arasında sülhün və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət etməli, dövlətlər arasında münasibətləri tənzim edən prinsiplərə əsaslanmalıdır. Ümumavropa müşavirəsinin ikinci mərhələsi öz işini uğurla başa çatdırdı. 1975-ci il iyulun 19-da Əlaqə komitəsi müşavirənin üçüncü, yekun'mərhələsinin yüksək səviyyədə 1975-ci il iyulun 30-da Helsinkidə keçirilməsi haqqında qərar qəbul etdi. İyulun 21-də müşavirənin yekun aktı imzalanmaq üçün artıq hazır idi. Üçüncü mərhələnin açılışında Finlandiya prezidenti və BMT- nin baş katibi, sonra isə müşavirədə iştirak edən bütün ölkə

lərin hökumət və dövlət başçıları çıxış etdilər. Çıxış edənlərin hamısı görülmüş işin və yekun aktının əhəmiyyətini etiraf edib əldə olunmuş razılaşmaların yerinə yetirilməsinin zəruriliyini əsaslandırdılar. 1975-ci il avqustun 1-də müşavirədə iştirak edən 35 dövlətin başçıları Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə müşavirənin Yekun aktını imzaladılar.

Yekun aktında gündəlikdəki dörd məsələ üzrə uzunmüddətli mübarizənin nəticələri öz əksini tapdı və Avropada təhlükəsizlik və əməkdaşlıq probleminin həllinin əsas istiqamətləri, çərçivəsi və yolları müəyyən olundu. Yekun aktının girişində müşavirə iştirakçılarının əldə edilmiş nailiyyətlərə əməli xarakter verib Avropada gərginliyin zəilləməsini möhkəmləndirmək qətiyyəti əks olundu. Avropadakı təhlükəsizliyin bölünməzliyi, Ümumavropa əməkdaşlığının inkişafında ümumi maraq və Avropa təhlükəsizliyi ilə dünyadakı sülh arasında sıx əlaqə etiraf edildi. Avropa təhlükəsizliyi baxımından yekun aktına daxil olan «Prinsiplər bəyannaməsi» böyük əhəmiyyətə malik idi. Müşavirənin iştirakçısı olan dövlətlər qarşılıqlı münasibətlərində 10 əsas prinsipi rəhbər tutmalı idilər; 1. Suveren bərabərlik. 2. Zor işlətməmək və ya zor işlətməklə hədələməmək. 3. Sərhədlərin toxunulmazlığı. 4. Dövlətlərin ərazi bütövlüyü. 5. Mübahisələrin dinc yolla nizama salınması. 6. Bir birinin daxili işlərinə qarışmamaq. 7. İnsan hüquqlarına və əsas azadlıqlara hörmət. 8. Bərabərlik və xalqların öz müqəddəratını təyin etmək hüququ. 9. Dövlətlər arasında əməkdaşlıq. 10. Beynəlxalq müqavilə öhdəliklərinin vicdanla yerinə yetirilməsi.

Prinsiplər bəyannaməsində deyilirdi ki. Avropadakı bütün sərhədlər toxunulmazdır, iştirakçı dövlətlər indi və gələcəkdə bu sərhədlərə qəsd etməyəcəklər. Prinsiplər bütövlükdə Avropadakı siyasi reallıqların etirafı idi. Etimadı möhkəmləndirmək tədbirlərinə, təhlükəsizlik və tərksilahın bir sıra cəhətlərinə dair sənəd Avropa təhlükəsizliyi ilə bağlı mühüm əhəmiyyət daşıyırdı. Bu sənədə əsasən , iştirakçı dövlətlər iri hərbi təlimlər haqqında əvvəlcədən xəbər vermək və

müşahidəçilər mübadilə etmək haqqında razılığa gəldilər. Sənəddə deyilirdi ki, iştirakçı dövlətlər hərbi qarşıdurmanın zəifləməsinə, və tərksilaha kömək edən səylərdə maraqlı olduqlarını etiraf edirlər, çünki bu onların təhlükəsizliyini möhkəmləndirir və Avropada siyasi gərginliyi azaldır.

Ticarət, sənaye, elm və texnika, ətraf mühitin qorunması sahəsində əməkdaşlıq haqqında bölmənin girişində bu əməkdaşlığın Avropada və bütün dünyada sülhü və təhlükəsizliyi möhkəmləndirmək üçün əhəmiyyətindən danışılırdı. Yekun aktına Aralıq dənizi rayonunda təhlükəsizlik və əməkdaşlığa dair ayrıca sənəd daxil idi. Burada deyilirdi ki, təhlükəsizliyin möhkəmlənməsi prosesi dünyanın başqa regionlarına, o cümlədən Aralıq dənizi rayonuna da aiddir, müşavirə iştirakçıları bu bölgədə gərginliyin zəifləməsində və əməkdaşlığın genişlənməsində maraqlıdırlar. Yekun aktının humanitar və digər sahələrdə əməkdaşlıq bölməsində humanitar əməkdaşlıq sahəsində tərəqqinin gərginliyin zəifləməsinin inkişafı və iştirakçı dövlətlər arasında münasibətlərin daha da yaxşılaşması şərti ilə mümkünlüyü qeyd olundu. Müşavirədə Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə daimi orqanın yaradılması haqqında qərar qəbul edilmədi. Yekun aktına müşavirədən sonrakı addımlar haqqında razılaşmalar daxil edildi. Müşavirə iştirakçıları Yekun aktının müddəalarının və müşavirənin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi haqqında müntəzəm fikir mübadiləsi yolu ilə başlanmış çoxsahəli prosesi davam etdirmək fikrində olduqlarını bəyan etdilər. Bu məqsədlə ATƏM iştirakçısı olan dövlətlərin nümayəndələrinin müxtəlif səviyyələrdə görüşlərinin təşkili nəzərdə tutulurdu.

***70-ci ilhrin ikinci yarısı - 80-ci ilhrıh Umıımavropa prosesi***

ATƏM iştirakçısı olan dövlətlərin Belqrad görüşü 1977- ci ilin oktyabrından 1978-ci ilin martına qədər keçirildi. ABŞ başda olmaqla Qərb dövlətləri görüş zamanı sosialist

ölkələrində insan hüquqlarına hörmət edilməsini tələb etdilər. Görüş iştirakçıları mübahisəli məsələlərin dinc yolla həllinə dair ekspertlərin müşavirəsini və Ümumavropa elmi forumunu, Aralıq dənizi rayonunda əməkdaşlığa dair ekspertlərin müşavirəsini keçirməyə dair razılığa gəldilər. Burada ATƏM iştirakçılarının növbəti görüşünün 1980-cı ildə Madriddə keçirilməsi qərara alındı. Madrid görüşü 1980-cı ilin noyabrında işə başladı və 1983-cü ilin sentyabrına qədər davam etdi. Burada qəbul edilmiş Yekun sənədində Avropada vəziyyətin normallaşmasma və bütün sahələrdə dövlətlərarası münasibətlərin inkişafına kömək etməli olan konkret razılaşmalar öz əksini tapdı. Yekun sənədində həmçinin Helsinki müşavirəsinin 10 illiyinin qeyd olunması və 1986-cı ildə Vyanada yeni Ümumavropa görüşünün keçiilməsi tədbirləri nəzərdə tutulurdu.

Xarici işlər nazirlərinin 30 iyul - 1 avqust 1985-ci ildə Helsinkidə Ümumavropa müşavirəsinin 10-cu ildönümünə həsr olunmuş görüşü keçirildi. Görüşün bütün iştirakçıları Yekun aktının əhəmiyyətini təsdiq edib Ümumavropa prosesinin davam etdirilməsinə tərəfdar çıxdılar. 1984-cü ilin yazında Afinada beynəlxalq mübahisələrin dinc yolla tənzimlənməsinə dair ekspertlərin müşavirəsi, 1984-cü ilin oktyabrında Venesiyada Aralıq dənizi bölgəsində iqtisadi, elmi və mədəni əməkdaşlığa dair seminar, 1985-ci ilin mayında Kanadada insan hüquqları üzrə ekspertlərin müşavirəsi və s. keçirildi.

Avropada etimadı, təhlükəsizliyi və tərksilahı möhkəmləndirmək tədbirlərinə dair Stokholm konfransı 1984- cü ilin yanvarında işə başladı. Konfransda qəbul edilən Yekun sənədində Avropada hərbi qarşıdurmanın zəifləməsinə yönəlmiş siyasi və hərbi tədbirlər kompleksi nəzərdə tutulurdu.

ATƏM iştirakçısı olan dövlətlərin Vyana görüşü 1986-cı ilin noyabrından 1989-cu ilin yanvarmadək keçirildi. Görüşdə Helsinki Yekun aktının və Madrid görüşünün sənədlərinin yerinə yetirilməsinin gedişi haqqında geniş fikir mübadiləsi

aparıldı. Vyana görüşü 1975-ci ildən sonra Avropada əldə olunmuş qarşılıqlı anlaşmanın və əməkdaşlığın səviyyəsini əks etdirdi. 1990-cı ildə Avropada adi silahların və silahlı qüvvələrin ixtisarına dair müqavilənin imzalanması Ümumav- ropa prosesinin inkişafında böyük addım oldu.

1990- cı il noyabrın 19-21-də ATƏM üzvü olan ölkələrin nümayəndələrinin Parisdə yüksək səviyyəli görüşü keçirildi. Qəbul edilmiş «Yeni Avropa üçün Paris xartiyası» adlı sənəd təşkilat üzvləri arasında münasibətlərin Helsinki prinsiplərini təsdiq edərək ATƏT iştirakçılarının çoxtərəfli əməkdaşlıqda maraqlı olduğunu göstərdi. Görüşdə müşavirə iştirakçılarının müntəzəm siyasi məsləhətləşmələrinin keçirilməsinin və Ümumavropa qarşılıqlı fəaliyyətinin daimi strukturlarının yaradılmasının zəruriliyi etiraf olundu. Müşavirədə ATƏM-in katibliyinin, azad seçkilər üzrə büronun və münaqişələrin qarşısını almaq üçün mərkəzin yaradılması qərara alındı. Müşavirədə həmçinin Ümumavropa prosesinin gələcək inkişafının əsas istiqamətləri müəyyən edilərək yüksək səviyyəli növbəti görüşün 1992-ci ildə Helsinkidə keçirilməsi qərara alındı. Paris müşavirəsi Avropadakı münasibətlərdə parçalanma və qarşıdurma dövrünün başa çatdığını, yeni dövrün başlandığını göstərdi və qitədə təhlükəsizliyin möhkəm əsaslarını yaratdı.

***Qarh dövhthrinin qarşılıqlı miiuasihəthri*** 70-ci illərdə beynəlxalq aləmdə baş verən dəyişikliklər, gərginliyin zəifləməsi. Şərq bloku ölkələri ilə münasibətlərin yaxşılaşması və Qərbi Avropa inteqrasiyasının inkişafı Qərb dövlətlərinin münasibətlərinə təsir göstərən başlıca amillər idi. ABŞ-Qərbi Avropa əlaqələri ən çox NATO çərçivəsində tənzimlənirdi. ABŞ-la Qərbi Avropa siyasi - hərbi sahədə müttəfiq, iqtisadi sahədə isə tərəfdaş və rəqib idilər. Qərbi Avropa dövlətləri arasındakı münasibətlər onların siyasətindən bilavasitə asılı idi. Transatlantika münasibətlərinə ABŞ-m xarici siyasəti böyük

təsir edirdi. Qeyd etmək zəruridir ki. Qərb dövlətlərinin qarşılıqlı münasibətləri dünya siyasətinin formalaşmasında əhəmiyyətli rol oynayırdı. Qərb dövlətlərinin həmrəyliyinin genişlənməsində «böyük yeddilərin» 1975-ci ildən keçirilməyə başlayan müntəzəm görüşləri mühüm əhəmiyyətə malik idi. ABŞ, Yaponiya, AFR, İngiltərə, Fransa, İtaliya və Kanadanın dövlət və hökumət başçılarının belə görüşlərində həm dövlətlərarası siyasi və iqtisadi münasibətlər, həm də beynəlxalq münasibətlərin aktual problemləri müzakirə edilir.

Qərbi Avropa inteqrasiyasının inkişafı Avropa İqtisadi Birliyinin təşkilati cəhətdən möhkəmlənməsinə kömək etdi.

1969- cu ilin dekabrında Haaqada keçirilən müşavirədə İngiltərənin Avropa İqtisadi Birliyinə qəbulu haqqında razılıq əldə olundu. 1972-ci ilin yanvarında Brüsseldə imzalanan müqavilə

1973- cü il yanvarın 1-də qüvvəyə mindi və İngiltərə, Danimarka və İrlandiya Avropa İqtisadi Birliyinin üzvü oldu.

60-cı illərin sonunda Qərbi Avropa dövlətlərinin kömrük ittifaqı formalaşdı və təşkilatın üzvüləri iqtisadi-valyuta ittifaqı yaratmağa başladılar.

Avropa İqtisadi Birliyinin məqsədlərindən biri də ziddiyyətləri yumşaltmaq və ümurnregion mənafeyini formalaşdırmaq idi. İnteqrasiya Qərbi Avropa ölkələrinin siyasi yaxınlaşmasına da kömək etdi. 1972-ci ildə Parisdə Qərbi Avropa ölkələrinin rəhbərləri Avropa Birliyi yaratmaq niyyətlərini elan etdilər, tədricən xarici siyasətlərini əlaqələndirmək və bu işlə məşğul olan xüsusi orqan yaratmaq qərarına gəldilər. 1974-cü ildə Avropa Şurası yaradıldı. Buraya daxil olan xarici işlər nazirləri ildə ən azı 3 dəfə iclas keçirib mühüm məsələləri müzakirə etməli idilər. 1976-cı ildə Avropa Parlamentinin birbaşa ümumi səsvermə yolu ilə seçilməsi haqqında qərar qəbul edildi. İlk belə seçkilər 1979-cu ildə keçirildi. 1985-ci ilin dekabrında Avropa birliyinin Lüksemburqda keçirilən iclasında «Vahid Avropa aktı» qəbul edildi. Bu sənəd Avropa Birliyi komissiyasının və Avropa Parlamentinin səlahiyyətlərini artırdı. 1986-cı ildə AB-in

üzvləri Roma müqaviləsinə dəyişiklik etmək və inteqrasiyam dərinləşdirmək haqqında qərar qəbul etdilər. Həmin sənədə görə AB ölkələri 1992-ci ilə qədər «vahid daxili bazar»m yaradılmasını başa çatdırmalı idilər. 1981-ci ildə Yunanıstan,
1986- cı ildə isə İspaniya və Portuqaliya, 1995-ci ildə Avstriya, Finlandiya və İsveç Avropa Birliyinə daxil oldular.

70-ci illərin əvvəlindən AB ölkələri xarici siyasət sahəsində daha sıx əməkdaşlıq etməyə başladılar. Siyasi məsləhətləşmələr keçirilir və xarici siyasət kursları razılaşdırılırdı. AB 15 üzvünün adından beynəlxalq konfranslarda iştirak edir, BMT və digər beynəlxalq təşkilatlarla əlaqə' saxlayırdı.

1987- ci ilin yayında AB komissiyasının və Avropa Parlamentinin səlahiyyətlərinin genişləndirilməsi inteqrasiya proseslərinə təkan verdi. Qərbi Avropa ölkələri iqtisadiyyatmdakı struktur dəyişiklikləri, elmi-texniki nailiyyətlərdən istifadə və 80-cı illərin ikinci yarısındakı sabit iqtisadi inkişafda inteqrasiya proseslərini sürətləndirdi.

***Şərq bloka ölkələrinin qarşılıqlı münasibətləri***

70-80-cı illərdə Şərq blokuna daxil olan ölkələrin xarici siyasət kursu başlıca olaraq onların beynəlxalq aləmdə mövqelərinin qorunmasına yönəlmişdi. Sosialist ölkələrinin xarici siyasətinə onların daxilindəki sosial-iqtisadi çətinliklər də böyük təsir göstərirdi. Şərq blokunun beynəlxalq münasibətlərə təsiri tədricən azalır və onların beynəlxalq mövqeləri zəifləyirdi. Bununla belə, dünya ictimaiyyətinə, azad olmuş ölkələrə, məhəlli münaqişələrə və tərksilah probleminə sosialist ölkələrinin təsiri qalırdı. Çünki hələ dünya əhalisinin dörddə biri, ərazisinin 1/3-i bu ölkələrin payına düşürdü. Onların iqtisadi əməkdaşlığını QİYŞ, hərbi-siyasi əməkdaşlığını isə Varşava Müqaviləsi Təşkilatı tənzimləyirdi. Sosialist ölkələrinin iqtisadi, siyasi, mədəni, hərbi və s. sahələrdə əməkdaşlığı inkişaf edirdi.

Siyasi əməkdaşlığın əsasında sosialist ölkələrini idarə edən kommunist partiyalarının qarşılıqlı fəaliyyəti dururdu.

70-80-cı illərdə sosialist ölkələrinin dövlətlərarası əməkdaşlığının beynəlxalq hüquqi bazasının möhkəmləndirilməsi sahəsində müəyyən işlər görüldü. 1974-cü ilin fevralında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında Sovet-Kuba bəyannaməsi, 1975-ci ildə SSRİ ilə ADR arasında müqavilə imzalandı. 1978-ci ildə SSRİ ilə Vyetnam arasında dostluq və əməkdaşlıq haqqında müqavilə bağlandı. Sosialist dövlətlərinin qarşılıqlı münasibətləri sosialist beynəlmiləlçiliyi prinsiplərinə əsaslanırdı. Bu münasibətlərdə hakim mövqe SSRİ- yə məxsus idi. İmzalanmış müqavilələrdə spesifik mənafelər də nəzərə alınırdı. Məsələn, SSRİ ilə Rumıniya arasında 1970-ci ildə, SSRİ ilə Bolqarıstan arasında 1976-cı ildə bağlanmış müqavilələrdə deyilirdi ki, bu dövlətlərin Qara dəniz rayonunda və Balkan yarımadasında əməkdaşlığı həmin bölgələrdə təhlükəsizliyin möhkəmlənməsinə xidmət edir. SSRİ ilə Polşa, ÇSSR və ADR arasında, eləcə də Polşa. ÇSSR və ADR arasında bağlanmış müqavilələrdə sərhədlərin toxunulmazlığına təminat verən maddələr var idi. Bu müqavilələr həm də xarici müdaxilə zamanı qarşılıqlı hərbi yardımı nəzərdə tuturdu. 1976-cı ildə Siyasi Məsləhət Komitəsinin orqanları kimi Xarici İşlər nazirləri komitəsi və birləşmiş katiblik yaradıldı. 1985-ci ildə Varşava Müqaviləsi Təşkilatının fəaliyyət müddətinin artırılması haqqında protokol imzalandı.

Kommunist partiyaları xarici siyasətin əlaqələndirilməsinə xüsusi diqqət yetirirdilər. Hər bir sosialist ölkəsinin xarici siyasətini özünün hazırlaması və müstəqil həyata keçirməsi elan edilsə də, əslində SSRİ onların xarici siyasətlərini həyata keçirilməsinə ciddi nəzarət edirdi; Bütün mühüm xarici siyasət məsələləri VMT SMK-nın müşavirələrində müzakirə olunurdu. Bu müşavirələrdə dünya siyasətinin bütün məsələləri müzakirə olunur və fəaliyyət proqramı hazırlanırdı. Sosialist ölkələrinin xarici siyasətinin əlaqələndirilməsində XİNK-nin, ikitərəBi və çoxtərəlli görüşlərin böyük rolu var

idi. XİNK-nin ilk iclası 1977-ci ildə Moskvada keçirildi və orada Belqrad görüşü üçün ümumi fəaliyyət platforması hazırlandı.

ATƏM-in Madrid görüşünə hazırlıqla əlaqədar bütün məsələlər XİNK-nin 1979-cu ildə Bıdapeştdə keçirilən iclasında müzakirə edildi.

Sosialist ölkələri hərbi əməkdaşlığın təkmilləşdirilməsinə xüsusi diqqət yetirirdilər. Onlar bunu ilk növbədə beynəlxalq gərginliyin artması və Qərb dövlətlərinin təzyiqinin güclənməsi ilə əlaqələndirirdilər. 70-80-cı illərdə sosialist ölkələri Varşava Müqaviləsi Təşkilatının strukturunu və fəaliyyət metodlarını daim dəyişən beynəlxalq şəraitə uyğunlaşdırmaq üçün lazımi tədbirlər gördülər. Hərbi əməkdaşlıq məsələləri ilə 1969-cu ildə yaradılmış müdafiə nazirləri komitəsi məşğul olurdu. Varşava Müqaviləsi Təşkilatının birləşmiş komandanlığı və birləşmiş silahlı qüvvələrinin qərargahı daimi fəaliyyət göstərirdi. Sosialist ölkələrinin hərbi-siyasi əməkdaşlığında kapitalist ölkələri ilə hərbi-strateji tarazlığın saxlanması mühüm yer tuturdu. Sosialist ölkələri hərbi sahədə əməkdaşlığı möhkəmləndirərkən ilk növbədə sosialist ölkələrinin müdafiə qabiliyyətini dünyadakı hərbi-siyasi vəziyyətə uyğun səviyyədə saxlamağa çalışırdılar.

70-80-cı illərdə sosialist ölkələrinin iqtisadi əməkdaşlığı inkişaf etdi. 1971-ci ildə sosialist iqtisadi inteqrasiyasının kompleks proqramı qəbul edildi. Bu proqram 15-20 il müddətinə nəzərdə tutulmuşdu. 70-80-cı illərdə sosialist iqtisadi inteqrasiyasının aparıcı istiqamətini təsərrüfat planlarının əlaqələndirilməsi və uzunmüddətli əməkdaşlıq proqramlarının hazırlanması təşkil edirdi. Təsərrüfat planlarının əlaqələndirilməsi sabit və qarşılıqlı faydalı iqtisadi, elmi-texniki əlaqələrin inkişafında mühüm rol oynayırdı. Lakin 80-cı illərin ortalarından etibarən sosialist ölkələri arasında iqtisadi əlaqələr zəiflədi. SSRİ QİYŞ-ə daxil olan bütün ölkələrlə 2000-ci ilə qədərki dövr üçün iqtisadi və elmi-texniki əməkdaşlıq sazişləri imzaladı. Sosialist ölkələrinin iqtisadi

əməkdaşlığında istehsalın ixtisaslaşdırılması və kooperasiyası, birgə investisiya fəaliyyəti mühüm yer tutdu. Sosialist ölkələrinə qısamüddətli kreditləri Beynəlxalq iqtisadi əməkdaşlıq bankı, uzunmüddətli kreditləri isə Beynəlxalq investisiya bankı verirdi. 1984-cü ilin yayında QİYŞ-ə daxil olan ölkələrin iqtisadi müşavirəsində inteqrasiyaya dair kompleks proqramın yerinə yetirilməsinin gedişi müzakirə olundu. 1985-ci ildə QİYŞ ölkələrinin 2000-ci ilə qədərki dövr üçün elmi-texniki əməkdaşlığa dair kompleks proqram qəbul edildi. Sosialist ölkələri öz aralarında əməkdaşlıqla yanaşı beynəlxalq əmək bölgüsündə iştirak etmək üçün kapitalist ölkələri ilə də əməkdaşlığa çalışırdılar.

Sosializm sisteminin tədricən zəifləməsi 80-cı illərin sonu - 90-cı illərin əvvəlində onun dağılmasına gətirib çıxartdı. Bu sistemə daxil olan ölkələrin inkişaf səviyyəsi müxtəlif idi. Bu ölkələrin hamısında əhalinin iqtisadi vəziyyəti inkişaf etmiş Qərb ölkələrindən geri qalırdı və ciddi narazılıq yaradırdı. Sosializm sisteminin başlıca ölkəsi olan SSRİ-də sosial-iqtisadi çətinliklərin artması onu zəiflədirdi. Bu isə həm də sosialist ölkələri arasında siyasi əlaqələrin zəifləməsinə gətirib çıxartdı. Qərb dövlətlərinin kommunist ölkələrinə təzyiqi daha da gücləndi. Sosialist ölkələrinin iqtisadiyyatı 80-cı illərdə ABŞ başda olmaqla Qərb dövlətlərinin sürətlə silahlanmasına davam gətirmək gücündə deyildi. Belə bir mühüm səbəbi də qeyd etmək lazımdır ki, əvvəlki illərdən fərqli olaraq 80-cı illərin sonunda SSRİ digər sosialist ölkələrində baş verən hadisələrə heç bir formada müdaxilə etmədi. Ən başlıcası isə sosialist ölkılərini idarə edən kommunist partiyalarının hakimiyyətinə son qoyuldu, Şərqi Avropa ölkələrində çoxpartiyalıhq yarandı, ADR AFR-lə birləşdi. Polşa, Macarıstan, Rumıniya, Çexoslovakiya, Bolqarıstan kimi ölkələrdə bazar iqtisadiyyatına və demokratiyaya əsaslanan cəmiyyət qurulmağa başladı. Artıq sosialist ölkələrinin kollektiv təşkilatlarına ehtiyac yox idi. 1991- ci ilin iyununda Budapeştdə çağırılmış müşavirədə QİYŞ-in buraxılması haqqında qərar qəbul edildi. 1991-ci il iyulun 1-də

isə Varşava Müqaviləsi Təşkilatı öz fəaliyyətini dayandırdı.
1991- ci il dekabrın 26-da isə SSRİ Ali Soveti SSRİ-nin buraxılması haqqında bəyannamə qəbul etdi. Bundan bir qədər əvvəl, 1991-ci il dekabrın 8-də Rusiya Federasiyası, Ukrayna və Belorusiya prezidentləri Belovejskdə Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında müqavilə imzaladılar. 1991-ci il dekabrın 21-də isə keçmiş SSRİ-yə daxil olan daha 8 respublika Alma-Ata bəyannaməsini imzalayaraq MDB-yə daxil oldular. Dünya sosializm sisteminin və SSRİ-nin süqutunun beynəlxalq münasibətlərə çox böyük təsiri oldu. «Soyuq müharibə» başa çatdı. İkinci dünya müharibəsindən sonra yaranmış beynəlxalq münasibətlər sistemi dağıldı və beynəlxalq münasibətlərin inkişafında keçid dövrü başlandı. SSRİ-nin ardınca ÇSSR və YSFR kimi federasiyalar da parçalandı.
1993- cü il yanvarın l-də müstəqil Çexiya və Slovakiya respublikaları yarandı. 1991-1992-ci illərdə isə YSFR müstəqil dövlətlərə bölündü. Orada millətlərarası ziddiyyətlər Bosna və Hersoqovinada 1992-1995-ci illərdə müharibəyə səbəb oldu. Bu müharibənin qarşısını NATO qoşunları aldı. 1995-ci ilin noyabrında Bosna və Hersoqovinada müharibə aparan müsəlmanlar, xorvatlar və serblər arasında Deyton barışığı,
1995- ci ilin dekabrında isə Parisdə sülh müqaviləsi imzalandı. Keçmiş Yuqoslaviyada müharibə vəziyyətinə son qoyuldu. Müqaviləyə əsasən Bosna və Hersoqovina ərazisinin 51%-i müsəlman-xorvat federasiyasına, 49%-i isə serblərə verildi.

***70-ci ilhrıh tərksilah problemi***

70-ci illərdə dünya siyasətinin mərkəzi problemlərindən biri tərksilah idi. Beynəlxalq gərginliyin zəifləməsi bu problemin ayrı-ayrı istiqamətlərinin həlli üçün əlverişli şərait yaratdı. Lakin əvvəllər olduğu kimi yenə də dünya dövlətlərinin başçıları tərksilahdan daha çox danışsalar da, işdə sürətlə silahlanma davam edirdi. Bu isə məsələnin həllini daha da çətinləşdirirdi. ITəın də böyük dövlətlərin heç biri xüsusilə nüvə tərksilahı

məsələsində birinci olmaq istəmirdi, hər biri digərinin güzəştə getməsinə çalışırdı. Tərksilah uğrunda mübarizədə başlıca istiqamət nüvə silahlarının məhdudlaşdırılması və ixtisarı idi. 70-ci illərin ortalarında ABŞ-da yeni sualtı «Traydent» qayıqları, B-1 ağır bombardmaçı təyyarələri, qanadlı raketlər və qitələrarası MX raketləri istehsal olunmağa başladı. ABŞ- da neytron silahının istehsalı sahəsində işlər sürətləndi.

Tərksilah BMT Baş Məclisində müntəzəm müzakirə edilən məsələlərdən biri idi. 1972-ci ildə BMT Baş Məclisinin
27- ci sessiyasında qəbul edilmiş qətnamədə deyilirdi ki. BM'1-nin üzvü olan dövlətlər nüvə silahı tətbiqindən əbədi imtina edirlər.

1971- ci ilin sentyabrında SSRİ ilə ABŞ. 1976-cı ilin iyulunda SSRİ ilə Fransa. 1977-ci ilin oktyabrında isə SSRİ ilə İngiltərə arasında təsadüll nüvə müharibəsinin qarşısının alınması haqqında sazişlər imzalandı. Bu sazişlərdə təsadüll nüvə müharibəsinin qarşısını almaq üçün təşkilati və texniki tədbirlərin təkmilləşdirilməsindən. nüvə silahı ilə bağlı təsadüll hadisələr haqqında məlumat mübadiləsindən və sazişin yerinə yetirilməsi haqqında məsləhətləşmələrdən bəhs olunurdu.

Nüvə tərksilahında əsas məsələlərdən biri nüvə sınaqlarının dayandırılması idi. 1975 və 1976-cı illərdə BMT Baş Məclisində nüvə sınaqlarının dayandırılmasının zəruriliyini təsdiq edən və nüvə dövlətlərini bu barədə danışıqlara başlamağa çağıran qətnamələr qəbul edildi.

Nəzarət məsələsi üstündə mübahisələr tərksilaha mane olurdu. SSRİ milli texniki vasitələrlə nəzarətin. Qərb dövlətləri isə beynəlxalq nəzarətin tərəfdarı idilər. 1977-ci ildə BMT Baş Məclisinin sessiyasında qəbul edilmiş qətnamədə deyilirdi ki. tərksilah komitəsi nüvə sınaqlarının tamamilə dayandırılmasına dair müqaviləni hazırlayıb Baş Məclisin tərksilaha dair birinci sessiyasına təqdim etsin.

Nüvə silahının yayılmaması və nüvə silahı olmayan zonalar yaradılması uğrunda mübarizə böyük əhəmiyyətə malik idi. 70-ci illərin ortalarında lOO-dən çox dövlət nüvə

silahının yayılmaması haqqında müqaviləyə qoşuldu. Lakin Fransa, Çin, İsrail, Pakistan və CAR kimi ölkələr bu müqaviləyə qoşulmadılar. 1975-ci ildə və 1980-cı ildə Cenevrədə müqaviləyə necə əməl olunmasını yoxlamaq məqsədi ilə konfrans keçirildi. 1978-ci ildə BMT Baş Məclisinin tərksilaha dair xüsusi sessiyasında bu məsələ geniş müzakirə edildi. 1975- ci ilin fevralında nüvə silahının yayılmaması haqqında birgə Sovet-İngiltərə, 1977-ci ilin iyununda isə Sovet-Fransa bəyanatları imzalandı.

1978- ci ildə BMT Baş Məclisinin 33-cü sessiyası bir sıra dövlətlər tərəfindən irəli sürülmüş nüvə silahı olmayan dövlətlərin təhlükəsizliyinə təminat verilməsi haqqında beynəlxalq konvensiya ideyasını bəyənərək belə bir konvensiyanın layihəsini hazırlamağı tərksilah komitəsinə tapşırdı.

70-ci illərdə BMT Baş Məclisinin sessiyalarında Yaxın Şərqdə və Cənub-Şərqi Asiyada nüvə silahı olmayan zonalar yaratmaq ideyası dəfələrlə müzakirə edildi. Lakin Latın Amerikasının nüvə silahı olmayan zona statusu 70-ci illərdə nüvə dövlətləri tərəfindən tanındı.

Dövlətlər kütləvi qırğın silahı kimi kimyəvi və bioloji silahların ləğvi uğrunda da mübarizə aparırdılar. 1971-ci ilin dekabrında BMT Baş Məclisinin 26-cı sessiyası «Bioloji silahın istehsalını qadağan edən konvensiya» layihəsini bəyəndi. Bu saziş müddətsiz idi. Bir çox dövlət tərəfindən imzalandıqdan sonra bu konvensiya 1975-ci il martın 26-da qüvvəyə mindi. Lakin tərəflər razılığa gələ bilmədiklərinə görə 70-ci illərdə kimyəvi silahın ləğvinə dair heç bir saziş imzalanmadı.

1970- ci ilin dekabrında BMT Baş Məclisi dəniz və okeanların dibində nüvə və digər kütləvi qırğın silahlarının yerləşdirilməsinin qadağan edilməsi haqqında müqavilə layihəsini bəyəndi. 1971-ci ilin fevralında dövlətlər tərəfindən imzalanmağa başlayan bu müqavilə 1972-ci ilin mayında qüvvəyə mindi.

Tərksilah uğrunda mübarizədə adi silahların ləğvi də mühüm yer tutdu. 1973-cü ilin dekabrında BMT Baş

Məclisinin 28-ci sessiyası təhlükəsizlik Şurasının üzvü olan dövlətlərin hərbi büdcələrinin 10% azaldılması və qənaət edilmiş vəsait hesabına azad olmuş ölkələrə yardım göstərilməsi haqqında qətnamə qəbul etdi.

1971- ci ilin dekabrında BMT Baş Məclisinin sessiyası tərksilaha dair xüsusi konfransın keçirilməsinin zəruriliyi haqqında qətnamə qəbul etdi. 1976-cı ildə BMT Baş Məclisinin 31-ci sessiyasında 40 dövlətin daxil olduğu tərksilah konfransına hazırlıq komitəsi yaradıldı. Bunların hamısı nüvə silahı olmayan dövlətlər idi. 1978-ci il mayın 23-dən iyunun 30-na qədər BMT Baş Məclisinin tərksilaha dair xüsusi sessiyası keçirildi. Sessiyada qəbul edilmiş Yekun sənədində BMT-nin tərksilah sahəsində fəaliyyət proqramı öz əksini tapdı.

1973-cü ilin yanvarında Vyanada NATO və BMT üzvü olan ölkələrin arasında Avropada adi silahların və silahlı qüvvələrin ixtisarına dair məsləhətləşmələr, oktyabrda isə danışıqlar başlandı. Danışıqlarda 19 dövlət iştirak edirdi. İxtisar həm milli, həm də xarici ordulara aid olmalı idi. İxtisar zonası AFR, Benilüks ölkələri, ADR, Polşa və Çexoslavakiyu ərazilərini əhatə etməli idi. Hərbi-dəniz qüvvələrinə aid olmayan bu ixtisar heç bir ölkənin təhlükəsizliyinə xələl gətirməməli idi. Qərb dövlətləri təklif edirdilər ki, əvvəlcə SSRİ və ABŞ öz adi silahlı qüvvələrini azaltsınlar. Sosialist ölkələri NATO və VMT üzvü ölkələrin Mərkəzi Avropada bərabər miqdarda silahlı qüvvə saxlamalarına razı idilər. 1979-1980-cı illərdə SSRİ Mərkəzi Avropadan 20 min əsgər və 1000 tank çıxartdı.

Tərksilah uğrunda mübarizədə qüvvə tətbiqindən imtina edilməsi də böyük əhəmiyyətə malik idi. Bu prinsip 70-ci illərdə imzalanmış bir çox beynəlxalq sənədlərdə, o cümlədən
1974- cü ildə BMT Baş Məclisinin 29-cu sessiyasında qəbul edilmiş təcavüzkarın müəyyən edilməsi haqqında qətnamədə və 1975-ci ildə Helsinki müşavirəsinin yekun aktında öz əksini tapdı.

***80-cı ilhrdə tərksilah problemi*** gQ-cı illərin əvvəlindən başlayaraq ABŞ başda olmaqla Qərb dövlətlərində silahlanma prosesi sürətləndirildi. 1980-cı ildə ABŞ-da hakimiyyətə gələn R.Reyqan hökuməti SSRİ üzərində tam hərbi üstünlüyə nail olmaq planını hazırladı. Bu planda həm də nüvə silahı tətbiqinin mümkünlüyündən bəhs olunurdu. 1982-ci ildə ABŞ Müdafiə nazirliyi SSRİ-yə və digər sosialist ölkələrinə qarşı tədrici nüvə müharibəsi aparılmasını nəzərdə tutan «kompleks strateji plan» hazırladı. ABŞ prezidenti 1982-ci ildə «1984-1988- ci və 1985-1989-cu maliyyə illərində müdafiə sahəsində direktivlər» adlı sənəd imzaladı. Bu sənədlərə əsasən 100 yeni QB MX raketləri (QBR-qitələrarası ballistik raket), hər birində 24 «Traydent» raketi olan «Ohayo» tipli 13 yeni atom sualtı qayığı, «Micitmen» adlı yeni QBR istehsalına başlamaq, yeni «V-IV» bombardmançı təyyərələri və «Stels» adlı görünməyən bombardmançı təyyarələrin istehsalına başlamaq nəzərdə tutulurdu. ABŞ silahlanma sahəsində Qərbi Avropadakı müttəfiqlərinə də kömək edirdi.

SSRİ-nin Əlqanıstana müdaxiləsindən sonra ABŞ senatının xarici işlər komissiyası SSM-2 müqaviləsini senatın təsdiqinə vermədi. Eyni zamanda ABŞ nüvə sınaqlarının tamamilə dayandırılmasına, kütləvi silahların ləğvinə və Hind okeanında qüvvələri azaltmağa dair SSRİ ilə danışıqları kəsdi. Qeyd etmək lazımdır ki, silahlanma sürətləndikcə beynəlxalq gərginlik artırdı. SSRİ yeni sualtı qayıqlar düzəltməməyi və Avropada yeni nüvə raketləri yerləşdirməməyi təklif etdi. SSRİ həm Avropada, həm də Uzaq Şərqdə etimad tədbirlərinə dair danışıqlara hazır idi. Sovet İttifaqının sürətlə silahlanma üçün iqtisadi gücü yox idi. 1981-ci ildə SSRİ-nin təklifi ilə BMT Baş Məclisinin nüvə müharibəsinin qarşısının alınması haqqında qəbul etdiyi sənəddə deyilirdi ki, nüvə silahından birinci istifadə edən dövlət bəşəriyyətə qarşı ən ağır cinayət etmiş hesab olunur. 1982-ci ilin iyun-iyul aylarında BMT Baş Məc

lisinin tərkisilaha dair II sessiyası keçirildi. Bu sessiya zamanı SSRİ rəsmi şəkildə bildirdi ki, heç zaman nüvə silahını birinci tətbiq etməyəcəkdir. VMT SMK-nin 1983-cü ilin yanvarında Praqada keçirilən müşavirəsində qəbul edilmiş bəyannamədə deyilirdi ki, nüvə müharibəsində qələbəyə ümid bəsləmək əbəsdir, VMT-nin üzvü olan ölkələr NATO dövlətləri üzərində üstünlüyə can atmır və heç bir ölkəyə hücum etmək niyyətləri yoxdur. Yeri gəlmişkən qeyd etmək lazımdır ki. NATO ölkələri də tez-tez belə niyyətləri olmadıqlarını bildirirdilər. Ona görə də VMT NATO-ya qüvvə tətbiq etməmək və sülh münasibətləri saxlamaq haqqında müqavilə bağlamağı təklif etdi.

1982- ci ilin iyununda Cenevrədə SSRİ ilə ABŞ arasında SHS-nın məhdudlaşdırılması və ixtisarına dair danışıqlar başlandı. Sovet tərəfi 1990-cı ilə qədər həmin silahları 25% azaltmağı təklif etdi. Bundan başqa SSRİ çalışırdı ki, 600 km- dən uzağa uçan qanadlı raketlər istehsalının da qarşısını alsın. SHS-nın ixtisarı məsələsinə kompleks yanaşmanın əleyhinə olan ABŞ ona görə də əvvəlcə müəyyən silahların ixtisarına başlamağı təklif etdi. SSRİ-də QBR çox idi və ABŞ bəmin raketlərinin əsaslı şəkildə ləğvini təklif edirdi. ABŞ isə sualtı qayıqlardakı ballistik raketlər və ağır bombardmançı təyyarələr cəhətdən üstün idi.

ABŞ təklif edirdi ki, hər iki tərəf ye; və dəniz bazah ballistik raketlərini 1700-dən 850-ə, döyüş başlıqlarım isə 7500-dən 5000-ə endirsin və yerüstü QBR-lərdə bunun sayı 2500-dən çox olmasın. SSRİ-də döyüş başlıqlarının ***lOVn-u*** ABŞ-da isə 20%-i yerüstü QBR-lərin payına düşürdü. ABŞ-da isə döyüş başlıqlarının 80%-i sualtı qayıqlardakı və bombardmançı təyyarələrdəki raketlərdə idi. Təbii ki. SSRİ ABŞ-ın təklifinə razılıq vermədi. Bu təklifə görə SSRİ ABŞ- dan iki dəfə çox strateji silah ləğv etməli idi.

1983- cü ilin iyununda ABŞ təklif etdi ki, ağır bombardmançı təyyarələrdəki raketlərin sayı hər iki tərəf üçün 400 müəyyənləşdirilsin. 1983-cü ilin dekabrında SHS-lərinə dair danışıqlara fasilə verildi.

Tərksilah uğrında mübarizənin əsas istiqamətlərindən birini Avropada nüvə silahlarının məhdudlaşdırılması və ixtisarı təşkil edirdi. Avropada həm ABŞ-m, həm də SSRİ-nin xeyli nüvə silahı var idi. 70-ci illərin sonunda ABŞ Avropada 572 orta mənzilli yeni raket yerləşdirmək haqqında qərar qəbul etdi. 1979-cu ilin aprelində NATO-nun nüvə planlaşdırma qrupunun iclasında «ikili qərar» lahiyəsi irəli sürüldü. Bu qərara görə, ABŞ həm SSRİ ilə orta mənzilli nüvə raketlərinə dair danışıqlara başlamalı, həm də həmin raketlərdən istehsal edib Avropada yerləşdirməli idi. ABŞ bu zaman Avropada qüvvələr nisbətinin SSRİ-nin xeyrinə dəyişməsini dəlil olaraq gətirdi. 1983-cü ilin oktyabrında SSRİ-nin Avropada 938 orta mənzilli raket daşıyıcısı, NATO-nun isə 857 raket daşıyıcısı var idi. Bunun müqabilində NATO ölkələrinin döyüş başlıqları SSRİ-dən 1,5 dəfə çox idi. 1979-cu ilin dekabrında NATO Şurası «ikili qərarı» qəbul etdi. Ona görə də sosialist ölkələri cavab tədbirləri görəcəklərini bildirdilər. 1980-cı ilin oktyabrında Cenevrədə Avropada nüvə silahlarım məhdudlaşdırıl- masına dair Sovet-Amerika danışıqları başlandı. Lakin
R.Reyqan hakimiyyətə gələndən sonra bu danışıqlar kəsildi.
1981- ci ildə SSRİ ABŞ-a Avropada yeni orta mənzilli raketlər yerləşdirməməyi təklif etdi. SSRİ-nin ən çox narahat edən ABŞ-m Avropada yerləşdirmək istədiyi «Perşinq-2» raketlərinin uçuş məsafəsinin 2500 km olub yüksək dəqiqlikdə 6-8 dəqiqə ərzində hədəf vurmaq qabiliyyətinə malik olması idi. Bu isə Avropada strateji vəziyyəti NATO-nun xeyrinə dəyişə bilərdi. ABŞ 1981-ci ilin noyabrında Cenevrədə danışıqları davam etdirdi.

Amerikan diplomatiyası danışıqlarda «sıfır variantı» adlı təklifini irəli sürdü. Bu varianta görə SSRİ özünün bütün orta mənzilli raketlərini ləğv edib, ancaq bombardmançı təyyarələrini saxlamalı idi. ABŞ Avropada yeni orta mənzilli raketlər yerləşdirmirdi, amma əvvəlki potensialı saxlayırdı, həm də İngiltərə və Fransanın raketləri nəzərə alınmırdı. Belə ixtisar nəticəsində NATO ölkələrində orta mənzilli raketlər iki

dəfə, döyüş başlığı isə üç dəfə çox olurdu. SSRİ belə təklillə razılaşmadı və Avropada hər iki tərəfdən həm orta mənzilli, həm də taktiki nüvə silahlarının tamamilə ləğvini təklif etdi. ABŞ bu təklifi qəbul etmədi. 1983-cü ilin martında ABŞ danışıqlar zamanı «aralıq variantı»nı irəli sürdü. Bu varianta görə ABŞ-m razılığı ilə Sovet İttifaqına öz raketlərinin müəyyən qismini saxlamağa icazə verilirdi.. ABŞ isə Avropada NATO-nun mövcud nüvə vasitələrinə əlavə olaraq SSRİ-nin saxladığı miqdarda özünün yeni raketlərini yerləşdirirdi. Bu halda NATO bloku ikiqat üstünlük qazanırdı. SSRİ bu təklifi rədd edib nüvə silahı daşıyıcılarının sayını təqribən üç dəfə azaltmağı və raketlər üzrə səviyyəni bərabərləşdirməyi irəli sürdü, eyni zamanda Avropada ixtisar etdiyi raketləri ləğv etməyə və Şərqdə SS-20 raketlərini sayını artırmamağa razılıq verdi. SSRİ bundan əlavə SS-20 raketlərində döyüş başlıqlarının sayının İngiltərə və Fransanın raketlərindəki nüvə başlıqlarını sayından çox olmamasına razılıq verdi. İngiltərə və Fransanın 162 raketində nüvə başlıqlarının sayının 420-430 ədəd olduğunu nəzərə alaraq SSRİ Avropada özünün 140 raketini saxlamağa, qalanlarını isə ləğv etməyə razı olduğunu bəyan etdi. Bu təklifiəri'qəbul etməyən ABŞ 1983-cü ilin noyabrından başlayaraq Qərbi Avropada yeni orta mənzilli Raketlər yerləşdirməyə başladı. Buna cavab olaraq SSRİ Çexoslovakiya və ADR ərazisində yeni SS-20 raketləri yerləşdirdi.

Nüvə sınaqlarının tamamilə dayandırılmasına dair danışıqlar da tərəflərin fərqli mövqelərinə görə nəticə vermədi.

1982- ci ildə SSRİ BMT Baş Məclisinin 37-ci sessiyasına

«Nüvə sınaqlarının tamamilə qadağan edilməsinə dair müqavilənin əsas müddəaları» adlı layihə təqdim etdi. 1985-ci ilin avqustunda SSRİ nüvə sınaqlarını dayandırdığını bildirdi, sonra onun vaxtını 1986-cı il 31 martadək artırdı. ABŞ isə nüvə sınaqlarını davam etdirdi. Əslində nüvə sınaqları keçirtmək imkanları məhdud olan SSRİ 1987-ci ilə qədər nüvə sınağı keçirməyəcəyini bildirdi. ABŞ nüvə sınaqlarının qadağan edilməsinə nəzarət etməyin çətinliyini əsas gətirdi.

1986- cı ilin dekabrında SSRİ nüvə sınaqlarının qadağan edilməsinə aid məsələnin mərhələlərlə həllinə də razılığını bəyan etdi. 1987-ci ilin sentyabrında Vaşinqtonda SSRİ xarici işlər naziri ilə ABŞ dövlət katibi arasında 1987-ci ilin dekabrına qədər nüvə sınaqlarının dayandırılmasına dair danışıqlara başlamaq haqqında razılıq əldə olundu.

Tərkisilah uğrunda mübarizədə nüvə silahının yayılma- ması böyük əhəmiyyətə malik idi. 1985-ci ildə nüvə silahının yayılmaması haqqında müqaviləni imzalayan dövlətlərin sayı 130-dan çox idi. Dünyada atom elektrik stansiyalarının sayının artması da nüvə silahının yayılması problemini aktuallaşdırdı. İsrail, CAR, Pakistan kimi ölkələr nüvə silahı hazırlamaq planlarını gizlətmirdilər. Ona görə də nüvə materiallarının ixracı üzərində nəzarəti gücləndirmək lazım idi. 1986-cı ilin aprelində Çernobil AES-də baş verən qəza göstərdi ki, atom energetikasını inkişaf etdirməklə yanaşı bu sahədə beynəlxalq təhlükəsizlik rejimini də möhkəmləndirmək lazımdır.

Nüvə silahı olmayan zonalar yaratmaq məsələsi aktual oldu. SSRİ Avropanın şimalında nüvəsiz zona yaratmaq uğrunda Finlandiyanın təkliflərini ardıcıl müdafiə edirdi. Bolqarıstan isə Balkan yarımadasının nüvə silahı olmayan zona elan olunmasını təklif etdi. 1986-cı ildə SSRİ Aralıq dənizindən özünün və ABŞ-m hərbi gəmilərini çıxartmalarını təklif etdi. 1985-ci ilin avqustunda Sakit okeanın cənubunda yerləşən 13 dövlət Sakit okeanın cənubunun nüvəsiz zona elan edilməsi haqqında müqavilə imzaladı. Həmin müqavilə 1986- cı ilin dekabrında qüvvəyə mindi.

Kimyəvi silahların ləğvi tərksilah uğrunda mübarizənin əsas istiqamətlərindən birini təşkil edirdi. Kimyəvi silahların ləğvinə dair Sovet-Amerika danışıqları 1980-ci ildə kəsildi. 1981-ci ildə BMT Baş Məclisinin 36-cı sessiyası dövlətləri yeni kimyəvi silahlar istehsal etməməyə çağıran qətnamə qəbul etdi.

Avropada adi silahların və silahlı qüvvələrin ixtisarına dair Vyana danışıqları davam etdirildi. 1982-ci ilin fevralında həm SSRİ, həm də Qərb dövlətləri bu məsələyə dair öz

layihələrini hazırladılar. Qərb layihəsində söhbət yalnız silahlı qüvvələrin azaldılmasından gedirdi. Təbii ki, SSRİ bu təkliflə razılaşmadı. 1983-cü ilin iyununda SSRİ danışıqların müzakirəsinə yeni saziş layihəsi təqdim etdi. Sənəddə saziş imzalandıqdan sonrakı üç il ərzində Mərkəzi Avropada NATO və Varşava Müqaviləsi Təşkilatı silahlı qüvvələrinin sayının tərəflərin hər biri üçün 900 min nəfərə (quru qüvvələri 700 min, hərbi hava qüvvələri 200 min) qədər azadılması təklif olunurdu. Hərbi texnika da mərhələlərlə ixtisar edilməli idi.

1985- ci ilin fevralında Sovet dövləti yeni saziş layihəsi təklif etdi. Sənəddə deyilirdi ki, müqavilənin qüvvəyə minməsindən keçən bir il ərzində SSRİ və ABŞ Mərkəzi Avropada öz silahlı qüvvələrinin hərbi texnikası ilə birlikdə müvafiq olaraq 20 və 13 min nəfər ixtisar etsin. Bu ixtisar başa çatana qədər Vyana danışıqlarının iştirakçıları istər kollektiv, istərsə də milli zəmində öz silahlı qüvvələrini və silahlarını artırmamalı idilər. Lakin bu təklif də Qərb dövlətləri tərəfindən qəbul edilmədi.

1986- cı ilin fevralında ADR nümayəndəsi bütün sosialist ölkələrinin adından yeni təklif irəli sürdü. Təklif edildi ki, sazişin qüvvəyə minməsindən keçən bir il ərzində SSRİ 11,5 min. ABŞ 6,5 min həcmində silahlı qüvvələrini silahları ilə birlikdə Mərkəzi Avropadan çıxartsın, danışıqların qalan iştirakçıları 3 il ərzində özlərinin quru qoşunlarını, hərbi hava qüvvələrini və onların silahlarını artırmasın, sazişin tətbiq edildiyi şərq və qərb zonasında bu prosesə nəzarət etmək üçün bir neçə nəzarət məntəqəsi yaradılsın, tərəfiər 20 mindən artıq hərbçinin iştirak etdiyi hərbi təlimlər haqqında bir-birinə məlumat versin. Varşava Müqaviləsi Təşkilatının üzvü olan dövlətlərin Siyasi Məsləhət Komitəsinin 1986-cı ildə Budapeşdə keçirilən müşavirəsi təkcə Mərkəzi Avropada deyil, bütövlükdə Atlantik okeanı sahilindən Ural dağlarına qədər ərazidə silahlı qüvvələri və adi silahları azaltmaq proqramı ilə NATO ölkələrinə müraciət etdi. Avropada adi silahların və silahlı qüvvələrin ixtisarı məsələsi 1986-1989-cu illərdə ATƏM iştirakçılarının Vyana görüşündə geniş müzakirə edildi. Bu

məsələyə dair müqavilənin bağlanmasını asanlaşdırmaq üçün SSRİ Şərqi Avropadan 20 min əsgər, 2700 tank ,300 təyyarə çıxartdı. SSRİ və digər sosialist ölkələri Avropada adi silahların və silahlı qüvvələrin 3 mərhələdə ixtisar edilməsi təklifini irəli sürdülər. 1989-cu ildə Vyanada aparılan danışıqlarda tə- rəfiər demək olar ki, problemin bütün cəhətlərinə dair razılığa gəldilər. NATO ölkələri danışıqları sürətləndirib maksimum bir il ərzində başa çatdırmağı təklif etdilər. Sosialist ölkələri də
1990- cı ildə adi silahlara dair müqaviləni imzalamağa hazır olduğunu bildirdilər. Sosialist ölkələri bundan ötrü bütün Avropa dövlətlərinin başçılarının iştirakı ilə yüksək səviyyəli müşavirə çağırmağı təklif etdilər. 1990-cı ilin noyabrında Parisdə, Avropada adi silahların ixtisarı haqqında müqavilə imzalandı. Silahların və qoşunların xeyli ixtisar edilməsini nəzərdə tutan müqavilə NATO ilə Varşava Müqaviləsi Təşkilatı arasında bərabər qüvvələr nisbətini müəyyənləşdirdi. Eyni zamanda BMT-nin və NATO-nun üzvü olan 22 ölkənin dövlət və hökumət başçıları əməkdaşlıq və dostluq sahəsində yeni münasibətlər qurmaq barədə öz niyyətlərini elan edən birgə bəyannamə imzaladılar.

Tərksilah uğrunda mübarizədə əsas məsələlərdən biri kosmik fəzanın hərbiləşdirilməsinin qarşısını almaq idi. 1981- ci ildə BMT Baş Məclisinin 36-cı sessiyasında SSRİ kosmik fəzaya silah çıxarılmasının qadağan edilməsinə dair müqavilə bağlamağı təklif etdi. 1983-cü ildə isə SSRİ BMT-də kosmik fəzada və kosmik fəzadan yerdəki obyektlərə qarşı qüvvə tətbiqinin qadağan edilməsinə dair müqavilə bağlamaq təklifi ilə çıxış etdi. 1984-cü ildə BMT Baş Məclisinin 38-ci sessiyası «Kosmosdan yalnız dinc məqsədlə istifadə haqqında» qətnamə qəbul etdi. 1985-ci ildə BMT Baş Məclisi «Kosmosdan dinc məqsədlə istifadə sahəsində beynəlxalq əməkdaşlığın əsas istiqamətləri və prinsipləri» adlı qətnamə qəbul etdi. 1986-cı ildə isə BMT Baş Məclisi 2000-ci ilə qədərki dövrdə kosmosdan dinc məqsədlərlə istifadə sahəsində birgə fəaliyyət haqqında qətnamə qəbul etdi.

ABŞ-da «Strateji müdafiə təşəbbüsü» adlı («Ulduz müharibələri») proqram 1983-cü ilin martında irəli sürüldü. Bu proqram ABŞ ərazisini düşmənin ballistik raketlərindən qorumaq üçün geniş miqyaslı kosmik bazalı raketdən müdafiə sisteminin yaradılmasını nəzərdə tuturdu.

Nüvə və kosmik silahlara dair Sovet-Amerika danışıqları Cenevrədə 1985-ci ilin martında başlandı. Danışıqlar zamanı həm kosmosa silah çı.xarılmasmın qadağan edilməsi, həm SSRİ-nin və ABŞ-m strateji hücum silahlarının əsaslı şəkildə ixtisarı, həm də Avropada orta mənzilli raketlərin ixtisarı məsələləri əlaqəli və kompleks şəkildə müzakirə olunurdu. SSRİ strateji silahların 50% ixtisarını təklif etdi. 1985-ci ilin noyabrında Cenevrədə Sovet-Amerika görüşü zamanı tərksilahın sürətləndirilməsi və artıq razılaşdırılmış məsələlərə dair qərarların hazırlanması bəyənildi. Tərksilaha dair danışıqlar 1986- cı ilin oktyabrında Reykyavikdə Sovet-Amerika görüşündə də aparıldı. Burada SSRİ əvvəlcə SHS-larmın 1991-ci ilə qədər 50% ixtisar edilməsini, Avropada orta mənzilli raketlərin tamamilə ləğv edilməsini, raketdən müdafiə rejiminin möhkəmləndirilməsini, SMT-yə dair işlərin dayandırılmasını, nüvə sınaqlarının tamamilə qadağan edilməsinə dair danışıqlara başlanmasını təklif edirdi. Danışıqlar nəticəsində SHS-lərə və orta mənzilli raketlərə dair tərəfiərin mövqelərində xeyli yaxınlaşmaya nail olundu. Burada SSRİ Avropada orla mənzilli raketlər məsələsində «sıfır variantı»nı müdafiə etdi. SSRİ - Avropada SSRİ-nin və ABŞ-ın bütün orta mənzilli raketlərinin ləğvini təklif etdi. Bu zaman SSRİ İngiltərə və Fransanın nüvə potensialını nəzərə almamağa razılıq verdi. SSRİ bildirdi ki, Avropada ABŞ raketləri ləğv edilərsə, onda SSRİ ölkənin Asiya hissəsində orta mənzilli raketlərdə nüvə başlıqlarının sayını 100-ə endirməyə hazırdır. Bundan başqa SSRİ 1000 km-dən az məsafəyə uçan yaxın mənzilli raketlərin istehsalını dayandırmağı v'ə onların ləğvi haqqında danışıqlara başlamağı təklif etdi. Reykyavikdə bu məsələyə dair də ümumi razılıq əldə olundu. 1987-ci ilin fevralında SSRİ Avropada

orta mənzilli raketlərin ləğvinə dair ayrıca saziş imzalanmasına hazır olduğunu bildirdi. 1987-ci ilin aprelində SSRİ bir daha yaxın mənzilli raketlərin ləğvinə dair danışıqlara tərəfdar oldu. Həmin vaxt Moskvaya gəlmiş ABŞ-ın dövlət katibi C.Şultsla bu barədə razılıq əldə edildi.

1987- ci ilin dekabrında Vaşinqtonda yüksək səviyyəli Sovet -Amerika görüşü zamanı yaxın və orta mənzilli raketlərin ləğvinə dair müqavilə imzalandı. Müqaviləyə görə SSRİ 826 orta mənzilli, 926 yaxın mənzilli, ABŞ isə 689 orta mənzilli, 170 yaxın mənzilli raket ləğv etməli idi. Orta mənzilli raketlər üç il ərzində, yaxın mənzilli raketlər isə il yarım ərzində ləğv olunmalı idi. SSRİ-də nüvə döyüş başlığı 2500 ədəd, ABŞ-da isə 1320 ədəd ləğv olunmalı idi. Müqavilə ciddi beynəlxalq nəzarət altında həyata keçirilməli idi.l988-ci ilin mayın sonu - iyunun əvvəlində ABŞ prezidenti R.Reyqanm SSRİ-yə səfəri zamanı 1987-ci il müqaviləsinin təsdiq lərmanları mübadilə edilərək qüvvəyə mindi.

Strateji hücum silahlarına dair Cenevrə danışıqları davam etdirildi. Bu məsələ həm də 1988-1991-ci illərdə keçirilmiş yüksək səviyyəli görüşlərdə və xarici işlər nazirlərinin görüşlərində ətraflı müzakirə olundu. 1991-ci ilin iyununda Moskvada SSRİ ilə ABŞ arasında strateji hücum silahlarının ixtisarı haqqında müqavilə imzalandı. Müqaviləyə görə, tərəflərin hər biri strateji raketlərini 28-36%, nüvä döyüş başlıqlarını isə 42% ixtisar etməli idilər. Bu müqavilə SSRİ və ABŞ-da SHS-lərinin yalnız zəruri müdafiə üçün səviyyəsini təmin etməklə həm beynəlxalq sabitliyin təmin olunması, həm də nüvə münaqişəsi ehtimalının azalması üçün böyük əhəmiyyətə malik idi.

### ***Yaxın*** va ***Orta Şərqdə beynəlxalq münasibətlər***

70-ci illərdə Yaxın Şərqdə beynəlxalq vəziyyət gərgin olaraq qalırdı. İsrail işğal etdiyi ərəb torpaqlarından çıxmaq istəmirdi. ABŞ isə İsrailə yardımını daim artırırdı. Ərəb ölkələri arasında İsrail təcavüzünə

qarşı mübarizə üçün birlik mövcud deyildi. Eyni zamanda Yaxın Şərqdə nüfuz uğrunda SSRİ - ABŞ rəqabəti güclənirdi.

1970-ci ilin avqustunda İsraillə Misir arasında atəşkəs haqqında saziş imzalandı. Lakin İsrail 1971-ci ildə 1967-ci ildə tutduğu torpaqları qaytarmayacağmı bildirdi. Ona görə də Misir 1971-ci ilin martında atəşkəs sazişinə əməl etməyəcəyini bəyan etdi.

1971-ci il martın 27-də SSRİ ilə Misir arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. Müqavilənin 8- ci maddəsi hərbi əməkdaşlığa aid idi. 1971-ci ilin sonunda SSRİ Yaxın Şərq məsələsinin həllinə dair yeni plan irəli sürdü. Plana görə, İsrail mərhələlərlə öz qoşunlarını tutduğu torpaqlardan çıxartmalı, ərəb ölkələri ilə İsrail arasında müharibə vəziyyətinə son qoyulmalı və sülh yaranmalı idi. Yaxın Şərqdəki bütün dövlətlərin sərhədlərinin təhlükəsizliyi təmin olunmalı idi. Lakin ABŞ və İsrail bu planı qəbul etmədi. ABŞ- ııı başlıca məqsədi SSRİ-ni Yaxın Şərq məsələsinin tənzimlənməsindən kənarlaşdırmaq idi. 1972-ci ilin yanvarında İsrail tutduğu torpaqların ömürlük ona məxsusluğunu. Şərqi Fələstini və Qəzzə bölməsini İordaniya ilə birlikdə idarə edə biləcəyini bəyan etdi. İsrailin məqsədi İordaniyanı digər ərəb ölkələrindən ayırmaq idi.

Ərəb ölkələri torpaqlarını müharibə yolu ilə İsraildən almağa çalışırdılar. 1973-cü ilin oktyabrında Misir qoşunları Süveyşin Şərq sahilində İsrailin yaratdığı müdafiə istehkamlarına hücum etdi. Həmin vaxtda Suriya ordusu da Colan təpələri rayonunda hücuma başladı. İsrail qoşunları oktyabrın 11-də əks-hücuma keçərək Dəməşqə doğru irəlilədi. İraqın göndərdiyi iki tank diviziyasının və bir neçə İordaniya hərbi hissəsinin köməyi ilə İsrail ordusunun qarşısı alındı. ABŞ İsrailə həm silah, həm də canlı qüvvə göndərdi. Oktyabrın 22-də İsrail qoşunu Qahirəyə doğru irəliləməyə başladı. SSRİ bir tərəfdən, Misirə gömək edirdi, digər tərəfdən isə, ABŞ-la danışıqlar aparıb hərbi əməliyyatların dayandırılmasına çalışırdı. 1973-cü il oktyabrın 22-də BMT Təhlükəsizlik Şurasının qəbul

etdiyi 338 nömrəli qətnamədə vuruşan tərətlərdən dərhal hərbi əməliyyatları dayandırmaq və sülh müqaviləsi bağlamaq üçün danışıqlara başlamaq tələb olunurdu. Oktyabrın 24-ə qədər hərbi əməliyyatlar dayandırıldı, Təhlükəsizlik Şurasının qərarı ilə Yaxın Şərqə BMT qoşunları gətirildikdən sonra İsrail Süveyş rayonunda Misir qoşunlarının mühasirəsinə son qoydu. Bu müharibə zamanı İsrail ərəb ölkələrinin birləşib ona müqavimət göstərəcəklərini gözləmirdi. 1973-cü ilin oktyabrında bir çox ərəb ölkələri neft çıxarılmasını və ABŞ, Portuqaliya, Hollandiya və CAR-a neft ixracını azaltdılar. Bildirdilər ki, İsrail qoşunları bütün ərəb torpaqlarından çıxmayana qədər bu işi davam etdirəcəklər. Bu addım bir çox Qərb ölkələrinin iqtisadiyyatına zərər vurdu və onlarda ABŞ-m İsraili müdafiə etmək siyasətindən narazılıq yaratdı. İsrail yaranmış vəziyyətdə Təhlükəsizlik Şurasının qərarı ilə Yaxın Şərqdə dinc tənzimləməyə dair beynəlxalq konfransda iştirak etməyi məqsədəuyğun saydı. Bu konfrans 1973-cü ilin dekabrın 21-də Cenevrədə açıldı. Konfransa BMT baş katibi K.Valdhaym sədrlik edirdi. Suriya konfransa gəlməkdən imtina etdi. BMT Təhlükəsizlik Şurasının 242 və 338 nömrəli qətnamələrinin yerinə yetirilməsinə dair konkret tövsiyələr hazırlamaq üçün işçi qrupları yaradıldı. Daha fəal olan hərbi işçi qrupu münaqişə tərəflərinin qoşunlarını ayırmaq üçün saziş layihələri hazırladı. 1974-cü il yanvarın 18-də Misir və İsrail qoşunlarının ayrılması haqqında imzalanmış sazişə əsasən İsrail 1967-ci ildə tutduğu Misir torpaqlarından qoşunlarını çıxartdı, Sü- veyşdən 30 km geri çəkilərək Sina yarımadasının bir hissəsini Misirə qaytardı. İsrail və Misir qoşunları arasındakı ərazidə BMT qüvvələri yerləşdirildi. 1974-cü il martın 31-də Suriya və İsrail arasında qoşunların aralanması haqqında saziş imzalandı. İsrail 1973-cü ildə tutduğu torpaqların hamısını, 1967-ci ildə tutduğu torpaqların bir hissəsini Suriyaya qaytardı. Suriya və İsrail qoşunları arasında da BMT qüvvələri yerləşdirildi.

1974- cü ilin payızında Cenevrə konfransı öz işini dayandırdı. Misir amerikanpərəst siyasət yeritməyə başladı ki, ABŞ İsraili

müdafiə etməsin və Ərəb-İsrail münaqişəsində vasitəçi mövqeyi tutsun. Misir İsraillə münasibətləri normallaşdırmaq qərarına gəldi. 1975-ci ilin sentyabrında İsraillə Misir arasında qoşunların aralanması haqqında ikinci saziş imzalandı. Sazişə görə İsrail öz qoşunlarını daha 15 km geri çəkməli, Misir də hərbi yük daşımayan İsrail gəmilərini Süveyş kanalından buraxmalı idi. Misir SSRİ-ni dinc tənzimləmədə maraqlı olmamaqda, Yaxın Şərqdə qeyri-sabitliyin qalmasını istəməkdə günahlandırdı. 1976-cı ilin martında Ə.Sadat hökuməti 1971-ci il Sovet-Misir müqaviləsini birtərəfli qaydada qüvvədən saldı. ABŞ Misirin vasitəsi ilə SSRİ-ni Yaxın Şərq probleminin tənzimlənməsindən kənarlaşdırmağa çalışırdı. SSRİ isə onun iştirakı olmadan Yaxın Şərqdə yaradılan heç bir sülhün möhkəm olmayacağını bildirdi. 1977-ci il noyabrın 2- də Yaxın Şərqə dair birgə Sovet-Amerika bəyanatı nəşr olundu. Bəyanatda deyilirdi ki, Yaxın Şərqdə hərtərəfli tənzimləmə zamanı bütün tərəflərin maraqları və bütün məsələlər nəzərə alınmalı, dinc tənzimləmə üçün BMT Təhlükəsizlik Şurasının 242 №-li qətnaməsi əsas götürülməli və bu məsələ öz qəti həllini Cenevrə konfransında tapmalıdır. Cenevrə konfransı

1977- ci ilin dekabrına qədər öz işini bərpa etməli idi. İsrail bu bəyanatdan narazı qaldı. ABŞ-da öz növbəsində həmin bəyanatın şərtlərinə əməl etmək fikrində deyildi və bu zaman həm İsrailin, həm də konqresdəki yəhudi lobbisinin təzyiqlərini əsas gətirirdi, işdə isə Misirlə İsrailin barışması üçün səylərini əsirgəmirdi. 1977-ci ilin noyabrında Misir prezidenti Ə.Sadat Yerusəlimə gəldi, dekabrda isə İsrailin baş naziri M.Beginin Misirə səfəri oldu. Ərəb dövlətlərinin əksəriyyəti Ə.Sadatın siyasətini tənqid edirdilər. 1977-ci ilin dekabrında Liviyanın təşəbbüsü ilə Tripolidə Liviya, Əlcəzair. Suriya, YXDR və FAT rəhbərlərinin müşavirəsində Misirin təslimçilik siyasəti pisləndi və Yaxın Şərq problemini ikitərəfli əsasda tənzimləmək səyləri yolverilməz hesab edildi.

1978- ci ilin sentyabrında Kemp-Deviddə (ABŞ) İsraillə Misir arasında «Misirlə İsrail arasında sülh müqaviləsinin

bağlanması üçün çərçivə sənədi» və «Yaxın Şərqdə dinc tənzimləmə üçün çərçivə sənədi» imzalandı. Birinci sənədə görə həmin dövlətlər 3 ay müddətində sülh müqaviləsi bağlamalı, sonra isə İsrail 2-3 il müddətində qoşunlarını Sina yarımadasından çıxartmalı, Misir Sina yarımadasında hərbi qüvvələrini azaltmalı idilər. Onların diplomatik münasibətlər yaradıb əməkdaşlıq etməsi nəzərdə tutulurdu. İkinci sənəd Fələstin məsələsinə həsr olunmuşdu. Orada deyilirdi ki, 5 il müddətində İordan çayının qərb sahilində və Qəzzə bölməsində ərəb əhalisinə bəzi hüquqlar verilir, amma həmin ərazilərdə İsrail qoşunları saxlanılırdı. Həmin ərazilərin taleyi həqqında qəti qərar İsrail, Misir, İordaniya və Fələstin ərəblərinin iştirakı ilə keçirilən danışıqlarda qəbul edilməli idi. Bu sənəddə Fələstin Azadlıq Təşkilatının, Yerəsulimin və Colan təpələrinin adı çəkilmirdi. 1980-cı ilin iyulunda İsrail Yerusəlimi özünün «vahid və bölünməz» paytaxtı elan etdi. Həmin ildə İsrail parlamenti Colan təpələrinin İsrailə birləşdirilməsi haqqında qərar qəbul etdi. 1979-cu il martıı 26-da Kemp-Deviddə İsraillə-Misir arasında sülh müqaviləsi imzalandı. Bu hadisə bir çox ərəb ölkələrinin və SSRİ-nin ciddi narazılığına səbəb oldu. 1979-cu il martın 27-də Bağdadda ərəb ölkələrinin xarici işlər, iqtisadiyyat və maliyyə nazirlərinin iştirakı ilə konfrans keçirildi. Konfransda Misirlə diplomatik münasibətlərin kəsilməsi, onun Ərəb Dövlətləri Cəmiyyətindən çıxarılması və ona qarşı iqtisadi və siyasi sanksialarm tətbiqi haqqında qərarlar qəbul edildi.

İsrail 1982-ci ilin aprelində Sina yarımadasının qalan hissəsini də Misirə qaytardı. 1982-ci ilin sentyabrında ABŞ Fələstin məsələsinin həllinə dair yeni plan irəli sürdü. Plana görə, İordan çayının qərb sahili və Qəzzə bölməsi muxtariyyət hüququ alaraq İordaniya ilə birləşməli idi. Yerusəlimin (Qüdsün) taleyi ABŞ-m vasitəçiliyi ilə İsraillə İordaniya arasında aparılacaq danışıqların gedişində həll olunmalı idi. Bu planı irəli sürməkdə ABŞ-m bir neçə məqsədi var idi. O, İordaniyanın Yerusəlimin İsrailə qalmasını təsdiq etməyinə çalışırdı. Eyni zamanda ABŞ İordaniya ilə İsraili barışdırmaq

fikrində idi. İordaniya ilə İsrail arsmdakı danışıqlarda FAT iştirak etməməli idi. İordaniya bu planı qəbul etmədi.

1982-ci ilin sentyabrında ərəb ölkələrinin Mərakeşdə keçirilən müşavirəsində bəyannamə qəbul edildi. Həmin sənəddə deyilirdi ki, Yaxın Şərq probleminin dinc tənzimlənməsi üçün İsrail bütün işğal olunmuş ərəb torpaqlarından qoşunlarını çıxartmalı, Fələstin ərəblərinin müstəqil dövlət yaratmaq hüququnu tanımalı və Yerusəlimin ərəblər yaşayan hissəsi həmin dövlətin paytaxtı olmalı idi. SSRİ ərəb dövlətlərinin mövqeyini müdafiə etdi. 1984-cü ilin iyulunda SSRİ Yaxın Şərq probleminin dinc tənzimlənməsinə dair yeni təkliflər irəli sürdü. Bu təkliflərdə təcavüz yolu ilə özgə torpaqlarının işğalının yolverilməzliyi prinsipinə ciddi riayət olunması, İsrailin işğal etdiyi bütün ərəb torpaqlarından çıxması, İsrail qoşunlarının Livandan çıxarılması, İsrailin və ərəb dövlətlərinin sərhədlərinə hörmət edilməsi, İordan çayının qərb sahilində və Qəzzə bölməsində müstəqil Fələstin dövlətinin yaradılması. Şərqi Yerusəlimin ərəblərə qaytarılması, ərəb ölkələri ilə İsrail arasında sülh yaranması, dinc tənzimləməyə ən azı BMT Təhlükəsizlik Şurasmin daimi üzvləri tərəfindən təminat verilməsi və s. nəzərdə tutulurdu. Bundan əlavə, SSRİ İordan çayının qərb sahilinin və Qəzzə bölməsinin BMT-nin himayəsinə verilməsini, sonra isə nəmin ərazidə müstəqil Fələstin dövləti yaradılmasını təklif edirdi, SSRİ-nin təklifində deyilirdi ki, problemi daha səmərəli həll etmək üçün BMT-nin təşəbbüsü ilə yeni beynəlxalq konfrans çağırılsın və həmin konfransda FAT, İsrail, Ərəb ölkələri, ABŞ, SSRİ və Yaxın Şərqin digər dövlətləri iştirak etsin. 1986- cı ilin sonunda BMT Təhlükəsizlik Şurasmin 41-ci sessiyası Yaxın Şərqə dair beynəlxalq konfransın çağırılmasını zəruri sayan qətnamə qəbul etdi. 1987-ci ilin fevralında Avropa Birliyinin Brüsseldə keçirilən sessiyası Yaxın Şərqə dair BMT- nin himayəsi ilə beynəlxalq konfrans keçirilməsi ideyasını müdafiə etdi.

Yaxın Şərq münaqişəsinə cəlb olunan dövlətlərdən biri də Livan idi. Livanda 300 mindən çox Fələstin qaçqını yerləşmişdi. 1970-ci ilin sonunda FAT-m qərargahı Livana köçürülmüşdü. İsrail indi əsas mərkəzi Livanda olan Fələstin müqavimət hərəkatını yatırmaq istəyirdi. 1972-ci ildən başlayaraq terrorçulara qarşı mübarizə adı ilə İsrail ordusu tez-tez Livanın cənubuna daxil olur, hətta İsrail təyyarələri Beyrutu da bombalayırdı. FAT-m beynəlxalq nüfuzunun artması İsraili ciddi narahat edirdi. 1974-cü ilin oktyabmda ərəb ölkələrinin Mərakeşdə keçirilən müşavirəsində FAT Fələstin xalqının yeganə qanuni nümayəndəsi elan olundu. FAT-a BMT-də daimi müşahidəçi statusu verildi və BMT yanında Fələstin xalqının hüquqlarının təmin olunmasına nəzarət edən komitə yaradıldı. 1975-ci ildə BMT Baş Məclisi sionizmi irqi - ayrı seçkilik kimi səciyyələndirən qətnamə qəbul etdi. 1974-cü ilə qədər FAT 103 dövlət tərəfindən tanındı. İsrail çalışırdı ki, Livan hökuməti FAT-ı və Fələstin ərəblərini ölkədən çıxartsın. 1975-ci ildə Livanda vətəndaş müharibəsi başlandı. 1976-cı ilin sentyabrında Livanda hərbi əməliyyatlar dayandırıldı. 1978-ci ilin martında isə Livanın cənubu İsrail ordusu tərəfindən işğal edildi. Livan hökuməti BMT Təhlükəsizlik Şurasına müraciət etdi. 1978-ci il martın 15-də BMT Təhlükəsizlik Şurasmin qəbul etdiyi qətnamədə İsrail qoşunlarının Cənubi Livandan çıxarılması və Livanda sülhü qorumaq üçün oraya BMT qüvvələrinin göndərilməsi nəzərdə tutulurdu. Lakin İsrail öz qoşunlarını Livandan tamamilə çıxartmadı. 1982-ci ilin iyununda İsrail ordusu yenidən Livan ərazisinə daxil oldu. İsrail qoşunu Livan ərazisinin 1/3-ni iştal edərək Qərbi Beyrutu mühasirəyə aldı. ABŞ prezidenti Beyruta öz xüsusi nümayəndəsini göndərdi. Onun vasitəçiliyi ilə FAT silahlı dəstələrinin Beyrutdan çıxarılması barədə razılıq əldə olundu. ABŞ Livanda qalan Fələstin əhalisinin təhlükəsizliyinə təminat verdi. Əvvəlcə Qərbi Beyruta İsrail ordusu girdi. 1982-ci ilin sentyabrın sonunda isə onu ABŞ, İngiltərə, Fransa və Livan əsgərlərindən

ibarət çoxmillətli qüvvələr əvəz etdi. 1983-cü il mayın 17-də İsraillə Livan arasında sülh sazişi imzalandı. Lakin milli vətənpərvər qüvvələrin təzyiqi ilə 1984-cü ilin martında Livan hökuməti həmin sazişdən imtina etdi. 1985-ci ilin sonuna qədər İsrail qoşunlarının Livandan çıxarılması əsasən başa çatdı. 1986-cı ilin yanvarında Suriyanın vasitəçiliyi ilə Livanda hakimiyyət uğrunda mübarizə aparan qüvvələr arasında hərbi əməliyyatların dayandırılması haqqında saziş imzalandı.

İşğal olunmuş İordan çayının qərb sahilində və Qəzzə bölməsində 1988-ci ildə Fələstin ərəblərinin İsrail hakimiyyət orqanlarına qarşı ümumxalq üsyanı başlandı. Bununla əlaqədar İsrailin işğal olunmuş əraziləri idarəetməsi xeyli çətinləşdi. Belə şəraitdə FAT-m mövqeləri möhkəmləndi. BMT Təhlükəsizlik Şurasının 1988-ci ilin yanvarında qəbul etdiyi 607 və 608 №-li qətnamələrdə İsrailin işğal olunmuş torpaqlarda əhaliyə qarşı gördüyü cəza tədbirləri tənqid olundu. Bu qətnamələrdə ilk dəfə işğal olunmuş ərazilər Fələstin torpaqları kimi qeyd olunurdu. ABŞ dərk edirdi ki, Fələstin ərəblərinin tələblərinin inkar edilməsi onun regiondakı mövqelərinin möhkəmlənməsinə xidmət etmir. 1988-ci ilin martında ABŞ-m dövlət katibi C.Şults ərəb ölkələrinə səfər zamanı Yaxın Şərq probleminə dair beynəlxalq konfransın çağırılması, problemə kompleks yanaşılması və fələstinlilərin qanuni siyasi hüquqlarına hörmət edilməsi təklifləri ilə çıxış etdi. Yeni ABŞ planına görə problem mərhələlərlə həll olunmalı idi. ABŞ dövlət katibi 1988-ci il fevralından iyununa qədər dörd dəfə Yaxın Şərqə səfər etdi. ABŞ hələlik münaqişənin həllində FAT-m iştirakına razı deyildi və hətta BMT yanında FAT nümayəndəliyinin bağlanmasını təklif edərək, bunu FAT-m guya terrorçu təşkilat olması ilə əsaslandırdı. Belə şəraitdə FAT ABŞ-m yeni planına mənfi münasibət bəslədi. Ərəb dövlətləri də «Şults planı»nı tənqid edərək "bildirdilər ki, İsrail 1967-ci ildə işğal etdiyi ərəb torpaqlarından çıxmalı və Fələstin ərəblərinin müstəqil dövlət yaratmaq hüququnu tanımalıdır. İsrail də Amerika planı ilə razı olmadığını bildirdi. Misir, İordaniya və Suriya tərəfindən

FAT daha qətiyyətlə müdafiə olundu. 1988-ci ilin aprelində FAT-ın sədri Y.Ərəfat Moskvada olarkən bildirdi ki, Yaxın Şərq probleminin ədalətli həlli bütün maraqlı tərəflərin mənafelərinin nəzərə alınması şərti ilə mümkündür. 1988-cı ilin noyabrında Əlcəzairdə Fələstin Milli Şurasının XIX sessiyası keçirildi. Burada «Siyasi bəyannamə» ilə yanaşı «İstiqlaliyyət bəyannaməsi» də qəbul edildi. «İstiqlaliyyət bəyannaməsin»də paytaxtı Yerusəlim olan müstəqil Fələstin dövlətinin yaradılması elan edildi. 1989-cu ilin əvvəlində bu dövlət 50-dən çox ölkə tərəfindən tanındı. İsrail isə FAT-ı, onun yaratdığı dövləti tanımaq və işğal olunmuş torpaqlardan çıxmaq istəmirdi.

Yaxın Şərqə dair beynəlxalq konfrans çağırılmasına çalışan SSRİ BMT Təhlükəsizlik Şurasının daimi üzvləri, Misir, İordaniya, Suriya, FAT-la daimi məsləhətləşmələr aparırdı, eyni zamanda İsraillə əlaqə saxlayırdı. SSRİ və ABŞ xarici işlər nazirlərinin 1988-ci ilin fevralında Moskvada və sentyabrda Nyu-Yorkda görüşləri zamanı Yaxın Şərq münaqişəsinin tənzimlənməsi geniş müzakirə olundu. 1988-ci ilin may-iyun aylarında ABŞ prezidentinin SSRİ-yə səfəri zamanı R.Reyqan bildirdi ki, SSRİ Yaxın Şərq probleminin həllində fəal iştirak etməlidir. 1989-cu ilin fevralında SSRİ xarici işlər nazirinin Suriya, İordaniya, Misir, İraq və İrana səfəri oldu. SSRİ problemin həllində BMT baş katibinin və BMT Təhlükəsizlik Şurasının daha fəal səylər göstərməsinə çalışırdı.

1989- cu ildə Fələstin ərəblərinin İsrailə qarşı mübarizəsi davam etdi. İsrail hökuməti də onlara qarşı cəza tədbirlərini artırdı. FAT öz strategiyasında müəyyən dəyişikliklər etdi.

1988- ci ilin noyabrında Fələstin Milli Şurasının XIX sessiyasında qəbul edilən bəyannamədə deyilirdi ki, FAT BMT Təhlükəsizlik Şurasının 242 və 338 №-li qətnamələrini tanıyır və BMT-nin himayəsi ilə Yaxın Şərqə dair beynəlxalq konfrans çağırılmasına razıdır. Bu, ABŞ-la FAT arasında rəsmi dialoqun başlanmasına kömək etdi. 1988-ci ilin dekabrında onların nümayəndələrinin Tunisdə ilk görüşü keçirildi. Bundan sonra FAT rəhbərliyi bildirdi ki, İsrail bu təşkilatı

tanıyarsa onunla birbaşa danışıqlara hazırdır. 1989-cu ilin mayında ərəb ölkələri başçılarının Kasablankada keçirilən görüşündə ilk dəfə ərəb ölkələri BMT Təhlükəsizlik Şurasının 242 və 338 №-li qətnamələrini tanıdıqlarını və beləliklə. İsrailin mövcudluğu ilə razılaşdıqlarını bəyan etdilər. 1989-cu ildə Misirlə digər ərəb ölkələrinin həm ikitərəfli, həm də çoxtərəfli əlaqələri bərpa olundu. 1989-cu ilin yazında ABŞ İsrailə FAT- la dialoqa başlamağı təklif etdi. ABŞ münaqişənin «ərazi əvəzində sülh» prinsipi əsasında həll olunmasına tərəfdar idi. İsrail də «Böyük İsrail» ideyasından əl çəkməli idi. Sovet İttifaqı həm Yaxın Şərqə dair konfrans çağırılmasını təklif edirdi, həm də deyirdi ki, müstəqil Fələstin dövləti yaradılmalıdır. 1989-cu ilin sentyabrında SSRİ İsrailə və FAT-a Moskvada görüş keçirməyi təklif etdi. Sovet-ABŞ görüşlərində Yaxın Şərq münaqişəsi də geniş müzakirə olundu. 1989-cu ildə Livanda vəziyyətin gərginləşməsi Yaxın Şərq probleminin həllinə mənfi təsir göstərdi. Ərəb ölkələrinin və bir sıra digər dövlətlərin səyi ilə Livan böhranını zəiflətmək mümkün oldu.

1989- cu ilin mayında və sentyabrında SSRİ və ABŞ Livanda vuruşan tərəfləri atəşi dayandırmağa, milli barışığa çağırdı. Livanın müstəqilliyini və ərazi bütövlüyünü müdafiə etdi.

1990- cı ilin yayında İraq qoşunları tərəfindən Küvyetin işğal olunması yenə dünya ictimaiyyətinin diqqətini Yaxın Şərqə cəlb etdi. 1990-cı il avqustun 2-də İraq qoşunları Küveytə hücum etdi. Hələ hücumdan əvvəl İraqın Küveytə ərazi iddiaları var idi. İraq Küveytdən dünya bazarında nefti baha satmağı tələb etsə də Küveyt onun tələblərini qəbul etmədi.

İraq Səudiyyə Ərəbistanını da müdaxilə ilə hədələyirdi. ABŞ başda olmaqla bir sıra ölkələr Səudiyyə Ərəbistanı ərazisinə qoşun və hərbi texnika gətirdilər. BMT Təhlükəsizlik Şurasının qətnaməsi ilə İraqa qarşı əvvəlcə iqtisadi, sonra isə hərbi-siyasi sanksiyalar tətbiq edildi. İraqın hərəkəti ərəb ölkələri tərəfindən birmənalı qarşılanmadı. Qahirədə keçirilən fövqəladə görüşdə ərəb ölkələrinin çoxu İraq qoşunlarının Küveytdən çıxarılmasını tələb etdilər. Bir sıra ərəb ölkələri isə

İraqın müdafiəsinə qalxdılar. İraq da öz növbəsində ərəb ölkələrini ABŞ-a qarşı cihada başlamağı və Səudiyyə Ərəbistanından xarici qoşunların çıxarılmasına münasibətlərini dəqiq- ləşdirmələrini tələb etdi. Təhlükəsizlik Şurası 1991-ci il yanvarın 15-nə qədər İraq qoşunlarını Küveytdən çıxarmasa ona qarşı hərbi qüvvə tətbiq ediləcəyini bildirdi. 1991-ci ilin yanvarında başlamış «səhrada tufan» əməliyyatı təxminən bir aydan sonra İraq qoşunlarının Küveytdən çıxarılması ilə nəticələndi. BMT Təhlükəsizlik Şurasının İraqa qarşı tətbiq etdiyi iqtisadi sanksiyaların az bir hissəsi 1996-cı ildə ləğv olundu. ABŞ İraqın silahlanmasının qarşısını almağa, xüsusilə onun kütləvi qırğın silahları düzəltməsinə mane olmağa çalışırdı. 1998-cı ilə ABŞ və İngiltərənin hərbi təyyarələri tərəfindən İraqda bir çox hərbi obyektlər bombalandı. İraq hökuməti bütün səylərini BMT Təhlükəsizlik Şurasının sanksiyalarının ləğvinə, ölkənin iqtisadi və hərbi imkanlarının bərpasına və Yaxın Şərqdəki beynəlxalq münasibətlərə təsirini artırmağa yönəltdi.

80-cı illərin sonu - 90-cı illərin əvvəlində «soyuq mühari-bə»nin qurtarması, qarşıdurmanın dayanması Yaxın Şərq probleminin həllinə daha obyektiv mövqedən yanaşmaq imkanı verdi. SSRİ ilə İsrail arasında münasibətlər bərpa olundu. 1991-ci ildə Madriddə Yaxın Şərqə dair beynəlxalq konfrans keçirildi. 90-cı illərin əvvəlindən Yaxın Şərq probleminin həlli prossesi bir qədər sürətləndi.

***Kıbrıs problemi***

Kıbrıs prezidenti arxiyepiskop Makarios adanı Yunanıstanın müda-xiləsindən qətiyyətlə müdafiə etdi. Terror yolu ilə onu aradan götürmək cəhdləri nəticə vermədi. 1974- cü il iyulun 15-də Kıbnsda milli qvardiyanın dövlət çevrilişi cəhdi baş tutmadı. Makarios ölkəni tərk edib xarici ölkələrdən kömək istədi. Adada türklərə qarşı kütləvi soyqırım törədildi. Türkiyənin diplomatik səyləri heç bir nəticə vermədi. Türklərin soyqırımını dayandırmaq üçün 1974-cü il iyulun 20-

də Türkiyə qoşunu Kıbrıs ərazisinin 40%-ni tutmağa məcbur oldu. Prezident Makariosun xahişi ilə BMT Təhlükəsizlik Şurası iyulun 20-də iclas keçirərək bütün dövlətləri Kıbnsın suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə hörmət elməyə çağırdı. Müraciətə əsasən İngiltərə, Türkiyə və Yunanıstan Kıbrısda sülhün və konstitusiya qaydalarının bərpası üçün təcili tədbirlər görməli idilər. 1974-cü ilin oktyabrında Kıbrıs problemi BMT Təhlükəsizlik Şurasının 29-cu sessiyasında müzakirə edildi. Qəbul edilmiş qətnamədə problemin həllinin əsas prinsipləri öz əksini tapdı; Kıbnsın ərazi bütöv- lüyünə, müstəqilliyinə və bloklara qoşulmamaq siyasətinə hörmət, bütün xarici qoşunların çıxarılması və bülün mübahisəli məsələlərinin yunan və türk icmaları arasında danışıqlar yolu ilə həll edilməsi və s. 1975-ci ilin yanvarında BMT baş katibinin vasitəçiliyi ilə icmalararası danışıqlar başlandı. 1975-ci ilin levralmda türk icmasının rəhbərləri Kıbnsın türk qoşunları tərəfindən tutulmuş hissəsində «KıbnsTürk Federativ dövləti»nin yaradıldığını bəyan etdilər. 1976- cı il iyunun 20-də R.Denktaş dövlətin prezidenti seçildi. 1983- cü il noyabrın 14-dən həmin dövlət Quzey Kıbrıs Türk Cümhuriyyəti adlandırıldı. Təhlükəsizlik Şurası türk icmasının qərarını hüquqi qüvvəsi olmayan qərar adlandırdı. 1985-ci ilin yanvarında icmalararası danışıqlar bərpa olundu.

### *Əfqanıstana Sovet müdaxiləsi*

Əfqanıstan bloklara qoşulmayan ölkə idi. SSRİ bu ölkəni öz təsir dairəsində saxlamaq üçün ona iqtisadi və hərbi yardım göstərirdi. 1973-cü ilin iyulunda ölkədə xalqın mənafeyinə cavab verməyən monarxiya rejimi devrildi və Əfqanıstan respublika elan olundu. Flökumət əsas müxalifət olan ƏXDP-nin rəhbərlərini həbs etdi. Bu partiya gizli şəraitə geçməli oldu. 1978-ci il aprelin 27-də ƏXDP-ni müdafiə edən ordu hissələri çevriliş etdi. Aprelin 28-də N.M. Təraki başda olmaqla

İnqilab Şurası yaradıldı. Əfqanıstan Demokratik Respublikası yaradıldı. Sələmçilik qanunla ləğv edildi və aqrar islahat nəticəsində 300 min kəndliyə torpaq verildi. 1978-ci il dekabrın 5- də ƏDR SSRİ ilə dostluq və əməkdaşlıq haqqında müqavilə imzaladı. Müqavilənin 4-cü maddəsi təhlükə zamanı hərbi yardımı nəzərdə tuturdu. Ölkədə hökumətə qarşı onun siyasətindən narazı olan və bir sıra xarici dövlətlər, o cümlədən Pakistan və İran tərəfindən müdafiə olunan qüvvələr mübarizə aparırdı. Hökumət daxilindəki ziddiyyətlərdən istifadə edən H.Əmin 1979-cu ilin sentyabrında hakimiyyəti ələ geçirdi. Lakin o, hakimiyyətdə çox qala bilmədi. 1979-cü il dekabrın 27-də xüsusi sovet hərbi dəstəsi Kabulda prezident sarayını tutaraq H.Əmini vəzifədən kənarlaşdırdı. ƏXDP-nin lideri B.Karməl dövlətin yeni başçısı oldu. Onun xahişi ilə dekabrın 27-də sovet qoşunları Əfqanıstana daxil oldu. Bundan sonra Əfqanıstan xalqı xarici hərbi müdaxilə və vətəndaş müharibəsi dövrünə qədəm qoydu. Sovet müdaxiləsi nəticəsində 5 milyona qədər əfqan ölkəni tərk edib İrana və Pakistana qaçdı. Pakistanda əfqan mühacirlərinin lOO-dək düşərgəsi yaradıldı.

SSRİ Əfqanıstana qoşun göndərilməsini ilk növbədə cənub sərhədləri üçün təhlükə yaranması ilə əlaqələndirdi. SSRİ bu hərəkəti ilə ABŞ-m Əfqanıstana qoşun göndərməsinin qarşısını aldığını iddia edirdi. Bu hadisə ilə əlaqədar ABŞ-da SSRİ əleyhinə geniş təbliğat kampaniyası başlandı. SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsi beynəlxalq gərginliyin artmasına səbəb oldu. SSRİ veto qoyduğuna görə BMT Təhlükəsizlik Şurası qətnamə qəbul edə bilmədi. BMT Baş Məclisinin sessiyası 1980-cı ildə xarici qoşunların Əfqanıstandan çıxarılması haqqında qərar qəbul etdi. ABŞ, İngiltərə, AFR, Yaponiya hər il əfqan mücahidlərinə 100 milyon dollarlıq yardım göstərirdi. Pakistandakı əfqan mücahidləri "7-lər alyansf'nda birləşdi. 1982-ci ildə Əfqanıstanla Pakistan arasında Cenevrədə danışıqlar başlandı. 1987- ci ilin yanvarında vəzifədən çıxan B.Karməlin yerinə digər sovet meylli şəxs olan Nəcibulla hakimiyyətə gətirildi. Onun

təşəbbüsü ilə ölkənin yeni konstitusiyası qəbul edildi və ƏXDP milli barışıq haqqında təklif irəli sürdü. Nəcibulla 1987-ci il yanvarın 15-dən hərbi əməliyyatları dayandırmağa və koalisyon hökumət yaratmağa razı olduğunu bildirdi. 1988-ci il aprelin 14-də Əfqanıstana dair Cenevrə sazişləri imzalandı. Bu sazişlərə görə, qaçqınlar könüllü geri qayıtmalı, Əfqanıstana xarici müdaxiləyə son qoyulmalı və Pakistan onun daxili işlərinə qarışmamalı idi. SSRİ və ABŞ bu sazişlərin təminatçısı idilər. SSRİ 1988-ci il mayın 15-də Əfqanıstandan öz qoşunlarını çıxarmağa başladı. 1989-cu il fevralın 15-də bu proses başa çatdı. Müdaxilə nəticəsində 15 min sovet əsgəri öldü, 35 min yaralandı, 300 nəfərdən çox itkin və əsir düşdü. Bu hadisə SSRİ-nin beynəlxalq mövqelərini xeyli zəillətdi. Sovet qoşunları çıxandan sonra müxalifətin silahlı qüvvələri Kabulu ələ geçirdilər. Nəcibulla BMT-nin Əfqanıstandakı nümayəndəliyində gizləndi. Əfqanıstan İslam cəmiyyətinin sədri B.Rəbbani prezident, Əfqanıstan İslam partiyasının sədri G. Hikmətyar isə baş nazir oldu. Müxalifətçilərin milli tərkibi müxtəlif idi. Özbəklərə general Ə.Dustum, taciklərə Ə.Məsud başçılıq edirdi. Dünənki müttəfiqlər öz aralarında hakimiyyət uğrunda mübarizəyə başladığından ölkədə sabitlik yaranmadı. Əfqanıstanda siyasi mübarizənin kəskinləşməsində həm qonşu, həm də böyük dövlətlərin əli var idi. 1991-ci ildə SSRİ ilə ABŞ arasında Əfqanıstanda vuruşan tərəflərə silah verməmək haqqında saziş bağlandı. 1989-cü ilin dekabrında SSRİ Xalq deputatlarının II qurultayı Sovet qoşunlarının 1979-cu ildə Əfqanıstana göndərilməsini böyük siyasi səhv kimi qiymətləndirdi.

Ölkədəki siyasi sabitsizlik şəraitində Əfqanıstanda yaranan "taliban" (tələbə sözünün cəmini bildirir) hərəkatı hakimiyyəti ələ geçirərək bütün qüvvələri özünə tabe etməyə çalışırdı. 1996-cı ildə taliblər Kabulu tutdular, əfqan hökuməti ölkənin şimalına göçməli oldu. Taliblər Ə.Dustumun və Ə.Məsudun dəstələrini məğlub edərək ölkə ərazisini mütləq əksəriyyətinə nəzarət etməyə başladılar. Rusiya Federasiyası oradakı birləşmiş müxalifət qüvvələrinə gömək göstərirdi.

Pakistan talibbri müdafiə etdi. Rusiya Mərkəzi Asiyanı öz təsirində saxlamaq üçün də əfqan hadisələrindən istifadə etdi. Bütün bunların nəticəsində Əfqanıstandakı hadisələr yenə də beynəlxalq münasibətlərə böyük təsir göstərməkdə davam etdi.

***İran-İraq müharibəsi*** İki ölkə arasında müharibə 1980-1988-ci illərdə oldu. Müharibənin başlıca səbəbi ilk növbədə iki ölkədə uzunmüddətli sərhəd mübahisəsi idi. Həmin dövlətlərin Yaxın Şərqdə nüfuz dairəsi uğrunda mübarizəsi və böyük dövlətlərin Yaxın və Orta Şərqdə möhkəmlənmək üçün onların münaqişəsindən istifadə etmələri də müharibənin səbəblərindən biri idi. 1937-ci il iyunun 4-də bağlanmış müqaviləyə görə İranla İraq arasında sərhəd Şətt-əl Ərəb çayının sol (İran) sahili boyu müəyyən edildi. Bütün ölkələrin ticarət gəmiləri, İranın və İraqın hərbi gəmiləri çayda sərbəst hərəkət edə bilərdi. İran həmin müqaviləyə yenidən baxılmasına tələb edirdi. Hesab edirdi ki, 1937-ci il müqaviləsi İngiltərənin təzyiqi ilə imzalanmışdır. İranın əsas tələbi sərhəddin çayın orta axırı boyunca müəyyən edilməsi idi. Bu məsələ ilə bağlı iki dövlət arasında vaxtaşırı aparılan danışıqlar nəticə vermirdi. Sərhəddəki neftlə zəngin rayonlar da münaqişə obyekti idi. 1969-cu ildə İran 1937-ci il müqaviləsini birtərəfii qaydada ləğv etdikdən sonra İraqla münasibətləri daha da kəskinləşdi. İran yeni müqavilə bağlanmasına nail olmaq istəyirdi. İraq hökuməti Kərbəlaya və Nəcəfə ziyarətə gəlmək istəyən şiə İran vətəndaşlarını ölkəyə buraxmırdı. 1970-ci ilin yanvarında İraq hökuməti İranı İraqa qarşı qəsddə ittiham edərək İran səfirindən ölkəni tərk etməyi tələb etdi. İran da İraq səfirini ölkədən çıxartdı. Lakin bu hələ diplomatik münasibətlərin kəsilməsi demək deyildi. İraq İranı İraq hökumətinə qarşı müxalifətdə olan kürdlərə kömək göstərməkdə də günahlandırırdı. 1971-ci ildə İran qoşunları tərəfindən Fars körfəzində Birləşmiş Ərəb Əmirliklərinə məxsus 3 adanın tutulması ilə əlaqədar İraq İranla diplomatik münasibətlərini kəsdi. Hər iki

dövlət sərhədə qoşun yığmağa başladı. 1973-cü ildə onların arasında diplomatik münasibətlər bərpa olundu və mübahisəli məsələlərə dair danışıqlar başlandı. 1975-ci ilin martında İslam dövlətləri başçılarının Əlcəzairdə keçirilən görüşü zamanı Əlcəzair prezidenti H.Bumədyənin vasitəçiliyi ilə İran şahı Məhəmməd Rza Pəhləvi ilə İrağın vitse - prezidenti S. Idüseyn arasında mübahisəli məsələlərə dair razılıq əldə edildi. 1975-ci ilin iyununda Bağdadda İranla İraq arasında dostluq və mehriban qonşuluq haqqında müqavilə imzalandı. Müqavilədə sərhədlər qəti müəyyənləşdirildi. Tərəflər bir-birinin da.xili işlərinə qarışmamalı idi. İranla İraq arasında sərhəd Şəttə-əl-Ərəb çayının orta axarı boyu müəyyən edildi. Lakin 1979-cu ilin fevralında İranda şah rejimi devrildikdən sonra bu ölkələr arasında münasibətlər pisləşdi və sərhəd münaqişələri artdı. Tərəflər bir-birini təcavüzkarlıqda və 1975-ci il müqaviləsini pozmaqda ittiham edirdilər. İraq İrandan Xuzistan əyalətini tələb etdi. Burada həm çoxlu neft var idi, həm də əhalinin əksəriyyəti ərəb idi. İran isə islam inqilabı ideyalarının İraqda yayılmasına, İraq hökumətinin devrilməsinə və İraqdakı şiələrin imam Xomeyninin mənəvi hakimiyyətinə tabe edilməsinə çalışırdı. 1980-cı ilin sentyabrında İraq Bağdad müqaviləsini ləğv etdi. İraq ordusu sərhəddi geçib Qəsri-Şirin. Meh-ran və Xürrəmşəhri tutub neftlə zəngin Abadana yaxınlaşdı. Lakin Xuzistanda yaşayan ərəblər İraqı müdafiə etmədilər. 1981-ci ilin payızında İran ordusu əks-hücuma geçərək l982-ci ilin yayma qədər İraq ordusunu ölkədən qovdu. İraq sülh danışıqlarına hazır olduğunu bildirdi. İran İraqdan təzminat tələb etdi. İslam Konfransı Təşkilatının və BMT-nin vasitəçilik təşəbbüsləri baş tutmadı. Hərbi əməliyyatlar nəticəsində şəhərlər və təsərrüfat obyektləri dağıdıldı. İraq İranın Xərk adasındakı əsas neft terminalını mühasirəyə aldı, onun təyyarələri başqa ölkələrin çaydan geçən gəmilərini bombaladı. İran Hörmüz boğazını mühasirəyə ala bilmədi və İraqda çox az ərazi tuta bildi. Bütün İran körfəzi hərbi gərginlik zonasına çevrildi. Yaranmış şəraitdən istifadə edən ABŞ gəmiçiliyin təh

lükəsizliyini təmin etmək adı ilə Hörmüz boğazına donanma göndərdi. 1983-cü ilin oktyabrında BMT Təhlükəsizlik Şurası bütün ölkələrin İran körfəzində sərbəst gəmiçilik və ticarət hüququnu təsbit etdi. BMT baş katibi X.P. de Kuelyarın da vasitəlik cəhdləri nəticə vermədi. Müharibə döyüşən ölkələrin iqtisadiyyatına böyük zərbə vurdu. Yaxın və Orta Şərqdə beynəlxalq gərginlik- artdı. 1987-ci il iyulun 20-də BMT Təhlükəsizlik Şurası 598 №li qətnamə qəbul etdi. Qətnamədə hərbi əməliyyatlarının dayandırılması, qoşunların öz sərhədləri daxilinə çəkilməsi və BMT baş katibinin vasitəçilik səylərini davam etdirməsi nəzərdə tutulurdu. İraq bu qətnaməyə əməl etməyə hazır olduğunu bildirdi. Lakin İran öz qoşunlarını İraq ərazisindən çıxartmaq istəmədi. 1988-cı ilin aprel-iyul aylarında İraq qoşunu əks-hucuma geçərək ölkə ərazisindən İran qoşunlarını qovdu. İranın həm ABŞ-la, həm də körfəz dövlətləri ilə münasibətləri pisləşdi. 1988-ci ilin iyulunda İran BMT-nin 598 №-li qətnaməsini qəbul etdi. 1988-cı ilin avqustunda Təhlükəsizlik Şurası İranla İraq arasında atəşkəsə nəzarətə dair 619 №li qətnamə qəbul etdi. 1988-cı il avqustun 20-dən hərbi əməliyyatların dayandırılması haqqında saziş qüvvəyə mindi. Müharibənin qurtarması regionda beynəlxalq vəziyyətin sabitləşməsinə gömək etdi. İndiyə qədər İranla İraq arasında sülh müqaviləsi imzalanmamışdır və onların qarşılıqlı münasibətlərində gərginlik qalmaqdadır.

***SSRİ-uiıt Yaxın və Orla Şərq ölkələri ilə münasibətləri***

Ərəb ölkələrinin çoxu Yaxın Şəı-q münaqişəsi zamanı SSRİ-dən geniş yardım aldığına görə onun mövqeyini müdafiə edirdilər. 1979- cu ilin oktyabrında SSRİ ilə YXDR-sı arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. Yaxın Şərqdə SSRİ-nin tərəfdarlarından biri Suriya idi. SSRİ ona gömək edirdi. 1980-cı ilin oktyabrında iki ölkə Moskvada dostluq və əməkdaşlıq haqqında müqavilə bağladılar. Suriyada SSRİ-nin

köməyi ilə xeyli təsərrüfat obyekti tikildi. 1972-ci ilin aprelində SSRİ İraqla dostluq və əməkdaşlıq müqaviləsi imzaladı. 1984- cü ildə SSRİ ilə YƏR arasında əməkdaşlıq müqaviləsi bağlandı. Səudiyyə-Ərəbistanı isə SSRİ ilə əlaqələri inkişaf etdirmək istəmirdi.

70-ci illərin əvvəlindən Misirlə SSRİ arasında münasibətlər pisləşməyə başladı. 1981-ci ilin oktyabrında Misirdə hakimiyyətə gələn H.Mübarək SSRİ ilə münasibətləri yaxşılaşdırmağa hazır olduğunu bildirdi. 1984-cü ilə qədər iki ölkə arasında münasibətlər tamamilə yaxşılaşdı.

Türkiyə SSRİ ilə iqtisadi və elmi-texniki əməkdaşlığın inkişafında maraqlı idi. 1972-ci ilin aprelində SSRİ ilə Türkiyə arasında münasibətlərin prinsipləri haqqında bəyannamə imzalandı. 1978-ci ilin yayında Türkiyənin baş naziri B.Ecevit SSRİ-yə rəsmi səfərə gəldi. SSRİ-nin köməyi ilə Türkiyədə tikilən müəssisələr içərisində 1977-ci ildə istifadəyə verilən İsgəndərim metallurgiya kombinatı böyük əhəmiyyətə malik idi. 1984-cü ilin sonunda SSRİ hökumətinin sədri N.Tixono- vun Türkiyəyə səfəri zamanı 1986-1989-cu illərdə iqtisadi və elmi-texniki əməkdaşlıq proqramı imzalandı. Bir sıra beynəlxalq hadisələrə münasibətdə SSRİ ilə Türkiyənin mövqelərində ümumi cəhətlər var idi. Türkiyə Yaxın Şərq münaqişəsinə dair BMT qətnamələrinə əməl edilməsinə tərəfdar idi.

SSRİ-nin İranla da əməkdaşlığı genişləndi. 1972-ci ilin oktyabrında imzalanmış sazişə əsasən SSRİ İranda sənayə müəssisələrinin tikilməsinə və İran üçün mütəxəssis hazırlığına gömək etməli idi.

İran ABŞ-la daha sıx əməkdaşlıq edirdi. Eyni zamanda o, Yaxın Şərqdə beynəlxalq mövqelərini möhkəmləndirməyə çalışırdı. İran qoşunları 1971-ci ildə İran körfəzində Birləşmiş Ərəb Əmirliyinə məxsus üç adanı tutdu. 1973-cü ildə İran milli-azadlıq hərəkatına qarşı mübarizə məqsədilə Omana qoşun göndərdi. 1977-ci ildə İran hökuməti Eləbəşistana qarşı müharibədə Somalini müdafiə etdi. Bu illərdə İsraillə həm

iqtisadi, həm də siyasi əlaqə saxlayan İran hökuməti eyni vaxtda İsrailə qarşı mübarizədə ərəb ölkələrini müdafiə edirdi.

İranda şah rejiminin daxili və xarici siyasətinə qarşı əhalinin narazılığı artırdı. Bu narazılıq 70-ci illərin ortalarında güclü xalq hərəkatına çevrildi. 1978-ci ilin sonunda bütün ölkəni tətil və nümayişlər bürüdü. Şah hökuməti sosial dayağını tamamilə itirdi. 1979-cu ilin yanvarında İran şahı ölkəni tərk etdi. 12 fevralda isə İran hökuməti istefa verdi.

1979- cu il fevralın 13-də SSRİ müvəqqəti İran hökumətini tanıdığını və onunla beynəlxalq hüquq prinsipləri əsasında əməkdaşlığa hazır olduğunu bildirdi. 1979-cu ilin aprelində İran İslam Respublikası yaradıldı. İran SENTO-dan çıxdı, qoşunlarını Omandan çıxartdı, ABŞ-la hərbi müqavilələrini ləğv etdi, ABŞ-m hərbi müşavirlərini ölkədən çıxartdı, İsraillə diplomatik münasibətləri kəsdi və Fələstin Azadlıq Təşkilatını tanıdığım bildirdi.

ABŞ İran şahını yeni hökumətə verməkdən imtina etdi. Tehranda tələbələr ABŞ səfirliyinin binasını tutub səfirliyin işçilərini girov götürdülər.' Bundan istifadə edən ABŞ İrana qarşı geniş fəaliyyətə başladı. İranla iqtisadi əlaqələr kəsildi. ABŞ banklarındakı İran pulları üzərinə qadağan qoyuldu. İran sahillərinə ABŞ donanması göndərildi. ABŞ-ın tələbi ilə BMT Təhlükəsizlik Şurasının iclası çağırıldı. Burada ABŞ İrana qarşı sanksiyalar tətbiq olunmasını tələb etdi. Lakin SSRİ buna imkan vermədi. Ona görə də ABŞ birtərəfli qaydada İrana qarşı sanksiyalar tətbiq etdi. ABŞ-ın Avropadakı müttəfiqləri və Yaponiya da İrana qarşı sanksiyalara qoşuldu. SSRİ ABŞ-m hərəkətini tənqid edərək İran yüklərinin öz ərazisindən daşınmasına icazə verdi.

1980- cı il aprelin 7-də ABŞ İranla diplomatik münasibətləri kəsdi. Aprelin 24-25-də isə girovları azad etmək üçün xüsusi əməliyyat keçirməyə cəhd göstərdi. 1981-ci ilin yanvarında Əlcəzairin vasitəliyi ilə ABŞ-la İran arasında girovların azad edilməsi haqqında saziş imzalandı. Sazişə görə ABŞ İranın daxili işlərinə qarışmamalı və onun pullarını

qaytarmalı idi. 1980-ci ildə İranın SSRİ ilə də əlaqələri zəifləməyə başladı. Sovet mütəxəssisləri ölkədən çıxarıldı. İran
1980- ci ildə SSRİ-yə qaz verilməsini dayandırdı.

***Hindistan-Pakistan münaqişəsi və onun beynəlxalq yekunları***

60-cı illərin sonunda əhalinin hökumətin daxili və xarici siyasətində narazılığı nəticəsində Pakistanda siyasi böhran yarandı.
1969- cu ilin martında hakimiyyətin general Yəhya Xan başda olmaqla hərbçilərin əlinə keçməsi böhranı aradan qaldırmadı. Ölkənin şərqində vəziyyət daha gərgin idi. Burada yaşayan 75 milyonluq benqal əhalisi sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasını, siyasi hüquqların artırılmasını tələb edirdi. Şərqi Pakistanda əsas siyasi partiya olan Xalq Liqası ölkənin siyasi sisteminin yenidən qurulması proqramını irəli sürdü. Həmin partiyaya M.Rəhman rəhbərlik edirdi. 1970-ci ilin dekabrında Pakistanda geçirilmiş parlament seçkilərində Xalq Liqası 313 yerdən 167-ni əldə edərək hökumət qurmaq hüququ qazandı. Lakin bu ölkə rəhbərliyinə sərf etmirdi. Ona görə də M.Rəhmanla danışıqlar aparan Yəhya Xan həm də Şərqi Pakistana çoxlu ordu hissələri göndərdi. 1971-ci il martın 25-də Xalq Liqasının rəhbərləri həbs olundu. Bu hadisə Pakistanın parçalanmasına səbəb oldu. Xalq Liqasının rəhbərləri 1971-ci il aprelin 12-də Banqladeş Respublikası adlı yeni dövlətin yaradılmasını elan etdilər. Tədricən Hindistan, SSRİ, ABŞ, ÇXR kimi böyük dövlətlər və BMT Şərqi Pakistandakı hadisələrə öz münasibətlərini bildirdilər. Başqa sözlə, Şərqi Pakistan hadisələri beynəlxalq xarakter aldı. Pakistan ABŞ-m və Çinin köməyinə arxalanaraq Llindistanla sərhəddə vəziyyəti gərginləşdirməyə başladı.

Hindistan qonşu ölkədəki hadisələrə əvvəlcə münasibət bildirmədi. Çünki onun özündə də mərkəzdənqaçma meylləri olduğundan Pakistanın daxili işlərinə qarışmaqda ittiham olunmasını istəmirdi. Eyni zamanda Hindistan Banqladeşin yaranmasının Pakistanın zəifləməsinə səbəb olacağını nəzərə

alırdı. Benqalların bir hissəsi Hindistanın Qərbi Benqaliya ştatınaa yaşayırdı. Şərqi Pakistandan çoxlu qaçqın gəlməsi Hindistanın sərhəd rayonlarında vəziyyəti ağırlaşdırdı. Ona görə də Hindistan şərqi benqal probleminin qısa müddətdə həllində və qaçqınların öz yerlərinə qayıtmasında maraqlı idi. 1971-ci ilin martında Hindistan parlamentinin qəbul etdiyi qətnamədə Pakistan hökumətinin Şərqi Benqaliyadakı siyasəti kəskin tənqid olundu. Pakistan buna cavab olaraq Hindistanla sərhədə qoşun yığmağa başladı. 1971-ci ilin iyununda Hindistanın baş naziri İ.Qandi bildirdi ki, problemin həllinin ən yaxşı yolu Banqladeşin müstəqilliyinin tanınmasıdır. Bundan sonra Hindistan Şərqi Pakistanda mübarizə aparan benqal silahlı dəstələrinə kömək göstərməyə başladı. Hindistan eyni zamanda Banqladeşin müstəqilliyinin beynəlxalq aləm tərəfindən müdafiə olunması üçün geniş diplomatik fəaliyyətə başladı. 1971-ci ilin yayında Hindistanın xarici işlər nazirinin SSRİ, ABŞ Fransa və AFR-ə səfərlərinin əsas məqsədlərindən biri benqalların beynəlxalq müdafiəsini təmin etmək idi.

Pakistanla münaqişə şəraitində Hindistan üçün ABŞ, ÇXR və SSRİ-nin mövqeyinin böyük əhəmiyyəti var idi. ABŞ
1970- ci ildən Pakistana hərbi yardım göstərsə də Hindistanla münasibətləri normal deyildi. Çin də Pakistanı müdafiə edirdi. Çin Pakistanın öz ərazi bütövlüyünü qorumaq üçün ədalətli mübarizə apardığını, Hindistanın isə Pakistanın daxili işlərinə qarışdığını bildirirdi. ÇXR-in belə mövqeyi təsadüfi deyildi. Çin hələ 60-cı illərin əvvəlindən ABŞ, Hindistan və SSRİ-ni özünün üç əsas düşməni adlandırırdı.

60-cı illərin sonundan Pakistanla geniş əməkdaşlıq edən Çin 1970-ci ildə ona 20 milyon dollar kredit verdi. Çin Pakistana silah və təlimatçılarla da kömək edirdi. Pakistanın hesabına Çin həm də ABŞ-la yaxşılaşmağa başladı.

SSRİ isə Hindistanın mövqeyini müdafiə edirdi. 1971-ci il avqustun 9-da Dehlidə SSRİ ilə Hindistan arasında sülh, dostluq və əməkdaşlıq haqqında müqavilə izalandı. SSRİ

Hindi^tana hvirbi yardım da daxil olmaqla hərtərəfli kömək edirdi. SSRİ Banqladeşin müstəqilliyinin tərəfdarı idi.

Pakistan ölkənin şərqindəki hadisələri öz daxili işi sayırdı. Pakistan hökuməti üsyançılara amnistiya verərək qaçqınları geri çağırdı. Pakistan eyni zamanda Hindistanla müharibəyə hazırlaşaraq sərhədə xeyli əsgər gətirdi. 1971-ci il noyabrın 23-də Pakistanda fövqəladə vəziyyət elan olundu. 1971- cı il dekabrın 3-də Pakistanın hərbi təyyarələri Hindistanın 12 şəhərini bombardman etdi. Şərqdə və Qərbdə Hindistan ordusunun mövqeləri artileriya atəşinə tutuldu. Dekabrın 4-də Yəhya Xan Hindistana müharibə elan etdi. 1971-ci ilin dekabrında Hindistan Banqladeşin müstəqilliyini tanıdı. Şərq cəbhəsində hərbi əməliyyatlar Pakistan üçün uğursuz oldu. 1971- ci il dekabrın 11-də Hindistan və Banqladeşin birləşmiş qüvvələri Dəkkəyə yaxınlaşdı. Qərb cəbhəsində Pakistan ordusunun Kəşmiri tutmaq cəhdi boşa çıxdı. Hind ordusu əks-hu- cuma geçərək Pakistan ərazisinin bir hissəsini tutdu. Şərqi Pakistandakı Pakistan qoşunlarının komandanı general Niyazi

1971- ci il dekabrın 16-da barışıq haqqında akt imzaladı. Dekabrın 17-də İ.Qandi bildirdi ki, Hindistanın Pakistana qarşı heç bir ərazi iddiası yoxdur. Bu münaqişə bir neçə dəfə BMT Təhlükəsizlik Şurasında müzakirə olundu. Hər dəfə SSRİ Hindistana qarşı yönəlmiş qətnamənin qəbuluna veto qoymaqla mane olurdu. Pakistanın qələbəsinə çalışan ABŞ 1971-ci il dekabrın 9-da Benqal görfəzinə bir neçə hərbi gəmi göndərdi. Dərhal oraya sovet hərbi gəmiləri də gəldi. Pakistanın 1 milyon əsgəri əsir düşdü. Pakistanın prezidenti Yəhya Xan istefa verdi. Yeni prezident Z.Bhutto Hindistanla danışıqlara bağlamağı qərar aldı. 1972-ci il iyunun 2-də Pakistanın Simi şəhərində münasibətlərin tənzimlənməsi haqqında saziş imzalandı. Tərətlər mübahisəli məsələləri dinc yolla həll etməli, beynəlxalq hüquq prinsiplərinə əməl və əməkdaşlıq etməli idilər. Kəşmirdə sərhəd 1971-ci il dekabrın 17-də qoşunların təmas xətti boyunca müəyyən edildi. 1974-cü ildə imzalanmış protokola əsasən iki ölkə arasında poçt, teleqraf, telefon rabi

təsi, gəmiçilik, hava və dəmiryol rabitəsi, elmi-texniki və mədəni əməkdaşlıq bərpa olundu. 1976-cı il iyulun 24-də isə Hindistanla Pakistan arasında diplomatik münasibətlər bərpa edildi.

Münaqişənin əsas yekunlarından biri Banqladeş dövlətinin yaranması oldu. Banqladeş hökumətinə 1972-ci ilin yanvarından M.Rəhman başçılıq etdi. 1972-ci il yanvarın 24-də Banqladeş SSRİ ilə diplomatik münasibətlər yaratdı. 1972-cı ilin martında Banqladeşlə Hindistan arasında dostluq, əməkdaşlıq və sülh haqqında müqavilə imzalandıqdan sonra hind qoşunları Banqladeşdən çıxarıldı. 1974-cü ildə onların arasında sərhədlər haqqında saziş imzalandı. Həmin ildə Banqladeş BMT-nin üzvü seçildi.

1975- ci ilin avqustunda baş vermiş dövlət çevrilişindən sonra Banqladeş Hindistandan uzaqlaşaraq, ABŞ, ərəb ölkələri, Çin və Pakistanla yaxınlaşdı. 80-cı illərin əvvəllərindən Banqladeş nisbətən müstəqil xarici siyasət yeritməyə başladı.

***Hindistama xarici siyasəti***

Asiyanın böyük dövlətlərindən olan Hindistanın xarici siyasətində qonşu dövlətlərlə münasibətlər mühüm yer tuturdu. Hindistan bloklara qoşulmamaq hərəkatının fəal iştirakçılarından biri kimi Asiya-da.sabitliyə mühüm təsir göstərirdi. Hindistanla Çin arasında 1962-ci ildə kəsilmiş diplomatik münasibətlər 1976-cı ildə bərpa edildi. İki ölkə arasında əsas mübahisə sərhəd üstündə idi. 1981- ci ilin iyununda ÇXR-in xarici işlər nazirinin Hindistana səfəri zamanı qeyd olundu ki, sərhəd məsələsi münasibətlərin normallaşmasma mane olmamalıdır. 1981-ci ilin dekabrında sərhəd məsələsinə dair danışıqlar başlandı. Lakin tərəflər kompromisə gəlmədilər. 1986-1987-ci illərdə Hindistan-Çin sərhədində vəziyyət yenidən mürəkkəbləşdi. 80-cı illərdə keçirilmiş müxtəlif görüşlər zamanı iki ölkə arasında mədəni və elmi-texniki əməkdaşlıq məsələləri də müzakirə edildi.

Hindistan Hind okeanının sülh zonasına çevrilməsi uğrunda mübarizə aparan dövlətlərdən biri idi. Onun əsas

məqsədi ABŞ-ın Hind okeanında öz hərbi . qüvvələrin azaltması idi. ABŞ-m isə siyasi, iqtisadi və hərbi-strateji mənafeləri ilə bağlı Hind okeanında hərbi qüvvələrini daim artırırdı. 1971-ci ildə BMT Baş Məclisinin 26-cı sessiyasında qəbul edilən qətnamədə Hind okeanında xarici hərbi bazaların ləğvi, nüvə silahının yerləşdirilməməsi və Hind okeanından bütün dövlətlərin gəmilərinin beynəlxalq hüquq prinsipləri əsasında istifadəsi və Hind okeanı üzrə xüsusi komitənin yaradılması nəzərdə tutulurdu. 1985-ci ilin dekabrında Dəkkədə Cənubi Asiya Regional Əməkdaşlıq Assosiasiyasının yaradılmasında Hindistan da iştirak etdi.

Hindistan SSRİ ilə əməkdaşlığa xüsusi diqqət yetirdi. SSRİ Hindistana iqtisadi və hərbi yardım göstərərək kredit verirdi. Asiyada Hindistan SSRİ-nin əsas müttəfiqi idi.

### *Çin Xalq Respublikasının xarici siyasəti*

Asiyada beynəlxalq münasibətlərin inkişafı əhəmiyyətli dərəcədə ÇXR-in mövqe və siyasətindən asılı idi. Beynəlxalq gərginliyin zəifləməsi Çinin mövqelərinin möhkəmlənməsinə kömək etdi. BMT Baş Məclisinin 26-cı sessiyasının qərarı ilə ÇXR BMT-yə qəbul edildi. Çin rəhbərliyi münasibətləri yaxşılaşdırmağa dair SSRİ-nin təklifini qəbul etməsə də Qərb dövlətləri ilə əlaqələri yaxşılaşmağa başladı. 1970-ci ilin yanvarında Varşavada ABŞ və Çin səfirlərinin görüşü oldu. ABŞ prezidenti R.Nikson konqresə göndərdiyi məktubda Pekinlə danışığa hazır olduğunu bildirdi. 1971-ci ilin aprelində ÇXR-ə tennis üzrə ABŞ komandası və müxbirlər gəldi. 1972-ci ilin fevralında isə ABŞ prezidenti R.Niksonun Çinə rəsmi səfəri oldu. Buna qədər ABŞ Cənub-Şərqi Asiyada Çinin mənafeyini nəzərə alacağını bildirdi. 1972-ci il fevralın 28-də Şanxayda imzalanmış birgə ABŞ-ÇXR bəyannaməsində deyilirdi ki, tərəflər öz münasibətlərini dinc yanaşı yaşamaq prinsipləri əsasında quracaq və mübahisəli məsələləri siyasi vasitələrlə həll edəcəklər, heç biri Asiyada və Sakit okean

hövzəsində hegemonluğa can atmayacaq və orada üçüncü dövlətin hegemonluğuna imkan verməyəcəklər. 1973-cü ilin fevralında ÇXR-in Vaşinqtonda, ABŞ-m Pekində diplomatik missiyaları fəaliyyətə başladı. Bu ölkələr arasında iqtisadi əlaqələr də inkişaf etdi. 1975-ci ilin dekabrında ABŞ prezidenti C.Ford Çinə səfər etdi. ABŞ-ın Tayvanı müdafiə etməsi Çinlə münasibətlərin daha da yaxşılaşmasına mane olurdu. Çin tələb edirdi ki, ABŞ Tayvanla münasibətləri kəsib qoşunlarını oradan çıxartsın. ABŞ 1979-cu il martın 1-nə qədər qoşunlarını Tayvandan çıxartmağa razılıq verdi. 1979-cu il yanvarın 1-də ÇXR-lə ABŞ arasında diplomatik münasibətlər yaradıldı. Lakin ABŞ Tayvanla əlaqələrini də davam etdirdi. Diplomatik münasibətlərin bərpası ilə əlaqədar birgə ÇXR- ABŞ məlumatında deyilirdi ki, ÇXR hökuməti Çinin yeganə qanuni hökumətidir. Amerika xalqı bunu nəzərə almaqla Tayvan xalqı ilə mədəni, ticarət və digər qeyri-rəsmi əlaqələr saxlayacaqdır. ABŞ Tayvanı Çinin tərkib hissəsi kimi tanıdığını bildirdi. Lakin 1979-cu ilin aprelində ABŞ konqresinin qəbul etdiyi «Tayvan ilə qarşılıqlı münasibətlər haqqında Akt» adlı sənəddə ABŞ-m Tayvana silah satışını davam etdirəcəyi deyilirdi. 1982-ci ilin avqustunda ABŞ ÇXR hökumətinə Tayvana silah verilməsini məhdudlaşdırmağa rəsmi vəd verdi. Lakin ABŞ hökuməti Tayvana 150 ədəd F-16 tipli qırıcı təyyarə satmaq barədə qərar qəbul etdi. ABŞ bəzən ÇXR-ə təzyiq göstərmək üçün Tayvanın dövlət müstəqilliyini tanıyacağını da bildirirdi. .

Asiyadakı beynəlxalq münasibətlər üçün Çin-Yaponiya əlaqələri böyük əhəmiyyətə malik idi. Coğrafi, mədəni, tarixi və etnik yaxınlıqla yanaşı, iqtisadi əməkdaşlığın faydası da bu əlaqələrin normallaşmasını zəruri edirdi. 1972-ci ilin sentyabrında Yaponiyanın baş naziri K.Tanaka Çinə rəsmi səfərə gəldi. 1972-ci il sentyabrın 29-da dərc olunmuş birgə bəyanatda tərəfiərin diplomatik münasibətlərin yaradılması haqqında razılığa gəldikləri göstərildi. ÇXR hökuməti Çinin yeganə qanuni hökumətidir, Tayvan ÇXR ərazisinin ayrılmaz

hissəsidir və Çin daha Yaponiyadan təzminat istəmir. Bəyanatın 7-ci maddəsində deyilirdi ki, tərəflər Asiya-Sakit okean regionunda hegemonluğa çalışmayacaq və başqa dövlətlərin həmin regionda hegemonluğuna razı olmayacaqlar. Çinin xarici ticarətində Yaponiya birinci yeri tuturdu. Çin bəzən Yaponiyaya neft ixracını azaldırdı. Yaponiyadakı müxalifət təşkilatları ilə əlaqələr yaradırdı və Şərqi Çin dənizindəki Senkaku adalarını Yaponiyadan tələb edirdi. 1978-ci ilin avqustunda Yaponiya ilə Çin arasında sülh və dostluq haqqında müqavilə imzalandı. Asiya-Sakit okean regionunda hegemonluğa qarşı mübarizə müddəası həmin müqaviləyə daxil edildi. Müqavilənin 4-cü maddəsində deyilirdi ki, bu müqavilə tərəflərin üçüncü ölkələrlə münasibətlərinə təsir göstərmir. Müqavilə 10 il müddətinə imzalandı.

ÇXR rəhbərliyi Vyetnam hökumətinin ölkənin cənubunda yaşayan etnik çinlilərə təzyiq göstərməsini əsas gətirərək VSR-ə qarşı bir sıra aksiyalar həyata keçirtdi. 1978- ci ilin iyulunda ÇXR Vyetnama iqtisadi yardımı dayandırdı. Çinlə Vyetnam arasında dəmiryol rabitəsi kəsildi. 1979-cu il fevralın 17-də isə ÇXR qoşunları Vyetnam ərazisinə daxil oldu. Lakin beynəlxalq ictimayyətin təzyiqi, SSRİ-nin Vyetnamaköməyi, Vyetnam ordusunun müqaviməti nəticəsində Çin az sonra öz qoşunlarını Vyetnamdan çıxartdı. ABŞ Çinin bu hərəkətini müdafiə etmədi.

80-cı illərdə Çinin Qərbi Avropa ölkələri ilə əlaqələri genişləndi. 1984-cü il dekabrın 19-da Honkonqa dair birgə ÇXR-İngiltərə bəyannaməsi imzalandı. Bəyannaməyə görə Honkonq 1997-cı ildə Çinə qaytarılmalı, Çin hökuməti isə Honkonqa yüksək özününidarə statusu verməli və orada şəxsi mülkiyyətə əsaslanan iqtisadi münasibətləri dəyişməməli idi. '1997-ci ilin iyulunda Honkonq ÇXR-ə verildi.

Çin hökuməti 1987-cı ildə Portuqaliya ilə Makao (Aomin) adasma'dair saziş bağladı. Sazişin şərtinə əməl edən Portuqaliya 1999-cu ilin dekabrında Makaonu (Aomm) ÇXR qaytardı. 1988-ci ildə ÇXR-in dünyanın 134 ölkəsi ilə

diplomatik münasibəti var idi. 80-cı illərdə Çində həyata keçirilən iqtisadi islahatlar nəticəsində ölkənin sosial-iqtisadi inkişafı sürətləndi. Bu isə öz növbəsində ÇXR-in xarici siyasət potensialının artmasına gətirdi. Nəticədə dünyanın iqtisadi və siyasi həyatına ÇXR-nin təsiri artdı. Çin sülh, tərkisilah, beynəlxalq gərginliyin zəifləməsi, mübahisəli məsələlərinin dinc yolla həlli ıığrıında mübarizə aparmaqla yanaşı dünya siyasətinin mərkəzlərindən birinə çevrildi.

1978-ci ilin fevralında SSRİ Çinə qarşılıqlı münasibətlərin prinsipləri haqqında birgə bəyanatla çıxış etməyi təklif etdi. Lakin SSRİ-ni hegemonluğa can atmaqda günahlandıran Çin bu təklifi qəbul etmədi. 1979-ci ilin aprelində Pekin SSRİ ilə 1950-ci ildə bağlanmış müqaviləni birtərəfli qaydada qüvvədən saldı. 1983-cü ildən SSRİ ilə ÇXR arasında sərhəd ticarəti bərpa olundu. Tədricən iki ölkə arasında iqtisadi və mədəni əməkdaşlıq genişləndi. 1982-ci ilin oktyabrında Pekində və Moskvada siyasi məsləhətləşmələr başlandı. 1985-ci ilin yayında Moskvada SSRİ ilə ÇXR arasında iqtisadi əməkdaşlıq sazişləri imzalandı. 1987-ci ilin fevralında sərhəd məsələlərinə dair danışıqlar bərpa olundu.

Çin 1987-ci ildə SSRİ ilə ABŞ arasında yaxın və orta mənzilli raketlərin ləğvinə dair müqaviləni alqışladı. Həmin ildə Çin Sakit okeanın cənubunu nüvəsiz zona elan edən Rarotonqa müqaviləsinə qoşuldu. SSRİ ilə müxtəlif sahələrdə əlaqələr intensivləşməyə başladı. 1987-ci ilin aprelində Moskvada, oktyabrında Pekində xarici işlər nazirlərinin müavinləri səviyyəsində siyasi məsləhətləşmələr davam etdirildi. 1987-ci ilin fevralında Moskvada, avqustda Pekində sərhəd məsələlərinə dair danışıqlar aparıldı, sərhəd rayonlarına birbaşa əlaqələr yaratmağa icazə verildi. Lakin bir sıra beynəlxalq (məsələn, Əfqanıstanda vəziyyət. Kamboca problemi, Monqolustanda sovet qoşunlarının qalması) məsələlərə münasibətdə SSRİ ilə ÇXR arasında fikir ayrılıqları hələ də qalırdı.

1988-ci ilin dekabrında ÇXR xarici işlər naziri SSRİ-yə rəsmi səfər etdi. Danışıqlar zamanı hər iki tərəf əlaqələrin yüksələn xəttlə inkişafından razılığını bildirdilər. İki ölkə arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlığın inkişafı qeyd olundu. Qeyd edildi ki, böyük dövlətlər kimi SSRİ və ÇXR bir çox beynəlxalq problemlərin həlli üçün məsuliyyət daşıyırlar. 1989-cu ilin fevralında SSRİ xarici işlər naziri E.Şevardnadzenin, 1989-cu ilin mayında isə Sov.MK-nm baş katibi M.S.Qorbaçovun Çinə rəsmi səfərləri oldu. Aparılan danışıqlar iki ölkə arasında münasibətlərin tamamilə normallaşdığmı göstərdi. İmzalanmış birgə bəyanatda deyilirdi ki, Sovet-Çin münasibətlərinin yaxşılaşması həm Asiya-Sakit okean rayonunda, həm də bütün dünyada sülhün və sabitliyin saxlanmasına kömək edir. SSRİ Çində keçirilən iqtisadi islahatlara tərəfdar çıxdı. Qeyd olundu ki, Sovet-ÇXR münasibətləri onların digər ölkələrlə əlaqələrinə mane olmamalıdır. Çində 1989-cu ilin yaymdakı hadisələr zamanı SSRİ Çinin daxili işlərinə qarışmamaq prinsipinə əməl edərək ÇXR rəhbərliyini xalqla siyasi dialoqa çağırdı.

Çin bütün sosialist ölkələri və azad olmuş ölkələr ilə əməkdaşlığa böyük diqqət yetirərək Hindistanla sərhədlərə dair danışıq aparır və Əfqanıstana münasibətdə Pakistanın mövqeyini müdafiə edirdi. Çin ərəb ölkələrini və FAT-nm İsrailə qarşı mübarizəsini müdafiə edirdi.

İnkişaf etmiş ölkələrlə əlaqələr ÇXR-in xarici siyasət fəaliyyətinin əsas istiqamətlərindən biri idi. Çin ABŞ-la əlaqələrə böyük əhəmiyyət verirdi. 1987-ci ilin martında ABŞ dövlət katibi C.Şultsun Çinə səfəri zamanı aparılan danışıqlarda həm münasibətlərin inkişafı, həm də əlaqələrə mane olan amillər qeyd olundu. Çin ABŞ-m Tayvana silah verməsindən narazılığını gizlətmirdi. 1987-ci ildə Çin iqtisadiyyatına qoyulmuş xarici kapitalın 13,5%- i ABŞ-ın payına düşürdü. 1989-cu ilin əvvəlində C.Buşun Çinə səfəri zamanı son on ildə iki ölkə arasında ticarətin həcminin on dəfə artması qeyd olundu. Çin rəhbərliyi ümid etdiyini bildirdi ki, ABŞ Çinə müasir

texnologiya verilməsi və Çin mallarının idxalı məsələlərində daha fəal mövqe tııtac.aqdır. 1989-cu ilin dekabrında ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisinin Pekinə gəlişi iki ölkə arasında siyasi dialoqun bərpasına kömək etdi. 80-cı illərin ikinci yarısında ÇXR-in Avropa dövlətləri ilə əlaqələri intensivləşdi. 1987-ci ilin iyulunda AFR kansleri H. Kolun Çinə səfəri oldu. Danışıqlar zamanı Çin rəhbərliyi iki ölkə arasında münasibətləri «əks sosial quruluşlu dövlətlər arasında əməkdaşlıq üçün model» kimi qiymətləndirdi. AFR Qərbi Avropada Çinin əsas ticarət partnyoru idi. 1989- cu ilin iyulunda Pekində tələbə nümayişlərinin ordu tərəfindən dağıdılmasından sonra Qərbi Avropa ölkələri Çinə qarşı sanksiyalar tətbiq etdilər. Çin rəhbərliyi buna etirazını və belə tələsik addımların Qərb ölkələri üçün ziyanlı olacağını bildirdi.

Çinin Yaponiya ilə münasibətləri də sabit inkişafı ilə səciyyələnirdi. 1987-ci ilin iyulunda Pekində iki ölkənin xarici işlər nazirlərinin görüşündə qarşılıqlı münasibətlərin həm iqtisadi, həm də siyasi problemləri geniş müzakirə olundu.

1987- ci ilin mayında müharibədən sonra ilk dəfə Yaponiyanın Milli müdafiə idarəsinin rəisi Pekinə gəldi. Danışıqların gedişində Çin tərəfi Yaponiyanın silahlı qüvvələrinin artmasından narahatlığını bildirdi. Çin rəhbərliyi Tayvanla bağlı da Yaponiyanın siyasətindən razı deyildi. 1987-ci ildə Çin- Yaponiya ticarətinin həcmi 16,5 milyard dollar oldu. 1988-ci ilin avqusunda Yaponiyanın baş naziri N.Takesita Çinə səfər etdi. Görüş zamanı son 10 il ərzində ikitərəfli münasibətlərin inkişafı ilə bağlı məsələlər müzakirə edildi və xarici investisiyaların təminatına dair saziş imzalandı. Qeyd olundu ki, yapon tərəfi Çin mallarının idxalı üçün daha əlverişli şərait yaratmalı və Çinə müasir texnologiya verilməsi məsələsində fəallıq göstərməlidir. 1990-cı ilin aprelində ÇXR Dövlət Şurasının sədri Li Penin Yaponiyaya səfəri oldu. 1989-cu ilin yayında Yaponiya da Çinə qarşı iqtisadi sanksiyalar tətbiq etdi. Lakin ilin sonunda yapon tərəfi həmin qadağanların çoxunu ləğv etdi.

***Hind-Çin 70-80-cı illərin beynəlxalq münasibətlərində*** Hind-Çin ölkələrinin xarici siyasətinə təsir göstərən əsas problem ABŞ-VDR müharibəsi idi. 1969-cu ilin yanvarında Parisdə başlanan danışıqların məqsədi həmin müharibəyə son qoyulması idi. Danışıqlar zamanı ABŞ və Sayqon münaqişəyə 1954-cü il Cenevrə sazişləri əsasında son qoyulmasına çalışırdı. ABŞ Cənubi Vyetnamın VDR-lə birləşməsinin əleyhinə idi.

1969-cu ilin iyulunda Cənubi Vyetnam Respublikasının müvəqqəti inqilabi hökuməti yarandı. SSRİ digər sosialist ölkələri və bir çox azad olmuş ölkələr həmin hökuməti tanıdı. MİH -nin nümayəndələri Paris danışıqlarında Milli Azadlıq Cəbhəsinin nümayəndələrini əvəz etdilər. Sayqon hökumətinə hərbi yardımını artıran ABŞ qoşunlarını Vyetnamdan çıxarmaq qərarına gəldi. Bu qərar həm də Plind -Çin xalqlarının ABŞ ordularına göstərdiyi müqavimət ilə əlaqədar idi. 1969- cu ilin avqustunda Parisdə ABŞ-la VDR arasında qeyri-rəsmi ikitərəfəli danışıqlar başlandı. Burada VDN tərəfindən irəli sürülən təkliflər 1971-ci ilin sonuna qədər ABŞ qoşunlarının Cənubi Vyetnamdan çıxarılmasını, xarici qoşunların təhlükəsiz çıxarılmasının təmin olunmasını, ABŞ-m təzminat ödəməsini, Hind-Çinə dair 1954-cü il və Laosa dair 1962-ci il sazişlərinə əməl edilməsini, hərbi əməliyyatların kəsilməsinə beynəlxalq nəzarətin təşkilini. Cənubi Vyetnamın, Laosun və Kambocanm bitərəfliyini və s.nəzərdə tuturdu. ABŞ 7 ay ərzində bu təkliflərə cavab verməyərək, həmin müddətdə VDR ərazisini daha intensiv bombaladı. 1972-ci ilin aprelində ABŞ təyyarələri ilk dəfə VDR-in paytaxtı Hanoy şəhərini də bombaladı. Bundan əlavə, VDR-in bütün mühüm limanlarının girişini minalatdı.

1972- ci ilin mayında Moskvada yüksək səviyyəli Sovet-Amerika görüşü zamanı Hind-Çin yarımadasmdakı vəziyyət də müzakirə edildi. Görüş zamanı SSRİ Vyetnamda hərbi əməliyyatların dayandırılmasını, xarici qoşunların oradan

çıxarılmasını tələb etdi və Hind-Çin xalqlarının ədalətli mübarizəsini müdafiə etdiyini bəyan etdi. ABŞ prezidenti R.Nikson bildirdi ki, Vyetnam problemini həll etməyin ən səmərəli yolu danışıqlardır. ABŞ Cənubi Vyetnamdan öz qoşunlarını çıxartmağa hazır olduğunu bildirdi. Parisdə danışıqları davam etdirməyə 1972-cı ilin prezident seçkiləri də məcbur edirdi. Barışıq sazişinin imzalanması 1972-ci il oktyabrın 31-nə təyin olundu. Lakin ABŞ Sayqon hökumətinin güzəştə getməməsini əsas gətirərək həmin vaxtda sazişi imzalamadı. Prezident seçkilərindən sonra ABŞ artıq razılaşdırılmış saziş layihəsinə 60-dan çox düzəliş təklif etdi. VDR bu düzəlişləri qəbul etmədi. Parisdə danışıqlar davam etdirildi. Nəticədə sazişin bütün maddələri razılaşdırıldı. Vyetnama dair Paris sazişləri 1973-cü il yanvarın 27-də imzalandı. Sazişlərdə əvvəlcə Vyetnamın müstəqiliyinə hörmət edilməsi, 60 gün ərzində bütün xarici qoşunların oradan çıxarılması, ölkənin cənubunda MİH-in və Sayqon hökumətinin öz nəzarətlərində olan zonaları idarə etməsi və hərbi əsirlərin azad edilməsi nəzərdə tutulurdu. ABŞ Cənubi Vyetnamın daxili işlərinə qarışmamalı idi. Cənubi Vyetnamda milli barışıq və razılıq şuraları yaradılmalı, azad və demokratik seçkilər keçirilməli idi. Sərhəd 17-ci paralel boyunca müəyyən olunurdu. Ölkə gələcəkdə kənardan müdaxilə olmadan dinc yolla birləşməli idi. ABŞ müharibənin nəticələrini aradan qaldırılmasına kömək etməli idi. Kambocaya dair 1954-cü il və Laosa dair 1962-ci il sazişləri təsdiq olunurdu və bu ölkələrin daxili problemləri xarici müdaxilə olmadan həll olunmalı idi. Paris sazişlərinin yerinə yetirilməsinə nəzarət etmək üçün dördtərəfii hərbi komissiya və tərkibinə Macarıstan, Polşa, Kanada və İndoneziya nümayəndələrinin daxil olduğu beynəlxalq komissiya yaradılmalı idi. 1973-cü ilin fevralın sonu - martın əvvəlində Parisdə Vyetnama dair beynəlxalq konfrans keçirildi. 'Burada imzalanmış sənədə əsasən Vyetnam xalqının milli hüquqlarına beynəlxalq təminat verildi. Paris sazişləri və Vyetnama dair

beynəlxalq konfransın qərarları Cənub-Şərqi Asiyada beynəlxalq vəziyyətin sabitləşməsinə şərait yaratdı.

Sayqon hökuməti Paris sazişlərinə axıra qədər əməl etmək istəmirdi və ABŞ da ona hərbi potensialını artırmaqda yardım edirdi. Sayqon hökumətinin qoşunları CVR-m nəzarəti altında olan ərazinin çoxunu işğal etdi. Vyetnamın cənubunda iki hərbi qüvvə arasında əməliyyatlar davam etdi.

1975- ci ilin aprelində Sayqon hökuməti məğlub oldu. Cənubi Vyetnamda hakimiyyət MİH-in əlinə keçdi. Bu isə ölkənin birləşməsinə imkan verdi.

1976- cı ilin aprelində ölkənin şimalında və cənubunda Milli Məclisə seçkilər keçirildi. 1976-ci il iyulun 2-də Milli Məclisin ilk sessiyasında Vyetnam Sosialist Respublikası, dekabrında Laos Xalq Demokratik Respublikası yaradıldı.

Hind-Çin yarımadasında cərəyan edən hadisələr artıq SEATO-nun öz funksiyalarını yerinə yetirməkdə çətinlik çəkdiyini göstərdi. 1972-ci lin noyabrında Pakistan bu təşkilatdan çıxdı. Fransa, Filippin, Tailand, Avstraliya da bloku buraxmağa dair təklifləri qəbul etməli oldular. 1975-ci ilin sentyabrında SEATO üzvü olan ölkələrin nazirlər şurasının Nyu-Yorkda keçirilən sessiyasına həmin təşkilalın fəaliyyətinin dayandırılması haqqında qərar qəbul edildi.

1977- ci ildə SEATO-nun bütün orqanları buraxıldısa da Manila müqaviləsi ləğv olunmadı.

***Koreya məsolosi***

Koreya məsələsində başlıca yeri ölkənin birləşdirilməsi tuturdu. Lakin birləşməyə mane olan bir sıra ciddi səbəblər var idi. Bunların içərisində Şimali Koreyaya SSRİ-nin, Cənubi Koreyaya isə ABŞ-m təsirinin güclü olması idi. Cənubi Koreya Asiyada ABŞ-m əsas dayaq məntəqlərindən biri idi. 70-ci illərin əvvəlində beynəlxalq gərginliyin zəilləməsi Koreya yarımadasındakı beynəlxalq vəziyyətə də müsbət təsir göstərdi.

1971-ci ilin yayında KXDR-lə Cənubi Koreya arasında birbaşa dialoq başlandı. Danışıqlar Beynəlxalq Qırmızı Xaç Cəmiyyətini vasitəçiliyi ilə keçirildi. 1972-ci il iyunun 4-də Şimalla Cənubun birgə bəyanatı dərc edildi. Burada deyilirdi ki, ölkə dinc yolla və xaricdən müdaxilə olmadan birləşdirilməlidir. Şimali və Cənubi Koreya qarşıdurmanı zəiflədərək müxtəlif sahələrdə əməkdaşlıq etməli idilər. Birləşmə üzrə əlaqə komitəsi yaradılmalı idi. KXDR-in təklif etdiyi proqramda sülh müqaviləsinin bağlanması, Cənubi Koreyadan ABŞ qoşunlarının çıxarılması və yarımadada konfederativ dövlət yaradılması nəzərdə tutulurdu. Cənubi Koreya bu şərtləri qəbul etməzdən əvvəl KXDR-də sosial- iqtisadi quruluşun dəyişdirilməsini tələb edirdi. Nəticə verməyən danışıqlar 1973-cü ildə kəsildi. Həmin ildə BMT Baş Məclisinin 28-ci sessiyasında ümumi razılıq əsasında Koreyanın birləşməsi və bərpası üzrə BMT komisiyası buraxıldı. SSRİ-də və KXDR-də belə hesab edirdilər ki, həmin komissiyadan qərb dövlətləri Koreyanın daxili işlərinə qarışmaq üçün istifadə edirlər. 1975-ci ildə BMT Baş Məclisi Cənubi Koreyadan BMT bayrağı altda olan xarici qoşunların çıxarılması haqqında qətnamə qəbul etdi. ABŞ qoşunları Cənubi Koreyada qalmalı idi. 1978-ci ildə ABŞ-m Cənubi Koreyada birləşmiş komandanlığı yaradıldı. ABŞ daha 40 minlik ordunu Cənubi Koreyada BMT mandatı ilə deyil, qarşılıqlı müdafiə haqqında 1954-cü il müqaviləsi əsasında saxlayırdı.

70-ci illərin ortalarında KXDR 76 dövlət tərəfindən tanındı və 1975-ci ildən bloklara qoşulmamaq hərəkatında iştirak etməyə başladı. 1987-ci ildə isə Şimali Koreyanı tanıyan dövlətlərin sayı 100-ü keçdi. 1987-ci ildə Cənubi Koreya 60-a qədər dövlət tərəfindən tanındı. 70-ci illərin ikinci yarısında ABŞ hökuməti Cənubi Koreyadakı qoşunlarını azaltmaq qərarına gəldi. Lakin R. Reyqan hökuməti bu qərarı ləğv etdi. 1976- cı ildən ABŞ və Cənubi Koreya qoşunları «Tim spirit» adlı birgə hərbi manevrlər keçirtməyə başladı. ABŞ Cənubi Koreya və Yaponiyanın iştirakı ilə orada hərbi-siyasi blok

yaratmaq fikrində idi. Sosial etiraz hərəkatın güclənməsi 1980- ci ildə Cənubi Koreyada hakimiyyət dəyişikliyinə gətirdi. 1980-ci ildə Şimali Koreya konfederativ Demokratik Respublika yaradılmasını təklif edərək ABŞ-la sülh müqaviləsi bağlamağa hazır olduğunu bildirdi, eyni zamanda ABŞ qoşunlarının Cənubi Koreyadan çıxarılmasını tələb etdi. 1984- cü ilin yanvarında KXDR ABŞ və Cənubi Koreyanın iştirakı ilə üçtərəfli danışıqlara başlamağı təklif etdi. Bu danışıqlar nəticəsində KXDR ilə ABŞ arasında sülh müqaviləsi, Şimali Koreya ilə Cənubi Koreya arasında hücüm etməmək haqqında müqavilə imzalandı. KXDR Asiya-Sakit okeanı rayonunda vəziyyətin sabitləşməsinə dair SSRİ tərəfindən 1986-cı ildə sürülmüş təşəbbüsləri müdafiə edirdi. Koreyanın birləşdirilməsi Asiya-Sakit okean rayonunda beynəlxalq şəraitin yaxşılaşmasında böyük röl oynaya bilərdi. 1986-1987-ci illərdə Şimali Koreya Cənubi Koreyaya yüksək səviyyəli hərbi-siyasi danışıqlar keçirməyi təklif etdi. 1984 və 1986-cı illərdə KXDJl- in başçısı Kim İr Sen SSRİ-də rəsmi səfərdə oldu. 1986-cı ildə SSRİ-nin xarici işlər naziri KXDR-lə səfər etdi. KXDR Asiyada SSRİ-nin əsas müttəfiqlərindən biri idi.

1987-ci ilin iyununda KXDR hökuməti Şimalın və Cənubun silahlı qüvvələrini ixtisar etməsini, ABŞ-m silahlarını və silahlı qüvvələrini Cənubi Koreyadan çıxartmasını təklif etdi. Bu tədbirlər Koreya yarımadasında gərginliyi tədricən zəiflətmək məqsədi güdürdü. Danışıqlarda həm Cənubi Koreya, həm də ABŞ iştirak etməli idi. 1988-1989-cu illərdə Koreya yarımadasında vəziyyət gərgin olaraq qalırdı. Hər il keçirilən «Tim spirit» manevrləri Şimalın Cənubla münasibətlərinə mənfi təsir göstərirdi. KXDR-in Pxenyanda hər iki dövlətin rəhbərliyinin, hakim və müxalifət partiyalarının iştirakı ilə siyasi məsləhət müşavirəsi keçirtmək təklifini Cənubi Koreya hökuməti qəbul etmədi. 1989-cu ilin sentyabrında Cənubi Koreya birləşmə yolunda aralıq mərhələ kimi Koreya milli birliyinin yaradılmasını təklif etdi. Lakin KXDR bu təklifi ölkənin parçalanmasının möhkəmləndirmək cəhdi kimi

qiymətləndirdi. Şimali Koreya da öz növbəsində 1990-ci ilin fevralında bütün aparıcı qüvvələrin iştirakı ilə birləşmə konsepsiyasını hazırlamaq üçün müşavirə keçirməyi təklif etdi. KXDR yarımadanın cənubunda hər il keçirilən hərbi manevrlərin də dayandırılmasını təklif etdi. Bütün bu təkliflərin Cənubi Koreya tərəfindən qəbul edilməməsi və Cənubi Koreyanın özünə sərfəli təkliflər irəli sürməsi, nəticədə kompromisə gəlinməsi mümkün olmaması ilə əlaqədar iki Koreya dövləti arasında sülh müqaviləsinin imzalanması və ölkənin birləşdirilməsi həm Koreya yarımadasında, həm də bütün Asiyada beynəlxalq münasibətlərin aktual problemlərindən biri olaraq qaldı.

### *Yaponiyanın xarici siyasəti*

60-ci illərdə Yaponiya dünya iqtisadi güc mərkəzlərindən birinə çevrildi. Yaponiya dünya siyasətində fəal iştirak etmək üçün geniş iqtisadi imkanlara malik idi. Beynəlxalq münasibətlərə təsirini artırmaq üçün yapon diplomatiyası çoxsaylı vasitə və metodlardan istifadə edirdi. Yaponiya ılk növbədə Asiya ölkələrinə təsir göstərməyə çalışırdı. ABŞ Yaponiyanın xarici siyasətində mühüm yer tuturdu. Bu ölkələrin geniş iqtisadi əlaqələri var idi. 80-ci illərin ortalarında Yaponiyanın xarici ticarətinin 35%-dən çoxu ABŞ-m payına düşürdü. Yaponiyanın idxalında isə ABŞ-m payı 10%-dən çox idi. ABŞ Yaponiyaya təsir üçün hərbi-siyasi münasibətlərdən də istifadə edirdi. Yaponiyanın ABŞ-la hərbi ittifaqı 1960-cı ilin yanvarında Vaşiqtonda imzalanmış «Qarşılıqlı əməkdaşlıq və təhlükəsizlik təminatları» haqqında müqaviləyə əsaslanırdı. 1970-ci ildə həmin müqavilənin müddəti mexaniki olaraq artırıldı. Bu müqavilə ABŞ-a Yaponiya ərazisində qeyri-məhdud miqdarda hərbi baza yaratmaq hüququ verdi. 80-ci illərin ortalarında ABŞ-m Yaponiya ərazisində 130 hərbi bazası var idi. Vyetnamdakı müharibə zamanı Yaponiya ABŞ-a 5 milyard dollar yardım göstərdi. 1978-ci ilin noyabrında «Müdafiə sahəsində ABŞ-

Yaponiya əməkdaşlığının rəhbər prinsipləri» adlı sənəd imzalandı. Burada müharibə zamanı ABŞ və Yaponiya silahlı qüvvələrinin funksiyaları konkret müəyyən olundu. 1983-cü ilin noyabrında imzalanmış sazişə əsasən ABŞ yeni hərbi texniki məhsulların istehsalı üçün Yaponiyanın elmi-texniki potensialından istifadə edə bilərdi. 1986-cı ilin sentyabrında Yaponiya ABŞ-ın SMT proqramına qoşulmaq niyyətini bəyan etdi. ABŞ-la əməkdaşlıqdan Yaponiya öz hərbi potensialını artırmaq üçün istifadə edirdi.

Azad olunmuş ölkələrlə əməkdaşlıq Yaponiya üçün böyük əhəmiyyət kəsb edirdi. 80-ci illərin ortalarında Yaponiya özünə lazım olan xammalın 70%-ni xaricdən alırdı. Yaponiyanın ixracının 30%-dən çoxu, xarici ölkələrin iqtisadiyyatına qoyduğu kapitalın 53%-i azad olmuş ölkələrin payına düşürdü.

Yaponiya Şimali-Şərqi və Cənubi-Şərqi Asiya ölkələrini özünün təbii siyasi, iqtisadi və mədəni təsir zonası hesab edirdi. Yaponiya ilə Cənubi Koreya arasında diplomatik münasibətlər 1965-ci ildə yaradılmışdı. İki ölkə arasında imzalanan müqavilənin 3-cü maddəsində deyilirdi ki, Koreya yarımadasında yeganə qanuni hakimiyyət orqanı Cənubi Koreya hökumətidir. Belə mövqe Yaponiya ilə Cənubi Koreya arasında siyasi və iqtisadi əlaqələrin inkişafına təkan verdi.

1983- cü ilin yanvarında Yaponiyanın baş naziri Y.Nakasone Cənub Koreyada rəsmi səfərdə oldu. Cənubi Koreya iqtisadiyyatına qoyulmuş xarici kapitalın 27%-i Yaponiyanın payına düşürdü. Yaponiya-Çin münasibətələri daha sürətlə inkişaf edirdi. 80-cı illərin ortalarında ÇXR-in kapitalist ölkələri ilə ticarətinin 47,3%-i Yaponiyanın payına düşürdü. 1985-ci ildə Yaponiya Çinə 2,4 milyard dollar kredit verdi. Çin eyni zamanda Yaponiyanın hərbi potensialının artmasından narahat idi. Yaponiya Tayvanla geniş iqtisadi əlaqələr saxlayırdı. Tayvana hərbi-strateji cəhətdən böyük əhəmiyyət verən Yaponiya onun ÇXR-lə birləşməsinin qəti əleyhinə idi. İdxal gömrüyü yuxarı olduğuna görə Çin öz mallarını

Yaponiya bazarında sata bilmirdi. Bu da Yaponiya-Çin münasibətlərinə mənfi təsir göstərirdi.

SSRİ ilə münasibətlərə Yaponiya hər şeydən əvvəl, öz təhlükəsizliyini təmin etmək baxımından yanaşırdı. Yaponiya eyni zamanda SSRİ ilə iqtisadi əlaqələrin inkişafında da maraqlı idi. 1966-cı ilin iyununda imzalanmış konsul konvensiyasına görə SSRİ-nin Yaponiyanın Sapporo və Osaka, Yaponiyanın isə SSRİ-nin Naxodka və Leninqrad şəhərlərində konsulluqları açıldı. 1967-ci ildən Moskvadan Tokioya təyyarələr uçmağa başladı. 1973-cü ilin oktyabrında Yaponiyanın baş naziri K. Tanaka SSRİ-də rəsmi səfərdə oldu. 1974-cu ildə Yaponiya SSRİ-yə 1050 milyon dollar uzunmüddətli kredit verdi.

1974-ci ilin noyabrında iki ölkə arasında atom enerjisindən dinc məqsədlə istifadə haqqında saziş imzalandı. Yaponiya 1980-cı ildən Qərbin sosializm üzərinə kütləvi yürüşünə qoşularaq SSRİ ilə bütün əlaqələrini əsaslı şəkildə azaltdı. 1985-ci ilin martında Yaponiyanın baş naziri Y.Nakasonenin, 1986-cı ildə isə xarici işlər nazirlərinin SSRİ- yə səfərləri oldu. İqtisadi əlaqələr də artdı. Lakin sovet-yapon münasibətlərinin inkişafına mane olan amillər var idi. ABŞ- Yaponiya ittifaqı və Yaponiyanın sürətlə silahlanması, Yaponiyanın Cənubi Kuril adalarına olan iddiaları iki ölkə arasında münasibətlərə mənfi təsir edirdi. SSRİ-nin isə Yaponiyada şimal əraziləri adlandırılan Kuril adalarını Yaponiyaya qətiyyən vermək fikri yox idi. Hər iki dövlət bu məsələlərdən bir-birinə təzyiq vasitəsi kimi istifadə edirdilər. Sovet-Yaponiya münasibətlərinin inkişafı qlobal və regional təhlükəsizlik üçün böyük əhəmiyyət daşıyırdı.

***Latın Amerikasımla hcyııDlxalq ınüııasibDthr***

70-ci illərdə Latın Amerikasındakı proseslərin beynəlxalq münasibətlərə təsiri artdı. Bu işdə Latın Amerikası

ölkələrinin xarici siyasətinin fəallaşması, region ölkələrinin sosial-iqtisadi inkişafı və onların həm Qərb, həm də Şərq bloku ölkələri ilə əlaqələri böyük rol oynayırdı. Daha çox kommunist ölkələri ilə əməkdaşlıq edən Kuba 1972-ci ildə QİYŞ-ə daxil oldu. Həmin ildə F.Kastronun SSRİ-yə səfəri zamanı iki ölkə arasında, ticarət-iqtisadi və elmi-texniki əməkdaşlığa dair bir sıra sazişlər imzalandı. SSRİ-nin köməyi ilə Kubada 300-ə qədər müxtəlif təsərrüfat müəssisəsi tikildi. 1974-cü ilin fevralında imzalanmış Sovet-Kuba bəyannaməsi iki ölkə arasında siyasi əlaqələrin daha da inkişafını nəzərdə tuturdu. Kuba hökuməti Afrikada Anqolaya və Həbəşistana yardım göstərirdi, Mərkəzi Amerikada isə Nikaraquanı fəal müdafiə edirdi. Kuba bloklara qoşulmurdu. Bloklara qoşulmayan ölkələrin dövlət və hökumət başçılarının VI konfransı 1979-cu ildə Havanada keçirildi. 1987-ci ildə Kuba 121 ölkə ilə diplomatik münasibətlər yaratdı. Kuba Qərbi Avropa ölkələri ilə müxtəlif sahələrdə əməkdaşlıq edirdi. ABŞ-la münasibətlərdə isə irəliləyiş əldə edilmədi.

80-cı illərin ortalarında Latın Amerikası ölkələrinin xarici borcu 360 milyard dollardan çox idi. Bu, Latın Amerikası ölkələrinə xarici təzyiq vasitələrindən biri idi. 70-80-ci illərdə regiondakı Braziliya, Meksika, Venesuela və Argentina kimi ölkələrin iqtisadi inkişafı sürətləndi. Bir sıra ölkələrdə xarici əmlakın milliləşdirilməsinə dair tədbirlər həyata keçirildi.

60-cı illərin sonunda Çilidə iqtisadi və siyasi vəziyyət mürəkkəb idi. 1969-cu ilin martında parlamentə keçirilən seçkilər ölkədə siyasi qüvvələrin yeni nisbətinin yarandığını göstərdi. 1969-cu ilin dekabrında kommunistlərin təşəbbüsü ilə antiinhisarçı qüvvələrin geniş koalisiyası yaradıldı. Bu koalisiyaya KP, SP, SDP, Radikal partiya. Vahid Xalq Fəaliyyəti hərəkatı və Müstəqil Xalq Fəaliyyəti təşkilatları daxil idi. Koalisiya iştirakçıları Xalq Birliyi sazişi imzalayaraq
S.Alyendeni prezidentliyə vahid namizəd irəli sürdülər. 1970- ci il sentyabrın 4-də keçirilən seçkidə S.Alyende 36,3% səs toplayaraq qalib gəldi və noyabrda Xalq Birliyi hökuməti

yaratdı. Lakin Konqres, Ali məhkəmə, mətbuat vasitələri və zabitlərin çoxu Xalq birliyini müdafiə etmirdi. Buna görə də yeni hökumət öz proqramını çətin şəraitdə həyata keçirməli oldu. S.Alyende hökuməti ABŞ inhisarlarına məxsus olan mis mədənlərini milliləşdirdi. Çilinin ABŞ-dan iqtisadi asılılığı böyük idi. ABŞ inhisarlarının burdan götürdükləri mənfəət ildə 2 milyard dollar idi. Kömür, filiz və neft mədənləri, iri banklar milliləşdirildi. İqtisadiyyatda dövlət bölməsi artdı. Əmək haqqı artırıldı, qiymətlər üzərində nəzarət qoyuldu, yeni iş yerləri açıldı, mənzil tikintisi genişləndi, səhiyyə və təhsil sistemi yaxşılaşdırıldı. Aqrar islahat keçirildi. Hökumət mülkədarlardan 6 milyon ha torpaq müsadirə etdi. Bunun 2,8 milyon hektarı kəndlilərə, qalanı isə kooperativlərə verildi. 1970-ci ilin noyabrında Kuba ilə diplomatik münasibətlər bərpa olundu. 1971-də Çili ADR-lə, 1972-də Vyetnam və Şimali Koreya ilə diplomatik münasibət yaratdı. Bu ölkənin SSRİ, Fransa, İtaliya və AFR-lə münasibətləri normal olsa da ABŞ-la münasibətlər pisləşmişdi. ABŞ Çilini iqtisadi və maliyyə blokadasına aldı. Prezident R.Nikson Çilidə dövlət çevrilişi üçün 13 milyon dollar ayırdı. Xırda və orta burjuaziya ordunun tərəfində idi. Hərbi çevriliş general

A. Pinoçetin başçılığı ilə 1973-cü il sentyabrın 11-də həyata keçirildi. S.Alyende öldürüldü. General A.Pinoçet ölkədə hərbi diktatura quraraq və 1990-cı ilə qədər ölkəni idarə etdi.

Nikaraquada Samosa rejimi 1936-cı ildə hakimiyyətə gəldi. Sandino adma Milli-Azadlıq Cəbhəsi 1961-ci ildə yaradıldı. Bu cəbhə 1979-cu ilin iyun ayında silahlı üsyan yolu ilə hakimiyyəti ələ keçirtdi. Kəndlilərin, fəhlələrin, xırda və orta burjuaziyanın iştirakı ilə Nikaraquada demokratik, antiimperialist və xalq inqlabı qalib gəldi. Qanunverici və icraedici hakimiyyət Milli Dirçəliş hökumətinin rəhbər şurasının əlində idi. Bu şuranın koordinatoru Daniel Orteqa idi. Yeni hakimiyyət iqtisadiyyatı bərpa etməyə, inqilabi və sosial tədbirlər görməyə başladı. Samosa ailəsinin əmlakı.

banklar və sığorta şirkətləri, xarici ticarət və bir sıra iri müəssisələr milliləşdirildi. 1984-cu ilə qədər iqtisadiyyatın bütün əsas sahələri dövlətə keçdi. Kəndlilərə 2 milyon hektar torpaq verildi. Sosial tədbirlər həyata keçirildi. 1984-cü ildə D.Orteqa prezident seçildi. 1986-cı ildə yeni konstitusiya qəbul edildi. Nikaraqua bloklara qoşulmamaq hərəkatının iştirakçısı oldu. ABŞ Nikaraquaya qarşı elan olunmamış müharibə apararaq Nikaraqua əksinqilabçılarını təchiz edirdi. 1984-cü ildə ABŞ Nikaraquaya başqa dövlətlərin gəmilərinin gəlməməsi üçün sahillərini minaladı. 1990-cı ildə prezident seçkilərində müxalifətin Nikaraqua ittifaqı qalib gəldi və Violetta de Çamorra prezident seçildi. Sandino hökuməti müxalifətə keçməli oldu. Sandino hökuməti ölkədə iqtisadi vəziyyəti yaxşılaşdıra bilmədi. ABŞ Nikaraquada hakimiyyətə keçən yeni hökumətə kömək etməyə başladı.

Karib dənizində kiçik ada dövləti olan Qrenadada 1979-cu ildə çevriliş nəticəsində amerikanpərəst hökumət devrildi. M.Bişop hökuməti bir sıra tədbirlər həyata keçirdi. 1983-cü ilin oktyabrında Qrenadada yaranmış siyasi böhrandan istifadə edən Ağ ev .ABŞ vətəndaşlarını müdafiə etmək adı ilə müdaxilə etdi. Salvadorda hökumətə qarşı güclü partizan hərəkatı var idi. 1986-cı ilin fevralında Haitinin başçısı Duvalye ölkədən qaçmalı oldu. Panama xalqı ABŞ hərbi bazalarının ölkədən çıxarılmasını tələb edirdi.

1977- ci ildə ABŞ-Ia Panama hökuməti arasında 1999-cu ilin dekabrında kanal üzərində nəzarətin Panamaya keçməsi haqqında saziş imzalandı. 1999-cu ilin sonunda Panama kanalı öz qanuni sahibinə qaytarıldı.80-cı illərin birinci yarısında Boliviya, Argentina, Braziliya və Uruqvay kimi ölkələrdə hərbi diktatura rejimləri mülki hökumətlərlə əvəz olundu. Latın Amerikası xalqlarının iqtisadi müstəqillik və sosial azadlıq uğrunda mübarizəsi beynəlxalq münasibətlərə mühüm təsir göstərirdi.

80-cı illərin əvvəlində Latın Amerikasında Folklend (Mal- vin) münaqişəsi baş verdi. Folklend (Malvin) adaları Cənubi Atlantikada, Argentinadan 500 km aralıda yerləşib 2 böyük və 200-ə qədər xırda adadan ibarət idi. Hələ 1820-ci ildə Argentina bu adaları öz ərazisi elan etmişdi. İngiltərə 1833-cü ildə oraya qoşun göndərib adaları öz müstəmləkəsi elan etdi. O vaxtdan Argentina adaları qaytarmaq uğrunda mübarizə aparırdı. 1964-cü ildə BMT

Folklend adalarım özünüidarəetməyən ərazilər sırasına daxil etdi. Bu məsələ ilə bağlı aparılan Argentina-İngiltərə danışıqları heç bir nəticə vermədi. Adaların ərazisində neft yataqlarının kəşf edilməsi probleminin kəskinliyini daha da artırdı. Argentina 1982-ci il iyunun 2-də Folklend adalarına qoşun çıxarıb oranı öz ərazisi elan etdi. Eyni zamanda İngiltərə ilə danışıqlar aparmağa hazır olduğunu bildirdi. Argentina hökuməti bu addımı atarkən həm də əhalinin diqqətini daxili siyasi böhrandan yayındırmaq məqsədi güdürdü. Argentina ABŞ-ın ya Rio de-Janeyro paktı xətti ilə ona kömək edəcəyinə, ya da bitərəf qalacağına ümid edirdi.

İngiltərə münaqişəni hərb yolla həll etmək qərarına gələrək Folklend adaları rayonuna öz hərbi-dəniz donanmasının 60%-ni göndərdi. BMT baş katibinin vasitəçilik səyləri baş tutmadı. Hər iki tərəf xeyli itki verdikdən sonra İngiltərə qoşunları tərəfindən adalar tutuldu. 1982-ci il iyunun 15-də imzalanmış müvəqqəti sazişə əsasən hərbi əməliyyatlar dayandırılmalı və Argentina öz qoşunlarını oradan çıxartmalı idi. Bu məğlubiyyət Argentinada hakimiyyətin dəyişməsinə böyük təsir göstərdi. Bu münaqişə zamanı ABŞ İngiltərəyə hərtərəfli yardım göstərdi. ABŞ BMT Təhlükəsizlik, Şurasında da İngiltərəni müdafiə etdi. ABŞ və Avropa Birliyinin üzvləri Argentinaya qarşı iqtisadi sanksiyalar tətbiq etdilər.

Amerika Dövlətləri Təşkilatının üzvlərinin əksəriyyəti İngiltərənin hərəkətini və ABŞ-ın siyasətini tənqid etdilər. Folklend münaqişəsi ilə əlaqədar SSRİ 1982-ci il mayın 25-də bəyanat verərək problemi siyasi vasitələrlə həll etməyə çığırdı. İngiltərə Folklend adaları ilə əlaqədar danışıqlara daİr Argentinanın təkliflərini qəbul etmədi. 1990-cı ildə İngiltərə ilə Argentina arasında diplomatik münasibətlər bərpa olundu.

ABŞ Latın Amerikasına münasibətdə Monro doktrinasının prinsiplərinə sadiq olaraq onları yeni şəraitə uyğunlaşdırmağa çalışırdı. Bu zaman onun gördüyü əsas işlərdən biri Qərb yarımkürəsində özünün xüsusi rolunu əsaslandırmaq və Latın Amerikası ölkələrinin müstəqil xarici siyasətinə maneçilik oldu. ABŞ Latın Amerikasında öz mövqelərini möhkəmləndirmək üçün imtiyazlı müttəfiqlər diplomatiyasından da istifadə etdi. Yəni, regionun bir sıra ölkələrinə geniş yardım göstərməklə özünə qarşı narazılığın qarşısını onların əli ilə almağa çalışırdı. Məsələn, R.Nikson 1971-ci

ilin sonunda Braziliya prezidenti Q.Medislə görüş zamanı bildirdi ki, bütün Latın Amerikası Braziliyanın yolu ilə getməlidir. 1976-cı ildə ABŞ-la Braziliya arasında qarşılıqlı anlaşma memorandumu imzalandı. ABŞ Latın Amerikası ölkələrinə təzyiqini artıracağı halda Braziliyanı böyük dövlət kimi tanımağa hazır olduğunu bildirdi. ABŞ prezidenti C.Karter də Latın Amerikası ölkələrinə fərqli yanaşmanın tərəfdarı idi.

R.Reyqan hakimiyyətə gələndən sonra ABŞ-m Latın Amerikasında fəaliyyəti daha da genişləndi. Mərkəzi Amerika və Karib hövzəsi ölkələrinə xüsusi diqqət yetirildi. 1982-ci ilin fevralında irəli sürülmüş Reyqanm «Karib təşəbbüsü» proqramını həyata keçirmək üçün konqres 350 milyon dollar vəsait ayırdı. 1983-cü ildə ABŞ konqresinin qəbul etdiyi «Karib hövzəsinin iqtisadi bərpası» adlı qanuna əsasən 1985-1990-cı illərdə Karib hövzəsi ölkələrinə (Salvador, Honduras, Qvatemala, Yamayka, Kosta-Rika və s.) 8 milyard dollar yardım göstərilməli idi. ABŞ Nikaraquadakı hadisələri diqqətlə izləyirdi. ABŞ Nikaraqua hökumətinə qarşı mübarizə aparan kontras dəstələrinə hərtərəfli gömək göstərirdi. Silahlı kontras dəstələrinə daxil olanların əksəriyyəti Nikaraqua hökumətindən torpaq ala bilməyən kəndlilər idi. 1983-cü ildən silahlı kontras dəstələrinin Kosta-Rika və Qonduras ərazisindən Nikaraquaya hücumları artdı. 1985-ci ilin mayında isə ABŞ Nikaraquanı iqtisadi mühasirəyə aldı. 1986-cı ilin payızında ABŞ konqresi kontraslara yardım üçün 100 milyon dollar vəsait ayırdı.

ABŞ Latın Amerikası ölkələri ilə həm ADT xətti ilə, həm də ikitərəfli əsasda əlaqələr qururdu. ABŞ-ın təzyiqlərinə birlikdə davam gətirməyin əhəmiyyətini başa düşən Latın Amerikası ölkələrinin həmrəyliyi gücləndi. Bu isə ADT vasitəsilə bölgəni nəzarətdə saxlamaq imkanlarını azaldırdı. 1973-ci il noyabrın 20-də Latın Amerikası ölkəsinin nümayəndələri Boqotada keçirilən görüşdə Boqota bəyannaməsi adlı sənəd qəbul etdilər. Bu sənəddə ADT-nin yenidən qurulması, region ölkələrinə qarşı iqtisadi sanksiyaların tətbiqinin yolverməzliyi kimi tələblər var idi. 1975-ci il dekabrın 17- də 26 Latın Amerikası ölkəsinin nümayəndələri Panamada Latın Amerikası iqtisadi sistemi adlı təşkilatın yaradılması haqqında müqavilə imzaladılar. Yeni təşkilatın əsas vəzifəsi iştirakçıların iqtisadi mənafelərini müdafiə etmək, onların xarici siyasətini əlaqələndir-

mək və milli inkişafına gömək etmək idi. Bu təşkilatın rəhbər orqanı olan Latın Amerikası şurasının qərargahı Karakasda yerləşirdi. Müqavilə bu təşkilata ABŞ və Kanadanın daxil olmasını qadağan edirdi. Latın Amerikası inteqıasiya assosasiyası 1981-ci ildə yaradıldı.

Latın Amerikası ölkələrinin yarıya qədəri bloklara qoşulmamaq hərəkatında iştirak edirdilər. 80-ci illərdə Latın Amerikasında regional təhlükəsizlik uğrunda mübarizə gücləndi. Konta- dor qrupunun yaradılması buna əyani sübut idi. Meksika, Panama, Kolumbiya və Venesuelanın daxil olduğu Kontador qrupu 1983-ci ilin yanvarında yaradıldı. Qrup iştirakçılarının ilk görüşü Panamaya məxsus olan Kontador adasında keçirildi. Qrupun məqsədi Nikaraqua münaqişəsinin dinc yolla həllinə gömək etmək idi. Qrupun prinsipi Mərkəzi Amerikadakı böhranların siyasi yolla, kənardan müdaxilə olmadan region ölkələrinin özləri tərəfindən həll olunması idi. 1984-ci ilin sentyabrında Kontador qrupunun təklif etdiyi sülh aktında xarici hərbi yardımın dayandırılması, region ölkələrinin silahlanması üzərində nəzarət, hərbi bazaların ləğvi və s. kimi təkliflər var idi. Bu təklifləri Nikaraqua hökuməti bəyəndi. Lakin ABŞ onları qəbul etmədi. 1984-ci ilin oktyabrında Salvador, Honduras və Kosta-Rika tərəfindən ABŞ-ın təşəbbüsü ilə irəli sürülən «Tequsiqalpa aktı» məsələyə birtərəfli yanaşdığına görə Nikaraqua hökuməti tərəfindən qəbul olunmadı. 1984-ci ilin iyunundan 1985- ci ilin yanvarına qədər Meksikanın Mansanilto qəsəbəsində keçirilən ABŞ-Nikaraqua danışıqları heç bir nəticə vermədi. 1985-ci ilin aprelində ABŞ-m təklif etdiyi sülh planı qəbul edilmədi. 1986-cı ilin iyununda Kontador qrupu yeni sülh layihəsi ilə çıxış etdi. Nikaraqua həmin layihəni qəbul etmək üçün ABŞ-m kontraslara yardımı dayandırmasını tələb etdi. ABŞ isə bunun əksinə olaraq, kontraslara yardımı artırdı. Beləliklə, ABŞ və onun müttəfiqləri Kontador prosesinin uğurla nəticələnməsinə mane olurdular. ABŞ- ın Nikaraqua ilə əlaqədar siyasətini Salvador, Paraqvay və Çili daha fəal müdafiə edirdilər. Latın Amerikası ölkələrinin çoxu isə Kontador qrupunun mövqeyini müdafiə edirdi. 1985-ci ilin iyulunda Argentina, Braziliya və Uruqvay Lima şəhərində Kontador prosesinə yardım qrupu yaratdılar. Hər iki qrup sıx əlaqədə fəaliyyət göstərirdi. 1986-cı ilin dekabrında Rio-de-Janeyroda əsas və

yardım qrupuna daxil olan dövlətlərin xarici işlər nazirlərinin müşavirəsi keçirildi. Burada qəbul olunmuş bəyannamədə deyilirdi ki, Nikaraquada sülhə nail olmaq mümkündür, bundan ötrü ilk növbədə xarici müdaxiləyə son qoyulmalıdır. 1987-ci ilin avqustunda Qvatemalada Nikaraqua, Kosla-Rika, Salvador və Qvatemala başçıları Mərkəzi Amerikada uztınmüddəili və möhkəm sülh yaradılmasının yolları adlı sənəd imzaladılar. Bu sənəd Kontador prosesinin iştirakçıları tərəfindən müdafiə olundu. ABŞ konqresi isə həmin təşəbbüsə cavab olaraq 1987-ci ildə kontraslara yardım üçün 270 milyon dollar yardım ayırdı. 1988-1989-cu illərdə Nikaraqua, Salvador və Qvatemalada hökumət qüvvələri ilə üsyançılar arasında hərbi əməliyyatların davam etməsi ilə yanaşı, münaqişələri siyasi vasitələrlə həll etmək cəhdləri davam etdirildi. Bu işdə ən çox fəaliyyət göstərən beş Mərkəzi Amerika dövlətinin 1988-ci ildə görüşü Kosta-Rikada keçirildi. 1989-cu ildə ABŞ-da C. Buşun hakimiyyətə gəlməsindən sonra Mərkəzi Amerikada münaqişələri siyasi-diplomatik vasitələrlə həll etmək imkanları artdı. 1989-cu ildə Nikaraqua, Kosta-Rika, Qvatemala, Salvador və Honduras prezidentlərinin fevralda Salvadorda, avqustda Hondurasda, dekabrda isə Kosta-Rikada görüşləri keçirildi. Bu görüşlər zamanı qəbul edilən qərarlarda deyilirdi ki, münaqişələri hərbi yolla həll etmək perspektivsizdir və si}’asi vasitələrlə dinc tənzimləmə zamanı bütün tərəflərin mənafeləri nəzərə alınmalıdır. Bu görüşlər zamanı Nikaraquada silahlı müxalifət dəstələrinin buraxılması, orada beynəlxalq müşahidəçilərin iştirakı ilə azad və demokratik seçkilərin keçirilməsi və Salvadorda vətəndaş müharibəsinin dayandırılmasına dair qərarlar qəbul edildi. i990-cı ilin fevralında Nikaraquada hakimiyyət dəyişikliyi dinc tənzimləmə prosesinə təkan verdi. 1990-cı ilin martında yeni seçilmiş Nikaraqua prezidenti V. De Çamorra- nm nümayəndələri ilə kontras liderlərinin görüşündə 1990-ci il aprelin 20-nə qədər kontras dəstələrinin tərksilah edilməsi haqqında saziş imzalandı. Mərkəzi Amerikada dinc tənzimləmə prosesində BMT-in baş katibi də fəal iştirak etdi. 1990-cı ildə Salvadorda və Qvatemalada BMT-in vasitəçiliyi ilə qarşı duran tərəflər arasında danışıqlar davam etdirildi.

Latın Amerikasındakı hadisələri izləyən SSRİ, buradakı ziddiyyətlərdən region ölkələri ilə əməkdaşlığını genişləndirmək üçün

istifadə etməyə çalışırdı. SSRİ 1970-1973-cü illərdə Çiliyə əhəmiyyətli yardım göstərdi. Həmin müddət ərzində Çili sosialist ölkələrindən 386 milyon dollar kredit aldı. 1972-ci ilin dekabrında S.Alyen- de SSRİ-də rəsmi səfərdə oldu. Çilidə 1973-cü ilin sentyabr çevrilişindən sonra SSRİ səfirliyini çıxardaraq və diplomatik münasibətlərini kəsdi.

1979- cu il oktyabrın 18-də Manaquada diplomatik münasibətlər və səfir mübadiləsi haqqında Sovet - Nikaraqua bəyanatı imzalandı. 1980-ci ilin martında Nikaraqua Respublikasının hökumət nümayəndə heyətinin Moskvaya rəsmi səfəri zamanı iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığa dair sazişlər imzalandı. SSRİ ABŞ-ın Nikaraquaya münasibətdə yeritdiyi siyasəti kəskin tənqid edərək Nikaraqua .xalqının ingişaf yolunu sərbəst seçmək hüququnu müdafiə etdi. SSRİ hökumətinin 1986-cı ilin noyabrında verdiyi bəyanatda ABŞ-dan Nikaraquanın daxili işlərinə qarışmamaq tələb olundu və Kontador qrupunun fəaliyyətinə' yüksək əhəmiyyət verildi.

SSRİ 1979-cu ilin sentyabrında Qrenada ilə diplomatik münasibətlər yaratdı. 1982-ci ilin iyulunda Qrenadanın baş naziri M.Bişopun SSRİ-yə səfəri zamanı iki ölkə arasında iqtisadi, elmi- texniki və mədəni əməkdaşlığa dair sazişlər imzalandı. Sovet hökuməti 1983-cü ilin oktyabrında ABŞ-m Qrenadaya hərbi müdaxiləsinə son qoyulmasını tələb etdi.

1987-ci ildə SSRİ-nin Latın Amerikasının 19 dövləti ilə diplomatik münasibəti var idi. Təbii ki, müəyyən amillərlə bağlı SSRİ Latın Amerikasında Meksika, Argentina, Braziliya, Peru kimi ölkələr ilə əlaqəyə böyük əhəmiyyət verirdi. Bu zaman SSRİ ilk növbədə həm dövlətlərin beynəlxalq münasibətlərə təsirini nəzərə alırdı. 80-ci illərin sonunda keçirilən yüksək səviyyəli Sovet- Amerika görüşlərində məhəlli münaqişələr, o cümlədən Mərkəzi Amerikadakı hadisələr müzakirə edildi. 1989-cu ildə SSRİ Nikaraquaya hərbi yardım göstərməyi dayandırdı.

### *Bloklara qoijulmamaq hərəkatı*

70-80-ci illərdə dünya siyasətində bloklara qoşulmamaq hərəkatının rolu gücləndi. Bu, hər şeydən əvvəl hərəkatın iştirakçılarının

sayının artması ilə əlaqədar idi. Hərəkatda əsasən azad olmuş ölkələr iştirak edirdi. 70-80-ci illərdə bir tərəfdən, milli-azadlıq hərəkatı, digər tərəfdən isə. Qərb dövlətlərinin onlardan asılı olan ölkələrdə siyasətinin dəyişməsi nəticəsində müstəqillik qazanan üçüncü dünya ölkələrinin sayı artdı. 70-80-ci illərdə Afrikada 10, Latın Amerikasında 9, Sakit okean hövzəsində 8 yeni dövlət yarandı. Bloklara qoşulmamaq hərəkatında iştirak edən dövlətlərin bəzilərinin potensialı və nüfuzu böyük idi. 70-ci illərdə beynəlxalq gərginliyin zəifləməsinə bu hərəkatın da təsiri oldu. 1970-ci ildə hərəkat iştirakçılarının Lusakada keçirilən konfransında 54, 1973- cü ildə Əlcazairdə keçirilən konfrasmda 85, 1979-cu ildə Havanada keçirilən VI konfransda 92, 1983-cü ildə Dehlidə keçirilən VII konfransda 99 dövlətin nümayəndəsi iştirak etdi. 1986-cı ildə hərəkat iştirakçıların sayı 100-ü ötüb keçdi.

Bloklara qoşulmamaq hərəkatında Qərb dövlətlərinin təsirinə müqavimət meyli var idi. Amma həmin ölkələri qlobal problemlər daha çox narahat ledirdi. Bu dövlətlərin başçıları deyirdilər ki, beynəlxalq gərginliyin zəifləməsi, tərksilah, qarşılıqlı faydalı əməkdaşlıq, silahlanmanın məhdudlaşdırılmasmdan əldə olunan vəsaitin azad olmuş ölkələrin ehtiyaclarına yönəldilməsi hərəkat iştirakçılarının mənafeyinə uyğundur və onlar tərəfindən müdafiə edilir. 70-ci illərin ikinci yarısında keçirilən konfranslarda beynəlxalq gərginliyin artmasından narahatlıq ifadə olundu. 1983-cü ildə Dehlidə keçirilmiş konfransın qəbul etdiyi siyasi bəyannamədə sürətlə silahlanmanın dayandırılması əsas tələblərdən biri idi. 1986-cı ildə Zimbabvedə keçirilən konfransda qəbul edilən müraciətin mətni həm SSRİ, həm də ABŞ rəhbərlərinə göndərildi. Həmin müraciətdə SSRİ-dən və ABŞ-dan aktual beynəlxalq problemlərin dinc vasitələrlə həlli üçün etimad mühitinin yaradılması və mövcud gərginliyin zəiflədilməsi üçün səylərini əsirgəməmələri xahiş olunurdu.

1986-cı ildən Dehli altılığının (Argentina, Hindistan, Tanzaniya, İsveç, Meksika və Yunanıstan) müraciəti məhz bloklara qoşulmayan ölkələrin təşəbbüsü ilə meydana çıxdı. Müraciətdə SSRİ-nin və ABŞ-m nüvə sınaqlarını tamamilə dayandırması xahiş edildi. Üç ildən bir hərəkat üzvü olan ölkələrin xarici işlər nazirlərinin müşavirəsi keçirilirdi. Cari məsələlərin həlli ilə əlaqələndirmə bürosu məşğul olurdu. 80-ci illərin sonunda «soyuq müha

ribə»nin başa çatması, dünya sosializm sisteminin dağılması və iştirakçılarının əksəriyyətinin Qərb dövlətləri ilə əlaqələrinin genişlənməsi ilə əlaqədar bloklara qoşulmamaq hərəkatı və onun beynəlxalq münasibətlərə təsiri xeyli zəiflədi.

# XV BOLUM
# 90-CI İLLƏRDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN ÜMUMİ SƏCİYYƏSİ

**_Almanivamn hirhsməsi_**

90-cı illər beynəlxalq münasibəxlərdə «soyuq müharibə»nin başa çaxması, dünya sosializm sisxeminin dağılması, yeni müsxəqil dövləxlərin yaranması, beynəlxalq və regional inxeqrasiya proseslərinin genişlənməsi, qloballaşmanın güclənməsi və eyni zamanda müxxəlif xarakxerli münaqişələrin hökm sürməsi ilə səciyyələnir.

Alman torpağında iki müstəqil dövlətin mövcudluğu Avropada daim gərginlik mənbəyi idi. Bu gərginliyin aradan qaldırılması Avropada və bütün dünyada beynəlxalq sabitliyə kömək edəcək mühüm amillərdən biri ola bilərdi. Alman xalqının özü də bütün süni maneələri aradan qaldıraraq birləşməyə çalışırdı. 80-cı illərin sonunda dünyada, Avropada, SSRİ-də və ADR-də gedən proseslər Almaniyanın birləşməsi üçün əlverişli şərait yaratdı. 1989-cu ilin yayında M.S.Qorbaçovun AFR-ə səfəri zamanı iki ölkənin birləşməsi məsələsi geniş müzakirə edildi. SSRİ əvvəlcə birləşmiş Almaniyanın bitərəf dövlət olmasına çalışırdı. Qərb dövlətləri isə birləşmiş Almaniyanın NATO-ya üzv olmasına təkid edirdilər. ADR rəhbərliyi birləşmənin əleyhinə idi. 1989-cu ilin oktyabrında ADR Dövlət Şurasının sədri E.Honekker vəzifədən uzaqlaşdırıldı. ADR konstitusiyasından AVSP-nin rəhbər rolu haqqında maddə çıxarıldı. 1989-cu ilin noyabrında Berlin divarının sökülməsi nəticəsində Qərbi Berlinlə sərhəd açılması ilə birləşmə prosesi sürətləndi.

1990- cı ilin fevralında SSRİ, ABŞ, İngiltərə, Fransa ilə iki alman dövləti arasında «2-1-4» formulu əsasında danışıqlar mexanizmi haqqında razılıq əldə edildi. 7 ay davam edən danışıqların yekununda Almaniyanın birləşməsi ilə bağlı bütün məsələləri əks etdirən sənəd hazırlandı. 1990-cı il iyulun 1-də AFR- lə ADR arasında valyuta, iqtisadi və sosial ittifaq haqqında müqavilə imzalandı. 1990-cı il avqustun 31-də imzalanmış müqavilə ilə ADR ərazisi '5 federal torpağa bölündü. 1990-cı il sentyabrın 12-də Moskvada altı ölkənin xarici işlər nazirləri

Almaniya ilə münasibətlərin nizama salınması haqqında müqavilə imzaladılar. Müqavilədə qeyd edildi ki, birləşmiş Almaniyanın xarici sərhədləri ADR və AFR-in sərhədləridir. Tərəllər birləşmiş Almaniyanın başqa dövlətlərə heç bir ərazi iddiası olmadığını və gələcəkdə də belə iddialar irəli sürməyəcəyini təsdiq etdilər. Almaniya kütləvi qırğın silahları istehsal etməməli və cəmi 370 min nəfərlik ordu saxlaya bilərdi. 1994-cü ilin sonuna qədər sovet qoşunları ADR ərazisindən çıxarılmalı idi. ADR ərazisində NATO qoşunları və nüvə silahı yerləşdirilməməli idi. 1990-cı il oktyabrın 3-də Almaniyanın yenidən birləşməsi prosesi başa çatdı. Almaniyanın birləşdirilməsi ilə əlaqədar dörd dövlətin Berlinə və bütövlükdə Almaniyaya aid olan hüquq və məsuliyyətləri bitmiş oldu. 1990-cı ilin noyabrında SSRİ ilə AFR arasında qonşuluq, partnyorluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. 1994-cü ilin avqustun sonuna qədər sovet qoşunlarının Almaniyadan çıxarılması tamamilə başa çatdı.

«Soyuq müharibə»nin başa çatması

***ABŞ-Qarhi Avropa*** ikinci dünya müharibəsindən sonrakı bü-***ntiinasıh.mıhri*** tün beynəlxalq münasibətlər sisteminin yenidən qurulması, yeni dünya düzəninin formalaşması prosesinin başlanğıcını qoydu. Bu prosesin gedişi həm «soyuq müharibə» dövründə qarşı duran tərəflərin münasibətlərində köklü dəyişikliklərə səbəb oldu, həm də sovet təhlükəsinə qarşı birgə mübarizə aparan ABŞ və Qərbi Avropa kimi müttəfiqlərin əlaqələrinə böyük təsir göstərdi. Başqa sözlə, Transatlantika münasibətləri ciddi təkamülə məruz qaldı. ABŞ-ın Qərbi Avropa dövlətləri ilə münasibətləri həm ikitərəfli, həm də çoxtərəfli əsasda inkişaf etdi.

ABŞ-Qərbi Avropa münasibətləri və onun inkişafı beynəlxalq münasibətlər sistemində daha mühüm rol oynamağa başladı. Qərbdə Transatlantika münasibətləri ənənəvi olaraq dünya siyasətinin mərkəzi oxu kimi dəyərləndirildi. Həmin münasibətlər miqyasına, dərinliyinə və formalarına görə müasir dünyanın siyasi və iqtisadi sisteminə, qlobal səviyyədə beynəlxalq həyatın təşkilinə, beynəlxalq maliyyə, əmtəə və məlumat bazarlarmdakı konyuk- turaya həlledici təsir göstərdi. Müasir dövrün qlobal problemlərinin həllinə də Transatlantika tərəfdaşları əhəmiyyətli töhfə verdilər. 90-

cı illərin beynəlxalq münasibətlərinin inkişaf meylləri əhəmiyyətli dərəcədə ABŞ və Qərbi Avropa ölkələri tərəfindən müəyyən olundu.

Beynəlxalq münasibətlərdəki müasir keçid dövründə ABŞ və onun avropalı müttəfiqləri öz mənafelərini həm də yenidən 'müəyyənləşdirdilər. Bu həm də onların qarşılıqlı münasibətlərinə aid idi. Burada münasibətlərin konseptual əsası və NATO-nun gələcəyi kimi məsələlər əsas yer tutdu.

Söhbət təkcə Transatlantika münasibətlərinin yeni geosiyasi reallıqlara uyğunlaşmasından getmirdi. Onlar eyni zamanda öz müttəfiqliyini və strateji tərəfdaşlıqlarını saxlamağa çalışırdılar. 90-cı illərdə Transatlantika münasibətlərini tez-tez yeni tərəfdaşlıq kimi adlandırırdılar. Çünki uzun müddət-ərzində onların ittifaqını zəruri etmiş sovet təhlükəsi artıq aradan qalxmışdı. Digər tərəfdən, tərəflər öz məqsədlərini dəqiq müəyyənləşdirməli idilər. Eyni zamanda həmin məqsədləri reallaşdırmaq üçün tərəfdaşlığın əhəmiyyətini və rolunu müəyyən etmək lazım idi. Bütün bunlardan ötrü hər şeydən əvvəl, yeni şəraitdə mənafe ümumiliyini şərtləndirən amilləri konkret müəyyən etmək lazım idi. Tərəflər uzunmüddətli ümumi mənafeləri olduğunu, iqtisadi, siyasi və təhlükəsizlik sahəsində yeni tərəfdaşlığın faydasını və üstünlüklərini əsas gətirdilər. Tərəflərin təkcə ümumi deyil, həm də paralel mənafeləri var idi. Amma onların həyata keçirilməsini hər iki tərəf NATO-nun saxlanması və strateji tərəfdaşlığın davam etdirilməsi ilə əlaqələndirirdi.

ABŞ Avropada öz mövqelərini saxlamaq və mənafelərini həyata keçirmək, qitədə vəziyyətin inkişafına fəal təsir göstərmək və siyasi vasitələrlə Avropa dövlətlərinin iqtisadi rəqabət imkanlarını məhdudlaşdırmağa çalışırdı. Birləşmiş Ştatlar NATO-nun saxlanılmasına Avropa işlərində geniş həcmli iştirakın zəruri şərti kimi baxırdı. Digər tərəfdən, SSRİ-nin süqutundan sonra ABŞ dünyada yeganə fövqəldövlət olaraq qalmışdı. Lakin ABŞ belə hesab edirdi ki, imkanlarının böyüklüyünə baxmayaraq dostların və müttəfiqlərin köməyi olmadan dünyadakı bütün problemləri və münaqişələri təkbaşına həll edə bilməz. Bu isə təbii ki. Avropadakı müttəfiqlərindən onun asılılığını artırdı. NATO üzvü olan

ölkələr siyasi təsiri, iqtisadi və maliyyə imkanları ilə əlaqədar ABŞ-m potensial müttəfiqləri idilər. ABŞ transatlantika əlaqələrindən daha geniş geosiyasi oyunlarda, yəni Avrasiya məkanında istifadə etməyi zəruri sayırdı. Burada əsas məqsəd Avrasiyada ABŞ-ın dünya liderliyinə mane ola biləcək qüvvə mərkəzinin yaranmasının qarşısını almaq idi. Məsələn, Avropa ilə Çinin strateji münasibətləri hətta perspektivdə belə, Rusiyanın ABŞ-a bərabərqüvvəli rəqib olmasının mümkünlüyünü aradan qaldırmalı idi. Transatlantika münasibətləri və NATO da bu məqsədə tabe edilməli idi. Avropa ABŞ-m Avrasiyada fəaliyyəti üçün geosiyasi platforma rolu oynayırdı. Buna görə ABŞ Avropa ilə tərəfdaşlığı möhkəmləndirməyə xüsusi diqqət verdi. Bundan ötrü isə NATOda avropalılara yüksək vəzifələr verməyə və dünyanın müxtəlif yerlərində avropalıların mənafelərini daha geniş etiraf etməyə hazır olduğunu bildirdi. Beləliklə, ABŞ öz müttəfiqləri ilə münasibətlərini ABŞ-m xarici siyasi, strateji məqsədlərinə uyğun gəlmək və yeni geosiyasi reallıqlara cavab vermək baxımından qurmağa çalışdı.

Avropa ölkələri bütün imkanlarına və beynəlxalq aləmdə baş verən ciddi dəyişikliklərə baxmayaraq ABŞ ilə strateji tərəfdaşlıqda və NATO-nun saxlanmasında maraqlı idilər. Hər şeydən əvvəl, ABŞ və Avropa ölkələri xarici siyasət, təhlükəsizlik və müdafiə məsələlərində müttəfiq, iqtisadiyyat və maliyyə sahəsində isə rəqib kimi çıxış edirdilər. Tərəflər arasında sıx və dərin iqtisadi-təsərrüfat əlaqələri mövcud idi. Avropadakı inteqrasiya prosesləri iqtisadiyyat sahəsində Transatlantika münasibətlərinin formalaşmasına ciddi təsir edən amillərdən birinə çevrildi. Bir tərəfdən, inteqrasiya Avropa dövlətlərinin iqtisadi cəhətdən yaxınlaşmasına kömək edərək, Avropada əmtəə, kapital və xidmət bazarını genişləndirdi. Digər tərəfdən isə, inteqrasiya prosesləri Avropada və ondan kənarda ABŞ biznesinin mövqelərini zəiflədərək rəqabət şərtlərini daha da sərtləşdirdi. 1999-cu ildə «Avro» adlı vahid Avropa valyutasının tətbiqindən başlıca məqsəd dünya maliyyə bazarlarında və dünya iqtisadiyyatında Avropa Birliyinin mövqelərini möhkəmləndirmək idi. Ona görə də ABŞ Avropadakı inteqrasiya proseslərinə daha ehtiyatla yanaşırdı. Silah və hərbi texnika istehsalı və satışı sahəsində transatlantika münasibətlərindəki gərginlik qalmaqda idi. Buna baxmayaraq tərəflər iqtisadi əlaqələri

inkişaf etdirmək üçün yeni ideyalaf irəli sürdülər. Bu ideyalar içərisində transatlantika ümumi bazahnm təşkilinə dair baş sazişin imzalanması mühüm yer tutdu. Qeyd etmək lazımdır ki, bu ideyanın həyata keçirilməsində ABŞ Avropaya nisbətən daha çox maraqlı idi. Transatlantika münasibətlərinin ümumi vəziyyəti iqtisadi əlaqələrdən bilavasitə asılı idi. O, dünyanın müxtəlif yerlərində tez-tez baş verən münaqişələrlə bağlı idi. Belə bir şəraitdə avropalılar yeni risk və çağırışlar qarşısında tək qalmaq istəmirdilər. Yuqoslaviya böhranı bunu əyani sübut etdi. Avropalılar həm bunu, həm də Kosovo böhranını müstəqil şəkildə, ABŞ-m köməyi olmadan həll etməyə qadir olmadıqlarını nümayiş etdirdilər. Daha sonra, ABŞ-ın Avropadakı müttəfiqlərinin milli təhlükəsizlik və müdafiə sistemi əsasən NATO-ya əsaslanırdı. Buna görə də Avropa Birliyi çərçivəsində səmərəli kollektiv müdafiə təşkilatı yaratmadan Avropa dövlətləri NATO-nun buraxılmasına razı olmazdılar. ABŞ- da bununla əlaqədar bəzən deyirdilər ki, avropalıların nədən daha çox qorxduğu məlum deyil: ABŞ-m hegemonluğundan, yoxsa Avropadan çıxıb getməsindən? Beləliklə, avropalıların ABŞ-la strateji tərəfdaşlığı saxlamaq istəyi həm milli, həm regional, həm də qlobal mənafelərlə bağlı idi. Yeni tərəfdaşlıq həm tərəflərin mənafelərinin əlaqəsini, onların təmin olunmasını, həm də ABŞ və Avropanın rollarının müəyyən olunmasını nəzərdə tuturdu, tərəflərin üstünlük və öhdəliklərini yaxşı tənzimləməli idi. Başqa sözlə, tərəfdaşlıq hər iki tərəfə sərfəli idi. Bu prosesin tədricən təkamül yolu ilə gedəcəyi aydınlaşdı. Eyni zamanda yeni tərəfdaşlığın institutlaşdırılması da zərurətə çevrildi.

Transatlantika münasibətləri üçün «soyuq müharibə»nin başa çatmasının yekunlarından biri də ağırlıq mərkəzinin hərbi- siyasi sahədən iqtisadi sahəyə keçməsi oldu. Ona görə də ABŞ Avropa dövlətlərinin bəzi hərəkətlərini Atlantika həmrəyliyinə zidd hesab edirdi. Avropada siyasi və hərbi inteqrasiyaya Avropa Birliyi daxilindəki müəyyən problemlər də mane olurdu. Məsələn, Avropa dövlətlərinin bir çoxu öz milli siyasətlərini ümumavropa siyasətinə tabe etməklə razılaşmırdılar. Siyasi və hərbi inteqrasiya uzunmüddətli və mürəkkəb proses idi. Avfopa Birliyi bir sıra üzvləri daxili problemlərinin həlli ilə də məşğul olduqlarından geosiyasi məsələlər arxa plana keçirdi. Belə bir mühüm cəhəti də

qeyd etmək lazımdır ki, Avropa Birliyinin üzvləri arasında ABŞ-la əlaqələrə, transatlantika həmrəyliyinin perspektivlərinə münasibətdə fikir ayrılığı mövcud idi. Məsələn, Fransa bir tərəfdən, Avropada siyasi və hərbi inteqrasiyanın fəal təbliğatçısı idi, digər tərəfdən isə, Avropada sabitliyinin təminatçılarından biri olan ABŞ-m rolunu etiraf edirdi.

Avropa Birliyinin müstəqil şəkildə, ABŞ-m iştirakı olmadan Bosna böhranını həll etməyə gücü çatmadı. Bütün çətinliklərə baxmayaraq 90-cı illərdə Avropa Birliyi çərçivəsində siyasi inteqrasiya prosesləri davam etdirildi. Bu isə Transatlantika münasibətlərinə təsir göstərdi. ABŞ da Avropa Birliyi ilə siyasi əlaqələr yaratmağa cəhd etdi. 1995-ci ilin dekabrında irəli sürülən «Yeni Transatlantika proqramı» buna əyani sübut oldu. Məlum olduğu kimi, bu proqram dünyanın bütün mühüm məsələlərinin həllində birgə tədbirlərin rolunu artırmağa yönəlmişdi. Özündə həm əməkdaşlığı, həm də rəqabəti birləşdirən iqtisadi əlaqələr yeni tərəfdaşlıqda əsas sabitlik amili idi.

90-cı illərdə Avropa Birliyi çərçivəsində siyasi və hərbi inteqrasiya prosesləri də gücləndi. İttifaqın rəhbərliyi bu cəşkilatı Avropada və ondan kənarda təhlükəsizliyi daha etibarlı qorumağa qadir olan siyasi ittifaqa çevirməyə çalışaraq bunu bərabərhüquqlu Transatlantika münasibətlərinin əsas şərtlərindən biri hesab edirdi. Avropa liderləri gizlətmirdilər ki, onlar siyasi və hərbi inteqrasiyanı gücləndirməklə dünya işlərində Avropa Birliyinin rolunu artırmaq və beynəlxalq aləmdə öz mənafelərini reallaşdırmaq üçün əlavə imkanlar əldə etməyə çalışırlar. Əslində isə bu, Avropanın dünya işlərində daha çox müstəqilliyi demək idi. Eyni zamanda Avropa Birliyinin liderləri Transatlantika əlaqələrini və NATO-nun zəifləməsini istəmirdilər, Avropa Birliyini hərbi və siyasi cəhətdən qüvvətləndirmək səylərinə isə xüsusilə Avropa problemlərinin həllində ABŞ-m əziyyətini yüngülləşdirmək istəyi ilə bəraət qazandırırdılar. ABŞ isə müdafiə və təhlükəsizlik sahəsində Avropa Birliyinin qüvvətlənməsindən ehtiyat edərək bunun Avropada onun mövqelərinin, NATO-nun və Transatlantika əlaqələrinin zəifləməsinə səbəb olacağını hesab edirdi.

Avropa Birliyi çərçivəsində hərbi inteqrasiyada NATO-nun Avropadakı üzvləri bir tərəfdən, öz üzərlərinə daha böyük məsu

liyyət götürmək barədə bəyanat verdilər. Digər tərəfdən isə, hərbi xərclərini azaltdılar. 1996-cı ildə NATO-nun Avropadakı üzvlərinin hərbi xərcləri 187,08 milyard dollar, ABŞ-ın hərbi xərcləri isə 271,41 milyard dollar təşkil etdi. Avropanın strateji müstəqillik əldə etməsi, yəni strateji hərbi-nəqliyyat aviasiyası, kosmik kəşfiyyat vasitələri və s. əldə etməsi üçün 50-100 milyard dollar arasında vəsait lazım idi.

Avropada siyasi və hərbi inteqrasiyanın inkişafı kollektiv müdafiə təşkilatı olan NATO-nun əhəmiyyətini azalda bilərdi. NATO yarandığı vaxtdan ABŞ-la Avropanı əlaqələndirən əsas təşkilat olduğundan yeni tərəfdaşlığın formalaşması və Transat- lantika münasibətlərinin gələcəyi üçün böyük əhəmiyyətə malik idi. Məsələnin mahiyyəti ondan ibarət idi ki, «soyuq müharibə»nin başa çatması ilə NATO-nun ümumi sovet təhlükəsinə qarşı birgə durmaq vəzifəsi əsasən öz əhəmiyyətini itirdi. Lakin həmin proqram daha çox niyyətlər haqqında bəyanat xarakteri daşıyırdı. Buna baxmayaraq, Avropa Birliyi artıq ABŞ-Avropa siyasi münasibətlərinin subyektinə çevrildi.

Avropa Birliyi çərçivəsində hərbi inteqrasiyanı ABŞ NATO saxlandıqca böyük əhəmiyyətli hesab etmirdi. 1991-ci ilin noyabrında NATO-nun Roma sammitində alyansın yeni strateji konsepsiyası müzakirə olunarkən ABŞ avropalı həmkarlarından hərbi əməkdaşlığa dair niyyətlərini açıqlamağı xahiş etdi. Lakin 1992-ci ilin əvvəlində Maastrixtdə Avropa Birliyi çərçivəsində hərbi quruculuq planları konkretləşdirilərək təsdiq olundu. Hər iki tərəf bildirdi ki, Avropada yeni yaradılan hərbi mexanizm NATO-nun təkrarı və ya onun əvəzedicisi olmayacaq, onlar yalnız bir-birini tamamlayacaqdır. Qərbi Avropa İttifaqı fəaliyyətini canlandıraraq Avropa Birliyinin hərbi təşkilatı funksiyasını öz üzərinə götürməyə çalışırdı.

1996- cı ilin dekabrında AFR və Fransa tərəfindən «vahid strateji hərbi konsepsiya»nın qəbul edilməsi razılaşdırılmış müdafiə sistemi yaradılmasına xidmət edirdi. Bu sistem çərçivəsində NATOnun sülhyaratma əməliyyatlarının legitimliyi məsələsi də həll olundu. Yəni hər hansı bir münaqişəni nizama salmaqla məşğul olmazdan əvvəl BMT-nin və ya ATƏT-in mandatını almaq məsələsi dəqiqləşdirilməli idi. Transatlantika münasibətlərinin xarakteri və

dinamikası tərəflərin mənafelərinin uzlaşmasından və toqquşmasından bilavasitə asılı idi. Lakin həmin mənafelərin qarşılıqlı asılılığı çox dərin idi və bütün səviyyələrdə transatlantika münasibətlərinin dünya siyasətinə böyük təsirqün başlıca mənbəyi bununla bağlı idi. Bu təsirin beynəlxalq sabitliyin saxlanması, tərəqqinin zəruri şərti kimi geniş əməkdaşlıq və qlobal problemlərin həlli kimi ıriəsələlərə yönəlməsi isə bütün beynəlxalq münasibətlərin inkişafı üçün böyük əhəmiyyət daşıyırdı.

90-cı illərdə NATO başlıca olaraq məhəlli münaqişələrin həlli ilə məşğul olmağa başladı. Bu isə müqavilə iştirakçılarının təşkilata münasibətində dəyişikliyə səbəb oldu. Avropa ölkələrinin qitədən kənarda t>u və ya digər münaqişənin həll olunmasında həvəslə iştirak edəcəyini demək çətin idi. Bir tərəfdən, blokun üzvləri hansısa marağı olmadığı halda müəyyən bir münaqişəyə cəlb oluna, digər tərəfdən isə, ümumi mənafe olmadığına görə blokun üzvlərindən biri münaqişəni təkbaşına həll etmək məcburiyyətində qala bilərdi. Beləliklə, NATO-nun yeni missiyası bir tərəfdən, mövcudluq üsulu oldusa da, digər tərəfdən, mərkəzdənqaçma amili oldu. Bu yeni keyfiyyət həm də NATO-nun bütün üzvlər üçün məqbul siyasi strategiya hazırlamasını da çətinləşdirirdi. Məhəlli münaqişələrin həlli zamanı ABŞ-Qərbi Avropa əməkdaşlığının strukturu hələ dəqiq müəyyənləşdirilməmişdi. Elə ABŞ-m özü də yeni dövrdə Avropa işlərində öz rolunu tamamilə dəqiqləşdirməmişdi. Rusiyadakı islahatların geosiyasi planlar nöqteyi-nəzərindən verəcəyi nəticələrin və Avropa Birliyi çərçivəsində siyasi və hərbi inteqrasiyanın yekunlarının qeyri-müəyyənliyi ABŞ-a Avropa siyasətini dəqiqləşdirməkdə mane olurdu. Hər halda NATO-nun siyasi strategiyası ilə yeni tərəfdaşlığın konsepsiyası qarşılıqlı asılı idi. Belə ki, bu strategiya ümumilikdə Transatlantika münasibətlərindəki dəyişiklikləri nəzərə alırdı.

***BMT 90-cı illərdə***

90-cı illərdə beynəlxalq münasibətlərində səciyyəvi cəhətlərindən biri BMT-nin rolunun yüksəlməsi oldu. Təşkilat sülhün və təhlükəsizliyin qorunmasında mühüm rol oynadı. Bununla belə, BMT-nin bir sıra problemləri də var idi.

Birinci problem - qavrayış problemi idi. Dünya ictimaiyyətinin böyük bir hissəsi BMT dedikdə, adətən yaşıl dəbilqəliləri və sülhü qorumaq əməliyyatlarını başa düşürdülər. Bu isə yanlışlıq idi. BMT fəaliyyətinin təxminən 20 faizi sülhü qorumaq əməliyyatları ilə bağlı olsa da qalan 80 faizi texniki yardım göstərmək, iqtisadi əməkdaşlıq, demokratikləşdirmə, seçkilərə kömək, insanın hüquqlarının qorunması, ətraf mühitin mühafizəsi və başqa məsələlərlə bağlı idi.

İkinci problem - sülhü qorumaq əməliyyatlarına kompleks deyil, ayrı-ayrılıqda baxılmaqla bağlı idi. İnsanlar bu sahədə BMT-nin fəaliyyətini uzunmüddətli deyil, sadəcə bir-iki dəqiqəlik televiziya verilişləri ilə izləyərək və ya qəzet məlumatlarını oxuyaraq nəticə çıxarırdılar. Əslində bu, çox mürəkkəb bir məsələ idi, onun çoxlu tərəfləri var idi.

Üçüncü problem - donor yorğunluğu problemi idi. «Soyuq 'müharibə» qurtardıqdan sonra donor ölkələrin bir qismi beynəlxalq məsələlərlə az maraqlanırdılar. Onlarda üstün istiqaməti ya təcridçilik, ya da qatı millətçilik tuturdu. Onların bir çoxu dünyanın hər hansı regionunda sülhü təmin etmək üçün maliyyə, hərbi və maddi ehtiyatları ayırmağa laqeyd yanaşırdılar. BMT üzvlərinin çoxunun, hətta böyük dövlətlərin başı daxili problemlərini həll etməyə qarışmışdı. Onların bəzisi BMT-yə göstərilən yardımı öz ölkə əhalisinin sosial-iqtisadi ehtiyaclarına sərf etməyə üstünlük verirdi.

Dördüncü problem - maliyyə məsələsi idi. BMT yarandığı vaxtdan bəri ən ağır və mürəkkəb maliyyə böhranı keçirirdi. Üzv dövlətlər hətta büdcəyə borclarını ödəməkdə çətinlik çəkirdilər.

Beşinci problem - ideoloji və inam böhranı idi. «Soyuq müharibə» dövründən sonra dünya yeni sistemlə üzləşdi. Çoxları bu sistemin funksiya qaydalarını yaxşı bilmirdilər. Lakin bütün bunlara baxmayaraq, BMT dünyada yeganə universal təşkilat olaraq qalırdı və onun geniş imkanları var idi.

### *NA TO 90-cı ilbrdə beynəlxalq münasibəmbrdə*

Şimali Atlantika Müqavilə Təşkilatı yarandığı dövrdən beynəlxalq münasibətlərə böyük təsir göstərərək sülh, təhlükəsizlik və beynəlxalq sabitliyin qorunmasında mühüm rol oynadı. 90-cı illərdə NATO beynəlxalq münasibətlərə təsirini saxlayaraq dünyada baş verən dəyişikliklərlə əlaqədar yeni funksiyalar əxz etdi. Dünya sosializm sisteminin dağılmasından və Varşava Müqaviləsinin buraxılmasından sonra NATO daha çox məhəlli münaqişələrin tənzimlənməsi ilə məşğul olmağa başladı. Dünyanın başlıca dövlətinə çevriləndən sonra ABŞ üçün NATO-nun əhəmiyyəti daha da artdı. NATO-nun öz fəaliyyətində üstünlük verdiyi mühüm vəzifələrdən biri Rusiya Fedeasiyası ilə münasibətlər oldu. Beynəlxalq münasibətlərdə öz mövqeyini saxlamaq üçün NATO rəhbərliyi bir sıra qərarlar qəbul etdi. 1994-cü ilin yanvarında «Sülh naminə tərəfdaşlıq» proqramının qəbul edilməsi bu cəhətdən səciyyəvi oldu. Proqramın məqsədi keçmiş sosialist dövlətləri ilə müdafiə sahəsində əməkdaşlığa başlamaq, onları gələcəkdə NATO-ya daxil olmaq üçün hazırlamaqdan ibarət idi. İndiyədək 25-dən çox dövlətin qoşulduğu bu proqramın çərçivə sənədini Azərbaycan Respublikası 1994-cQ il mayın 5-də imzaladı. Proqram təhlükəsizlik məsələlərində dövlətlərin məsləhətləşməsini də nəzərdə tuturdu. NATO-nun silahlı qüvvələrindən ilk dəfə 1994-cü ilin aprelində Bosna və Hersoqovinada serblərin təcavüzkar hərəkətlərinin qarşısını almaq üçün istifadə edildi. 1999-cu ilin martında NATO hərbi qüvvələri Kosovo münaqişəsini həll etmək üçün orada iri miqyaslı sülhyaratma əməliyyatı həyata keçirtdi. Sülhyaratma əməliyyatlarına daha çox ölkəni cəlb etmək məqsədi güdən «Millətlərarası operativ qüvvələr» konsepsiyası NATO Şurası tərəfindən qəbul edildi. Onun əsas vəzifəsi sülhməramlı məqsədlər, humanitar, axtarış, xilasetmə əməliyyatları və təbii fəlakətlərin nəticələrini aradan qaldırılması zamanı silahlı qüvvələrin döyüş vəziyyətinə

gətirilməsi idi. 1999-cu ilin martında Kosovo münaqişəsi zamanı Rusiya Fedeasiyası NATO ilə əlaqələrini kəsdi. 2000-ci ilin fevralında onların münasibətləri yenidən bərpa olundu. NATO rəhbərliyi imkan daxilində yeni üzvlərin hesabına təşkilatın genişlənməsinə çalışırdı. 1999-cu ilin aprelində Vaşinqtonda NATO-nun yaradılması təntənəli şəkildə qeyd olundu. Bu tədbirlər zamanı NATO Şurası məhəlli münaqişələrin həlli ilə bağlı yeni qərar qəbul etdi. Həmin qərara görə NATO daha ardıcıl şəkildə münaqişələri aradan qaldırmaq üçün sülhyaratma əməliyyatlarının həyata keçirilməsi ilə məşğul olmalı idi. Bu zaman NATO BMT Təhlükəsizlik Şurasından icazə almağa ehtiyac görmürdü. NATOnun yubiley tədbirlərində Azərbaycan Respublikasının Prezidenti də iştirak etdi. 1996-cı ildən Azərbaycanın NATO ilə əlaqələri daha da genişləndi. 1999-cu ildə NATO-nun Kosovo- dakı əməliyyatında Türkiyə hərbi hissələri tərkibinə 30 nəfər Azərbaycan əsgəri də qoşuldu. NATO ATƏT-lə geniş əlaqə saxlayırdı. ATƏT sülhyaratma əməliyyatlarında NATO silahlı qüvvələrindən istifadə etməsinə etiraz etmədi.

SSRİ-nin süqutu NATO-nun islahatı ilə bağlı dəyişiklikləri zəruri etdi. Sovet İttifaqı dağıldıqdan sonra NATO-nun rəqibinin aradan qalxması ilə bu təşkilatın müdafiə ittifaqı kimi mövcudluğu sual altına düşdü. Bu dövrdə NATO-nun gələcəyinə dair əsasən iki fikir formalaşdı; 1. NATO-nun öz məqsəd və vəzifələrində dəyişiklik edərək məhəlli münaqişələrin həlli ilə məşğul olması; 2. NATO-nun buraxılması.

SSRİ dağıldıqdan az sonra Rusiya Federasiyasının prezidenti B.N.Yeltsin bəyanatında bildirdi ki, Rusiya NATOnun bərabərhüquqlu üzvü ola bilər. Bu bəyanat NATO dairələrində geniş müzakirə olunsa da uzağa getmədi. Qərb dövlətləri bu zaman «dünənki düşməndən yaxın müttəfiq olmaz» prinsipinə əməl etdilər. Ona görə də Rusiya digər müstəqil dövlətlər kimi Şimali Atlantika Əməkdaşlıq Şurasına qəbul edildi. Lakin SSRİ-nin varisi və böyük nüvə potensialına malik olan Rusiya ilə münasibətlər arxa plana keçmədi. 1993-

cü ilin apre" ı.də Vankuverdə Rusiya və A(3Ş prezidentlərinin görüşündə NATO ilə bağlı məsələlər də mü/akiı ; olundu.

Keçmiş Varşava Müqaviləsi məkanında beynəlxalq həyatın canlanmasına baxmayaraq Şimali Atlantika Təşkilatı hələ «soyuq müharibə» qurtardıqdan sonrakı dövrdə öz həqiqi rolunuı* axtarışında idi. NATO hələ Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrinin, xüsusilə Polşa, Macarıstan, Çexiya və Slovakiyanın alyansın bərabərhüquqlu üzvü olmaq barədə təkidi' bəyanatlarının reallaşmasının mümkünlüyünə çox da inanmadı. Şərqi Avropa dövlətlərinin NATO-ya daxil olmaq istəyi 1993-CÜ ilin payızuıda Rusiya Federasiyasında yaranmış siyasi böhran və qeyri-sabit vəziyyətlə əlaqədar daha da gücləndi. Yaranmış vəziyyət və beynəlxalq münasibətlərin yeni reallıqları NATO-nun 1994-cü il yanvarın 10-11-də llrüsseldə keçirilən sammitində geniş müzakirə olundu. Bu sammit N/\TO tarixində dönüşün əsasını qoydu. Sammitdə NATO-nun genişləndirilməsi haqqında qərar qəbul edildi. Eyni zamanda NATO-nun qərarlarının Rusiyaya qarşı yönəlmədiyi, äksinə, onun Avropa təhlükəsizliyi problemlərinin həllində Rusiyanın fəal iştirakını nəzərə aldığı qeyd olundu. Rusiya rəhbərliyi bu qərarı tamam başqa cür qarşıladı. Sammitdən sonra NATOnun şərqə doğru genişlənməsi məsələsi Avropanın siyasi həyatında əsas məsələlərdən biri oldu.

Rusiya NAT'O-nun qərarını öz təhlükəsizliyi üçün birbaşa qorxu kimi qiymətləndirdi. Halbuki həmin vaxta qədər Rusiya bu məsələdə o qədər də sərt mövqe tutmurdu. Hələ 1993-cü ilin 'nqustunda Rusiya prezidenti perspektivdə NATO-ya yeni üzvlərin qəbulunu bəyənmişdisə də hərbi dairələrin təzyiqi ilə o, bu məsələdə öz mövqeyini dəyişdi. Nəticədə Rusiyanın Qərblə əlaqələri zəiflədi.

Lakin Rusiyanın etirazlarına məhəl qoymayan ABŞ konqresi 1994-cü il yanvarın 27-də xüsusi qərarla NATO-nun genişlənmə.Sıi.ı bə>əndi. ,A.BŞ-m bu hərəkəti NATO ölkələrinin öz qərarından dönmək fikrində olmadığını sübut etdi. Şərqi Avropa dövlətləri özlərinin NATO-ya daxil olmaq cəhdlərini

demokratiyanı saxlamaq, millətçilərin hakimiyyətə gəlmək cəhdlərinin qarşısım almaq və öz ölkələrində milli münaqişələrin qarşısını almaq istəkləri ilə əsaslandırdılar. Polşanın xarici işlər naziri Y.Onitskeviç bildirdi ki, NATO-ya daxil olmaq həm də Rusiyanın onlar üçün yaratdığı təhlükədən qorunmaq üçün zəruridir. Rusiya rəhbərləri Rusiyanın Avropa üçün heç bir təhlükə yaratmadığını, «soyuq müharibə»dən sonra beynəlxalq vəziyyət sabit olduğundan Avropada təhlükəsizlik problemləri ilə məşğul olmağa ehtiyac qalmadığını bəyan etdilər. 1994-cü ilin sonunda Rusiya Budapeşt sammitində ATƏT-də qərar qəbul etmək qaydalarında dəyişiklik edilməsini təklif etdi. Rusiyanın xarici işlər naziri

A. Kozırev Ümumavropa təhlükəsizliyini təmin etmək üçün Qərbi Avropa Birliyi ilə əməkdaşlığı irəli sürdü. Budapeşt sammitində Rusiyanın təklifləri qəbul olunmadı. Rusiya bunu Qərbin Moskvanı Avropa problemlərinin həllindən kənarlaşdırmaq cəhdi kimi qəbul etdi. Qərb dövlətləri NATOnun genişləndirilməsini Rusiyada 1996-cı ilin yayındakı prezident seçkilərinə qədər təxirə saldılar. Amma bu istiqamətdə tədbirlərini də gördülər. Rusiya NATO-nun Şərqi Avropa ölkələrinin təhlükəsizliyini təmin etməyə və həmin ölkələr arasında ziddiyyətləri həll etməyə qadir olmadığını bildirdi. NATO-nun genişlənməsinin yeni «soyuq müharibə»yə səbəb olacağı, dünya müharibəsinə gətirib çıxaracağı və s. bəyan etdi.

1995- ci ilin mayında Moskvada olarkən ABŞ prezidenti

B. Klinton NATO-nun mütləq genişlənəcəyini lakin bunun tədricən olacağını, Avropa yenidən parçalanmaya yol verilmədən ehtiyatla həyata keçiriləcəyini bildirdi. ABŞ hesab edirdi ki, NATO demokratiyanı qorumağa qadirdir. Həm də keçmiş sosialist ölkələri bir daha Rusiyanın təsiri altına düşməməyə çalışırdı. 1995-ci il avqustun 18-də ABŞ-m müdafiə naziri U.Perıı o2 ölkəsinin Avropa və NATO ilə bağlı siyasətindən danışarkən dedi ki, ABŞ üçün Avropa təhlükəsizliyinin yeni strukturunun əsas elementi NATO-nun genişlənməsidir, bu, bütün Avropa - Atlantik regionunda sabitliyin və

təhlükəsizliyin möhkəmlənməsinə kömək edəcək; bu proses tədricən, hərtərəfli hazırlanmaq şərti ilə və gizli müqavilələr olmadan həyata keçiriləcək; alyansa üzv olmaq istəyən hər bir ölkə ayrıca müzakirə olunacaq və NATO üzvü olan heç bir ölkə bu məsələdə alyansın qərarına veto qoya bilməz.

ABŞ üçün Avropada yeni təhlükəsizlik sisteminin digər mühüm elementi - Rusiya ilə əməkdaşlığın möhkəmlənməsi və inkişafı idi. Buna görə də ABŞ və digər Qərb ölkələri NATOnun genişlənməsi ilə paralel olaraq Rusiya ilə münasibətləri inkişaf etdirməyə, həm «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində, həm də NATO - Rusiya xətti ilə razı idilər. ABŞ Rusiyanın NATO-nu özünə düşmən hesab etməməsinə çalışırdı. ABŞ və NATO genişlənmə məsələsini Rusiya ilə əməkdaşlıq şəraitində həll etməyə çalışırdı. Rusiya isə mövqeyini dəyişmək istəmirdi. A.Kozırev deyirdi ki, NATO-nun daha kommunizm adlı düşməni yoxdur; NATO hərbi-siyasi ittifaqdır; ona görə də NATO-nu genişləndirmək tərəfdarları hərbi- strateji xarakterli arqumentlərindən biri kimi təhlükəsizlik boşluğunu doldurmalıdırlar; NATO-nun Rusiya sərhədlərinə yaxınlaşması elə çəkindirmək siyasətinin davamıdır.

1995- ci ilin sentyabrında NATO ölkələrinin xarici işlər nazirlərinin açıqladıqları sənəddə ittifaqın genişlənməsi prosesinin şərtləri göstərildi. Həmin şərtlər 4-5 il müddətində həyata keçirildikdən sonra yeni üzvlər NATO-ya qəbul edilməli idi. NATO-nun üzvü olan hər bir ölkə öz ərazisində təşkilatın həm adi silahlarını, həm də taktiki nüvə silahlarını yerləşdirməyə hazır olmalı idi. Bu şərt haqqında 1995-ci ilin dekabrında NATO silahlı qüvvələrinin baş komandanı C.Şalikaşili məlumat verdi. Şərqi Avropa ölkələri öz ərazilərində nüvə qüvvələrinin yerləşdirilməsinə razı olduqlarını bəyan etdilər.

1996- cı ildə NATO-nun genişlənməsi Avropanın beynəlxalq həyatında başlıca problem idi. Bu məsələ 1996-cı ilin fevralında Rusiya prezidenti B.Yeltsinlə AFR kansleri H.Kolun görüşündə müzakirə edildi. Avropanın bəzi dairələrində NATO-nun genişlənməsinin zəruriliyinə şübhə

yarandı. Çünki Polşa, Macarıstan, Çexiya və Slovakiyanın ittifaqa qəbul edilməsi 60 milyard dollardan çox xərc tələb edirdi. Lakin bu məbləğ də NATO üzvlərini narahat etmədi. 1996-cı ilin iyulunda Polşa prezidenti A.Kvasnevski ABŞ-a rəsmi səfər etdi. Görüşdə hər iki ölkə prezidenti NATO-nun genişlənməsini müdafiə edərək bildirdilər ki, genişlənmə prosesi heç kimə qarşı yönəlməmişdir və Avropa təhlükəsizliyini möhkəmləndirəcəkdir. Hər iki prezident NATO şurasının dekabrda növbəti mərhələ haqqında qərar qəbul edəcəyini bildirdilər.

1996-cı ildə Rusiyada prezident seçkilərində yenə B.Yeltsin qalib gəldi. Qərb dövlətləri Rusiyada demokratik islahatların davam etdiriləcəyi ümidi ilə B.Yeltsini müdafiə etdilər. ABŞ isə NATO-nun genişlənməsi məsələsində Rusiya ilə kompromisə gəlmək məqsədi ilə səylərini fəallaşdırdı.

1996-cı ilin iyulunda ' ABŞ-ın vitse-prezidenti A.Qorun Rusiyaya rəsmi səfəri zamanı o, Bosnada ABŞ və Rusiya silahlı qüvvələrinin tərəfdaşlığını yüksək qiymətləndirdi. O, mətbuat konfransında qeyd etdi ki, Rusiya ilə tərəfdaşlığın dərinləşməsi və NATO-nun genişlənməsi prosesi eyni vaxtda gedəcəkdir, NATO tədricən, aşkar və kəskin hərəkətlər olmadan genişləndiriləcəkdir.

İyulda ABŞ konqresi NATO-nun genişlənməsi haqqında 3564 №-li qanun qəbul etdi. Lakin həmin proses dərinləşdikcə Rusiya ilə kompromisin zəruriliyi də artdı. Sentyabrın 26-da NATO ölkələri müdafiə nazirlərinin Norveçin Berqem şəhərində keçirilən görüşünə Rusiyanın müdafiə naziri İ.Rodionovun dəvət olunması bu istiqamətdə mühüm addım oldu. Görüş faktiki olaraq əvvəl təklif olunan «16+1» sxemi ilə keçirilirdi. Görüşdə NATO ilə Rusiya arasında xüsusi münasibətlər, Bosnadakı növbəti tədbirlər, «Sülh naminə tərəfdaşhğ»m inkişafı və möhkəmləndirilməsi, NATO-nun genişləndirilməsi və NATO-ya rəhbərliyin təkmilləşdirilməsi məsələləri müzakirə olundu. Danışıqlara başlamaq üçün 1997- ci ildə NATO sammitinə bəzi ölkələrin dəvət olunması qərara

alındı. Rusiya Norveç görüşündə alyansın genişlənməsinin zəruriliyinə inandı. Rusiyanın xarici işlər naziri Y.Primakov NATO-nun genişlənməsinə mane ola bilməyəcəklərini söylədi. Eyni zamanda Rusiya NATO-nun genişlənməsinə qarşı zəruri tədbirlər görəcəyini bəyan etdi. Rusiya bu zaman hər şeydən əwəl, MDB iştirakçısı olan dövlətlərin hərbi inteqrasiyasının güclənməsini nəzərə alırdı. Lakin Rusiyanın maliyyə imkanlarını və MDB iştirakçısı olan dövlətlər arasında yekdilliyin olmamasını nəzərə alan Qərb dövlətləri onun notalarını saya salmadılar. Həmin vaxt İngiltərədə rəsmi səfərdə olan Moldova prezidenti M.Snequr dedi: «Moldova NATO ilə əməkdaşlığa öz təhlükəsizliyinin təminatı kimi baxır».

Rusiya NATO-nun genişlənməsi məsələsini alyansa daxil olmaq istəyən ölkələrlə deyil, Qərb dövlətləri ilə müzakirə etdi. Bu hal Şərqi Avropa ölkələrini əsəbləşdirirdi. Moskva hələ də köhnə streotiplərlə yaşayırdı. Rusiya keçmiş sosialist ölkələrinin NATO-ya girməsinə mane olduqca həmin ölkələrin NATO-ya daxil olmaq istəyi güclənirdi.

Qərb dövlətləri NATO-ya yeni üzvlər qəbul etmək məqsədində yekdil idilər. Lakin yeni üzvlərin qəbul olunması vaxtı hələ dəqiq müəyyən edilməmişdi. Bəzi Qərb dövlətləri əvvəlcə NATO-ya Vişeqrad qrupu (Polşa, Macarıstan, Çexiya, Slovakiya) ölkələrinin qəbul edilməsini, digərləri isə yeni üzvlərin NATO-ya və Avropa İttifaqına eyni vaxtda qəbul edilməsini təklif edirdilər. ABŞ prezidenti Bili Klinton 1996-cı il oktyabrın 22-də Detroytda seçicilər qarşısındakı çıxışlarında dedi ki, NATO-nun ilk yeni üzvləri 1999-cu ildə NATO-nun 50 illik yubileyinə qədər onun bərabərhüquqlu üzvləri olmalıdır. B.Klinton Rusiya ilə NATO arasında rəsmi sazişin hazırlanmasını təklif etdi.

Rusiya-NATO sazişinin zəruriliyinə həmin dövrdən NATO-nun baş katibi X.Solana da işarə etdi. Stokholmda keçirilən mətbuat konfransında o, ikitərəfli münasibətlərin prinsiplərini və məsləhətləşmə mexanizmini müəyyən edən

sənədin işlənib hazırlamasının və 1997-ci ilin ortalarına qədər onun imzalanmasının zəruriliyini bildirdi.

1997- ci il iyulun 8-9-da NATO-nun Madriddə keçirilən sammitində yeni üzvlərin qəbulu qərara alındı. Sammitdə nazirlər Moskva ilə dinc dialoqa, hətta müəyyən güzəştlər etməyə hazır olduqlarını bəyan etdilər. Güzəştlərdən danışan ABŞ dövlət katibi U.Kristofer NATO-ya yeni üzvlərin qəbul ediləcəyini, onların ərazisində nüvə silahı yerləşdirməyə ehtiyac olmadığını bildirdi. Həmin dövrdə Brüsseldə olan Y.Primakov Moskvanın əvvəlki kimi NATO-nun genişlənməsinə mənfi yanaşdığını, lakin ikitərəfli məsləhətləşmələrdən sonra NATO ilə müqavilə imzalamağa hazır olduğunu söylədi. U.Kristofer Rusiya ilə NATO arasında müqavilə bağlaması nəticəsində Avropanın birləşməsi prosesinin başa çatacağmı bildirdi. ATƏT-nin Lissabon sammitində NATO ilə Rusiya arasında məsləhətləşmələr keçirildi.

NATO rəhbərliyini Rusiya Dövlət Dumasında SHS-2 müqaviləsinin təsdiqi məsələsi də narahat edirdi. 1996-cı ilin dekabrında NATO-nun hərbi və nüvə planlaşdırması komitələri Rusiya Dövlət Dumasını həmin müqaviləni qısa müddətdə təsdiq etməyə çağırdı. ABŞ-m müdafiə naziri U.Perri Rusiya Dövlət Dumasında həmin müqavilənin müzakirəsində iştirak etdi.

1997- ci ilin yanvarında Rusiya prezidenti B.Yeltsinin AFR-in kansleri H.Kolla görüşü oldu. Görüşdə əsas müzakirə obyekti olan NATO-nun genişlənməsi məsələsinə başqa mövqedən yanaşıldı. Almaniya hakim dairələrində belə bir fikir var idi ki, guya NATO-nun genişlənməsi təkcə Rusiyaya qarşı deyil, həm də Almaniyaya qarşı yönəlmişdir və ABŞ Bjezinski doktrinasını həyata keçirərək Almaniyanı mühasirəyə alır. Almaniyada bəziləri bunu gəncliyində nasizmdən qaçmış M.Olbraytın ABŞ-m dövlət katibi təyin olunması ilə əsaslandırırdı. Almaniya Rusiyanın NATO ilə əməkdaşlığının yeni planını təklif etdi. Bu plana görə NATO-nun strukturunda Rusiyanın iştirakı ilə «17-lər komitəsi» yaradılmalı idi. Bu

komitə NATO-nun fəaliyyət qabiliyyətini məhdudlaşdırmamaq şərti ilə müdafiə və təhlükəsizlik məsələlərini müzakirə etməli idi. 1997-ci ilin yanvarında NATO-nun baş katibi X.Solana Moskvaya rəsmi səfərə gəldi. Lakin bu səfər zamanı NATOnun genişlənməsi ilə bağlı X.Solananm Rusiya rəhbərliyi ilə apardığı danışıqlar haqqında ətraflı məlumat verilmədi. Fevralda NATO-nun baş katibi X.Solana rəsmi səfərlə Güney Qafqaza, o cümlədən Azərbaycana gəldi. Azərbaycan Respublikası prezidenti H.Əliyevlə X.Solananm görüşündə regional problemlər, Dağlıq Qarabağ problemi, sülhü və təhlükəsizliyi qorumaq sahəsində NATO-nun fəaliyyəti kimi məsələlər müzakirə olundu. Bundan sonra X.Solana Qazaxıstan, Mərkəzi Asiya və Ukraynada oldu. Ukrayna NATO-nun genişlənməsi məsələsinə bitərəf yanaşsa da Qərblə əməkdaşlıqda maraqlı idi. X.Solananm Ukrayna rəhbərləri ilə görüşündə NATO-nun Ukrayna ilə xüsusi tərəfdaşlığı məsələləri müzakirə olundu. Qərb dövlətləri də Ukraynanın qısa vaxtda NATO-ya daxil olmasına çalışırdılar.

Mayın 10-da Helsinkidə B.Yeltsinlə B.Klintonun görüşü oldu. Görüşdən sonra Rusiya xarici işlər naziri Y.Primakov bildirdi ki, «NATO-Rusiya xartiyası» mayın 27-də Parisdə imzalana bilər. Mayın 14-də X.Solananm Moskvada Y.Prima- kovla görüşü oldu. Mayın 27-də Parisdə NATO ilə Rusiya Federasiyası arasında «Qarşılıqlı münasibətlər, əməkdaşlıq və təhlükəsizlik haqqında Akt» imzalandı. Sənəd girişdən və dörd bölmədən ibarət idi: məsləhətləşmə və əməkdaşlıq mexanizmi; NATO-Rusiya birgə daimi şurası; məsləhət və əməkdaşlıq sahələri; hərbi-siyasi sahə. Bu sənəd Avropa təhlükəsizliyinə xidmət edirdi. Sənədə görə tərəflərdən biri o birinin qərarına veto qoya bilməzdi.

Rusiya NATO-nun genişlənməsinə mane ola bilmədi. NATO isə yeni üzvlərinin ərazisində nüvə silahı yerləşdirməyəcəyini vəd etdi.

İyulun 8-9-da Madriddə NATO sammitində Polşa, Macarıstan və Çexiya ilə danışıqlara başlamaq qərara alındı.

Dekabrın 16-da NATO-nun Brüssel Şurasının iclasında Çexiya, Macarıstan və Polşanın NATO-ya daxil olması haqqında protokol imzalandı. 1998-ci ilin dekabrında NATO ölkələrinin xarici işlər nazirlərinin görüşündə 1999-cu ilin aprelində Vaşinqtonda NATO-nun sammitində yeni üzvlərin qəbulu barədə qərar qəbul olundu. 1999-cu il martın 12-də ABŞ-ın İndependis şəhərində H.Trumen kitabxanasmdakı təntənəli mərasimdə Polşa, Çexiya və Macarıstan xarici işlər nazirləri NATO-ya qoşulmaları haqqında təsdiq sənədlərini ABŞ dövlət katibi M.Olbrayta təqdim etdilər. Martın 16-da isə NATO-nun Brüsseldəki mənzil-qərargahı qarşısında Polşa, Çexiya və Macarıstanın milli bayraqlarının təntənəli surətdə qaldırılması ilə onların alyansa qəbul olunması prosesi başa çatdı.

NATO-ya üzv olmaq xeyli çətin bir proses olub, müəyyən öhdəliklərin yerinə yetirilməsini tələb edirdi. Təşkilatın üzvü olan ölkələr bundan ötrü dörd prinsip müəyyən etmişlər.

***Birinci prinsip kollektiv təhlükəsizlikdir*** Təşkilatın nizamnaməsinin 5-ci maddəsinə görə hamı biri üçün, biri hamı üçün prinsipi əsas götürülür. Bununla belə, hər bir ölkənin öz hərbi struktyru^ öz qüvvəsi və eyni zamanda hamını birlikdə qoru.naqdan ötrü ümumi struktur vardır.

***İkinci prinsip demokratiyadır*** NATO sadəcə olaraq 19 ölkə demək deyildir. NATO - dünyanın 19 güclü və demokratik cəhətdən müvəffəqiyyətlə inkişaf etmiş ölkəsinin ittifaqıdır. Bu ölkələr sülhü və azadlığı, sərhədlər daxilində insan hüquqlarını qoruyurlar, xarici ölkələrin suverenliyinə və sərhədlərinin bütövlüyünə hörmət edirlər. Onların silahlı qüvvələri mülki nəzarət altındadır.

***Üçüncü prinsip konsensusdur.BM*** prinsipə görə NATO özünün geniş tərkibinə baxmayaraq konsensus əsasında fəaliyyət göstərməlidir. Deməli, yeni üzvlər bütün məsələlərdə razılaşmalıdırlar. Onlar ittifaqın bütün üzvlərinin tarixi.

mədəniyyəti və adət-ənənələrinə hörmət etməlidirlər, beynəlxalq təhlükəsizlik məsələlərində olan ixtilafları əməkdaşlıq ruhunda həll etməlidirlər. İttifaqın daxilində qeyri-sabitlik yolverilməzdir.

***Dördüncü prinsip qarşılıqlı təhlükasizUkdir*** NATO-nun silahlı qüvvələri birgə əməliyyatlar keçirirlər və birgə planlaşdırma aparırlar. Onlar hərbi büdcələrini bir-birindən gizlətmirlər, bəzən eyni silahlardan istifadə edirlər və silahlı qüvvələrini səmərəli birləşdirmək üçün çoxlu ehtiyatları vardır.

NATO ilə əməkdaşlıq, ona daxil olmaq bir sıra prosedur və prinsipial məsələlərin həllini tələb edir. Artıq 1995-ci ilin əvvəli üçün NATO-nun «Sülh naminə əməkdaşlıq» proqramına 40 ölkə qoşuldu. Bu prinsiplər NATO-ya daxil olmaqda əngəl deyil, təşkilatda və dünyada sülhə və sabitliyə təminat idi.

***Kosovo münaqişəsi***

90-cı illərdə beynəlxalq münasibətlərdə Balkan yarımadasında baş verən hadisələr mühüm yer tutdu. Balkan yarımadası və orada cərəyan edən proseslər dünyadakı və Avropadakı vəziyyətə böyük təsir göstərdi. Beynəlxalq münasibətlərin inkişafındakı keçid mərhələsində Balkanlardakı proseslərin aktuallığı daha da artdı. Kosovo münaqişəsi hər şeydən əvvəl, 90-cı illərdə Balkan yarımadasında beynəlxalq münasibətlərin inkişafının nəticəsi oldu. Bu hadisə beynəlxalq münasibətlərin inkişafındakı keçid mərhələsində məhəlli münaqişələrin sayının artdığını təsdiq etdi. Kosovo münaqişəsi Yuqoslaviya Federativ Sosialist Respublikasının dağılmasının, onun yerində yaranmış yeni müstəqil dövlətlər arasındakı ziddiyyətİəım, həmin ziddiyyətlərin kəskinləşməsinin və bir sıra Avıopa dövlətlərinin xarici siyasətində «Balkan elementhmin fəallaşmasmm nəticəsi idi. Bu münaqişə Rusiya Federasiyasının Balkan yarımadasında öz

mövqeyini itirmək istəməməsi nəticəsində yaranmışdı. Kosovo münaqişəsinin səbəbləri içərisində NATO-nun məhəlli münaqişələrin həlli ilə sərbəst və geniş şəkildə məşğul olmağa başlamasını və Kosovoda yaşayan albanların Serbistandan ayrılıb özlərinin müstəqil dövlətlərini yaratmaq uğrunda silahlı mübarizələrini, də qeyd etmək lazımdır. Serbistan hökuməti prezident S.Miloşeviç başda olmaqla beynəlxalq təşkilatların, böyük dövlətlərin və albanların təzyiqinə baxmayaraq ölkənin ərazi bütövlüyünün pozulmasının əleyhinə idi. Digər tərəfdən, serb hökuməti Kosova vilayətinin muxtariyyəti)li də bərpa etmək istəmirdi. Kosovoya Serbistan tərk’birıı.lə muxtar vilayət statusu 1945mi ildə verilmişdi. 80-cı illərdə Kosova əhalisinin 80%-ni təşkil edən albanların müstəqillik uğrunda müxtəlif formada çı.xışları Yuqoslaviya ordusu tərəfindən yatırılmışdı. YFSR-nın parçalanmasından sonra Kosova albanları yenidən mübarizəyə başladılar. Onlar 1990-cı ilin iyulunda Kosovo Respublikasının yaradılması haqqında siyasi bəyannamə qəbul etdilər. Buna cavab olaraq Serbistan skupşinası Kosovanın muxtariyyatmı ləğv etdi. Lakin Kosova albanları Yuqoslaviya Respublikaları İttifaqına qarşı mübarizəni davam etdirdilər. Yuqoslaviya Respublikaları İttifaqı 1991-ci ildə Serbistan və Çernoqoriyanın birləşməsi nəticəsində yaradıldı. 1992-ci ilin apıeliıuiə həmin dövlətin konstitusiyası qəbul edildi. Konstitusiya ilə ölkə əhalisinə, o cümlədən milli azlıqlara geniş hüquq və azadlıqlar verildi. Kosovo albanlarının silahlı dəstələri 1996-cı ildə Kosovo Azadlıq ordusunda birləşdi. Belqrad daim Kosovaya yeni hərbi qüvvələr göndərərək albanlara qarşı soyqırım və etnik təmizləmə siyasətini həyata keçirirdi. YRİ Kosova albanlarına qarşı mübarizəni BMT Təhlükəsizlik Şurasının sanksiyaları şəraitində aparırdı. Həmin sanksiyalar YRİ-yə qarşı Bosniya və Hersoqovinadakı silahlı münaqişəyə qarışdığına görə 1992-ci ilin iyunundan tətbiq edilmişdi. Kosovo münaqişəsini həll etmək üçün Belqradın razılığı ilə ATƏT-in nümayəndələri, keçmiş Yuqoslaviya üzrə əlaqə qrupu cəlb olundu. Vasitəçilik səyləri nəticəsində münaqişədə iştirak

edən tərəflər arasında 1998-ci ildə Paris yaxınlığındakı Rambuye qəsəbəsində danışıqlar başlandı. Orada vasitəçilərin təzyiqi ilə 5 bənddən ibarət hazırlanmış sənəd Kosovo albanları tərəfindən imzalandı. Lakin Serbistan tərəfi həmin sənədə qoşulmadı. Rambuye siyasi sazişi Kosovo albanlarına geniş muxtariyyat verilməsini və həmin sazişin xarici qoşunların nəzarəti altında həyata keçirilməsini nəzərdə tuturdu. Lakin YRİ-nin rəhbərliyi ABŞ və NATO-nun bütün tələblərinə baxmayaraq Rambuye sazişlərini imzalamadı. Buna görə də 1999-cu il martın 24-də NATO YRİ-yə qarşı «həlledici qüvvə» adı ilə hərbi əməliyyatlara başladı. Əməliyyatların məqsədi Kosovadakı humanitar fəlakətin qarşısını almaq idi. NATO Serbistan ərazisində hərbi obyektləri təyyarələrdən atılan bombalar, gəmi və təyyarələrdən buraxılan raketlər vasitəsilə bombardman etdi. Hava limanları, Belqrad, Novı Sad, Priştina, Pançevo kimi şəhərlərdəki hərbi obyektlər, strateji əhəmiyyətli nəqliyyat xətləri və körpülər planlı şəkildə dağıdıldı.

YRİ-nin hökuməti ölkəsinə qarşı NATO-nun başladığı müharibədə təslim olmaq fikrində deyildi. İlk gündən bütün ölkə ərazisində hərbi vəziyyət elan olundu. Hərbi-hava qüvvələri NATO təyyarələrini vurmağa səy göstərdi. Eyni zamanda YRİ hökuməti polisin və ordunun köməyi ilə Kosovodan albanları kütləvi şəkildə qovmağa başladı. Kosovo əhalisi qonşu Albaniyaya və Makedoniyaya qaçmağa başladı. Bu isə NATO-nun işini daha da artırdı. NATO artıq həm də qaçqınların yerləşdirilməsi, onların ərzaqla və tibbi ləvazimatla təmin olunması məsələsi ilə də məşğul olmalı idi.

Balkanlardakı hadisələri diqqətlə izləyən Rusiya Federasiyası NATO ilə bütün əməkdaşlığını dayandırdı. YRİ- ni müdafiə edən Rusiya NATO-nun hərəkətlərinin BMT Nizamnaməsinə zidd olduğunu bəyan etdi.

NATO-nun baş katibi X.Solana hərbi əməliyyatlar başlanan gün Brüsseldə televiziya ilə çıxışında NATO-nun

Yuqoslaviyaya müharibə elan etmədiyini və onun xalqına qarşı heç bir düşmən niyyətində olmadığını bildirdi.

Çin Xalq Respublikası Yuqoslaviyaya qarşı hərbi əməliyyatların dərhal dayandırılmasını və Kosovo probleminin YRİ-nin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsipi əsasında siyasi vasitələrlə həll olunmasını təklif etdi. Çin Kosovo problemini YRİ-nin daxili işi sayaraq xarici hərbi müdaxiləyə BMT TŞ icazə verməli olduğunu bəyan etdi.

Hindistan NATO-nun Yuqoslaviyaya qarşı qüvvə tətbiqini pisləyərək bildirdi ki, Yuqoslaviya böhranı yalnız dialoq və danışıqlar prosesi kimi dinc vasitələrlə tənzimlənməli, bütün ölkələr YRİ-nin suverenliyinə və ərazi bütövlüyünə hörmət etməlidirlər. Rusiya Çin və Hindistanın bəyanatlarını müdafiə etdi. Öz növbəsində Rusiya Yuqoslaviyaya qarşı hərbi əməliyyatların dərhal dayandırılmasını və problemin siyasi-diplomatik vasitələrlə həllini tələb etdi. Rusiya hökuməti əvvəlcə baş nazir Y.Primakovu danışıqlar aparmaq üçün Belqrada göndərdi. Lakin həm YRİ-nin rəhbərliyi, həm də NATO Rusiyanın təklifləri ilə razılaşmadı. Əksinə, NATO bölgədə silahlı qüvvələrini daha da artırdı. Serbistan ərazisində körpülərin, zavodların, fabriklərin və yaşayış məntəqələrinin bombalanması gücləndi. YRİ Kosovaya qarşı qurudan hərbi əməliyyatlara başlamaqla hədələdi. Rusiya Balkanlardakı hadisələr haqqında məlumat toplamaq üçün Aralıq dənizinə kəşfiyyat gəmisi göndərdi. YRİ-nin müxtəlif silahlar vasitəsilə bombalanması bölgədə ekoloji vəziyyət üçün də ciddi təhlükə yaratdı. NATO təyyarələri üç neftayırma zavodunu və çoxlu yanacaq anbarını dağıtdı. Hərbi əməliyyatların başlamasından keçən bir ay ərzində YRİ-nin iqtisadiyyatına 20 milyard dollar məbləğində ziyan dəydi.

Rusiya prezidenti B.Yeltsin V.Çernomirdini Yuqoslaviya böhranının həlli üzrə xüsusi nümayəndə təyin edərək aprelin sonunda Belqrada göndərdi.

Hərbi əməliyyatın başlanması Kosovadan albanların axınını sürətləndirdi. Alban qaçqınları əsasən Makedoniya və Albaniyada yerləşdirilirdi. Onların az bir hissəsi isə NATO ölkələrinə göndərildi.

V.Çernomirdin mayın 18-də Belqradda S.Miloşeviçlə danışıqlar apardı. Rusiya NATO-nun hərbi əməliyyatları dayandırmasına və problemin siyasi yolla həll olunmasına çalışırdı. Rusiya NATO ilə YRİ arasında vasitəçilik etməyə səylər göstərirdi. Rusiya Kosovaya NATO qüvvələrinin deyil, BMT qüvvələrinin göndərilməsinə tərəfdar idi. V.Çernomirdin ardıcıl şəkildə Belqrad, Moskva, Helsinki və Bonnda Yuqoslaviya böhranını dinc yolla həll etmək üçün danışıqlar apardı. Danışıqlarda V.Çernomirdinlə yanaşı Finlandiyanın prezidenti M.Axtisaari və ABŞ dövlət katibinin birinci müavini S.Telbott iştirak etdi. Danışıqların müsbət' nəticə verməsi əhəmiyyətli dərəcədə YRİ-nin prezidenti S.Miloşeviçin mövqeyindən asılı idi. İyunun 2-də V.Çernomirdin və M.Axtisaari Bonnda AFR kansleri H.Şröderlə danışıq apardıqdan sonra Belqrada yola düşdülər. Rusiya danışıqlar davam etdirilməsə dinc tənzimləmə prosesində iştirak etməyəcəyini bildirdi.

Belqradda danışıqlar zamanı S.Miloşeviç sülhyaratma qüvvələrinin BMT bayrağı altında Kosovaya daxil olmasına razı olduğunu söylədi. RF-sı beynəlxalq təhlükəsizlik qüvvələrinə 5 min əsgər verəcəyini bəyan etdi.

«Böyük səkkizlər»in xarici işlər nazirlərinin Bonnda danışıqları başlandı. Onlar Kosovaya dair BMT TŞ qətnaməsinin layihəsini müzakirə etdilər. Həmin günlərdə ABŞ prezidenti B.Klinton bir neçə dəfə Rusiya prezidenti B.Yeltsinlə telefon əlaqəsi saxladı. BMT TŞ qətnaməsində deyilirdi ki, əvvəlcə NATO nümayəndələri ilə YRİ-nin Baş qərargahı arasında texniki məsələlərə dair razılıq əldə olunmalı, sonra Serbistan qoşunları Kosovadan çıxarılmalı və Serbistanın bombalanması dayandırılmalıdır. NATO 78 gündən sonra YRİ-yə qarşı hərbi əməliyyatları dayandırdı.

İyunun II-dən 12-nə keçən gecə İngiltərənin hərbi qüvvələri Kosovaya daxil olmalı və Kosovanın paytaxtı Priştina şəhəri yaxınlığındakı hava limanında NATO-nun sülhyaradıcı qüvvələrinin komandanı ingilis generalı Maykl Ceksonun qərargahı yerləşməli idi. İyunun 10-da general Zavarzinin başçılığı altında 200 nəfərlik rus batalyonu Bosnadan Kosovaya gəlib Priştina yaxınlığındakı hava limanında yerləşərək hava limanına gedən bütün yolları bağladı.'İyunun 11-də İngiltərə hərbi qüvvələri də Priştinaya gəldi. General M.Cekson general- polkovnik Zavarzinlə yaranmış vəziyyəti müzakirə etdi.

Kosovaya daxil olan NATO qoşunları ilə birlikdə qaçqın albanlar öz yerlərinə qayıtdılar. Əvəzində Kosovada yaşayan serblər kütləvi şəkildə oranı tərk etməyə başladılar. Onlar həm Kosovo Azadlıq Ordusunun intiqamından qorxurdular, həm də NATO əsgərlərinin onların təhlükəsizliyini təmin edəcəklərinə inanmırdılar. Kosovo albanları isə Rusiya hərbçilərinin Kosovada yerləşdirilməsinə razı deyildilər. KAO-nun rəhbərliyi bildirdi ki, heç kim rus qoşunlarına Kosovaya gəlməyə icazə verməmişdir və onların vilayətdə yerləşməsi qanunsuzdur. Rusiya Kosovada ayrıca ərazi almağa, rus əsgərlərinin NATO generalına tabe olmamasına və Rusiyanın hərbi-nəqliyyat təyyarələrinə Kosovaya gəlməyə icazə verilməsinə çalışırdı. Məhz bu məsələlər Rusiya və ABŞ müdafiə və xarici işlər nazirlərinin görüşündə həll olunmalı idi. Görüş Helsinkidə keçirildi. Üç gün davam edən gərgin danışıqlar nəticəsində Rusiya tərəfi Slatina hava limanından NATO qüvvələrinin istifadə etməsinə razılıq verdi. Buna cavab olaraq ABŞ Rusiyanın KFOR-un qərargahda 1 deyil, 10-15 zabitlə təmsil olunmasına razı oldu. Bundan başqa, ABŞ Rusiyaya müstəqil zona verilməsinə razı olmayaraq və rus qoşunlarının

birlişmiş Ştatlar, İngiltərə, Fransa, Almaniya və İtaliya zonalarında yerləşdirilməsini təklif etdi. Rusiya rəhbərliyi italyan zonası istisna olmaqla bu təklifə razı oldu. Flelsinki və Kölndə əldə olunan razılaşmalar Rusiyanın Kosovadakı sülhyaratma əməliyyatlarında iştirakı üçün əsas oldu. Rusiya hərbi qüvvələri öz komandanlığına tabe olmalı idilər. Onlar NATO hərbçiləri ilə birgə əməliyyatlarda iştirak etməyə də bilərdilər. Rusiya Kosovaya 3600 əsgər və zabit göndərməli idi.

Beynəlxalq sülhyaratma qüvvələri Kosovada sülhü və təhlükəsizliyi təmin etməli idilər. İyunun 20-də bütün serb qoşunlarının və polisinin Kosovadan çıxarılması başa çatdı. Həmin gün NATO-nun baş katibi X.Solana YRİ-yə qarşı hərbi əməliyyatların dayandırıldığını elan etdi. YRİ-də müharibə qurtardı. Həlledici qüvvə əməliyyatı sülh yaratmaq məqsədi güdən birləşmiş qüvvələrin əməliyyatı ilə əvəz olundu. Lakin münaqişəni törədən ziddiyyətlərin hamısı həll olunmadı. Nəticədə Balkan hadisələri beynəlxalq münasibətlərə ənənəvi təsirini saxladı.

### *90-cı ilhf(h Umumavropa prosesi*

1992-ci ilin iyulunda Helsinkidə ATƏM iştirakçılarının növbəti yüksək səviyyəli görüşü keçirildi. Həmin iclasda «Dəyişikliklər dövrünün ümidləri və problemləri» adlı bəyannamə qəbul edildi. Sənəddə deyilirdi ki, Avropada dəyişikliklər prosesində ATƏM-in böyük rolu olmuşdur və Ümumavropa prosesinin idarə olunmasını təşkil etmək müşavirə iştirakçılarının əsas vəzifəsidir. 1992-ci ildən başlayaraq ATƏT Ermənistan-Azərbaycan münaqişəsinə və Bosna və Hersoqovinadakı müharibəyə son qoyulması ilə məşğul oldu.

Lakin az sonra ATƏT rəsmi şəkildə BMT baş katibinə bildirdi ki, Bosna və Hersoqovinadakı münaqişənin qısa müddətdə aradan qaldırılması ilə məşğul olmaq istəmir, çünki, sadəcə olaraq bu məsələni həll etmək iqtidarında deyildir. Həmin münaqişə yalnız NATO-nun köməyi və iştirakı ilə aradan qaldırıldı.

ATƏT-ə daxil olan ölkələrin dövlət və hökumət başçılarının növbəti yüksək səviyyəli görüşü 1994-cü il dekabrın 5-6-da Budapeştdə keçirildi. Görüşdə 20-yə qədər müxtəlif sənəd qəbul edildi. Bu sənədlər içərisində əsas yeri «Yeni dövrdə əsl tərəfdaşlığa doğru» adlı siyasi bəyannamə tutdu. Bəyannamədə deyilirdi ki, ATƏT öz vəzifələrini yerinə yetirə bilmək üçün Avropada digər təşkilatlarla - NATO, Qərbi Avropa İttifaqı, Avropa Birliyi, Avropa Şurası ilə sıx qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərməlidir. Budapeşt sammitinin sənədlərində insan hüquqlarının qorunması, iqtisadi, elmi-texniki və ətraf mühitin qorunması sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri də öz əksini tapdı.

Budapeşt sammitinin əhəmiyyətli yekunlarından biri Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının yaradılması oldu. Ümumavropa prosesinin idarə olunması ilə bu təşkilat məşğul olmalı idi. Budapeştdə həmçinin ATƏT-in sülh məramlı qüvvələrinin yaradılması və münaqişə zonalarına göndərilməsi haqqında qərar qəbul edildi. Budapeşt görüşündə qəbul edilən qərarlar ATƏT-in dünya siyasətinə təsirini daha da artırmağa yönəlmişdi.

ATƏT-in Lissabon sammiti 1996-cı il dekabrın 2-.^- də keçirildi. Görüş zamanı əsasən Avropanın, müəyyən qədər də beynəlxalq aləmin aktual problemləri və onların həlli məsələsi müzakirə edildi. Sammitdə Lissabon sammitinin bəyannaməsi, XXI əsr Avropa evi üçün təhlükəsizlik modeli haqqında bəyannamə, Ermənistan-

Azərbaycan münaqişəsinin həlli prinsipləri barədə ATƏT- in fəaliyyətdə olan sədrinin bəyanatı, nəzarət və təhlükəsizlik məsələləri üzrə iki məruzə və silahlar' üzərində nəzarət haqqında məruzə qəbul edildi. 1996-cı ildən sonra isə ATƏT-in gördüyü işlərə İstanbul sammitində qiymət verildi. ATƏT-in İstanbul zirvə toplantısı 1999-cu il noyabrın 18-19-da 54 dövlətin nümayəndələrinin iştirakı ilə keçirildi. İstanbul sammitində üç mühüm sənəd qəbul edildi: Avropa təhlükəsizlik xartiyası, Siyasi bəyannamə və Avropada adi silahlara dair uyğunlaşdırılmış müqavilə. Bakı- Ceyhan neft kəmərinin çəkilməsinə dair müqavilə İstanbuldakı görüşün gedişində imzalandı. İstanbul sammiti əslində 1975-ci ildən sonrakı dövr ərzində ATƏT- in fəaliyyətinə yekun vuraraq qarşıda duran başlıca vəzifələri müəyyən etdi.

90-cı illər həmçinin Yaxın Şərq böhranının və Kıbrıs məsələsinin həllinə yönəldilən səylərlə zəngin oldu. Amerikan diplomatiyasının səyləri münaqişə iştirakçısı olan tərəflər arasında etimadın möhkəmlənməsinə və danışıqların davam etdirilməsinə şərait yaratdı.

1993-cü ilin sentyabrında Vaşinqtonda İsraillə Fələstin Azadlıq Təşkilatı arasında imzalanmış sazişə əsasən 1994-cü ilin martında Qəzzə bölməsində və İyerixon şəhərində Müvəqqəti Fələstin muxtariyyəti yarandı. Fələstin problemini nizama salmaq üçün keçid dövrü beş ilə qədər müəyyən edildi və Y.Ərəfatm başçılıq etdiyi Müvəqqəti keçid hökuməti fəaliyyətə başladı.

1994- cü ilin oktyabrında İsrail İordaniya ilə sülh müqaviləsi imzaladı. Lakin hadisələrin sonrakı gedişi, İsrailin baş naziri İ.Rabinin öldürülməsi, 1996-cı ildə İsraildə millətçi sağ qüvvələrinin hakimiyyətə gəlməsi, tez- tez baş verən terror hadisələri əldə edilmiş razılıqları

vaxtında həyata keçirməyə imkan vermədi. Yaxın Şərqdə sülh prosesini ləngitdi. 1998-ci ildə Birləşmiş Ştatların vasitəçiliyi ilə danışıqlar başlandı. İşğal eddmiş ərazilərin bir hissəsindən İsrail qoşunlarının çıxarılması barədə yeni saziş əldə edildi. Bütün bunlara baxmayaraq, problem nəinki həll olunmadı, əksinə daha da kəskinləşdi.

# XVI BÖLÜM

## 1946-1990-CI İLLƏRDƏ AZƏRBAYCANIN BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ İŞTİRAKI

Sovet dövründə beynəlxalq hüququn subyekti olmayan Azərbaycan beynəlxalq əlaqələrdə mərkəzi hökumət vasitəsi ilə iştirak edirdi. SSRİ hökuməti Azərbaycanın xarici ölkələrlə birbaşa siyasi və ticarət-iqtisadi əlaqələrinə imkan vermirdi. Müharibədən sonrakı ilk onilliklərdə Azərbaycanın xarici ölkələrlə əsasən mədəni əlaqələr saxlamasına icazə verilirdi. Lakin bu əlaqələr Moskvanın ciddi nəzarəti altında həyata keçirilirdi. Siyasi əlaqələr əsasən sosialist və inkişaf etməkdə olan ölkələrin kommunist və sosialist partiyaları ilə saxlanılırdı.

Azərbaycanın xarici ölkəəclə ticarət-iqtisadi əlaqələrinə mərkəzi hökumət əsasən 60-cı illərdən tədricən icazə verməyə başladı. Respublikanın coğrafi-siyasi mövqeyi, iqtisadi, elmi- texniki potensialı və təbii sərvətləri onun beynəlxalq iqtisadi əlaqalərinin maddi əsasını təşkil edirdi.

Beynəlxalq iqtisadi münasibətlər Azərbaycanda təsərrüfatın formalaşmasına, strukturuna və inkişaf sürətinə fəal təsir göstərirdi. Öz növbəsində bu iqtisadi potensialın mənafeyi həmişə xarici ölkələrlə ticarət-iqtisadi əlaqələrin inkişafını və təkmilləşdirilməsini tələb edirdi.

Ümumittifaq əmək bölgüsü də Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrinin maddi bazasının formalaşmasında müəyyən rol oynadı. Azərbaycanın xarici ölkələrə ixracında xammal və yanacaq, xüsusilə neft məhsulları üstünlük təşkil edirdi.

Neft çıxarılması tamamilə dövlət sifarişində olduğundan respublika öz neftini rnüstəqil surətdə dünya bazarına çıxarmaq imkanından məhrum edilmişdi. Digər sənaye məhsullarının və hətta istehsal tullantılarının xarici bazara çıxarılması üçün lisenziya və kvotalar ittifaq dövləti tərəfindən

verildiyindən qazanılmış valyuta da mərkəzə qalırdı. Respublika iqtisadiyyatının strukturunun qeyri-kamil olması nəticəsində istehsal olunan pambığın 88, sulfanolun 86, neft məhsullarının 64, polad boruların 97, neft-mədən avadanlığının isə 75 faizi Azərbaycandan kənara göndərilirdi. Halbuki həmin xammal və avadanlıqları dünya bazarında respublika özü satsa idi, qazandığı valyuta vəsaiti ilə Azərbaycanı inkişaf etmiş dünya dövlətləri səviyyəsinə qaldırmaq, dünya standartlarına uyğun gələn mütərəqqi və güclü istehsal strukturu yaratmaq, iqtisadiyyatı həm daxili, həm də xarici tələbat əsasında yenidən qurmaq mümkün olardı. Azərbaycan öz hüquqlarından real surətdə istifadə etmədiyinə görə beynəlxalq hüququn formal subyekti idi. Əslində Moskva belə hüquqdan istifadə etməyə icazə vermirdi. Lakin 60-cı illərin axırlarından H.Əliyevin Azərbaycana rəhbər gəlməsindən sonra respublikanın beynəlxalq əlaqələri genişləndi.

70-80-cı illərdə Azərbaycanın xarici ölkələrlə tıcarət- iqtisadi əlaqələrinin əsas formasını xarici ticarət təşkil edirdi. Bu illərdə Azərbaycanın xarici ticarət əlaqəsi saxladığı ölkələrin, xarici ölkələrə mal göndərən müəssisələrin sayı və göndərilən malların çeşidi xeyli artdı. Əməkdaşlıq ediləcək ölkələrin və göndəriləcək malların siyahısını Moskva müəyyənləşdirirdi. Bu ölkələr əsasən sosialist və inkişaf etməkdə olan ölkələr idi. Məsələn: 1970-ci ildə respublikanın 70 müəssisəsi 56 ölkəyə 291 adda, 1975-ci ildə 100 müəssisəsi 64 ölkəyə 300 adda, 1980-ci ildə 110 müəssisə 85 ölkəyə 350 adda, 1990-cı ildə isə 236 müəssisəsi 100-dən çox ölkəyə 400 adda müxtəlif məhsullar ixrac edirdi. İxrac 1970-ci ildə 141,060 milyon rubl, 1975-ci ildə 244,299,1 milyon rubl, 1980- ci ildə 217,713,761 milyon rubl, 1985-ci ildə 278,831 milyon rubl, 1989-cu ildə isə 487,964,2 milyon rubl təşkil etmişdi.

Azərbaycandan xaricə göndərilən məhsullar maşın və aqreqatlar, neft-mədən avadanlığı, elektrik mühərrikləri, yod. yastıqlar, borular, neft və neft məhsulları-, elektrotexnika və müxtəlif kənd təsərrüfatı məhsulları idi.

Xarici ölkələrə ixracda ənənəvi olaraq yanacaq- energetika sənayesi və yüngül sənaye məhsulları, idxalda isə hazır məhsullar, yüngül və yeyinti sənayesi məhsulları üstünlük təşkil edirdi. Xarici ölkələrlə ticarətdə respublika sənayesinin bütün əsas sahələri və bu sahələri təmsil edən müəssisələr iştirak edirdilər. Məsələn, Bakkondisioner EİB öz məhsullarını 74 ölkəyə, Soyuducular zavodu 30 ölkəyə, Bakı təcrübə-sınaq zavodu 19 ölkəyə, neftayırma zavodları 40 ölkəyə, Sumqayıt kimya sənayesi EİB 41 ölkəyə, Sintetikkauçuk İB 68 ölkəyə, Boru prokatı zavodu 20 ölkəyə, Azərelektroterm İB isə öz məhsullarını 16 ölkəyə ixrac edirdi.

70-80-cı illərdə Azərbaycandan xarici ölkələrə müxtəlif kənd təsərrüfatı məhsulları da ixrac olunurdu. Bu işlə əsasən respublika Dövlət Aqrar-Sənaye Komitəsi və Azərittifaq məşğul idi. Azərkoopxariciticarət Birliyinin xarici ticarət dövriyyəsinin həcmi 1980-ci ildə 1975-ci ilə nisbətən 1,7 dəfə, 1985-ci ildə isə 1980-ci ilə nisbətən 3,5 dəfə artdı. Xarici ölkələrdə tikilən müəssisələr üçün xarici ticarət xətti ilə Azərbaycandan xammal, material və avadanlıqlar, plandankənar və yeni mallar da ixrac edilirdi.

İxrac-idxal əməliyyatlarının əksəriyyəti ittifaq təşkilatları vasitəsilə aparılırdı. Respublikanın xarici ticarət dövriyyəsində idxal ənənəvi olaraq ixracdan çox olduğuna görə xarici ticarətin ümumi balansı passiv, saldosu isə mənfi idi.

Respublikanın xarici ticarət dövriyyəsinin çox hissəsi Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrinin payına düşürdü. Respublikanın 30 müəssisəsi Bolqarıstana 50, Polşaya 50, 20 müəssisəsi Çexoslovakiyaya 28, 30 müəssisəsi Macarıstana 50, 25 müəssisəsi ADR-ə 50, 20 müəssisəsi isə Yuqoslaviyaya 50 adda müxtəlif məhsullar ixrac edirdi.

Azərbaycan Vyetnam, KXDR, Monqolustan və Kuba ilə də ticarət əlaqələri saxlayırdı. Respublika həmin ölkələrdə müxtəlif xalq təsərrüfatı obyektlərinin tikintisində öz xammal, material, avadanlıq və mütəxəssisləri ilə iştirak etdi. Öz növbəsində Azərbaycan həmin ölkələrdən sənaye məhsulları

və xalq istehlakı malları idxal etdi. Bütövlükdə, 70-80-cı illərdə Azərbaycanın Mərkəzi və Cənub-Şərqi Avropa ölkələri ilə ticarəti mərkəzin yeritdiyi siyasət ucbatından qeyri-ekvivalent xarakter daşıyırdı.

Azərbaycanın inkişaf etmiş kapitalist ölkələri ilə ticarət-iqtisadi əlaqələrinin həcmi SSRİ-nin həmin ölkələrlə siyasi münasibətlərindən asılı idi. Azərbaycan təxminən 25 inkişaf etmiş kapitalist ölkəsi ilə əməkdaşlıq etdi, onlara neft və neft məhsulları, neft-mədən avadanlığı, maşınqayırma məhsulları, kənd təsərrüfatı məhsulları göndərdi. Respublikanın xarici ticarət dövriyyəsinin 20-25 faizi bu ölkələrin payına düşürdü. Azərbaycan öz məhsullarını ABŞ, İngiltərə, Fransa, Avstriya. Yaponiya, İsveç, İspaniya, Danimarka kimi ölkələrə göndərdi, özü isə kapitalist ölkələrindən maşın, avadanlıq və xalq istehlakı malları aldı. Respublikanın yüngül və yeyinti sənayesi müəssisələrində, tibb ocaqlarında bu ölkələrdən alınmış müxtəlif avadanlıqlar tətbiq olundu. Bakkondisioner EİB 1975-ci ildə Yaponiyanın «Tosiba» firmasının lisenziyası, avdanhqları və mütəxəssislərinin, Bakı dərin dəniz özülləri zavodu isə 1985-ci ildə Fransa mütəxəssislərinin köməyi ilə tikildi.

Azərbaycan azad olmuş ölkələrlə də əlaqələr saxlayırdı. Bu əlaqələr də daha çox siyasi motivlərdən asılı idi. 70-80-cı illərdə Azərbaycanın bütövlükdə 40-dan çox azad olmuş ölkə ilə ticarət əlaqələri var idi. Azərbaycanın Hindistan, Suriya. Əfqanıstan, İran və Türkiyə kimi ölkələrlə ticarəti daha geniş oldu. İranla ticarət 1968-ci ildə yaradılmış «Şərqxariciticarət» Ümumittifaq birliyinin Bakı şöbəsi vasitəsilə aparılırdı.

Afrika qitəsində Azərbaycanın əsas ticarət ortaqları Əlcəzair, Qvineya, Misir, Konqo, Liviya, Mali, Mərakeş. Nigeriya, Somali, Sudan, Tanzaniya, Həbəşistan və Anqola. Latın Amerikasında isə Argentina, Boliviya. Peru, Venesuela və Braziliya oldu. Azərbaycanın' azad olmuş ölkələrlə ticarətinin 60 faizi Asiyanın, 35 faizi Afrikanın və 5 faizi Latın Amerikasının azad olmuş ölkələrinin payına düşürdü.

70-80-cı illərdə Azərbaycan azad olmuş ölkələrdə iqtisadi və sosial həyatın inkişafına göstərilən yardımda iştirak etdi. Respublikanın ali və orta ixtisas məktəblərində həmin ölkələr üçün minlərlə kadrlar hazırlandı. Bu yardımlar sovet siyasəti çərçivəsindən kənara çıxmayaraq əsasən SSRİ-nin ümumi strateji məqsədlərinə xidmət edirdi.

Azərbaycan Hindistan, Əlcəzair, Pakistan, Misir, Əfqanıstan, Mali, Banqladeş, Keniya, Anqola və Liviyada neft sənayesinin, Əfqanıstan, Banqladeş, Həbəşistan, Hindistan, İndoneziya və Kambocada energetika sənayesinin inkişafında, Hindistan, İran, İndoneziya, Əlcəzair və Misirdə metallurgiya və kimya zavodlarının tikintisində, YƏR, Birma, Əfqanıstan, Kamboca, Tunis və Mərakeşdə suvarma qurğularının yaradılmasında iştirak etdi.

80-ci illərin ikinci yarısında iqtisadi əməkdaşlığın təkmilləşdirilməsi üçün görülən təşkilati tədbirlərin əsas məqsədi müəssisə və təşkilatların dünya bazarına birbaşa çıxmasını təmin etmək oldu. Bu tədbirlərin içərisində xarici iqtisadi əlaqələrin inkişafına dair respublika hökumətinin qərarları, «Azərbaycanxariciticarət» birliyinin. Respublika Xarici Ticarət Bankının, Azərbaycanın xarici ölkələrlə Yaradıcı və İşgüzar Əməkdaşlıq Birliyinin yaradılması və
1990- cı ilin oktyabrında Bakıda I beynəlxalq biznes konqresin keçirilməsi xüsusi yer tutdu. Konqresin işində dünyanın 43 ölkəsinin 400 şirkətinin 700-ə qədər nümayəndəsi iştirak etdi və konqresin işlədiyi günlərdə xarici firmalarla ümumi dəyəri 431 milyon dollarlıq 49 müqavilə, 112 təsis sənədi, saziş və niyyət protokolu qeydə alındı.

Xarici ölkələrlə bağlanmış müqavilə və sazişlər Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrinin genişlənməsinə kömək etdi. Azərbaycanın müəssisə və təşkilatlarının xarici ölkələrin firmaları ilə birbaşa, istehsal kooperasiyası və barter əlaqələri, birgə müəssisələr və xarici iqtisadi assosiasiyalar yaradıldı. Azərbaycanın müəssisə və təşkilatları Macarıstan şirkətləri ilə 26 sahə üzrə əməkdaşlıq edirdi. Sumqayıtdakı

kimya müəssisələri və rayonlardakı pambıqtəmizləmə zavodları öz məhsullarını xarici ölkələrin firmaları ilə mal mübadiləsi və barter yolu ilə avadanlığa və xalq istehlakı mallarına dəyişirdilər. . Xarici firmalarda birbaşa əlaqələr sahəsində Bakkondisioner EİB, YBNZ, Azərittifaq kimi təşkilatlar xüsusi fəallıq göstərirdilər.

Birgə müəssisələrin və xarici iqtisadi assosiasiyaların yaradılması xarici ölkələrlə iqtisadi əməkdaşlığı genişləndirməyin, Azərbaycan iqtisadiyyatına xarici kapital cəlb etməyin ən səmərəli yollarından biri oldu. Azərbaycanda xarici ölkələrin firma və müəssisələri 'ilə 60-dan çox birgə müəssisə yaradıldı. Lakin bunların əksəriyyəti istehsalla deyil, kommersiya fəaliyyəti ilə məşğul olurdu. Azərbaycanda yaradılan birgə müəssisələrdən «İnkişaf» adlı Azərbaycan- Avstraliya, «Bakmil» adlı Azərbaycan-İtaliya, «Sovbulqarinciniring» adlı Azərbaycan-Bolqarıstan, «Adan» adlı Azərbaycan-Amerika, «Bakiinvest» adlı Azərbaycan- Almaniya, «Azita» adlı Azərbaycan-İtaliya, «Loxaus-Azər- baycan» adlı Azərbaycan-Belçika, «Azinteroyl» adlı İsveç- Azərbaycan, «İnkromeks» adlı Azərbaycan - Avstriva və «Azərbaycan Korean interpraysis» adlı Azərbaycan-Cənubi Koreya birgə müəssisələrini və b. misal göstərmək olar.

Azərbaycanın. ticarət-iqtisadi əlaqələrində sərgi və yarmarkalar özünəməxsus yer tutdu. Bu, valyuta əldə etməyin, xarici ortaq tapmağın, xaricdən avadanlıq və texnologiya almağın və respublikanın imkanlarını nümayiş etdirməyin ən faydalı yolu idi. Azərbaycan 1965-ci ildə Tehranda \İran\ keçirilən beynəlxalq sərgidə müstəqil stendlə, 1966-cı ildə Dəməşqdə \Suriya\ keçirilən 13-cü beynəlxalq yarmarkada müstəqil bölmə və 1970-ci ildə İzmirdə \Türkiyə\ keçirilən 39- cu beynəlxalq yarmarkada müstəqil pavilyonla təmsil olundu. Sərgi və yarmarkalarda respublikanın' iştirakının təşkili ilə Azərbaycan Ticarət-Sənaye palatası məşğul olurdu. Azərbaycan Plovdiv \Bolqarıstan\, Leypsiq \ADR\, Praqa \Çexoslovakiya\, Bağdad \İraq\, Qahirə \Misir\, Dehli

\Hindistan\, Poznan \Polşa\, Zaqreb \Yuqoslaviya\, Cakarta \İndoneziy?\, Boqota \Kolumbiya\, Oslo \Norveç\, Salonik \Yunanıstan\ və Hanoyda \Vyetnam\ keçirilmiş sərgi və yarmarkalarda iştirak etdi.

70-80-ci illərdə Bakıda xarici ölkə şirkətlərinin iştirakı ilə 50-dən çox beynəlxalq və ya ixtisaslaşdırılmış sərgi keçirildi. Bu sərgi və yarmarkalarda Azərbaycan özünün neft maşınqayırması, elektrotexnika, neft-kimya, tikinti, yüngül və yeyinti sənaye sahələrinin məhsullarını nümayiş etdirdi. Azərbaycanın eksponatları bu sərgilərdə dəfələrlə qızıl medallara və fəxri fərmanlara layiq görüldü.

Beynəlxalq sərgi və yarmarkalarda Azərbaycan özünün neft maşınqayırması, elektrotexnika, neft-kimya, tikinti, yüngül və yeyinti sənaye sahələrinin məhsullarını nümayiş etdirdi. Respublikanın eksponatları dəfələrlə qızıl medallara və fəxri fərmanlara layiq görüldü.

Beynəlxalq sərgi və yarmarkalarda Azərbaycan hər şeydən əvvəl, kommersiya məqsədi ilə iştirak edirdi. Oslo yarmarkasında eksponatların satılmasından 12 min dollar, Salonik yarmarkasında 1200 dollar, Plovdivdə 4000 dollar, Lissabonda 25 min dollar, Hanoyda keçirilən sərgidə 12 min dollar, Tripolidə keçirilən yarmarkada isə 3 min dollar qazanc əldə edildi. 80-ci illərin sonundan Azərbaycan sərgi və yarmarkalarda müstəqil surətdə iştirak etməyə, bu sahədə öz işini yenidənqurmağa və təkmilləşdirməyə başladı.

Beləliklə, Azərbaycan 1946-1990-cı illərdə öz imkanları daxilində beynəlxalq iqtisadi münasibətlərin iştirakçısı oldu. Həmin illərdə respublika beynəlxalq iqtisadi münasibətlərdə SSRİ-nin xarici iqtisadi əlaqələri vasitəsilə iştirak etdi. Beynəlxalq gərginliyin zəifləməsi respublikanın xarici iqtisadi əlaqələrinin genişlənməsinə, ixracla məşğul olan müəssisələrin və ixrac olunan məhsulların sayının artmasına kömək etdi. Dünya dövlətlərinin əksəriyyəti ilə əlaqələr saxlanıldı. Bu əlaqələr partnyorluq edən tərəflər üçün müəyyən əhəmiyyətə malik oldu. Xarici ölkələrlə ticarət-iqtisadi əlaqələr

Azərbaycanın xarici siyasət fəaliyyətinin mühüm tərkib hissəsi və əsas istiqamətlərindən biri oldu.

Bütövlükdə, Azərbaycanın xarici ölkələrlə ticarət-iqlisadi əlaqələrinin səviyyəsi və vəziyyəti respublikanın imkanlarına və tələbatına uyğun deyildi. Bu, Moskvanın təqsiri ucbatından Azərbaycanın dünya bazarına birbaşa çıxa bilməməsi, qazanılan valyutanın mərkəzdə qalması, xarici iqtisadi əlaqələrin elmi cəhətdən əsaslandırılmaması, bu sahə üzrə respublikada kifayət qədər mütəxəssisin olmaması, ixracda xammalın və yarımfabrikatlarm üstünlük təşkil etməsi, respublikada xarici iqtisadi əlaqələri maliyyələşdirən bankın olmaması ilə bağlı idi.

1946-1990-cı illərdə Azərbaycan Respublikası SSRİ tərkibində beynəlxalq qarşılıqlı mədəni əlaqələrin iştirakçısı oldu. 1946-1990-cı illərdə Sovet İttifaqını təşkil edən müttəfiq respublikalardan biri kimi Azərbaycan Respublikasının beynəlxalq mədəni əlaqələrinin həyata keçirilməsinin hüquqi- siyasi əsasını SSRİ-nin xarici ölkələrlə bu sahəyə aid bağladığı müqavilə, saziş və protokollar təşkil etdi-. SSRİ 40-50-ci illərdə Monqolustan, Rumıniya, Bolqarıstan. Finlandiya, Macarıstan, 60-cı illərdə İtaliya, Mali, ADR, Türkiyə, Polşa. İordaniya, Meksika, 70-80-ci illərdə Sudan, Lüksemburq. İtaliya, Çexoslovakiya, Norveç, İsveç, ABŞ, İran, Yaponiya. AFR, YXDR, İngiltərə, İslandiya, Qvineya-Bisau, Liviya. Belçika, Fransa, Portuqaliya, Küveyt, Türkiyə, Venesuela. Mozambik, Anqola, Tanzaniya, Tunis, Efiopiya, Yunanıstan, Hindistan, Kambaca, Nikaraqua, Kipr. Argentina, Uruqvay və çoxlu başqa dövlətlərlə mədəni əlaqələrə dair çoxlu sənədlər imzaladı. Həmin sənədlərdə mədəni əlaqələrin formaları və həyata keçirilməsi prinsipləri müəyyən edildi.

Mədəni əməkdaşlıq məsələləri 1946-1990-cı illərdə Sovet İttifaqının xarici ölkələrlə münasibətlərində müzakirə obyektlərindən biri oldu.

Beynəlxalq mədəni əlaqələr problemi çoxtərəlli əsasda, o cümlədən Avropada təhlükəsizlik və əməkdaşlıq

məsələlərinə dair Helsinki (1975-ci il), Madrid (1983-cü il). Vyana (1989-cu il) və Paris (1990-cı il) müşavirələrinin yekun sənədlərində öz əksini tapdı. Bu sənədlərdə dövlətlərarası münasibətlərdə mədəni əlaqələrin yeni formaları müəyyən edildi və əhəmiyyəti göstərildi.

Bu 'dövrdə beynəlxalq qarşılıqlı mədəni əlaqələrdə Azərbaycan Respublikasının iştirakını aşağıdakı mərhələlərə ayırmaq olar: 1946-cı ildən 50-ci illərin ortalarmadək; 50-ci illərin ortalarından-70-ci illərədək; 70-ci illərdən 80-ci illərin ortalarmadək; 80-ci illərin ortalarından-1991-ci ilədək. İlkin mərhələdə mədəni əlaqələr xeyli zəif idi və mərkəzi hökumətin inzibati-amirlik metodu Azərbaycanın fəaliyyətini demək olar ki, tamamilə məhdudlaşdırırdı. Müharibənin sonuna yaxın, 1944-cü ildə Azərbaycan SSR XXİK bərpa olundu və 1946-cı ildə isə o. Xarici İşlər Nazirliyinə çevrildi. Bununla belə, nazirlik mərkəzin təqsiri üzündən protokol idarəsi kimi qalırdı. Bu mərhələdə Azərbaycanın mədəni əlaqələrini əsasən İranla Mədəni Əlaqələr Cəmiyyəti həyata keçirirdi. Dövrün siyasi şəraiti mədəni əlaqələrə mənfi təsir göstərirdi.

50-ci ilin ortalarından başlayaraq mədəni əlaqələrin coğrafiyası genişləndi və Avropa, Asiya və Amerikanın bir sıra ölkələrini əhatə etd-i. Bu mərhələdə dünyada və ölkədə möhtəşəm dəyişikliklər baş verdi. Bu dəyişikliklər beynəlxalq mədəni əlaqələrin genişlənməsi üçün əlverişli şərait yaratdı.

70-ci illər-80-ci illərin ortalarmadək olan mərhələ həm də keyfiyyət baxımından özündən əvvəlki mərhələlərdən köklü şəkildə fərqlənirdi. Bu mərhələdə mərkəzin bürokratik əngəllərinə baxmayaraq Azərbaycan mədəniyyəti beynəlxalq aləmdə özünə yol açdı. Azərbaycan dünyanın 120-dən çox ölkəsi ilə mədəni əlaqələr saxlayırdı. 1988-ci ildə xaricdə yaşayan həmvətənlərlə mədəni əlaqələr cəmiyyəti - «Vətən» cəmiyyətinin yaradılması Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təbliği və xalqımız haqqında düzgün təsəvvür yaratmaq məqsədi daşıyırdı.

80-ci illərin ortalarından başlayaraq Azərbaycan xarici ölkələrlə mədəni əlaqələrə dair birbaşa sazişlər bağladı. 1990- cı ilin yanvarında Azərbaycanla Türkiyə Respublikası arasında mədəni və elmi əməkdaşlığa dair protokol imzalandı. Protokolda iki respublika arasında mədəni əməkdaşlığı genişləndirməyin yolları və formaları müəyyənləşdirildi.

Bu mərhələdə ölkədə başlanmış olan yenidənqurma adlandırılan siyasət respublikaların hüquqlarının genişləndirilməsinə gətirib çıxardı.

Respublikanın beynəlxalq mədəni əlaqələrini 30-a yaxın nazirlik, idarə, təşkilat, cəmiyyət və s. həyata keçirirdi.. Bunların içərisində Respublika Xarici İşlər Nazirliyi. Mədəniyyət Nazirliyi, Xarici ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti xüsusilə fəal idi.

Azərbaycanın beynəlxalq mədəni əlaqələrdə iştirakı əsasən aşağıdakı formalarda həyata keçirildi; ədəbi əlaqələr, kitab çapı, kitab mübadiləsi, kitab sərgi və yarmarkaları, yazıçı, şair və jurnalistlərin əməkdaşlığı, musiqi, teatr, kino, televiziya, radio sahəsində əməkdaşlıq, rəssamların sərgi və yarmarkalarda iştirakı, ictimaiyyətin əlaqələri, mədəniyyət günləri, qardaşlaşmış şəhərlər, idman, turizm. Azərbaycan milli musiqisi, dramaturgiyası, opera və balet incəsənəti, kinosu, simfonik, vokal-instrumental ansamblları xaricdə məşhur idi. ölbəttə, mədəni əlaqələrin bu formalarının hamısı eyni səviyyədə həyata keçirilmirdi.

Mədəni əlaqələrin qurulmasında yə həyata keçirilməsində' xeyli nöqsanlar mövcud idi. Bunların bir qismi mərkəzin müvafiq təşkilatlarının üzərinə düşür. 1980-1990-cı illərdə Azərbaycan dünyanın 120-i ölkəsində mövcud olan 860-dan çox təşkilatla mədəni əlaqələr saxlayırdı. Azərbaycanın başqa sahələrdə olduğu kimi mədəniyyət sahəsində də sosialist, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə beynəlxalq əlaqələri geniş xarakter aldı. Azərbaycanın xarici ölkələrlə mədəni əlaqələri mənəvi həyatın müxtəlif sahələrini, o cümlədən təhsil, ədəbiyyat və incəsənət kimi

sahələrini əhatə etdi. Hər il Azərbaycan mədəniyyətinin yüzlərlə nümayəndəsi, onlarla bədii kollektivi, aktyor qrupları xaricə getdi, təxminən qeyd olunan qədər də xarici dövlətlərin mədəniyyət işçisi Azərbaycana gəldi.

Həjnin illərdə xarici ölkələrə respublikanın bədii və yaradıcı kollektivləri, yaradıcı birliklərinin məşhur üzvləri, yazıçılar, bəstəkarlar, rəssamlar və yaradıcı ziyalılarının nümayəndələri göndərildi. 1980-1990-cı illərdə bu yolla 2000- dən yuxarı mədəniyyət xadimi, yaradıcı birliklərin nümayəndələri, 90-dan yuxarı yaradıcı kollektiv, ifaçı qrupları, 1000-dən yuxarı musiqiçi, xanəndə və aktyor xarici ölkələrdə oldu. Təkcə 1985-ci ildə Azərbaycan incəsənətinin nümayəndələri Əfqanıstan, İraq, Monqolustan, ABŞ, İsveç və digər ölkələrdə oldular. Ümumiyyətlə, Azərbaycan incəsənətinin nümayəndələri 1980-1990-cı illərdə 160-dan çox ölkədə, eyni dövrdə isə 130-dan çox xarici ölkənin incəsənət nümayəndələri Azərbaycanda oldu. Həmin dövrdə respublikanın incəsənət xadimləri xarici ölkələrin 800-dən yuxarı şəhərlərində oldular, təxminən 2000-dən yuxarı konsert verdilər və 7500-ə qədər görüş keçirdilər.

1980- 1990-cı illərdə 50-dən artıq SSRİ mədəniyyət günləri Azərbaycan incəsənətinin iştirakı ilə keçirildi. Bu tədbirlərdə çoxlu insan Azərbaycan incəsənətinin nailiyyətləri ilə təmas quraraq Azərbaycan xalqının mənəvi dünyası ilə daha yaxından tanış oldu.

Azərbaycan xarici ölkələr üçün mütəxəssislər də hazırlayırdı. 1986-cı ilin əvvəlində respublikada dünyanın 70 ölkəsi üçün 29 ixtisas üzrə 3000-ə qədər xarici tələbəyə ali təhsil diplomu verildi. 1987-ci ilin əvvəlinə olan məlumata görə, respublikada 71 ölkədən 3022 gənc təhsil alırdı.

1980-1990-cı illərdə 1000-ə qədər Azərbaycan alimi xarici ölkələrdə elmi səfərdə oldular və 4000-ə yaxın öz xarici həmkarlarını respublikamızda qəbul etdilər. Azərbaycan EA- nm alimləri hər il 51 ölkənin orta hesabla 570 elmi təşkilat və

mərkəzi ilə əlaqə saxlayır və müxtəlif elm sahələrini əhatə edən 40 mövzu üzrə birgə tədqiqat işləri aparırdılar.

Azərbaycan alimləri 200-ə yaxın böyük beynəlxalq elmi tədbir, konqres, simpozium və digər elmi xarakterli tədbirlərdə iştirak etdilər. Təkcə 1981-1985-ci illərdə Azərbaycan elminin müxtəlif istiqamətlərinin nümayəndələri 60-dan yuxarı beynəlxalq konqres, konfrans, simpozium və müşavirələrin iştirakçısı oldular. Alimlərimizin əsərləri 60-dan artıq xarici ölkədə 30 dildə çapdan çıxdı. 20 Azərbaycan alimi müxtəlif beynəlxalq elmi təşkilatların üzvü seçildilər.

1980-1990-cı illərdə Azərbaycan böyük beynəlxalq elmi tədbirlərin mərkəzinə çevrildi. Bu dövrdə Bakıda 90-dan yuxarı beynəlxalq elmi konfrans, simpozium, konqres və digər elmi xarakterli tədbirlər keçirildi. 1980-1990-cı illərdə Azərbaycan EA-nm fundamental elmi kitabxanası 53-ə qədər xarici ölkələrdə fəaliyyət göstərən 580-ə qədər elmi mərkəzlə əməkdaşlıq etdi. Bu illərdə kitabxana beynəlxalq kitab mübadiləsi yolu ilə xarici ölkələrdən 110.000-dən artıq müxtəlif elmi ədəbiyyat aldı, öz növbəsində isə 105.000 ədəd elmi ədəbiyyat yolladı. Təkcə 1981-1985-ci illərdə kitabxana 43.532 ədəd ədəbiyyat yolladı, 52.834 ədəd ədəbiyyat aldı. Həmin illərdə M.F.Axundov adma Dövlət kitabxanası xarici həmkarlarına 10.000-ə qədər ədəbiyyat yolladı, 11.000-dən yuxarı ədəbiyyat aldı.

Azərbaycanın beynəlxalq ictimai-siyasi əlaqələri müxtəlif formalarda, mümkün olan bütün istiqamətlərdə həyata keçirildi. Lakin bu əlaqələr konkret siyasi məqsədlərə tabe etdirilmişdi və ciddi nəzarət altında idi.

Göstərilən əlaqələrin möhkəmlənməsinə yönəldilən ən vacib formalardan biri ikitərəfli qaydada müxtəlif ixtisas və dünyagörüşlərə malik olan ictimai və siyasi xadimlərin mübadiləsi oldu. Əgər 1960-1970-ci illərdə Azərbaycanda dünyanın orta hesabla 110 ölkəsindən ictimaiyyətin müxtəlif sənət sahələrindən ibarət 600-dən yuxarı rəsmi nümayəndə heyəti səfərdə olmuşdusa, 1980-1990-cı illərdə dünyanın orta hesabla

i30-dən yuxan ölkəsinin ictimaiyyətinin 3000-ə yaxın nümayəndə heyəti Azərbaycanda oldu. Təkcə 1980-ci ildə belə nümayəndə heyətlərinin sayı 250-dən çox idi. Respublikaya gələn xarici dövlətlərin ictimaiyyətinin nümayəndə heyətlərinin səfərləri əməli əhəmiyyət daşıyırdı. Onların gəlişi geniş ictimai- siyasi kampaniyaların keçirilməsi ilə səciyyələnirdi. Nümayəndə heyətlərinin üzvləri müxtəlif illərdə respublikamızda 100.000-dən çox iştirakçısı olan 30.000-dən yuxarı tədbirdə iştirak etdi, 20.000-dən çox görüşlər keçirdi və şəxsi əlaqələr yaratdılar. Onlar Azərbaycanın 12.000-dən artıq müəssisə və elm ocaqlarında, tarixi yerlərində oldular. Bu da onlara Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mənəvi və mədəni, elmi və texniki potensialı haqqında geniş məlumatlar əldə etməyə, respublika əhalisinin həyat tərzi ilə yaxından tanış olmağa imkan verdi.

# XVII BOLUM
# 90-CI İLLƏRDƏ AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ İŞTİRAKI

***Azərbaycan dövlətinin xarici siyasətinin məqsəd və prinsipləri***

1991-ci il oktyabrın 18-də qəbul edilmiş Konstitusiya aktı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa olundu. Müstəqilliyin bərpası Azərbaycanın müasir beynəlxalq münasibətlərdə iştirakı üçün əlverişli şərait yaratdı. Bu şəraitdən istifadə edən Azərbaycan Respublikası müasir dövrün reallıqlarını və xalqın milli mənafelərini nəzərə alıb fəal xarici siyasət yeritməyə başladı. Azərbaycan dövləti beynəlxalq aləmdə öz xarici siyasəti vasitəsilə aşağıdakı məqsəd və vəzifələri reallaşdırmağa çalışırdı: 1. Müstəqilliyi saxlamaq və möhkəmləndirmək; 2. Təhlükəsizliyi təmin etmək; 3. Daxili quruculuq üçün əlverişli beynəlxalq şərait yaratmaq; 4. Beynəlxalq əmək bölgüsündə iştirak etmək; 5. Beynəlxalq münasibətlər sisteminin formalaşmasında iştirak etmək; 6. Beynəlxalq münasibətlər sistemində rolunu artırmaq; 7. Ermənistan-Azərbaycan münaqişəsinə diplomatik-siyasi vasitələrlə son qoymaq; 8. Xarici ölkələrlə və beynəlxalq təşkilatlarla əməkdaşlıq.

Azərbaycan dövləti bu vəzifələri müasir beynəlxalq hüquq prinsipləri əsasında həyata keçirməyə başladı. Azərbaycan Konstitusiyasında da öz əksini tapmış həmin prinsiplər bunlardır: dövlətlərin suveren bərabərliyi; zor işlətməmək və ya zorla hədələməmək; dövlət sərhədlərinin pozulmazlığı; dövlətlərin ərazi bütövlüyü; beynəlxalq mübahisələrin dinc yollarla həlli; daxili işlərə qarışmamaq; insan hüquqlarına hörmət; xalqların və millətlərin öz müqəddəratını təyin etməsi; əməkdaşlıq; beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək.

**Azprhaycan dövlətinin xarici siyasət fəaliyyəti-mn əsas istiqamətləri**

Azərbaycan Respublikasının xarici siyasəti bir neçə istiqamətdə həyata keçirilir. Ölkəmizin xarici siyasətində MDB iştirakçısı olaıy dövlətlərlə münasibətlər, ABŞ-la, Avropa, Asiya və Afrika dövlətləri ilə əlaqələr, beynəlxalq və məhəlli təşkilatlarla münasibətlər əsas istiqamətlərdir.

**MDB iştirakçısı olan dövləti,irlə miinasihətlər**

Dövlətimizin xarici siyasət fəaliyyətinin istiqamətlərindən biri MDB iştirakçısı olan dövlətlərlə münasibətlərdir. Milli dövlətçilik və inteqrasiya proseslərindən doğan bir sıra obyektiv və subyektiv amillər bu istiqamətin mahiyyətini, məqsəd və vəzifələrini müəyyənləşdirir.

Bu dövlətləri tarixən birləşdirən coğrafi-siyasi, elmi- texniki, mədəni, humanitar əlaqələr müstəqil dövlətlər kimi həm ikitərəfli, həm də çoxtərəfli münasibətlərinə təsir edir. Müstəqil dövlətlərin ikitərəfli əlaqələrə dair çoxlu sənədlər imzalamaları əməkdaşlığa və inteqrasiya proseslərinə şərait yaradır.

Azərbaycan dövləti MDB iştirakçısı olan ölkələrlə münasibətlərini diplomatik fəaliyyətin müxtəlif formaları ilə - yazışmalar, qarşılıqlı' səfərlər, siyasi, iqtisadi, elmi-texniki, mədəni, humanitar və başqa sahələrə aid sənədlərin imzalanması, müzakirələr, konfranslar, məsləhətləşmələr və s. saxlayır.

Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə əlaqələri özünəməxsus xarakter daşıyır. Rusiya Federasiyası 1992- ci il aprelin 4-də Azərbaycanla diplomatik münasibətlərin qurulması barədə protokol imzaladı.

stolunda Azərbaycan-Rusiya münasibətləri, Azərbaycanda və Rusiyada milli azlıqlar məsələsi, Dağlıq Qarabağ münaqişəsində Rusiyanın mövqeyi, Azərbaycan-Dağıstan münasibətləri və s. məsələlər müzakirə edildi. Hər iki tərəfdən deputatların və ekspertlərin təmsil olunduğu bu dəyirmi stol bütövlükdə faydalı oldu və sonrakı parlamentlərarası əlaqələr üçün zəmin yaratdı.

1992-ci il noyabrın 13-15-də Rusiya Federasiyası Ali Sovetinin Millətlər Palatasının sədri R.Abdulatipov başda olmaqla Rusiya parlament nümayəndə heyəti Bakıda oldu. Görüş nəticəsində iki respublikanın parlamentləri arasında əməkdaşlıq haqqında protokol imzalandı. Rusiya parlamentinin nümayəndələri ilə növbəti görüş 1993-cü il martın 20-də Bakıda keçirildi. Görüş zamanı Azərbaycan-Rusiya münasibətlərinin aktual məsələləri müzakirə edildi və birgə bəyannamə imzalandı.

1992- ci il oktyabm 12-də Azərbaycan Respublikası prezidentinin Moskvaya səfəri zamanı Azərbaycanla Rusiya arasında qarşılıqlı təhlükəsizlik haqqında 26 maddədən ibarət müqavilə imzalandı.

1993- cü il avqust ayının 19-da Rusiya Federasiyası xarici işlər nazirinin müavini B.Pastuxovun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana gəldi. Keçirilən danışıqlarda Ermənistan-Azərbaycan münaqişəsinin həlli və Azərbaycan hərbi tribunalının kollegiyası tərəfindən ölüm cəzasına məhkum edilmiş beş nəfər rusiyalı hərbi əsirin taleyi məsələləri və s. müzakirə edildi.

Azərbaycanla Rusiya arasındakı münasibətlərdə yaxşılığa doğu dönüşün başlanğıcı 1993-cü il sentyabrın 5-8- dən Azərbaycan Respublikası Ali Sovetinin sədri H.Əliyevin Moskvaya səfəri ilə qoyuldu. O, Rusiya Federasiyası prezidenti B.Yeltsinlə, Ali Sovetin sədri R.Xasbulatovla, Baş nazir V.Çernomirdinla, müdafiə naziri P.Qraçovla, xarici işlər naziri A.Kozırevlə görüşdü.

1993-cü ilin oktyabrın əvvəllərində Rusiya Federasiyası xarici işlər nazirinin birinci müavini A.Adamişin Azərbaycana səfər etdi. O, ölkə prezidenti, dövlət katibi və xarici işlər naziri ilə görüşərək, ikitərəfli münasibətlərə və regionda sülh və təhlükəsizliyə dair məsələləri müzakirə etdi.

Azərbaycan parlamenti sədrinin 1994-cü il aprelin 25-29- da Moskvaya səfəri zamanı Rusiya parlamenti palatalarının rəhbərləri V.Şumeyko və İ.Rıbkin, hökumətin başçısı V.Çernomirdin, onun müavini S.Şaxray, xarici işlər naziri A.Kozırev. müdafiə naziri P.Qraçov və b. ilə görüşlər keçirildi. Nümayəndə heyətinin başçısı Federasiya Şurasında çıxış etdi və parlamentin ayrı-ayrı komitələrində görüşlər keçirdi. Səfərin yekunlarına dair mətbuat konfransı keçirildi və iki ölkənin parlamentləri arasında əməkdaşlıq haqqında saziş imzalandı.

Rusiya Dövlət Dumasının da nümayəndə heyəti Azərbaycana səfər etdi. Azərbaycan Respublikasının prezidenti H.Əliyev 1994-cü ildə bir neçə dəfə Moskvada səfərdə oldu. Səfər zamanı ikitərəfli münasibətlərə dair danışıqlar aparıldı və sənədlər imzalandı.

1995- ci ildə Rusiya Dövlət Dumasının nümayəndə heyəti, mədənij'yət nazirinin birinci müavini K.Şerbakov və Federasiya Şurasının sədri V.Şumeyko Azərbaycana səfər etdi. Baş nazirin müavini A.Bolşakovun səfəri zamanı iki ölkə arasında 8 sənəd-tibb və səhiyyə sahəsində əməkdaşlıq haqqında; elektroenergetika sahəsində əməkdaşlığın prinsipləri haqqında; elmi-texniki əməkdaşlıq haqqında; iki ölkənin dövlət sərhədində buraxılış məntəqələri haqqında; geodeziya, kartoqrafiya, televiziya sahəsində əməkdaşlıq haqqında; Xəzər dənizi barədə birgə bəyanat imzalandı.

Azərbaycan Respublikası prezidenti Fl.Əliyev 1995-ci ilin mart, 1996-cı ilin yanvar, may və avqust, 1997-ci ilin mart və iyul, 2000-ci ilin yanvar və iyun aylarında Moskvada səfərlərdə oldu. Səfər zamanı Rusiya prezidenti ilə keçirilən

ikitərəfli görüşlər və imzalanan sənədlər ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynadı.

2000-ci ilin əvvəllərində Rusiya Xarici İşlər Nazirliyinin nümayəndə heyəti də Azərbaycanda səfərdə oldu.

Azərbaycan dövlətinin MDB iştirakçısı olan dövlətlərlə münasibətlərində Gürcüstan özünəməxsus yer tutdu. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il noyabrın 18-də quruldu. Ölkələrimizin münasibətlərinin əsasını beynəlxalq normalar, tərəflərin mənafelərinin tarazlığı təşkil edir, üçüncü dövlətə və ya dövlətlər qrupuna qarşı yönəldilməmişdir. Münasibətlərdəki özünəməxsusluq xalqlarımız arasındakı tarixiliklə, müasirliklə və perspektiv əməkdaşlıqla səciyyələnir.

1993-cü ildə Gürcüstan parlamentinin rəhbəri E.Şevardnadze Bakıya rəsmi səfər etdi. Səfər zamanı o. Azərbaycan Respublikası parlamentinin sədri tərəfindən qəbul edildi. Görüş nəticəsində Azərbaycan \ə Gürcüstan parlamentləri arasında müvafiq sənəd imzalandı.

1993- cü ildə Gürcüstanın mü.xtəlif səviyyəli nümayəndə heyətlərinin Azərbaycana səfərləri zamanı ikitərəfli münasibətlərin müxtəlif məsələləri müzakirə olundu.

1994- cü ildə Gürcüstanın baş naziri O.Pasasiya başda olmaqla nümayəndə heyəti, parlament nümayəndə heyəti, baş nazirin müavini Zurab Kervalişvili və b. Azərbaycana səfərə gəldilər. Görüşlərdə Azərbaycan-Gürcüstan iqtisadi, siyasi, elmi-texniki və mədəni əlaqələrinin genişləndirilməsi məsələləri müzakirə edildi.

1995- ci ildə Gürcüstan parlamentinin spikeri V.Qoquadze, baş nazirin müavini Z.Kervalişvili, parlamentin insan hüquqları və millətlərarası münasibətlər komitəsinin sədri S.Kavsadze Azərbaycanda səfərdə oldular. Nümayəndə heyətlərinin Azərbaycan rəhbərliyi tərəfindən qəbul edilməsi, bir sıra ikitərəfli və regional məsələlərin müzakirə edilməsi bir çox problemlərə münasibətdə fikir ümumiliyinin olduğunu göstərdi. Bu ildə Azərbaycan neftinin dünya bazarına nəql olunması ilə bağlı dörd variantdan yalnız ikisinin, o cümlədən

Gürcüstan variantının seçilməsi iki ölkə arasındakı başqa sahələrdə də əməkdaşlığın genişlənməsinə təkan verdi.

Azərbaycan Respublikası prezidentinin 1996-cı ilin mayında Gürcüstana səfəri zamanı ikitərəfli münasibətlərə dair müzakirələr aparıldı və sənədlər imzalandı. Azərbaycan prezidenti H.Əliyevin 1998-ci ilin yanvarında Gürcüstana səfəri iki ölkə arasında münasibətlərə yeni keyfiyyət halı verdi.

Azərbaycanın xarici siyasətində MDB iştirakçısı olan Mərkəzi Asiya ölkələri xüsusi yer tuturdu. Azərbaycan Qazaxıstanla 1992-ci il avqustun 30-da, Özbəkistanla 1992-ci il yanvarın 4-də, Türkmənistanla 1992-ci il iyunun 9-da, Qırğızıstanla 1992-ci il yanvarın 19-da diplomatik münasibətlər qurdu. Mərkəzi Asiya dövlətlərinə və Azərbaycana qarşılıqlı səfərlər, imzalanan sənədlər münasibətlərdəki soyuqluğu aradan qaldırdı, iqtisadi-siyasi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlığa yeni hüquqi-siyasi əsas verdi.

1993-cü il avqustun 16-da Azərbaycanın müxtəlif nazirliklərinin və baş idarələrinin nümayəndələrindən ibarət heyət Daşkənddə Özbəkistanla-Azərbaycan arasında ticarət- iqtisadi əməkdaşlıq barədə müqavilə imzaladı.

Mərkəzi Asiya dövlətlərinin bir sıra ixrac məhsulları Azərbaycandan keçərək Qara dəniz limanları vasitəsilə Avropaya aparılır. Bu vəziyyət Mərkəzi Asiya dövlətləri üçün tranzit yolu kimi Azərbaycanın əhəmiyyətini daha da artırır. Azərbaycan Respublikası prezidenti H.Əliyevin 1994-cü ilin oktyabrında Türkmənistana, 1995-ci ilin sentyabrında Qazaxıstana, yenə həmin tarixdə Qırğızıstana, 1997-ci ilin iyununda Qazaxstana, yenə həmin tarixdə Özbəkistana səfərləri Mərkəzi Asiya dövlətləri ilə münasibətlərdə əvvəlki illərdə olan soyuqluğu aradan qaldırdı və münasibətləri yeni mərhələyə çıxartdı. Sonrakı illərdə Mərkəzi Asiya dövlətlərinin prezidentləri də Azərbaycana səfərlər etdilər.

Azərbaycan Respublikası 1992-ci ilin fevralında Ukrayna ilə diplomatik münasibətlər yaratdı. 1995-ci ildə Ukrayna prezidenti L.Kuçma Azərbaycana rəsmi səfərə gəldi.

Səfərin nəticəsində birgə rəsmi məlumat və Azərbaycanın Kiyevdə, Ukraynanın Bakıda səfirliklərinin açılması haqqında protokol imzalandı. Cəmi 11' sənəd; ticarət-iqtisadi əməkdaşlıq haqqında; azad ticarət haqqında; hava yolları haqqında; istehsal kooperasiyası haqqında; pensiya təminatı haqqında sazişlər, o cümlədən iki ölkənin nümayəndə heyətləri arasında danışıqların protokolu; neft-qazçıxarma sahəsində əməkdaşlıq haqqında saziş; siyasi məsləhətləşmələr haqqında protokol və s. imzalandı. Bu sənədlər iki ölkə arasında siyasi, ticarət-iqtisadi, elmi-texniki və başqa sahələrdə əməkdaşlığa təkan verdi. Avropanın ərazi və əhalicə ən böyük ölkələrindən biri olan Ukrayna ilə əməkdaşlıq Azərbaycan üçün əhəmiyyətlidir. Eyni zamanda zəngin təbii sərvətləri olan, əlverişli coğrafi- siyasi mövqedə yerləşən Azərbaycanla əlaqələr Ukrayna üçün müstəsna dərəcədə əhəmiyyətlidir.

Azərbaycan Respublikası prezidenti H.Əliyevin 1997-ci ilin martında Ukraynaya səfəri zamanı keçirilən danışıqlar və imzalanan sənədlər ikitərəfli münasibətlərə yeni keyfiyyət halı verdi.

2000-ci ilin yazında L.Kuçmanm Azərbaycana səfəri və imzalanan sənədlər dövlətlərarası münasibətləri yeni səviyyəyə qaldırdı.

2000-ci ilin mayında Azərbaycan-Ukrayna komissiyasının həmsədri Bakıya rəsmi səfərə gəldi. Həmin ilin mayında Azərbaycan Respublikasının xarici işlər naziri V.Quliyev Ukraynaya səfər etdi. Səfərlərin gedişində imzalanan sənədlər iki ölkə arasında münasibətləri dərinləşdirdi.

Moldova Respublikasına 1992-ci il aprelin 28-də Azərbaycan Respublikası diplomatik tanınma barədə nota göndərdi, Moldova hökuməti 1992-ci il mayın 18-də cavab notası verdi. 1995-ci ildə Moldovanın baş naziri A.Sangelinin rəhbərliyi ilə hökumət nümayəndə heyətinin Azərbaycana qısamüddətli səfəri zamanı iki sənəd - niyyət protokolu və ölkələrimizin yaxın beş il üçün ticarət-iqtisadi əməkdaşlığının prinsipləri barədə sazişlər imzalandı. Sənədlər iki ölkə

arasında əməkdaşlığı daha da genişləndirməyi nəzərdə tuturdu. 1996-2000-ci illərdə Moldova prezidenti P.Luçinski başda olmaqla və digər səviyyəli nümayəndə heyətləri Azərbaycanda səfərdə oldular. İmzalanan sənədlər ikitərəlü münasibətlərə yeni keyfiyyət halı verdi.

## *A vropa ölkəhri ilə münasibətlər*

Azərbaycan dövlətinin beynəlxalq fəaliyyətində Avropa ölkələri ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi başlıca yerlərdən birini tutdu.

Müstəqillik elan edildikdən sonra 1993-cü ilin avqust aymadək Avropanın 18 ölkəsi Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı. Həmin ölkələr aşağıdakılar idi: İsveçrə, Finlandiya, Belçika, AFR, Niderland, Danimarka, Böyük Britaniya, Yunanıstan, İtaliya, Norveç, Fransa, Portuqaliya, Avstriya, İsveç, İslandiya, Kıbrıs, İspaniya, Lüksemburq.

Azərbaycanla Avropa dövlətləri arasında əlaqələrin zəngin tarixi keçmişi vardır.

Almaniya 1991-ci il dekabrın 12-də Azərbaycanın dövlət müstəqilliyini tanıdı, 1992-ci il fevralın 2-də diplomatik münasibətlər qurdu. Azərbaycan dövləti Avropada ilk dəfə olaraq bu ölkədə səfirlik açdı.

1992-ci il martın əvvəlində Almaniya bundestaqı nümayəndə heyətinin Azərbaycana sə+əri oldu. Sentyabrın 2- də Almaniyada Azərbaycanın fövqəladə və səlahiyyətli səfiri H.Sadıqov prezident R.fon Vaytzekkerə etimad məktubunu təqdim etdi.

1992-ci ilin sentyabrında respublika Ticarət Nazirliyinin, noyabrında isə Azərbaycan Respublikası baş nazirinin birinci müavini başda olmaqla hökumət nümayəndə heyəti Almaniyaya səfər etdi.

1993-cü ilin yayında Almaniya ilə Azərbaycan arasında birbaşa hava xətti açıldı.

Azərbaycan Respublikasının dövlət katibi başda olmaqla nümayəndə heyəti 1993-cü ilin yanvarında Almaniyada səfərdə oldu.

Azərbaycanla Almaniya arasındakı iqtisadi əlaqələr də inkişaf etdi. Bu dövrdə Azərbaycan Almaniyadan əsasən ərzaq məhsulları və xalq istehlakı şeyləri alırdı. Öz növbəsində ölkəmiz Almaniyaya neft emalı sənayesi malları, əlvan metallar, kimya və neft kimyası, maşınqayırma, toxuculuq sənayesi məhsulları, ərzaq və xalq istehlakı malları göndərirdi.

Almaniya ilə ikitərəfli əməkdaşlıq çərçivəsində 1994-cü il martın 7-14-də Milli Məclisin komissiya sədri A.Rəhimzadə başda olmaqla nümayəndə heyəti bu ölkədə səfərdə oldu. Səfər müddətində nümayəndə heyəti Almaniya Bundestaqının sədri xanım R.Züsmutla görüşdü. Almaniyanın xarici işlər, iqtisadiyyat nazirliklərində və bir neçə şirkətlərdə görüşlər keçirildi. Görüşlərdə Azərbaycan üçün aktual olan siyasi məsələlər, o cümlədən Ermənistanın ölkəmizə hərbi təcavüzü, özəlləşdirmə və bazar iqtisadiyyatı, Almaniya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq məsələləri müzakirə edildi.

1995-ci ildə Azərbaycan parlament nümayəndə heyəti Almaniya Bundestaqı sədrinin dəvəti ilə bu ölkədə səfərdə oldu. Federal prezident R.Hersoqla, Bundestaqın sədri xanım R.Züsmutla, xarici işlər nazirinin birinci müavini H.Şeferlə görüşlərdə ikitərəfli əlaqələri genişləndirməyin zəruriliyi göstərildi.

Həmin ildə Almaniyanın xarici işlər naziri K.Kinkel. bu ölkənin ATƏT-dəki n ümayəndəliyinin başçısı K.Yottsen, İqtisadi əməkdaşlıq və inkişaf naziri K.Ditrix Şpranger Almaniyanın digər rəsmi və işgüzar adamları, xarici işlər nazirinin birinci müavini H.Şefer, həmin nazirliyin Güney Qafqaz və Orta Asiya şöbəsinin müdiri E.Barger, AFR Bundestaqının Qafqaz qrupunun rəhbəri, ATƏT-in Parlament Məclisinin vitse-prezidenti V.Vimmer

Azərbaycanda oldular. K.Kinkelin səl .iri /amanı iki ölkə arasında maliyyə və texniki əməkdaşlıq haqqında memorandum, investisiyaların qorunması və b. barədə sənədlər imzalandı. Bu sənədlər Azərbaycan-Almaniya əlaqələrinin hüquqi-siyasi təməlini qoydu və əməkdaşlığın istiqamətlərini müəyyənləşdirdi.

Azərbaycan Respublikası prezideni H.Əliyev 1996-cı ilin iyulunda AFR-ə səfəri və imzalanan sənədlər ikitərəfli münasibətləri yeni keyfiyyət mərhələsinə qaldırdı. 1998-2000- ci illərdə iki ölkə arasında müxtəlif səviyyəli nümayəndə heyətlərinin səfəri oldu. 2000-ci ilin aprel və iyul aylarında Almaniya parlamentinin nümayəndə heyəti Azərbaycanda səfərdə oldu.

Fransa 1992-ci il yanvarın 3-də Azərbaycanın dövlət müstəqilliyini' tanıdı və 1992-ci il fevralın 21-də diplomatik münasibətlər qurdu. Fransa xarici işlər nazirinin müavini B.Kuşner Azərbaycana səfər etdi.

Respublika xarici işlər naziri H.Həsənovun 1993-cü ilin dekabrın əvvəllərində Parisdə Fransanın bir çox rəsmi adamları və prezident F.Mitteranla görüşü Azərbaycan- Fransa münasibətlərinin bir sıra məsələlərində aydınlıq yaratmaqda kömək etdi. Prezidentlə görüşdə iki ölkə arasında münasibətlər müzakirə edildi. Azərbaycan prezidentinin məktubu ona təqdim olundu.

Dekabr ayında F.Mitteran Azərbaycan prezidentinə məktub göndərərək ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə böyük əhəmiyyət verdiyini və Dağlıq Qarabağ məsələsinin dinc siyasi vasitələrlə həllinə tərəfdar olduğunu bildirdi.

Fransa Respublikasının prezidenti F.Mitteramn dəvəti ilə Azərbaycan Respublikasının prezidenti H. Əliyev 1993- cü il dekabrın 19-dan 22-dək bu ölkədə səfərdə oldu. Səfər zamanı yüksək səviyyədə Fransa-Azərbaycan danışıqları keçirildi. Fransanın dövlət rəhbərləri, ziyalıları, iş adamları və ictimaiyyətin nümayəndələri ilə Azərbaycan rəhbərinin

görüşləri oldu. İki ölkə prezidentlərinin danışıqlarında Fransa ilə Azərbaycan arasında iqtisadiyyat, mədəniyyət, elm, təhsil və digər sahələrdə uzunmüddətli əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı. Danışıqlarda Azərbaycan torpağında gedən müharibə ilə əlaqədar məsələlərə geniş yer verildi. Prezidentlər Yelisey sarayında Azərbaycan ilə Fransa arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə imzaladılar. Respublika prezidenti ATƏT-in sənədlərindən biri olan «Yeni Avropa üçün Paris xartiyası»na Azərbaycanın qoşulması barədə sənədi də imzaladı. Azərbaycan prezidenti Fransada yaşayan azərbaycanlı icmasının nümayəndələri ilə görüşərək onlara respublikadakı ictimai-siyasi vəziyyət və Ermənistan silahlı qüvvələrinin təcavüzünün qarşısını almaq üçün görülən tədbirlər haqqında məlumat verdi. Azərbaycan dövlətinin başçısı və onun müşayiət edən şəxslər Luvr sarayına gedərək bu möhtəşəm muzeydə nümayiş etdirilən sənət əsərləri ilə tanış oldular.

Respublika prezidenti Fransa Xarici İşlər Nazirliyi yanında diplomatik mətbuat assosiasiyasının üzvləri ilə görüşdü. Azərbaycanda müstəqil dövlət quruculuğu, demokratiyanın inkişafı, Ermənistanın ölkəmizə qarşı təcavüzü, qaçqınların vəziyyəti, müharibəyə son qoymaq üçün respublikamızın sülh təşəbbüsləri barədə danışdı və iurnalistlərin suallarına cavab verdi.

Azərbaycan rəhbəri ölkənin işgüzar nümayəndələrinin dəvətini qəbul edərək Fransa sahibkarlarının milli mərkəzində iş adamları ilə görüşdə çıxış edərək müstəqil Azərbaycan dövlətinin qarşılaşdığı problemlər, ölkəmizin bazar iqtisadiyyatı yolunu seçməsi, və beynəlxalq iqtisadi əməkdaşlığa böyük maraq göstərməsi barədə söhbət açdı.

Azərbaycan dövləti başçısının Fransanın xarici işlər naziri Alen Jüpe ilə görüşündə yüksək -səviyyədə Fransa- Azərbaycan danışıqlarının ölkələrimiz arasındakı münasibətlərin möhkəmləndirilməsində mühüm rolu qeyd edildi və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

Fransa Diplomatiya Akademiyasında Azərbaycan Respublikasının prezidenti ilə görüş keçirildi. O, YUNESKOnun baş direktoru F.Mayor ilə görüşdü. Azərbaycan dövlətinin başçısı Fransa senatının sədri R.Monori ilə görüşdü. Prezident Fransanın Tomson firmasının rəhbərlərindən biri olan F.Jiskar dEsteni və ölkənin humanitar məsələlər üzrə naziri xanım M.Şevrini qəbul etdi və Fransanın TV-5 televiziya kanalı ilə çıxış etdi.

Fransaya səfər Azərbaycan Respublikasının beynəlxalq mövqelərinin möhkəmlənməsinə, müstəqil və suveren dövlət kimi onun nüfuzunun artmasına xidmət etdi.

1994- cü ildə Fransa parlamentinin xarici işlər komissiyasının üzvü R.Blüm, «Reno» avtomobil şirkətinin nümayəndə heyəti, parlamentin xarici işlər komissiyasının sədr müavini A.Monteskyü və b. Azərbaycana səfər etdilər. Səfərlər zamanı ikitərəfli parlament və iqtisadi əlaqələr müzakirə olundu.

1995- ci ildə bu əlaqələr davam etdirildi. Fransa Xarici İşlər Nazirliyinin baş katibi Bertran Düfurq Azərbaycana səfər etdi. Səfər zamanı iki ölkə arasında siyasi, ticarət-iqtisadi, elmi-texniki, mədəni və humanitar əməkdaşlıq məsələləri müzakirə edildi. Həmin ildə Azərbaycan prezidenti faşizm üzərində qələbə təntənələrində iştirak etmək üçün Fransaya getdi. O, Fransanın baş naziri A.Jupe, prezident J.Şirakla görüşüb danışıqlar apardı. Fransa tərəfi Azərbaycanın ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına hörmət etdiyini bildirdi. Fransa ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Ermənistan-Azərbaycan münaqişəsinin siyasi- diplomatik vasitələrlə həllinə üstünlük verir.

Azərbaycan prezidenti H.Əliyevin 1996-cı ilin əvvəllərində, 1997-ci ilin yanvarında və martında Fransaya səfəri zamanı imzalanan sənədlər münasibətləri yeni inkişaf səviyyəsinə qaldırdı. 1998-2000-ci illərdə müxtəlif səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərləri oldu.

Qitənin nüfuzlu dövlətlərindən biri olan Böyük Britaniya ilə də münasibətlərin qurulması və inkişafı Azərbaycanın xarici siyasətinin ilk addımlarından biri idi. Böyük Britaniya
1991- ci il dekabrın 31-də Azərbaycanın dövlət müstəqilliyini tanıdı və 1992-ci il martın 11-də diplomatik münasibətlər yaratdı. 1992-ci il martın 11-12-dq^ Böyük Britaniyanın xarici işlər naziri və birlik işləri naziri D.Hoqqun, avqustun 3-6-da Böyük Britaniya Xarici İşlər Nazirliyinin nümayəndə heyətinin, sentyabr ayında isə Böyük Britaniyanın keçmiş baş naziri M.Tetçerin Bakıya səfəri, yenə həmin ayın sonunda Böyük Britaniyanın Ticarət və sənaye naziri M.Hezltaymn və digər rəsmi şəxslərin Azərbaycana səfəri əhəmiyyətli oldu.
1992- ci ilin sentyabrında respublika müdafiə nazirliyinin,
1993- cü ilin mayında Azərbaycan hökumətinin nümayəndə heyətləri Böyük Britaniyaya səfər etdilər. Həmin il mayın 19-
28- də Azərbaycan Respublikasının baş naziri bu ölkədə oldu. İki ölkə arasında təhsil sahəsində əməkdaşlıq barədə razılıq əldə edildi.

Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığında Böyük Britaniya ədalətli və obyektiv mövqe tutdu. Böyük Britaniyanın baş naziri C.Meycor Azərbaycana məktub göndərərək birmənalı şəkildə bildirdi ki, «Dağlıq Qarabağı Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi kimi qəbul edir və onun başqa hər hansı statusunu tanımayacaqdır». Eyni zamanda BMT Təhlükəsizlik Şurasının iclasında Dağlıq Qarabağdakı vəziyyətin müzakirəsi zamanı sədrlik edən Böyük Britaniyanın BMT-dəki daimi nümayəndəsi səfir D.Xanney obyektiv mövqe tutaraq 853 nömrəli qətnamənin qəbul edilməsinə kömək etdi.

Böyük Britaniya ilə əlaqələrin inkişafında 1993-cü ilin oktyabmda bu ölkənin parlament nümayəndə lieyətinin Azərbaycana səfəri mühüm rol oynadı. Parlament üzvlərinin ölkə rəhbərləri ilə görüşlərində ikitərəfli siyasi, iqtisadi, elmi- texniki, mədəni və humanitar əlaqələrin inkişafı müzakirə olundu. Böyük Britaniya ilə Azərbaycan arasında parlament

əlaqələrinin genişləndirilməsi və səmərəliliyinin artırılmasının zəruriliyi qeyd edildi. Parlament üzvlərinin Zəngilan, Qubadlı və Cəbrayıl rayonlarından olan qaçqınlarla görüşü Ermənistanın təcavüzkarlığının konkret nəticələri ilə tanış olmaqda onlara köməklik göstərdi. İki ölkə arasında əlaqələrin qurulması və inkişafında Böyük Britaniyanın Azərbaycandakı «BiPi» neft şirkəti xüsusi rol oynadı.

1993-cü ilin oktyabrın əvvəllərində Böyük Britaniyanın xarici işlər naziri D.Hoqqun Azərbaycana səfəri və keçirdiyi görüşlər həm ikitərəfli münasibətlər, həm də regionda sülhün və təhlükəsizliyin taleyi baxımından əhəmiyyətli idi.

Səfər zamanı birgə bəyannamə və iki dövlət arasında münasibətlərin tənzimlənməsi haqqında bəyannaməni qəbul edildi.

Görüşlər zamanı keçirilən müzakirələrdə beynəlxalq hüquq normalarına, ATƏT prinsiplərinə və BMT nizamnaməsinə uyğun olaraq Azərbaycanın sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyünün pozulmazlığı bir daha təsdiqləndi. Böyük Britaniya münaqişənin əvvəlindən Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi qəbul etdiyini yenidən nümayiş etdirdi. Səfər zamanı qarşılıqlı faydalı siyasi, ticarət-iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə əlaqələrin genişləndirilməsinin zəruriliyi qeyd olundu.

1994-cü ildə Azərbaycan prezidenti H.Əliyevin Böyük Britaniyaya səfəri zamanı iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında müqavilə və iqtisadi əməkdaşlığa dair səkkiz sənəd imzalandı.

Bu ildə eyni zamanda Böyük Britaniya parlamentinin üzvləri ölkəmizə səfər etdilər. Görüşlərdə ikitərəfli siyasi və ticarət-iqtisadi əlaqələr müzakirə olundu'.

1995- ci ildə Böyük Britaniyadakı Adam Smit institutunun baş direktoru M.Bell, xarici işlər və millətlər birliyi işləri nazirinin MBD və Şərqi Avropa ölkələri üzrə baş müşaviri F.Riçard və b. ölkəmizə səfərləri ilə münasibətlər inkişaf etdirildi.

Həmin ildə Azərbaycan prezidenti HiƏliyev faşizm üzərində qələbə təntənələrində iştirak etmək üçün Böyük Britaniyaya səfər etdi. Səfər zamanı o, ölkə rəhbərləri ilə, tədbirdə iştirak edən bir sıra ölkələrin dövlət və hökumət başçıları ilə görüşdü. Londonda keçirilən «Azərbaycanın investisiya imkanları» mövzusundakı beynəlxalq konfransda Azərbaycan prezidenti iştirak etdi. Səfər müddətində o. Böyük Britaniya baş nazirinin birinci müavini, dövlət naziri M.Hezltaynla, Xarici İşlər və Birlik ölkələri üzrə naziri M.Rifkindlə görüşdü və Azərbaycan səfirliyini açdı. Bütün bu əlaqələr Böyük Britaniyanın xarici siyasətində Azərbaycanın tutduğu yerin yüksəldiyini göstərirdi. Azərbaycan prezidenti H.Əliyevin 1998-ci ilin iyulunda Böyük Britaniyaya səfəri zamanı keçirdiyi görüşlər və imzalanan sənədlər ölkələrimiz arasında geniş əməkdaşlığa yol açdı.

1999-2000-ci illərdə də iki ölkə arasında müxtəlif səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərləri oldu. 2000-ci ilin iyun ayında Böyük Britaniyanın dövlət naziri Q.Vilson Azərbaycana səfər etdi.

İtaliya 1992-ci il yanvarın 1-də Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı, 1992-ci il mayın 8-də diplomatik münasibətlər yaratdı.

İtaliya Avropanın siyasi və iqtisadi həyatında aparıcı yerlərdən birini tutaraq, Avropa Birliyindəki ortaqları ilə sıx əlaqələr saxlayırdı. Azərbaycanla İtaliya arasında siyasi, iqtisadi, mədəni və humanitar əlaqələrin qurulması hər iki ölkə üçün faydalı idi. Respublika Səhiyyə Nazirliyi İtaliyanın tibb müəssisələri ilə mədəniyyət və incəsənət abidələrinin bərpası və qorunması üzrə respublika təşkilatı isə İtaliyanın müvafiq təşkilatları ilə əlaqələr yaratdılar.

1992- ci ilin dekabrında Bakı şəhəri merinin rəhbərliyi altında hökumət nümayəndə heyəti İtaliyaya səfər etdi. 1993- cü ilin iyun ayında baş nazirin müavininin İtaliya səfəri zamanı iki ölkə arasındakı münasibətlər geniş müzakirə olundu.

İtaliya - Azərbaycan ticarət-iqtisadi münasibətlər də inkişaf etdi. Azərbaycan İtaliyadan toxuculuq sənayesi malları, ərzaq məhsulları və xalq istehlakı şeyləri alır, İtaliyaya isə neftayırma sənayesi məhsuları, əlvan metallar, kimya və neft kimyası, maşınqayırma, yüngül sənayesi məhsulları və xalq istehlakı malları göndərirdi.

1997-ci ilin sentyabrında Azərbaycan Respublikası prezidenti H.Əliyevin İtaliyaya səfəri, keçirilən görüşlər ikitərəfli münasibətlərdə mühüm rol oynadı.

2000-ci ilin iyun ayında İtaliya Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Azərbaycanda oldu. İki ölkə arasında imzalanan sənədlər münasibətlərin inkişafına təkan vurdu.

İspaniya 1991-ci il dekabrın 31-də Azərbaycanın dövlət müstəqilliyini tanıdı və 1992-ci il fevralın 11-də onunla diplomatik münasibətlər qurdu.

1997-ci ilin iyulunda Azərbaycan Respublikası prezidenti H.Əliyev İspaniyada səfərdə oldu. Səfər zamanı keçirilən görüşlər və imzalanan sənədlər Azərbaycan-İspaniya münasibətlərində mühüm mərhələnin başlanğıcını qoydu.

Portuqaliya 1992-ci il yanvarın 7-də Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı və 1992-ci il avqustun 4-də diplomatik münasibətlər qurdu.

Yunanıstan 1991-ci il dekabrın 31-də Azərbaycanın dövlət müstəqilliyini tanıdı, 1992-ci il aprelin 2-də diplomatik münasibətlər qurdu və 1993-cü ilin yayında isə Bakıda öz səfirliyini açdı.

Niderland 1991-ci il dekabrın 31-də Azərbaycanın dövlət müstəqilliyini tanıdı və 1992-ci il aprelin 1-də onunla diplomatik münasibətlər qurdu.

Belçika 1991-ci il dekabrın 31-də Azərbaycanın dövlət müstəqilliyini tanıdı, 1992-ci il fevralın 20-də diplomatik münasibətlər qurdu. 1996-cı ilin aprelində Azərbaycan prezidenti H.Əliyevin Belçikaya səfəri ölkələrimiz arasında münasibətlərə təkan vurdu.

Lüksemburq 1992-ci il iyunun 1-də Azərbaycanın dövlət müstəqilliyini tanıdı.

İsveçrə 1991-ci il dekabrın 23-də Azərbaycanın dövlət müstəqilliyini tanıdı və 1992-ci il yanvarın 21-də onunla diplomatik münasibətlər qurdu. 1993-cü ilin aprelində respublika baş nazirinin birinci müavini başda olmaqla hökumət nümayəndə heyəti İsveçrəyə səfər etdi. Siyasi əlaqələrin qurulması tədricən ticarət-iqtisadi münasibətlərə də təsir göstərdi. Azərbaycan prezidenti H.Əliyev 1995-ci ilin yanvarında İsveçdə keçiılən beynəlxalq iqtisadi forumda iştirak edərək çıxış etdi və ikitərəfli görüşlər keçirtdi.

ABŞ 1991-ci il dekabrın 25-də *zə\ aycan-* ^ *Ş* Azərbaycan Respublikasının dövlət

***nmnas.hətbn*** nıüstəqilliyini tanıdı, 1992-ci il martın 18-də onunla diplomatik münasibətlər yaratdı.

Azərbaycan - ABŞ münasibətlərinin əsasını beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər, dövlətlər arasında imzalanmış sənədlər təşkil etdi və münasibətlər mənafelərin tarazlığı üzərində quruldu.

1992- ci ilin oktyabrında Amerika Birləşmiş Ştatlarının dövlət departamentinin təcili humanitar yardım üzrə bürosunun direktoru A.Dytiinin başçılığı altında nümayəndə heyəti Azərbaycana səfər etdi.

1993- cü ilin birinci yarısında senator Q.Lallin iki dəfə ölkəmizdə səfərdə oldu. Səfər zamanı o, Azərbaycanda bir sıra rəsmi şəxslərlə görüşdü və əməkdaşlıq məsələlərini müzakirə etdi.

1993- cü ilin may ayında Azərbaycan Respublikası parlamentinin sədrinin ABŞ-a səfəri, keçirilən görüşlər və müsahibələr orada Azərbaycan haqqında təsəvvürün genişlənməsinə kömək etdi. Səfər zamanı ABŞ-da Azərbaycan

Respublikası səfirliyinin açılması iki ölkə arasındakı münasibətlərdə mühüm addım idi.

1993- cü ilin oktyabrın 11-də ABŞ Dövlət departamen- tinin keçmiş SSRİ respublikaları üzrə səlahiyyətli və fövqəladə səfiri S.Telbottun Azərbaycana səfəri iki ölkə arasında münasibətlərin inkişafında qarşılıqlı anlaşma yaratmaqda əsaslı rol- oynadı. Görüşdə S.Telbott ABŞ prezidenti B.Klintonun məktubunu prezident H.Əliyevə təqdim etdi. Məktub ABŞ-in Azərbaycanın işlərinə marağının artmasını göstərirdi. Həmin ilin avqust və oktyabr aylarında Azərbaycan Respublikasının prezidenti H.Əliyev ABŞ prezidentinin yeni müstəqil dövlətlərə yardım üzrə əlaqələndiricisi T.Saymonsu qəbul etdi. İki ölkə arasında işgüzar əlaqələrin inkişafında 1993-cü ilin noyabrında ABŞ Energetika nazirinin birinci müavini U.Uaytm səfəri özünəməxsus yer tutdu. Səfər zamanı ölkə rəhbərləri ilə keçirilən görüşlərdə ABŞ-Azərbaycan iqtisadi əlaqələrinin, xüsusən neft, qaz, energetika sahəsində əməkdaşlığın inkişafının zəruriliyi bildirildi. Azərbaycan tərəfi ABŞ-la geniş və səmərəli əməkdaşlığa hazır olduğunu nümayiş etdirdi.

Həmin ilin noyabrında ABŞ Dövlət departamentinin Azərbaycan və Ermənistan şöbəsinin rəhbəri K.Bennet ölkəmizə səfər etdi.

Siyasi sahədə əlaqələrdə 1993-cü ilin dekabrında Brüsseldə Azərbaycanın xarici işlər naziri H.Həsənovla ABŞ dövlət katibi Y.Kristoferin görüşü özünəməxsus yer tutdu. Belə əlaqələr ABŞ-m müxtəlif şirkətləri ilə əməkdaşlığa kömək etdi. ABŞ-m nüfuzlu Coynt təşkilatının prezidenti M.Volf Azərbaycanda səfərdə olarkən ölkə prezidenti tərəfindən qəbul edildi. Birləşmiş Ştatların Amoko, Penzoyl kimi neft şirkətləri ilə əməkdaşlıq inkişaf etdirildi. ABŞ rəsmi hakimiyyətinin Azərbaycana humanitar yardımı kəsməsinə baxmayaraq Rilif İnterneşil, Seyv Ze Çildren kimi xeyriyyə cəmiyyətləri, ABŞ-m Qırmızı Xaç cəmiyyəti ölkəmizə humanitar yardım göstərdilər.

1994- cü ildə ABŞ dövlət katibinin xüsusi müşaviri, ABŞ-m yeni müstəqil dövlətlər üzrə siyasətinin baş əlaqələndiricisi C. Kollinz, konqresmen F.Volf və b. Azərbaycana səfərə gəldilər. Danışıqlarda ABŞ-Azərbaycan siyasi, ticarət-iqtisadi, elmi-texniki və mədəni əlaqələri müzakirə edildi. ABŞ tərəfi Ermənistan-Azərbaycan münaqişəsinin dinc siyasi vasitələrlə ATƏT çərçivəsində həllinin zəruriliyini bəyan etdi. Azərbaycan tərəfi ABŞ konqresinin «Azadlığı müdafiə aktı»na edilən 907-ci düzəlişinin ləğvinin ölkəmizin azad bazar və demokratiya yolu ilə inkişafına kömək edəcəyini bildirdi.

1995- ci ildə ABŞ Dövlət departamentinin keçmiş SSRİ ərazisində regional münaqişələr idarəsinin rəisi, ATƏT-in Minsk qrupunda bu ölkənin nümayəndəsi C.Pressel, ABŞ Milli Demokratiya İnstitutunun direktoru N.Ledski, Energetika nazirinin birinci müavini U.Uayt, konqresmen Q.Laflin, senator R.Şelbin, ABŞ-m ATƏT-dəki nümayəndəsi S.Braun, görkəmli siyasi xadim Z.Bjezinski, energetika və ticarət məsələlərinə dair yeni müstəqil dövlətlər üzrə xüsusi nümayəndə Y.Kalitski, ABŞ Dövlət katibinin yeni müstəqil dövlətlər üzrə müşaviri C.Kollinz başda olmaqla hökumət nümayəndə heyəti və Energetika nazirinin müavini Ç.Körts Azərbaycana səfər etdilər. Bu səfərlər iki ölkə arasında hərtərəfli münasibətlərin inkişafını göstərdi. Səfər zamanı ABŞ nümayəndə heyəti Azərbaycan rəhbərliyi tərəfindən qəbul edildi və geniş fikir mübadiləsi aparıldı. Öz növbəsində Azərbaycan prezidenti H.Əliyev 1994-1995-ci illərdə BMT Baş Məclisinin sessiyasında və BMT-nin yubileyində iştirak etmək üçün ABŞ-da olarkən müxtəlif səviyyəli görüşlər keçirdi.

1997-ci ilin iyul-avqust aylarında Azərbaycan Respublikasının prezidenti H.Əliyev ABŞ-a ilk rəsmi səfər etdi. Sonrakı illərdə Azərbaycan-ABŞ münasibətləri daha intensiv oldu.

2000-ci ilin fevralında və sentyabrında Azərbaycan prezidenti H.Əliyev ABŞ-da səfərlərdə oldu. Səfərlər zamanı

imzalanan sənədlər iki ölkə arasında münasibətlərin inkişafında mühüm mərhələnin əsasını qoydu.

Həmin ilin yanvar və noyabr aylarında ABŞ Dövlət Departamentinin nümayəndə heyətləri Azərbaycamda səfərdə oldular.

Azərbaycan-ABŞ münasibətləri diplomatik fəaliyyətin müxtəlif formaları ilə - ölkə başçılarının məktubları, telefon danışıqları, xarici işlər nazirlərinin görüşləri, siyasi məsləhətləşmələr, müzakirələr, qarşılıqlı səfərlər, o cümlədən iş adamlarının əlaqələri, iri şirkətlərin fəaliyyəti və b. saxlanılırdı.

Azərbaycan-ABŞ münasibətləri müstəqillik əldə etdikdən sonra keçən dövr ərzində Azərbaycan tərəfi əlaqələrin tədricən yaxşılaşmasına, okeanın o tayında xalqımız və ölkəmiz haqqında obyektiv ictimai rəyin formalaşmasına doğru dönüşə, əməkdaşlığın müxtəlif formalarının tətbiqinə, yüksək səviyyəli görüşlərə və Ağ evin Azərbaycanın mövqeyini müdafiə etməsinə nail olmağa doğru getdiyini göstərdi.

ABŞ tərəfi isə Azərbaycanda iqtisadi cəhətdən kifayət qədər möhkəmlənərək və iqtisadi mənafelərini dəqiqləşdirdi, Azərbaycan ictimai rəyini öz xeyrinə dəyişdirə bildi. Ağ ev və rəsmi Bakının xarici siyasətində təmas nöqtələri tapıldı.

***Asiya*** va ***Afrika ölkələri ih miinasibDthr***

Azərbaycan dövlətinin ^^rici siyasət fəaliyyətinin istiqamətlərindən biri Asiya və Afrika ölkələri ilə münasibətlər idi. Dövlətimizin bu ölkələrlə qarşılıqlı münasibətlərinin bir sıra səciyyəvi cəhətləri var idi.

Azərbaycanı Asiya və Afrikanın bir sıra dövlətləri ilə coğrafi-siyasi yaxınlıq birləşdirir. Bunun təkcə ikitərəfli siyasi, iqtisadi, elmi-texniki, mədəni, humanitar və b. əlaqələr üçün deyil, eyni zamanda ciddi strateji əhəmiyyəti vardır. Avropa və

Asiyanın qovuşağında yerləşən Azərbaycan Qərb ölkələrinin Şərqə, Şərq ölkələrinin isə Qərbə çıxmasında körpü rolunu oynayır.

Azərbaycanın bu istiqamətdə münasibətlərində Türkiyə xüsusi yer tuturdu. Türkiyə Azərbaycanın dövlət müstəqilliyini 1991- ci il noyabrın 9-da tanıyan ilk dövlət oldu. 1992-ci il yanvarın 14-də onların arasında diplomatik münasibətlər yaradıldı.

1992- ci ilin martında Türkiyə prezidenti T.Ozalın Azərbaycana səfəri oldu. 1992-ci ildə Türkiyənin baş naziri S.Dəmirəlin, xarici işlər naziri H.Çətinin və Türkiyə Böyük Millət Məclisin deputatlarının Azərbaycana səfərləri iki ölkə arasındakı çoxsahəli münasibətlərin inkişafına təkan verdi. Öz növbəsində 1992-ci ildə Azərbaycan Respublikasının prezidenti və parlamentinin sədri Türkiyə Respublikasında səfərdə oldular. 1993-cü ilin dekabrında respublika
parlamentinin sədri Türkiyə Böyük Millət Məclisinin sədri H.Cindorukun dəvəti ilə Türkiyəyə qısa müddətli rəsmi səfər etdi. Səfər zamanı ikitərəBi münasibətlər, regionda sülh və təhlükəsizliyin qorunması məsələləri müzakirə olundu. Ifəmin ilin dekabrında Azərbaycan nümayəndə heyəti Türkiyə Böyük Millət Məclisinin dəvəti ilə Türkiyəyə səfər etdi. Səfər zamanı keçirilən çoxsaylı görüşlər ikitərəfli əlaqələrin inkişafında müsbət rol oynadı. Siyasi münasibətlər iki ölkə arasında ticarət-iqtisadi, elmi-texniki, mədəni və humanitar əlaqələrin inkişafına kömək etdi. Hələ 1990-cı il yanvarın 10-da iki ölkə arasında iqtisadi və ticarət əlaqələrin inkişafına dair protokol; 1990-cı il 19 sentyabrda sərhədyanı ticarətin inkişafına dair protokol; dəniz və çay yük daşımaları haqqında saziş; Araz çayı üzərində körpünün tikilməsi və buraxılış ınəntəqəsinin qoyulması barədə saziş; 1991-ci il aprelin 26-da energetika sahəsində əməkdaşlığa dair protokol; Azərbaycan Respublikası prezidentinin səfəri zamanı iki ölkə arasında ticarət- iqtisadi əməkdaşlığa dair digər müqavilələr imzalanmışdı.

İmzalanan sənədlərin reallaşması üçün xeyli iş görüldü. Araz çayı üzərində avtomobil yolu, ümumi smeta dəyəri 21 milyon ru DI olan dəmir yolu körpüsü tikildi, Sədərək rayonuna elektrik enerjisi verən elektrik xəttinin tikintisi başa çatdırıldı; dəniz və çay yük daşımalarına başlanıldı; işgüzar əməkdaşlığa dair ikitərəfli Azərbaycan-Türkiyə komitəsi yaradıldı; Türkiyə hökuməti ilə bağlanmış müqaviləyə görə 1992-ci ildə Azərbaycana 1 milyon ton taxıl məhsulları verildi. Respublikada Türkiyənin Podrat İmport-Eksport, Degere İnk, Matsan DİŞ Ticarət A.Ş., Penta DİŞ Ticarət A.Ş.vəbaşqa firma və şirkətlərinin nümayəndəlikləri açıldı.

İkitərəfli əməkdaşlığın əsas formalarından biri birgə müəssisələrin yaradılması oldu. Bu illərdə respublikada 39 Azərbaycan-Türkiyə birgə müəssisəsi qeydə alındı. Azneft istehsalat birliyinin və Türkiyənin Pet Oyl Korporeyted firması neft və qaz axtarışları aparmağa başladı. Sumqayıtın Kimyasənaye və Sintetik kauçuk birlikləri Türkiyənin Diegere İnk və Penta Dış Ticarət firmaları müxtəlif sahəli əməkdaşlığa başladılar. Sumqayıt Məişət Kimyası birliyi və Çapay Bayarlama sintetik yuyucu maddələrin istehsalını ildə 40 min tona qədər çatdırmaq barədə bərpa və yenidənqurma işləri görməyi öhdələrinə götürdülər. Bakı kondensioner elm- istehsalat birliyi və Türkiyənin Meltem Soyutma İsitmə ticarət A.Ş. firması məişət koııdensionerlərinin istehsalı; Simtel firması ilə tozsoranların istehsalı barədə protokollar imzaladılar. Respublika Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi Türkiyənin Təkəl firması ilə siqaret və digər tütün məmulatları istehsalı barədə razılaşma əldə etdilər. İşgüzar əməkdaşlıq digər sahələrdə də quruldu.

Azərbaycanla Türkiyə arasında elmi-texniki və mədəni əməkdaşlıq məsələləri də diqqət mərkəzində oldu. 1990-cı il yanvarın 10-da 1990-1992-ci illər üçün mədəni və elmi-texniki mübadilə barədə protokol; 1990-cı il 19 sentyabrda rabitə məsələlərinə dair saziş; yenə həmin tarixdə Bakı-İstanbul hava xəttinin açılması barədə saziş; 1991-ci il 16 mart tarixli turizm

sahəsində əməkdaşlığa dair protokol və s. imzalandı. Azərbaycan Respublikası prezidentinin Türkiyə səfəri zamanı elmi-texniki və mədəni əlaqələrə dair iki ölkə arasında saziş imzalandı. Müstəqilliyin ilk illərində imzalanan bu sənədlər tezliklə reallaşmağa başladı. Bakı-İstanbul hava xətti açıldı; Respublika Rabitə Nazirliyi ilə Türkiyənin «Netaş» və «Teletaş» şirkətləri ilə telekommunikasiya sahəsində bağlanan müqaviləyə uyğun olaraq ümumi dəyəri 512 min ABŞ dolları olan beynəlxalq telefon stansiyası quraşdırıldı; Azərbaycanla Türkiyə arasında 30 xətli beynəlxalq rabitə sistemi yaradıldı; mehmanxanalar sahəsində əməkdaşlıq quruldu; Türkiyənin televiziya proqramları Azərbaycanda göstərilməyə başlandı; respublikada «Zaman» və «Milliyyət» qəzetlərinin büroları açıldı. Azərbaycan Respublikası ilə Türkiyə arasında elmi əməkdaşlıqda Elmlər Akademiyasının Genetika və Seleksiya İnstitutu, Geologiya İnstitutu və Bakı Dövlət Universiteti özünəməxsus rol oynadılar. Azərbaycan Respublikasının təhsil və səhiyyə nazirliklərinin Türkiyənin müvafiq nazirlikləri ilə əməkdaşlığı, tələbə, aspirant və müəllim mübadiləsi genişləndi. Azərbaycan və Türkiyənin qadın təşkilatları arasında əlaqələr quruldu. Qarşılıqlı razılaşma əsasında Bakıda və İstanbulda ixtisaslaşdırılmış «Türk dünyası» və «Azərbaycan dünyası» kitab mağazaları açıldı. Artistlərin, müğənnilərin və folklor qruplarının mübadiləsi, xalça və rəssamların əsərləri sərgiləri, kino festivalları uğurla keçdi və turist əlaqələri genişləndi.

1994- cü ildə Türkiyənin Energetika naziri V.Atasoy və TBMM-in sədri H.Cindoruk Azərbaycana səfər etdilər. H.CindoıTık Azərbaycan Respublikasının prezidenti El.Əliyev tərəfindən qəbul edildi, parlamentin sədri, xarici işlər naziri ilə görüşdü. Milli Məclisdə çıxış etdi. Bu görüşlərdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərtərəlh əməkdaşlığın genişləndirilməsi sahəsində fikir mübadiləsi aparıldı və qarşılıqlı maraq doğuran aktual beynəlxalq məsələlər müzakirə edildi. Səfərin yekunu olaraq tərəfiər

arasında parlamentlərarası əməkdaşlıq haqqında saziş və bəyannamə imzalandı.

1995- ci ildə Türkiyənin baş naziri T.Çillər, xarici işlər naziri Ə.İnönü, Energetika naziri V.Atasoy, əmək və sosial təminat naziri M.Kul Azərbaycana səfər etdilər. Türkiyə prezidenti S.Dəmirəlin səfəri zamanı o, Milli Məclisin iclasında çıxış etdi, qaçqınlarla, ictimaiyyətin nümayəndələri, iş adamları ilə görüşdü, birgə bəyanat, televiziya yayımları haqqında əməkdaşlıq müqaviləsi imzalandı, iki ölkə arasında avtomobil daşımaları haqqında sazişin təsdiqi və qüvvəyə minməsi barədə notalar mübadiləsi edildi.

1996- cı il fevralın 8-də Azərbaycan prezidenti H.Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üzrə danışıqlarda Türkiyə prezidentinin .xüsusi nümayəndəsi K.Ayxanı qəbul etdi. Xüsusi nümayəndə bildirdi ki, «biz dost və qardaş Azərbaycanın ədalətli mövqeyini həmişə müdafiə etmişik, Türkiyədə hökumətə kimin başçılıq etməsindən asılı olmayaraq indən sonra da Azərbaycanı dəstəkləməyi özümüzə borc hesab edirik».

Aprelin 14-də Türkiyənin baş naziri və Ana Vətən Partiyasının sədri M.Yılmaz Azərbaycanda səfərdə oldu. O, Azərbaycan prezidenti, baş naziri və parlamentin sədri ilə görüşdü. Bir il içərisində baş nazir səviyyəsində edilən bu üçüncü səfər ikitərəfii münasibətlərin səviyyəsinin göstəricisi ola bilərdi. Bütün beynəlxalq təşkilatlarda aparılan müzakirələrdə və danışıqlarda Türkiyənin Azərbaycanın haqq işini bundan sonra da həmişə müdafiə edəcəyini nəzərə çarpdıran M.Yılmaz bildirdi ki, Dağlıq Qarabağın müstəqillik iddialarına qətiyyən yol verilməyəcəkdir. Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edən baş nazir bunun hər iki qardaş ölkə və region üçün böyük əhəmiyyət olduğunu bildirdi. Səfər zamanı iki ölkə arasında bir sıra sahələrdə əməkdaşlığa dair mühüm sənədlər və birgə bəyanat imzalandı. Azərbaycanla Türkiyə arasında əməkdaşlıq haqqında sazişin

qüvvəyə minməsi barədə notalar mübadiləsi edildi. Baş nazir Şəhidlər xiyabanım ziyarət etdi və ictimaiyyətin nümayəndələri ilə görüşdü. Ona M.Ə.Rəsulzadə adma Bakı Dövlət Universitetinin fəxri doktoru diplomu verildi.

1996- cı il iyunun 11-13-də Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin VII sessiyasında iştirak edən TBMM sədrinin müavini Q.Gənc başda olmaqla parlament nümayəndə heyəti Azərbaycanda bir sıra görüşlər keçirtdi. Səfər parlamentlərarası əməkdaşlıqda mühüm yer tutdu.

İyun ayında İqdır vilayətinin nümayəndə heyəti və Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi İ.Qaradayı Azərbaycana səfər etdi. Sentyabrın sonunda Türkiyənin Milli Təhlükəsizlik naziri S.Köksal Azərbaycana səfər etdi. Bakıda aparılan danışıqların Türkiyənin və Azərbaycanın mənafeləri üçün faydalı olduğu bildirildi. Təhlükəsizlik orqanları arasında əməkdaşlığın mühüm əhəmiyyəti var idi.

Oktyabr ayında Türkiyənin dövlət nazirləri N.Zeybək və Ə.Əndican Azərbaycanda səfərdə oldular. Görüşlərdə müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyi qeyd edildi.

1996- cı ildə türk dövlət başçılarının IV Zirvə toplantısı keçirilən zaman ikitərəlli qaydada ■ Azərbaycan-Türkiyə münasibətləri də müzakirə edildi.

Həmin il oktyabrın 24-də Türkiyənin Azərbaycan Respublikasındakı yeni səfiri O.Lağoğlu Azərbaycan prezidenti H.Əliyevə öz etimadnaməsini təqdim etdi. 1997-ci il fevralın ortalarında Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyəti Azərbaycana səfər etdi. Səfər zamanı keçirilən görüşlərdə ikitərəfli siyasi münasibətlərin, o cümldən parlament əlaqələrini inkişaf etdirməyin vacibliyi göstərildi. Martın 18-20-də isə TBMM sədri M.Qələmli Azərbaycana səfər etdi. Səfər zamanı o, Azərbaycan prezidenti. Milli Məclisin sədri ilə görüşdü, parlamentdə çıxış etdi və S.Dəmirəlin məktubunu Azərbaycan prezidenti H.Əliyevə

çatdırdı. Müzakirələrdə türk dövlətlərinin parlamentlərarası məclisinin yaradılması zəruriliyi göstərildi. M.Qələmliyə N.Nərimanov adma Azərbaycan Dövlət Tibb Universitetinin fəxri doktoru diplomu təqdim olundu.

1997- ci il mayın əvvəlində Azərbaycan Respublikasının prezidenti H.Əliyev Türkiyədə səfərdə oldu. Mayın 5-də Azərbaycan prezidenti Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı İ.Qaradayı ilə görüşdü. Söhbətdə regionda sülh və əməkdaşlıq məsələləri müzakirə edildi. Azərbaycan və Türkiyə prezidentləri təkbətək görüşdülər. Türkiyə prezi'denti iki ölkə ' arasında münasibətlərin inkişafından razı qaldığını bildirdi. Həmin gün iki ölkə arasında sənədlərin imzalanması mərasimi oldu. Azərbaycan və Türkiyə prezidentləri iki ölkə arasında «Strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə»ni imzaladılar. Sonra Azərbaycan Respublikası hökuməti ilə Türkiyə hökuməti arasında sənədlər imzalandı. Azərbaycan Respublikasının xarici işlər naziri H.Həsənov və Türkiyə Respublikası baş nazirinin müavini, xarici işlər naziri T.Çillər «Sərhəd məsələlərinin və anlaşılmazlıqların həlli haqqında saziş»ə, Azərbaycan baş nazirinin müavini A.Şərifov və Türkiyənin dövlət naziri G.Dağdaş «Gəmiçilik sazişi»nə, A.Şərifov və Türkiyənin yollar naziri Ö.Barudçu «Hava limanları haqqında sazişə əlavə protokola» imza atdılar. Azərbaycanın gənclər və idman naziri Ə.Qarayev və Türkiyənin dövlət naziri B.Şənər «Gənclik və idman sahəsində əməkdaşlığa dair əlavə protokohnı, nazirlər Ə.Nağıyev və N.Çelik «Azərbaycan Respublikası əmək və sosial təminat nazirliyi ilə Türkiyə Respublikasının Əmək və sosial təminat nazirliyi arasında əməkdaşlıq sazişi»ni imzaladılar. «Kiçik və orta həcmli sənaye müəssisələrini inkişaf etdirmək istiqamətində əməkdaşlığın əlavə protokolu», «Elektrik enerjisi sahəsində əməkdaşlığın prinsipləri haqqında saziş» imzalandı. Sənədlərin rəsmi imzalanma mərasimindən sonra S.Dəmirəl və H.Əliyev bəyanatlarla çıxış etdilər. S.Dəmirəl

dedi ki, Türkiyə qardaş Azərbaycanın müstəqilliyini və suverenliyini qorumaq və inkişaf etdirmək səylərini indiyə qədər olduğu kimi bundan sonrakı dövrdə də hər sahədə daim dəstəkləməkdə davam edəcək, mövcud mehriban əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün səy göstərəcəkdir. Azərbaycan müstəqillik qazanandan bəri Türkiyə həmişə onun yanında olmuşdur.

Bəyanatında H.Əliyev dedi ki, Azərbaycan müstəqil dövlət olandan indiyədək respublikamızın bütün dövlətlərlə qurduğu əlaqələr tarixində Türkiyə ilə əlaqələri xüsusi yer tutur. Türkiyə həmişə Azərbaycanı dəstəkləmiş, Azərbaycanın müstəqil dövlət olması yolunda ölkəmizə daim öz rəğbətini bildirmiş və Azərbaycan öz müstəqilliyini elan edən kimi ilk dəfə respublikamızı tanıyan dövlət olmuşdur. Bəyanatda imzalanan sənədlərə böyük əhəmiyyət verildi. Göstərildi ki, indiyədək iki ölkə arasında bir çox müqavilələr imzalanmışdır, amma bu gün imzalanan sazişlər də bizim əlaqələrimizin normativ-hüquqi bazasını daha da genişləndirir. Azərbaycan prezidenti həmçinin baş nazirin müavini ilə, xarici işlər naziri
T.Çillərlə, baş nazir N.Ərbakanla görüşdü. Görüşlərdə ikitərəfli münasibətlər, Rusiyanın Ermənistana 1 milyard dollar məbləğində silah verməsi və s. məsələlər müzakirə edildi. Səfər zamanı Azərbaycan prezidenti Türkiyədə akkreditə olunmuş xarici ölkələrin' diplomatik korpusunun nümayəndələri ilə görüşdü, Ankarada Azərbaycan prospektinin açılışında, Ankarada Azərbaycan səfirliyinin yeni binasının təməlinin qoyulması mərasimində iştirak və çıxış etdi. Azərbaycan prezidenti Türkiyə Böyük Millət Məclisində çıxış etdi.

May ayının sonunda isə Azərbaycan parlamentinin nümayəndə heyəti Türkiyədə səfərdə oldu. Səfər zamanı Türkiyə prezidenti və TBMM sədri ilə görüşlər oldu və parlamentlərarası əlaqələri daha da inkişaf etdirmək məsələləri müzakirə edildi.

İyulun 8-də Azərbaycan prezidenti H.Əliyev Madridə səfər zamanı Türkiyə prezidenti S.Dəmirəllə görüşdü. Görüşdə Azərbaycan-Türkiyə əməkdaşlığının genişləndirilməsi barədə fikir mübadiləsi aparıldı.

Avqustun 28-də Türkiyənin Xarici İşlər Nazirliyi bəyanat verərək bildirdi ki. Yuxarı Qarabağ münaqişəsinə son qoyulmasının təkcə münaqişədə iştirak edən tərəflər üçün deyil, region üçün, regiona qonşu olan, habelə regiona maraq göstərən üçüncü ölkələr üçün yeni imkanlar yaradacağı şəksizdir. Lakin Türkiyə-Ermənistan sərhədinin bağlanmasına dair 1993-cü il aprel tarixli hökumət qərarının nəzərdən keçirilməsini zəruri edəcək şərait hələ yaranmamışdır. Türkiyə-Ermənistan sərhədinin açılması yalnız Minsk qrupunda danışıqlar prossesində əhəmiyyətli irəliləyişin gözlənildiyi halda gündəliyə çıxarıla bilər.

Sentyabrın 8-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Türkiyə Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq və siyasi məsləhətləşmələr haqqında anlaşma imzalandı. Sənədi nazirlər H.Həsənov və İ.Cem imzaladılar. Bu sənəd diplomatik-siyasi sahədə geniş əməkdaşlığı nəzərdə tuturdu.

1998- ci il fevralın 6-da ATƏT-in Minsk qrupunda Türkiyənin xüsusi səfiri Azərbaycanda oldu. O, Azərbaycan prezidenti və digər rəsmi şəxslərlə görüşdü.

Fevralda Türkiyənin Azərbaycana yeni təyin olunmuş səfiri Q.Tezcan etimadnaməsini Azərbaycan prezidentinə təqdim etdi. Təqdimat mərasimində səfir Azərbaycanın sülh və rifah içində yaşamasının Türkiyə üçün çox önəmli olduğunu söylədi.

Fevralın ortalarında Azərbaycan prezidenti H.Əliyev Türkiyə prezidenti S.Dəmirəlin və baş nazir M.Yılmazın ^dəvəti ilə Türkiyədə qısa müddətli səfərdə oldu. Keçirilən görüşlərdə ikitərəfli münasibətlər və bölgədəki vəziyyət müzakirə edildi. Səfər zamanı Azərbaycan prezidenti, Türkiyə prezidenti, baş naziri və TBMM-in sədri ilə görüşlər keçirtdi.

Aprelin sonlarında Azərbaycan prezidenti H.Əliyev Türkiyədə Dərinər su bəndinin - su elektrik stansiyasının təmələnin qoyulmasına həsr edilmiş tədbirdə iştirak etmək üçün Türkiyəyə qısa müddətli səfər etdi. O, S.Dəmirəllə. M. Yılmazla və b. rəsmi şəxslərlə görüşdü. Keçirilən danışıqlarda ikitəfərli münasibətlər və bölgə problemləri geniş müzakirə olundu.

1998- ci il martın əvvəllərində Türkiyə prezidenti Azərbaycanda yolüstü səfərdə oldu.

Həmin ilin iyunun əvvəllərində Türkiyənin enerji və təbii ehtiyatlar naziri C.Ərsümərin Bakıya səfəri zamanı keçirilən görüşlərdə çoxlu məsələlər müzakirə edildi. Bu məsələlər əsasən iqtisadi sahələri əhatə etsə də, onların mühüm siyasi əhəmiyyəti var idi. Həmin ayın əvvəlində Türkiyə Silahlı Qüvvələrinin quru qoşunları komandanı, ordu generalı H.Kivrikoğlu Bakıda oldu. Görüşlərdə belə bir ümumi fikir ifadə olundu ki, Azərbaycanla Türkiyə arasında əməkdaşlıq ən yüksək səviyyədədir.

Azərbaycan-Türkiyə diplomatik-siyasi əməkdaşlığında mühüm yeri iyunun 4-5-də Yaltada keçirilən Qara dəniz İqtisadi Əməkdaşlığının üzvü olan ölkələrin dördüncü Zirvə görüşü keçirildiyi zaman aparılan danışıqlar tutdu. Görüşdə üzv ölkələrdən 9 prezident və 2 baş nazir iştirak edirdi. Azərbaycan prezidenti H.Əliyev Türkiyə prezidenti S.Dəmirəllə və b. ölkələrin rəhbərləri ilə görüşdü. Zirvə görüşünün yekununa dair imzalanmış bəyannamədə üzv ölkələr arasında, o cümlədən Türkiyə ilə • siyasi-iqtisadi' əməkdaşlığı genişləndirmək vəzifəsi qarşıya qoyuldu.

İyulun sonunda Türkiyə xarici işlər nazirinin müavini Y.Başkurt Azərbaycanda səfərdə oldu. O, Azərbaycan prezidenti, xarici işlər naziri ilə görüşlər keçirərək ikitərəlli diplomatik-siyasi münasibətləri və Xəzər nefti ilə bağlı məsələləri müzakirə etdi.

1998-ci il sentyabrın əvvəllərində Türkiyə prezidenti S.Dəmirəl tarixi İpək yolunun bərpası üzrə TRASEKA

proqramı çərçivəsində Bakıda keçirilən beynəlxalq konfransda iştirak etmək üçün Azərbaycana səfər etdi. Səfər zamanı bir sıra ikitərəfli və regional məsələlər müzakirə olundu.

Türkiyə Respublikasının 75 illiyi münasibətilə Azərbaycan prezidenti oktyabr ayının sonlarında Türkiyədə səfərdə oldu. Səfər zamanı prezident S.Dəmirəl, baş nazir M.Yılmaz və parlamentin sədri H.Çətinlə görüşlər keçirildi ikitərəfli münasibətlər müzakirə edildi. Oktyabrın 29-da TBMM-in binasında Xəzər regionu enerji ehtiyatlarının, xüsusən Azərbaycan neftinin dünya bazarlarına çatdırılması üçün Bakı-Tbilisi-Ceyhan marşrutunun müəyyənləşdirilməsini nəzərdə tutan Ankara bəyannaməsinin imzalanması mərasimi keçirildi. Sənədi Türkiyə Respublikası adından prezident
S. Dəmirəl, baş nazir M.Yılmaz, Azərbaycan Respublikası adından prezident Heydər Əliyev, Gürcüstan Respublikası adından prezident E.Şevardnadze, Qazaxıstan Respublikası adından prezident N.Nazarbayev, Özbəkistan Respublikası adından prezident İ.Kərimov, ABŞ hökuməti adından energetika naziri B.Riçardson imzaladılar. Sənəd təkcə iqtisadi deyil, eyni zamanda siyasi, strateji əhəmiyyət daşıyırdı. O, dövlətlərin qarşılıqlı əməkdaşlığım, regionda sülh və təhlükəsizliyin təmin olunmasını nəzərdə tuturdu.

Noyabrın 27-də Türkiyə Respublikası prezidentinin xüsusi nümayəndəsi, enerji və təbii ehtiyatlar nazirinin müavini Y.Yigitgüdan Azərbaycan prezidenti ilə görüşərək ikitərəfli münasibətlərə dair məsələləri müzakirə etdi.

Fevral ayında Azərbaycanın xarici işlər naziri
T. Zülfüqarov Türkiyəyə rəsmi səfər etdi. Səfər zamanı o, prezident S.Dəmirəllə, xarici işlər naziri İ.Cemlə və TBMM sədri H.Çətinlə görüşdü.

Sentyabr ayının 20-də Bakıda əsrin müqaviləsinin imzalanmasının beş illiyi münasibətilə keçirilən tədbirdə Türkiyənin dövlət naziri Ə.Çayla keçirilən görüşlər əhəmiyyətli oldu.

2000-ci ilin yanvarında Azərbaycan prezidenti H.Əliyev Türkiyəyə qısamüddətli sələr etdi. Həmin ilin iyulunda Türkiyə prezidenti Ə.N.Sezər Azərbaycanda rəsmi səfərdə oldu. Səfərlər zamanı imzalanan sənədlər Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərini daha da dərinləşdirdi.

2000-ci ildə TBMM sədri Y.Akbulut, xarici işlər naziri İ.Cem və müdafiə naziri də Azərbaycana səfərə gəldilər.

Beləliklə, XX əsrin 90-cı illərində Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri müxtəlif formalarla inkişaf edərək yüksək inkişaf səviyyəsinə çatdı. Azərbaycan prezidenti «Atatürk» sülh mükafatına, Süleyman Dəmirəl isə «İstiqlal» ordeninə ölkə arasında əlaqələrin inkişafına və regionda sülhün möhkəmlənməsinə, töhfələrinə görə layiq görüldülər.

Azərbaycan dövlətinin xarici siyasətində İran özünəməməxsus yer tutdu. 1991-ci il dekabrın 25-də İran Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı, 1992-ci il martın 12-də diplomatik münasibətlər qurdu.

1991- ci ilin martında İranın siyasi və işgüzar dairələrinin. Televiziya və Radio Verilişləri Şirkətinin nümayəndələri, alimləri və din xadimləri Bakıda oldular. Noyabrın 25-dən dekabrın 4-nə qədər Bakıda İİR-in sənaye malları sərgisi keçirildi. Sərgidə Şərqi və Qərbi Azərbaycan əyalətlərinin, Aəncan və Gilaiıın 303 firması iştirak etdi. Mart və dekabr aylarında Tehranda Azərbaycan, Bakıda isə İran kitabı sərgisi keçirildi. Sərgilərdə 3 minə yaxın kitab nümayiş etdirildi. May ayında Azərbaycanın kitab naşirləri Tehranda üçüncü və dördüncü Beynəlxalq kitab yarmarkalarında iştirak etdilər. Nəticədə kitab sərgilərinin mübadiləsi, kitab nəşri və ticarət sahəsində saziş imzalandı.Martın 3-də Bakı və Tehran arasında avtomat telefon xəttinin istismarına başlandı. 1992-ci ilin yanvar ayında Azərbaycan nümayəndə heyəti İranda oldu. Səfər zamanı 10 milyon dollarlıq mal mübadiləsi aparmaq, İrandan alınmış 160 avtobusun, 10 min ton düyü və başqa ərzaq məhsullarının gətirilməsi barədə sənəd imzalandı. Fevralda Azərbaycan Respublikasının parlament üzvlərind."n.

ziyalılardan, ictimai və siyasi təşkilatların rəhbərlərindən ibarət nümayəndə heyəti İran inqilabının ildönümü rnünasibəlilə keçirilən tədbirlərdə iştirak etdi.

Bakı - Tehran - Bakı hava .xətti açıldı. Az sonra bu reyslər ikitərəfli xarakter aldı.

Avqust ayında Təbrizdə Azərbaycan Respublikasının «Azərbaycanın ixracat məhsulları» adlı sərgisi keçirildi. Sərgidə əlliyə qədər sənaye müəssisələrinin məhsulları nümayiş etdirildi. Bu. müstəqil Azərbaycanın respublika sərhədləri xaricindəki ilk sərgisi idi.

Avqustda Azərbaycan Respublikasının xarici işlər naziri İİR-də rəsmi səfərdə oldu. Səfər zamanı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və İİR Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqıda protokol imzalandı. Oktyabrda Tehranda keçirilən Xəzəryanı ölkələrin əməkdaşlıq təşkilatının təsis konfransının işində Azərbaycan nümayəndə heyəti iştirak etdi. Noyabrın 6-dan 20-nə qədər Bakıda Azərbaycan - İran birgə iqtisadi komissiyasının iclası keçirildi. İki ölkə arasında iqtisadi əməkdaşlıq haqqında memorandum imzalandı. Dekabrın 13-də İran İslam Respublikasının prezidenti Əli Əkbər Haşimi Rəfsəncani Azərbaj'canm İranda ilk səfirini qəbul etdi. 1992-ci dekabrın 27-29-da Azərbaycan Respublikasının dövlət katibinin başçılıq etdiyi nümayəndə heyəti İİR-də rəsmi səfərdə oldu. Səfər zamanı iqtisadi və mədəni sahələrdə əməkdaşlığa dair müqavilələr imzalandı.

1993- cü ilin yanvar ayında Qarabağ müharibəsində yaralanmış bir qrup (18 nəfər) hərbi qulluqçunun İranda müalicəyə göndərilməsinə görkəmli ədib və həkim C.Heyət kömək etdi. Qarabağda döyüşlər zamanı yaralanan 14 nəfər Azərbaycan vətəndaşı müalicə üçün Rəşt şəhərinin xəstəxanalarında yerləşdirildilər.

Martın ortalarında Naxçıvan MR Ali Məclisinin sədri H.Əliyev İİR-nin xarici işlər naziri doktor Əli Əkbər Vilayətinin dəvəti ilə bu ölkədə iki günlük səfərdə oldu. Səfərdə məqsəd İranla Azərbaycan arasında əlaqələri

möhknniləndirmək və mühasirə şəraitində yaşayan Naxçıvanın mövcud problemlərinin həllində İİR-nin köməyindən istifadə etmək idi.

Martın 31-dən aprelin 5-nə kimi Azərbaycan Respublikasında görkəmli Azərbaycan şairi Şəhriyarın yubileyinə həsr olunmuş təntənəli tədbirlər çərçivəsində beynəlxalq elmi simpozium keçirildi. Bu tədbirlər İranda keçirilmiş Şəhriyar yubileyinə həsr olunmuş tədbirlərin davamı oldu. Aprelin 11-də Azərbaycan Respublikasının ılövlət katibi Tehrana iki günlük işgüzar səfərə gəldi.

Avqustun 17-18-də İran İslam Respublikası Xarici İşlər naziri Ə.Vilayətinin Azərbaycan Respublikasına səfəri zamanı parlamentin sədri, baş nazir. dövİət katibi və digər rəsmi şəxslərlə keçirilən görüşlərdə iki qonşu ölkə arasındakı münasibətlərin inkişafı məsələləri müzakirə edildi. Bir sıra mühüm sənədlər imzalandı.

Ə.Ə.Həşimi Rəfsəncaninin 1993-cü il oktyabrın 26-28-də Azərbaycanda səfərdə olması, siyasi, ticarət, iqtisadi, elmi- texniki, mədəni və humanitar əlaqələrə dair 14 saziş, protokol və memorandumun imzalanması iki ölkə arasındakı münasibətlərdə əvvəlki illərdə yol verilmiş soyuqluğun aradan qaldırılması, münasibətlərin inkişaf etdirilməsi üçün zəmin yaradılmasında əsaslı rol oynadı. İran prezideti Azərbaycan Respublikasının prezidenti ilə görüşdü. Şəhidlər xiyabanında, hərbi qospitalda və Elmlər Akademiyastnda oldu. İmzalanan sənədlər aşağıdakılar idi: İran İslam Respublikasının
Mədəniyyət mərkəzi ilə Azərbaycan Elmlər Akademiyası arasında elm sahəsində əməkdaşlıq haqqında saziş; Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə İran İslam Respuı-likasmın Sənaye Nazirliyi arasında protokol; iki ölkənin ticaj'ət nazirlikləri arasında niyyət protokolu; Azərbaycan Respublikası ilə İran arasında qarşılıqlı ticarət haqqında sa.’is; Azərbaycan .Milli Bankı ilə İran İslam Respubhkasmm Mərkəzi Bankı arasında bank ödəniş sazişi; Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında

tranzit haqqında saziş; Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında nəqliyyat sahəsində qarşılıqlı anlaşma memorandumu; Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi əməkdaşlıq haqqında niyyət protokolu; İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında elm, mədəniyyət, iqtisadiyyat sahəsində əməkdaşlıq haqqında saziş (Naxçıvan Muxtar Respublikasına dair); Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında mədəniyyət, elm və təhsil sahəsində əməkdaşlıq haqqında qarşılıqlı anlaşma protokolu; Azərbaycan Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Ali Təhsil və Mədəniyyət nazirlikləri arasında elm, təhsil və tədqiqatlar sahəsində əməkdaşlıq haqqında memorandum. Səfər zamanı iki dövlətin xarici işlər nazirləri Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında adi xarici pasportlardan gediş-gəlişin asanlaşdınimasına dair memorandum, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında siyasi məsləhətləşmələr haqqında protokol imzaladılar. İki ölkənin prezidentləri isə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqında memorandum imzaladılar.

Dekabrın əvvəllərində Azərbaycan Respublikası parlamentinin sədri İran İslam Respublikası parlamentinin başçıs; Natiq Nurinin dəvəti ilə bu ölkəyə səfər etdi. Səfər zamanı iki ölkə arasında geniş münasibətlər müzakirə edildi, bölgədə sülhü, təhlükəsizliyi qorumağın və məsələləri dinc siyasi vasitələrlə həll etməyin vacibliyi göstərildi.

1994- cü ildə İranın xarici işləri naziri Ə.Vilayəti, Şərqi Azərbaycan Ostanının başçısı Ə.Əlizadə, Neft naziri Q.Ağazadə, xarici işlər nazirinin müavinləri M.Vaizi. M.Səmədi, parlamentin sədri N.Nuri Azərbaycana səfərə gəldilər.

İran parlamentinin sədri Azərbaycan prezidenti tərəfindən qəbul edildi. Parlamentin sədri xarici işlər naziri, həmçinin Şeyxülislam H.A.Paşazadə ilə görüşdü və Milli

Məclisdə çıxış etdi. Bu görüşlərdə beynəlxalq problemlərlə yanaşı, iki ölkənin hərtərəfli əməkdaşlıq əlaqələrinin genişləndirilməsi sahəsində fikir mübadiləsi aparıldı, qarşılıqlı maraq doğuran aktual məsələlər müzakirə edildi. Səfərin yekununda tərəflər arasında əməkdaşlıq haqqında saziş və bəyannamə imzalandı.

1994- cü ildə Azərbaycan prezidenti İrana səfər etdi. Səfər zamanı iki ölkə arasında dostluq münasibətlərinin inkişafı haqqında 13 maddədən ibarət bəyanat imzalandı. Bəyanat ictimai həyatın bütün sahələrində əməkdaşlığı müəyyənləşdirirdi.

1995- ci ildə İranın kooperasiya naziri, Azərbaycan-İran müştərək iqtisadi, texniki, elmi və humanitar komissiyasının İran tərəfindən sədri Q.Şafeinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda oldu. Səfərlər iki ölkə arasında ticarət- iqtisadi, elmi-texniki və mədəni əlaqələrə təkan verdi.

1996- cı ilin mayında Azərbaycan prezidenti H.Əliyev İrana səfər edərək Məşhəd-Sərxəs-Təğən dəmir yolunun işə salınması mərasimində iştirak etdi.

Sonrakı illərdə iki ölkə arasında müxtəlif səviyyəli nümayəndə heyətlərinin mübadiləsi oldu. 2000-ci ilin mayında İran Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Azərbaycana səfər etdi.

Azərbaycan dövlətinin bu istiqamətdə xarici siyasət fəaliyyətində ərəb ölkələri xüsusi yer tutdu.' Səudiyyə Ərəbistanı 1991-ci il dekabrın 30-da Azərbaycanın dövlət müstəqilliyini tanıdı və 1992-ci il fevralın 24-də diplomatik münasibətlər quruldu.

Birləşmiş Ərəb Əmirlikləri 1991-ci il dekabrın 26-da ölkəmizin dövlət müstəqilliyini tanıdı, 1992-ci il sentyabrın 1- də diplomatik əlaqələr quruldu.

Suriya Ərəb Respublikası Azərbaycan dövlətinin müstəqilliyini 1992-ci il yanvarın 16-da tanıdı, 1992-ci il martın 28-də diplomatik münasibətlər quruldu. Azərbaycan Respublikasının Misir Ərəb Respublikası ilə qarşılıqlı faydalı

münasibətlərinin inkişafı böyük əhəmiyyətə malik idi. Azərbaycan-Misir münasibətlərinin kökləri iki xalq arasındakı tarixi, mədəni, dini və s. yaxınlıqlara əsaslanırdı. Bu münasibətlərin əhəmiyyəti Misirin ərəb dünyasında siyasət lideri olması, onun beynəlxalq aləmdə, xüsusi ilə BMT, Ərəb Dövlətləri Cəmiyyəti, Afrika Birliyi Təşkilatı, İslam Konfransı Təşkilatı və s. beynəlxalq təşkilatlarda olan nüfuzlu ilə müəyyənləşirdi.

1991- ci il dekabrın 26-da Misir Azərbaycan Respublikasının müstəqilliyini tanıdı, 1992-ci il aprelin 4-də isə iki ölkə arasında diplomatik əlaqələr yarandı. Qısa vaxtda iki dövlət arasında uzunmüddətli əməkdaşlığın əsası qoyuldu. Azərbaycan Respublikası xarici işlər nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti 1992-ci il noyabrın 7-9-da Misir Ərəb Respublikasında rəsmi səfərdə oldu. Səfər iki ölkə arasında müxtəlif sahələrdə əlaqələrin, o cümlədən siyasi, mədəni, ticarət və iqtisadi əlaqələrin genişləndirilməsi və bu əlaqələrin perspektivlərinin müəyyənləşdirilməsi məqsədini güdürdü. İlk görüş Misirin Planlaşdırma Nazirliyində keçirildi. Misirin planlaşdırma naziri, həm də baş nazirinin müavini d-r Kamal əl-Qənzuri ilə söhbət zamanı əsasən, iki respublikanın iqtisadi əlaqələrinin yaradılması barədə razılıq əldə edildi. Azərbaycan Respublikası xarici işlər naziri Misir prezidenti Hüsnü Mübarəklə görüşdü. Siyasi məsələlərin müzakirəsi zamanı nümayəndə heyətinin başçısı Misir prezidentinə Azərbaycan- Ermənistan münaqişəsindən söhbət açdı və bu məsələdə Azərbaycanın mövqeyini Misir tərəfinin nəzərinə çatdırdı. Söhbətin gedişindən məlum oldu ki, Misir prezidenti Azərbaycanda baş verən hadisələr barədə ətraflı məlumata malikdir. O, Azərbaycan tərəfinin mövqeyi ilə öz ölkəsinin mövqeyinin üst-üstə düşdüyünü qeyd etdi. Səfər zamanı nazir ərəb dünyasının, ümumiyyətlə, bütün islam aləminin ən qədim universitetlərindən biri olan Əl-Əzhər Universitetinin rektoru ilə görüşdü. Əldə olan razılığa görə bu universitetdə təhsil almaq üçün Azərbaycandan ən azı 5-10 tələbə göndərilməli

idi. Ən məhsuldar danışıqlar Misirin Xarici İşlər Nazirliyində oldu. İki ölkənin Xarici İşlər nazirlikləri arasında əməkdaşlıq haqqında protokol imzalandı. Sənədə əsasən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Misir Xarici İşlər Nazirliyi arasında beynəlxalq və regional problemlər barəsində vaxtaşırı məsləhətləşmələr keçirmək, bu və ya digər məsələlərdə hər iki tərəfin tutduğu mövqeləri bir-birinə uyğunlaşdırmaq, habelə beynəlxalq təşkilatlarda iki tərəfə aid olan regional problemlərdə bir-birinin mövqeyini müdafiə etmək nəzərdə tutulurdu. İki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında saziş imzalandı. Saziş mədəni əlaqələrin genişləndirilməsi ilə yanaşı, tələbə, müəllim, elmi və texniki işçilərin mübadiləsini də nəzərdə tuturdu. Bu sənədlərdən başqa Misir tərəfi ilə konsulluq əlaqələri, informasiya mübadiləsi sahəsində əməkdaşlıq və iqtisadi-ticarət əlaqələri barədə sazişlər paraflandı. Azərbaycanda və Misir Ərəb Respublikasında hər iki ölkənin səfirliklərinin açılması barədə razılıq əldə edildi. Tezliklə bu iş həyata keçirildi. 1993-cü il mayın 24-26 -da Misir parlamentinin nümayəndə heyəti xarici işlər üzrə daimi komissiyanın rəhbəri M.Abdella başda olmaqla Bakıya gəldi. Görüş zamanı respublika prezidenti və Misir parlamentinin nümayəndələri dövlət quruculuğu sahəsində iki ölkənin əməkdaşlıq etmək niyyətində olduqlarını bildirdilər.

Misirin M.Əbülxeyir qrupu ölkəmizdə bir sıra tikinti işlərində, o cümlədən, Azərbaycan Dövlət Musiqili komediya teatrının tikintisində yaxından iştirak etdi. Həmin qrup həmçinin Azərbaycandakı bir milyon nəfərdən çox qaçqının vəziyyətini yüngülləşdirmək üçün addımlar atdı. O, qaçqınların əzablarını yüngülləşdirməkdən ötrü 25 min ABŞ dolları məbləğində pul keçirdi. Sonrakı illərdə bu ölkələr arasında siyasi əlaqələrin dinamikası sürətləndi. Müxtəlif səviyyəli görüşlərin keçirilməsi, müzakirə edilən məsələlər bir çox problemlərdə fikir eyniliyinin olduğunu göstərdi.

1994- cü ildə Azərbaycan Respublikasının xarici i:jlər nazirinin Misirə səfəri zamanı Xarici İşlər Nazirliyində və H.Mübarəklə danışıqlarda ikitərəfli əlaqələr müzakirə olundu. Həmçinin Qahirədə BMT-nin keçirdiyi «Dünya əhalisi və inkişaf» mövzusundakı konfransda Azərbaycan prezidenti H.Əliyevin Misir dövlətinin başçısı H.Mübarəklə görüşdü. Misir tərəfi Ermənistan-Azərbaycan münaqişəsində Azərbaycanın haqq işini dəstəklədiyini bildirdi.

1999- 2000-ci illərdə iki ölkə arasında müxtəlif səviyyəli nümayəndə heyətlərinin səfərləri münasibətlərə yeni keyfiyyət halı verdi.

Pakistan İslam Respublikası ilə dostluq münasibətləri Azərbaycan Respublikası üçün böyük əhəmiyyət kəsb etdi və xarici siyasətində mühüm yer tutdu. Pakistan Asiya bölgəsində xüsusi yeri olan aparıcı dövlətlərdən biridir və Azərbaycanın bu bölgəyə inteqrasiyasına güclü təsir göstərə bilər.

Pakistan İslam Respublikası Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 12-də tanıdı, 1992-ci il iyunun 8-də diplomatik münasibətlər quruldu. O, İslam Konfransı Təşkilatının aparıcı dövləti, xüsusən də, BMT Təhlükəsizlik Şurasının üzvü kimi (1993-1994) Təhlükəsizlik Şurasında və İKT-də Azərbaycanla bağlı məsələlərin müzakirəsində fəal çıxışlar edərək onun mövqeyini daim dəstəkləyirdi.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında ikitərəfli münasibətlərin istiqamətləri barədə bir sıra sənədlər işlənib hazırlandı. Eyni zamanda iki ölkə arasında bəzi razılaşmalar da əldə edildi. Pakistan hökuməti Azərbaycana diplomatiya, bank və sair sahələrdə mütəxəssislər hazırlamaq üçün vaxtaşırı qısamüddətli kurslar təşkil etdi, Azərbaycanın müharibədən ziyan çəkmiş bölgələrinə müntəzəm olaraq humanitar yardım göndərdi. Eyni zamanda, Pakistan vətəndaşları da Azərbaycanda təhsil alırdılar.

Bakıda Pakistan səfirliyi fəaliyyətə başladı. Pakistan səfiri Səid İsmət Çaudri öz etimadnaməsini 1993-cü il aprelin 28-də Azərbaycan Respublikası prezidentinə təqdim etdi.
1995- ci ildə Pakistan İslam Respublikasının prezidenti Fərrux Əhməd xan Leqari Azərbaycanda üç günlük səfərdə oldu. Səfər zamanı o, ölkə rəhbərləri ilə danışıqlar apardı, Milli Məclisdə çıxış etdi və qaçqınlarla görüşdü. Pakistan prezidentinin səfəri Azərbaycanın dövlət başçısının xarici ölkələrdə bu ölkənin baş naziri Bənazir Bhutto ilə keçirdiyi görüşlərinin davamı oldu. İki ölkə arasında əməkdaşlığa dair imzalanan sənədlər münasibətlərə qarşılıqlı faydalı əsas verirdi. Azərbaycan prezidenti H.Əliyevin 1996-cı ilin aprelində Pakistana səfəri münasibətlərin inkişafına təkan verdi. Səfərin gedişində iki ölkə arasında münasibətlərin inkişafına dair sənədlər imzalandı. Münasibətlər 1997-2000-ci illərdə də davam etdirildi.

Çin 1991-ci il dekabrın 27-də Azərbaycanın dövlət müstəqilliyini tanıdı, 1992-ci il martın 2-də diplomatik münasibətlər quruldu. Azərbayçşn-Çin münasibətlərinin inkişafında mühüm mərhələni Azərbaycan Respublikasının prezidenti H.Əliyevin bu ölkəyə rəsmi səfəri təşkil etdi. Səfər zamanı keçirilən görüşlər və imzalanan sənədlər iki ölkənin münasibətlərini yeni əsaslar üzərində qurdu.

***Beynəlxalq təşkilatlarla əlaqələr***

Azərbaycan dövlət müstəqilliyinin bərpasından sonra BMT-yə və dünya dövlətlərinə müraciət etdi. 1992-ci il martın 2-də BMT-yə daxil oldu. Azərbaycan dövləti BMT ilə əlaqələrini bir neçə istiqamətdə qurdu. BMT-də fəaliyyət göstərən Azərbaycanın daimi nümayəndəliyi həm BMT, həm onun ixtisaslaşdırılmış orqanları, həm də üzv dövlətlərlə əməkdaşlıq etməyə başladı. Azərbaycanın BMT-də daimi nümayəndəsi təyin olunmuş H.Həsənov 1992-ci ilin may ayında BMT-nin baş katibi

Butros Qaliyə sənədlərini təqdim edərək mayın 9-da fəaliyyətə başladı. Daimi nümayəndəlik BMT-nin 16 ixtisaslaşdırılmış təşkilatına daxil olmaq üçün iş apardı. Onların rəhbərləri ilə əlaqələr yaradıldı. Azərbaycan BMT-nin İqtisadi və Sosial Şurasına da üzv qəbul edildi. Azərbaycan BMT-nin elm və texnika komissiyasına üzv seçildi. Beynəlxalq təşkilat olan «Habidat»a ölkəmizin daimi nümayəndəsi sədr müavini seçildi.

BMT-də Azərbaycanın iştirakının əhəmiyyətli hadisəsi 1992- ci ilin sentyabrında Baş Məclisin 47-ci sessiyasında Azərbaycan Respublikası nümayəndə heyətinin iştirakı və görüşləri oldu. Bu səfərdə edilən çıxış və görüşlər Azərbaycan haqqında həqiqətin dünyaya çatdırılmasında böyük rol oynadı. Azərbaycan nümayəndə heyətinin 1992-ci il oktyabrın 5-dən 9-dək Cenevrədə (İsveçrə) BMT-nin qaçqınlar problemləri üzrə Ali Komissarlığının iclasında iştirakı Ermənistanın təcavüzkarlığı nəticəsində əmələ gəlmiş qaçqınlar problemi barədə dünya ölkələrində məlumat yayılmasına kömək etdi.

Ermənistanın açıq-aşkar təcavüzünün genişlənməsi ilə əlaqədar olaraq Azərbaycan BMT baş katibinə, Təhlükəsizlik Şurasının sədrinə müraciət edərək Ermənistanın Azərbaycana qarşı təcavüzünü dərhal dayandırmağa, beynəlxalq hüquq normalarının və BMT nizamnaməsinin pozulmasının qarşısını almağa, münaqişənin dinc siyasi vasitələrlə nizama salınmasına gömək göstərməyə çağırdı.

Münaqişə bölgəsində vəziyyəti öyrənmək üçün 1992-ci ilin martında BMT baş katibinin xüsusi nümayəndəsi S.Vens başda olmaqla nümayəndə heyəti Bakıya, Xankəndinə və Yerevana səfər etdi. Nümayəndə heyəti səfər barədə BMT Təhlükəsizlik Şurasına məlumat verdi. BMT baş katibi məsələnin həlli sahəsində ATƏM-in səylərini müdafiə etdiyini bildirdi. Vəziyyət onun verdiyi qiymətdən aydın oldu ki, BMT münaqişənin həllində ATƏM-in roluna xüsusi önəm verir.

1992- ci il mayın 8-də Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa işğal edildikdən sonra Azərbaycan BMT Təhlükəsizlik Şurasının sədrinə və dünya dövlətlərinə müraciət edərək Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısını almaq üçün bütün vasitələrdən istifadə etməyə çağırdı.

Azərbaycanın təklifi ilə BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağdakı vəziyyətlə əlaqədar məsləhətləşmələr keçirtdi. Təhlükəsizlik Şurasının mayın 12-də keçirilən iclasında Dağlıq Qarabağdakı vəziyyət müzakirə edildi. Şuranın sədri, Avstriya nümayəndəsi Peter Hoenfeller bəyanat verdi. Bəyanatda iki məsələ öz əksini tapdı: münaqişə bölgəsində baş verən son hadisələri öyrənmək üçün BMT-nin xüsusi nümayəndəliyinin təcili göndərilməsi və beynəlxalq birliyin qaçqınlara humanitar yardım göstərməsi. Təhlükəsizlik Şurasının üzvləri münaqişə iştirakçılarını zorakılığa son qoymaq üçün tədbirlər görməyə çağırdılar. Həmin tarixdə Azərbaycan dövləti BMT Təhlükəsizlik Şurasından Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar olaraq xüsusi iclas çağırmağı xahiş etdi. Təhlükəsizlik Şurasında keçirilən müzakirələrdən sonra Şuranın sədri avqustun 26-da bəyanat verdi. Bəyanatda atəşin dayandırılması, ATƏM çərçivəsində Dağlıq Qarabağ məsələsinə dair Minsk konfransının səylərinə yardım göstərilməsi istənilirdi.

Oktyabrın 27-də Təhlükəsizlik Şurasının iclasında Dağlıq Qarabağdakı vəziyyətlə bağlı müzakirələr nəticəsində sədrin bəyanatı qəbul edildi. Bəyanat Şura sədrinin əvvəlki bəyanatlarını təsdiq edərək münaqişənin Minsk prosesi çərçivəsində həllinə tərəfdar olduğunu bildirdi. Lakin bu bəyanatlar Ermənistanın təcavüzünü dayandırmadı.

Ermənistan yuxarı Qarabağı işğal etməklə kifayətlənməyərək təcavüzkarlığını daha da genişləndirdi.

1993- cü il martın 27-dən aprelin 3-dək Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağdan kənarda yerləşən Kəlbəcər rayonunu işğal edildi.

Azərbaycan dövləti dərhal bölgədə yaranmış vəziyyət haqqında BMT baş katibinə və Təhlükəsizlik Şurasının sədrinə məlumat verərək, təcili iclas çağırmağı tələb etdi. Aprelin 6-da keçirilən məsləhətləşmələrdən sonra Təhlükəsizlik Şurasının iclasında sədrin bəyanatı qəbul edildi. Bəyanatda Kəlbəcərə hücum faktı təsdiq olundu və qoşunların dərhal çıxardılması tələb edildi, bölgənin bütün dövlətlərinin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı təsdiqləndi. Təhlükəsizlik Şurasının xahişi ilə baş katib BMT nümayəndələrini faktları müəyyənləşdirmək üçün regiona göndərdi. Aprelin 30-da BMT Təhlükəsizlik Şurasının iclasında Ermənistan - Azərbaycan münaqişəsinə dair 822 saylı qətnamə qəbul edildi. Qətnamə Təhlükəsizlik Şurası sədrinin 1993-cü il 29 yanvar və 6 aprel tarixli məruzəsinə əsaslanırdı. Qətnamədə Ermənistan - Azərbaycan münasibətlərinin pisləşməsi ilə əlaqədar olaraq Təhlükəsizlik Şurasının ciddi narahatlıq keçirdiyi bildirildi. Bununla da Ermənistanın münaqişədə bu və ya başqa formada iştirakı etiraf olunurdu, bölgədəki bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı və ərazi əldə etmək üçün qüvvə tətbiq etməyin yolverilməzliyi bir daha təsdiq olunurdu.

İyulun 23-də Ermənistan silahlı qüvvələri tərəfindən Ağdam rayonu işğal edildi. Azərbaycan BMT baş katibi və Təhlükəsizlik Şurasının sədrinə yaranmış vəziyyətlə əlaqədar müraciət etdi. Müraciətdə Ermənistan Respublikasının'hərbi əməliyyatlara son qoyması və işğal edilmiş Azərbaycan ərazilərinin dərhal azad edilməsi tələb olundu.

BMT Təhlükəsizlik Şurasının iyulun 29-da keçirilən iclasında «Dağlıq Qarabağda vəziyyət» məsələsi müzakirə edildi. Şura Ağdam rayonunun işğal edilməsi ilə bağlı 853 saylı qətnamə qəbul etdi. Qətnamədə təcili olaraq bütün hərbi əməliyyatların dayandırılması, işğalçı qüvvələrin işğal olunmuş ərazilərdən çıxarılması tələb edildi. Təhlükəsizlik Şurası münaqişə bölgəsində hərbi əməliyyatların dayandırılmasını tələb etdi; beynəlxalq sərhədlərin pozulmazlığı və ərazilərin

zor gücünə ələ keçirilməsinin yolverilməzliyi bir daha təsdiq olundu; bölgədəki bütün düşmənçilik hərəkətləri, o cümlədən mülki şəxslərə hücumlar və yaşayış rayonlarının bombardman edilməsi pislənildi; hərbi əməliyyatların təxirə salınmadan dayandırılması və münaqişədə iştirak edən işğalçı qüvvələrin Azərbaycanın Ağdam rayonundan və bu yaxınlarda işğal olunmuş bütün digər rayonlarından dərhal, tamamilə və şərtsiz çıxarılması tələb olundu; zərər çəkmiş mülki əhaliyə təcili yardım göstərilməsi və didərgin düşmüş şəxslərin evlərinə qayıtmalarına gömək edilməsi beynəlxalq təşkilatlardan xahiş olundu.

Avqust ayında Ermənistan silahlı qüvvələrinin Füzuli rayonuna luiciımları ilə bağlı olaraq Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurası sədrindən təcili olaraq Şuranın iclasını çağırmağı və Ermənistanın təcavüzünü dayandırmağı xahiş etdi. Avqustun 18-də Təhlükəsizlik Şurası adından ABŞ- m BMT-dəki daimi nümayəndəsi Madlen Olbrayt bəyanat verdi. Bəyanatda Ermənistan - Azərbaycan münasibətlərinin pisləşməsindən. Füzuli rayonuna hücumların güclənməsindən narahatlıq bildirildi və hücum pislənildi, Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı. Dağlıq Qarabağın Azərbaycan ərazisi olması təsdiqləndi, tərəfləri məsələni sülh yolu il." həllini poza biləcək hər hansı hərəkətdən çəkinməyə çağırdı, regiona digər dövlətlərin silah göndərməkdən imtina etməsi tələb edildi.

BMT Təhlükəsizlik Şurasının əv\əlki qətnamələrində olduğu kimi bu bəyanatda da Ermənistanın münaqişədə iştirakı inkar edilərək ondan Dağlıq Qarabağ ermənilərinə təsir etmək istənilirdi.

Ermənistanın təcavüzünün genişləndiyi bir şəraitdə oktyabrın 14-də BMT Təhlükəsizlik Şurasının iclasında Ermənistan - Azərbaycan münaqişəsinə da’’" 874 saylı qətnamə qəbul edildi.

Qətnamədə Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğu təsdiq olundu; Ermənistan - Azərbaycan münasibətlərinin

gərgin olmasının bildirilməsi ilə Ermənistanın münaqişə iştirakçısı olması etiraf edildi; dövlətlərin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və ərazi əldə etmək üçün güc tətbiq olunmasının yolverilməzliyi bir daha təsdiq edildi; qaçqınlara humanitar yardım göstərilməsinə çağırıldı; regiondakı bütün dövlətləri düşmənçilik hərəkətlərindən və hərbi müdaxilədən çəkinməyə çağırdı.

Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsi və Ermənistan silahlı qüvvələri tərəfindən Zəngilan rayonunun işğalı ilə əlaqədar Azərbaycan hökumətinin xahişini müzakirə edən BMT Təhlükəsizlik Şurası 1993-cü il noyabrın 11-də 884 saylı qətnamə qəbul etdi. Təhlükəsizlik Şurası bu qətnamə ilə Azərbaycanın Horadiz q.əsəbəsinin və Zəngilan rayonunun işğalı ilə əlaqədar narahatlığını bildirərək həmin ərazilərdən və Azərbaycanın zəbt edilmiş başqa ərazilərindən işğalçı qüvvələrin çıxarılmasını tələb etdi.

Qətnamədə yenə də Ermənistan - Azərbaycan münasibətlərinin gərgin olması bildirildi. Bununla da Ermənistan münaqişə iştirakçısı kimi dolayısı yolla etiraf edildi; Zəngilan rayonunun və Horadiz qəsəbəsinin işğalı təşvişlə qeyd olundu; Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərin pozulmazlığı, ərazi əldə etmək üçün zor tətbiq edilməsinin yolverilməzliyi təsdiq edildi; mülki əhaliyə humanitar yardım göstərilməsi xahiş olundu.

Ermənistan BMT Təhlükəsizlik Şurasının heç bir qətnaməsini yerinə yetirmədi və Azəıbaycan torpaqlarının 20%-i işğal edildi.

1994- cü ilin sentyabrında Azərbaycan prezidenti H.Əliyev BMT-nin Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün ABŞ-a səfər etdi. Səfər zamanı o. Baş Məclisdə çıxış etdi, ABŞ prezidenti Bili Klinton, digər dövlətlərin başçıları və BMT baş katibi Butros Qali ilə görüşdü. Görüşlərdə Azərbaycanın daxili və xarici siyasəti barədə geniş məlumat verildi. Ermənistanın təcavüzkarlığına son qoymaq

məsələləri müzakirə edildi. Həmin ildə BMT baş katibi Butros Qali Azərbaycana səfər etdi. Səfər zamanı ölkə rəhbəri ilə aparılan danışıqlar BMT ilə ikitərəfli əlaqələrin inkişafına və bu təşkilatın proqramlarında Azərbaycanın iştirakına kömək etdi. BMT baş katibi Ermənistan-Azərbaycan münaqişəsinin dinc siyasi vasitələrlə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ATƏT çərçivəsində həllinin və Azərbaycanın ərazi bütövlüyünün qorunmasının zəruriliyini bildirdi.

1995- ci ildə BMT İnkişaf proqramının Şərqi Avropa və MDB ölkələri üzrə regional direktoru E.Krundernik, BMT baş katibinin müavini A.Ayollo, BMT-nin insan hüquqları üzrə müstəqil eksperti F.Tcmpelton Azərbaycanda səfərdə oldular. Səfərlər zamanı aparılan müzakirələr Azərbaycanın BMT ilə əlaqələrinin möhkəmlənməsinə kömək etdi.

Azərbaycan prezidenti BMT-nin 50 illik yubileyində iştirak etmək üçün ABŞ-da səfərdə oldu. Səfər zamanı o, baş katib Butros Qali, ABŞ prezidenti B.Klinton, Almaniyanın xarici işlər naziri K.Kinkel, Misir prezidenti H.Mübarək, Türkiyə prezidenti S.Dəmirəl və b. ilə görüşdü.

Həmin ildə Azərbaycan nümayəndə heyəti İsveçrənin Davos şəhərində Ümumdünya İqtisadi Məclisində iştirak etdi. Məclisdə dünyanın çoxlu dövlət və hökumət başçıları, iş adamları, dünya bankının rəhbərləri iştirak edirlər. Keçirilən görüşlərdə Azərbaycanın indiki vəziyyəti, imkanları, investisiya qoyulması, bazar iqtisadiyyatı yolunda ölkəmizin başqa dövlətlərlə əlaqələrinin inkişaf etdirilməsi əsas mövzular oldu.

Mart ayında Kopcnhagendə BMT-nin keçirdiyi sosial inkişaf naminə yüksək səviyyədə ümumdünya görüşündə Azərbaycanın nümayəndə heyəti iştirak etdi. Görüşdə Ermənistan təcavüzünün Azərbaycanda yaratdığı sosial problemlər, onların həlli üçün dünya birliyinin səyləri iştirakçı ölkələrin diqqətinə çatdırıldı.

Azərbaycan prezidenti H.Əliyev 2000-ci il sentyabrın 6- 8-də Nyu-Yorkda BMT-nin minilliyin zirvə görüşündə nitq söylədi. Zirvə görüşünün gedişində Azərbaycan dövlət başçısının keçirtdiyi ikitərəfli görüşlər ölkəmizin xarici siyasətinin böyük uğurlarını nümayiş etdirdi.

2000- ci ildə BMT nümayəndə heyəti Azərbaycanda səfərdə oldu.

Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı xüsusi yer tutur. 1992-ci il yanvarın 20-də Azərbaycan Respublikası ATƏT-in (1994-cü ilədək Avropada 'fəhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi) üzvü oldu və iyulun 10-da onun

1975- ci ildə qəbul edilmiş Yekun aktını imzaladı.

Azərbaycan dövlətinin ATƏT-lə əlaqəl.əri əsasən siyasi istiqamətdə həyata keçirildi. Yekun sənədində əks olunmuş prinsiplər Azərbaycan tərəfindən qəbul edildi.

Siyasi sahədə Azərbaycan dövlətinin ATƏT-lə əməkdaşlığı bir neçə istiqamətdə həyata keçirildi. Hər şeydən əvvəl, təşkilat üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə toplantıları, onlarda Azərbaycan nümayəndə heyətinin iştirakı diqqəti cəlb etdi. Zirvə toplantıları zamanı edilən çıxışlar, müxtəlif ölkələrin rəhbərləri ilə keçirilən görüşlər, kütləvi informasiya vasitələri nümayəndələri ilə ünsiyyət xalqımız və dövlətimiz haqqında informasiyanın yayılmasına, mövqelərimizin başa düşülməsinə kömək etdi.

İkinci, ATƏT-in müxtəlif tədbirlərində Azərbaycan nümayəndə heyətinin iştirakı və bu təşkilatın nümayəndə heyətlərinin ölkəmizə səfərləri də əhəmiyyətli idi.

Üçüncü, Azərbaycan Dağlıq Qaı abağ məsələsinin həlli üçün yaradılmış ATƏT-in Minsk qrupu ilə birgə işləyirdi və ona daxil olan ölkələrlə əməkdaşlıq edirdi.

1994- cü ilin dekabrında Budapeştdə ATƏT-in dövlət və hökumət başçılarının zirvə toplantısında Azərbaycan prezidenti iştirak etdi. Bu toplantı Ermənistan-Azərbaycan münaqişəsinin dinc yollarla, ATƏT çərçivəsində həllinin

zəruriliyini bir daha göstərərək beynəlxalq birliyin səylərinin artırılmasının vacibliyini təsdiqlədi.

Bu ildə ATƏT-in nümayəndə heyətləri dələlərlə Azərbaycanda səfərdə oldular və müxtəlif səviyyəli görüşlər keçirtdilər. Səfərlər Azərbaycanla ATƏT arasında münasibətləri inkişaf etdirdi, Ermənistanın təcavüzkarlığı nəticəsində Azərbaycanın düşmüş olduğu vəziyyətin dünyaya yol tapmasına, problemin həllinin zəruriliyinə olan səylərin artırılmasına kömək etdi.

1995- ci ildə ATƏT-in nümayəndə heyətləri dəfələrlə Azərbaycanda oldular. Səfərlərdə həm bu təşkilatlarla əlaqələr, həm də Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə aradan qaldırılması məsələləri müzakirə edildi. ATƏT-in dövlət və hökumət başçılarının 1996-cı ilin dekabrında Lissabonda. 1999-cu ilin noyabrında İstanbulda keçirilən zirvə toplantısında Azərbaycan dövləti iştirak etdi. 2000-ci ilin yanvarında Azərbaycan parlament nümayəndə heyəti ATƏT-in Parlament Assambleyasının iclasında iştirak etdi. Həmin ilin iyununda ATƏT-in Parlament Assambleyasının prezidenti xanım Helle Dayn, iyul ayında isə ATƏT-in sədri xtınım Benita Ferrera Valdner Azərbaycanda səfərdə oldular. Səfərlər zamanı ATƏT-lə əməkdaşlıq məsələləri geniş müzakirə edildi.

ATƏT-in Parlament Məclisinin 1992-ci ilin iyununda Ikıdapeşid,-) keçirilmiş iclasında Azərbaycan nümayəndə ıieyəli iştirak eldi.

.Azərbaycan nümayəndə heyəti həmçinin ATƏT-in Parlament Məelisinin 1993-cü ilin yanvarında Kopenhagendə keçirilmiş müzakirələrində də iştirak etdi. Azərbaycan nümayəndələri müşavirədə Ermənistanın Azərbaj'cana qarşı apardığı işğalçılıq müharibəsi haqqında xüsusi bəyanatı. .Azərbaycan Respublikası Milli Məclisinin ABŞ senatına müraciətini yaydılar, liyni zamanda Almaniya, İngiltərə. İtaliya. ABŞ, Şimali Atlantika Parlament İttifaqı, A\ropa

parlamenti və NATO-nun nümayəndələri ilə görüşlər keçirdilər.

1994-cü ildə Azərbaycan nümayəndə heyəti ATƏT-in Parlament Məclisinin işində də yaxından iştirak etdi. Yanvarın 7-12-də Məclisin Daimi Komitəsinin iclasında, iyulun 4-dən 8- dək Vyana şəhərində (Avstriya) ATƏT-in Parlament Məclisinin 3-cü illik sessiyasının işində nümayəndə heyəti iştirak etdi.

Azərbaycan nümayəndə heyətinin ATƏT-in Parlament məclisinin 1995-ci il yanvarın 12-13-də Vyanada keçirilən Bürosu və Daimi Komitəsinin iclasında, parlament sədrinin başçılığı ilə nümayəndə heyətinin iyunun 4-8-də Ottavada (Kanada) keçirilən illik sessiyasının işində iştirakı qurulmuş əlaqələrin davamı oldu. Azərbaycan nümayəntlə heyəti təşkilatın 1996-cı ildə Stokholmda, 1997-ci ildə Varşavada, 1998-ci ildə Kopenhagendə. 1999-cu ildə Vyanada keçirilən illik sessiyalarında iştirak etdi.

Azərbaycanın əməkdaşlıq eldiyi təşkilatlardan biri Avropa Birliyidir. Avropa Birliyi 1993-cü il fevralın 27-də Azərbaycanla münasibətlər yaratdı. Azərbaycan prezidenti H.Əliyev 1995-ci ilin yanvarında Avropa Birliyinə səfər etdi. Səfər zamanı əməkdaşlıq məsələləri müzakirə olundu. Azərbaycan dövləti 1996-cı ilin aprelində Avropa Birliyinin proqramına qoşuldu. 1999-cu il iyulun 1-də Azərbaycan prezidenti Avropa Birliyi ilə tərəfdaşlıq və əməkdaşlıq haqqında müqaviləni imzaladı.

Avropa Şurası ilə əlaqələr yaradan Azərbaycan 1996-cı ilin iyununda bu təşkilatda xüsusi dəvət olunmuş qonaq statusu aldı. 1997-ci ilin oktyabrında Azərbaycan prezidenti H.Əliyev Avropa Şurası üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə çıxış etdi. 2000-ci ilin noyabrında təşkilatın rəhbərliyi Azərbaycanın Avropa Şurasına qəbul edilməsi haqqında qərar qəbul etdi.

Azərbaycan Respublikası NATO (North Atlantic Treatru Organisalion) ilə də əlaqələr yaratdı. Azərbaycan prezidenti 1994-cü ilin mayında Brüsselə səfər etdi. Səfər

zamanı o, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramını imzaladı, NATO rəhbərliyi ilə, Belçikanın baş naziri və b. ilə görüşlər keçirtdi. Azərbaycan prezidenti H.Əliyev 1996-cı ilin aprelində NATO-nun Brüsseldəki qərargahına səfər etdi.
1997- ci ilin iyulunda isə Madriddə keçirilən zirvə görüşündə iştirak etdi.

Azərbaycan 1991-ci ildə İslam Konfransı Təşkilatının da üzvü oldu. 1992-2000-ci illərdə Azərbaycan dövləti bu təşkilatın tədbirlərində müxtəlif səviyyələrlə təmsil olundu. Qəbul edilən qərarlar Azərbaycanın tanımasına və suverinliyinin möhkəmlənməsinə xidmət edirdi.

Eyni zamanda bu təşkilatın nümayəndə heyətləri ölkəmizdə oldular. 1994-cü ildə İKT-nin baş katibi Hamid Əl Qabid Azərbaycana səfər etdi. Səfər zamanı Azərbaycanın İslam Konfransı Təşkilatı ilə əlaqələri, ölkəmizin bu təşkilatda tutduğu yer müzakirə edildi. Hamid Əl Qabid İKT-nin Ermənistanın təcavüzkarlığını pislədiyini və münaqişənin dinc siyasi vasitələrlə həllinin vacibliyini, Ermənistanın beynəlxalq birliyin iradəsinə hörmət etməsinin zəruriliyini qeyd etdi.

İKT ilə əlaqələrin inkişafında keyfiyyətcə yeni mərhələ dekabr ayında Mərakeşdə keçirilən toplantı oldu. Azərbaycanı dövlət başçısı H.Əİij.c\iii rəhbərliyi ilə nümayəndə heyəti təmsil edirüi Mərakeş səfəri, keçirilən görüşlər bu təşkilatda Azərbaycanın mövqeyinin möhkəmlənməsinə, haqq işinin islam ölkələri lərəfindon dəstəklənməsinə kömək etdi. Azərbaycan pıczidenti H.Əli\e\' 1997-ci ilin dekabrında İKT- nin Tehranda keçirilən V I I I zii\-ə görüşündə iştirak edərək nitq söylədi, bir sıra ikitərəfi görüşlər keçirtdi. İKT Azərbaycan probicıniərinin həllini dəstəkləyən və Ermənistanı birmənalı şəkiidə təcavüzkar adlandıran yeganə təşkilat idi.

Azərbaycan dövləti Qara dəniz İqtisadi Əməkdaşlığının (QİƏ) yaradıcılarından biri oıdu. Bu təşkilatı 11 dö\ləl- Azərbaycan. Albaniya, Ermənistan, Bolqarıstan, Yunanıstan. Gürcüstan, Moldova, Rusiya, Rumıniya, Tı'ırkiyə və Ukrayna 1992-ci ilin iyununda İstanbulda bəyannamə imzalayaraq

yaratdılar. Təşkilatın ali və əsas həlledici orqanı QİƏ ölkələrinin Xarici İşlər nazirlərinin Şurasıdır. Şurada əməkdaşlığın əsas istiqamətləri müəyyənləşdirilir və iradlar qəbul edilir. QİƏ çərçivəsində əməkdaşlığın əsas istiqamətləri bunlardır; ticarət və sənaye; bank və maliyyə; nəqliyyat və rabitə; kənd təsərrüfatı.

1994- cü il iyunun 30-da QİƏ-nin xarici işlər nazirləri Şurasının 4-cü iclası Tbilisidə keçirildi. İştirakçı dövlətlərdən başqa bu tədbirdə Misir, İsrail, Polşa, Slovakiya, Tunis, Beynəlxalq Qara dəniz klubunun nümayəndələri və b. müşahidəçi kimi iştirak edirdilər.

1995- ci il aprelin 14-də Afinada Şuranın beşinci sessiyası keçirildi. Üzv ölkələrdən başqa 7 dövlət müşahidəçi kimi iştirak edirdi. İclasın yekununda qətnamə, qərar və tövsiyələr qəbul edildi. Oktyabrın 5-dəki sessiyada isə xarici işlər nazirləri QİƏ Bankının fəaliyyətini gücləndirməyi müzakirə etdilər. QİƏ ölkələrinin dövlət və hökumət başçılarının zirvə toplantısı 1995-ci il iyunun 30-da oldu. Toplantının yekununda Buxarest bəyannaməsi qəbul edildi. Tədbirdə Azərbaycan Respublikasının prezidenti H.Əliyev iştirak etdi.

Azərbaycan prezidenti H.Əliyev 1997-ci ilin aprelində QİƏ-nin İstanbulda keçirilən biznes konfransında, 1998-ci ilin iyununda Yaltada keçirilən üzv ölkələrin dövlət başçılarının IV zirvə görüşündə iştirak edərək çıxış etdi.

Azərbaycan dövləti Qara dəniz İqtisadi Əməkdaşlığı təşkilatının strukturlarının yaradılmasında fəal iştirak etdi. Belə strukturlardan biri Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisidir (QİƏPM). Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin yaradılması prosesi bir neçə mərhələdən keçdi. 1993-cü il fevralın 1-dən 8dək İstanbulda QİƏ təşkilatına daxil olan ölkələrin yaradılması nəzərdə tutulan Parlament Məclisinin nizamnaməsini hazırlamaqdan ötrü milli parlamentlərin ekspert-hazırlıq komissiyalarının görüşü keçirildi. Görüşdə 8 Ölkənin-Türkiyə, Azərbaycan, Rusiya, Albaniya, Rumıniya, Ukrayna, Moldova və

Gürcüstanın ekspert-hazırlıq komissiyaları iştirak etdilər. QİƏPM-in yaradılmasının ikinci mərhələsi milli parlamentlərin başçılarının İstanbul görüşü oldu. Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin yaradılması prosesində iştirak etmək üçün Azərbaycan parlamentinin sədri başda olmaqla parlament nümayəndə heyəti 1993-cü il fevralın 24-dən 27-dək İstanbulda sələrdə oldu. QİƏPM-in nizamnaməsi və QİƏPM-in yaradılması haqqında bəyannamə müzakirə edilərək qəbul olundu. Bu təşkilatda Azərbaycanın 5 yeri var idi. Azərbaycan nümayəndə heyəti 199.3-cü ildə Kiyevdə, 1994-cü ildə Buxarestdə \ə Tiranada. 199ə-ci ildə Moskvada və Ankarada, 1996-cı ildə Bakıda və Tbilisidə,
1997- ci ildə Afinada və Kişinyovda, 1998-ci ildə Buxarestdə və Sankt-Peterburqda, 1999-cu ildə Bolqarıstanda və Kiyevdə, 2000-ci ildə Albaniyada \ə Prmənistanda keçirilən tədbirlərinin iştirakçısı oldu.

Azərbaycan dövlətinin üzv olduğu \ ə işində iştirak etdiyi beynəlxalq təşkilatlardan biri Parlamentlərarası İttifaqdır. Azərbaycan 1993-cü il aprelin 8-dən 12-dək Hindistanın Yeni Dehli şəhərində Parlamentlərarası İttifaqın 89-cu konfransında təşkilatın üzvlüyünə qəbul edildi.

Azərbaycan dövlətinin üzv olduğu beynəlxalq təşkilatlardan biri İqtisadi Əməkdaşlıq Təşkilatıdır (İƏT). Təşkilata Azərbaycan, İran, Türkiyə, Əfqanıstan. Pakistan, Qazaxıstan. Özbəkistan, Türkmənistan. Qırğızıstan və Tacikistan daxildir. Əsasən bu ölkələrin iqtisadi təşkilatı olan İƏT həm də siyasi problemlərin müzakirəsini keçirir. 1993-cü il iyunun 6-7-də İstanbulda İƏT-in yüksək səviyyədə ikinci görüşündə iştirak edən dövlət başçıları Krmənistanm Azərbaycana qarşı təcavüzkarlığını pisləyən bəyanat qəbul etdilər.

Azərbaycan prezidenti H.Əliyev təşkilatın 1996-cı ilin mayında Aşqabadda, 2000-ci ilin iyununda Tehranda keçirilən zirvə görüşlərində iştirak etdi.

Azərbaycan 1992-ci il iyunun 3-də BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə təşkilatı olan YUNESKO-ya

daxil oldu. 1993-cü il dekabrın 6-da isə Azərbaycan YUNESKO-nun «Ümumdünya mədəni və təbii irsin qorunması haqqında» 1972-ci il 16 noyabr tarixli konvensiyasına qoşuldu.

Azərbaycan Respublikası beynəlxalq mədəni əməkdaşlıq təşkilatı olan Türksoyun yaradıcılarından biri oldu. 1993-cü il iyulun 12-də Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Kıbrıs, Türkmənistan. Türkiyə və Özbəkistan respublikalarının mədəniyyət nazirləri 8 maddədən ibarət «Türksoyun strukturu və fəaliyyət prinsipləri haqqında müqavilə»ni imzaladılar. Təşkilatın məqsədi türk xalqları və ölkələri arasında mədəni əlaqələri genişləndirmək, xalqların mədəniyyət və incəsənətini qorumaq, dirçəltmək və inkişaf etdirmək idi.

Azərbaycan dövləti çoxtərəfli əsasda türk dövlət başçılarının zirvə görüşünün yaradılmasının iştirakçısı oldu. Azərbaycan, Türkiyə, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan dövlət başçılarının birinci toplantısı 1992-ci il oktyabrın 30-31-də İstanbulda keçirildi. Görüş nəticəsində bəyannamə imzalandı. Türk dövlət başçılarının ikinci toplantısı 1994-cü ilin oktyabrında İstanbulda keçirildi. Azərbaycanı prezident H.Əliyev başda olmaqla nümayəndə heyəti təmsil edirdi. Görüşün sonunda İstanbul bəyannaməsi qəbul olundu. Bəyannamədə göstərildi ki, ölkələr beynəlxalq birlik tərəfindən qəbul olunmuş normalara hörmət və əməl edirlər, BMT və ATƏT prinsiplərinə sadiqdirlər, xalqları arasında dil, tarix, mədəniyyət sahəsində əlaqələri inkişaf etdirməyi zəruri sayırlar.

1995- ci ilin avqustunda Bişkekdə (Qırğızıstan) türk dövlət başçılarının üçüncü zirvə görüşü keçirildi. Zirvə görüşü türk dövlətləri arasında iqtisadi, elmi-texniki, mədəni, humanitar əməkdaşlığa kömək etdi.

1996- cı il oktyabrın 21-də Daşkənddə türk dövlət başçılarının IV zirvə görüşündə Azərbaycan prezidenti H.Əliyev iştirak etdi. Görüş nəticəsində Daşkənd bəyannaməsi imzalandı.

1998- ci il iyunun 9-10-da Qazaxıstanın Astana şəhərində türk dövlət başçılarının beşinci zirvə görüşündə Azərbaycan prezidenti iştirak etdi.

2000-ci ilin aprelində türk dövlət başçılarının altıncı zirvə görüşünün Bakıda keçirilməsi mühüm hadisə oldu. Zirvə görüşündə Azərbaycan Respublikasının prezidenti H.Əliyev geniş nitq söylədi. Qardaş ölkələr arasında əməkdaşlıq məsələləri müzakirə edilərək Bakı bəyannaməsi qəbul olundu.

# İSTİFADƏ EDILMIŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

## I bölüm
## 1898 - 1914-cü illərdə beynəlxalq münasibətlər


Актуальные проблемы международных отношений в конце XIX - начале XX в. М., 1976.

Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi. Metodik vəsait. Bakı, 2002.

Бондаревски I7J1. Английская политика и международные отношения в бассейне Персидского залива ( конец XIX - начала XX в.). М., 1968.

Восточный вопрос во внешней политике России (конец XVIII - начало XX в.). М., 1978.

Внешняя и колониальная политика Великобритании в XVIII - XX в.в. Ярославль, 1993.

Вяземская Е.К., Данченко С.И. Россия и Балканы. Конец XVII в.-1918 г. М., 1990.

Qasımov M.C. Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi, ( XX əsr. I hissə. 1900-1945-ci illər). Bakı, 1998.

Германская история в новое и новейшее время . В 2-х т. М., 1970.

Гренвилл Дж. История XX века. М., 1999.

История дипломатии. Т.2. М., 1963.

История внешней политики и дипломатии США. 1867- 1988. М., 1997.

История США. Т. 2. М., 1985.

Новая история стран Европы и Америки. Т.2. М., 1998. Никитина И.А. Захват бурских республик Англией 1899-1902. М., 1970.

Писарев Ю. Великие державы и Балканы накануне первой мировой войны. М., 1985.

Розентал Е.М. Дипломотическая история русско - французкого союза в начале XX века. М., 1960.
Ротштейн Ф.А. Международные отношения в конце XIX века. М., 1960.
Серова О.В. От тройственного союза к Антанте. М., 1983.
Prof. Dk. Toktamış Ateş. Siyasi tarih. İstanbul, 1994.

## II BÖLÜM
## Birinci dünya müharibəsi illərində beynəlxalq münasibətlər

Вяземская Е.К., Данченко С.И. Россия и Балканы. Конец XV111 века - 1918 г. М., 1990.
Внешняя и колониальная политика Великобритании в XV1II-XX века. Ярославль, 1993.
Qasımov M.C., Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi (XX əsr. I hissə. 1900-1945). Bakı, 1998. Qasımov M.C. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. 3 hissədə. 1-ci və 2-ci hissələr. Bakı, 2000-2001.
Гренвилл Дж. История XX века . М., 1999.
История дипломатии. Г.3 М., 1965.
История первой мировой войны. В 2-х томах. М., 1975.
История США. Т.2. М., 1985.
История внешней политики и дипломатии США. 1867- 1918. М., 1997.
Международные отношения и внешняя политика СССР. Сборник документов (1871-1957). М., 1957.
Новая история стран Европы и Америки . Второй период. М.,1998.
Hacıyeva A.N. Beynəlxalq münasibətlər tarixi (1871- 1918). Bakı, 2001.

## III BÖLÜM

## 1918-1920 - ci illərdə beynəlxalq münasibətlər


Baxışov M.Ə. Avropa və Amerika ölkələrinin müasir tarixi. Metodik vəsait. Bakı, 2002.
Версальский мирный'договор. М., 1925.
Qasımov M.C., Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi. (XX əsr. I hissə. 1900-1945-ci illər). Bakı, 1998. Qasımov M.C. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. 3 hissədə. 1-ci və 2-ci hissələr. Bakı, 2000-2001.
Гренвилл Дж. История XX века. М., 1999.
Европа в международных отношениях. 1917-1939. М., 1979.
Европа между миром и войной. 1918-1939 г. М., 1992. Европа в системе международных отношений. 1917- 1945. Сверловск, 1995.
Итоги империалистической войны. Серия мирных договоров. I-V т. М., 1925-1927.
История США. Т. 3. М. 1985
История международных отношении и внешней политики США. Т.1.М., 1986.
Новейшая история стран Европы и Америки. XX век. 1900-1945. М., 2001.
Клейменова Н. Е., Сидоров А. Ю. Версальско - Вашингтонская система международных отношений: проблемы становления и развития. 1918-1938. М., 1995.
Уткин А.И. Дипломатия Вудро Вильсона. М., 1989. Ходнев А.С. Лига нации в мировой политике 1919-1946. Ярославль, 1985.
Язькова А. А. Малая Антанта в европейской политике. 1918-1925 г. М., 1974.

## IV BOLUM

### Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq münasibətlər sistemində

Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990.
Azərbaycan Demokratik Respublikası. Məqalələr və sənədlər. Bakı, 1990.
Агамалыева Н., Худиев Р. Азербайджанская Республика. Страницы политической истории. 1918-1920 гг. Баку, 1994.
Balaev A. Азербайджанское национальное - демократическое движение. 1917-1920 гг. Баку, 1990.
Çəmənzəminli Y. V. Xarici siyasətimiz. Bakı, 1993. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı, 1993.
Mehdizadə M.Y Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətələrin siyasəti (1917-1921-ci iüiər). Bakı, 1996.
Nəsibzadə N.L. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990.
Nəsibzadə N.L. Azərbaycanın xarici siyasəti (1918-1920) Bakı, 1996.
Swietochovski T. Russian Azerbaijan 1905-1920. The Shapping of National İdentity in a Muslim Community. Camb., 1985.
Süleymanov N.M. İqtisadi tarix. Bakı, 1997.
Топчубашев A.M. Дипломатические беседы в Стамбуле (1918-1919 гг.). Baku, 1994.
Yaqublu N. Məmməd Əmin Rəsulzauə. Bakı, 1991. Qasımov M.C., Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi. ( XX əsr. I hissə. 1900-1945). Bakı, 1998.

Qasımov M.C. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. 3 hissədə. 1-ci və 2-ci hissələr. Bakı, 2000-2001.

## V BÖLÜM

### 1921-1923-cü illərdə beynəlxalq münasibətlərin səciyyəvi cəhətləri

Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi. Metodik vəsait. Bakı, 2002.
Qasımov M. C. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). Bakı, 1998.
Qasımov M.C., Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi (XX əsr, I hissə. 1900-1945). Bakı, 1998.
История дипломатии. Т. 3. М., 1965.
Илюхина Р.М. Лига нации. 1919-1934. М., 1982.
История международных отношении и внешней политики СССР. Т. 1. М,, 1986.
Mehdizadə M. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994. Язькова А. А. Малая Антанта в европейской политике 1918- 1925 гг. М., 1974.
Киссинджер Г. Дипломатия. М., 1997.
Европа между миром и войной. 1918-1939 гг.М., 1992.

## VI BÖLÜM

### Azərbaycan 1920-1922-ci illərdə beynəlxalq münasibətlərdə

Qasımov M.C. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi mynasibətlər). Bakı, 1998.

Qasımov M.C. Azərbaycan - Türkiyə diplomatik - siyasi münasibətləri (1920-1922-ci illər). Bakı. 1998.
Qasımov M.C., Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi (XX əsr. I hissə. 1900-1945). Bakı, 1998.
Кулиев Дж. Б. К истории образования второй республики Азербайджана. Баку, 1997.
Декреты Азревкома (1920-1921 гт.). Сборник документов. Баку, 1988.
История дипломатии . Т.З. М., 1965.
Rəsuzadə M. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990. Rəsulzadə M. Çağdaş Azərbaycan tarixi. Bakı, 1991. Dr.Salahi R. Sonyel Türk kurtuluş savaşı ve dış poltika.
A., 1987.
Swietochovski T. Russian Azerbaijan 1905-1920. The Shapping of National Identity in a Muslim Community - Camb.. 1985. Gönlübol M. ve C. Sar. Atatürk ve Türkiyenin dış politikası (1919-1938 y). İ., 1963.

## VII BÖLÜM

### 1924- 1929-cu illərdə beynəlxalq münasibətlər

Qasımov M.C.. Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi (XX əsr. I hissə. 1900-1945). Bakı, 1998.
Гренвилл Дж. История XX века .М., 1999.
Дух Рапалло: Советско - германские отношения 1925-1933. М.. 1997.
Европа в международных отношениях 1917-1939 гг. М.. 1979.
История дипломатии. Т. 3. М., 1965.
История США. Т. 3. М., 1985.
История международных отношении и внешней политики СССР. Т.1. М., 1986.
Киссинджер Г. Дипломатия. М., 1997.

Климовски Д. С. Германия и Польша в Локарнской системе международных отношений. Минск, 1975.
Малофеев К. А. Международные отношения и дипломатия капиталистических держав в Европе в 1924-1936 гг. Рязань, 1988.
Маныкин А.С. Изольяционизм и формирование внешенополитического курса США (1923-1929). М., 1980.
Никонова С. В. Очерк европейской политики Германии 1924-1929 гг. М., 1977.
Симирнова Н. Д. Политика Италии на Балканах 1922-1935 гг.М., 1979.
Лнчук И. И. Политика США в Латинской Америке. 1918- 1928. М., 1928.

## VIII BÖLÜM

### 30-CU illərdə beynəlxalq münasibətlərin inkişaf xüsusiyyətləri

Qasımov M.C., Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi (XX əsr. 1 hissə. 1900-1945). Bakı, 1998.
Документы истории Мюнхенского сговора. 1937-1939 гг. М., 1979.
Документы и материалы кануна второй мировой войны. 1937-1939. В2 т.М., 1981.
Европа в международных отношениях 1917-1939.М., 1979.
Егорова Н. И. Изольяциониз.м и европейская политика 1933-1941 гг. М., 1995.
История дипломатии. Т.З.М, 1965.
История фашизма в Западной Европе. М., 1978.
Переговоры о восточном пакте (1933-1935). Документы - Международная жизнь, 1996, № 6-10.
История международных отношений и внешней политики СССР. Т. 1. М., 1986.
Киссинджер Г. Дипломатия. М., 1992.

Сиполс **В. Я.** Дипломотическая борьба накануне второй мировой войны. М., 1989.
Уткин А.И. Дипломатия Франклина Рузвелта. Свердловск, 1990.
Яковлев Н. Н. Франклин Рузвелта человек и политик. М., 1981.
Fətəliyev M. B. Türkiyə diplomatiyası və Balkanlar. Bakı, 1995.

## **IX** BÖLÜM

### tkinci dünya müharibəsi illərində beynəlxalq münasibətlər

Второя мировая война. Краткая история М., 1984.
Qasımov M.C., Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi. (XX əsr. I hissə. 1900-1945) Bakı. 1998.
История дипломатии. Т.4. М., 1975.
История второй мировой войны 1939-1945 гг. 12 тт М., 1973- 1982.
История международных отношений и внешней политики СССР. Т. 1. М., 1986.
Крылов С.Б. История создания ООН. М., 1961.
Кулиш В. М. История открытия второго фронта. М., 1971.
Переписка Председателья Совета Министров СССР с президентами США и премьер министрами Великобритании во время Великой Отечественной войны 1941-1945 гг. В 2-х т. М., 1986.
Поздеева Л. В. Англо - американские отношение в годы второй мировой войны 1939-1941 г. М.. 1964.
Поздеева Л. В. Англо - американские отношение в годы второй мировой войны 1941-1945 г. М., 1969.
Россия и Германия в годы войны и мира (1941-1995 гг.) М., 1995.

Ширер И. Взлет и падение третьего рейха. М.. 1991. Севостянов Г. Н. Дипломатическая история войны на 'I ихом океане. От Пирл-Харбора до Каиря. М., 1969.
Советский Союз на международных копференциах периодах великой отечественной войны 1941-1945 г. В. 6-ти г. М., 1978-1980.
Трухановский В. 1'. Внешняя политика Англии в годы второй мировой войны (1939-1945 гг.). М., 1965.

## X BÖLÜM

### 1941-19 16-C1 illordo beynəlxalq münasibədvirılə Güney Azərbaycan məsələsi

**AtabaKİ T. Azc-baijan: Elhmisily and Autonomy in Trcventicth -centure. London. 1993.**
Qasımov M.C. Be\nəlxalq mürusibotlordə Azərbaycan məsələsi. Bakı, 1993.
Qasımov M.C., Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi (XX əsr. I hissə. 1900-1945). Bakı, 1998.
Qasımov M.C., Abdullayev M.İ. Uluslararası ilişkücrdc Güney Azerbaycan mcselesi (40-lı yıllar). Ankara 1997 Советский Союз па международных конференциях периодах Великой Отечественной войны 1941-1945 г. Крымская конференция руководителей трех союзных держав- СССР, США и Великобританий (4-11 февраль 1945 ı.ı. Сборник документов. М., 1984.
Həsənli C. Güney Azerbaycan; Tehran-Bakı-Mosk\ a arasında (1939-1945). Bakı, 1998.
Переписка Председателья Совета Министров СССР с президентами США и премьер министрами Великобританий во время Великой Отечественной войны 1941-1945 г. В2-ХТ. М., 1986.

История внешней политики СССР Т.1. 1917-1945 гг. М., 1980.
История внешней политики СССР Т.11. 1945-1985 гг. М., 1986.

## XI BÖLÜM

### Müharibədən sonrakı ilk illərdə beynəlxalq mıırasibətlər. Soyuq müharibələrin başlanması

Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi ( XX əsr. 11 hissə. 1945-2000-ci illər). Bakı, 2000.
Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi. Metodik vəsait. Bakı, 2002.
Белецкий В. Н. За столом переговоров: обсуждение германских дел на послевоенных международных совещениях и встречах . М, 1978.
Борьба СССР в ООН за мир, безопасность и содружество. 1945-1985. М., 1985.
Гренвилл Дж. История XX века. М., 1999.
История дипломатии. Т. 5. кн. 1. М., 1974.
История США . Т.4. М., 1987.
История международных отношений и внешней политики СССР. Т. 2. М., 1987.
Кальвокорксси П. Мировая политика после 1945 года. В2-ХТ. М., 2000.
Киссинджер Г. Дипломатия. М., 1992.
Международные отношения после второй мировой войны. 1945-1964. В 3-х. т. М., 1962, 1963, 1965.
Рощин А. А. Послевоенное урегулирование в Европе. М, 1984.
Филитов А.М. Германский вопрос: от распада к обьедине- нию. М, 1993.

## XII BÖLÜM

### 50-ci illərdə beyoəlxalq münasibətlərin başlıca inkişaf meylləri

Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi. ( XX əsr, 11 hissə. 1945-2000-ci illər). Bakı, 2000.
Германский вопрос в 1945-1990 гг. Киев, 1991.
Гренвилл Дж. История XX века. М., 1999.
История дипломатии. Т;5.'кн.1 М., 1974.
История международных отношений и внешней политики СССР. Т. 2. М., 1987.
Латинская Америка в международных отношениях. XX век. М., 1988.
Международные отношения после второй мировой войны. 1945-1964. В 3-х т. М., 1962, 1963, 1965.
Морозов Г.И. ООН полвека в мировой сообществе.М., 1995.
Советская внешняя политика в годы холодной войны (1945-1985). М., 1985.

## XIII BÖLÜM

### 60-C1 iUərdə beynəlxalq münasibətlərin ümumi səciyyəsi

Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi. (XX əsr, II hissə, 1945-2000-ci illər). Bakı, 2000.
Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi. Metodik vəsait. Bakı, 2002.
Борьба СССР в ООН за мир, безопасность и содружество. М., 1945-1985.
Движение неприсоединение в современном мире. М., 1985.
Дипломатический словарь. В 3-х т.М., 1984-1986.

Дмитричев Т. Ф. Женевские форумы переговоров по разоружению. 1945-1987. М., 1987.
За мир, разоружение и безопасность народов внешней политики СССР. М., 1983.
История дипломатии. Т.5, кн.1 М., 1974.
История международных отношений и внешней политики СССР. Т. 2. М., 1987.
История международных отношений на Дальнем Востоке. 1945-1977 гг. М., 1978.
Международный ежегодник. Политика и экономика. Выпуск 1961-1970 гг. М., 1962-1971.
СССР в борьбе за безопасность и содружество в Европе 1964-1987. Сборник документов. М., 1988.
Həsənov M. S. Almaniya məsələsinin həlli və Avropa təhlükəsizliyi (1959-1972). Bakı, 1992.

## **XIV** BÖLÜM

### **1970-1980-cı illərdə beynəlxalq münasibətlər**

Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi. ( XX əsr, 11 hissə. 1945-2000-ci illər). Bakı, 2000.
Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi. Metodik vəsait. Bakı, 2002.
Гренвилл Дж. История XX века .М., 1999.
Документы внешней политики СССР. В 21-х тт. М., 1957- 1977.
История дипломатии. Т.5, кн.1. М., 1974.
История США. Т.4. М., 1987.
История международных отношений и внешней политики СССР. Т. 2. М., 1987.
История новейшего времени стран Европы и Америки. 1945-1990. М., 1993.

Кальвокоресс« П. Мировая политика после 1945 года. В 2-х т. М., 2000.
Кортунов А.Б. Дезинтеграция Советского Союза и политика США. М., 1993.
Лебедев А.А. Очерки британской внешней политики (60-80 г.) М., 1988.
Международный ежегодник. Политика и экономика. Выпуск 1961-1970г. М., 1962-1971.
Международные организации. Справочник. М., 1995.
Михеев В.С. США, Франция и европейская безопасность (1958-1992). М., 1993.
Павлов Н.В. Внешняя политика ФРГ; концепция и реалии 80-х годов. ML, 1989.
Разрядка и конфронтация; две тенденции в современных международных отношениях. М., 1987.
Sülh, təhlükəsizlik və əməkdaşlıq naminə. Avropada təhlükəsizlik və əməkdaşlıq məsələlərinə dair Helsinkidə keçirilmiş müşavirənin yekunlarına dair. 30 iyul - 1 avqust 1975-ci il. Bakı, 1975.
Устав Организации Объединенных Нации. М., 1981. Шарипов У.З. Политика и нефть в Персидском заливе 70-х- 80-х годов (западные государство региона). М., 1995.

## XV BÖLÜM

### 90-C1 **illərdə beynəlxalq münasibətlərin ümumi səciyyəsi**

Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi ( XX əsr. 11 hissə. 1945-2000-ci illər). Bakı, 2000.
Abdullayev M.İ. Yaxın Şərq münaqişəsi və Rusiya Federasiyasının siyasəti. Beynəlxalq həyat, №1,2003.
Baxışov M.Ə., Abdullayev M. NATO-nun şərqə doğru genişlənməsi. Beynəlxalq həyat, №2, 1999.
Baxışov M.Ə., Abdullayev M.İ. Kosova münaqişəsi. Beynəlxalq həyat, №1, 2001.

Baxışov M.Ə., Abdullayev M.İ. Körfəz münaqişəsi və onun beynəlxalq münasibətlərə təsiri.Beynəlxalq həyat. №2, 2001.
Baxışov M.Ə., Abdullayev M.İ. Avxopada yeni beynəlxalq sisteminin formalaşması (XX əsrin 90-cı illəri). Beynəlxalq həyat, M?1, 2001.
Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi. Metodik vəsait.Bakı, 2002.
Бжезинский З. Великая шахматная доска. M^Л998.
Ближневосточное урегулирование: проблемы и перспективы М., 1998.
Гренвилл Дж. История XX века .М., 1999.
Dövlət başçılarının Ümumavropa görüşü. Bakı, 1992. История стран центральной и юго восточной Европы XX века. М., 1997.
Кальвокоресси П. Мировая политика после 1945 года. В 2-х т. М., 2000.
Киссинджер Г. Дипломатия. М., 1997
Мировая экономика и международные отношения. 1991- 2003.
Современные международные отношения . М., 2001.
Страны мира. Энциклопедический словарь. М., 2000.

## XVI BOLUM

### 1946 - 1990-C1 illərdə Azərbaycanın beynəlxalq münasibətlərdə iştirakı

Abdullayev M.İ. Azərbaycan - Türkiyə əlaqələri. Bakı, 1998^.
Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi ( XX əsr. 11 hissə. 1945-2000-ci illər). Bakı, 2000.
Baxışov M.Ə. Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələri (70-80-cı illər). NDA. Bakı, 1992.
Qasımov M.C. Azərbaycan Respublikası dünya meridianlarında. Bakı, 1992.

Гурбанов М.Г. Участие Азербаджанской ССР в осуществлении советской программы мира на (1981-1985). Баку, 1986. Hacıyev H. A. Dostluq və əməkdaşlıq telləri. Avtoreferat. Bakı, 1985.
Сайадов С.А. Азербайджан: международные связи и взаимопонимания. Баку, 1991.
Страны ближнего и среднего востока в системе международных отношений (Тематический сборник научных трудов) Баку, 1990.

## XVII BOLUM

### 90-C1 illərdə Azərbaycan Respublikasının beynəlxalq münasibətlərdə iştirakı

Abdullayev M.İ. Azərbaycan - Türkiyə diplomatik siyasi münasibətləri (90-cı illər). Bakı, 2000.
Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi ( XX əsr. II hissə. 1945-2000-ci illər). Bakı, 2000.
Azərbaycan Respublikasının Konstitusiyası (Əsas qanunu). Bakı, 1995.
Azərbaycan beynəlxalq aləmdə. I cild. Bakı, 1996. Azərbaycan beynəlxalq aləmdə. II cild. Bakı, 1997. Azərbaycan beynəlxalq aləmdə. III cild. Bakı, 1998. Azərbaycan beynəlxalq aləmdə. IV cild. Bakı, 1999. Azərbaycan beynəlxalq aləmdə. V cild. Bakı, 2000. Azərbaycan beynəlxalq aləmdə. VI cild. Bakı, 2001. Qasımov M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996.
Qasımov M.C. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, 1997.
Qasımov M.C. Müasir geopolitika. Bakı, 1999.
Д> гин А. Основы геополитики. М., 2000.
Mehdiyev Y. Dəyişən dünya və xarici siyasət. Bakı, 1999.

Mustafayev R.Azərbaycan və yeni dünya.Bakı, 1993.
Nəsibli N. L. Azərbaycanın geopolitikası və neft. Bakı, 2000.
Nəsirov E.X. Azərbaycan - ABŞ münasibətləri (1991-1997) Bakı, 1998.
Həsənov Ə. Azərbaycan - ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991-avqust 1997). Bakı, 1997.
Həsənov Ə. Azərbaycan və ATƏT. Bakı, 1997.
Həsənov Ə. Azərbaycanın xarici siyasəti. Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, 1998.
Həsənov Ə. Azərbaycan və ATƏT. Bakı, 1997.
Rəcəbov H. BMT-nin ixtisaslaşmış qurumları və Azərbaycan. Bakı, 1997.
Rəcəbov H., İbayev V. Avropa Şurası. Bakı, 1999.

**MUNDƏRICAT**


| | |
|---|---|
| **I** bölüm | 1898-1914-cü illərdə beynəlxalq münasibətlər .. 3 |
| **II** bölüm | Birinci dünya müharibəsi illərində beynəlxalq münasibətlər ........................................................ 26 |
| **III** bölüm | 1918-1920 -ci illərdə beynəlxalq münasibətlər... 53 |
| **IV** bölüm | Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq münasibətlər sistemində ..............................................64 |
| **V** bölüm | 1921-1923 -cü illərdə beynəlxalq münasibətlərin səciyyəvi cəhətləri .................................................. 89 |
| **VI** bölüm | Azərbaycan 1920-1922-ci illərdə beynəlxalq münasibətlərdə........................................................108 |
| **II** bölüm | 1924-1929-cu illərdə beynəlxalq münasibətlər. ..166 |
| **VIII** bölüm | 30-cu illərdə beynəlxalq münasibətlərin inkişaf xüsusiyyətləri......................................................... 177 |
| **IX** bölüm | İkinci dünya müharibəsi illərində beynəlxalq münasibətlər .........................................................193 |
| **X** bölüm | 1941-1946-cı illərdə beynəlxalq münasibətlərdə Güney Azərbaycan məsələsi...................................217 |
| **XI** bölüm | Müharibədən som'akı ilk illərdə beynəlxalq münasibətlər. «Soyuq müharibə»nin başlanması... 240 |

| | | |
|---|---|---|
| XII bölüm | 50-ci illərdə beynəlxalq münasibətlərin başlıca inkişaf meylləri.................................................... | 284 |
| XIII bölüm | 60-cı illərdə beynəlxalq münasibətlərin ümumi səciyyəsi ................................................................ | .307 |
| XIV bölüm | 70-80-cı illərdə beynəlxalq münasibətlər ............ | 337 |
| XV bölüm | 90-cı illərdə beynəlxalq münasibətlərin ümumi səciyyəsi .............................................................. | 425 |
| XVI bölüm | 1946-1990-cı illərdə Azərbaycanın beynəlxalq münasibətlərdə iştirakı ............ '........................... | 454 |
| XVII bölüm | 90-cı illərdə Azərbaycan Respublikasının beynəlxalq münasibətlərdə iştirakı....................... | 467 |
| | İstifadə edilmiş mənbə və ədəbiyyat ................. | 520 |

Dərslik nəşri

**Mahir İslam oğlu Abdullayev**

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ**
(XX əsr)
Dərslik

Bakı, Azərbaycan Beynəlxalq Universitetinin
«Beynəlxalq Universitet» nəşriyyat və poliqrafiya
mərkəzi, 2003

Çapa imzalanmışdır 4.01.2003 Fiziki çap vərəqi 34.
Format 60x84 1/16. Tiraj 500. Qiyməti müqavilə ilə

Dərslik Azərbaycan Beynəlxalq Universitetinin Kompüter
mərkəzində yığılıb Və mətbəsində çap edilib. Kompüter
tərtibatçısı və dizayner: Bağırova Rübabə

Ünvan: Bakı- 370116, 7-ci mikrorayon. Xarici dairəvi küçəsi,
179